

*Qələbəmizi bir çox amillər şərtləndirdi.*
*Biz son dörd il yarım ərzində bu barədə*
*dəfələrlə danışmışıq, fikirlərimizi bölüşmüşük.*
*Bütün bunlar cəmiyyətdə birmənalı qəbul edilir:*
*siyasi iradə, iqtisadi güc, müstəqil siyasət,*
*güclü Ordu, vətənpərvərlik və gənc nəsil - milli ruhda*
*tərbiyə olunan, bu torpaqları heç vaxt görməyən gənc nəsil.*

**İLHAM ƏLİYEV**

***Azərbaycan Respublikasının Prezidenti***

10 may 2025-ci il

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:
## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2025**
**2 (90)**

**BAKI – 2025**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Elvin Əzizbəyov, Namiq Əliyev, İsaxan Vəliyev, Azər Əmiraslanov, Hikmət Məmmədov, Gülnarə Qurbanova, Elçin Əhmədov, Nigar Ələkbərova, Xatirə Hüseynova, Firdovsiyyə Əhmədova, Sevil Məmmədova, Leyla Sultanova***

*Elmi-nəzəri jurnal 2003-cü ildən, ildə dörd dəfə olmaqla nəşr edilir.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2025, №2(90).*
*Bakı, Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının nəşri, 2025, 288s.*

*© Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası, 2025*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2025
2 (90)

BAKU – 2025

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Elvin Azizbayov, Namig Aliyev, Isakhan Valiyev, Azer Amiraslanov, Hikmat Mammadov, Gulnara Gurbanova, Elchin Ahmadov, Nigar Alakbarova, Khatira Huseynova, Firdovsiyya Ahmadova, Sevil Mammadova, Leyla Sultanova***

*The scientific-theoretical journal has been published quarterly since 2003.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2025, №2(90)*
*Baku, Publication of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2025, 288p.*

*© The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, 2025*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

## *Aprel - may - iyun 2025-ci il*

## *Aprel*

**1 aprel**

- İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Seneqal Respublikasının Prezidenti Bassiru Diomaye Fayeni təbrik etmişdir.

**2 aprel**

- Rəsmi qarşılanma mərasimindən sonra Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olmuşdur.
- Onun adından Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin şərəfinə verilmiş rəsmi naharda iştirak etmişdir.
- Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə birlikdə mətbuata bəyanatla çıxış etmiş, jurnalistlərin suallarını cavablandırmışdır.
- Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonu qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva, Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer, birinci xanım Elke Büdenbender ilə Heydər Əliyev Mərkəzində təşkil olunmuş məşhur Azərbaycan və alman bəstəkarlarının əsərlərindən ibarət konsert proqramında iştirak etmişdir.

**4 aprel**

- Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgenseni qəbul etmişdir.
- Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul etmişdir.
- Bakıda, “Gülüstan” sarayında keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak və çıxış etmişdir.

**5 aprel**

- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ona zəng edərək, ikitərəfli və çoxtərəfli gündəliyin aktual məsələlərini müzakirə etmiş, yüksəksəviyyəli gələcək görüşlər barədə fikir mübadiləsi aparmışdır.

**8 aprel**

- İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul etmişdir.

**9 aprel**

- ADA Universitetində iştirakı ilə keçirilən “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda iştirakçıların suallarını cavablandırmşdır.

**10 aprel**

- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün Türkiyəyə işgüzar səfərə gəlmişdir.

**11 aprel**

- Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü olmuşdur.
- Antalyada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilmişdir.
- Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumunun açılış mərasimində iştirak etmişdir.
- Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşmüşdür.
- Antalyada Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan ilə görüşü olmuşdur.

**12 aprel**

- Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olmuşdur.
- Türkiyəyə işgüzar səfəri başa çatmışdır.

**14 aprel**

- Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul etmişdir.

- 85 illiyi münasibətilə Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənovu təbrik etmişdir.

**16 aprel**

- Ölkəmizdə rəsmi səfərdə olan Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə təkbətək görüşü keçirilmişdir.
- Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.
- Görkəmli dövlət xadimi, diplomat və ictimai-siyasi xadim, Azərbaycanın böyük dostu Riçard Armitacın vəfatı ilə əlaqədar onun ailəsinə başsağlığı verimişdir.

**17 aprel**

- Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul etmişdir.
- Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonu qəbul etmişdir.

**18 aprel**

- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Bakıda "Sea Breeze" istirahət mərkəzinin ərazisində həyata keçirilən və qarşıdakı dövrdə planlaşdırılan layihələrlə tanış olmuşdur.
- Ailəsinə üz vermiş ağır itki – atası Osman Çavuşoğlunun vəfatı ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin millət vəkili Mövlud Çavuşoğluna başsağlığı verimişdir
- Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını təbrik etmişdir.

**21 aprel**

- Çinin Sinxua agentliyinə məxsusi müsahibə vermişdir.
- Müqəddəs Taxt-Tacın başçısı, zəmanəmizin görkəmli din xadimi Roma Papası Fransisk Həzrətlərinin vəfatı ilə əlaqədar Müqəddəs Roma Kilsəsinin Kamerlenqosu Kardinal Kevin Farrell Həzrətlərinə başsağlığı vermişdir.

**22 aprel**

- Çin Xalq Respublikasına dövlət səfərinə gəlmişdir.

**23 aprel**

- Rəsmi qarşılanma mərasimindən sonra Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olmuşdur.
- Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimində iştirak etmiş, "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzalamışdır.
- Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından Onun və birinci xanım Mehriban Əliyevanın şərəfinə verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.
- Pekində Çin Xalq Respublikasının Dövlət Şurasının Baş naziri Li Çianq ilə görüşmüşdür.
- Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət etmiş, abidənin önünə əklil qoymuşdur.
- Çin Xalq Respublikasının Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüşmüşdür.

**24 aprel**

- Pekində "China Energy Engineering Corporation Limited" ("Energy China") şirkətinin sədri Sonq Hailianq ilə görüşmüşdür.
- Pekində CGTN (China Global Television Network) telekanalına müsahibə vermişdir.
- Çin Xalq Respublikasına dövlət səfəri başa çatmışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Syerra-Leone Respublikasının Prezidenti Culius Maada Bionu təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Azadlıq Günü münasibətilə Cənubi Afrika Respublikasının Prezidenti Matamela Siril Ramafozanı təbrik etmişdir.

**25 aprel**

- Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul etmişdir.
- ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Bakıdakı Müqəddəs Məryəm Ana katolik kilsəsində olmuş, Roma Papası Fransiskin vəfatı ilə əlaqədar başsağlığı vermiş və matəm kitabına ürək sözlərini yazmışdır.

**26 aprel**

- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ona zəng edərək, Azərbaycanla Özbəkistan arasında dostluq, strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin gələcəkdə daha da möhkəmləndirilməsi ilə bağlı məsələləri müzakirə etmişdir.

**27 aprel**

- Bəndər Abbas şəhərindəki Şəhid Rəcai limanında baş vermiş partlayış nəticəsində insan tələfatı və çox sayda yaralılar ilə əlaqədar İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana başsağlığı vermişdir.

**28 aprel**

- Rəsmi qarşılanma mərasimindən sonra İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə məhdud tərkibdə görüşü olmuşdur.
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmiş, prezidentlərin Birgə Bəyanatını imzalamışdır.

- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə birlikdə Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan-İran biznes-forumunda iştirak və çıxış etmişdir.
- Qlobal Cənub QHT Platformasının təsis konfransının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu təbrik etmişdir.

**30 aprel**

- Qusar rayonunda "İsmikhanlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) bağçılıq və soyuducu anbar kompleksi ilə tanış olmuşdur.
- Sumqayıt Kimya Sənaye Parkında olmuş, "Kartaş Kimya" MMC-nin tikinti kimyəvilərinin və "Az-Tex-İmport" MMC-nin "IVECO" markalı yük və xüsusi təyinatlı avtomobil istehsalı zavodlarının açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı – Konstitusiya Günü münasibətilə Polşa Respublikasının Prezidenti Andjey Dudanı təbrik etmişdir.

## *May*

**3 may**

- Birinci xanım Mehriban Əliyeva ilə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşmüşdür.

**5 may**

- XXVIII Avrasiya İqtisadi Zirvə Toplantısının iştirakçılarını təbrik etmişdir.

**6 may**

- Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul etmişdir.
- Vyetnam Sosialist Respublikasının "Vietnam News Agency" agentliyinə müsahibə vermişdir.

**7 may**

- Rəsmi qarşılanma mərasimindən sonra Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə məhdud tərkibdə görüşü olmuşdur.
- Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə geniş tərkibdə görüşü keçirilmişdir.
- Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında imzalanmış sənədlərin mübadiləsi mərasimində iştirak etmişdir.
- Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ı qəbul etmişdir.
- Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Bakıda, "Gülüstan" sarayında birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam və xanımı No Fon Li ilə birlikdə Vyetnam rəsm əsərlərindən ibarət sərgi ilə tanış olmuşdur.
- Bakıda, "Gülüstan" sarayında Onun və birinci xanım Mehriban Əliyevanın adından Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın və xanımı No Fon Linin şərəfinə verilmiş dövlət ziyafətində iştirak etmişdir.

**8 may**

- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ona zəng edərək, ikitərəfli və regional gündəliyə aid məsələlərlə bağlı fikir mübadiləsi aparmışdır.
- Anqola Respublikasının Prezidenti Joao Lorenso ona zəng edərək, Azərbaycan ilə Anqola arasında ikitərəfli əlaqələrin, xüsusilə iqtisadi-ticari və humanitar sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparmışdır.
- Ekvador Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Daniel Noboa Azini təbrik etmişdir.
- Almaniya Federativ Respublikasının Federal Kansleri vəzifəsinə seçilməsi münasibətilə Federal Kansler Fridrix Mertsi təbrik etmişdir.

**9 may**

- Sosial media hesablarında 9 May – faşizm üzərində Qələbə Günü ilə bağlı paylaşım etmişdir.
- Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü günündə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Fəxri xiyabana gələrək Ulu Öndərin məzarını ziyarət etmişdir.
- Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoymuş, Ulu Öndərin xatirəsini ehtiramla anmışdır.
- Sonra Birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə yad etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli

oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoymuşdur.

- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələrini yad etmişdir.
- Faşizm üzərində tarixi Qələbənin 80 illiyi münasibətilə Birinci xanım Mehriban Əliyeva ilə birlikdə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoymuş, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anmışdır.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməl-qoyma mərasimində iştirak etmişdir.
- "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimində iştirak etmişdir.
- Roma Papası seçilməsi münasibətilə Roma Papası XIV Leo Həzrətlərini təbrik etmişdir.

**10 may**

- Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin doğum günü münasibətilə paylaşım etmişdir.
- Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak etmişdir.
- Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak etmişdir.
- Ağdamın Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanış olmuşdur.
- Ağdam rayonunun Kəngərli kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olmuşdur.
- Ağdam rayonunun Kəngərli kənd tam orta məktəbinin binasının açılışında iştirak etmişdir.
- Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.
- Ağdam rayonunun Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olmuşdur.
- Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşmüş, onlara evlərin açarlarını təqdim etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə Ağdam Muğam Mərkəzinin açılışında iştirak və çıxış etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə Ağdam Muğam Mərkəzinin açılışına həsr olunan konsert proqramına baxmışdır.
- Konsertdən sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə incəsənət ustaları və müharibə veteranları ilə söhbət etmişdir.

**12 may**

- X sosial şəbəkə hesabında paylaşım edərək PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Paraqvay Respublikasının Prezidenti Santyaqo Penyanı təbrik etmişdir.

**13 may**

- Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul etmişdir.
- Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmişi qəbul etmişdir.
- Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - "InterFood Azerbaijan" və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - "Caspian Agro" sərgiləri ilə tanış olmuşdur.
- Prezident İlham Əliyev sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlarla tanış olmuşdur.

**15 may**

- Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ona zəng edərək, Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat vermiş, baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə etmiş, bunun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin nümunəsi olduğunu bildirmişdir.
- Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gəlmişdir.
- Ölkəsində keçirilmiş parlament seçkilərində başçılıq etdiyi Albaniya Sosialist Partiyasının qələbəsi münasibətilə Albaniya Respublikasının Baş naziri Edi Ramanı təbrik etmişdir.

**16 may**

- Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olmuşdur.
- Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimində iştirak etmişdir.
- Tiranada keçirilən "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış plenar sessiyasında iştirak etmişdir.

- Tiranada Albaniya Respublikasının Baş naziri Edi Rama ilə işçi nahar əsnasında görüşü olmuşdur.
- Albaniya Respublikasına işgüzar səfəri başa çatmışdır.
- “Bakı Ürək Günləri” IX Beynəlxalq Konqresinin iştirakçılarını təbrik etmişdir.

**17 may**

- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevə zəng edərək ad günü münasibətilə təbriklərini çatdırmış, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində uğurlar arzulamışdır.

**19 may**

- “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**20 may**

- Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə Macarıstana işgüzar səfərə gəlmişdir.
- Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olmuşdur.
- Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olmuşdur.
- Macarıstanın Baş naziri Viktor Orban ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin Korrupsiyaya qarşı Mübarizə üzrə Hüquq-Mühafizə Orqanlarının Qlobal Əməliyyat Şəbəkəsinin (GLOBE Şəbəkəsi) 6-cı Plenar iclasının iştirakçılarını təbrik etmişdir.

**21 may**

- Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak və çıxış etmiş, Bəyannamə imzalamışdır.
- Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimində iştirak etmişdir.
- Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə verilmiş rəsmi lançda iştirak etmişdir.
- Macarıstana işgüzar səfəri başa çatmışdır.

**22 may**

- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyni təbrik etmişdir.

**23 may**

- Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul etmişdir.
- 26 May – Müstəqillik Günü münasibətilə Gürcüstanın Prezidenti Zati-aliləri cənab Mixeil Kavelaşvilini təbrik etmişdir.

**25 may**

- Ukraynanın xarici işlər naziri Andrey Sibiqanı qəbul etmişdir.
- Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeqi qəbul etmişdir.

**26 may**

- Ümummilli Lider Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmişdir.
- Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsində görülən işlərlə tanış olmuşdur.
- Heydər Əliyev Fondunun təşəbbüsü ilə İsmayıllı şəhərində inşa olunan internat tipli “Talıstan” liseyinin binasının açılışında iştirak etmişdir.
- “Azerbaijan Coca-Cola Bottlers” MMC-nin İsmayıllıda yeni istehsal müəssisəsinin açılışında iştirak etmişdir.
- “İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**27 may**

- “LATIFA” Laçın tikiş fabrikinin açılışında iştirak etmişdir.
- “PIRSHAGHI” ayaqqabı fabrikinin Laçın filialının açılışında iştirak etmişdir.
- Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- Laçın kanat yolunun təməlini qoymuşdur.
- Laçın rayonunun Bəylik kəndinin açılışında iştirak etmişdir.
- Laçın rayonunun Bəylik kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olmuşdur.
- Sonra Bəylik kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olmuşdur.
- Daha sonra Laçın rayonunun Bəylik kəndinə köçən sakinlərlə görüşmüş, onlara evlərin açarlarını təqdim etmişdir.
- Laçında “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) “Aşağı Malıbəy” və “Mirik” su elektrik stansiyalarının (SES) açılışında iştirak etmişdir.
- Laçın şəhərində sakinlərlə görüşmüş və onlarla söhbət etmişdir.
- Laçın rayonunun Zerti kəndində “Laçın” İstirahət Kompleksinin açılışında iştirak etmişdir.
- Laçında Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə məhdud tərkibdə görüşü keçirilmişdir.
- Laçında Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə nahar əsnasında geniş tərkibdə görüşü olmuşdur.
- Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviçi təbrik etmişdir.

**28 may**

- Sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Laçın Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə hava limanında yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi olan "Dost Aqropark"da istehsal edilən məhsullara baxmışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Kəlbəcər-Laçın avtomobil yolunda görülən tikinti işləri ilə tanış olmuşdur.
- Laçında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Laçında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə keçirilən Zirvə görüşündə iştirak və çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birlikdə Laçın şəhərində seyrəngahda olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə birlikdə Laçında keçirilən 28 May - Müstəqillik Gününə həsr olunmuş konsertdə iştirak və çıxış etmişdir.
- Azərbaycana səfəri başa çatan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı Füzuli Beynəlxalq Hava Limanında yola salmışdır.

**29 may**

- ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsi qəbul etmişdir.
- "International Holding Company"nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebin rəhbərlik etdiyi Birləşmiş Ərəb Əmirliklərindən olan iş adamlarından ibarət nümayəndə heyətini qəbul etmişdir.

**30 may**

- Alman İqtisadiyyatının Şərq Komitəsinin sədri Mixael Harmsı qəbul etmişdir.
- Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edərək, Azərbaycanla Birləşmiş Ərəb Əmirliklərinin beynəlxalq təşkilatlar çərçivəsində yaxından əməkdaşlıq etdiklərini və bir-birini daim dəstəklədiklərini məmnunluqla vurğulamış, əlaqələrimizin perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparmışdır.
- 2 İyun – Respublika Günü münasibətilə İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanı təbrik etmişdir.

**31 may**

- 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım etmişdir.

## *İyun*

**2 iyun**

- Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul etmişdir.
- Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədri Məhəmməd Əbunəyyanı qəbul etmişdir.
- Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliki qəbul etmişdir.
- ABŞ-ın "Schlumberger Overseas S.A" (SLB) şirkətinin baş icraçı direktoru Olivye Le Peşi qəbul etmişdir.
- "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardilli qəbul etmişdir.
- Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul etmişdir.
- Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi "Caspian Power" və 30-cu Yubiley "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak və çıxış etmişdir.
- "Bakı Enerji Həftəsi"nin iştirakçılarını təbrik etmişdir.

**5 iyun**

- Qurban bayramı münasibətilə Azərbaycan xalqını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Portuqaliya Respublikasının Prezidenti Marselu Rebelu de Souzanı təbrik etmişdir.

**6 iyun**

- Qurban bayramı münasibətilə sosial şəbəkədə paylaşım etmişdir.

**10 iyun**

- Bakıda Dövlət Gömrük Komitəsinin yeni inzibati binasının açılışında iştirak etmişdir.
- Sonra gömrük orqanları tərəfindən ayrı-ayrı vaxtlarda müsadirə olunmuş tarixi-mədəni əşyalardan ibarət muzeyə baxmışdır.

- Polşa Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə Prezident Karol Navrotskini təbrik etmişdir.
- Dövlət bayramı – Rusiya Günü münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putini təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Filippin Respublikasının Prezidenti Ferdinand Romualdez Markosu təbrik etmişdir.

**12 iyun**
- Bakıda "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodunun açılışında iştirak etmişdir.
- Türk Dövlətləri Təşkilatının ailə məsələləri və sosial siyasət sahəsinə məsul nazirlərinin və qurum rəhbərlərinin "Müasir cəmiyyətdə qadının rolu: dayanıqlı inkişaf və ənənəvi dəyərlər" mövzusunda ikinci iclasının iştirakçılarını təbrik etmişdir.
- Ölkəsinin milli bayramı – Təvəllüd Günü münasibətilə Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlzı təbrik etmişdir.

**13 iyun**
- "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**14 iyun**
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona zəng edərək, İran İslam Respublikası və İsrail Dövləti arasında yaranmış gərgin vəziyyəti müzakirə etmişdir.

**15 iyun**
- 15 İyun – Milli Qurtuluş Günü münasibətilə X hesabında paylaşım etmişdir.
- Koreya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanqın etimadnaməsini qəbul etmişdir.

**17 iyun**
- Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşini qəbul etmişdir.
- "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarını təbrik etmişdir.

**18 iyun**
- Bolqarıstan Respublikası Milli Assambleyasının sədri Nataliya Kiselovanı qəbul etmişdir.
- Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyinə həsr olunmuş "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" mövzusunda beynəlxalq konfransın iştirakçılarını təbrik etmişdir.

**19 iyun**
- bp şirkətinin baş icraçı direktoru Mürrey Aukinklossu qəbul etmişdir.
- Türkiyəyə işgüzar səfərə gəlmişdir.
- Kahramanmaraş Beynəlxalq Hava Limanında onu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşılamışdır.
- Kahramanmaraşda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimində iştirak və çıxış etmişdir.
- Daha sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə "Azərbaycan" məhəlləsində inşa olunacaq mədəniyyət mərkəzinin onlayn formatda təməlini qoymuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə "Azərbaycan" məhəlləsinin açılışını bildirən rəmzi lenti kəsmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə "Azərbaycan" məhəlləsini gəzmişdir, burada inşa edilmiş mənzillərə baxmışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsində inşa edilmiş Heydər Əliyev adına ibtidai məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə məktəbin 4-cü sinfini bitirən şagirdlərə qiymət cədvəllərini təqdim etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə şagirdlərə, həmçinin məktəbli çantaları hədiyyə etmişdir.
- Türkiyəyə işgüzar səfəri başa çatmış, Kahramanmaraş Beynəlxalq Hava Limanında onu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yola salmışdır.

**20 iyun**
- Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul etmişdir.

**23 iyun**
- Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olmuşdur.
- Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanış olmuşdur.
- Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak etmişdir.
- "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Yevlax" qovşaq yarımstansiyasının,

Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışında iştirak etmişdir.
- Yevlaxda "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- Yevlax pilot aqroparkının açılışında iştirak etmişdir.
- Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Ölkəsinin milli bayramı – Dövlətçilik Günü münasibətilə Sloveniya Respublikasının Prezidenti Nataşa Pirts Musarı təbrik etmişdir.

**24 iyun**
- Mingəçevirdə İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Mingəçevirdə Çinin "Dongfang Electric International Corporation" şirkətinin İdarə Heyətinin sədri Çen Qianqı qəbul etmişdir.
- Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının ərazisində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmişdir.
- Sonra "8 Noyabr" Elektrik Stansiyasının açılış mərasimində iştirak və çıxış etmişdir.
- Daha sonra İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso ilə stansiyanın açılışını etmişdir.
- Vətən müharibəsi zamanı Ermənistan tərəfindən bu stansiyaya atılan raketin düşdüyü əraziyə baxmışdır.
- Sonra açılışda iştirak edən qonaqlar ilə stansiyanın ərazisini gəzmişdir.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Cibuti Respublikasının Prezidenti İsmail Ömər Gellehi təbrik etmişdir.

**26 iyun**
- Sosial media hesablarında 26 İyun – Silahlı Qüvvələr Günü ilə bağlı paylaşım etmişdir.
- İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian ilə telefon söhbəti olmuş, İran-İsrail qarşıdurmasının dayandırılması, atəşkəsin əldə olunması ilə bağlı Məsud Pezeşkiana təbriklərini çatdırmış, bölgədə sülhün və əmin-amanlığın vacib şərt olduğunu bir daha qeyd etmişdir.

**27 iyun**
- Polşa Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pavel Radomskinin etimadnaməsini qəbul etmişdir.
- Sudan Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafanın etimadnaməsini qəbul etmişdir.
- İran İslam Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul etmişdir.

**30 iyun**
- Ölkəsinin milli bayramı münasibətilə Ruanda Respublikasının Prezidenti Pol Kaqameni təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Somali Federativ Respublikasının Prezidenti Həsən Şeyx Mahmudu təbrik etmişdir.
- Belarus dövlət bayramı – Müstəqillik Günü münasibətilə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonu təbrik etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

### *İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul edib.

Qəbula görə minnətdarlığını bildirən Mehdi Sənayi İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Ölkəmizə daha əvvəllər də səfər etdiyini xatırlayan qonaq Azərbaycanın davamlı inkişafının şahidi olduğunu dedi.

Mehdi Sənayi İranın qonşu dövlətlərlə, xüsusilə tarixi, dini, mədəni bağlılığı olan Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğuladı, hazırda ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluğunu bildirdi.

Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın və İranın ortaq dəyərləri bölüşdüyünü qeyd edərək, son dövrlərdə ikitərəfli qarşılıqlı səfərlərin dinamikasını müsbət qiymətləndirdi.

Prezident İlham Əliyev Mehdi Sənayinin Azərbaycana səfərinin ikitərəfli gündəliklə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlığını ifadə etdi.

Görüşdə ölkələrimiz arasında nəqliyyat, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair müzakirələr aparıldı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu.

Söhbət zamanı Ağbənd istiqamətində Araz çayı üzərində körpünün tikintisi prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.

### *Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonu qəbul edib.

Dövlətimizin başçısı Lü Tzyançaonun səfərinin ölkələrimiz arasında dostluq münasibətlərinin gələcəkdə də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin yaxşı inkişaf dinamikasının olduğunu və bir çox sahələri əhatə etdiyini dedi. Dövlətimizin başçısı vurğuladı ki, ötən il Si Cinpinlə görüşünün nəticələrinə əsasən qəbul edilən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" dostluq, tərəfdaşlıq və əməkdaşlığımızın nümayişi olmaqla, qarşılıqlı fəaliyyətimizin səviyyəsini yüksəldib.

Azərbaycan Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi, siyasi, iqtisadi, nəqliyyat sahələrində əməkdaşlığın regionda təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

Lü Tzyançao dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu deyərək, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Ölkəmizə ilk dəfə gəldiyini deyən qonaq Bakıda şahidi olduğu inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, nəqliyyat, Orta Dəhliz və "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparıldı.

### *Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgensenin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgenseni qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Avropa Komissiyası arasında qarşılıqlı etimada əsaslanan əməkdaşlığın uzun və uğurlu tarixinin olduğunu dedi, bunun xüsusilə hazırkı dövrdə enerji məsələlərinin mühüm amilə çevrilməsində rolunu vurğuladı. Dövlətimizin başçısı enerji sahəsində Avropa bazarının bizim üçün əsas bazar olduğunu qeyd edərək, Azərbaycanın bu bazarda ixrac coğrafiyasını genişləndirmək istədiyini bildirdi.

Dan Yorgensen ilk növbədə Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Ursula Fon der Lyayenə çatdırmağı xahiş etdi.

Qonaq xüsusilə bu mürəkkəb zamanda Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəyə görə minnətdarlığını bildirərək vurğuladı ki, ölkəmizlə əməkdaşlığa çox böyük önəm verirlər və bunu gələcəkdə də inkişaf etdirmək istəyirlər.

Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı COP29-un ölkəmizdə uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı həm təbii qaz, həm də yaşıl enerji sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu. Bildirildi ki, Avropa İttifaqı öz imkanları çərçivəsində bu istiqamətlər üzrə əməkdaşlığa dəstək verməyi düşünür.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında enerji dialoqunun uğurla aparıldığı vurğulandı, bunun gələcəkdə də davam edəcəyinə ümidvarlıq bildirildi.

### *Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Alparslan Bayraktarın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında iştirak edən Türkiyə Respublikasının enerji və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında enerji sahəsində əlaqələrin genişləndirilməsi, o cümlədən hidrokarbonatlar və elektrik enerjisi sahələrində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, bunun gələcəkdə daha da inkişaf etdirilməsi üçün böyük imkanların olduğu qeyd edildi. SOCAR ilə Türk Petrolları və BOTAŞ arasında əməkdaşlıq müsbət qiymətləndirildi, bu birgə fəaliyyətin gələcəkdə Azərbaycan, Türkiyə və digər ölkələrdə həyata keçirilməsi məsələsi müzakirə olundu. Elektrik enerjisinin ixracı məsələsinə toxunuldu bu xüsusda SOCAR-ın artıq Türkiyəyə satışlar həyata keçirdiyi vurğulandı.

Bu gün “AzərEnerji” ASC ilə Türkiyənin Elektrik Ötürülməsi Anonim Şirkəti (TEİAŞ) arasında Naxçıvandan 75 meqavat həcmində elektrik enerjisinin ixracı ilə bağlı imzalanacaq sənədin əhəmiyyəti qeyd edildi, Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında yaşıl enerji sahəsində əməkdaşlığın genişləndirilməsi ilə bağlı memorandumun imzalanacağı bildirildi.

### *İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edib.

Prezident İlham Əliyev son dövrlərdə Azərbaycanın və İranın yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşımasını məmnunluqla qeyd edərək, bunun ölkələrimiz arasında dostluğun möhkəmləndirilməsinə və ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə yaxşı imkan yaratdığını dedi.

Dövlətimizin başçısı Fərzanə Sadiqin ölkəmizə səfəri çərçivəsində Azərbaycan-İran İqtisadi Əməkdaşlıq

üzrə Hökumətlərarası Birgə Komissiyasının iclasının keçirilməsini müsbət qiymətləndirdi və Komissiyanın gündəliyində iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün vacib layihələrin olduğunu qeyd etdi.

Qonaq ilk növbədə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

İranın ölkəmizlə münasibətləri bütün sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu deyən Fərzanə Sadiq xalqlarımızın tarixi, mədəni, dini və qohumluq əlaqələrinin olduğunu bir daha vurğuladı.

Qonaq qeyd etdi ki, İran Prezidentinin ölkəmizə planlaşdırılan səfəri öncəsi Hökumətlərarası Birgə Komissiyanın iclasının keçirilməsi gündəlikdə duran vacib məsələlərin müzakirəsi baxımından olduqca əhəmiyyətlidir.

Görüşdə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində Ağbənd və Kələlə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi layihəsi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

### *Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul edib.

Görüşdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə əmək, məşğulluq, habelə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər və əldə olunan uğurlar qeyd edildi.

Prezident İlham Əliyev torpaqlarımızın işğal altında olduğu dövrdə bütün infrastrukturun tamamilə məhv edildiyini xatırladaraq vurğuladı ki, işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa və quruculuq işləri ilə yanaşı, həmin ərazilərə qayıdan insanların işlə təmin edilməsi ən vacib məsələlərdən biridir. Dövlətimizin başçısı bununla bağlı Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlığın əhəmiyyətini vurğuladı.

Qəbula görə minnətdarlığını bildirən qonaq Azərbaycan ilə rəhbərlik etdiyi təşkilat arasında layiqli əmək üzrə 2 proqramın uğurla icra olunduğunu xatırladaraq, hazırda "2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı"nın layihəsi üzərində işlərin davam etdirildiyini dedi.

Jilber Hunqbo Azərbaycanın DOST konsepsiyası modelinin öyrənilməsinin əhəmiyyətinə toxundu, sosial sahədə həyata keçirilən islahatlarla bağlı təcrübənin bölüşdürülməsinin vacibliyini vurğuladı.

O, COP29 çərçivəsində ədalətli keçid üzrə səmərəli müzakirələrin aparıldığını dedi və bunun nəticəsi olaraq Avropa və Mərkəzi Asiya üzrə Regional İşçi Qrupunun yaradılmasını xüsusilə qeyd etdi.

Jilber Hunqbo Beynəlxalq Əmək Təşkilatının sosial məsələlərlə bağlı ölkəmizin inkişaf prioritetlərinə dəstək verəcəyini bildirdi.

### *Çin Xalq Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Çin Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Lu Meyin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan-Çin əlaqələrinin strateji tərəfdaşlıq xarakteri daşıdığını deyən dövlətimizin başçısı ötən il Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşünü və onunla birlikdə ölkələrimizin strateji tərəfdaşlığına dair birgə bəyanatın qəbul edilməsini məmnunluqla xatırladı.

Prezident İlham Əliyev Azərbaycanla Çin arasında əməkdaşlığın geniş sahələri – siyasi, iqtisadi-ticari, nəqliyyat, enerji, sənaye, sərmayələr, təhlükəsizlik, mədəni-humanitar və digər sahələri əhatə etdiyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlığına toxunaraq, qarşılıqlı dəstəyi qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın "Vahid Çin" siyasətini daim dəstəklədiyini vurğuladı.

"Bir kəmər, bir yol" layihəsinin geniş coğrafiyada ölkələri bir araya gətirərək, əməkdaşlığı təşviq edən layihə olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın Çinin bu təşəbbüsünə dəstək verən ilk ölkələrdən biri olduğunu qeyd etdi.

Azərbaycanda bütün zəruri infrastruktur layihələrinin yaradıldığını və bir neçəsinin də icra mərhələsində olduğunu vurğulayan Prezident İlham Əliyev Orta Dəhlizin inkişafı baxımından ölkələrimiz arasında əməkdaşlıq üçün geniş imkanların mövcudluğunu bildirdi.

Səfir Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.

Lu Mey Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın uğurla inkişafının Çin tərəfindən də dəstəkləndiyini dedi. O, ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini vurğuladı. Səfir ölkələrimiz arasında münasibətlərin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığını qeyd edərək, əlaqələrimizin bundan sonra da inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Çin-Azərbaycan münasibətlərinin inkişafında ulu öndər Heydər Əliyevin roluna toxunan Lu Mey Ümummilli Liderin zəngin irsinin əsasında ölkəmizin bu gün uğurla inkişaf etdiyini vurğuladı.

### *Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Sloveniya Respublikasının Baş nazirinin müavini, xarici işlər və Avropa məsələləri naziri Tanya Fayonu qəbul edib.

Görüşdə ölkələrimiz arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə olundu, bu yaxınlarda xarici işlər nazirləri səviyyəsində aparılan siyasi məsləhətləşmələr qeyd edildi.

Dövlətimizin başçısı Azərbaycanın Balkan ölkələri ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi.

Görüşdə ölkəmizin enerji sahəsində Balkan regionu, o cümlədən Sloveniya ilə əməkdaşlığının inkişafına toxunuldu və bu sahədə perspektivlərə dair fikir mübadiləsi aparıldı. İqtisadi-ticari münasibətlərimizin genişləndirilməsi üçün iki ölkənin biznes dairələri arasında əlaqələrin inkişafının vacibliyi vurğulandı.

Söhbət zamanı Orta Dəhlizin əhəmiyyəti qeyd edildi. Bu dəhlizin Avropa ilə Çin arasında iqtisadi-ticari əlaqələrin inkişafında mühüm nəqliyyat arteriyalarından biri olduğu bildirildi və bunun Sloveniya şirkətləri üçün də əlverişli imkanlar yaratdığı vurğulandı. Bu xüsusda, Azərbaycanın və Sloveniyanın limanları arasında əməkdaşlıq məsələləri müzakirə olundu.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

### *Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib.

Kaya Kallas Avropa İttifaqının Azərbaycanla əlaqələri yüksək dəyərləndirdiyini və bu münasibətləri daha da inkişaf etdirməkdə maraqlı olduğunu qeyd etdi.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində çox uğurlu və səmərəli əməkdaşlığın olduğunu vurğulayan qonaq ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş rolunda çıxış etdiyini dedi.

O, nəqliyyat bağlantıları mövzusuna toxunaraq, bu xüsusda da çox mühüm regional bir dövlət olan və vacib geosiyasi məkanda yerləşən Azərbaycanın rolunun əhəmiyyətini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu dedi, Cənub Qaz Dəhlizinin 4 ildir fəaliyyət göstərərək Avropanın qaz təchizatında oynadığı əhəmiyyətli rola toxundu.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan artıq Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan qaz təchizatının coğrafi əhatəsinə görə Avropa məkanını qazla təmin edən ilk ölkələrdən biridir.

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Azərbaycanla Avropa İttifaqı arasında uğurlu və səmərəli dialoqun mövcud olduğunu deyən dövlətimizin başçısı bərpaolunan enerji sahəsində də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Prezident İlham Əliyev bu xüsusda qeyd etdi ki, ölkəmiz Xəzərin Azərbaycan sektorunda zəngin külək enerji resurslarına malikdir. Dövlətimizin başçısı vurğuladı ki, eyni zamanda, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə bərpaolunan Trans-Xəzər enerji dəhlizinin inkişaf etdirilməsində və Qara dəniz istiqamətində Gürcüstan, Rumıniya, Macarıstan, son dövrlərdə isə Bolqarıstanın da qoşulduğu layihələrin reallaşdırılmasında mühüm rol oynayır.

Azərbaycan Prezidenti bildirdi ki, ölkəmizlə Avropa İttifaqı arasında qazla yanaşı, nəqliyyat sahəsində də əməkdaşlıq üçün geniş imkanlar var.

Söhbət zamanı, həmçinin Cənubi Qafqaz regionunda davamlı sabitliyin təmin olunmasına dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması istiqamətində ikitərəfli əsasda addımların atıldığını və müzakirələrin aparıldığını qeyd etdi.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

***ATƏT-in Baş katibi Feridun Sinirlioğlunun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də ATƏT-in Baş katibi Feridun Sinirlioğlunu qəbul edib.

Dövlətimizin başçısı Feridun Sinirlioğlunu ATƏT-in Baş katibi vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi.

Feridun Sinirlioğlu təbrikə görə təşəkkürünü bildirdi. Qonaq Cənubi Qafqaz bölgəsinin ATƏT-in gündəliyində duran mühüm regionlardan biri olduğunu vurğuladı.

ATƏT-in Baş katibi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətninin razılaşdırılması ilə bağlı əldə olunmuş nəticələrə görə təbriklərini çatdıraraq, iki ölkənin münasibətlərinin normallaşdırılması istiqamətində müzakirələrin aparıldığını qeyd etdi.

Qonaq ATƏT-in Azərbaycanla həyata keçirdiyi əməkdaşlıq layihələrinə toxundu.

Dövlətimizin başçısı keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həllində tam iflasa uğramış ATƏT-in Minsk qrupunun və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtının artıq çoxdan çatdığını deyərək, Ermənistan tərəfindən də bu xüsusda addımların atılmalı olduğunu bir daha qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini hərbi və siyasi yollarla tam təmin etdiyini, bununla da ölkəmiz tərəfindən Helsinki Yekun Aktının, beynəlxalq hüququn norma və prinsiplərinin Cənubi Qafqazda təsbit edilməsinin təmin olunduğunu dedi.

Görüşdə Azərbaycan ilə ATƏT arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

***Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 3-də Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüblər.

Dövlətimizin başçısı və birinci xanım qonağı qarşıladılar.

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilli salamlayan Prezident İlham Əliyev dedi:

-Zati-aliləri, xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Dəvətimi qəbul etdiyinizə və Azərbaycana səfərə gəldiyinizə görə sağ olun. Siz Azərbaycanda birinci dəfə deyilsiniz. Mehribanla bizim Sizinlə əvvəlki görüşlərimizlə bağlı çox yaxşı xatirələrimiz var. Zaman sürətlə keçir. Sizin ötən səfərinizdən artıq altı il keçib və əlbəttə, bu vaxt ərzində həm dünyada, həm ölkəmizdə, həm də regionda öyrəşdiyimiz stereotipləri tamamilə dəyişən hadisələr baş verib.

Xalqlarımız arasında münasibətlərə gəldikdə, məhz bu məsələdə hər şey sabitdir. Biz ənənəvi olaraq bir-birimizə böyük rəğbət, hörmət, qarşılıqlı dəstək göstəririk və şadam ki, xalqlarımız arasında möhkəm əlaqələr dövlətlərarası münasibətlərin bu cür bünövrəsini təşkil edir. Əlbəttə, Azərbaycanın pravoslav icması dövlətlərarası münasibətlərin mühüm amilidir. Əminəm ki, bizim hamımız kimi, onlar da Sizin gəlişinizə çox sevinəcəklər. Sizinlə bu məsələ ətrafında fikir mübadiləsi apardığımız kimi, Azərbaycanda konfessiyalararası və millətlərarası sülh və anlaşma, qarşılıqlı dəstək hökm sürür. Bu, ölkələrimizin dayanıqlı inkişafının mühüm amilidir. Çünki əks halda, heç bir inkişafdan söhbət gedə bilməz. Çox şadıq ki, rus icmasının nümayəndələri olaraq pravoslav icması ölkəmizin inkişafında, onun suverenliyinin və ərazi bütövlüyünün təmin olunmasında fəal iştirak edir, bütövlükdə Azərbaycanda yaşayan çoxsaylı xalqların bütün digər nümayəndələri ilə birlikdə ölkəmizin ümumi inkişafına böyük töhfə verir.

Sizinlə görüşmək, ünsiyyətdə olmaq bizim üçün həmişə xoşdur. Sizi Azərbaycanda səmimi-qəlbdən bir daha salamlayıram. Azərbaycan Sizin üçün yad ölkə deyil. Biz Sizin uzun illər ərzində Azərbaycan xalqının böyük dostu olduğunuzu bilirik. Siz həmişə sözdə və əməldə bizə hörmət göstərmisiniz və əminəm ki, bu müsbət dinamika gələcəkdə də qorunub saxlanılacaq.

Bir daha xoş gəlmisiniz!

* * *

Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill dedi:

-Zati-aliləri möhtərəm cənab Prezident İlham Əliyev.

Möhtərəm Mehriban xanım.

Qarşınızda yəqin ki, öz İlahi missiyası ilə əlaqədar bütün dünya ölkələrinə səfər etmək imkanına malik olan insan əyləşib. Bu, müəyyən mənada xüsusi təcrübədir, həm də, sadəcə, müəyyən zaman ərzində deyil, tarix

boyu səfər etmişəm. Yəni, məsələn, deyək ki, son 40 ildən artıq müddətdə Afrika, Asiya, Latın Amerikası, Avropa ölkələrindəki vəziyyəti müqayisə edə bilərəm. Ona görə də deyə bilərəm ki, insanlarla, dövlət xadimləri ilə ünsiyyətlə bağlı belə böyük təcrübə məndə müəyyən fikirlər, həyata, siyasətə baxış formalaşdırdı. Niyə gizlədim ki, hansısa ölkəyə gələndə, hətta dialoqa girəndə, dövlət başçıları ilə ünsiyyətdə olanda belə, özünü heç də həmişə rahat hiss etmirsən. Çünki elə məsələlər var ki, bəlkə də danışmaq və xatırlamaq da istəmirsiniz. O ki qaldı, Sizin mübarək ölkənizə, sanki buraya həmişə qanadlanıb uçursan.

Prezident İlham Əliyev: Sağ olun.

Patriarx Kirill: Əvvələ, zənnimcə, bu, Sizin şəxsiyyətinizlə və təbii ki, icazənizlə deyərdim – Sizin gözəl həyat yoldaşınızın şəxsiyyəti ilə bağlıdır. Bu, bir növ insani səmimiyyət, həqiqi dostluq hissidir. Bax bu, necə dəyərlər, qəlbi hərarətləndirir və hər zaman aramızda olan belə düzgün, etibarlı, dürüst dialoqa sövq edir.

Əgər Rusiya-Azərbaycan münasibətlərindən danışırıqsa, mənə elə gəlir ki, indi hər şey çox yaxşı inkişaf edir. Tanrı qismət eləsin ki, bu, belə də davam etsin. Moskvadan yola düşərkən Vladimir Vladimiroviçlə görüşmək imkanım oldu. O da Sizin haqqınızda çox səmimi şəkildə yaxşı, düzgün sözlər dedi. Məndən xahiş etdi ki, 80 illik yubileyə dəvəti çatdırım və Siz bu mühüm tarixi qeyd etmək üçün Moskvaya səfər edə biləsiniz. Bizim Prezidentimiz də siyasi jest naminə öz əqidəsini dəyişməyə meyilli deyil. O, ya susacaq, ya da düşündüyünü açıq şəkildə deyəcək.

Vladimir Vladimiroviçlə ünsiyyət təcrübəsi olan biri kimi deməliyəm ki, onun sözlərində belə səmimi rəğbət və belə açıqlıq hiss etdim, buna şahidlik edə bilərəm. Ona görə də ümid edirik ki, Siz bu əlamətdar tarixlə - dəhşətli düşmən üzərində Qələbənin 80 illiyi ilə əlaqədar Moskvaya səfər edə biləcəksiniz.

Sonra Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Rus Pravoslav kilsəsinin I dərəcəli "Müqəddəs Knyaginya Olqa" ordenini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təqdim etdi.

Qeyd edək ki, Azərbaycanın birinci xanımı bu ordenə cəmiyyətdə ənənəvi dəyərlərin qorunub saxlanmasına, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına verdiyi töhfələrə görə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin fərmanına əsasən layiq görülüb.

Birinci xanım Mehriban Əliyeva göstərilən diqqətə görə minnətdarlığını bildirdi.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.

### *Belarus Respublikasının Baş naziri Aleksandr Turçin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da Belarus Respublikasının Baş naziri Aleksandr Turçini qəbul edib.

Dövlətimizin başçısı Azərbaycanla Belarus arasında əlaqələrin möhkəm dostluğa və qarşılıqlı etimada əsaslandığını qeyd edərək, Aleksandr Turçinin Baş nazir vəzifəsinə təyin olunmasından sonra ilk səfərlərindən birini Azərbaycana etməsinin məhz ölkələrimiz arasında olan sıx tərəfdaşlıq münasibətlərinin mahiyyətindən xəbər verdiyini dedi.

Prezident İlham Əliyev Azərbaycanla Belarus arasında mövcud siyasi əlaqələrin ruhuna uyğun olaraq iqtisadi-ticari münasibətlərin daha da inkişaf etdirilməsinin vacibliyini vurğuladı.

Aleksandr Turçin, ilk növbədə, Belarus Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

İlk dəfə Bakıya səfər etdiyini deyən Belarusun Baş naziri paytaxtımızda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə Azərbaycanla Belarus arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı. Bu xüsusda Gəncə avtomobil zavodunda Belarus avtomobil texnikasının istehsalı və bu texnika üçün Azərbaycanın müxtəlif bölgələrində servis mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulandı. Azərbaycanda lift, məişət texnikası, kənd təsərrüfatı, xüsusilə heyvandarlıq, südçülük, ətçilik və quşçuluq üzrə birgə istehsal sahələrinin təşkili və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müzakirələr aparıldı. Hökumətlərarası komissiyaya qeyd olunan istiqamətlər üzrə müvafiq tapşırıqlar verildi.

Söhbət zamanı dost ölkə Belarusun şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq işlərində iştirakı məmnunluqla qeyd edildi. Belarusun Baş naziri ölkəmizə səfəri çərçivəsində azad edilmiş ərazilərə gedəcəyini və vəziyyətlə yerində tanış olacağını bildirdi.

Görüşdə ölkələrimiz arasında şəhərsalma sahəsində təcrübə mübadiləsinin aparılmasının vacibliyinə toxunuldu.

Dövlətimizin başçısı 2026-cı ildə Azərbaycanın Dünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyini deyərək, Belarusu da bu tədbirdə yaxından iştiraka dəvət etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparıldı.

### *Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Gülərin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.

Dövlətimizin başçısı İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə bağlı təbriklərini çatdıraraq, bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etdiyini vurğuladı. PKK terror qruplaşmasının özünü ləğv etməsini tarixi hadisə adlandıran və bizi də sevindirdiyini deyən Azərbaycan Prezidenti bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsinin ən başlıca rol oynadığını qeyd etdi. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Türkiyə dövlətinin gücü, qardaş ölkənin silahlı qüvvələrinin terrorçularla peşəkarcasına mübarizə aparması, Türkiyə cəmiyyətindəki birlik də terror qruplaşmasının bu addımı atmasında əsas amillərdəndir. Dövlətimizin başçısı dedi ki, bu, yalnız Türkiyə üçün deyil, ümumilikdə, bölgədəki xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün önəmli məsələdir.

Təbriklərə görə minnətdarlığını bildirən Yaşar Gülər ilk növbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq bir neçə il əvvəl Azərbaycan Prezidentinin güclü iradəsi ilə bölgədə erməni terrorçularına tarixi dərs verildiyini xatırladaraq qeyd etdi ki, Türkiyə terrorla 41 illik mübarizəni zəfərlə bitirdi. Yaşar Gülər bundan sonra Türkiyədə sülh olacağına əminliyini bildirdi və bu hadisənin bölgə üçün əhəmiyyətinə toxundu.

Türkiyənin milli müdafiə naziri qardaş Azərbaycanın Silahlı Qüvvələri ilə əlaqələri genişləndirmək üçün gələcəkdə də əllərindən gələni edəcəklərini dedi.

Söhbət zamanı Azərbaycan və Türkiyə Silahlı qüvvələri arasında qurulmuş səmərəli əməkdaşlığa toxunuldu, bu xüsusda birgə hərbi təlimlərin uğurla keçirildiyi vurğulandı.

Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əlaqələrimizin daha da güclənməsində iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin rolu vurğulandı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

### *Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmişin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmişi qəbul edib.

Dövlətimizin başçısı Okay Məmişin Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi təyin olunmasından sonra ilk səfərini ölkəmizə etməsinin əhəmiyyətinə toxundu və bu səfərin uğurlu olacağına ümidvarlığını bildirdi.

Okay Məmiş də öz növbəsində bu vəzifəyə təyin olunmasından sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və müttəfiqlik əlaqələrinin dərinləşməsindən məmnunluq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında səmimi münasibətlərin əməkdaşlığımızın daha da genişlənməsi işinə böyük töhfə verdiyi vurğulandı.

Görüşdə ölkələrimizin bütün istiqamətlər üzrə, o cümlədən təhlükəsizliklə bağlı məsələlərdə uğurlu qarşılıqlı fəaliyyəti qeyd edildi.

### *Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 23-də Türk Dövlətləri Təşkilatının (TDT) daxili işlər nazirlərinin ikinci görüşünün iştirakçılarından ibarət nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Qazaxıstan Respublikasının daxili işlər naziri Erjan Sadenov, Qırğız Respublikasının daxili işlər naziri Ulan Niyazbekov, Türkiyə Respublikasının daxili işlər naziri Ali Yerlikaya, Özbəkistan Respublikasının daxili işlər naziri Aziz Taşpulatov, Şimali Kipr Türk Cümhuriyyətinin daxili işlər naziri Dursun Oğuz, Macarıstanın daxili işlər nazirinin müavini Bentse Retvari və Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev daxildir.

* * *

Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:

–Türk Dövlətləri Təşkilatının daxili işlər nazirlərinin ikinci görüşü Azərbaycanda keçirilir. Bu, çox sevindirici haldır. Əminəm ki, belə görüşlərin davamı olacaq.

Bildiyiniz kimi, Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü iki gün bundan əvvəl Macarıstanda keçirilmişdir. Bildirməliyəm ki, belə tədbirlərin, belə görüşlərin keçirilməsi Azərbaycan tərəfinin təşəbbüsü idi. Birinci qeyri-rəsmi Zirvə görüşü ötən il Azərbaycanda, Qarabağda, Şuşa şəhərində keçirilmişdir. Dövlət və hökumət başçıları qərara gəldilər ki, belə qeyri-rəsmi görüşlər müntəzəm olaraq keçirilsin.

Bizim rəsmi Zirvə görüşlərimiz hər il keçirilir. Amma hesab etdik ki, ildə bir dəfə bu tərkibdə görüşlər kifayət deyil. Bildirməliyəm ki, bu il Azərbaycanda rəsmi Zirvə görüşü keçiriləcək. Bu görüşə ciddi hazırlıq gedir və əminəm ki, Zirvə görüşü zamanı önəmli qərarlar qəbul ediləcək.

Təşkilata üzv və müşahidəçi ölkələrin ortaq maraqları göz önündədir. Biz nəinki dost, strateji tərəfdaş, müttəfiqik və başlıca amil odur ki, qardaş ölkələrik və təşkilatın təməlində məhz bu prinsip dayanır. Hesab edirəm ki, gələcək illərdə təşkilatımız daha böyük zirvələrə qalxa bilər. Bunun üçün bütün imkanlar var. Ölkələrimizdə müsbət inkişaf dinamikası müşahidə olunur. Təşkilata üzv ölkələrdə daxili sabitlik təmin edilir. Bizim böyük coğrafiyamız var. Təşkilata üzv bəzi ölkələrdə zəngin təbii sərvətlər vardır. Bizim nəqliyyat layihələrimiz ölkələrimizi birləşdirir və hətta daha böyük coğrafiyanı əhatə edir. Ölkələrimizin ərazisindən keçən nəqliyyat dəhlizləri Avropanı Asiya ilə birləşdirir. Bir sözlə, iqtisadi sahədə çox böyük potensialımız var. Əgər buna bizim müsbət demoqrafik dinamikanı əlavə etsək, mənzərə daha ürəkaçan olacaq.

Bizim ölkələrimizdə əhali artır. Azərbaycana gəldikdə, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini bərpa edəndə bizim əhalimiz təqribən 7 milyon idi, indi 10 milyonu ötüb. Bütün üzv ölkələrdə buna oxşar dinamika müşahidə olunur. Əhalimiz gəncdir, dinamikdir, öz tarixi köklərinə bağlıdır. Ona görə biz təşkilat çərçivəsində iqtisadiyyat, nəqliyyat, enerji məsələləri ilə yanaşı, mütləq ortaq köklərimiz, ortaq tariximiz haqqında geniş danışmalıyıq.

Tarixdə müxtəlif məqamlar olub. Biz müəyyən dövr ərzində bizdən asılı olmayan səbəblərə görə bir-birimizdən ayrı düşmüşdük. Ancaq təşkilata üzv olan ölkələrin iradəsi, xalqların iradəsi bizi yenə də bir araya gətirdi. Əlbəttə ki, təşkilatın formalaşmasında, inkişafında tarixi Naxçıvan Zirvəsi xüsusi yer tutur. Biz çox şadıq ki, bu tarixi qərar məhz Azərbaycanın qədim şəhəri olan Naxçıvanda qəbul edilmişdir.

O ki qaldı, daxili işlər orqanlarının birgə fəaliyyətinə, təbii ki, buna böyük ehtiyac var. Çünki qeyd etdiyim kimi, ölkələrimizdə daxili sabitlik olsa da təhdidlər var, çağırışlar var, xaricdən müdaxilə cəhdləri var və olacaq. Yəni, heç kim bundan sığortalı deyil. Ona görə daxili işlər orqanlarının əsas vəzifəsi olan ictimai asayişin qorunması, əlbəttə ki, hər bir ölkəmiz üçün önəmli daxili sabitlik amilidir. Təşkilata üzv ölkələrin daxili işlər orqanlarının bir araya gəlməsi, müntəzəm olaraq görüşlərin keçirilməsi, fikir mübadiləsi, təcrübə mübadiləsi, informasiya mübadiləsi aparılması böyük önəm daşıyır.

Təbii ki, bizim əsas məqsədimiz təşkilatı daha da gücləndirməkdir. Mən tam əminəm ki, əgər bütün üzv və müşahidəçi ölkələr güclü vahid iradə göstərsələr, bizim təşkilatımız dünya miqyasında aparıcı beynəlxalq təşkilatlardan birinə çevrilə bilər. Biz dünyada mövcud olan beynəlxalq təşkilatları yaxşı tanıyırıq. Biz bəzi təşkilatlara üzvük, bəzi təşkilatlarla müxtəlif formatlarda əməkdaşlıq edirik və Türk Dövlətləri Təşkilatının üstünlüyünü biz şəxsən Azərbaycanda açıq-aydın görürük. Yenə də bu üstünlük ondan ibarətdir ki, bizi birləşdirən əsas amil tarixi köklərdir, etnik köklərdir, mənəvi dəyərlərdir və təbii ki, qeyd etdiyim kimi, bizim iqtisadi, sənaye və digər sahələrdəki potensialımız. Bütün bunları biz bir araya gətirmişik, təşkilatı strukturlaşdırmışıq, müxtəlif istiqamətlər üzrə fəal işlər gedir. Hesab edirəm ki, indi əsas məsələ beynəlxalq gündəlikdə söz sahibi olmaq, nəinki təşkilatın coğrafiyasında və onun həndəvərində, qlobal müstəvidə dünyada aparıcı siyasi təşkilatlardan birinə çevrilməkdir. Yenə də deyirəm, bunlar üçün bütün imkanlar var. Əgər olmasaydı, mən bu barədə danışmazdım.

Mən sizi bir daha salamlayıram. Azərbaycana xoş gəlmisiniz. Sizə uğurlar arzulayıram. Təmsil etdiyiniz ölkələrin xalqlarına öz hörmətimi bildirirəm və Sizə uğurlu iş və gözəl nəticələr arzulayıram.

* * *

Sonra çıxış edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev dedi:

– Əvvəlcə, bizi qəbul etdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Siz qeyd etdiyiniz kimi, bu, daxili işlər nazirlərimizin ikinci görüşüdür. Birincisi keçən il Qırğızıstanda olub. Siz qeyd etdiniz ki, hörmətli nazirlərimiz görüşürlər, onlar daha çox mahiyyətə diqqət yetirirlər. Bu gün də Kommünike hazırlanıb. Bundan sonra da belə görüşlər keçiriləcək və orada daxili işlər nazirlərinin fəaliyyətinin əsas istiqamətlərini ehtiva edən Kommünike qəbul olunacaq. Bu, banditizm, terrorizm, cinayətkarlıq və sairə ilə mübarizə daxil olmaqla nazirlərimizin fəaliyyətinin bütün istiqamətlərini əhatə edir.

İki gün əvvəl vaxtilə Sizin təşəbbüskarı olduğunuz qeyri-rəsmi Zirvə görüşümüz keçirildi. O, mahiyyət etibarilə qeyri-rəsmi deyil, daha çox rəsmi idi. Orada da hüquq-mühafizə orqanlarımızın işindən bəhs edildi. Siz də qeyd etdiniz ki, keçən il ilk dəfə Şuşada ali məhkəmə instansiyalarımızın görüşü oldu. Ali məhkəmələrin sədrləri bu yaxınlarda – iki həftə əvvəl Antalyada yenidən toplaşdılar və nizamnamə qəbul etdilər. Orada

da bütün fəaliyyət istiqamətləri göstərilib. Bizdə artıq Baş prokurorlar, notarial orqanlar, ədliyyə nazirlərinin platformaları yaradılıb, keçən il ədliyyə nazirləri də Astanada bir araya gəldilər.

Bir sözlə, bütün hüquq-mühafizə bloku institutlaşmaya başlayıb, artıq ilk addımlar atılır. Sizin parlamentdəki inaqurasiya nitqinizdə qısaca qeyd etdiyiniz kimi, hamı bunu dəstəkləyir. İndi Sizin dediyiniz kimi, bizim təşkilat daha güclü ola bilər. Biz həqiqətən nadir beynəlxalq təşkilatıq. Siz qeyd etdiyiniz kimi, 15 il əvvəl qəbul edilən Naxçıvan Sazişində deyilir ki, bizi məhz tarixi köklər, mədəniyyətimiz, dil, din birləşdirir. Çünki başqa belə bir təşkilat yoxdur və bizim hamımızın vəzifəsi yaradılmış platformalarla onu gücləndirməkdir.

***Ukraynanın xarici işlər naziri Andrey Sibiqanın qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Ukraynanın xarici işlər naziri Andrey Sibiqanı qəbul edib.

Andrey Sibiqa Ukrayna Prezidenti Volodimir Zelenskinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycan dövləti tərəfindən Ukraynaya göstərilən humanitar yardımlara görə təşəkkürlərini bildirdi, xüsusilə İrpen şəhərində həyata keçirilən layihələrin əhəmiyyətini vurğuladı.

Andrey Sibiqa Azərbaycanın Ukraynanın ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyə görə bir daha minnətdarlığını ifadə etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Ukrayna Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Volodimir Zelenskiyə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycan tərəfindən Ukraynaya humanitar yardımın bundan sonra da davam etdiriləcəyini bildirdi.

Söhbət zamanı Azərbaycanın və Ukraynanın bir-birinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədikləri qeyd olundu.

Ölkələrimiz arasında energetika, bərpaolunan enerji, nəqliyyat, ticarət, kənd təsərrüfatı sahələrində əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeqin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 25-də Misir Ərəb Respublikası Senatının sədri Abdel Vahab Abdel Razeqi qəbul edib.

Qonaq Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisinin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Abdel Vahab Abdel Razeq vurğuladı ki, Misir Prezidenti dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırlayır.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Misir dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Senatın sədri Azərbaycanla Misir arasında əlaqələrin tarixi və dostluq xarakteri daşıdığını deyərək, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəklədiklərini qeyd etdi.

Dövlətimizin başçısı İlham Əliyev Prezident Əbdülfəttah əs-Sisinin Azərbaycana, özünün isə Misirə səfərini, bu səfərlər çərçivəsində Misir Prezidenti ilə görüşlərini və apardığı müzakirələri məmnunluqla xatırladı.

Görüşdə əlaqələrimizin inkişafında iki ölkənin qanunverici orqanlarının əməkdaşlığının və parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin mühüm rola malik olduğu vurğulandı.

Söhbət zamanı Azərbaycanla Misir arasında iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

***ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deynsi qəbul edib.

Senator, ilk növbədə, Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı. O, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük perspektivlərin olduğunu dedi. Əfqanıstanda Amerika Birləşmiş Ştatları və Azərbaycan əsgərlərinin çiyin-çiyinə xidmət etdiyini, Kabil hava limanının təhlükəsizliyinə cavabdeh olan Azərbaycan sülhməramlı qüvvələrinin Əfqanıstanı tərk edən ən sonuncu hərbi kontingent olduğunu xatırladan Stiv Deyns oradan mülki və hərbi şəxslərin təxliyəsində azərbaycanlı hərbçilərin mühüm rol oynadıqlarını vurğuladı və buna görə də ayrıca minnətdarlığını bildirdi.

Senator fəaliyyəti dövründə Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin Amerika Birləşmiş Ştatları ilə münasibətlərinin inkişafına mühüm əhəmiyyət verdiyini deyərək, əlaqələrin inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu vurğuladı. O, Azərbaycana və Mərkəzi Asiya ölkələrinə ABŞ Senatının nümayəndələri tərəfindən səfərlərin intensivləşdirilməsinin vacibliyinə toxundu.

Dövlətimizin başçısı Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərə görə təşəkkürünü bildirərək, ABŞ Prezidenti Donald Trampın bu xüsusda göndərdiyi təbrik məktubunun yüksək qiymətləndirildiyini vurğuladı. Prezident İlham Əliyev dedi ki, məktubda da qeyd olunduğu kimi, Azərbaycanla ABŞ arasında təhlükəsizlik, enerji və iqtisadi-ticari əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanlar var. Dövlətimizin başçısı Donald Trampın birinci prezidentliyi dövründə Azərbaycanla əlaqələrin inkişafına göstərdiyi diqqətin də təqdir olunduğunu dedi.

Görüşdə Azərbaycanın malik olduğu nəqliyyat infrastrukturu və region ölkələri ilə siyasi əlaqələri nəticəsində Avrasiya regionunun əsas logistika mərkəzlərindən birinə çevrildiyi, Orta Dəhlizin inkişafında oynadığı mühüm rolu bir daha qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Sonda senator Stiv Deyns Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.

***Birləşmiş Ərəb Əmirliklərinin iş adamlarından ibarət nümayəndə heyətinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da "International Holding Company"nin baş icraçı və idarəedici direktoru Seyid Basar Şuebin rəhbərlik etdiyi Birləşmiş Ərəb Əmirliklərindən olan iş adamlarından ibarət nümayəndə heyətini qəbul edib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən iqtisadi-ticari istiqamətdə daha da genişləndiyi vurğulandı, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın isə Azərbaycana səfərlərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmi qeyd edildi.

Azərbaycanda həm yerli, həm də xarici iş adamları üçün əlverişli biznes və investisiya mühitinin yaradıldığı vurğulanaraq, bu xüsusda BƏƏ şirkətlərinin də ölkəmizdə bir çox sahəyə sərmayə yatırmasından məmnunluq ifadə olundu.

Birləşmiş Ərəb Əmirliklərinin iş adamlarından ibarət nümayəndə heyətinin ölkəmizə səfərinin səmərəli olacağına və yaxşı nəticələr əldə ediləcəyinə ümidvarlıq bildirildi.

Söhbət zamanı investisiyalar, sənaye, o cümlədən dağ-mədən sənayesi və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***Türkiyənin energetika və təbii sərvətlər nazirinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarı qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana "Bakı Enerji Həftəsi" ilə bağlı göndərdiyi məktuba görə təşəkkürünü bildirdi.

Qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edən Alparslan Bayraktar bir neçə gün əvvəl Laçında keçirilmiş tədbirlərdə iştirakını məmnunluqla xatırladı və həmin tədbirlərin yüksək səviyyədə təşkili ilə bağlı təbriklərini çatdırdı.

Görüşdə "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin bu sahədə beynəlxalq əməkdaşlığın qurulması, əlaqələrin genişləndirilməsi və yeni yanaşmaların tətbiqi baxımından rolu vurğulandı.

Azərbaycan və Türkiyə prezidentlərinin rəhbərliyi və liderliyi ilə ölkələrimizin bir çox qlobal layihələr həyata keçirdikləri, həmçinin Türkiyə Petrolları (TPAO), BOTAŞ-la SOCAR arasında uğurlu əməkdaşlığın qurulması məmnunluqla qeyd edildi. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Türkiyədə böyük sərmayədar olduğu vurğulandı.

Söhbət zamanı ölkəmizdə enerji, o cümlədən bərpaolunan enerji sahəsində mühüm layihələrin icra olunduğu qeyd edildi, Azərbaycan və Türkiyənin bu istiqamətdə əməkdaşlığının bundan sonra daha da genişlənəcəyinə ümidvarlıq bildirildi. Enerji sahəsində əməkdaşlığımızın geniş gündəliyə malik olduğu vurğulandı və bu xüsusda gələcək layihələrlə bağlı fikir mübadiləsi aparıldı.

***Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin təsisçisi və direktorlar şurasının sədri Məhəmməd Əbunəyyanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Səudiyyə Ərəbistanı Krallığı arasında əməkdaşlığın bir çox sahələrdə, o cümlədən enerji və bərpaolunan enerji sahələrində inkişafından məmnunluq bildirildi.

Ölkəmizlə "ACWA Power" şirkəti arasında uğurlu layihələrin həyata keçirildiyi vurğulandı. Bu şirkətin Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyası layihəsini inkişaf etdirməsinin əhəmiyyətinə toxunuldu.

Vurğulandı ki, "ACWA Power" ölkəmizdə dəniz suyunun duzsuzlaşdırılması üzrə tenderin qalibi olub və hökumətlə müqavilə şərtlərinin razılaşdırılmasının son mərhələsidir. Qısa müddət ərzində son müqavilə sənədlərinin imzalanması və suyun duzsuzlaşdırılması zavodunun tikintisinə başlanılması ilə bağlı hazırlıq işləri barədə fikir mübadiləsi aparıldı.

Qonaq Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, həmçinin Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin yüksək səviyyədə keçirilməsi ilə bağlı təbriklərini çatdırdı.

Məhəmməd Əbunəyyan Azərbaycan Prezidentinin və Səudiyyə Ərəbistanı Kralının dünyada baş verən hadisələrlə bağlı böyük liderlik nümunəsi göstərdiklərini dedi. O, Səudiyyə Ərəbistanı Krallığından ölkəmizə yatırılan investisiyalara dövlətimizin başçısı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı gələcək əməkdaşlıqla bağlı məsələlər müzakirə olundu.

***Pakistanın neft nazirinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də Pakistan İslam Respublikasının neft naziri Əli Pervaiz Maliki qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı bir neçə gün əvvəl Laçında Azərbaycan, Türkiyə Prezidentlərinin və Pakistanın Baş nazirinin üçtərəfli görüşü xatırlandı, bu tədbirin ölkələrimiz arasında qardaşlığın və həmrəyliyin nümayişi olduğu bildirildi.

Azərbaycanla Pakistan arasında ikitərəfli münasibətlərin bütün sahələrdə inkişafından məmnunluq ifadə olundu, əməkdaşlığımızın enerji sahəsini də əhatə etdiyi vurğulandı.

"Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 30-cu Yubiley Beynəlxalq Xəzər Neft və Qaz və 13-cü Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgilərinin önəminə toxunularaq, enerji sahəsində qlobal səviyyədə əməkdaşlığın genişləndirilməsi baxımından bu mühüm tədbirlərin rolu qeyd edildi.

Görüşdə ölkələrimiz arasında enerji, həmçinin bərpaolunan enerji sahəsində qarşılıqlı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlərə dair müzakirələr aparıldı.

Qonaq Azərbaycan şirkətlərini Pakistanın enerji sektorunun imkanları ilə tanış olmağa dəvət etdi.

***"Schlumberger Overseas S.A" şirkətinin baş icraçı direktorunun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də ABŞ-ın "Schlumberger Overseas S.A" (SLB) şirkətinin baş icraçı direktoru Olivye Le Peşi qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən Yubiley Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisinin əhəmiyyətinə toxunularaq, bu tədbirlər zamanı qlobal enerji məsələləri ilə bağlı müzakirələrin aparıldığı vurğulandı.

"Schlumberger Overseas S.A" şirkətinin Azərbaycanda uğurla həyata keçirdiyi layihələr qeyd edildi, şirkətin 30 il ərzində Azərbaycanda neft və qaz yataqlarının işlənilməsində iştirakının, o cümlədən SOCAR və bp ilə əməkdaşlığının davam etdirilməsinin vacibliyi bildirildi.

Görüşdə şirkət tərəfindən "SOCAR Green" şirkəti ilə birlikdə Kəlbəcər və Laçın bölgələrində geotermal enerji mənbələrinin istifadəsi ilə bağlı potensial layihənin həyata keçirilməsi barədə məlumat verildi.

Söhbət zamanı ölkəmizlə bu şirkət arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *"ExxonMobil" şirkətinin vitse-prezidentinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 2-də "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardilli qəbul edib.

AZƏRTAC xəbər verir ki, Con Ardill "ExxonMobil" şirkətinin rəhbəri Darren Vudsun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını şirkətin rəhbərinə çatdırmağı xahiş etdi.

Görüşdə "ExxonMobil" şirkətinin Azərbaycanda uzunmüddətli fəaliyyəti, o cümlədən "Azəri-Çıraq-Günəşli" layihəsində səhmdar qismində iştirakı qeyd olundu. Ölkəmizin neft-qaz potensialının reallaşdırılması istiqamətində SOCAR ilə "ExxonMobil" arasında bu gün imzalanması nəzərdə tutulan Anlaşma Memorandumu barədə Azərbaycan Prezidentinə məlumat verildi.

Qonaqlar Azərbaycanda neft-qaz, enerji sahələrinin inkişafı üçün mövcud olan münbit şəraiti xüsusilə qeyd etdilər.

### *Minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərinin qəbulu*

İyunun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatının qalibi olan Azərbaycan milli komandasının üzvlərini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi:

#### Prezident İlham Əliyevin çıxışı

– Bakıda keçirilmiş minifutbol üzrə dünya çempionatı dünən başa çatdı. Azərbaycan milli komandası bütün oyunlarda peşəkarlıq, qələbə əzmi göstərərək dünya çempionu titulunu qazanmışdır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm. İlk növbədə, komandanın oyunçularını, məşqçilərini, mütəxəssislərini, Minifutbol Federasiyasını və bu qələbədə iştirak etmiş bütün insanları təbrik edirəm. Siz Azərbaycan xalqına yeni qələbə sevinci bəxş etmisiniz! Dünya çempionu olmaq böyük şərəfdir və böyük məharət tələb edir, xüsusilə komanda idman növündə. Bu, artıq gözəl tarixdir. Bu tarixi yazan da sizsiniz və şadam ki, Azərbaycanda minifutbol üzrə belə güclü oyunçularımız var.

Çempionatı izləyənlər öz gözləri ilə bizim oyunçularımızın tam üstünlüyünü görə biliblər. Mən oyunlarınızın son dördünü izləmişəm və tam əminliklə deyə bilərəm ki, bu qələbə ədalətli mübarizədə qazanılmış qələbədir. Siz bu qələbəyə layiqsiniz. Futbol meydançasında bütün rəqibləri üstələmisiniz və eyni zamanda, gözəl komanda ruhu nümayiş etdirmisiniz. Görürəm ki, oyunçular bir-birinə çox bağlıdır, bir ailə kimidir. Əlbəttə ki, komandada hökm sürən bu gözəl ab-hava, bu iqlim qələbənizi şərtləndirən amillərdən biridir, eyni zamanda, bütün tamaşaçılar da bunu əyani şəkildə görüblər. Oyunu həm gimnastika arenasında izləyənlər, həm də televiziya vasitəsilə izləyənlər sizin qələbənizə ürəkdən sevinmişlər. Yenə də deyirəm, siz bu qələbəyə layiqsiniz və bütövlükdə qələbələr Azərbaycana yaraşır. Həm döyüş meydanında, həm siyasi müstəvidə, həm də idman arenalarında biz qələbə qazanan ölkəyik. Məhz bizim istedadlı və peşəkar gənclərimiz bu qələbə sevincini bizə gətirirlər. Mən sizi ürəkdən təbrik edirəm. Arzu edirəm ki, bu qələbələrin davamı olsun. Əlbəttə ki, bu titulu qorumaq o qədər də asan olmayacaq. Mübarizə çox gərgin gedirdi və təbii ki, dünya çempionatında təmsil olunan komandalar ən güclü komandalardır. Ancaq hesab edirəm ki, gələcəkdə xalqımızı sevindirmək və Azərbaycanın idman şöhrətini daim yüksəklərdə saxlamaq üçün sizin böyük imkanlarınız var. Bir daha sizi təbrik edirəm və bu qələbə sevincini xalqımıza bəxş etdiyiniz üçün Azərbaycan xalqı adından Sizə təşəkkürümü bildirirəm. Sağ olun.

* * *

Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dedi:

– Möhtərəm cənab Prezident, mən şəxsən bütün federasiya adından, futbolçular adından, məşqçi heyəti adından Sizə öz dərin təşəkkürümü bildirirəm ki, bu gün bizi qəbul edirsiniz. Doğrudan da bu gün bizim üçün həm şərəfli, həm də uğurlu bir gündür. Biz doğma divarlar arasında dünya çempionu olmuşuq. Bu, hər bir futbolçu üçün çox önəmli bir haldır. Sizə deyə bilərəm ki, bütün oyunlar zamanı bütün azarkeşlər bizi dəstəkləyirdi. Xalqımız televizorun önündə bizi dəstəkləyirdi. Əlbəttə ki, futbolçular da çox böyük zəhmət çəkdilər və hər bir oyunda bir ailə kimi ruhlarını, canlarını qoydular. Doğrudan da azarkeşlər onları irəli səsləyirdi.

Möhtərəm cənab Prezident, əlbəttə ki, Sizin idmana, gəncliyə, ümumiyyətlə bütün futbolsevərlərə, minifutbolsevərlərə verdiyiniz dəstək bizim uğurumuzun əsas sütunu idi. Bunu hər bir futbolçu bilir və Sizə dərin təşəkkürümüzü bildiririk.

Həmçinin Sizin sahibkarlara göstərdiyiniz dəstək göz önündədir. Onlar futbolun bu növünə yatırımlar edirlər. Bizim çox güclü çempionatımız var. Sponsorlar oraya dəstək göstərir. Əlbəttə ki, biz bu çempionatdan ən güclüləri yığaraq bu gün milli komanda yaratmışıq. Onlar həm Avropa çempionu, həm də dünya çempionu oldular. Son dəfə Siz bizi qəbul edərkən Sizə söz verdik ki, çalışacağıq yeni titullar, yeni uğurlar qazanaq. Bizim üçün çox şərəflidir ki, bu dünya kubokunu Sizin önünüzə gətiririk.

Sizə çox dərin təşəkkürümü bildirirəm, bu qələbəni biz xalqımıza, Vətənimizə, Sizə və hörmətli Mehriban xanıma həsr edirik. Çox sağ olun, Sizə çox təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun.

Milli komandanın baş məşqçisi Elşad Quliyev: Hörmətli Prezidentimiz, öz adımdan, komandanın adından təşəkkür edirəm ki, bizi dəvət etmisiniz. Biz 2022-ci ildə də Avropa çempionu olanda Siz bizimlə səmimi söhbət etdiniz və tapşırıqlarınızı verdiniz. O gündən sonra da biz çalışırdıq ki, yeni nailiyyətlər əldə edək. İnşallah, qismət oldu, dünən dünya çempionu olduq. Bunun üçün Sizə çoxlu təşəkkür edirik və xalqımıza, federasiyamıza “Çox sağ ol!” deyirik. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm.

Dünya Minifutbol Federasiyasının prezidenti Filip Juda dedi:

– Möhtərəm cənab Prezident, Azərbaycanı belə möhtəşəm təmsil edən bütün bu şəxslərlə birlikdə burada olmaq mənim üçün həqiqətən də şərəfdir. Sizin qarşınızda onları bu böyük uğur münasibətilə bir daha təbrik etmək və bu turniri Azərbaycana gətirdiyinizə görə Sizə minnətdarlığımı bildirmək istərdim.

Bu, zənnimcə, mənim Bakıya 8-ci səfərimdir. İlk dəfə 2017-ci ildə burada olmuşam, Azərbaycan Minifutbol Federasiyasından olan bu insanlarla görüşmüşəm. Deməliyəm ki, onlar həqiqətən də böyük iş gördülər. Onlar Avropa çempionluğunu, dünya çempionluğunu qazandılar. Mən Sizə növbəti çempionatlarda uğurlar arzulayıram. Bilirəm ki, Sizin qrafikiniz çox məşğuldur. Sizi bu gün başlayan “Bakı Enerji Həftəsi”ndə gördüm. Bizimlə və bütün bu şəxslərlə görüşmək imkanına görə təşəkkür edirəm. Ümidvaram ki, bu uğur sayəsində Azərbaycanda yeni nəsil minifutbolçular meydana çıxacaq. Çünki şübhəsiz ki, bu nailiyyətiniz Azərbaycanda minifutbolun inkişafına, xalqa və bütün cəmiyyətə müsbət töhfə verir.

Bildiyimə görə, Azərbaycan Minifutbol Federasiyası ölkədə minifutbol arenasına sahib olmaq üçün böyük səylər göstərir. Ümidvaram ki, Dünya Minifutbol Federasiyası və yerli hökumətlə birlikdə bu, uğurlu bir layihə olacaq. Çünki, şübhəsiz ki, bu insanlar 2022-ci ildə Avropa çempionluğu, 2025-ci ildə dünya çempionluğunu qazanmaqla buna həqiqətən də layiqdirlər. Onların burada cənab Prezidentin qarşısında olmaqları ilə fəxr edirəm.

Dəvətə görə təşəkkür edirəm, sizin hamınıza uğurlar arzulayıram.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Xoş sözlərə görə minnətdaram. Federasiya adından Azərbaycanda minifutbolun inkişafına verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Bu dəstək bizim üçün həqiqətən də qiymətlidir və biz Azərbaycanın beynəlxalq idman institutları ilə əməkdaşlığını yüksək qiymətləndiririk.

Əminəm ki, bu qələbə minifutbolun inkişafına növbəti təkan verəcək. Artıq Azərbaycan milli komandası bütün mümkün olan titulları qazanıb - Avropa çempionu, dünya çempionu. Əlbəttə ki, uşaqlar, yeniyetmələr, bax, bu qələbəyə sevinənlər - bizim gənc nəslimiz hesab edirəm ki, minifutbola daha böyük maraq göstərəcək və bu idman növünün inkişafı Azərbaycanda sürətlə gedəcək.

Milli komandamızın bütün üzvləri Azərbaycanda yetişdirilmiş gənclərdir. Bunun da xüsusi önəmi var. Yığma komandamızın müxtəlif inkişaf mərhələləri var idi və bu gün biz qələbə mərhələsində görüşürük. Təbii ki, xarici mütəxəssislərin, bəzən oyunçuların da müəyyən payı olub. Amma bu gün Azərbaycan milli komandası sırf Azərbaycanda doğulmuş, boya-başa çatmış gənclərdən ibarətdir və bu da xüsusi qürur hissi oyadır. Mən əminəm ki, bundan sonra da siz bizi sevindirəcəksiniz. Gələcəkdə çoxlu yarışlar var. Bildiyiniz kimi, indi Azərbaycanın bölgələrində idman qurğuları inşa edilir, inşaat geniş vüsət alıb və minifutbol meydançalarının da yaradılmasında böyük fayda olacaq, həm Bakıda, həm də bölgələrdə. Əminəm ki, federasiya dövlət qurumları ilə, sponsorlarla birlikdə bu sahədə növbəti uğurlu addımlar atacaqdır.

Bir daha sizi təbrik edirəm.

* * *

Sonda Azərbaycan Minifutbol Federasiyasının prezidenti Orxan Məmmədov dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

***Fələstinin ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Fələstin Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Əhməd Metaninin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı xalqlarımızı dostluq və qardaşlıq əlaqələrinin birləşdirdiyini deyərək, səfirin ölkəmizdə fəaliyyəti dövründə bunun şahidi olacağına əminliyini bildirdi, xalqlarımız arasında münasibətlərin dövlətlərarası əlaqələr üçün də önəmli amil olduğunu vurğuladı. Əməkdaşlığın genişləndirilməsi üçün bundan sonra da birgə səylərin göstəriləcəyini deyən Azərbaycan Prezidenti bu xüsusda yüksəksəviyyəli müxtəlif qarşılıqlı səfərlərin önəminə toxundu. Dövlətimizin başçısı ikitərəfli siyasi əlaqələrimizi qeyd edərək, ölkələrimiz arasında qarşılıqlı dəstəyi və həmrəyliyi vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Fələstin xalqının haqlı tələbini, İsrail-Fələstin münaqişəsinin "iki dövlət prinsipi" və BMT-nin müvafiq qərarları əsasında həllini, eyni zamanda, BMT Baş Assambleyasında Fələstin məsələsi ilə əlaqədar keçirilən səsvermələrdə Fələstinin haqlı mövqeyini həmişə dəstəklədiyini bir daha bildirdi. Ölkəmizin Fələstinə göstərdiyi humanitar yardımı xatırladan Azərbaycan Prezidenti bunun gələcəkdə də davam edəcəyini dedi.

Prezident İlham Əliyev Fələstinin ölkəmizdəki səfirliyinin uzun müddətdir fəaliyyət göstərməsini məmnunluqla qeyd edərək, bunun üçün Azərbaycan dövlətinin verdiyi dəstəyə toxundu.

Dövlətimizin başçısı Azərbaycanın daim İslam həmrəyliyinin gücləndirilməsinə çalışdığını dedi və bunun İslam Əməkdaşlıq Təşkilatı, onun rəhbər orqanları tərəfindən həmişə yüksək qiymətləndirildiyini vurğuladı. Bu təşkilatın Zirvə görüşünün gələn il Azərbaycanda təşkil ediləcəyini bildirən dövlətimizin başçısı belə mötəbər tədbirin keçirilməsi üçün ölkəmizin seçilməsini bütün müsəlman aləmində bizə olan xoş münasibət kimi qiymətləndirdi və Fələstinin də bu toplantıda yüksək səviyyədə təmsil olunacağına ümidvarlığını ifadə etdi.

Əhməd Metani Fələstin Dövlətinin Prezidenti Mahmud Abbasın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Mahmud Abbasa çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Fələstin Prezidentinin ölkəmizə rəsmi səfərini, həmçinin onunla beynəlxalq tədbirlər zamanı görüşlərini məmnunluqla xatırladı.

Səfir dövlətimizin başçısının 15 İyun - Milli Qurtuluş Günündə onu qəbul etməsindən böyük şərəf hissi keçirdiyini bildirdi. O, Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə gəlməsi ilə ölkəmizin çətin vəziyyətdən çıxdığını vurğuladı. "Biz Azərbaycan üçün hər zaman tərəqqi, həmçinin daha yüksək nailiyyətlər və əmin-amanlıq arzu edirik", - deyən səfir Prezident İlham Əliyevin müdrik, uzaqgörən siyasəti və rəhbərliyi nəticəsində ölkəmizin regionda və dünya səviyyəsində çox mühüm bir dövlətə çevrildiyini qeyd etdi.

Söhbət zamanı siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əməkdaşlıq və dəstəkdən məmnunluq ifadə olundu.

***Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 15-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kımqu Kanqın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında münasibətlərin uğurlu inkişafına toxunaraq, siyasi əlaqələrimizin yaxşı səviyyədə olduğunu vurğuladı, mütəmadi əsasda siyasi məsləhətləşmələrin və dialoqun aparıldığını qeyd etdi. Prezident İlham Əliyev siyasi və iqtisadi-ticari əlaqələrin daha da inkişafı üçün geniş imkanların olduğunu dedi, bu xüsusda ölkəmizin sənayeləşmə, həmçinin Azərbaycanın regionlarının inkişafı proqramları çərçivəsində əməkdaşlıq məsələlərinə toxundu.

Kımqu Kanq Azərbaycana səfir təyin olunmasından məmnunluğunu ifadə edərək, 15 İyun – Milli Qurtuluş Günündə Prezident İlham Əliyev tərəfindən qəbul edilməsinin onun üçün böyük şərəf olduğunu dedi. Səfir Koreya Respublikasının ozamankı Prezidenti Ro Mu Hyunun ölkəmizə rəsmi səfərini, həmçinin Prezident İlham Əliyevin Koreya Respublikasına dövlət səfərini xatırladı və bu səfərlərin əlaqələrimizin inkişafına ciddi təkan verdiyini vurğuladı.

Görüşdə ölkələrimiz arasında yüksək texnologiyalar, rəqəmsal transformasiya, elm, təhsil, o cümlədən peşə təhsili, tibb və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

Səfir Ələt Azad İqtisadi Zonasının Koreya Respublikasının biznes dairələri üçün maraqlı olduğunu dedi.

Söhbət zamanı Azərbaycanın siyasəti nəticəsində Cənubi Qafqaz regionunda sülh və sabitliyin təmin edildiyi diqqətə çatdırıldı, bu xüsusda Koreya yarımadasında da davamlı sülhün təmin olunacağına ümidvarlıq ifadə edildi.

***Şimali Makedoniya Assambleyasının sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Şimali Makedoniya Respublikası Assambleyasının sədri Afrim Qaşini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycanla Şimali Makedoniya arasında münasibətlərin inkişafından məmnunluq bildirildi, əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğu vurğulandı.

Əlaqələrimizin möhkəmlənməsində müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin önəminə toxunuldu, bu xüsusda Şimali Makedoniya Prezidentinin ölkəmizə rəsmi səfəri və keçirilən səmərəli müzakirələr qeyd olundu.

Qonaq vurğuladı ki, Şimali Makedoniya Azərbaycanı dost ölkə kimi qəbul edir.

Görüşdə ölkələrimiz arasında siyasi, iqtisadi, enerji və digər sahələrdə əlaqələrimizin perspektivlərinə dair müzakirələr aparıldı, Azərbaycan və Şimali Makedoniyanın qanunverici orqanları arasında əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu.

***Bolqarıstan Milli Assambleyasının sədrinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Bolqarıstan Respublikası Milli Assambleyasının sədri Nataliya Kiselovanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin strateji xarakter daşıdığını deyərək, əməkdaşlığımızın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərləri və həyata keçirilən birgə layihələri qeyd etdi. Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı son illərdə enerji sahəsində aktiv qarşılıqlı fəaliyyətin həyata keçirilməsindən məmnunluğunu bildirdi.

Azərbaycan Prezidenti Nataliya Kiselovanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən toplantısında iştirakının önəminə toxundu, səfərin səmərəli olacağına və ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaradacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə dövlətimizin başçısına minnətdarlıq edən qonaq ölkələrimizin əlaqələrinin inkişafından məmnunluğunu bildirdi, Azərbaycanla Bolqarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni vurğuladı.

Nataliya Kiselova Heydər Əliyev Fondunun dəstəyi ilə Bolqarıstanın Veliko-Tırnovo şəhərində Trapezitsa Arxeoloji Muzey Qoruğunun bərpasını xatırladaraq, bunun bolqar xalqı tərəfindən yüksək qiymətləndirildiyini dedi və bu layihənin həyata keçirilməsinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən toplantısının əhəmiyyətinə toxunularaq, bu tədbirin quruma üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsində rolu vurğulandı. Assambleyaya sədrliyin Azərbaycandan Bolqarıstana keçdiyi bildirilərək, ölkəmizin bu təşkilata yüksək səviyyədə sədrlik etdiyi qeyd olundu.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilat çərçivəsində uğurlu əməkdaşlığı və bir-birini dəstəkləməsi qeyd edildi, iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanların olduğu bildirildi.

***bp şirkətinin baş icraçı direktorunun qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da bp şirkətinin baş icraçı direktoru Mürrey Aukinklossu qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı uzun illərdir Azərbaycanla bp arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi məmnunluqla vurğulandı.

Ölkəmizdə enerji resurslarından əldə olunan gəlirlərin səmərəli şəkildə Azərbaycanın sosial-iqtisadi inkişafına yönləndirildiyi qeyd edildi.

Bir sıra Avropa dövlətlərinin enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanın roluna toxunuldu, ölkəmizdə karbohidrogen enerji resursları ilə bərabər bərpaolunan enerji mənbələrinin də böyük potensialının olduğu vurğulandı. Bu xüsusda bp şirkətinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin əhəmiyyəti qeyd olundu.

Görüşdə SOCAR ilə bp arasında əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

### *Özbəkistanın investisiya, sənaye və ticarət nazirinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Özbəkistan Respublikasının investisiya, sənaye və ticarət naziri, Hökumətlərarası Komissiyanın həmsədri Laziz Kudratovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Laziz Kudratovun ölkəmizə səfərinin ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi. Azərbaycanla Özbəkistanın çox sayda birgə layihələr həyata keçirdiyini məmnunluqla vurğulayan Prezident İlham Əliyev qeyd etdi ki, bu, bütün sahələrdə əlaqələrimizin sıx dostluq xarakteri daşımasının göstəricisidir.

Qəbula görə minnətdarlığını bildirən Laziz Kudratov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq qeyd etdi ki, Özbəkistan dövlətinin başçısı qardaş Azərbaycana nəzərdə tutulan səfərinə hazırlaşır və bu səfəri konkret praktiki məzmunla zənginləşdirmək üçün hökumətə tapşırıqlar verib.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Şavkat Mirziyoyevə çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, ötən il Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri zamanı iki ölkənin prezidentlərinin qarşıya qoyduqları yeni prioritet istiqamətlər üzrə fəal iş aparılır.

Görüşdə iqtisadi-ticari əlaqələrin inkişafı məmnunluqla vurğulandı, sənaye kooperasiyası, nəqliyyat, logistika əlaqələrinin daha da genişləndirilməsi və yeni birgə layihələr barədə fikir mübadiləsi aparıldı.

### *UFC-nin prezidentinin qəbulu*

İyunun 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Ultimate Fighting Championship”in (UFC) prezidenti, amerikalı sahibkar Deyna Uaytı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Azərbaycana səfərdən məmnunluğunu ifadə edən Deyna Uayt Bakıda keçiriləcək UFC turnirinə hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını vurğuladı və göstərilən dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı UFC turnirinin ölkəmizdə ilk dəfə təşkil edilməsinin əhəmiyyətinə toxundu, onun davamlı olacağına ümidvarlığını bildirdi və bu tədbirin Azərbaycanın dünyada idman ölkəsi kimi daha çox tanıdılması baxımından rolunu qeyd etdi.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növlərinə göstərilən dövlət qayğısından söhbət açıldı, son illərdə idmançılarımızın dünya səviyyəli mühüm yarışlarda qazandıqları uğurlar vurğulandı, gənc nəsildə idmana həvəsin təbliğ edilməsi istiqamətində görülən işlərə toxunuldu.

Görüşdə indiyədək ölkəmizdə nüfuzlu beynəlxalq idman yarışlarının yüksək səviyyədə təşkil edilməsindən məmnunluq ifadə olundu, UFC turnirinin də bu cür keçiriləcəyinə əminlik bildirildi.

### *İtaliyanın şirkətlər və “Made in Italy” nazirinin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə İtaliya Respublikasının şirkətlər və “Made in Italy” naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Adolfo Urso ilə görüşləri məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Adolfo Ursoya “8 Noyabr” Elektrik Stansiyasının açılışında iştirakına görə minnətdarlığını bildirdi, gələcəkdə də birgə layihələrin həyata keçiriləcəyinə ümidvarlığını ifadə etdi.

Qonaq İtaliyanın “8 Noyabr” Elektrik Stansiyasının inşasında iştirakını ölkələrimiz arasında dostluğun və uğurlu əməkdaşlığın göstəricisi kimi dəyərləndirdi.

Azərbaycana dəfələrlə səfər etdiyini xatırlayan Adolfo Urso bu tədbirdə iştirakdan məmnunluğunu bildirdi. O, 2020-ci ildə Gəncə və Ağdam şəhərlərinə səfərinə toxundu.

Dövlətimizin başçısı Adolfo Ursonun işğaldan azad edilmiş torpaqlarımızda Avropa ölkəsini təmsil edən ilk xarici yüksəksəviyyəli şəxslərdən biri olduğunu vurğuladı və buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və orada artıq 3 beynəlxalq hava limanının istifadəyə verildiyini dedi.

Söhbət zamanı münasibətlərimizin strateji xarakter daşıdığı bildirildi, siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Azərbaycan-İtaliya əməkdaşlığının daha da genişləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxunuldu.

Görüşdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi bildirildi, enerji, o cümlədən bərpaolunan enerji, metallurgiya, kənd təsərrüfatı, əczaçılıq, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərində iştirakı qeyd edildi. “AzərEnerji” ilə “Ansaldo Energia” şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

Sonra xatirə şəkli çəkdirildi.

### *Çinin “Dongfang Electric İnternational Corporation” şirkətinin İdarə Heyətinin sədrinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə Çinin “Dongfang Electric İnternational Corporation” şirkətinin İdarə Heyətinin sədri Çen Qianqı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə “Dongfang Electric İnternational Corporation” şirkətinin “8 Noyabr” Elektrik Stansiyasının inşasında iştirakının roluna toxunuldu, Azərbaycanla Çinin bu şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

### *Polşanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Polşa Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Pavel Radomskinin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Polşa arasında bir çox istiqamətdə əməkdaşlığı genişləndirmək üçün böyük potensialın olduğunu vurğuladı, siyasi və iqtisadi sahədə əlaqələrimizin inkişafından məmnunluğunu bildirdi.

Prezident İlham Əliyev Polşanın Avropa İttifaqının üzvü olduğunu deyərək, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı istiqamətində də ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin önəminə toxundu. Dövlətimizin başçısı son dövrlərdə Azərbaycan ilə Avropa İttifaqı arasında yüksəksəviyyəli təmasların ikitərəfli münasibətlərdə yeni səhifənin açılmasına şərait yaratdığını qeyd etdi.

Səfir Polşa Respublikasının Prezidenti Andjey Dudanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Andjey Dudaya çatdırmağı xahiş etdi.

Pavel Radomski Bakının inkişafının şahidi olduğunu deyərək, işğaldan azad edilmiş torpaqlarımıza səfər etdiyini bildirdi və orada aparılan genişmiqyaslı quruculuq işlərinin, həmçinin həmin ərazilərin təbiətinin onda dərin təəssürat hissi yaratdığını vurğuladı.

Söhbət zamanı münasibətlərimizin genişləndirilməsində iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın və parlamentlərarası əlaqələr üzrə işçi qruplarının fəaliyyətinin əhəmiyyəti qeyd edildi.

Görüşdə iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

### *Sudanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ənəs Eltayeb Elqaylani Mustafanın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Sudanın daim bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini, Birləşmiş Millətlər Təşkilatında (BMT), İslam Əməkdaşlıq Təşkilatında (İƏT), Qoşulmama Hərəkatında və digər beynəlxalq təşkilatlarda ölkələrimizin uğurlu əməkdaşlığını vurğuladı.

Prezident İlham Əliyev Sudanın Suveren Keçid Şurasının Sədri ilə Qoşulmama Hərəkatının Bakıda keçirilmiş Zirvə toplantısı və Antalya Diplomatiya Forumu çərçivəsində görüşlərini, ikitərəfli əlaqələrin inkişafına dair müzakirələri məmnunluqla xatırladı.

Səfir Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhana çatdırmağı xahiş etdi.

Səfir Azərbaycanın Sudanın ərazi bütövlüyünə, suverenliyinə və siyasi birliyinə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, iki ölkənin dövlət başçılarının tapşırıqlarına uyğun olaraq ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün Sudan tərəfindən işçi qrupunun yaradıldığını vurğuladı.

Ənəs Eltayeb Elqaylani Mustafa sudanlı tələbələrə ölkəmiz tərəfindən təhsil təqaüdünün ayrılmasına görə minnətdarlığını bildirərək, bu təqaüdlərin artırılmasını xahiş etdi.

### *İranın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 27-də İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Müctəba Dəmirçilunun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti ilə dünən telefon danışığını və Məsud Pezeşkianın Azərbaycana səfəri zamanı aparılmış müzakirələri məmnunluqla xatırladı, bu səfərin bütövlükdə iki ölkə arasındakı münasibətlərin inkişafında yeni səhifə açdığını qeyd etdi.

Prezident İlham Əliyev vurğuladı ki, Məsud Pezeşkianın ölkəmizə səfəri zamanı səsləndirdiyi bəyanatlar və fikirlər Azərbaycan ictimaiyyəti tərəfindən çox müsbət qəbul olunub.

Dövlətimizin başçısı İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın öz mövqeyini ifadə edən ilk ölkələrdən biri olduğunu deyərək, bu gərginliyi qınadığını vurğuladı və qarşıdurma zamanı həlak olan İran vətəndaşları ilə bağlı bir daha başsağlığını ifadə etdi. İranla İsrail arasında bu gərginliklə əlaqədar bəzi dairələrin və media təmsilçilərinin Azərbaycan-İran əlaqələrinə xələl gətirmək üçün şayiələr və yalanlara əsaslanan məlumatlar yaydığını deyən Prezident İlham Əliyev bütün bunların tamamilə cəfəngiyyat olduğunu bildirdi.

Müctəba Dəmirçilu İran İslam Respublikasının ali rəhbərliyinin də Azərbaycanla münasibətlərin inkişafına xüsusi diqqət göstərdiyini vurğuladı.

Səfir Azərbaycanla İran arasındakı münasibətlərin dostluğa, qonşuluğa və qardaşlığa əsaslandığını qeyd etdi. O, İranla İsrail arasında baş vermiş qarşıdurma ilə əlaqədar Azərbaycanın prinsipial və qəti mövqeyinin İranda yüksək qiymətləndirildiyini vurğuladı və buna görə də təşəkkürlərini çatdırdı. Səfir qeyd etdi ki, İran tərəfi də tam əmindir ki, Azərbaycan ərazisindən İrana qarşı heç vaxt istifadə oluna bilməz, Azərbaycan dövləti buna heç zaman imkan verməz.

Diplomat, həmçinin xarici və İran vətəndaşlarının ölkəmizə keçidi üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanla İran arasında ikitərəfli siyasi, iqtisadi, ticari, mədəni, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıldı. Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, Araz çayı üzərində inşa olunan, Ağbənd və Kəlalə məntəqələrini birləşdirən avtomobil körpüsünün tikintisi, ümumilikdə Araz nəqliyyat dəhlizinin inkişafı məsələləri müzakirə olundu.

# .AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏFƏRLƏRİ

## *Türkiyəyə işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 4-cü Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 10-da Türkiyəyə işgüzar səfərə gəlib.

Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar ilə görüşü olub.

Söhbət zamanı Prezident İlham Əliyevlə Ersin Tatar arasında ölkəmizdə və beynəlxalq tədbirlər çərçivəsində keçirilən görüşlər, həmçinin ötən il onun Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasını qeyd etdi.

Ersin Tatar dövlətimizin başçısına Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi həmrəyliyə və dəstəyə, həmçinin bir neçə gün əvvəl ADA Universitetində keçirilən beynəlxalq forumda dediyi sözlərə görə minnətdarlığını ifadə etdi.

Söhbət zamanı müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsi və bir sıra sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu.

Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib.

Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.

Dövlətimizin başçısı Antalya Diplomatiya Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib.

Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

Prezident İlham Əliyev Suriyada baş vermiş dəyişikliklərlə əlaqədar məmnunluğunu bildirərək, bununla bağlı Əhməd Əl Şaraanı təbrik etdi.

Dövlətimizin başçısı dedi ki, dəyişikliklərdən sonra Azərbaycan nümayəndə heyəti ən qısa müddət ərzində bu ölkəyə göndərilib və Əsəd rejiminin siyasəti səbəbindən uzun zaman fəaliyyət göstərməyən Azərbaycanın Suriyadakı səfirliyi fəaliyyətini bərpa edib.

Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd etdi.

Əhməd Əl Şaraa Azərbaycan tərəfinin dəstəyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd etdi.

Suriyada sabitliyin bərpası üçün əlindən gələni etdiyini deyən Əhməd Əl Şaraa bununla belə xarici amillərin bu məsələyə təsirindən narahatlığını vurğuladı.

Görüşdə, eyni zamanda, Azərbaycan-Suriya-Türkiyə üçtərəfli əməkdaşlıq formatının inkişafı məsələsinə toxunuldu.

Söhbət zamanı ölkələrimiz arasında yüksəksəviyyəli rəsmi nümayəndə heyətlərinin və biznes dairələrinin təmsilçilərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi ilə bağlı razılıq əldə olundu.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi.

Dəvət minnətdarlıqla qəbul olundu.

Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış etdi. O, Forumun əhəmiyyətini vurğuladı, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini dedi.

Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan Forumun roluna toxundu.

Qeyd edək ki, qlobal çağırışlarla bağlı müzakirələrin aparılması, onların həlli yollarının tapılması kimi məsələlərdə dünyanın aparıcı platformalarından biri olan Antalya Diplomatiya Forumunda 20-dən çox dövlət və hökumət başçısı, 70-dən artıq nazir olmaqla ümumilikdə 140 ölkədən 450-dək yüksəksəviyyəli nümayəndə iştirak edir.

Forum çərçivəsində müxtəlif formatlarda keçiriləcək 50-dən artıq tədbirdə Yaxın Şərqdən Asiya və Sakit okean hövzəsinə, Afrikadan Latın Amerikasına qədər geniş coğrafiyada qlobal çağırış və təhdidlərlə yanaşı, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, süni intellekt kimi dünya gündəmində mühüm yer tutan məsələlər ətrafında müzakirələr aparılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 11-də Antalyada Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb.

Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluğun və strateji tərəfdaşlığın tarixi xarakter daşıdığı qeyd olundu.

Bu ilin yanvarında Azərbaycana işgüzar səfərini və səfər çərçivəsində Prezident İlham Əliyevlə görüşlərini məmnunluqla xatırlayan Gürcüstanın Baş naziri həmin görüşlərdə ölkələrimiz arasında iqtisadi-ticari, mədəni və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinə, bununla bağlı aidiyyəti dövlət qurumlarına verilən tapşırıqların icrası istiqamətində görülən işlərə toxundu.

İrakli Kobaxidze Prezident İlham Əliyevin bir neçə gün əvvəl ADA Universitetində beynəlxalq forumda çıxışı zamanı ikitərəfli əlaqələrimizə dair söylədiyi fikirlərin Gürcüstanda çox böyük maraqla qarşılandığını bildirdi.

Dövlətimizin başçısı hazırda dünyada cərəyan edən təlatümlü şəraitdə Azərbaycan və Gürcüstanın birliyinin, həmrəyliyinin vacibliyinə toxunaraq Cənubi Qafqaz bölgəsində regional məsələlərin məhz region ölkələri tərəfindən həll olunmasının vacibliyini qeyd etdi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 11-də Antalyada Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan ilə görüşü olub.

Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri ölkələrimiz arasında tarixi əlaqələrin olduğunu qeyd etdi. O, Azərbaycanın həm öz regionunda, həm də dünyada böyük nüfuza malik vacib ölkə olduğunu vurğuladı.

Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhan Sudanın Azərbaycanla müxtəlif sahələrdə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini dedi və ölkələrimiz arasında mədən sənayesi, neft, energetika, infrastruktur, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi.

Söhbət zamanı təhsil və təlim sahələrində də əməkdaşlıq məsələləri müzakirə edildi.

Prezident İlham Əliyev 2019-cu ildə Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhanın Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının 18-ci Zirvə görüşündə iştirakını və səfər əsnasında aparılmış müzakirələri məmnunluqla xatırladı. Bundan sonra Azərbaycanla Sudan arasında əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi vurğulandı.

Görüşdə iki ölkə arasında münasibətlərin genişləndirilməsi üçün iqtisadi təyinatlı nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkil edilməsi məsələlərinə dair fikir mübadiləsi aparıldı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq qeyd olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 12-də Antalyada Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşü olub.

Söhbət zamanı Alen Bersenin COP29 çərçivəsində ölkəmizə səfəri və onun Azərbaycan Prezidenti ilə görüşü məmnunluqla xatırlandı. COP29 zamanı qlobal iqlim gündəliyi ilə bağlı vacib qərarların qəbul olunduğu bir daha vurğulandı.

Görüşdə Azərbaycan ilə Avropa Şurasının icraedici strukturları arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri aprelin 12-də başa çatıb.

Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər yola saldılar.

## *Çin Xalq Respublikasına dövlət səfəri*

‚Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 22-də Çin Xalq Respublikasına dövlət səfərinə gəlib.

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Çin Xalq Respublikasının nəqliyyat naziri Liu Vey və digər rəsmi şəxslər qarşıladılar.

Çin Xalq Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 23-də rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çin Xalq Respublikasının Sədri Si Cinpin və birinci xanım Pen Liyuan Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

Çin nümayəndə heyəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Çin Xalq Respublikasının Sədri Si Cinpinə təqdim olundu.

Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi.

Azərbaycan Prezidenti fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə geniş tərkibdə görüşü olub.

Sədr Si Cinpin Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın inkişafını və əldə etdiyi nailiyyətləri məmnunluqla qeyd etdi.

Söhbət zamanı ötən il Astanada keçirilmiş görüş əsnasında ölkələrimiz arasında strateji tərəfdaşlığa dair qəbul olunan Birgə Bəyannamə məmnunluqla xatırlandı. Bu gün dövlət başçıları tərəfindən imzalanacaq Birgə Bəyanatda isə hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinin daha bir pillə yüksələcəyi qeyd edildi.

Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT, Şanxay Əməkdaşlıq Təşkilatı və digər təsisatlar çərçivəsində əməkdaşlıq məsələlərinə və qarşılıqlı dəstəklərinə toxunuldu.

Çin Xalq Respublikasının Sədri Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsinə (AQEM) sədrliyini məmnunluqla vurğulayaraq, bu xüsusda əməkdaşlıq üçün geniş imkanların olduğunu bildirdi.

Görüşdə Azərbaycanın və Çinin daim bir-birilərinin ərazi bütövlüyünü və suverenliyini dəstəklədikləri məmnunluqla vurğulandı. Dövlətimizin başçısı "Vahid Çin" siyasətini həmişə dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri birmənalı şəkildə pislədiyini qeyd etdi. Azərbaycan və Çinin terrorizm, ekstremizm və separatizmə qarşı birgə səylərlə mübarizəsi qeyd olundu.

Si Cinpin COP29-un Azərbaycanda uğurla keçirilməsi və Qlobal Cənubun maraqlarının təmsil olunması baxımından Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirdi.

Prezident İlham Əliyev buna görə təşəkkürünü bildirərək, COP29 çərçivəsində qlobal iqlim gündəliyi üçün vacib qərarların qəbul edildiyini xatırladı.

Dövlətimizin başçısı öz növbəsində Si Cinpinin müdrik rəhbərliyi ilə Çinin inkişafına toxundu.

Ölkələrimiz arasında bərpaolunan enerji sahəsində əməkdaşlıq üçün böyük imkanların olduğu bildirildi, artıq Azərbaycanın müvafiq qurumları ilə Çin şirkətləri arasında bu sahədə çoxsaylı sənədlərin imzalandığı və praktiki əməkdaşlığın həyata keçirildiyi vurğulandı.

Görüşdə Hökumətlərarası Komissiyanın sonuncu iclasına toxunuldu, humanitar və mədəni sahələrdə əməkdaşlıq məsələləri qeyd olundu.

Ticarət dövriyyəmizin son dövrlərdə 20 faizdən çox artması müsbət qiymətləndirildi.

Çin Xalq Respublikasının Sədri "Bir kəmər, bir yol" layihəsini ilk dəstəkləyən ölkələrdən biri Azərbaycanın olduğunu məmnunluqla xatırladı. Bu çərçivədə ölkələrimiz arasında əməkdaşlıq məsələlərinin perspektivləri müzakirə olundu.

Son dövrlərdə Orta Dəhliz vasitəsilə Çindən Avropaya gedən yüklərin həcmində artım dinamikası məmnunluqla qeyd edildi və bu istiqamətdə əməkdaşlıq üçün yaxşı imkanların olduğu vurğulandı.

Strateji tərəfdaşlığa dair Birgə Bəyanatda qeyd edildiyi kimi, Azərbaycanın Qlobal Təhlükəsizlik, Qlobal İnkişaf və Qlobal Sivilizasiyalar, həmçinin bəşəriyyətin vahid taleyi kimi Çinin təşəbbüslərini dəstəklədiyi bildirildi, bununla bağlı əməkdaşlıq məsələlərinə toxunuldu.

Si Cinpin Prezident İlham Əliyevi Şanxay Əməkdaşlıq Təşkilatının Çində keçiriləcək Zirvə toplantısına və bu çərçivədə təşkil olunacaq bir sıra təntənəli tədbirlərə dəvət etdi.

Dövlətimizin başçısı dəvəti məmnunluqla qəbul etdi.

Aprelin 23-də Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin iştirakı ilə Azərbaycan-Çin sənədlərinin imzalanması mərasimi olub.

Əvvəlcə Prezident İlham Əliyev və Sədr Si Cinpin "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası

arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ı imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"i və "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ilə Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyi arasında humanitar minatəmizləmə sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin xarici işlər naziri Van İ imzaladılar.

"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"ni Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin xarici işlər naziri Van İ imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında texniki-iqtisadi əməkdaşlıq haqqında Saziş"i Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin İnkişaf üzrə Beynəlxalq Əməkdaşlıq Agentliyinin direktoru Çen Siadon imzaladılar.

"Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Çin Xalq Respublikasının Elm və Texnologiya Nazirliyi arasında elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin elm və texnologiya naziri Yin Hecun imzaladılar.

"Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə Çin Xalq Respublikasının Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin ədliyyə naziri Xı Ron imzaladılar.

"Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi arasında 2025-2029-cu illər üzrə mədəni əməkdaşlıq haqqında Protokol"u Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin mədəniyyət və turizm naziri Sun Yeli imzaladılar.

"Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi ilə Çin Xalq Respublikasının Milli Əqli Mülkiyyət Administrasiyası arasında Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli Əqli Mülkiyyət Administrasiyasının rəhbəri Şen Çanyu imzaladılar.

"Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Çin Milli Kosmik İdarəsi (CNSA) arasında kosmosda əməkdaşlıq və kosmik fəzadan dinc məqsədlər üçün istifadə haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çin Milli Kosmik İdarəsinin rəhbəri Şan Conde imzaladılar.

"Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə Çinin İnvestisiya Korporasiyası arasında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və Çinin İnvestisiya Korporasiyasının sədri və icraçı direktoru Can Çinson imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında "Bir kəmər, bir yol" təşəbbüsünün birgə təşviqi üzrə Əməkdaşlıq Planı"nı Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzaladılar.

"Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Çin Xalq Respublikasının Milli İnkişaf və İslahat Komissiyası arasında yaşıl və aşağı karbonlu inkişaf əməkdaşlığına dair Anlaşma Memorandumu"nu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Çinin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cen Şancye imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Sənaye və İnformasiya Texnologiyaları Nazirliyi arasında sənaye sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin sənaye və informasiya texnologiyaları naziri Li Lıçen imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında beynəlxalq multimodal daşımalar haqqında Saziş"i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Çinin nəqliyyat naziri Liu Vey imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında maneəsiz ticarət üzrə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə dair Anlaşma Memorandumu"nu və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında rəqəmsal iqtisadiyyatda investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin kommersiya naziri Van Ventao imzaladılar.

"Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Sinxua İnformasiya Agentliyi arasında xəbər mübadiləsi və əməkdaşlıq haqqında müqavilə"ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Sinxua İnformasiya Agentliyinin prezidenti Fu Xua imzaladılar.

"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti ilə Çin Media Qrupu arasında Əməkdaşlıq Sazişi"ni Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çin Media Qrupunun prezidenti Şen Haysion imzaladılar.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Məlumat Administrasiyası arasında rəqəmsal iqtisadiyyat üzrə əməkdaşlığın gücləndirilməsinə dair Anlaşma Memorandumu"nu Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Çinin Milli Məlumat Administrasiyasının rəhbəri Lyu Lyehon imzaladılar.

"Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhəri ilə Çin Xalq Respublikasının Sincan-Uyğur Muxtar Rayonunun Urumçi şəhəri arasında qardaşlaşmış şəhər münasibətlərinin qurulmasına dair Niyyət Məktubu"nu Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov və Çinin Urumçi şəhərinin meri Yakub Paydulla imzaladılar.

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanıb.

**"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə**

**Bəyanat**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə 2025-ci il aprelin 22-dən 24-dək Çin Xalq Respublikasına dövlət səfəri etmişdir.

Hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar apardılar. Hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul etdilər.

1. Tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Azərbaycan tərəfi dünyada yalnız vahid bir Çinin mövcudluğunu, Tayvanın Çin ərazisinin ayrılmaz tərkib hissəsi olduğunu, Çin Xalq Respublikası hökumətinin bütün Çini təmsil edən yeganə qanuni hökumət olduğunu tanıyır, "Tayvanın müstəqilliyi"nin istənilən formasına qarşı qətiyyətlə çıxır və ölkənin yenidən birləşməsinin həyata keçirilməsində Çin hökumətini dəstəkləyir.

Çin Azərbaycan tərəfinin təklif etdiyi sülh gündəliyini qətiyyətlə dəstəkləyir və qarşıdurmaya yönəlmiş geosiyasi oyunları qeyri-məhsuldar hesab edir.

2. Tərəflər strateji oriyentir kimi dövlət başçılarının diplomatiyasını və ən yüksək səviyyədəki mühüm razılaşmaları rəhbər tutacaqlarını, ikitərəfli münasibətlərin davamlı və uzunmüddətli inkişafını təşviq edəcəklərini bəyan etdilər.

Tərəflər Çin Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında siyasi dialoqun möhkəmləndirilməsini dəstəkləyirlər. Hər iki tərəf praktiki əməkdaşlığı irəlilətmək üçün müntəzəm mexanizmlər çərçivəsində hökumətlər arasında əlaqələrin gücləndirilməsinə hazır olduqlarını təsdiqlədilər. Tərəflər beynəlxalq və regional təşkilatlarda fəaliyyətin əlaqələndirilməsi də daxil olmaqla qanunverici orqanlar xətti üzrə təmasları və mübadilələri dəstəkləyir, Xarici İşlər nazirlikləri arasında müntəzəm məsləhətləşmələr keçirmək əzmindədirlər.

3. Tərəflər müasirləşməni birgə şəkildə irəli aparmaq və daha yüksək səviyyəli, yüksək dayanıqlılıq və uzunmüddətli sabitliyə malik yeni birgə inkişaf məkanı yaratmaq üçün "Bir kəmər, bir yol" təşəbbüsünün Azərbaycanın "İpək Yolunun dirçəldilməsi" dövlət inkişaf strategiyası və 2030-cu ilə qədər olan sosial-iqtisadi inkişaf Strategiyası ilə uyğunlaşdırılmasını möhkəmləndirmək barədə razılaşdılar.

4. Tərəflər ticari-iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya mexanizminin əlaqələndirici və rəhbər rolunu gücləndirməyi davam etdirməyə hazır olduqlarını ifadə etdilər. Ticarət, investisiyalar, yaşıl enerji və rəqəmsal iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyətin gücləndirilməsini, eləcə də ticari-iqtisadi sahədə ikitərəfli əməkdaşlığın yüksək keyfiyyətli inkişafına töhfə vermək üçün investisiya əməkdaşlığı üzrə İşçi qrupun yaradılması barədə qərar qəbul olundu. Tərəflər iki ölkənin ticarət və iqtisadiyyatının inkişafı üçün əlverişli şəraitləri birgə yaratmaqla ekoloji təmiz və yüksək keyfiyyətli kənd təsərrüfatı məhsullarının bazarlara qarşılıqlı çıxışını tədricən genişləndirmək niyyətindədirlər.

Tərəflər ticarət və investisiya sahələrində əməkdaşlığın dərinləşdirilməsi üçün institusional zəmanətlərin yüksək səviyyəsinin təmin edilməsi məqsədilə azad ticarətə dair sazişlə bağlı danışıqlara başlamağa hazır olduqlarını ifadə etdilər.

Çin, Çin Beynəlxalq İdxal Məhsulları Sərgisi (CIIE), Çin İxrac və İdxal Məhsulları Yarmarkası (Canton Fair), Çin Beynəlxalq Xidmətlər Ticarəti

Yarmarkası (CIFTIS), o cümlədən Çin Beynəlxalq İnvestisiya və Ticarət Forumu (CIFIT) daxil olmaqla, Azərbaycanın Çində keçirilən böyük sərgi tədbirlərində fəal iştirakını alqışlayır, Azərbaycan tərəfindən Çin ərazisində açılan ticarət mərkəzləri və milli pavilyonlar platformasında, eləcə də Çin elektron ticarət şəbəkələrində tematik təqdimatların keçirilməsini və əlaqələrin qurulmasını dəstəkləyir. Azərbaycan Çinin aparıcı şirkətlərinin Azərbaycan ərazisində keçirilən böyük sərgilərdə və forumlarda iştirakını alqışlayır.

5. Tərəflər sənaye sahəsində əməkdaşlığı daim dərinləşdirməyə və sənayenin rəqəmsal transformasiyasını fəal şəkildə irəlilətməyə hazır olduqlarını ifadə edirlər. Tərəflər neft-kimya, metallurgiya, tekstil sənayesi, əczaçılıq, maşınqayırma avadanlığı kimi sahələrdə iki ölkənin müəssisələrini kommersiya əsaslı əməkdaşlığın möhkəmləndirilməsində, dərinləşdirilməsində və genişləndirilməsində dəstəkləyirlər.

6. Tərəflər iki ölkənin enerji keçidini, dayanıqlı sosial-iqtisadi inkişafını təşviq edərək, bərpaolunan enerji mənbələri sahəsində əməkdaşlığı fəal şəkildə inkişaf etdirməyə və təmiz enerji sahəsində qlobal tərəfdaşlığın formalaşmasını birgə irəlilətməyə hazır olduqlarını bildirirlər.

7. Tərəflər iki ölkənin nəqliyyat sahəsindəki əməkdaşlığını yüksək qiymətləndirir və regional qarşılıqlı əlaqələri təşviq edərək, nəqliyyat infrastrukturunun inkişafına, logistika və daşınmaların səmərəliliyinin artırılmasına dəstəyi davam etdirməyə hazır olduqlarını bildirirlər.

Tərəflər Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında Beynəlxalq Multimodal Daşımalar haqqında Sazişin imzalanmasını yüksək qiymətləndirdilər. Çin birgə şəkildə təhlükəsiz, sabit, birbaşa və Çin-Avropa-Çin transxəzər ekspress-marşrutları yaradaraq, gömrük rəsmiləşdirilməsinin rahatlığı səviyyəsinin və yük daşımalarının səmərəliliyinin ardıcıl şəkildə artırılması məqsədilə Azərbaycan və marşrut boyunca yerləşən digər ölkələrlə əməkdaşlıq etməyə hazırdır. Hər iki tərəf beynəlxalq avtomobil daşımaları üzrə hökumətlərarası sazişin razılaşdırılmasının və bağlanmasının sürətlənməsində, Azərbaycan və Çin arasında avtomobil daşımaları üçün əlverişli şəraitin səviyyəsinin artırılmasında, ikitərəfli ticari-iqtisadi əməkdaşlıq üçün dayaq yaradılmasında maraqlıdır.

Tərəflər qeyd edirlər ki, Çinin keçirdiyi Nəqliyyatın Dayanıqlı İnkişafı üzrə Qlobal Forum dayanıqlı nəqliyyat sahəsində ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün müsbət əhəmiyyətə malikdir.

8. Tərəflər elmi-tədqiqat müəssisələrini və elm işçilərini qarşılıqlı maraq kəsb edən mövzularda birgə tədqiqatlar aparmağa, texnologiya transferinə və əldə olunan nailiyyətlərin kommersiyalaşdırılmasına təşviq edəcəklər, habelə birgə elmi-tədqiqat platformaları yaradacaqlar.

9. Tərəflər müxtəlif kanallar vasitəsilə qarşılıqlı tələbə mübadiləsini davam etdirmək, Azərbaycanda Konfutsi institutlarının inkişafına dəstək vermək və təhsil müəssisələrində Azərbaycan və Çin dillərinin tədrisini təşviq etmək, habelə iki ölkənin müxtəlif tipli təhsil müəssisələri arasında müxtəlif səviyyəli tərəfdaşlıq əlaqələrinin qurulması barədə razılığa gəldilər.

Tərəflər mədəni və yaradıcı kollektivlər xətti üzrə əməkdaşlığı təşviq edəcək, xalqlar arasında qarşılıqlı anlaşmanı dərinləşdirmək və sivilizasiyalararası mübadiləni təşviq etmək məqsədilə qarşılıqlı Mədəniyyət günlərinin keçirilməsini dəstəkləyəcəklər.

Tərəflər turizm siyasətinin əlaqələndirilməsini gücləndirməyə, bir-birinin ərazisində turizmin təşviqi üçün tədbirlərin təşkilinə imkan yaratmağa, turizm müəssisələri, sahəvi assosiasiyalar və digər institutlar arasında profil əlaqələrini dəstəkləməyə, həmçinin ikitərəfli turist axınının və vətəndaşların qarşılıqlı səfərlərinin artırılmasında birgə fəaliyyət göstərməyə hazırdırlar.

Tərəflər səhiyyə, idman, kinematoqrafiya və televiziya sahələrində əməkdaşlığı genişləndirəcək, gənclər və akademik dairələr xətti üzrə dostluq əlaqələrini artıracaqlar.

Tərəflər qarşılıqlı səfərlər, informasiya və təcrübə mübadiləsi vasitəsilə media sahəsində əməkdaşlığın genişləndirilməsini dəstəkləyirlər.

Tərəflər insanlar arasında mübadilənin daha da sadələşdirilməsinə kömək etməyə hazır olduqlarını bildirirlər, bütün sahələrdə əlaqələrin və əməkdaşlığın aktivləşdirilməsi üçün təkan olacaq ümumvətəndaş pasportuna malik şəxslər üçün vizaların qarşılıqlı ləğvi haqqında hökumətlərarası Sazişin razılaşdırılmasını və imzalanmasını alqışlayırlar.

Tərəflər Heydər Əliyev Fondu ilə Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyası və ŞƏT-in Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsi arasında qurulmuş tərəfdaşlıq əlaqələrini, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin müvafiq Çin assosiasiyaları və institutları ilə əlaqələrinin genişləndirilməsini dəstəkləyirlər.

10. Tərəflər terrorizmin, separatizmin və ekstremizmin milli təhlükəsizliyə və regional sabitliyə ciddi hədə olduğunu və bu bəlanın qarşısının alınmasının və ona qarşı birgə mübarizə aparılmasının vacib olduğunu vurğuladılar. İki ölkənin hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri arasında əlaqələri və mübadilələri gücləndirmək, narkotik cinayətləri, transmilli mütəşəkkil cinayətkarlıqla, həmçinin kibertəhlükəsizlik

kimi çağırışlarla birgə mübarizə aparmaq zəruridir. Tərəflər əməkdaşlıq layihələrinin və iki ölkənin müəssisələrinin işçi heyətinin təhlükəsizliyini birgə təmin etməyə hazırdırlar.

Tərəflər humanitar minatəmizləmə sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini vurğulayırlar, bu xüsusda Azərbaycan tərəfi Çin tərəfinin Azərbaycanın minatəmizləmə işinə dəstəyini yüksək qiymətləndirir, Çin tərəfi Azərbaycan tərəfinə maddi-texniki dəstək şəklində minatəmizləmə sahəsində potensialın möhkəmləndirilməsində bundan sonra da yardım göstərməyə hazırdır.

11. Çin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) 29-cu sessiyasının uğurla keçirilməsi münasibətilə Azərbaycanı təbrik edir. Hər iki tərəf COP29-un nəticələrini iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətə mühüm töhfə verəcək tarixi nailiyyət və dönüş nöqtəsi kimi alqışlamışlar.

Tərəflər bütün ölkələri qlobal iqlim idarəçiliyi prosesini dəstəkləməyə, "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası"na və "Paris Sazişi"nə uyğun olaraq öhdəlik və məsuliyyətləri tam və vicdanla yerinə yetirməyə çağırıblar. Tərəflər inkişaf etmiş ölkələri öz tarixi öhdəliklərinə ləyaqətlə yanaşmağa, inkişaf etməkdə olan ölkələrə maliyyə, texnoloji və intellektual dəstək verməyə, inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinə qarşı mübarizə imkanlarının gücləndirməsində kömək etməyə çağırırlar. Tərəflər qlobal iqlim idarəçiliyinə böyük töhfə verməklə iqlim dəyişikliyi ilə mübarizə sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlığı gücləndirməyə davam edəcəklər.

Çin tərəfi Azərbaycanın sədrliyi ilə COP29 çərçivəsində irəli sürülən "Dayanıqlı və sağlam şəhərlərin formalaşması üçün Multisektoral Fəaliyyət Yolları" təşəbbüsünü yüksək qiymətləndirir.

2026-cı ildə Bakı şəhərində 13-cü Ümumdünya Şəhərsalma Forumunun keçirilməsini nəzərə alaraq, Çin tərəfi Azərbaycan tərəfinə dəstəyini ifadə edib, sıx və səmərəli əməkdaşlığa hazır olduğunu təsdiqləyib.

12. Çin Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) tezliklə üzv olmasını dəstəkləyir. Tərəflər dünya iqtisadi düzənində baş verən dəyişiklikləri daha yaxşı əks etdirmək üçün beynəlxalq maliyyə arxitekturasında islahatın təşviqini dəstəkləyirlər. Tərəflər ticarət və investisiyaların liberallaşdırılmasını və sadələşdirilməsini dəstəkləyir, unilateralizm və proteksionizm, despotizm və dünya ticarəti qaydalarının pozulmasının əleyhinə çıxırlar, birgə rifah naminə çoxtərəfli ticarət sistemini birgə səylərlə müdafiə edirlər.

13. Tərəflər BMT mərkəzli dünya quruculuğunun və beynəlxalq hüquqa əsaslanan beynəlxalq nizamın və beynəlxalq münasibətlərin BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə əsaslanan əsas normalarının qorunmasına səy göstərir, hegemonluğa və güc siyasətinə qarşı çıxırlar. Tərəflər ümumbəşəri dəyərlərin – sülh, inkişaf, bərabərlik, ədalət, demokratiya və azadlığın təşviqinin lehinə çıxış edir, yeni növ beynəlxalq münasibətlərin və bəşəriyyətin vahid taleyi birliyinin yaradılmasına səy göstərirlər.

14. Tərəflər birgə müzakirə, birgə quruculuq və birgə istifadə prinsipinə sadiq qalaraq, çoxtərəfliliyə sadiqliyi saxlayaraq qlobal idarəetmə sisteminin təkmilləşdirilməsini təşviq etməyə hazırdırlar. Tərəflər BMT-nin mərkəzi əlaqələndirici rolunun, formalaşmaqda olan bazara sahib ölkələrin və inkişaf etməkdə olan dövlətlərin təmsilçilik və səsvermə hüquqlarının artırılması naminə çıxış edir, BMT və digər çoxtərəfli strukturlar çərçivəsində sıx qarşılıqlı fəaliyyəti davam etdirməyə hazırdırlar.

15. Azərbaycan Çin tərəfindən təklif olunan Qlobal İnkişaf Təşəbbüsünü, Qlobal Təhlükəsizlik Təşəbbüsünü və Qlobal Sivilizasiya Təşəbbüsünü fəal şəkildə dəstəkləyir və BMT-nin 2030-cu ilədək olan Dayanıqlı İnkişaf üzrə Gündəliyinin həyata keçirilməsini sürətləndirmək üçün səyləri birləşdirmək məqsədilə “Qlobal İnkişaf Təşəbbüsünün Dostları Qrupu”na qoşulmağa hazır olduğunu bildirir. Azərbaycan Çin tərəfi ilə qlobal təhlükəsizlik üzrə əlaqələr və qarşılıqlı fəaliyyət qurmağa, sülh və təhlükəsizlik üzrə birgə səylər göstərməyə hazırdır. Azərbaycan tərəfi Çinin BMT-də irəli sürdüyü “Sivilizasiyalararası Beynəlxalq Dialoq Günü”nün elan edilməsinə dair qətnaməni yüksək qiymətləndirir və sivilizasiyaların müxtəlifliyinə hörməti birgə müdafiə etməyə, humanitar mübadilə və əməkdaşlığı fəal şəkildə təşviq etməyə hazırdır. Çin mədəniyyətlərarası dialoqun təşviqi üçün qlobal platforma kimi “Bakı Prosesi” adlı təşəbbüsə uyğun olaraq Azərbaycanın səylərini və bu təşəbbüs çərçivəsində çağırılan qlobal forumları dəstəkləyir.

16. Azərbaycan Çinin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) sədrliyini dəstəkləyir və Çin tərəfinin ŞƏT-in keyfiyyətcə inkişafı üçün göstərdiyi əməli səylərini yüksək qiymətləndirir. Azərbaycan “ŞƏT-in Dayanıqlı İnkişaf İli” tədbirlərində fəal iştirak etməyə və Təşkilatın üzv ölkələri ilə hərtərəfli əməkdaşlığı dərinləşdirməyə hazır olduğunu bildirir. Çin Azərbaycanın ŞƏT-də hüquqi statusunun artırılmasını dəstəkləyir.

17. Çin Azərbaycanın Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsində (AQEM) sədrliyini dəstəkləyir və Azərbaycan tərəfinin AQEM-in inkişafına yönəlmiş “Daha Güclü AQEM: Asiyada qarşılıqlı əlaqə, rəqəmsallaşma və davamlı inkişaf” mövzusunda silsilə

tədbirlərin keçirilməsi üzrə səylərini yüksək qiymətləndirir.

18. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə və səmimi qəbula görə Çin Xalq Respublikasının Sədri Si Cinpinə təşəkkür etdi və öz növbəsində Sədr Si Cinpini hər iki tərəf üçün əlverişli vaxtda Azərbaycana səfərə dəvət etdi.

| | |
|---|---|
| Azərbaycan Respublikasının Prezidenti | Çin Xalq Respublikasının Sədri |

Pekin şəhəri, 23 aprel 2025-ci il".

* * *

Aprelin 23-də Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Pekində Çin Xalq Respublikasının Dövlət Şurasının Baş naziri Li Çianq ilə görüşüb.

Görüşdə ötən ilin iyulunda Azərbaycan və Çin arasında qəbul edilən strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin münasibətlərimizin yüksək səviyyəsini göstərdiyi bir daha vurğulandı. Bu gün imzalanmış hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatın əhəmiyyətinə toxunuldu, onun münasibətlərimizin ruhunu və xarakterini əks etdirdiyi bildirildi. Qeyd olundu ki, münasibətlərimiz qısa vaxtda – bir ildən də az müddətdə strateji tərəfdaşlıqdan hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və bu da öz növbəsində əlaqələrimizin inkişaf dinamikasını göstərir.

Azərbaycanın və Çinin bütün sahələrdə fəal qarşılıqlı fəaliyyət göstərən iki dost ölkə olduğu qeyd edildi, siyasi sahə ilə yanaşı, iqtisadi-ticari əlaqələrimizin inkişafından, həmçinin ötən il ölkələrimiz arasında əmtəə dövriyyəsinin 20 faiz artaraq 3,7 milyard dollar təşkil etməsindən və bu ilin 3 ayı ərzində əmtəə dövriyyəsinin 40 faizə yaxın çoxalmasından məmnunluq bildirildi.

Dövlətimizin başçısı qeyd etdi ki, Çin bizim birinci idxal tərəfdaşımız olmaqla yanaşı, həm də dördüncü ticarət tərəfdaşımızdır. Prezident İlham Əliyev strateji tərəfdaşlıq haqqında Bəyannamənin bütün sahələrdə uğurla həyata keçirildiyini vurğulayaraq, Azərbaycanla Çinin Avrasiyanın bir çox ölkəsini əhatə edən nəqliyyat-logistika əməkdaşlığı sahəsində fəal səylər göstərdiyini dedi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq, Azərbaycanın və Çinin həmişə bir-birinin ərazi bütövlüyünə və suverenliyinə dəstək göstərməsi, ölkəmizin "Vahid Çin" siyasətini daim dəstəklədiyi qeyd edildi. Terrorçuluq, ekstremizm və separatizmlə mübarizədə ölkələrimizin səylərinə toxunuldu.

BMT əsaslı beynəlxalq münasibətlər sisteminin Azərbaycan və Çin tərəfindən dəstəkləndiyi vurğulandı. Dövlətimizin başçısı bu xüsusda dedi ki, BMT Təhlükəsizlik Şurasının qərarlarının icra edilməsi mexanizmi yaradılmalıdır. Belə ki, Azərbaycan uzun müddət BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməməsindən əziyyət çəkib.

Bakıda hökumətlərarası komissiyanın sonuncu iclasının və bu çərçivədə biznes-forumun keçirilməsi xatırlandı. Həmin tədbirdə Azərbaycan və Çin şirkətləri arasında müxtəlif sahələr üzrə əməkdaşlığa dair müqavilələrin imzalandığı vurğulandı.

Çinin Baş naziri Orta Dəhlizin əhəmiyyətinə toxundu və bu marşrut üzrə daşımaların artmasını qeyd etdi.

Azərbaycan və Çinin Orta Dəhlizin yükötürmə imkanlarının daha da genişləndirilməsi istiqamətində birgə səylərinə toxunuldu.

Görüşdə bərpaolunan enerji sahəsində, həmçinin neft-qaz sektorunda Azərbaycan ilə Çin şirkətləri arasında əməkdaşlıq imkanları və Çin texnologiyalarının ölkəmizdə geniş tətbiq olunması ilə bağlı məsələlər müzakirə edildi, bu sahədə böyük investisiya imkanlarının olduğu bildirildi.

Həmçinin ərazilərin minalardan təmizlənməsi istiqamətində əməkdaşlıq müzakirə edildi. Li Çianq qeyd etdi ki, Çin tərəfi ərazilərin minalardan təmizlənməsi sahəsində humanitar dəstək göstərməyə hazırdır.

Azərbaycanın birtərəfli qaydada Çin vətəndaşlarına münasibətdə vizanın ləğv olunmasının ardınca iki ölkə arasında vizaların qarşılıqlı şəkildə ləğvi haqqında sənədin imzalanmasının əhəmiyyətinə toxunuldu, bunun insanlararası təmasların və turizmin inkişafına mühüm töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə kənd təsərrüfatı, o cümlədən baramaçılıq, pambıqçılıq, kənd təsərrüfatı texnikası sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu. Çinin Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirdiyi siyasəti və ölkəmizin Rəqəmsal Transformasiya və Rəqəmsal İnkişaf Konsepsiyasını dəstəklədiyi vurğulandı.

Söhbət zamanı mədəni-humanitar sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı, Heydər Əliyev Fondunun xətti ilə Çində həyata keçirilən layihələr məmnunluqla qeyd olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib.

Abidənin yerləşdiyi meydanda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Çin Xalq Respublikasının Ümumçin Xalq Nümayəndələri Yığıncağının Daimi Komitəsinin Sədri Cao Lıci ilə görüşüb.

Cao Lıci Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın davamlı inkişafını, beynəlxalq səviyyədə nüfuzunun artmasını, iqtisadi sahədə qazandığı nailiyyətləri, əhalinin rifah halının yaxşılaşdığını məmnunluqla qeyd etdi. Bildirdi ki, Çinlə Azərbaycan arasındakı əlaqələr səmimi dostluq və strateji tərəfdaşlıq münasibətləridir. O, iki ölkənin liderlərinin səyləri sayəsində bu gün əlaqələrimizin öz tarixinin ən yüksək inkişaf dövrünü yaşadığını dedi.

Prezident İlham Əliyev də öz növbəsində vurğuladı ki, bu gün münasibətlərimiz artıq özünün ən yüksək inkişaf mərhələsinə – hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qalxıb.

Dövlətimizin başçısı Azərbaycanın daim “Vahid Çin” siyasətini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pislədiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın və Çinin terrorçuluq, ekstremizm, separatizm və radikalizmə qarşı mübarizədə birgə səylərlə çıxış etdiklərini dedi.

Görüşdə ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa toxunuldu, Orta Dəhlizin əhəmiyyəti vurğulandı. Son dövrlərdə Çin şirkətlərinin Orta Dəhliz üzrə daşımalarının 80 faizdən çox artdığı diqqətə çatdırıldı, ticarət dövriyyəsinin 20 faiz artımı məmnunluqla qeyd edildi.

Çinlə Azərbaycanın parlamentlərarası əməkdaşlığının, o cümlədən parlamentlərin dostluq qrupları və komitələri arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığa toxunuldu, bu xüsusda idarəçiliyin müxtəlif aspektləri üzrə təcrübə mübadiləsinin aparılmasının vacibliyi vurğulandı, gənclər, mədəniyyət, idman sahələrində əlaqələrin inkişafı və Azərbaycan-Çin Birgə Universitetinin yaradılmasının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı bərpaolunan enerji sahəsində əməkdaşlıq məsələləri qeyd olundu, Çinin “BYD” şirkətinin elektrik avtomobillərinin Azərbaycana ixracı və bir sıra elektrik avtobuslarının yerli səviyyədə istehsalı üçün strateji tərəfdaş kimi müəyyənləşdirildiyi vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Pekində “China Energy Engineering Corporation Limited” (“Energy China”) şirkətinin sədri Sonq Hailianq ilə görüşüb.

Görüşdə “China Energy Engineering Corporation Limited” şirkətinin Azərbaycanda hazırda bir neçə layihə həyata keçirdiyi vurğulandı. Qeyd edildi ki, şirkət Xəzər dənizində 1 qiqavatlıq külək enerjisi meqalayihəsinin podratçısıdır. “China Energy Engineering Corporation Limited” Füzuli rayonunda Günəş enerjisi və digər layihələrə isə investisiya yatırıb.

Sonq Hailianq rəhbərlik etdiyi şirkət tərəfindən Azərbaycanla birlikdə enerji dəhlizlərində əməkdaşlıqla bağlı təkliflərlə çıxış etdi.

Dövlətimizin başçısı “China Energy Engineering Corporation Limited” şirkəti ilə əməkdaşlığın prioritetliyinə və strateji xarakterinə toxundu.

Söhbət zamanı uzunmüddətli birgə enerji planlaşdırma layihəsi ilə bağlı fikir mübadiləsi aparıldı. Qeyd edək ki, Azərbaycan Prezidentinin Çinə dövlət səfəri çərçivəsində bununla da bağlı sənəd imzalanıb.

Görüşdə Azərbaycanda gələcəkdə enerji tədqiqat mərkəzinin yaradılması ilə bağlı məsələlər müzakirə olundu. Şirkətin suyun idarəedilməsində böyük təcrübəsi nəzərə alınaraq, bu sahədə də əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Qeyd edək ki, fəaliyyət dairəsinə bərpaolunan enerji layihələri ilə yanaşı, hidrogen enerjisi, enerjinin saxlanması və iri elektrik şəbəkələrinin tikintisi kimi istiqamətlər daxil olan şirkətin 147 ölkədə 256 filialı var. Hazırda 416 layihəsi icra olunan şirkət Çinin bərpaolunan enerji bazarının 50 faizinə nəzarət edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri aprelin 24-də başa çatıb.

Pekin Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.

## *Şuşa, Xocalı və Ağdama səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Şuşa rayonunun Daşaltı kənd məscidinin açılışında iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov və "PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev dövlətimizin başçısına və birinci xanıma görülmüş işlər barədə məlumat verdilər.

Daşaltı kənd məscidinin təməli 2021-ci ilin noyabrında Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Məscid kəndin mərkəzində milli memarlıq üslubunda inşa edilib. İkiminarəli məscid ümumi memarlıq kompozisiyası, planlaşdırma və bədii-dekorativ xüsusiyyətlərinə görə Qarabağ memarlıq məktəbinin ənənələrinə uyğun inşa olunub. Hündürlüyü 22,5 metr olan minarələr layihələndirilərkən Yuxarı Gövhər Ağa məscidinin minarələrinin formasından istifadə olunub. İkimərtəbəli məsciddə eyni vaxtda 150-dən çox insan ibadət edə biləcək.

Daşaltı kənd məscidinin inşası Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə maddi-mədəniyyət abidələrimizin, dini ocaqlarımızın bərpası və yenilərinin tikilməsi ilə bağlı verdiyi tapşırıqlara uyğun həyata keçirilib. İşğal dövründə dağıdılan məscidlərimizin bərpası, yeni dini ocaqların inşası Azərbaycan dövlətinin xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin göstəricisidir.

Dövlətimizin başçısına və birinci xanıma "Daşaltı kəndinin yenidən qurulması layihəsi" çərçivəsində görüləcək işlər barədə də məlumat verildi. Bu layihə yerli memarlıq irsinə sadiqlik, ekoloji davamlılıq və müasir turizm infrastrukturu ilə kənd həyatını birləşdirir. Ümumi sahəsi 65 hektara yaxın olan Daşaltı kəndində 80 otaqlı 5 mərtəbəli hotel binası, kotteclər, ticarət və ictimai obyektlər, o cümlədən, informasiya mərkəzi, sərgi binası, emalatxana inşa ediləcək. Layihəyə əsasən təbiət və tarixlə vəhdət təşkil edən, geniş turizm imkanları olan kənd məkanının yaradılması nəzərdə tutulur.

Daşaltı kəndinin rekreasiya zonası təbiətə minimal müdaxilə prinsipi ilə layihələndirilib və təbiətsevərlərin ətraf mühitlə daha sıx əlaqə qurmasına imkan yaradacaq. Layihə müxtəlif yaş qrupları və maraqlara uyğun fəaliyyətləri özündə birləşdirir, həmçinin funksionallıq, sakitlik və macəra arasında tarazlıq yaradaraq, nadir istirahət təcrübəsi təqdim edir.

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında iştirak ediblər.

Səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bu tibb ocağının təməli 2021-ci ilin noyabrında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub. Altı korpusdan ibarət olan mərkəz 90 çarpayılıqdır. Burada terapiya, pediatriya, cərrahiyyə və digər şöbələr fəaliyyət göstərəcək. Mərkəzdə, həmçinin konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostik laboratoriya yaradılıb. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi müasir standartlara cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiyası, rəqəmsal teleskopik rentgen, rəqəmsal stasionar USM cihazları ilə təchiz olunub. Bunlar isə öz növbəsində Mərkəzə müraciət edənlərin müayinə və müalicəsini yüksək səviyyədə aparmağa geniş imkanlar yaradır.

Tibb ocağının ərazisində Gigiyena və Epidemiologiya Mərkəzi, hemodializ və digər korpuslar inşa olunub.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə Azərbaycan dövləti tərəfindən digər sahələrlə yanaşı, tibb xidmətlərinin yüksək səviyyədə təşkili üçün də genişmiqyaslı işlər həyata keçirilir. Şuşada bu cür müasir tibb ocağının yaradılması bunun əyani göstəricisidir. Şuşa Müalicə-Sağlamlıq Mərkəzi şəhərdə yaşayacaq əhalinin tibbi təminatı və sağlamlığının qorunması istiqamətində icra olunan sosial infrastruktur layihəsi kimi çox mühüm rol oynayır. Mərkəzin xidmətlərindən, eyni zamanda, ətraf şəhər və rayonların əhalisi də istifadə edə biləcək.

Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Dövlətimizin başçısına və birinci xanıma yeni yaşayış kompleksi barədə məlumat verildi.

Bildirildi ki, Şuşa şəhərində dördüncü yaşayış kompleksinin layihəsi çərçivəsində 16 binanın inşası nəzərdə tutulub. Kompleksin ümumi sahəsi 6,2 hektardır. Ümumilikdə yaşayış kompleksində 274 mənzilin inşası planlaşdırılır. Binalarda bir, iki, üç, dörd və beşotaqlı mənzillər olacaq. Yaşayış kompleksinin ərazisində zəruri sosial infrastruktur yaradılacaq.

Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa 2020-ci il noyabrın 8-də işğaldan azad edildikdən sonra burada genişmiqyaslı tikinti-quruculuq prosesinə başlanılıb. Bu gün şəhər tarixi siması və mədəni irsi qorunub saxlanılmaqla bərpa olunur, doğma sakinlərinə

yenidən qucaq açır. İndiyədək Şuşaya 376 ailə, ümumilikdə 1409 nəfərdən artıq keçmiş məcburi köçkün qayıdıb.

Qeyd edək ki, indiyədək Şuşada 450 mənzildən ibarət 23 bina sakinlərin istifadəsinə verilib. Növbəti mərhələdə daha üç layihənin icrası nəzərdə tutulur. Dövlət və özəl tərəfdaşlığı çərçivəsində şəhərin mərkəzi küçəsində 10 yaşayış kompleksi inşa edilir. Onların sırasına mehmanxana, ofis binaları və digər obyektlərin tikintisi daxildir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin "Xocalı" yarımstansiyasının və Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 3200 KVA gücündə "Xocalı" yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi Xocalı rayonu ərazisində inşa edilmiş yeni yaşayış komplekslərinin, kənd təsərrüfatı və turizm obyektlərinin, eləcə də sosial-iqtisadi təyinatlı müxtəlif infrastrukturun dayanıqlı, etibarlı və fasiləsiz elektrik enerjisi təminatını həyata keçirmək məqsədi daşıyır.

Yarımstansiyanın elektrik təchizatı üçün "Xankəndi-1" və "Əsgəran" yarımstansiyalarından müvafiq olaraq elektrik verilişi xətləri çəkilib. Tikintisi aparılan 35 kV-luq elektrik verilişi xətti vasitəsilə bu yarımstansiya "Ağdam-2" yarımstansiyası ilə əlaqələndiriləcək ki, bununla da Ağdam-Əsgəran-Xocalı-Xankəndi şəhərləri arasında dairəvi elektrik təchizatı sxemi yaradılacaq.

Rəqəmsal İdarəetmə Mərkəzi vasitəsilə isə şəbəkələrin cari vəziyyətinə dair bütün məlumatlar mərkəzləşdirilmiş şəkildə toplanılır və emal olunur, avadanlıqlar məsafədən idarə edilir və real vaxtda monitorinqi rəqəmsal sistemlər vasitəsilə həyata keçirilir. Yarımstansiya bu məqsədlə yeni nəsil rəqəmsal texnologiyalar və idarəetmə avadanlıqları ilə təchiz edilib.

Bu Mərkəz şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaradır. Yarımstansiyadan qidalanan istehlakçılara elektrik enerjisi verilişində yaranan fasilələr barədə Mərkəz vasitəsilə real vaxt rejimində əvvəlcədən məlumat ötürülmə imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin elektrik şəbəkələrinə inteqrasiyası prosesi Rəqəmsal İdarəetmə Mərkəzi tərəfindən mərkəzləşdirilmiş şəkildə idarə olunduğundan enerji təchizatında fasilələrin yaranma riski minimuma endirilib. Mərkəz alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiyanın işinin multifunksional rejimdə qurulmasını, cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir.

Rəqəmsal İdarəetmə Mərkəzində 52 kVt gücündə Günəş panelləri də quraşdırılıb və istehsal olunan enerjinin şəbəkəyə ötürülməsi təmin edilib, ərazisində elektromobillər üçün sürətli enerjidoldurma cihazları quraşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksinin açılış mərasimində iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına kompleksin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, kompleksə damazlıq, ətlik-südlük heyvandarlıq, istehsal və ictimai iaşə xidmətləri daxildir. Damazlıq fermer təsərrüfatının ümumi tutumu 750 baş iribuynuzlu heyvandan ibarətdir. Hazırda təsərrüfatda 355 baş üç növ müxtəlif cins iribuynuzlu damazlıq heyvan var. Türkiyə və Almaniya texnologiyaları tətbiq olunmaqla fəaliyyət göstərən kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə süd istehsalının illik 3 min tona çatdırılması nəzərdə tutulur. Kompleksdə istehsal olunan məhsullar daxili bazarla yanaşı, Birləşmiş Ərəb Əmirliklərinə və Qətərə ixrac olunacaq.

Müəssisənin işğaldan azad olunmuş ərazilərdəki fəaliyyəti nəticəsində 55 iş yeri yaradılıb. Gələcəkdə süd istehsalı müəssisəsinin də işə salınmasından sonra işğaldan azad edilmiş ərazilərdə şirkət tərəfindən yaradılan iş yerlərinin sayının 100-ə çatdırılması nəzərdə tutulur.

Layihə dəyəri 4,2 milyon manat olan kompleksin ərazisi 7,6 hektardır. 500 hektardan çox ərazidə isə payızlıq arpa və buğda əkilib ki, bu da təsərrüfatda yemə olan ehtiyacı qarşılayacaq.

Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarımıza Böyük Qayıdış Azərbaycanın iqtisadi potensialının artmasına geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin təşviqi biznes cəlbediciliyinin artırılmasında, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir. Regionda istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal edilən texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından, həmçinin burada fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən azad olunublar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışında iştirak edib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və “Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Rövşən Rüstəmov dövlətimizin başçısına əvvəlcə “Bərdə-Ağdam dəmir yolu xətti” layihəsi, Bərdə-Ağdam-Xankəndi dəmir yolunun tikintisi, Xankəndi dəmir yolu və avtovağzal kompleksi barədə məlumat verdilər.

Qeyd edildi ki, Ağdamın müasir şəhər statusuna uyğun inkişafına xidmət edən strateji infrastruktur layihəsi olan Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin təməli 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Dəmir yolu vağzalı gündəlik 800-1000 nəfər sərnişinin daşınmasına imkan verəcək. Avtovağzal isə gündəlik 1300-1500 nəfər sərnişinə xidmət edəcək. Kompleks vahid nəqliyyat qovşağı kimi fəaliyyət göstərəcək.

Ərazisi 8 hektara yaxın olan bu infrastruktur obyektində bütün zəruri otaqlar, həmçinin gözləmə zalları, bilet kassaları, kitabxana, mağazalar, əyləncə zonaları, restoran və istirahət guşələri yaradılıb.

Sərnişinlərin həm qatar perronuna, həm də avtobuslar üçün nəzərdə tutulmuş dayanacaqlara rahat keçidi təmin olunub.

Kompleksin ərazisində, həmçinin müxtəlif növ nəqliyyat vasitələrinin servis binaları və sərnişin platforması tikilib. Ərazidə fərdi, orta və iritutumlu nəqliyyat vasitələri üçün yerüstü avtodayanacaqlar, şəhərlərarası və rayondaxili marşrutlar üzrə avtobuslar üçün perronlar, velosiped dayanacaqları, park və elektromobillər üçün elektrik doldurma məntəqəsi də yaradılıb.

Sonra Bərdə-Ağdam dəmir yolu xətti ilə ilk rəmzi sərnişin qatarı yola salındı.

Qeyd edək ki, işğaldan azad olunmuş rayonlarımızda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin tərkib hissəsi kimi bu ərazilərimizdə mühüm yol-nəqliyyat layihələrinin icrasına da xüsusi diqqət yetirilir. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi bölgədə ictimai nəqliyyatın əlçatanlığını artırmaqla yanaşı, rayonun sosial-iqtisadi dirçəlişinə və regionlararası əlaqələrin genişlənməsinə mühüm töhfə verəcək, öz ata-baba yurdlarına qayıdan soydaşlarımızın digər şəhər və rayonlara rahat şəkildə səfər etməsində böyük rol oynayacaq, ümumilikdə Azərbaycanın nəqliyyat potensialının genişlənməsinə xidmət edəcək. Eyni zamanda, bu cür mühüm infrastruktur layihəsinin həyata keçirilməsi Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə nəqliyyat sahəsində görülən işlərin ardıcıl və yüksək keyfiyyətlə davam etdiyinin bariz nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinin birinci mərhələsinin açılışında iştirak edib.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına burada yaradılmış şərait barədə məlumat verdi.

Qeyd edildi ki, işğaldan azad olunmuş digər ərazilərdəki kimi, Ağdam rayonunda da genişmiqyaslı quruculuq işləri aparılır. Bu işlərin davam etdiyi yerlərdən biri də rayonun Kəngərli kəndidir. Şəhər mərkəzindən 6 kilometr məsafədə yerləşən bu kəndin təməlini 2022-ci il oktyabrın 4-də Prezident İlham Əliyev qoyub.

Kəngərli kəndi 2544 nəfər üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 632 fərdi evin inşası nəzərdə tutulub. Bu kənddə də əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdamın Kəngərli kəndində yerli icra strukturları üçün inşa edilmiş çoxfunksiyalı inzibati binada yaradılan şəraitlə tanış olub.

Burada əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına imkan yaranacaq. Binada müxtəlif tədbirlərin keçiriləcəyi iclas zalı və işçilərin yüksək səviyyədə fəaliyyət göstərmələri üçün iş otaqları yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub.

İkimərtəbəli mərkəzdəki otaqlarda rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Binadakı zalda əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda, gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kənd tam orta məktəbinin binasının açılışında iştirak edib.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 30 sinif otağı olan 484 şagird yerlik məktəbdə təhsil prosesinin müasir səviyyədə təşkili üçün lazımi şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib. Burada biologiya, kimya və fizika laboratoriyaları, informatika, çağırışaqədərki hərbi

hazırlıq kabinetləri, kitabxana, akt və idman zalları, yeməkxana mövcuddur.

Təhsil ocağının ərazisində idman meydançası inşa olunub. Bu meydançadan şagirdlərlə yanaşı, dərsdənkənar saatlarda kənd əhalisi də istifadə edə biləcək. Ərazidə oyun və istirahət sahələri yaradılıb, yaşıllıqlar salınıb.

Qeyd edək ki, kənddə inşa olunmuş bir çox qeyri-yaşayış binasının, o cümlədən məktəb binasının damında da Günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik ehtiyacları təmin ediləcək.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü nəticəsində işğal olunan rayonların təhsil infrastrukturu da tamamilə dağıdılıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Yeni istifadəyə verilən Kəngərli tam orta məktəbi bunun daha bir nümunəsidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Kəngərli kənd körpələr evi-uşaq bağçasının açılışında iştirak edib.

Dövlətimizin başçısına məlumat verildi ki, müasir standartlara uyğun inşa edilmiş 120 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi ilə məşğul olmaq, onların sağlam mənəvi və fiziki mühitdə yetişmələri üçün hər cür şərait var. Otaqların hamısı zəruri avadanlıqla təchiz olunub. Körpələr evi-uşaq bağçasında 6 qrup fəaliyyət göstərəcək.

Bağçanın ərazisində uşaqların əylənməsi üçün meydança yaradılıb, müxtəlif attraksion və idman qurğuları quraşdırılıb, geniş abadlıq işləri görülüb.

Ölkəmizdə yeni uşaq müəssisələrinin yaradılması prosesi işğaldan azad olunmuş ərazilərimizdə də uğurla davam edir. Həyata keçirilən bu layihələr həmin ərazilərimizə köçən uşaqların asudə vaxtlarının səmərəli təşkili və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərin uğurlu nəticələrindəndir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.

Birinci mərhələ üzrə buraya 1279 nəfərin köçürülməsi planlaşdırılır. Artıq 292 fərdi ev inşa olunub. Evlər iki, üç, dörd və beşotaqlıdır.

Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 10-da Ağdam rayonunun Kəngərli kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.

Kənd sakinlərini salamlayan Prezident İlham Əliyev dedi: Kəngərliyə xoş gəlmisiniz.

Sakinlər: Sağ olun. Bu günün qəhrəmanı, Siz xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizi təbrik edirəm, Kəngərliyə həyat qayıdır, Kəngərli sakinləri artıq qayıdır, böyük xoşbəxtlikdir, tarixi hadisədir. Uzun fasilədən sonra doğma dədə-baba torpağında yaşamaq, əlbəttə ki, böyük xoşbəxtlikdir. Bu münasibətlə sizi təbrik edirəm.

Sakinlər: Çox sağ olun, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Siz uzun illər ağır şəraitdə - ölkəmizin müxtəlif yerlərində yararsız evlərdə, yataqxanalarda, uşaq bağçalarında, müəyyən müddət isə çadır şəhərciklərində yaşamısınız. Bu gün isə gözəl kəndin timsalında yeniləşən Azərbaycanı görürük, bərpa olunan Qarabağı görürük. Göstəririk ki, bu torpaqların sahibi həmişə biz olmuşuq, bu gün də belədir. Ancaq bu torpağın sahibi bu torpaqda qurub-yaradır. Mənfur düşmən bütün bu bölgəni viran qoymuşdu. Ağdam rayonunda bir dənə də salamat bina qalmamışdır. Şəhər, bütün kəndlər tamamilə yerlə-yeksan edilmişdir. Təkcə Ağdamda yox, demək olar ki, o vaxt işğal altında olan bütün torpaqlarda Ermənistan dövləti tərəfindən məqsədyönlü siyasət aparılırdı ki, heç vaxt azərbaycanlılar bu bölgəyə qayıtmasınlar. Onlar istəyirdilər bu torpaqları əbədi işğal altında saxlasınlar. Onlara mənəvi və maddi dəstək verən bəzi ölkələr də onlarla həmrəy idi. Amma onlar bir şeyi unudurdular ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, Azərbaycan vətəndaşları heç vaxt öz doğma torpaqlarını unutmayacaq və Azərbaycan dövləti ayağa qalxacaq, güc toplayacaq və düşməni öz torpağından qovacaq. Bunu onlar hesablaya bilməmişdilər.

Bütün bu əzablı illər arxada qaldı. Siz indi öz doğma torpağınıza qayıdırsınız və qayıtmısınız, sizin üçün gözəl şərait yaradılıb. Kəngərli kəndi göz oxşayır. Kəndin bərpasının, yenidən qurulmasının birinci mərhələsidir, 292 ev hazırdır, sizin ixtiyarınıza verilir. İkinci mərhələdə daha çox evlər tikiləcək. Hər cür şərait var. Gözəl evlər, işıq, qaz, su, kanalizasiya sistemləri, məktəb, uşaq bağçası, market, tibb məntəqəsi, hətta bazar kompleksi – hər şey var. Əkin üçün yerlər ayrılacaq. İndi bəzi torpaqlarda artıq minatəmizləmə işləri başa çatıb. Mən göstəriş vermişəm, sakinlərə torpaq sahələri də veriləcək. Həyətyanı sahə də 12 sotdur. Orada da əkib-becərmək mümkündür. Yəni, həyat qayıdır, ədalət zəfər çalıb, ədalətin təntənəsidir. Biz bunun şahidiyik.

Ağdam şəhəri də artıq ərsəyə gəlir. Bu gün səhər Ağdam vağzal kompleksinin açılışını etdim. Bu tədbirdən sonra Ağdam Muğam Mərkəzinin açılışı olacaq. Muğam Mərkəzini Ağdamda ilk layihələrdən biri kimi

inşa etməyimiz bizim mənəvi köklərə bağlı olduğumuzu göstərir. Yəni, bizi millət kimi, xalq kimi saxlayan bizim musiqimiz, dilimiz və əyilməz ruhumuz olub.

Köçkünlər ən çətin şəraitdə yaşayıblar. Siz bilirsiniz ki, işğal dövründə köçkünlərlə mənim çoxsaylı görüşlərim olub, həm çadır şəhərciklərində, - onlara söz vermişdim ki, birinci prezidentlik dövrümdə bir dənə də çadır şəhərciyi qalmayacaq və artıq 2007-ci ildə bir dənə də qalmamışdı, – həm də yeni salınmış qəsəbələrdə, qəsəbələrin açılışında. Biz 300 minə yaxın ovaxtkı köçkünü gözəl evlərlə təmin etmişdik. O görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir, torpaqlar azad olunandan sonra sizin üçün Qarabağda daha gözəl şərait yaradacağıq.

Sakin: Bu günə çox şükür.

Prezident İlham Əliyev: Bugünkü mərasim o sözlərin, necə deyərlər, möhürüdür. Bilirəm, sizdə də, bizdə də – bütün Azərbaycan xalqında heç vaxt şübhə olmayıb ki, biz öz torpaqlarımıza qayıdacağıq. Amma çox möhtəşəm qayıtdıq. 44 gün ərzində düşməni böyrü üstə qoyduq. Ondan sonra da 23 saat ərzində, bəlkə də daha da tez separatçıların kökünü tamamilə kəsdik. Siz – yaşlı nəslin nümayəndələri sovet dövrünü xatırlayırsınız. O vaxt sizin yanınızda yaşayan, bizim torpaqlarımıza çar Rusiyası tərəfindən köçürülən ermənilər bizə, xalqımıza, xüsusilə ovaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətində yaşamış azərbaycanlılara mənfi münasibət göstərirdilər, həm Xocalıda, həm Şuşada onlar mənəvi əzab çəkirdilər.

Bu gün isə Azərbaycan vətəndaşı hər bir qarış torpağının sahibidir, hər yerdə yaşayır, yaşayacaq. Sürətli bərpa işləri onu göstərir ki, tezliklə bütün keçmiş köçkünlər öz torpaqlarına qayıdacaqlar.

Kəngərli kəndi bizim bərpa etdiyimiz sayca 14-cü yaşayış məntəqəsidir. Ağdam rayonunun isə ikinci. Birinci Sarıcalı, indi Kəngərli. Xıdırlı kəndi də demək olar ki, açılışa hazırdır. Yaxın aylarda orada da həyat qaynayacaq. Yəni, siz burada darıxmayacaqsınız, qohum-əqrəba, dost, tanış – hamınız birlikdə bu bölgəni – Qarabağı quracaqsınız, hamımız birlikdə quracağıq.

Sizi təbrik edirəm, cansağlığı arzulayıram. Burada xoşbəxt yaşayın.

Sakinlər: Çox sağ olun.

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

Sakin: Möhtərəm Prezident, bir arzum var və Sizə çatdırmaq istəyirəm.

Prezident İlham Əliyev: Buyurun.

Sakin: Əlbəttə ki, çətin dövrdə yaşamışıq və bugünkü gözəl həyatı da görürük. Müqayisə aparanda düşünürəm ki, buradakılar hər kəsin arzusudur, arzu edirəm ki, ömrünüz uzun olsun, canınız sağ olsun və nə qədər ömrünüz var, hakimiyyətdə olun. Çünki biz inanmırıq ki, Ulu Öndərdən sonra Azərbaycanı Sizdən başqa kimsə bu vəziyyətdə idarə etsin. Sağ olun, var olun, daim hakimiyyətdə olun.

Sakinlər: Amin!

Prezident İlham Əliyev: Sağ olun, çox sağ olun.

Sakin: Hörmətli Prezident, icazə verin, mən ürək sözümü deyim.

Prezident İlham Əliyev: Bəli, əlbəttə, buyurun. Kimin sözü varsa, buyursun.

Sakin: Mən Kəngərlinin yaşlı sakiniyəm, 76 yaşım var. Allah Heydər Əliyevə qəni-qəni rəhmət eləsin.

Prezident İlham Əliyev: Allah rəhmət eləsin.

Sakin: Onun fəaliyyəti dövründə mən ən yaxşı, mükəmməl müəllimlik dövrümü yaşamışam. Əməkdar müəllim kimi iş təcrübəm respublikada yayılıb və bu gün fəxr edirəm ki, onun varisinin, bu günün qəhrəmanının qarşısında mən söz demək qüruru keçirirəm. Allah Sizə cansağlığı versin.

Sakinlər: Amin!

Sakin: Müqəddəs kitabımız "Qurani-Kərim"də belə bir ayə var: "Salam olsun doğru yolun yolçularına". Doğru yolun yolçusu olmaq böyük şərəfdir. Bu şərəfi Siz çox ləyaqətlə yerinə yetirdiniz, tarix yazdınız, möcüzələr qurdunuz, bütöv Azərbaycanı. Eşq olsun Sizə!

Prezident İlham Əliyev: Hamımız birlikdə bunu etdik, hamımız birlikdə!

Sakin: Mən bir ana məhəbbəti ilə, müəllim şəfqəti ilə bu doğru yolun yolçusuna, bu günümüzün qəhrəmanına Dədə Qorqud qopuzundan qopub gələn bir el alqışı diləmək istəyirəm. Arxanızda el dayansın, "El gücü, sel gücü" deyiblər. Nəsibiniz el alqışı olsun. El alqışı kəsərli olar və bir də qüdrətli Allahın gözəl kəlamı ilə salam olsun doğru yolun yolçusuna.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: Sizə böyük uğurlar, ailə səadəti və ailəlikcə Azərbaycanın, cənnətə döndərdiyiniz Azərbaycanın, bütöv Azərbaycanın, bütün güllü-çiçəkli dağlarında, bağlarında, sularında gəzdikcə Allah, Xudavəndi-aləm Sizə uzun ömür, cansağlığı və alın açıqlığı versin.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: Həmişə qalib "dəmir yumruq" yerindədir, Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev: Yerindədir, çox sağ olun.

Sakin: Cənab Prezident, Ağdamın Pirhəsənli Kəngərlisinə xoş gəlmisiniz. Biz bu yolu çox gözləyirdik və Sizin apardığınız məqsədyönlü siyasət nəticəsində 44 gün ərzində torpaqlar azad olundu, biz yaşlı nəslin ömrünü göydə Allah uzatdı, yerdə Siz. Bu kəndin 2600 nəfər əhalisi var. Başda mən olmaqla, əli silah tutanların hamısı Sizin əsgərinizdir.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Allah Sizi qorusun, Allah Sizin kölgənizi Azərbaycan xalqının başının üstündən əskik etməsin.

Sakinlər: Amin.

Sakin: Siz Allahın bizə göndərdiyi bir əmanətsiniz. Allah Sizi qorusun!

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: Yoldaşım da odur, bir xatirə şəkli çəkdirək.

Prezident İlham Əliyev: Gəlsin, hamımız çəkdirək.

Sakin: "Qarabağ şikəstəsi" deyərdim, feyzyab olun.

Prezident İlham Əliyev: "Qarabağ şikəstəsi" bu gün Muğam Mərkəzinin açılışında səslənəcək.

Sakinlər: Allah qoysa. Allah Sizi həmişə toyda, bayramda - belə məclislərdə eləsin.

Prezident İlham Əliyev: Sağ olun.

Sonra şəkillər çəkdirildi.

Sakin: Möhtərəm Prezident, Qarabağ Universitetinin ilk tələbəsidir.

Digər sakin: Bu, mənim nəvəmdir.

Prezident İlham Əliyev: İdmançıdır, hansı idman növü?

İdmançı: Alpaqut Turan Türk döyüş sənəti, əlbəyaxa döyüş.

Sakin: Dörd dəfə dünya çempionu olub.

Prezident İlham Əliyev: Maşallah.

Sakin: Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: İlham müəllim, mənim bir ürək sözüm də var.

Prezident İlham Əliyev: Buyurun, əlbəttə.

Sakin: Bu gün bu möhtəşəmliyə rəng verən Ulu Öndərimiz Heydər Əliyevin doğum günüdür. Allah Sizi qorusun! Onun ruhu bu saat bax, bu təntənəni seyr edir.

Prezident İlham Əliyev: Elədir.

Sakin: Onun vəsiyyəti yerinə yetirilmişdir, şəhidlərin qisası alınmışdır. Allah onlara rəhmət eləsin.

Prezident İlham Əliyev: Amin.

Sakin: Heydər Əliyev gözümüzün qabağında müdriklikdən müqəddəsliyə ucaldı və müqəddəslər kimi ölümsüzlüyə qovuşdu, göylərə çəkildi. Onun ruhu həmişə bu müvəffəqiyyətləri seyr edir, bilir, fəxr edir. Onun Sizin kimi varisi var, Allah qorusun. Onun vəsiyyətini bir övlad kimi, Prezident kimi yerinə yetirdiniz. Üç-dörd ay bundan əvvəl buraya gəldim. Hələ onda bünövrə qoyulmamışdı. Dağıdılmış evlərə, daş-kəsəyə baxanda fikirləşdim, bunu necə təmizləmək olar ki, burada ev tikəsən. Budur, Kəngərli gülzara çevrilib. İndi Kəngərlidə mənim kimi yaşlı tək-tük adam var. Hazırda buraya köçən adamların demək olar ki, hamısı mənim şagirdim olub. Şəhidlərimizə Allah rəhmət eləsin.

Prezident İlham Əliyev: Allah rəhmət eləsin.

Sakin: Kəngərlilər adından Sizə uzun ömür, cansağlığı, ailə səadəti arzulayıram.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: Həmişə fikir vermişik, başqa prezidentlər çıxışlarını vərəqdən oxuyurlar, Siz isə şifahi danışırsınız. Həmişə başın ucadır, alnın açıqdır, bütöv Azərbaycan yaratdın, möcüzələr yaratdın qardaş, möcüzə, Allah qorusun!

Sakinlər: Amin.

Prezident İlham Əliyev: Sağ olun. Mayın 10-u, təbii ki, mənim üçün, Azərbaycan xalqı üçün əziz bir gündür. Hesab etdim ki, mən məhz bu gün burada olmalıyam, mayın 10-da biz bu mərasimi keçirməliyik - həm Kəngərli kəndinin, həm Muğam Mərkəzinin açılışını. Əlbəttə, başqa gün də ola bilərdi. Ancaq siz də tamamilə haqlısınız. Ulu Öndər Heydər Əliyev başda olmaqla bizim bu günümüzü görməyənlərin hamısının ruhları bu gün bu dağlarda, bu səmada dolaşır. Onların ruhlarını şad elədik. Allah şəhidlərimizə rəhmət eləsin.

Sakinlər: Amin.

Prezident İlham Əliyev: Sizin kimi müəllimlər igid gənclər yetişdirmisiniz. O gənclər ki, gedib sinələrini qabağa verib torpaqlarımızı düşməndən azad etdilər. Bu, tarixi hadisədir və bugünkü dünyada gedən prosesləri hər birimiz izləyirik. İndi internet dövrüdür, hər bir məlumatı dərhal tapmaq mümkündür. Bizim qədər qələbəyə layiq olan ikinci xalq bəlkə də yox idi. Çünki biz 30 il bu günü gözləyirdik. Nəinki gözləyirdik, biz hər gün hər birimiz o günü yaxınlaşdırırdıq. Prezident, Ali Baş Komandan kimi mənim, siz vətəndaşların, ordumuzun, müəssisələrdə çalışanların - bizim hamımızın bütün səyləri, bütün amalı bir ideya uğrunda birləşmişdi: bu torpaqları, doğma diyarımızı mənfur düşməndən azad etmək! Bunun yeganə yolu var idi, ancaq döyüş meydanında. Çünki bütün başqa yolları biz sınadıq, çalışdıq. Nə qədər çalışdıq Ermənistan rəhbərliyini inandıraq ki, bu torpaqlardan öz xoşu ilə getməlidir.

Mən dünən gəldim buraya. Xatırlayırdım, biz 2018-ci ilin noyabr ayında Quzanlıda Muğam Mərkəzi açdıq. O vaxt yadınızdadır, Quzanlını biz Ağdam rayonunun mərkəzi elan etdik. Orada Ağdamdan və digər bölgələrdən olan bizim tanınmış ziyalılarla görüş zamanı demişdim ki, Ermənistan torpaqlarımızı azad etməlidir. Demişdim ki, biz gec-tez ərazi bütövlüyümüzü istənilən yolla bərpa edəcəyik, eşitmədilər bizi. Ona görə bizim tarixi Zəfərimiz artıq dünyada bir möcüzə kimi qəbul edilir. Çünki bu, mütləq və tam Qələbədir. Nə o Qələbəyə qədər onilliklər ərzində, nə ondan sonra keçən 4-5 il ərzində mütləq və tam qələbə heç kim tərəfindən qazanılmamışdır. Bunun əsas səbəbi Azərbaycan xalqının əyilməz ruhudur. Bax, mən bunu sizə açıq deyirəm. Hər birimizin payı var. Əlbəttə, Ali Baş Komandan, bütün əməliyyatlara və bütün işlərə rəhbərlik edən şəxs kimi mənim payım da var, təbii olaraq, amma hər birimizin. Çünki xalq arxamda durmasaydı, əgər müharibə dövründə hər hansı bir tərəddüd hiss olunsaydı, yaxud da ki, cəmiyyətdə hər hansı bir fikir ayrılığı olsaydı, bu Qələbəni belə şəraitdə, belə ağır vəziyyətdə qazanmaq mümkün olmazdı.

Şəhidlər dəfn olunurdu, şəhidlərin anaları, ataları, yaxınları deyirdilər ki, dayanma. Bilirsiniz bu nədir?!

Xalqımız böyük xalqdır. Biz haqlı olaraq xalqımızla fəxr edirik, sizinlə fəxr edirik. Otuz il əzab-əziyyət içində - çadırda, istidə, soyuqda, vaqonun altında, yataqxanada, uşaq bağçasında yaşamısınız, amma inamınızı, iradənizi itirməmisiniz, belə oğullar yetişdirmisiniz. Onlar Bakıda, Bərdədə, Sumqayıtda yaşayıblar, bu bölgələri heç vaxt görməyiblər, amma gəliblər. Çünki torpaq çəkir. Onlarda vətənpərvərlik hissini sizin kimi analar, müəllimlər, məktəb və ailə formalaşdırıb. Bizi saxlayan bizim dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz və gənc nəsil yetişdirən ailə və məktəb olub.

Sakin: Allahın qüdrəti köməyiniz olsun.

Prezident İlham Əliyev: Biz bundan sonra ancaq və ancaq qalib xalq kimi yaşayacağıq, bu torpaqlarda əbədi yaşayacağıq və xoşbəxt yaşayacağıq.

Sakin: Haqdan yanan çıraq heç vaxt sönməz. Sağ olun.

Sakinlərdən biri muğam ifa edir.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Qarabağ bülbüllərindəndir.

Prezident İlham Əliyev: Bu gün Muğam Mərkəzinin açılışında da konsert olacaq. Həm Sarıcalıdan, həm Kəngərlidən vətəndaşlar dəvət olunub. Ona görə sizin bəzileriniz orada iştirak edəcəksiniz. Bir daha təbrik edirəm.

Sakin: Mənim ürəyimdə bir söz var, oraya qədər deyim. Sizin çox gözəl kəlamınız var. Hər bir vətəndaşın Prezidenti olacağam.

Prezident İlham Əliyev: Bəli, onu 2003-cü ildə demişdim.

Sakin: Mübarək ad gününüzü xalq arasında keçirirsiniz. Bu gün isə Ulu Öndərimizin, – qəbri nurla dolsun, - ad günüdür. Eyni zamanda, mənim də ad günümdür, sağ olun. Allah Sizə cansağlığı, uzun ömür versin.

Prezident İlham Əliyev: Təbrik edirəm. Sağ olun.

Mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına və birinci xanıma burada yaradılan şərait barədə məlumat verib.

Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

Mərkəzdə kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb.

Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib.

Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun təşkilatçılığı və dəstəyi ilə bu istiqamətdə respublika və beynəlxalq əhəmiyyətli ənənəvi layihələr həyata keçirilir. Bu layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi mədəni irsinin şah əsərləri" siyahısına salınıb.

Sonra dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

-Əziz dostlar, əziz ağdamlılar, bu gün ölkəmizin tarixində çox gözəl bir gündür. Dirçələn Ağdam şəhərində Muğam Mərkəzinin açılışı tarixi bir gündür. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Bu gözəl tədbirin mayın 10-da keçirilməsi, təbii ki, rəmzi məna daşıyır. Bu gün Ulu Öndər Heydər Əliyevin doğum günüdür. Mənim üçün, hər bir vətənpərvər insan üçün əziz bir gündə bu tədbiri keçirmək, əlbəttə ki, böyük məna daşıyır. Ulu Öndərin bütün həyatı, bütün fəaliyyəti Azərbaycan xalqına, dövlətinə həsr edilmişdir və bugünkü Azərbaycan onun əsəridir. Məhz onun 1993-cü ildə Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu. Vəziyyət çox ağır idi. O günləri yaşayan insanlar bunu çox yaxşı xatırlayırlar. Ölkə demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə özbaşınalıq, xaos, anarxiya hökm sürürdü. İqtisadiyyat iflic vəziyyətdə, torpaqlarımız isə işğal altında idi və işğal davam edirdi. Ermənistan xarici dəstək ilə Azərbaycana qarşı öz işğalçılıq siyasətini həyata keçirirdi. Nizami ordu demək olar ki, yox idi. Belə bir böhranlı vəziyyətdə – daxili çəkişmələr, müxtəlif bölgələrimizdə xoşagəlməz hadisələr baş verdiyi bir dövrdə xalqın tələbi ilə Ulu Öndərin hakimiyyətə gəlməsi bizim üçün nicat yolunu açdı və o vaxtdan bu günə qədər Azərbaycan inkişaf yolu ilə gedir.

Otuz iki il ərzində bir çox hadisələr baş vermişdir. Ancaq bütün hadisələrə, bütün çətinliklərə baxmayaraq, biz inkişaf yolumuzdan dönmədik. O vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi. Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik,

amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın, nizami ordu yaradılsın. Yəni, biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir.

Əlbəttə, həyat yerində durmur. Son 22 il ərzində dünyada və ölkəmizdə bir çox hadisələr baş vermişdir. Ancaq strateji xətt Ulu Öndər tərəfindən müəyyən edildi və biz o xətdən bir addım kənara atmadıq. Bu gün azad Qarabağda sizin qarşınızda çıxış etmək böyük xoşbəxtlikdir. Bu gün Qarabağ dirçəlir, bərpa edilir. İkinci Qarabağ müharibəsindən keçən dörd il yarım ərzində quruculuq işləri göz qabağındadır. O cümlədən Ağdam şəhərində də bunu görmək mümkündür. Azad edilmiş bütün torpaqlarda geniş quruculuq, bərpa işləri aparılır. İşğal dövründə Ermənistan dövləti məqsədyönlü siyasət apararaq bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Buraya və azad olunmuş digər bölgələrə səfər edən xarici qonaqlar öz təəccübünü və bir çox hallarda hiddətini gizlədə bilmirlər. Onlara başa salanda ki, bu dağıntılar müharibə zamanı yox, atəşkəs zamanı törədilmişdir, əlbəttə ki, erməni faşizminin eybəcər sifəti açıq-aydın görünür.

Bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı urbisid törədilmişdir, ekosid törədilmişdir. Erməni faşizmi bu bölgəni daim işğal altında saxlamaq istəyirdi və əfsuslar olsun ki, onların arxasında duran bəzi xarici dövlətlər onlarla həmrəy idi. Açıq olmasa da, gizli kanallarla onlara verilən mesajlar ondan ibarət idi ki, Azərbaycan cürət edib heç vaxt azadlıq müharibəsinə başlamayacaq, biz sizin arxanızdayıq, biz sizə dəstək olacağıq, sizə silah veririk, mənəvi dəstək veririk, sizin üçün mənəvi dayağıq. Bütün bu amillər Ermənistanı faktiki olaraq öz işğalçılıq siyasətində daha da gücləndirirdi. Ancaq onlar bir şeyi hesablaya bilməmişlər: o da Azərbaycan xalqının iradəsi, milli ruhu, xalqımızın əyilməz ruhu və bu torpağa olan bağlılığımız.

İşğal dövründə – 30 il ərzində biz hər gün bu müqəddəs azadlıq gününü yaxınlaşdırırdıq. Hər birimiz öz iş yerində vahid amal uğrunda birləşərək, azadlıq üçün, azadlıq müharibəsi üçün yorulmadan çalışırdıq. Bütün cəmiyyət bir amal uğrunda birləşəndə o cəmiyyət böyük işlərə qadirdir. Heç bir qüvvə xalq qarşısında dura bilməz. Xalqımızın böyüklüyü məhz bundadır. Biz açıq-aydın başa düşürdük və görürdük ki, hansı qüvvələr Ermənistana dəstək verir, hansı qüvvələr onların arxasındadır, hansı qüvvələrlə biz üz-üzə gələ bilərik və gəlmişik də. Amma bu, bizi çəkindirmədi. Artıq biz "öldü var, döndü yoxdur" şüarı ilə yaşayırdıq və 44 günlük Vətən müharibəsi həm peşəkarlıq, həm qəhrəmanlıq, həm milli ruh salnaməsidir. Bu, bütün dünyaya Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu göstərdi. Onu göstərdi ki, Azərbaycan xalqı mütləq və tam qələbə qazanmaq üçün öz canından keçməyə hazırdır. Qələbəmizi bir çox amillər şərtləndirdi. Biz son dörd il yarım ərzində bu barədə dəfələrlə danışmışıq, fikirlərimizi bölüşmüşük.

Bütün bunlar cəmiyyətdə birmənalı qəbul edilir: siyasi iradə, iqtisadi güc, müstəqil siyasət, güclü Ordu, vətənpərvərlik və gənc nəsil – milli ruhda tərbiyə olunan, bu torpaqları heç vaxt görməyən gənc nəsil. Bu torpaqları heç vaxt görməyənlərin, müharibədə iştirak edənlərin əksəriyyəti işğal dövründə doğulmuş insanlar idi. Onları doğma torpağa çəkən o tarixi bağlar - bütün bu və digər amillər bizim Qələbəmizi şərtləndirdi və biz mütləq və tam Qələbə qazandıq. Nə bizdən qabaqkı onilliklər ərzində, nə bizdən sonrakı dörd il yarım ərzində heç kim mütləq və tam Qələbə qazanmamışdır və elə görünür ki, qazanmayacaq. Bunu mən müqayisə üçün demirəm. Amma dünyada hər şey müqayisə ilə ölçülür. Biz 44 gün ərzində hər gün irəli gedirdik, hər gün itkilər verirdik, şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Hər gün yeni uğurlar əldə edirdik, hər gün hansısa kəndləri azad edirdik. Bu, bizə əlavə ruh verirdi, əlavə güc verirdi. Xalqımız tam birləşdi. Bu, mənə Ali Baş Komandan kimi əlavə mənəvi ruh verirdi. Bu, bizim hamımızın Qələbəsidir. Azərbaycan xalqı bu Qələbəni əldə etməklə öz tarixi böyüklüyünü bütün dünyaya nümayiş etdirdi. Təsadüfi deyil ki, Azərbaycana dünyada olan münasibət, - hətta bizə düşmənçilik edən dairələr, qüvvələr, ölkələr bilirlər ki, biz ləyaqətli xalqıq, hörmətə layiq olan xalqıq və bizimlə hesablaşmaq lazımdır. Ən azı yaşadığımız bölgədə bizimlə bu gün hesablaşmayan sabah peşman olur.

Buraya gələrkən yeddi il əvvəl Quzanlı qəsəbəsində Muğam Mərkəzinin açılışını xatırlayırdım. O vaxt Ağdam şəhəri və rayonun böyük hissəsi işğal altında olduğu üçün biz Quzanlı qəsəbəsini Ağdam rayonunun mərkəzi elan etdik, orada mənim iştirakımla Muğam Mərkəzinin təməli qoyuldu və 2018-ci ilin noyabr ayında açılışı oldu. Mən orada incəsənət xadimləri ilə görüş əsnasında demişdim ki, biz ədalət tələb edirik. Demişdim ki, əgər Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmasa, biz istənilən varianta hazırıq. Ermənistan rəhbərliyi buna məhəl qoymadı. Onlara dəstək olan dairələr onlara pis məsləhət verdilər və Azərbaycan xalqı haqqında yanlış təsəvvür yaradılmışdı. İndi onlar peşmandırlar. O gündən iki il sonra Vətən müharibəsi başladı və cəmi 44 gün ərzində biz tarixi Zəfər çaldıq, Ermənistan kapitulyasiya aktına qol çəkməyə məcbur oldu və Qarabağın əsas hissəsi, böyük hissəsi işğaldan azad edildi. Ancaq biz bilirdik ki, bu,

tarixi Qələbə olsa da, ölkə suverenliyi hələ tam bərpa edilməyib. Hələ ki, Laçın istiqamətində Azərbaycan-Ermənistan sərhədinə biz nəzarət etmirdik, bəlli olan səbəblərə görə. Əlbəttə ki, biz 2020-ci il noyabrın 10-dan 2023-cü il sentyabrın 20-nə qədər yenə də hər gün, hər saat siyasi, diplomatik, hərbi və digər alətləri işə salaraq bax bu günü – 20 sentyabr gününü yaxınlaşdırırdıq. Nəhayət 2023-cü il sentyabrın 20-də Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi və 30 il ərzində qanunsuz fəaliyyət göstərən dırnaqarası "Dağlıq Qarabağ Respublikası" artıq tarixin zibilxanasına göndərildi.

Bu gün biz azad Qarabağda azad yaşayırıq. Bu gün Ağdam və bütün digər şəhərlərimiz bərpa edilir. Bu gün səhər Ağdam dəmir yolu vağzalının açılışını qeyd etdik. Bakıdan, Gəncədən, digər bölgələrdən Ağdama rahat gəlmək üçün indi gözəl imkanlar var. Eyni zamanda, biz Ağdam-Xankəndi dəmir yolunun bərpası istiqamətində işlərə başlamışıq və yəqin ki, bir il yarım, maksimum iki il ərzində Xankəndi şəhərində vağzal kompleksi tikiləcək. Bildiyiniz kimi, artıq Xankəndidə Qarabağ Universiteti fəaliyyət göstərir, 8 mindən çox insan yaşayır və eyni zamanda, Xankəndidən, həmin o vağzal kompleksindən Şuşaya gedən yol qısalır. O yolu da biz qısaldırıq. Həm genişləndiririk, həm qısaldırıq ki, maksimum 10 dəqiqə ərzində Xankəndidən Şuşaya gəlmək mümkün olsun. Bir fikrimiz də var. Onu ilk dəfə mən ictimaiyyətlə bölüşürəm. Biz Şuşanı Xankəndi ilə birləşdirən "Kanat yolu" layihəsi üzərində işləyirik. Onu da bildirməliyəm ki, Laçın şəhərində kanat yolunun tikintisinə yəqin ki, bu il başlanılacaq. Kəlbəcərdə də belə layihə var. Yəni ki, bu, həm turizm baxımından, həm insanların rahat gediş-gəlişi üçün çox gözəl bir vasitə olacaq.

Ağdam-Bərdə avtomobil yolu. İndi Bakıdan gələn qonaqlar o yolla gəliblər. Möhtəşəm bir yoldur. Sovet vaxtında belə yol olmamışdır. Ağdam-Xankəndi-Şuşa yolu, dəmir yolu, infrastruktur layihələri, tarixi abidələrimizin bərpası – birinci bərpa edilmiş bina Ağdam Cümə məscidi idi. İndi Qiyaslı məscidində bərpa işləri aparılır. Yaşayış kompleksləri inşa edilir, iki mehmanxana inşa edilib. İmarət kompleksi bərpa edilib, Xaçınçay su anbarı əkin sahələrini, torpaqları suvarma suyu ilə təmin etmək üçün fəaliyyətə başlayır və bir çox başqa layihələr icra edilir. Bunlar təkcə Ağdam rayonuna aiddir. Əgər bütün görülən işlərin miqyasını götürsək, sözün düzü, mən bilmirəm hansı ölkədə hazırda bu miqyasda quruculuq, inkişaf işləri aparılır. Yəni bu, yenə də xalqımızın zəhməti hesabına qazanılan nailiyyətdir. Bütün bunları biz öz hesabımıza edirik və bütün işləri də özümüz planlaşdırırıq. Bütün insanlar həvəslə, zövqlə işləyirlər. Belə gözəl mədəniyyət ocaqları yaradırıq və bu gün burada məndən sonra çıxış edəcək bizim tanınmış ifaçılar öz məharətlərini göstərəcəklər. İstərdim ki, artıq bu gözəl salonda müntəzəm olaraq gözəl muğam bayramları, o cümlədən muğam müsabiqələrinin tədbirləri keçirilsin. Əminəm ki, belə də olacaq.

Mən sizin hamınızı ürəkdən təbrik edirəm, həm bu möhtəşəm Muğam Mərkəzinin açılışı, həm də bizim bütün uğurlarımız, əldə etdiyimiz bütün nailiyyətlər və gələcək nailiyyətlər münasibətilə. Biz müzəffər xalqıq, qalib xalqıq. Öz torpağımızda yaşayırıq. Bir daha sübut etdik ki, bu torpaqların sahibi bizik, çünki biz dağıdan yox, qurub-yaradanıq və bundan sonra da bu torpaqlarda əbədi yaşayacağıq.

Yaşasın Ağdam, yaşasın Azərbaycan!

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Muğam Mərkəzinin açılışına həsr olunan konsert proqramına baxıblar.

Konsertdən sonra dövlətimizin başçısı və birinci xanım incəsənət ustaları və müharibə veteranları ilə söhbət etdilər.

Xalq artisti Bəyimxanım Cavanşirova-Verdiyeva: Bu gün Azərbaycan muğamının təntənəsidir. Bu gün ən gözəl gündür. Doğma Qarabağımızda Ulu Öndərimizin ruhu şaddır. Xatirinizdədirsə, həmişə o, öz çıxışlarında deyərdi ki, biz Qarabağa qayıdacağıq. Bu gün həmin gündür. Ruhu şad olsun. Çox-çox təşəkkür edirik, minnətdarıq Sizə. Var olun hamınız. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Bəyimxanım Cavanşirova-Verdiyeva: Allah Sizi var eləsin.

Prezident İlham Əliyev: Sizi bir daha təbrik edirəm, həmişə toy-bayram olsun Qarabağda, Azərbaycanın hər bir guşəsində.

Bəyimxanım Cavanşirova-Verdiyeva: Amin. Xalqa ruh verən Sizsiniz. Allah Sizi var eləsin.

Prezident İlham Əliyev: Qəhrəmanlarımız da bizimlə bərabərdirlər. Onları alqışlayaq.

Birinci Qarabağ müharibəsi qazisi Rey Kərimoğlu: Cənab Prezident, Siz bu millətə sahib çıxdınız. Mən özüm Birinci Qarabağ müharibəsinin qazisiyəm. Amma yiyəmiz olmadı o vaxt. Siz millətə sahib çıxdınız. Sizinlə fəxr edirik. Allah Sizi qorusun. Allah Sizi var eləsin.

Xalq artisti Ramiz Quliyev: Möhtərəm cənab Prezident, əzizimiz, çox gözəl xanım, canımız, ciyərimiz. Siz bizə gözəl bir gün bəxş etdiniz. Cənab Prezident, gözəl bir gündür. Ulu Öndərin 102-ci ildönümü günüdür, ruhu şad olsun. Yüz illər ötsə də Ulu Öndərin xatirəsi yaşayacaq. Necə ki, Qarabağı bu cür düzəltdiniz, yüz illər gəlib gedəcək, dünyanın bütün ölkələri Sizdən nümunə götürəcək, bu gün də götürür. Muğam da var, xalqımız da var, Siz də varsınız. Sizi bağrıma basıram. Çox sağ olun, var olun.

Prezident İlham Əliyev: Sağ olun.

Qazi Qəhrəman Hüseynov: Cənab Prezident, ömrümün bu çağında Allaha yalvarmışam ki, Sizinlə görüşə bilim. Bir dəqiqə Sizinlə görüşərdim.

Prezident İlham Əliyev: Gəl, gəl görüşək.

Qazi Qəhrəman Hüseynov: Şükür İlahi. Mehriban xanım, xoş gördük. Gecələr Allaha yalvarırdım, ay Allah, Prezidentimlə görüşüm.

Ağır gündə zireh geyən,
Düşmənlərin qəddin əyən,
El yığılıb alqışlayan
Rəhbərimə salam olsun!

Zəfərlərə meydan quran,
Keşiyində məğrur duran,
Yağı başa yumruq vuran
Rəhbərimə salam olsun!

Heydər baba dərsin alan,
Yağıları lərzəyə salan,
Qalib yazıb, qalib olan
Rəhbərimə salam olsun!

Əməlləri işıq saçan,
Səmasında qartal uçan,
Turanlara yollar açan
Rəhbərimə salam olsun!

Qəhrəmanlar vüqarından,
Ağdamlılar baharından,
Şəhidlərin diyarından
Rəhbərimə salam olsun!

Prezident İlham Əliyev: Çox sağ olun.

Sevinc Alızadə: Cənab Prezident, Sizə təşəkkür etmək istəyirəm. Mən şəhid polkovnik-leytenant Raquf Orucovun həyat yoldaşıyam, həm də “Zəfər” təşkilatının sədriyəm.

Prezident İlham Əliyev: Tanıyıram. Allah rəhmət eləsin.

Sevinc Alızadə: Mehriban xanım həmişə bizə dəstək olub.

## *Albaniyaya işgüzar səfər*

Mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə “Avropa Siyasi Birliyi”nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gəlib.

Tirana şəhərinin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Albaniya Baş nazirinin müavini, infrastruktur və energetika naziri Belinda Balluku və digər rəsmi şəxslər qarşıladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mayın 16-da Tiranada Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub.

Antonio Koşta və Ursula Fon der Lyayen Azərbaycanın Avropa İttifaqının vacib və etibarlı tərəfdaşı olduğunu bildirərək, ölkəmizin xüsusilə Avropanın enerjiyə ehtiyacı olan zaman göstərdiyi dəstəyi yüksək qiymətləndirdiklərini dedilər.

Azərbaycanın Mərkəzi Asiya regionu ilə əlaqələri və Orta Dəhlizdə aparıcı rolu vurğulandı. Bununla yanaşı, ölkəmizin regionda və onun hüdudlarından kənarda sülhün və sabitliyin təmin olunmasında müxtəlif tərəflər arasında dialoqun aparılması üçün platforma rolu oynadığı da məmnunluqla qeyd edildi.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrə mühüm əhəmiyyət verdiyini deyərək, ölkəmizin Avropanın enerji təhlükəsizliyində roluna toxundu. Dövlətimizin başçısı ölkəmizlə Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük perspektivlərin olduğunu dedi, bu gün Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 ölkəsinin enerji təminatında Azərbaycanın rolunu vurğuladı.

Ölkəmizin Orta Dəhlizdə oynadığı vacib rola toxunan Prezident İlham Əliyev bu dəhlizin inkişafı məqsədilə Azərbaycanda yaradılmış nəqliyyat infrastrukturuna qoyulmuş investisiyaları və bu istiqamətdə aparılan işləri qeyd etdi. Dövlətimizin başçısı Orta Dəhlizlə yüklərin daşınma həcminin artdığını da dedi.

Söhbət zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri səviyyəsində Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyanın bərpaolunan enerji resurslarının ötürülməsi sahəsində imzalanmış strateji tərəfdaşlıq haqqında Sazişə, həmçinin Qara dənizin dibi ilə bərpaolunan enerji resurslarının ixracı üçün elektrik kabel xətti layihələrinə toxunuldu.

Avropa İttifaqı ilə əməkdaşlıq üçün bu istiqamətlərdə geniş imkanların olduğu qeyd edildi.

Görüşdə Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələrə toxunuldu, bu sahədə də Avropa İttifaqı ilə əməkdaşlıq üçün böyük perspektivlərin mövcud olduğu vurğulandı.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

Albaniyanın paytaxtı Tirana şəhərində "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Albaniya Respublikasının Baş naziri Edi Rama Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Toplantı iştirakçıları birgə foto çəkdirdilər.

Builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Tədbirdə innovasiya, enerji və sənaye davamlılığına keçid yolu ilə rəqabətqabiliyyətli və iqtisadi təhlükəsizlik, miqrasiya, Avropanın yeni dünya kontekstində lider mövqe tutması kimi mövzular müzakirə olunur.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik və demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi və iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

* * *

Mayın 16-da Tiranada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Albaniya Respublikasının Baş naziri Edi Rama arasında işçi nahar əsnasında görüş olub.

Dövlətimizin başçısı "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısının uğurla təşkil edilməsi münasibətilə Baş nazirə təbriklərini çatdırıb.

Söhbət zamanı Azərbaycan ilə Albaniya arasında ikitərəfli münasibətlərin xüsusilə enerji sahəsində inkişafından, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib. Albaniyanın Korça şəhərinin Azərbaycan qazı ilə təchiz edilməsi layihəsinin önəmi vurğulanıb.

Azərbaycan Prezidenti və Albaniyanın Baş naziri ölkələrimiz arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Albaniya Respublikasına işgüzar səfəri mayın 16-da başa çatıb.

## *Macarıstana işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Macarıstanın Baş naziri Viktor Orbanın dəvəti ilə mayın 20-də Macarıstana işgüzar səfərə gəlib.

Paytaxt Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini Macarıstanın Avropa İttifaqı məsələləri üzrə naziri Yanoş Boka və digər rəsmi şəxslər qarşıladılar.

Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə məhdud tərkibdə görüşü olub.

Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan Prezidenti və Macarıstanın Baş naziri birgə foto çəkdirdilər.

Mayın 20-də Budapeştdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstanın Baş naziri Viktor Orban ilə geniş tərkibdə görüşü olub.

Viktor Orban həm Macarıstana işgüzar səfər etməsinə və səfər çərçivəsində keçirilən ikitərəfli görüşlərə, həm də Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasında iştiraka dəvəti qəbul etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Baş nazir vurğuladı ki, ölkəsinin Türk Dövlətləri Təşkilatında müşahidəçi dövlət olaraq bu tədbirə ev sahibliyi etməsi Macarıstanın təşkilat çərçivəsində əməkdaşlığa sadiq olduğuna böyük əhəmiyyət verməsinin növbəti göstəricisidir.

İkitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etməsindən məmnunluğunu bildirən Viktor Orban Macarıstan iqtisadiyyatının çətin vaxtlarında Azərbaycanın dost ölkə olaraq göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini dedi.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayaraq, mütəmadi qarşılıqlı səfərlərin həyata keçirildiyini qeyd etdi.

Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının qeyri-rəsmi iclasının keçirilməsini vacib bir addım kimi qiymətləndirdi. Azərbaycanın təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşünün Şuşa şəhərində keçirildiyini

xatırladan və bunun artıq ənənəyə çevrildiyini deyən dövlətimizin başçısı ikinci bu cür tədbirin müşahidəçi dövlət olaraq Macarıstanda keçirilməsini məmnunluqla vurğuladı.

Söhbət zamanı Azərbaycanla Macarıstan arasında sıx siyasi dialoqun mövcud olduğu, mütəmadi şəkildə məsləhətləşmələrin aparıldığı və beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin bir-birini dəstəklədiyi qeyd edildi. Azərbaycanın və Macarıstanın beynəlxalq səviyyədə öz ölkələrinin milli maraqları əsasında müstəqil siyasət aparan dövlətlər olduqları vurğulandı. Cəbrayılın Soltanlı kəndinin, həmçinin məktəb tikintisi layihəsinə görə Macarıstana təşəkkür bildirildi.

Humanitar sahədə uğurlu əməkdaşlığa toxunuldu, azərbaycanlı tələbələrin Macarıstanda təhsil almaları və onlara təhsil təqaüdlərinin ayrıldığı qeyd edildi.

Söhbət zamanı enerji, investisiyalar, əczaçılıq, qida sənayesi və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

Mayın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Macarıstanın Baş naziri Viktor Orban mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Macarıstanın Baş naziri bəyanatla çıxış etdi.

**Baş nazir Viktor Orbanın bəyanatı**

-Mən hər birinizi salamlayıram və Prezident Əliyevi Budapeştdə xüsusilə səmimiyyətlə salamlayıram.

Biz bu gün Macarıstanın köhnə dostunu görürük. Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub.

Tarixdə ilk dəfədir ki, Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı Macarıstanda keçirilir. Biz bu təşkilata tamhüquqlu üzv deyilik, biz müşahidəçi ölkəyik. Ancaq istənilən şəkildə biz bu gün bu Zirvə toplantısına ev sahibliyi edirik. Bizi sevindirən digər bir amil odur ki, bu gün beynəlxalq diplomatiyada qasırğanın hökm sürməsi, vəziyyətin gündən-günə dəyişməsi, təhlükələrin və çağırışların artması fonunda dost ölkələr bir araya gələrək beynəlxalq münasibətləri müzakirə edirlər.

Macarıstanın qonşusu olan ölkədə artıq üç ildir ki, müharibə gedir. Bu günədək Macarıstanın iqtisadiyyatının itkisi 20 milyard avrodan artıqdır. Hər kəsə məlumdur ki, müharibə başlayan gündən bəri Avropa İttifaqı müharibəni genişləndirmək seçimini etmişdir, nəinki sülhü bərqərar etmək. Bundan əlavə, Avropa iqtisadiyyatı olduqca mürəkkəb vəziyyətdədir. Çünki sanksiyalar bazar iqtisadiyyatını və Avropanın inkişafının təməlini sarsıtmışdır. Bazar iqtisadiyyatı, əlbəttə ki, Avropa iqtisadiyyatının təməl prinsipləri idi və bunlar artıq sarsılmış vəziyyətdədir. Deyə bilərəm ki, bu gün Avropa iqtisadiyyatının gəmisi kompas olmadan səyahət edir. Onu da qeyd etmək istəyirəm ki, biz mütəmadi olaraq enerji böhranı şəraitində yaşayırıq. Biz Amerikadan fərqli olaraq, Avropada qaza 3-4 dəfə daha çox pul ödəyirik və bu şəraitdə rəqabətqabiliyyətli iqtisadiyyat qurmaq çətindir.

Biz dənizə çıxışı olmayan bir ölkəyik. Bizim nailiyyətimiz ondan ibarətdir ki, biz Rusiya ilə enerji münasibətlərini qoruyub saxladıq. Bizim üçün istisna tətbiq edilmişdir. Ancaq Ukrayna bizə məhdudiyyətlər tətbiq edir. Türkdilli dövlətlərin dəstəyi olmasaydı, bu gün bizim enerji təhlükəsizliyini təmin etməyimiz çox çətin olardı. Ancaq biz əlimizdən gələni edəcəyik ki, iqtisadiyyatımızın dayanıqlılığı təmin olunsun.

Xanımlar və cənablar, beləliklə etibarlı tərəfdaşın dəyəri məhz bu cür ölçülür. Türk ölkələri olmasaydı, bu gün macar əhali enerjiyə 3-4 dəfə daha çox pul sərf etməli olardı. Cənab Prezident bizi əmin edib ki, ötən il olduğu kimi, bu il də Macarıstanın qaz təminatı təmin ediləcəkdir. Azərbaycan bizi əmin etmişdir ki, bizə lazım olan həcmdə qaz veriləcəkdir. Macarıstanın MVM və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artıra bilər. Mən şadam ki, müəyyən həcmdə qaz ehtiyatları və neft barelləri bizim ixtiyarımızdadır. Ola bilər bu, Azərbaycan üçün çox böyük həcm deyil. Ancaq bizim üçün bu, çox vacib bir məsələdir ki, Azərbaycanın neft yataqlarında payçıyıq. Bu, təkcə iqtisadi baxımdan deyil, sırf mənəvi baxımdan da vacibdir. Bu dostluq sayəsində biz özümüzü daha az mürəkkəb vəziyyətdə, həssas vəziyyətdə hiss edirik.

Eyni zamanda, iqtisadiyyat məsələlərindən başqa, biz Azərbaycana yatırılan Macarıstan sərmayələri haqqında danışdıq. Biz sülh haqqında da danışdıq. Çünki sülh təkcə müharibə şəraiti üçün vacib deyil, iqtisadi baxımdan da vacibdir. Biz razılığa gəldik ki, bu müharibənin döyüş meydanında həlli yoxdur. Bu, yalnız danışıqlar masasında olmalıdır. Bu, təkcə Rusiya-Ukrayna müharibəsinə deyil, digər münaqişələrə də şamil edilə bilər.

Mən Prezident Əliyevi təbrik etmək istəyirəm ki, Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mətni üzərində razılıq əldə olunub. Ümid edirəm ki, sülh müqaviləsinin imzalanması tezliklə baş tutacaq. Bu, olduqca vacib bir məsələdir.

Cənab Prezident, Sizi burada bir daha salamlayırıq.

Sonra Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.

**Prezident İlham Əliyevin bəyanatı**

– Hörmətli cənab Baş nazir, əziz dost.

Hörmətli xanımlar və cənablar.

Cənab Baş nazir, ilk növbədə dəvətə və qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mən Macarıstana tez-tez gəlirəm. Son dəfə 2023-cü ildə gəlmişəm. Siz də Azərbaycana tez-tez gəlirsiniz. Sizin son səfəriniz keçən ilin noyabr ayında olmuşdur. Yəni bu, onu göstərir ki, aramızda olan təmaslar müntəzəm xarakter daşıyır və Azərbaycan-Macarıstan əlaqələri uğurla inkişaf edir.

Biz dost ölkələrik, strateji tərəfdaşıq. Bu gün danışıqlar və məhdud tərkibdə keçirilmiş görüş zamanı bir daha gördük ki, bir çox məsələlər üzrə mövqeyimiz üst-üstə düşür. Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var. Birincisi, bizim tarixi köklərimiz. Bilirəm ki, macar xalqı öz tarixi köklərinə çox bağlıdır. Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ölkə ərazisinin sahəsi də demək olar bir-birinə çox yaxındır. Oxşarlıqlardan biri də Sizin də qeyd etdiyiniz kimi, Macarıstan açıq dənizlərə çıxışı olmayan ölkədir. Azərbaycan da elə ölkələrdəndir. Düzdür, biz Xəzər dənizinin sahilində yerləşirik, ancaq açıq dənizlərə bizim də çıxışımız yoxdur. Bir də Siz qeyd etdiniz ki, Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Siz müharibə aparan bir ölkə ilə, biz isə digəri ilə həmsərhədik. Yəni, bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik.

Azərbaycan, eyni zamanda, dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur. Biz öz ərazimizdə müharibə aparmışdıq. Ermənistanın 30 illik işğalına son qoymuşduq. Düzdür, bizim müharibəmiz Rusiya-Ukrayna müharibəsi kimi 3 ildən çox yox, cəmi 44 gün ərzində aparılmışdır. Hər gün biz irəliyə gedirdik, bir addım geri atmamışdıq, ordumuzda bir dənə də olsun fərari olmamışdır. Ermənistan ordusunda isə onların özlərinin etirafına görə 12 min fərari olmuşdur.

İkinci Qarabağ müharibəsi beynəlxalq hüquq çərçivəsində - BMT-nin Nizamnaməsi əsasında aparıldı. BMT-nin Nizamnaməsinin 51-ci maddəsində hər bir ölkənin özünümüdafiə hüququ var. Biz də bu hüquqdan istifadə edərək, uzun illər işğal altında olan torpaqları düşmən qüvvələrindən azad etdik və 2023-cü ildə öz suverenliyimizi tam bərpa etdik.

Ermənistan-Azərbaycan sülh prosesi ilə bağlı onu deyə bilərəm ki, sülh danışıqlarının İkinci Qarabağ müharibəsindən sonra təşəbbüskarı da biz olmuşuq. Sülh müqaviləsinin mətninin müəllifi də biz olmuşuq və məhz bu mətn bu gün Ermənistan tərəfindən qəbul edilib, təbii ki, müəyyən düzəlişlərlə. Amma prinsip etibarilə bizim təklif etdiyimiz məsələ bu gün artıq Ermənistan tərəfindən qəbul edilib. Qaldı ki, sülh müqaviləsinin bağlanmasına, burada iki əsas şərt var. Birincisi, Ermənistan konstitusiyasında bu günə qədər Azərbaycana qarşı ərazi iddiası vardır. Bu, dəyişdirilməlidir. İkincisi isə Qarabağ münaqişəsini həll etmək üçün yaradılmış ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bu, artıq de-fakto fəaliyyət göstərmir, de-yure bunun ləğvi zəruridir. Əfsuslar olsun ki, Ermənistan tərəfi hələ ki, bu iki şərtimizi qəbul etmək istəmir. Ancaq son illərin hadisələri və proseslərin gedişatı onu göstərir ki, gec-tez onlar bizim təklifimizlə razılaşmağa məcbur olacaqlar. Çünki bu təkliflərdə qeyri-adi heç bir məsələ yoxdur.

Bizim ikitərəfli gündəliyimiz də kifayət qədər genişdir. Biz bu gün bunu geniş müzakirə etdik. Energetika sahəsində uğurlu əməkdaşlıq edirik. Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində pay sahibidir – “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqlarında. Gələn ilin əvvəlində növbəti kontrakt imzalanacaqdır. Bu barədə də bu gün fikir mübadiləsi aparıldı. Azərbaycanın qurudakı neft yataqlarında Macarıstan şirkəti fəaliyyətə başlayacaq. Biz keçən ildən etibarən Macarıstana təbii qazın ixracına başlamışıq. Mən bu gün qeyd etdim və Baş nazir burada qeyd etdi ki, biz Macarıstanın tələbatı səviyyəsində qaz təminatı təşkil edə bilərik. Bizim qaz resurs bazamız kifayət qədər genişdir və genişlənir, yeni qaz yataqları istismara veriləcək. Biz bu gün 12 ölkəyə təbii qaz ixrac edirik. Onlardan 10-u Avropa ölkəsidir, 8-i isə Avropa İttifaqı üzvüdür. Avropa Komissiyası Azərbaycanı Pan-Avropa qaz təchizatçısı ölkə və etibarlı tərəfdaş kimi tanıyır. Əgər biz qaz ixracının coğrafiyasına baxsaq, görərik ki, burada nəinki Avropa məkanında, dünya miqyasında boru xətti ilə nəql edilən qazın coğrafi əhatəsinə görə Azərbaycan dünyada qabaqcıl yerlərdədir. Bizim gələcəkdə qaz ehtiyatlarımızın işlənilməsi nəzərdə tutulur. Biz, eyni zamanda, Macarıstanla yaşıl enerji üzrə fəal işləyirik. Azərbaycanın çox böyükmiqyaslı yaşıl enerji gündəliyi vardır. Biz növbəti beş il ərzində 6 min meqavat gücündə yaşıl enerji istehsal edəcəyik. 500 meqavat son iki il ərzində yaradıldı, 6 min meqavat beş il ərzində təmin ediləcək. Mən bütün bu rəqəmləri kontraktlar əsasında deyirəm, yəni bu, reallaşacaq layihələrdir. Beləliklə, təkcə bu layihələr bizə təqribən 3-4 milyard kubmetr qaza qənaət etmək üçün imkan yaradacaq ki, bunun da əsas istiqaməti təbii ki, Türkiyə və Avropa ölkələri olacaqdır.

Bütün başqa məsələlərdə də biz iki dost və tərəfdaş ölkə kimi birgə fəaliyyət göstəririk. Bildiyiniz kimi, Macarıstanın təşəbbüsü ilə sabah ikinci qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Birinci Zirvə görüşü keçən il Şuşa şəhərində keçirilmişdir. Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşlərinin keçirilməsinin təşəbbüskarı Azərbaycan olmuşdur və bu estafeti bizdən Macarıstan alıb, biz bunu alqışlayırıq. Bu, bir daha onu göstərir ki, Macarıstan öz tarixi köklərinə çox bağlıdır, bu, bizi də çox sevindirir.

Çıxışımın sonunda Macarıstanı bütün əldə edilmiş uğurlar münasibətilə təbrik etmək istəyirəm. Biz bilirik ki, Macarıstan müstəqil siyasət aparan nadir ölkələrdən biridir. Xüsusilə Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir. Buna baxmayaraq, dostum Viktor Orban həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutub. Biz bunu alqışlayırıq. Hər zaman Macarıstanın maraqlarını qoruyub və Macarıstan üçün nə xeyir gətirirsə, o təşəbbüslərə qoşulub, nə xeyir gətirmirsə, o təşəbbüslərdən həmişə uzaq olub. Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var. Biz Macarıstanı çox sevirik, o cümlədən bu amillərə görə. Sizə və bütün dost macar xalqına bu istiqamətdə yeni uğurlar arzulayırıq.

Sağ olun.

* * *

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Macarıstanın Baş naziri Viktor Orban dövlətimizin başçısını qarşıladı.

Əvvəlcə birgə foto çəkdirildi.

Sonra Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü işə başladı.

Macarıstanın Baş naziri Viktor Orban bu Zirvə görüşünün əhəmiyyətinə toxundu. O, Azərbaycan-Macarıstan münasibətlərinin strateji səviyyədə olmasının xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq dedi: "Mən Prezident Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Çünki ötən il Azərbaycandan Macarıstana ilk qaz nəql edilmişdir. Bu, əvvəllər heç vaxt baş verməmişdir, ilk dəfə idi ki, bu, baş verirdi. Cənab Prezidenti əmin edirəm ki, biz gələcəkdə bunun qarşılığını verə bilərik.

Macarıstanın böyük enerji şirkətlərinə Azərbaycanda neft və qaz sahəsində işləməyə imkan yaratdığına görə də Prezident Əliyevə təşəkkür etmək istəyirəm. Özümüzə məxsus enerji ehtiyatlarımız olmadığı üçün bu, bizim üçün yeni imkanlar açdı. Azərbaycan-Macarıstan münasibətlərinin strateji səviyyədə olması bizim üçün mühüm əhəmiyyət kəsb edir".

Qırğız Respublikasının Prezidenti Sadır Japarov çıxışında tədbirin yüksək səviyyədə təşkilinə görə Macarıstan tərəfinə minnətdarlığını ifadə etdi.

Qırğız Respublikasının Macarıstanın Türk Dövlətləri Təşkilatına töhfələrini yüksək qiymətləndirdiyini vurğulayan Sadır Japarov bildirdi: "Biz keçən il rəsmi şəkildə təsis olunmuş Türk İnvestisiya Fondunun tezliklə layihə fəaliyyətlərinə başlayacağını gözləyirik və bu, irəliyə atılmış mühüm addımdır. Bu Fond ticarət, logistika, infrastruktur, rəqəmsal iqtisadiyyat, energetika, sənaye, turizm və sahibkarlıq kimi milli prioritetlərin dəstəklənməsi üçün mühüm mexanizm kimi xidmət edəcək. Müsbət təcrübənin əyani nümunəsi olaraq mən Qırğızıstanda fəaliyyət göstərən Qırğız-Azərbaycan, Qırğız-Özbək və Qırğız-Macar inkişaf fondlarının uğurlu nəticələrini məmnunluqla qeyd edə bilərəm".

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Hörmətli cənab Baş nazir.

Hörmətli dövlət başçıları.

İlk növbədə, qonaqpərvərliyə görə Baş nazir Viktor Orbana təşəkkürümü bildirirəm.

Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafı məmnunluq doğurur. Bu, mənim Macarıstana 6-cı səfərimdir. Cənab Orban isə Azərbaycana 7 dəfə səfər etmişdir. Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır.

Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır. Əldə edilmiş bütün uğurlar münasibətilə Baş nazir Viktor Orbanı təbrik edirəm.

Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşü keçirilmişdir. Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir.

Prezident Sadır Japarovu Qırğızıstanın hazırda təşkilata uğurlu sədrliyinə görə təbrik edirəm.

Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Sizi Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət edirəm.

Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur.

Bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna – avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə, açıq dənizlərə çıxışı olmasa da Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir.

Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil etmişdir.

Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Orta Dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılmışdır.

Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir.

Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq.

Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.

Hörmətli həmkarlar, bildiyiniz kimi, təxminən 200 ölkənin yekdil qərarı ilə 2024-cü ilin noyabr ayında Azərbaycanda COP29 kimi mötəbər konfrans keçirilmişdir. Hazırlıq üçün cəmi 11 ay vaxt olmasına baxmayaraq, COP29-u yüksək səviyyədə təşkil etməyə nail olduq.

Qeydiyyatdan keçmiş 77 min iştirakçı 197 ölkəni təmsil edirdi. Konfransda 70 dövlət və hökumət başçısı iştirak etmişdir.

Azərbaycan COP29-da Qlobal Cənubla Qlobal Şimal arasında körpü qurmağa müvəffəq oldu. Bakıda qlobal iqlim gündəliyi ilə bağlı ciddi qərarlar qəbul edildi.

Əsas nailiyyət inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasını nəzərdə tutan yeni maliyyə hədəfi barədə razılaşmadır. Bundan başqa, 10 il ərzində razılıq əldə edilməsi mümkün olmayan karbon bazarlarının tənzimlənməsi barədə konsensusa nail olundu, İtki və Zərər Fondu işlək vəziyyətə gətirildi.

COP29 böyük uğurlara imza atmış və tarixə “Bakı sıçrayışı” kimi daxil olmuşdur.

COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş ölkələrimizdə istehsal edilən yaşıl enerjinin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır.

Çıxışımın sonunda Macarıstanı qeyri-rəsmi Zirvə görüşünün uğurlu təşkilinə görə təbrik edir, Türk Dövlətləri Təşkilatının fəaliyyətinə uğurlar arzulayıram.

Sağ olun.

* * *

Daha sonra çıxış edən Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev diqqətə çatdırdı ki, belə Zirvə görüşləri çağırışlarla bağlı addımların atılması üçün mühüm əhəmiyyətə malikdir.

Hazırkı mürəkkəb geosiyasi vəziyyətdə təşkilat daxilində əməkdaşlığın əhəmiyyətinin nəzərəçarpacaq dərəcədə artdığını vurğulayan Qazaxıstan Prezidenti qeyd etdi: “Bütövlüyümüzü gücləndirmək üçün türk xalqlarının birliyini və həmrəyliyini möhkəmləndirmək vacibdir. Qazaxıstan bununla bağlı bir sıra tədbirlər görüb, xüsusilə Naxçıvan Sazişinə düzəlişlərə dair protokolu ratifikasiya edib, Türk Dövlətləri Təşkilatına daimi nümayəndəsini təyin edib. Biz yaxın gələcəkdə daimi nümayəndəliyi açmağı planlaşdırırıq. Hazırkı vəziyyətdə enerji sektorunda əməkdaşlığa diqqət yetirmək vacibdir. Neft, qaz və uranın təchizat zəncirini şaxələndirmək üçün Təşkilatın potensialından istifadə etməyə ehtiyacımız var. Bununla əlaqədar, Qazaxıstandan Avropaya qaz ixracını artırmaq təşəbbüsünü dəstəklədiyinə görə mən Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyevə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istərdim. Səylərimizin Türkiyə və Macarıstan tərəfindən alqışlanmasını və dəstəklənməsini yüksək qiymətləndiririk. Bundan əlavə, rəqəmsallaşma və informasiya texnologiyaları sahələrində əməkdaşlığın perspektivləri olduqca ümidvericidir. Bu il Qazaxıstan və Azərbaycan Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsinə dair mühüm birgə layihəyə start verdilər. Bu layihə dövlətlərimiz arasında rəqəmsal bağlantını əhəmiyyətli dərəcədə genişləndirəcək və regional inteqrasiyanın gücləndirilməsinə xidmət edəcək. Bu cür təşəbbüslər məlumatların təhlükəsiz mübadiləsinə imkan verməklə Avrasiyada yeni rəqəmsal dəhlizin yaradılmasına yol açır”.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan isə Cənubi Qafqazda sabitliyin təmin olunmasında

Azərbaycanın rolunu xüsusi vurğulayaraq dedi: "Dünyamız üçün strateji əhəmiyyətə malik Qafqaz bölgəsində yaşanan prosesləri diqqətlə izləyirik. Can Azərbaycanın Ermənistan ilə sülh müqaviləsi üzrə razılıq əldə etməsindən məmnunuq. İki ölkə arasında davamlı sülh əldə olunacağı təqdirdə, bu vəziyyət heç şübhəsiz ki, Türk dünyamız üçün bir çox fürsətlər yaradacaq. Bu baxımdan Müzəffər Prezident, əziz Qardaşım İlham Əliyevin bölgəyə sülhü gətirəcək Lider olaraq adını tarixə yazdıracağına əminəm".

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev də Zirvə görüşündə çıxış edərək bildirdi: "Məlum olduğu kimi, ötən il biz Türk dövlətləri arasında strateji tərəfdaşlıq, əbədi dostluq və qardaşlıqla bağlı razılaşmanın işlənib hazırlanmasını təklif etdik. Bu gün bu sənədin əhəmiyyəti və aktuallığı daha da artır. Şübhəsiz ki, bu razılaşma xalqlarımızı bir-birinə yaxınlaşdırmağa töhfə verəcək və bizim çoxşaxəli əməkdaşlığımız üçün uzunmüddətli hüquqi bünövrə rolunu oynayacaq. Mən bu sənədin qarşıdan gələn Bakı Sammitində imzalanmasını təklif edirəm. Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY dövlətlərimiz arasında mədəniyyət sahəsində əməkdaşlığın inkişafında xüsusi yerə malikdir. Hesab edirəm ki, bu sahədəki səylərimizi yeni səviyyəyə qaldırmaq və TÜRKSOY-un nüfuzunu daha da artırmaq üçün onun fəaliyyətini və strukturunu müasir tələblərə uyğun şəkildə təkmilləşdirmək lazımdır. Hesab edirəm ki, bununla əlaqədar xarici işlər və mədəniyyət nazirlərimizə buna dair təklifləri Bakı Sammiti üçün hazırlamaqla bağlı tapşırıq vermək məqsədəuyğun olar.

Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüraliyev isə Təşkilata üzv ölkələr arasında əməkdaşlığın inkişafından danışaraq dedi: "2025-ci ildə Bakıda gömrük orqanları rəhbərlərinin toplantısında "eTIR" sisteminin tətbiqinə və sadələşdirilmiş gömrük dəhlizi sazişlərinin texniki müddəalarına dair fəaliyyət planı qəbul edildi. Kosmik sektorda əməkdaşlığımız inkişaf edir. Bakıda keçirilmiş 4-cü görüşdə üzv ölkələr "CubeSat" layihəsini 2025-ci ilin sentyabrınadək tamamlamaqla bağlı razılığa gəldilər. Ümidvaram ki, bizim birgə peykimiz bu ilin sonunadək orbitə buraxılacaq.

Eyni zamanda, Türk kimliyi layihəsinə başlanılır. Bu, vətəndaşlara öz milli şəxsiyyət vəsiqələri ilə üzv ölkələrə səfər etməyə imkan verəcək. Türkiyə və Azərbaycan bu layihəni həyata keçirib. İndi biz bunu Mərkəzi Asiya regionunda tətbiq etməliyik. Həmçinin Şuşa Sammitində və TDT Katibliyinin büdcə və heyətinin artırılmasına dair işçi qrupun təklifi Bişkekdəki 11-ci Sammitdə razılaşdırılmışdır. Bu təklif üzv ölkələrin qarşıya qoyduqları vəzifələrin çoxalması ilə əlaqədar gələcək illərdə büdcənin əhəmiyyətli dərəcədə artırılması ilə bağlıdır. Bu təkliflərə əsaslanaraq dövlət başçılarına müvafiq tapşırıqlar verilib və bunlar da bu gün qəbul olunacaq Budapeşt Bəyannaməsində öz əksini tapacaq".

Sonra Zirvə görüşündə sənədlər imzalandı.

Mayın 21-də Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Mayın 21-də Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir.

Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, Türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.

Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.

Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamədə müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünə verilən böyük dəyər xüsusi vurğulanır.

Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə

həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda, Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.

Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır.

Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü və birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.

Qəzzadakı fəlakətli humanitar vəziyyətdən dərin narahatlıq ifadə olunur, daimi və hərtərəfli atəşkəs, girovların, məhbusların azad edilməsi və Qəzzaya humanitar yardımların maneəsiz çatdırılması istiqamətində danışıqlara dəstək bir daha təsdiqlənir. İsrail-Fələstin münaqişəsinin BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ikidövlətli həlli variantının zəruriliyi qeyd edilir. Həmçinin Əfqanıstanla bağlı məsələlər üzrə TDT-nin İşçi Qrupunun yaradılması təqdir olunur.

TDT çərçivəsində müdafiə sənayesi sahəsində məhsuldar çoxtərəfli əməkdaşlığı genişləndirmək niyyəti bir daha bəyan olunur və üzv dövlətlərin müvafiq orqanlarına bu məqsədlə səylərini sürətləndirmək tapşırılır.

İrqçiliyin, ayrı-seçkiliyin, ksenofobiyanın, İslama qarşı nifrətin, nifrət nitqinin və dezinformasiyanın bütün formaları ilə mübarizədə əməkdaşlığın davam etdirilməsi məqsədilə beynəlxalq platformalarda səylərin əlaqələndirilməsi öhdəliyi xatırladılır.

Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi "Bakı Prosesi"nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir, 2026-cı ildə keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə dəstək ifadə olunur.

Türk Dövlətləri Təşkilatı Katibliyinin büdcəsinin əhəmiyyətli dərəcədə artırılması təklifi dəstəklənir, TDT-nin ilk birgə maliyyə institutu kimi yaradılmış Türk İnvestisiya Fondunun layihə fəaliyyətinə başlanmasının vacibliyi vurğulanır.

Türk Yaşıl Baxış prinsipləri rəhbər tutularaq, iqlim dəyişikliyinə və ətraf mühitin mühafizəsində davamlı yaşıl inkişafa sadiqlik bir daha təsdiqlənir, yaşıl enerji avadanlığının və texnologiyalarının inkişafının, iqlimədavamlı infrastrukturun, enerji səmərəliliyinin və tullantıların səmərəli idarə olunmasının təşviqinin vacibliyi qeyd edilir.

Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu ev sahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu yaşıl enerji dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, Təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Sazişin qüvvəyə minməsi alqışlanır.

Bəyannamədə TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etməyə, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirməyə və dəstəkləməyə çağırış ifadə olunur, o cümlədən Qırğızıstanın 2027-2028-ci illər üçün BMT Təhlükəsizlik Şurasına və ECOSOC-un 2028-2030-cu illər üçün üzvlüyünə namizədliyi dəstəklənir.

Özbəkistanın 2035-2036-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının qeyri-daimi üzvlüyünə namizədliyi, Qazaxıstanın 2031-2032-ci illər üçün BMT Baş Assambleyasının 86-cı sessiyasının, 2039-2040-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının sədri vəzifələrinə namizədliyi, Türkiyənin 2037-2038-ci illər üçün BMT Təhlükəsizlik Şurasının, 2025-2029-cu illər üçün UNESCO-nun İcraiyyə Şurasının, 2026-2028-ci illər üçün ECOSOC-un qeyri-daimi üzvlüyünə namizədliyi, Azərbaycanın 2025-2029-cu illər üçün UNESCO-nun Ümumdünya İrs Komitəsinə və həmin illərdə BMT-HABITAT-ın İcraiyyə Şurasının üzvlüyünə namizədliyi alqışlanır.

Dünyaşöhrətli alim, Nobel mükafatı laureatı professor Əziz Sancara Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına "Türk dünyasının birliyinə töhfələrinə görə" beynəlxalq mükafatının verilməsi yüksək qiymətləndirilir.

Üzv dövlətlərin Türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması niyyəti ifadə olunur, TDT çərçivəsində gənclər və idman sahəsində mübadilə proqramlarının qabaqcıl nailiyyətləri, Qazaxıstanın

Aktau şəhərinin TÜRKSOY-un təşəbbüsü ilə 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi təqdir olunur. Eyni zamanda, Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq üçün müraciəti dəstəklənir.

Sənəddə silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının vacibliyi vurğulanır, münaqişədən sonra mədəni irsin bərpasında Türk dövlətlərinin səyləri təqdir edilir.

Mədəniyyətlərarası körpü və ümumbəşəri dəyərlərin rəmzi kimi çıxış edən Novruzun transmədəni mahiyyəti ifadə edilərək, Türk mədəniyyətinin dərin zənginliyini və Türk xalqlarının ortaq dəyərlərini gələcək nəsillərə ötürmək əzmi bir daha vurğulanır, Azərbaycanın və TDT-yə üzv dövlətlərin, həmçinin Türkiyə Prezidentinin təşəbbüsü ilə Novruz bayramının Təşkilat çərçivəsində qeyd olunması barədə Katibliyə tapşırıq verilir.

Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğu yüksək qiymətləndirilir.

Həmçinin Əfqanıstan üzrə Birgə Bəyanatın qəbul edilməsinin vacibliyi vurğulanır.

TDT-yə üzv dövlətlərin başçıları Macarıstanın Baş naziri Viktor Orbana Türk dünyasının həmrəyliyinə və rifahına verdiyi töhfələrə, habelə təşkilatın Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşünə, Macarıstan hökumətinin və xalqının səmimi qonaqpərvərliyinə görə təşəkkürünü bildiriblər.

Bəyannamə Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Macarıstana işgüzar səfəri mayın 21-də başa çatıb.

Budapeştin Ferents List adına Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidentini rəsmi şəxslər yola saldılar.

## *İsmayıllı və Laçına səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsində görülən işlərlə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə ümumilikdə işlərin 70 faizi icra edilib. İkinci texniki dərəcəyə uyğun qurulan yolun ümumi uzunluğu 85,6 kilometrdir. Yenidənqurma nəticəsində yol 8,8 kilometr qısalacaq. Yolboyu Ağsuçay çayı üzərində asma körpü inşa olunur. Körpüdə işlərin 40 faizi yerinə yetirilib. Körpüdən sonra yolun davamı olaraq uzunluğu 885 metr olan tunelin tikintisi aparılır. Ümumilikdə yeni layihə üzrə yolboyu tunel və biri asma olmaqla 17 körpü layihələndirilib.

Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolu əhalinin rahat gediş-gəlişində xüsusi əhəmiyyətə malik olmaqla paytaxt Bakını İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ilə birləşdirən ən qısa magistral hesab edilir. Respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin tapşırığına əsasən layihələndirilib.

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə İsmayıllı şəhərində inşa olunan internat tipli "Talıstan" liseyinin binasının açılışında iştirak edib.

İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov dövlətimizin başçısına təhsil ocağında yaradılmış şərait barədə məlumat verdi.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkəmizin bir çox regionlarında beynəlxalq tələblərə cavab verən yeni məktəb binalarının inşasına, onların müasir avadanlıqla təchiz olunmasına xüsusi diqqət yetirilir, bir sıra köhnə məktəb binalarının əsaslı təmiri istiqamətində mühüm işlər görülür. 1296 şagird yerlik lisey də "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində inşa olunub. Dörd mərtəbədən və 5 korpusdan ibarət binada 56 sinif otağı, kimya, fizika və biologiya laboratoriyaları, informatika, texnologiya, gənclərin çağırışaqədərki hazırlıq kabinetləri, kitabxana, 300 yerlik akt zalı, idman zalı və yeməkxana yaradılıb.

Bu layihənin icrası Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətində təhsil sahəsinə ayrılan diqqətin göstəricisidir. Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının

möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyənləşdirilmiş təhsilin inkişafına daim xüsusi diqqət və qayğı ilə yanaşıb, bu istiqamətdə bir neçə vacib layihə həyata keçirib. Müasir məktəblərin qurulması həm də Azərbaycan dövlətinin prioritetləri sırasında başlıca yer tutur. Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizi gənc nəslin daha savadlı və bilikli yetişməsində olduqca mühüm rol oynayır.

"Talıstan" liseyində yaradılan şəraitlə tanışlıqdan sonra dövlətimizin başçısına son illərdə rayonda həyata keçirilən sosial-iqtisadi layihələr, o cümlədən 2020-2025-ci illərdə istifadəyə verilən istehsal müəssisələri və istirahət mərkəzləri barədə məlumat verildi. Həmin dövrdə rayonda fəaliyyətə başlamış bu obyektlərdə 400-ə yaxın iş yeri açılıb.

Prezident İlham Əliyevə rayonun Tircan kəndində su istehsalı müəssisəsinin inşası ilə bağlı məlumat verildi. İllik istehsal gücü 25 milyon litr olan müəssisədə 80 nəfər işlə təmin ediləcək.

Qeyd edək ki, ölkəmizin turizm mərkəzlərindən biri olan İsmayıllı rayonu son illərdə sürətlə inkişaf edib. İndiyədək dövlətimizin başçısı bu rayonda 10 dəfə olub. Azərbaycan Prezidentinin İsmayıllıya hər səfəri rayonun ictimai-siyasi həyatında mühüm hadisəyə çevrilməklə, yeni sosial-iqtisadi inkişaf mərhələsinin təməlini qoyub. Bütün bunlar rayonda aparılan tikinti-quruculuq işlərinin, məhsul buraxılışının, sənaye və kənd təsərrüfatı məhsulunun həcmində, yeni iş yerlərinin açılmasında özünü aydın göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da "Azerbaijan Coca-Cola Bottlers" MMC-nin İsmayıllıda yeni istehsal müəssisəsinin açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov, Türkiyənin "Anadolu Grubu"nun İdarə Heyətinin fəxri sədri Tuncay Özilhan və "Azerbaijan Coca-Cola Bottlers" MMC-nin baş direktoru Rəna Məmmədova dövlətimizin başçısına müəssisə barədə məlumat verdilər.

İsmayıllı rayonunun Topçu kəndində yerləşən bu müəssisə 15 hektar ərazidə inşa edilib və illik 165 milyon litr istehsal gücünə malikdir. Layihənin investisiya dəyəri 80 milyon manatdır. Beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verən müəssisədə 100-dən çox yerli sakin daimi işlə təmin olunub. Bu, "Coca-Cola Bottlers" MMC-nin ölkəmizdə ikinci istehsal müəssisəsidir. Yeni müəssisə tərəfindən istehsal olunacaq məhsulların əsasən daxili bazarda satışı nəzərdə tutulub. Müəssisə İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilən investisiya təşviqi sənədi çərçivəsində 7 il müddətində mənfəət və gəlir vergisindən 50 faiz güzəşt əldə edib. Bundan əlavə, əmlak və torpaq vergisindən, texnika, texnoloji avadanlıq və qurğuların idxalına görə ƏDV-dən və gömrük rüsumlarından azad olunub. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən layihənin maliyyələşdirilməsinə 10 milyon manat güzəştli kredit ayrılıb. "Azerbaijan Coca-Cola Bottlers" MMC ətraf mühitin mühafizəsi üzrə öhdəliklərə sadiq qalaraq istehsal zamanı sərf olunan enerjinin bir qismini günəş panelləri vasitəsilə əldə olunan yaşıl enerji ilə təmin etməyi nəzərdə tutur.

İsmayıllı rayonunda belə bir istehsal müəssisəsinin açılması bölgənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi, sənaye potensialının reallaşdırılması baxımından böyük əhəmiyyət kəsb edir. Yeni müəssisənin açılması istehsalın lokallaşdırılmasını, texnologiya transferini və idxalın əvəz edilməsini stimullaşdırır.

Qeyd edək ki, regionların davamlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi dövlətimizin başçısı tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar şərait, güzəşt və imtiyazlar onları ölkəmizə daha çox sərmayə yatırmağa sövq edir. "Coca-Cola"nın Azərbaycana investisiyalarının artırılması da ölkədə əlverişli biznes mühitinin və cəlbedici investisiya şəraitinin mövcudluğundan irəli gəlir. Paytaxtla yanaşı, regionlarımıza yatırılan sərmayələr sayəsində yeni istehsal müəssisələrinin açılması ölkəmizdə qeyri-neft sektorunun inkişafının göstəricisi olmaqla bərabər, bölgələrimizin iqtisadi potensialının daha da möhkəmləndirilməsində çox böyük rol oynayır. "Azerbaijan Coca-Cola Bottlers" MMC ölkəmizdə istehsala 1996-cı ildə başlayıb. Şirkət indiyədək Azərbaycan iqtisadiyyatına 200 milyon dollar sərmayə yatırıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də "LATIFA" Laçın tikiş fabrikinin açılışında iştirak edib.

"Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru Bünyad Qasımov dövlətimizin başçısı İlham Əliyevə fabrik barədə məlumat verdi.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə 2023-cü il avqustun 26-da açılışı olmuş "Laçın Aqro-Sənaye Parkı" fəaliyyətini genişləndirir. Rayonun Zerti kəndində yerləşən Parkda artıq 12 müəssisə fəaliyyət göstərir.

Bildirildi ki, sənaye parkında daha iki müəssisənin işə başlaması nəzərdə tutulur. Bunlardan biri "LATIFA" Laçın tikiş fabrikidir. Ümumi dəyəri 1,2 milyon manat

olan müəssisədə 30 yeni iş yeri yaradılacaq. Fabrikdə gündə 2 min ədəd tekstil məhsulu istehsal olunacaq. Buraya ev tekstili, idman dəstləri, eksklüziv geyimlər və digər məhsullar daxildir.

Uzun illər Ermənistan tərəfindən işğala məruz qalmış Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı layihələr regionun iqtisadi potensialının reallaşdırılması ilə paralel şəkildə davam etdirilir. Yeni istehsal və xidmət müəssisələrinin istifadəyə verilməsi əhalinin dayanıqlı məskunlaşmasına və məşğulluğun təmininə geniş şərait yaradır. Eyni zamanda, Laçın Sənaye Parkında istehsal müəssisələrinin qurulması innovativ texnologiyaların tətbiqi və ixracyönümlü məhsul hazırlanması baxımından böyük əhəmiyyət daşıyır. Bütün bu addımlar Qarabağı və Şərqi Zəngəzuru ölkənin iqtisadi inkişafının mühüm komponentlərindən birinə çevirir, bölgənin ümumilikdə ölkə iqtisadiyyatına inteqrasiyasını sürətləndirir.

Müəssisə ilə tanışlıqdan sonra dövlətimizin başçısı sakinlərlə görüşdü.

Prezident İlham Əliyev: Necə yaşayırsınız doğma torpaqda?

Sakinlər: Yaxşı, Sizin sayənizdə yaxşı.

Prezident İlham Əliyev: İş yeri də açılıb.

Sakinlər: Hər şey gözəldir.

Prezident İlham Əliyev: Evlərlə də təmin olunmusunuz.

Sakinlər: Bəli, çox yüksək səviyyədə. Allah canınızı sağ eləsin. Sizin kimi gözəl Prezidentimiz var.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Biz həmişə Sizə dünya Lideri deyirik. Siyasi cəhətdən, mənəvi cəhətdən, maddi cəhətdən xalqımıza çox böyük dəstək olursunuz. Sizə çox-çox minnətdarıq.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: İnşallah, gələn il bu vaxt gələndə şəxsən bizim evə qonaq gələrsiniz.

Prezident İlham Əliyev: Gələrəm.

Sakin: Başımız üstə yeriniz var, 495 nömrəli evdə Sizi gözləyirik.

Prezident İlham Əliyev: Şəhərdə qalırsınız?

Sakin: Bəli. Bayraq meydanı ilə üzbəüz. Gözümüz üstə. Siz çox sadə adamsınız. Xalqınızı çox sevənsiniz. Hər bir şeyə dəyər verənsiniz. Bizim üstümüzdə Sizin haqqınız çox-çox yüksəkdir.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Biz də fəxr edirik ki, Sizin kimi gözəl Prezidentimiz var.

Prezident İlham Əliyev: Mən də sizinlə fəxr edirəm. Uzun illər ərzində işğal həyatını yaşamısınız, ancaq ümidlərinizi itirməmisiniz. Bilirdiniz, inanırdınız ki, qayıdacaqsınız və qayıtmısınız. İndi həm evlərlə təmin olunmusunuz, həm də iş yeri ilə, gözəl sənaye zonası yaradılıb. Düzdür, Laçın cənnətin bir parçasıdır, burada yaşamaq da xoşdur, çalışmaq da, işləmək də. Əsas odur öz torpağında, öz doğma torpağındasan.

Sakin: Vətənimizdəyik, ata-baba yurdumuzdayıq. Çox-çox minnətdarıq.

Prezident İlham Əliyev: Təbrik edirəm.

Sakinlər: Çox sağ olun, var olasınız.

Prezident İlham Əliyev: Sabah Müstəqillik Günüdür.

Sakin: Gələn ayaqlarınız var olsun, Allah kölgənizi daimi etsin.

Prezident İlham Əliyev: Sağ olun, sizinlə bayram ərəfəsində görüşürük.

Sakin: Ən böyük şansdır bizim üçün.

Prezident İlham Əliyev: Xoşbəxt yaşayın.

Sakinlər: Çox sağ olun, təşəkkür edirik.

Prezident İlham Əliyev: Sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialının açılışında iştirak edib.

"Laçın Aqro-Sənaye Parkı"nda işə başlayan müəssisələrdən biri də "PIRSHAGHI" ayaqqabı fabrikinin Laçın filialıdır. Ümumi dəyəri 367,9 min manat olan müəssisədə əsasən Laçın sakinləri olmaqla 15 nəfər işlə təmin ediləcək. Müəssisə kişi, qadın və uşaqlar üçün ayda 1500 cüt ayaqqabı istehsal etmək gücündədir. Müasir avadanlıqlarla təchiz olunmuş fabrikdə idman və klassik üslubda ayaqqabılar istehsal ediləcək.

Müəssisə daxili bazarda satış həyata keçirməklə yanaşı, istehsal etdiyi məhsulları Avropa ölkələrinə ixrac etməyi də planlaşdırır.

"Laçın Aqro-Sənaye Parkı"nda ümumilikdə 46 müəssisənin fəaliyyət göstərməsi nəzərdə tutulub. Burada mebel fabrikləri, balıq təsərrüfatı, yeyinti sənayesi, yüngül sənaye, ekoloji cəhətdən təmiz emal müəssisələri, kiçikbuynuzlu heyvanlar üzrə elmi-təcrübə mərkəzi və digər müəssisələr yaradılacaq.

Regionda yeni iş yerlərinin yaradılması, infrastrukturun bərpası və sahibkarlıq fəaliyyətinə dəstək iqtisadi fəallığın canlanmasına səbəb olur. "Laçın Aqro-Sənaye Parkı" bu xüsusda olduqca mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzindən şəhərin ərazisində yerləşən istehlakçıların – yeni salınan yaşayış komplekslərinin, tikintisi aparılan sənaye və sosial təyinatlı

infrastrukturun, kənd təsərrüfatı və turizm obyektlərinin, xüsusən əhalinin elektrik enerji təchizatının fasiləsizliyinin və dayanaqlığının təmin olunması nəzərdə tutulur. Mərkəz elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsidir. Burada hər birinin gücü 1600 kVA olan iki ədəd güc transformatoru, müasir avadanlıqlarla təchiz olunmuş 35 kV-luq və 0,4 kV-luq qapalı paylayıcı qurğular quraşdırılıb. Mərkəzin elektrik təchizatı üçün "Laçın" yarımstansiyasından 4,8 km uzunluğunda ikidövrəli elektrik verilişi xətləri çəkilib. Burada quraşdırılan müasir avadanlıq bütün texnoloji ölçmələrin yüksək dəqiqliyini və vahidliyini təmin edir ki, bu isə öz növbəsində şəbəkənin etibarlı istismarını dəstəkləməklə yanaşı, elektrik enerjisinin ötürülməsi zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına şərait yaradır.

Mərkəzdə, həmçinin istehlakçıların elektrik enerjisi verilişində planlı fasilələrin yaranması barədə onlayn qaydada əvvəlcədən məlumatlandırılma imkanı yaradılıb. Bərpaolunan enerji mənbələrinin şəbəkələrə inteqrasiya edilməsi prosesi Rəqəmsal İdaretmə Mərkəzində avtomatik idarə olunduğundan elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. Alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulmasını, həmçinin cihaz və avadanlıqların qarşılıqlı koordinasiyasını tam təmin edən mərkəz vasitəsilə əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılması həyata keçirilir. Bununla yanaşı, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti, "yaşıl enerji" mənbələrinin şəbəkəyə inteqrasiyası da icra olunur. Mərkəzdə yerləşən yarımstansiya qapalı tiplidir və idarəetmə əməliyyatları məsafədən həyata keçirildiyindən daimi işçi heyətinə ehtiyac olmur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın kanat yolunun təməlini qoyub.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verdi.

Laçının füsunkar təbiəti, turizm imkanları nəzərə alınaraq rayonda turizm infrastrukturunun qurulmasına da xüsusi diqqət yetirilir. Bu məqsədlə yaradılan Laçın kanat yolu şəhərin Bulvar ərazisində yerləşəcək və iki hissədən ibarət olacaq. Kanat yolunun hündürlüyü 300 metr, xəttinin uzunluğu isə 1720 metr olacaq, hərəkət müddəti 6 dəqiqə təşkil edəcək. Ümumilikdə 17 kabinədən ibarət kanat yolu saatda 800 sərnişinə xidmət edə biləcək. Kanat yolunun yerləşdiyi, uzunluğu 2 kilometrə yaxın olan Bulvar ərazisi bu gün həm yerli sakinlərin, həm də turistlərin sevimli məkanlarından biridir.

İşğaldan azad olunduqdan sonra qısa zamanda bərpa edilən Laçında çox mühüm sosial-infrastruktur layihələri həyata keçirilməkdədir. Bu xüsusda Laçında turizm infrastrukturuna xüsusi diqqət yetirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın rayonunun Bəylik kəndinin açılışında iştirak edib.

Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov dövlətimizin başçısına burada yaradılan şərait barədə məlumat verib.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Laçın rayonunda, o cümlədən Bəylik kəndində genişmiqyaslı quruculuq işləri aparılır.

Prezident İlham Əliyev Laçın rayonunun Bəylik kəndində klub-icma mərkəzində yaradılan şəraitlə də tanış olub.

Buradakı otaqlarda rəqs və digər dərnəklər fəaliyyət göstərəcək. Binadakı zalda əlamətdar günlərlə bağlı müxtəlif tədbirlərin, eyni zamanda, gənclərin toplantı və görüşlərinin keçirilməsi üçün hərtərəfli şərait var. Bəylik kəndində evlərin, sosial obyektlərin, küçələrin işıqlandırılmasında yaşıl enerjidən istifadə edilir. Bu məqsədlə digər obyektlər kimi klub-icma mərkəzinin binasının damında da günəş panelləri quraşdırılıb.

Sonra Prezident İlham Əliyev Bəylik kəndində yeni inşa edilmiş fərdi evlərdə yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, tamamilə yenidən tikilən kəndə ümumilikdə 90 ailə - 360 nəfərin köçürülməsi nəzərdə tutulur. Ərazisi 29,6 hektar olan kənddə 91 fərdi ev inşa olunub. Evlərdən 13-ü iki, 50-si üç, 15-i dörd, 13-ü isə beşotaqlıdır.

Bəylik kəndində əhalinin məşğulluğunun təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr tikilib, kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

* * *

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın rayonunun Bəylik kəndinə köçən sakinlərlə görüşüb, onlara evlərin açarlarını təqdim edib.

Prezident İlham Əliyev sakinləri salamladı.

Sakinlər: Xoş gəlmisiniz.

Prezident İlham Əliyev: Siz də xoş gəlmisiniz doğma Vətəninizə.

Sakinlər: Allah Sizi qorusun! Fəxr edirik Sizinlə, Prezidentimizlə. Sizi Bəylikdə görmək böyük xoşbəxtlikdir. Xoş gəlmisiniz.

Prezident İlham Əliyev: Sağ olun. Sizi kəndin bərpa olunması münasibətilə təbrik edirəm. Eyni zamanda, bildiyiniz kimi, sabah Müstəqillik Günüdür. Sizi

Müstəqillik Günü münasibətilə təbrik edirəm. Siz gözəl bayram ərəfəsində doğma torpağınıza qayıdırsınız. Bu, gözəl hadisədir və əminəm ki, burada, doğma torpaqda həyatınız xoş keçəcək.

Sakinlər: İnşallah.

Prezident İlham Əliyev: Dövlət əlindən gələni edib ki, sizin üçün çox gözəl şərait yaratsın.

Sakinlər: Var olsun dövlətimiz, çox sağ olun.

Prezident İlham Əliyev: Gözəl evlər, yollar, elektrik enerjisi, təbii qaz, su, həyətyanı sahə, yəni, yaşamaq üçün, çalışmaq üçün bütün imkanlar var. Belə gözəl, təbii şəraitdə yaşamaq, özü də öz torpağında yaşamaq, əlbəttə, əminəm ki, sizin üçün çox xoşdur. Bu, böyük xoşbəxtlikdir. Biz 30 illik erməni işğalına son qoyandan sonra dərhal bütün rayonlarda bərpa-quruculuq işlərinə start verildi, erməni vandallığına məruz qalmış kəndlər yenidən quruldu. Bəylik kəndi də ermənilər tərəfindən yerlə-yeksan edilmişdi. İndi gözəl yaşayış məntəqəsi yaradılmışdır. Buna yaxın, sizin qonşu kəndiniz vaxtilə bir kənd olub, Sus kəndi, o tərəfdə Zabux, Laçın şəhəri. İndi Laçın rayonunda artıq dörd yaşayış məntəqəsi bərpa edilib. Amma, ümumiyyətlə, bərpa edilmiş şəhər və kəndlərimizin sayı 15-ə çatıb. Bütün bunları qısa müddət ərzində etmişik və işlər davam etdirilir. Azad edilmiş bütün ərazilərdə genişmiqyaslı işlər gedir ki, tezliklə bizim vətəndaşlarımız öz torpaqlarına qayıtsınlar.

Sakinlər: İnşallah.

Prezident İlham Əliyev: Azad edilmiş ərazilərdə bu günə qədər 40-43 min adam yaşayır, çalışır, ali məktəbdə oxuyur.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Allah şəhidlərimizə rəhmət eləsin!

Sakinlər: Amin.

Prezident İlham Əliyev: Bildiyiniz kimi, o vaxt Laçın rayonunun kiçik bir hissəsi döyüş meydanında azad edilmişdi, cənub hissəsi. Ancaq əsas hissə Ermənistanın təslim olunmasından sonra azad edildi, bir güllə atılmadan. Həm Laçının əksər hissəsi, Kəlbəcər, Ağdamın böyük hissəsi Ermənistan tərəfindən məcburən bizə qaytarılmışdır və ondan bu yana Azərbaycan xalqı öz doğma torpaqlarına qayıtmağa başlamışdır.

May ayı sizin üçün ikiqat bayram ayı olacaq - həm müstəqillik bayramı, həm də Bəyliyə qayıtdığınız gün. Amma may ayı laçınlılar üçün faciəvi ay olmuşdur. Məhz may ayında Laçın işğala məruz qaldı, Şuşa işğalından 10 gün sonra. Bu, böyük bir faciə idi, böyük bir bəla idi həm sizin üçün, həm də bütün ölkəmiz üçün. Çünki məhz Laçının işğal altına düşməsi müharibədə ondan sonrakı uğursuzluqlarımızın təməlini qoydu. Çünki ovaxtkı Dağlıq Qarabağ bölgəsi coğrafi nöqteyi-nəzərdən Ermənistanla birləşdi. Mənfur Laçın dəhlizi açıldı, hansı ki, indi yoxdur. Artıq uzun illərin Laçın-Xankəndi yolu var. Laçın dəhlizi tarixdə qaldı.

Bilirsiniz, o vaxt o dövrü yaşayan insanlar yaxşı bilir ki, Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. O vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyü xəyanət, satqınlıq etmişdir və torpaqlarımızın işğal altına düşməsində onların böyük mənfur payı var. Məhz Laçın işğala məruz qalandan bir ay sonra onlar öz istəklərinə nail olub hakimiyyətə gəldilər, o da ölkəmiz üçün böyük bəlaya gətirib çıxarmışdır. Hakimiyyətə gəlmək üçün torpaqları satmaq, düşmənə təhvil vermək böyük cinayətdir, böyük xəyanətdir, satqınlıqdır, qorxaqlıqdır. Amma o, artıq tarixdə qaldı. O tariximizin qara səhifəsi çoxdan bağlandı. Azərbaycan bu gün bütün ərazisində öz suverenliyini bərpa edib. May ayı bundan sonra ancaq sizin üçün, bizim hamımız üçün bayram ayı kimi olacaqdır. Sağ olun.

Sakinlər: Allah canınızı sağ eləsin, Sizin sayənizdə, "Dəmir yumruq" sayəsində. Allah "Dəmir yumruğ"unuzu var eləsin, əziz Prezidentimiz.

Prezident İlham Əliyev: Sağ olun. İndi bizim gözəl tarixlərimiz var, gözəl bayramlarımız var. 18 may – Laçının işğal günü, 8 may – Şuşanın işğal günü, onlar artıq tarixdə qaldı. Siz yaxşı bilirsiniz ki, işğal dövründə laçınlılar, şuşalılar, digər rayonlardan olan insanlar hər il işğal gününü matəm kimi qeyd edirdilər. Bu, hər il onların dərdinə dərd əlavə edirdi, amma artıq o günlər yoxdur. Bizim indi 8 Noyabr günümüz var – Zəfər Günü, bizim 26 Avqust günümüz var – Laçının azad olunması günü və Laçının Günü kimi qeyd olunur. 23 Aprel var – o vaxt ki, Laçın istiqamətində biz öz sərhədimizə sahib çıxdıq və bizim sərhədimizdə yerləşənləri kənarlaşdıraraq artıq mənfur Laçın dəhlizini də nəzarətə götürdük. Təbii ki, 20 Sentyabr – bu da bizim böyük Zəfər günümüzdür. Birgünlük antiterror əməliyyatı nəticəsində separatizmin kökü kəsildi, Ermənistan ordusu tam təslim oldu. Artıq yeni dövr başlamışdır və bütün dünya bununla hesablaşmağa məcbur oldu. Baxmayaraq ki, hələ həm İkinci Qarabağ müharibəsi zamanı və müharibədən sonra, 2023-cü ilin sentyabr ayına qədər müxtəlif xarici dairələrdən müxtəlif məkrli təşəbbüslər irəli sürülürdü. Heç birinin əhəmiyyəti olmadı. Çünki dediyiniz kimi, "Dəmir yumruq" yerindədir. Sizi təbrik edirəm, xoşbəxt yaşayın.

Sakin: Cənab Prezident, mən ailəm adından, Bəylik kəndi adından Sizə böyük minnətdarlığımı, təşəkkürümü bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Amin. Cani-könüldən deyirəm, Allah Sizi Azərbaycan xalqının üstündən əskik etməsin. Amin. Mehriban xanımla qoşa yarıyın, qoşa qarıyın. Var olun. Hamınız var olun.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm.

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

Prezident İlham Əliyev: İndi də gözəl bir mərasimə başlayaq, bayram ərəfəsində.

Qadın sakin: Bizim üçün ikiqat bayramdır.

Prezident İlham Əliyev: Təbrik edirəm.

Mayıl Həsənov: Allah canınızı sağ eləsin. Sizin siyasətiniz sayəsində biz 32 ildən sonra öz vətənimizə gəlib yetişmişik.

Prezident İlham Əliyev: Allaha şükür.

Mayıl Həsənov: Sizin siyasətiniz sayəsində bu torpaqlar azad olunub. Bu torpaqlar uğrunda şəhid olanlara Allah rəhmət eləsin.

Prezident İlham Əliyev: Amin.

Mayıl Həsənov: Onların valideynlərinin qarşısında baş əyirik.

Qadın sakin: Hamımız baş əyirik.

Mayıl Həsənov: Qazilərimizə cansağlığı arzulayırıq. Sizin də siyasətiniz bax, belə davam etsin. Ömrünüzün axırınadək bax, belə davam etsin.

Sakinlər: Amin, inşallah.

Prezident İlham Əliyev: İnşallah. Təbrik edirəm.

İntizar Həsənova: Qalib xalqın qalib Prezidenti, Sizinlə fəxr edirik.

Prezident İlham Əliyev: Sağ olun.

İntizar Həsənova: Sizi Bəylik kəndində görmək bizim üçün şərəfdir, qürurdur. Allah Sizi qorusun. Allah Sizi Azərbaycanın üstündən əskik etməsin. Qadınlar adından çox xahiş edirik ki, bizim minnətdarlığımızı Mehriban xanıma çatdırasınız.

Prezident İlham Əliyev: Çatdıraram mütləq, çox sağ olun. Təbrik edirəm.

Xədicə Həsənova: Çox sağ olun, əziz Prezident. Mən də Sizi təbrik edirəm bizə belə xoş, rəvan, gözəl şərait yaratdığınıza görə. Həmişə başın uca, alnın açıq, ürəyin təmiz olsun, xalqın arxasında durasan.

Sakinlər: Amin.

Xədicə Həsənova: Xalq da sənin arxanda duracaq.

Prezident İlham Əliyev: Sağ ol. Çox sağ olun.

Mətləb Tağıyev: Cənab Prezident, mən Allahdan arzu edirəm ki, bundan sonra Siz 100 il sağlam ömür yaşayasınız.

Sakinlər: Amin. Amin.

Prezident İlham Əliyev: Sağ olun.

Mətləb Tağıyev: Siz böyük iş görmüsünüz, hələ çox görəcək işlərimiz var. Allah nailiyyətlərinizi, qələbələrinizi bol etsin.

Sakinlər: Amin. Amin.

Prezident İlham Əliyev: Sağ olun.

Mətləb Tağıyev: Çox sağ olun.

Nüsrət Balakişiyev: Cənab Prezident, çox sağ olasınız.

Prezident İlham Əliyev: Sağ ol.

Nüsrət Balakişiyev: Allah Sizə ömür versin, qalan laçınlılarımıza da belə gözəl evlər tikib gətirib qovuşdurasınız.

Prezident İlham Əliyev: Hamısı qayıdacaq.

Nüsrət Balakişiyev: Çox sağ olun, təşəkkür edirəm.

Prezident İlham Əliyev: Hələ Laçında görüləsi işlər çoxdur.

Ülviyyə Həsənova: Çox sağ olun, təşəkkür edirəm. Olar yoldaşım da gəlsin, ikimiz də?

Prezident İlham Əliyev: Əlbəttə, bəli.

Ülviyyə Həsənova: Gəl, ikimiz də şəkil çəkdirək.

Həyat yoldaşı: Çox sağ olun.

Ülviyyə Həsənova: 50 illik yubileyimdə mənim üçün ev hədiyyəsi. Çox sağ olun.

Prezident İlham Əliyev: Təbrik edirəm sizi, ad günü münasibətilə.

Ülviyyə Həsənova: Bu gün 30 illik evlilik həyatımızın ən gözəl hədiyyəsidir, ən gözəl.

Həyat yoldaşı: Olar bir-iki kəlmə söz deyim?

Prezident İlham Əliyev: Əlbəttə.

Həyat yoldaşı: Cənab Prezident, 2012-ci il dekabrın 24-də laçınlı keçmiş məcburi köçkünlər üçün Ağcabədi rayonunda salınmış Taxtakörpü qəsəbəsinin açılışına gələndə Siz demişdiniz ki, – mən də onda xidmət edirdim, – inşallah, torpaqlarımız azad olunacaq, bundan da yaxşı evlər tikib sizə açarları təqdim edəndə deyəcəksiniz ki, cənab Prezident, bizim şəhərimizə, bizim kəndimizə xoş gəlmisiniz.

Sakinlər: Xoş gəlmisiniz, xoş gəlmisiniz. Sağ olun, minnətdarıq.

Prezident İlham Əliyev: O vaxt 50 illiyimi laçınlılarla birlikdə qeyd etdim. 60 illiyimi isə Şuşada qeyd etdim, Cıdır düzündə.

Sakin: Sizin 44 günlük müharibə dövründə söylədiyiniz bir fraqmenti xatırlatmaq istəyirəm. Almaniyalı jurnalist cənab Prezidentdən müsahibə götürəndə dedi ki, Qarabağ torpağı Sizin üçün niyə əzizdir? Cənab Prezident dərhal cavab verərək dedi ki, Avropanın nəhəng dövləti olan sizin Almaniya üçün Bavariya nə qədər əzizdirsə, Qarabağ torpağı da bizim üçün o qədər əzizdir. Sağ olun.

Prezident İlham Əliyev: Yadınızdadırsa, bir məsələni də demişdim. Deyirdilər ki, qondarma "Dağlıq Qarabağ"a, "Artsax"a müstəqillik verilməlidir, özü də bunu Fransadan deyirdilər. Dedim, mən razıyam, bir şərtlə ki, onlara Marseldə müstəqillik versinlər, mən də oranı tanıyım.

Dövlətimizin başçısı sakin Xatirə İsayevaya açarları təqdim edərək dedi: Təbrik edirəm.

Xatirə İsayeva: Çox-çox təşəkkür edirəm, cənab Prezident. Allah Sizə cansağlığı versin. Bu gözəl şəraiti yaratdığınıza görə təşəkkür edirəm. Çox-çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin Ədalət İsmayılova açarları təqdim edən dövlətimizin başçısı dedi: Təbrik edirəm.

Ədalət İsmayılov: Xoş gəlmisiniz, cənab Prezident. Allah Sizi bizim xalqımızın üstündən əskik etməsin. Allah rəşadətli Ordumuzu var etsin. Dövlətimizin Bayrağını daim uca etsin. Şəhidlərimizin məqamlarını uca etsin, ailələrinə səbir, dözüm nəsib etsin!

Prezident İlham Əliyev: Sağ olun.

Dövlətimizin başçısı sakin Vahid Cəmilova təbriklərini çatdıraraq ona açarları təqdim etdi.

Vahid Cəmilov: Xoş gəlmisiniz vətənimizə və vətəninizə.

Qadın sakin: Mən Prezidentimi hər dəfə görəndə ona cansağlığı arzulamışam. Var olun, Prezidentim, Mehriban xanımla birlikdə, balalarınla birlikdə. Öpürəm Sizi, sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Digər qadın sakin: Gözəl Prezidentimiz, Sizinlə çox fəxr edirəm. Qoy, bizim Sizinlə ailəvi şəklimiz olsun. Sizi çox sevirik.

Prezident İlham Əliyev: Gəlin, çox sağ olun.

Kişi sakin: Təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Çox sağ olun.

Digər kişi sakin: Böyük fəxrdir bizim üçün, böyük fəxrdir. Şükür Allahın bugünkü gününə.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçında "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) "Aşağı Malıbəy" və "Mirik" su elektrik stansiyalarının (SES) açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin sədri Baba Rzayev dövlətimizin başçısına əvvəlcə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında hidro yaşıl enerji layihələri barədə məlumat verdi.

Bildirildi ki, bu günədək istismara verilən 32 və artıq istismara hazır olan 6 stansiyanın işə salınması nəticəsində su elektrik stansiyalarının sayı 38-ə, onların gücü isə 307 MVt-a çatdırılır. Yaradılmış su elektrik stansiyalarında istehsal olunan yaşıl enerji hesabına illik 200 milyon kubmetrədək təbii qaza qənaət edilir və 400 min tonadək karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınır.

Dövlətimizin başçısına "Aşağı Malıbəy" və "Mirik" su elektrik stansiyaları haqqında məlumat verildi. Hər iki stansiya Həkəri çayının sağ qolu olan Zabux çayının Laçın rayonunun Malıbəyli və Mirik kəndlərinin ərazisindən keçən hissəsində inşa edilib. 3,1 MVt gücündə "Aşağı Malıbəy" və 3,5 MVt gücündə "Mirik" su elektrik stansiyalarında ən müasir avadanlıq quraşdırılıb, optik kabel xətləri çəkilib. Bununla da stansiyalar ölkənin enerji sisteminin mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunub. "Aşağı Malıbəy" və "Mirik" SES-lərdə il ərzində 20 milyon kilovat-saat yaşıl enerjinin istehsalı nəzərdə tutulub ki, bu da öz növbəsində 4,3 milyon kubmetr təbii qaza qənaət etməyə şərait yaradacaq, il ərzində 8 min ton karbon qazının atmosferə atılmasının qarşısını alacaq. Yeni istismara verilən stansiyalarda Laçın rayonunun sakinləri çalışacaqlar.

Prezident İlham Əliyev "Aşağı Malıbəy" və "Mirik" su elektrik stansiyalarını işə saldı.

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərində sakinlərlə görüşüb və onlarla söhbət edib.

Dövlətimizin başçısını salamlayan sakinlər dedilər: Xoş gəlmisiniz, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Cənab Prezident, üçüncü dəfədir Sizinlə görüşürük.

Prezident İlham Əliyev: Salam, necəsiniz?

Sakin: Çox sağ olun.

Prezident İlham Əliyev: Birinci gələnlərdənsiniz, elədirmi?

Sakin: Bəli, birinci gələnlərdənik.

Sakin: Olar, bəlkə bizim evdə bir şəkil çəkdirək?

Prezident İlham Əliyev: Olar, çəkdirək.

Sakin: Cənab Prezident, bu da xüsusi təyinatlıdır.

Prezident İlham Əliyev: Ay maşallah, ay maşallah. Neçə yaşı var?

Sakin: Beş.

Prezident İlham Əliyev: Maşallah. Rütbəsi də var.

Sakin: Bəli, bəli.

Prezident İlham Əliyev: Rütbəni kim verib sənə, özün? Sən mütləq general olacaqsan. Necə yaşayırsınız?

Sakinlər: Çox şükür, yaxşı. Hər şey yaxşıdır. Gözəl havası, gözəl suyu.

Sakin: Biz elə birinci köçənlərdənik, o vaxtdan da burada yaşayırıq.

Prezident İlham Əliyev: Bəli, birinci köçənlərdən.

Sakin: Biz də Əməkdar müəllimlərik. Sizinlə şəkil çəkdirmək istəyirik, şagirdlərimizlə, zəhmət olmasa.

Prezident İlham Əliyev: Gəlin, belə duraq. Burada harada dursan yenə də cənnət görünür. Balacanı da mən götürüm qucağıma. Balaca, gəl buraya.

Sakinlər: Çox sağ olun. Allah Sizə ömür versin, cansağlığı versin.

Prezident İlham Əliyev: Sağ olun, sizə də cansağlığı. Məktəbdə işlər yaxşıdır?

Sakin: Bəli, əladır, çox gözəldir.

Prezident İlham Əliyev: Həyətyanı sahə var?

Sakin: Bəli, var. Çox sağ olun, təşəkkür edirəm, cənab Prezident.

Prezident İlham Əliyev: Sabah bayram günüdür. Bayram münasibətilə sizi təbrik edirəm.

Sakinlər: Çox sağ olun, var olun, cənab Prezident. Allah Sizə ömür versin.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 27-də Laçın rayonunun Zerti kəndində "Laçın" İstirahət Kompleksinin açılışında iştirak edib.

Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Qarabağın əsrarəngiz təbiətində, Laçın rayonunun dağ zirvəsində yerləşən bu məkan bölgənin turizm potensialını əks etdirən müasir istirahət mərkəzi olmaqla işğaldan azad edilmiş ərazilərin bərpası və regionda turizmin inkişafına xidmət göstərən mühüm layihələrdən biridir.

Bildirildi ki, ərazisi 11.2 hektar və ümumi sahəsi 42 min kvadratmetr olan "Laçın" İstirahət Kompleksi müxtəlif kateqoriyalı 120 otaqlı hotel binasından, 8 kottecdən ibarət olmaqla, ümumilikdə 324 nəfər qonaq qəbul edə biləcək.

İstirahət kompleksində işgüzar görüşlərin, konfransların və digər tədbirlərin keçirilməsi üçün müasir avadanlıqlarla təchiz edilmiş 500 nəfərlik tədbir və 340 nəfərlik ziyafət zalları, 100 nəfərlik konfrans zalı və toplantı otağı yaradılıb.

Kompleksdə fəaliyyət göstərəcək restoran və kafelər həm milli mətbəxin, həm də dünya mətbəxinin təamlarını qonaqlara təqdim edəcək.

Burada qonaqların istirahətini mənalı və əyləncəli keçirmələri üçün boulinq, VR oyun zonaları, karaoke, bilyard, uşaq əyləncə mərkəzi fəaliyyət göstərəcək. Kompleksin ərazisindəki futbol və basketbol meydançaları, velosiped və yürüş zolaqları qonaqlara dağ mənzərələri fonunda aktiv istirahət təqdim edəcək.

Bu istirahət məkanında 174 nəfər işlə təmin olunub ki, onlardan da 122-si Laçın, Kəlbəcər və işğaldan azad olunmuş digər ərazilərin sakinləridir.

Mayın 27-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.

Mayın 28-də Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsiblər.

Laçın Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edilib.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, mürəkkəb dağlıq relyefdə yerləşən Laçın Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə inşa edilən üçüncü beynəlxalq hava limanıdır.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda genişmiqyaslı bərpa və yenidənqurma işləri həyata keçirilir. Bu layihələrin arasında hava limanlarının inşası xüsusilə mühüm strateji əhəmiyyət daşıyır. İndiyədək bu ərazilərimizdə müasir standartlara cavab verən Füzuli və Zəngilan Beynəlxalq Hava limanları inşa olunub. Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi ilə Azərbaycanın beynəlxalq hava limanlarının sayı doqquza çatıb.

Tikintisinə 2021-ci ilin avqust ayında başlanılmış bu mühüm infrastruktur obyektin inşası ən yüksək texnoloji və mühəndislik standartlarına uyğun həyata keçirilib. Qeyd edək ki, hava limanının təməli 2021-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Ötən müddət ərzində dövlətimizin başçısı və birinci xanım bir neçə dəfə burada tikinti işlərinin gedişi ilə tanış olublar.

Hava limanında istənilən tip hava gəmisinin qəbuluna imkan verən, uzunluğu 3 min, eni isə 60 metr olan uçuş-enmə zolağı inşa edilib. Beş min kvadratmetrlik terminal binası saatda ən azı 200 sərnişinə xidmət göstərmək imkanına malikdir. Terminalda sərnişinlərin rahatlığı üçün VIP zal, qeydiyyat və təhlükəsizlik sistemləri, baqaj konveyerləri, ticarət obyektləri və iaşə zonaları nəzərdə tutulub. Tam avtomatlaşdırılmış sistemlərlə təchiz olunmuş Hava Hərəkətini İdarəetmə Qülləsi uçuşların beynəlxalq normalara və təhlükəsizlik standartlarına uyğun şəkildə idarə olunmasını təmin edir. Burada yaradılmış infrastruktur ICAO və IATA standartlarına uyğun olaraq uçuşların təhlükəsiz və səmərəli şəkildə həyata keçirilməsinə imkan verir.

Laçın rayonunun Qorçu kəndində dəniz səviyyəsindən 1700 metr hündürlükdə yerləşən hava limanının ümumi ərazisi 130 hektardan çoxdur. Bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportudur. Laçın şəhərindən 30 kilometr, Şuşadan 70 kilometr, Kəlbəcərdən isə 60 kilometr məsafədə yerləşən hava limanı Qarabağ və Şərqi Zəngəzur regionlarının nəqliyyat əlaqələrinin gücləndirilməsində mühüm rol oynayacaq. Bundan başqa, bu mühüm nəqliyyat layihəsinin icrası ümumilikdə bölgənin turizm potensialının inkişafına da geniş imkanlar yaradacaq. Coğrafi mövqeyi və əlçatanlığı ilə bu hava limanı bölgənin iqtisadi, sosial və logistik inteqrasiyasını dəstəkləyən əsas nəqliyyat mərkəzinə çevriləcək.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk və azərbaycanlı sərmayədarlar tərəfindən Qarabağ və Zəngəzur bölgələrində yaradılan ilk özəl kənd təsərrüfatı kompleksi olan "Dost Aqropark"da istehsal edilən məhsullara baxdılar.

Qeyd edildi ki, kompleksdə ağıllı kənd təsərrüfatı texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub.

Aqroparkda hazırda 120 nəfər işlə təmin olunub. Tam işə düşdükdən sonra burada 500 nəfərə iş imkanı yaradılacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mayın 28-də Kəlbəcər-Laçın avtomobil yolunda görülən tikinti işləri ilə tanış olublar.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov Azərbaycan və Türkiyə prezidentlərinə görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısının tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra edilən mühüm əhəmiyyətə malik yol infrastrukturu layihələrindən biri də uzunluğu 75,8 kilometr olan Kəlbəcər-Laçın avtomobil yoludur.

Başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə Laçın rayonunun ərazisindən keçən və bu iki rayonu birləşdirən yol 2, 3 və 4 hərəkət zolaqlı olacaq.

Yolboyu tikintisi nəzərdə tutulmuş 17 avtomobil tunelindən 16-da tikinti işləri uğurla davam etdirilir, birinin isə layihələndirilməsi aparılır.

Uzunluğu 126 kilometr olan mövcud Kəlbəcər-Laçın avtomobil yolunun yeni layihəyə əsasən tikintisi Kəlbəcər şəhər mərkəzindən Laçın şəhər mərkəzinədək məsafəni 32,2 kilometr qısaldaraq 93,8 kilometr təşkil edəcək.

Laçın şəhər mərkəzindən Laçın Beynəlxalq Hava Limanınadək hazırda mövcud yol üzrə məsafə 65 kilometr təşkil edir. Yeni tikilən yol üzrə isə məsafə 35,8 kilometr olacaq. Yolun 40-cı kilometrliyindən ayrılan və Laçın Beynəlxalq Hava Limanına aparan körpünün tikintisi də layihə çərçivəsində yerinə yetirilir. Ümumilikdə Kəlbəcər-Laçın avtomobil yolunda tikinti işlərinin 44 faizi icra olunub. Yeni yol Kəlbəcər və Laçın rayonlarının bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və Laçın Beynəlxalq Hava Limanına rahat gediş-gəlişi təmin edəcək, ümumilikdə bu bölgənin sosial-iqtisadi inkişafına təkan verəcək.

Mayın 28-də Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Laçında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə görüşü keçirilib.

Dövlətimizin başçısı Zirvə görüşündə çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı

– Hörmətli Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərif.

Əziz dostlar, Azərbaycana, Şərqi Zəngəzura, Laçına xoş gəlmisiniz.

Bugünkü Zirvə görüşü Azərbaycanın Müstəqillik Günündə, erməni işğalından azad edilmiş Laçında keçirilir. Bunun böyük rəmzi mənası var. Bugünkü Zirvə görüşü sayca ikincidir. Keçən ilin iyulunda Azərbaycan-Türkiyə-Pakistan birinci Zirvə görüşü keçirilmişdir. Əminəm ki, biz bu ənənəni davam etdirəcəyik.

Ölkələrimiz və xalqlarımız birgə tarix, mədəniyyət və dəyərlər əsasında bir-birinə bağlıdır. Bir-birimizin uğurlarına sevinmişik, çətin günlərdə bir-birimizin yanında olmuşuq.

Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub. 2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik.

Ölkələrimizin strateji mövqeyindən və dinamik iqtisadi potensialımızdan istifadə etməklə qarşılıqlı faydalar əldə etmək üçün geniş imkanlar var.

Siyasət, iqtisadiyyat, energetika, qarşılıqlı investisiyalar, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın birgə layihələr və proqramlar vasitəsilə daha böyük sürətlə inkişaf edəcəyinə inanırıq.

Azərbaycan Türkiyə iqtisadiyyatına 20 milyard ABŞ dollarından çox sərmayə qoyub, Pakistan iqtisadiyyatına 2 milyard ABŞ dolları qoymağa hazırdır. Hazırda konkret investisiya layihələri üzrə işlər gedir.

Azərbaycan və Türkiyənin əməkdaşlığı nəticəsində yalnız bölgəmizin deyil, geniş coğrafiyanın enerji xəritəsi dəyişib. Ölkələrimiz enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olub və bu gün bərpaolunan enerjinin istehsalı və ixracı istiqamətində geniş layihələrə start verilib. Bununla yanaşı, Azərbaycan və Türkiyədən keçməklə Asiya ilə Avropanı birləşdirən nəqliyyat yolları strateji əhəmiyyət daşıyır. Multimodal yük marşrutunun inkişafı yolu ilə Pakistanın da bu təşəbbüsdə yaxından iştirakının əməkdaşlığımıza daha da təkan verəcəyinə əminik.

Müdafiə sahəsində əməkdaşlıq tərəfdaşlığımızın önəmli istiqamətlərindən biridir. Birgə hərbi təlimlər və hərbi-texniki sahədə layihələr silahlı qüvvələrimizin potensialını gücləndirib. Bizim hərbi əməkdaşlığımız geniş coğrafiyada sülhü və sabitliyi gücləndirir.

Biz, həmçinin rəqəmsal innovasiyalar, süni intellekt və kosmik texnologiyalar kimi yeni əməkdaşlıq sahələrini araşdırmalıyıq.

Birgə mədəni tədbirlər, akademik tərəfdaşlıqlar və turizm əlaqələrinin fəallaşması xalqlarımız arasındakı bağları daha da gücləndirəcəkdir.

Eyni zamanda, beynəlxalq platformalarda və təşkilatlarda həmrəyliyimiz gücümüzə güc qatır. Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM), habelə D-8 kimi beynəlxalq platformalarda birgə səylərimizi daha da möhkəmləndirmək əzmindəyik.

Həmçinin ölkəmizin ötən il D-8-in 11-ci Zirvə görüşü zamanı yekdilliklə bu təşkilatın üzvü seçilməsində göstərilən dəstəyə görə qardaş Türkiyəyə və qardaş Pakistana bir daha təşəkkür edirəm.

Hörmətli həmkarlar, Azərbaycan hər zaman qardaş Türkiyənin və Pakistanın yanında olub.

Türkiyənin terrorçuluqla mübarizə istiqamətində əldə etdiyi uğurlar bizi ürəkdən sevindirir. PKK terror qruplaşmasının özünü ləğv etməsi və tərk-silah ilə bağlı qərarı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın liderliyinin və əzminin, Türkiyə dövlətinin gücünün nümunəsidir. Bu tarixi hadisə yalnız Türkiyə üçün deyil, ümumilikdə bölgədə sülh və əmin-amanlıq üçün önəmli məsələdir. Bu tarixi hadisə münasibətilə qardaş Türkiyəni bir daha təbrik edirəm.

Pakistan və Hindistan arasında son gərginliyi böyük narahatlıq hissi ilə, eləcə də sülhün və sabitliyin bərpa olunacağı ümidi ilə yaxından izlədik. Bu gərgin dönəmdə ilk gündən Pakistanla həmrəyliyimizi açıq şəkildə ifadə etdik. Münaqişənin dialoq və sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanan həllini dəstəkləyirik.

Əziz dostlar, 30 illik Ermənistan işğalından sonra dirçəliş dövrünü yaşayan Laçına bir daha xoş gəlmisiniz.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı əbədi olacaq.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra Türkiyə Prezidenti çıxış etdi.

### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

– Əziz qardaşım, Prezident cənab İlham Əliyev.

Əziz dostum, Baş nazir cənab Şahbaz Şərif.

Hörmətli mətbuat nümayəndələri.

Sizləri ən səmimi duyğularımla, sevgi ilə salamlayıram.

Birincisini ötən il Astanada keçirdiyimiz Türkiyə-Azərbaycan-Pakistan üçtərəfli Zirvəsinin ikinci toplantısında sizlərlə birlikdəyik. Səmimi ev sahibliyinə görə İlham qardaşıma təşəkkür edirəm.

Çıxışımın əvvəlində Can Azərbaycanı 28 May – Müstəqillik Günü münasibətilə təbrik edirəm. Həyatlarını qurban verərək Azərbaycanın müstəqilliyini təmin edən şəhidlərimizi rəhmətlə yad edirəm.

Qarşılıqlı sevgi, hörmət və etimada əsaslanan, eyni mədəniyyət mühitindən bəhrələnən ortaq idealları bölüşən üç qardaş ölkəyik. Təxminən 350 milyon əhaliyə və 1,5 trilyon dollar iqtisadi gücə sahib ölkələrimizin arasındakı bağları daha da gücləndiririk. Birliyimizi strateji tərəfdaşlığa çevirməyə yönəlmiş hər bir addımın arxasında olduğumuzu xüsusilə vurğulamaq istəyirəm.

Bölgəmizdə baş verən hadisələr ölkələrimiz arasındakı həmrəyliyin nə qədər vacib olduğunu gündən-günə daha aydın şəkildə göstərir. Azərbaycanın 30 il işğal altında qalan torpaqlarının azad olunması ilə artıq bölgənin sabitlik, rifah və inkişaf mərkəzinə çevrilməsini arzulayırıq. Bu gün səhər açılışını etdiyimiz Laçın Hava Limanının bölgənin uzun illərdən bəri həsrət qaldığı inkişafa və dünya ilə inteqrasiyasına mühüm töhfə verəcəyinə inanıram.

Dəyərli qardaşım cənab Şahbaz Şərifi üç gün əvvəl İstanbulda qəbul etdik. Görüşümüzdə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində tərəfdaşlıq məsələlərini nəzərdən keçirdik. Türkiyə ilə Pakistan arasındakı dərin tarixi və humanitar əlaqələri daha da möhkəmləndirmək barədə razılığa gəldik.

Fürsətdən istifadə edərək, Pakistan ilə Hindistan arasında baş verən gərginliyin atəşkəslə nəticələnməsindən məmnunluq duyduğumuzu ifadə etmək istəyirəm. Bu proses müddətində nümayiş etdirdiyi təmkinli və qətiyyətli mövqeyinə görə Şahbaz qardaşımızı və Pakistan rəsmilərini bir daha təbrik edirəm. Arzumuz elan olunan atəşkəsin davamlı sülhə çevrilməsidir. Türkiyə bu yolda üzərinə düşən hər cür töhfəni verməyə hazırdır.

Əziz qardaşlarım, ölkələrimiz Avropa ilə Asiyanın kəsişmə nöqtəsində, son dərəcə strateji bir bölgədə yerləşir. Coğrafiyamızda və onun hüdudlarından kənarda təhlükəsizlik təhdidlərindən tutmuş iqtisadi çətinliklərə, enerji və qida böhranlarına qədər bir çox sınaqlarla eyni anda üz-üzəyik. Bu çətinliklər qarşısında həmrəylik və birgə fəaliyyət məqsədimizin inkişaf etdirilməsini bir seçim deyil, zərurət olaraq görürük.

Üçtərəfli əməkdaşlığımızı daha da irəli aparmaq üçün bu gün əziz qardaşlarımla mühüm mövzularda fikir mübadiləsi aparırıq. Üçtərəfli əməkdaşlığımızın təşkilatlanması üçün qarşıdakı dövrdə xarici işlər nazirlərimiz zəruri işləri həyata keçirəcəklər. Xüsusilə ortaq gündəmimizi formalaşdıran ticarət, investisiyalar, nəqliyyat, enerji, müdafiə sənayesi və terrorla mübarizə

kimi sahələrdə ölkələrimizin ortaq baxışını əks etdirən güclü bir çərçivə hazırlayacaqlar.

Türkiyə, Azərbaycan və Pakistan olaraq, mütəmadi üçtərəfli Zirvə görüşləri və nazirlər səviyyəsində toplantılar təşkil etməklə əməkdaşlığımızı institusional səviyyəyə çatdıracağıq. Müdafiə sahəsində əməkdaşlığımızı dərinləşdirib terrorla mübarizə və transsərhəd təhdidlərə qarşı ortaq qətiyyətimizi davam etdirəcəyik. Ticarətin asanlaşdırılması, investisiyaların təşviqi və rəqəmsal transformasiya sahələrində müştərək addımlar atmağı hədəfləyirik.

Əməkdaşlığımızın son dərəcə strateji aspektini təşkil edən nəqliyyat sahəsində "İnkişaf Yolu", "Orta Dəhliz" və "Şimal-Cənub Nəqliyyat Dəhlizi" kimi layihələrə birlikdə töhfə verəcəyik. Mədəniyyət və təhsil sahələrində, xüsusilə də gənclərimizin və alimlərimizin qarşılıqlı təmaslarını artıracaq layihələr üzərində çalışacağıq. Enerji təhlükəsizliyi, ərzaq təhlükəsizliyi və bərpaolunan enerji sahələrindəki imkanları birlikdə dəyərləndirəcəyik.

İnşallah, bütün bu sahələrdə nüfuzlu layihələri həyata keçirməklə üçtərəfli əməkdaşlığımızı daha da yüksək səviyyəyə çatdıracaq və xalqlarımıza yeni nailiyyətlər bəxş edəcəyik.

Əziz qardaşlarım, qütbləşmənin dərinləşdiyi, bloklaşmanın artdığı bu dövrdə beynəlxalq sistemin getdikcə legitimlik böhranına sürükləndiyinin şahidi oluruq. Beynəlxalq sistemin yaşadığı böhranın bu baxımdan açıq nümunəsini İsrailin Fələstində qarşısıalınmaz zülmü və bu zülm qarşısında davam etdirdiyi ekspansionist siyasət təşkil edir. Biz Qəzzada göz görə-görə qətlə yetirilən günahsız uşaqların və insanların haqqının müdafiəsini davam etdirməkdə qətiyyətliyik. Bölgəmizin sabitliyini pozmağa çalışan bütün cəhdlərə qarşı duracağımızı bir daha vurğulamaq istəyirəm. Coğrafiyamız qandan və göz yaşından doymuşdur. Buradan bütün dünyaya Qəzzada davamlı atəşkəsin təmin olunması və Qəzzaya fasiləsiz, təcili humanitar yardımın çatdırılması üçün İsrail hökumətinə təzyiqləri artırmaq barədə çağırış edirik.

Çıxışımın sonunda İlham qardaşım başda olmaqla Can Azərbaycan xalqına, xüsusilə də laçınlı qardaşlarıma səmimi qonaqpərvərliyə görə bir daha təşəkkürümü bildirirəm.

Sizləri yenə də ən səmimi duyğularımla salamlayır, 28 May – Müstəqillik Gününüzü bir daha təbrik edirəm. Uca Allah yolumuzu və taleyimizi açıq etsin. Rəbbim qardaşlığımızı əbədi, birliyimizi davamlı etsin. Sağ olun, salamat qalın.

Daha sonra Pakistanın Baş naziri çıxış etdi.

**Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı**

– Bismillahir-rəhmanir-rəhim.

Möhtərəm Prezident İlham Əliyev.

Möhtərəm Prezident Rəcəb Tayyib Ərdoğan.

Hörmətli nazirlər, hörmətli tədbir iştirakçıları, salamaleyküm, hər vaxtınız xeyir.

Çıxışımın əvvəlində əziz qardaşım Prezident İlham Əliyevi, azərbaycanlı bacı və qardaşlarımızı Müstəqillik Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan xalqı öz azadlığı uğrunda çox ciddi mübarizə apardı və siz bu gün beynəlxalq müstəvidə də güclü mövqeyə maliksiniz.

Bu məqamda mən, həmçinin əziz qardaşım Rəcəb Tayyib Ərdoğana təbriklərimi çatdırmaq istəyirəm. Çünki o, çox böyük məharətlə PKK məsələsini həll etdi və bu, əziz qardaşımın diplomatik məharətini nümayiş etdirdi. Bu məsələ öz həllini tapdı və beləliklə, Siz təkcə regionda deyil, dünya müstəvisində də mühüm hörmətə malik oldunuz.

Əziz qardaşım İlham Əliyev, səmimi qonaqpərvərliyinizə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu gün əziz qardaşlarım – Prezident Əliyev və Prezident Ərdoğanla əsl dostların, qəlblərin və ruhların təzahürü olan bu gözəl məkanda birgə olmaqdan böyük şərəf duyuram. Gözəl Laçında dalğalanan Azərbaycan, Türkiyə və Pakistan bayraqlarını görmək qəlblərimizi hədsiz sevinc və fəxarət hissi ilə doldurur.

Zati-aliləri, biz ötən il Astanada üçtərəfli formatda görüşdük və qarşılıqlı maraq doğuran məsələlər ətrafında olduqca səmərəli müzakirələr apardıq. Bu gün isə biz füsunkar Laçında üçtərəfli tərəfdaşlığımızı xalqlarımızın istəyinə uyğun olaraq yeni səviyyəyə qaldırmaq arzusundayıq. Həmin arzu heç kəsi təəccübləndirməməlidir. Çünki Azərbaycan, Türkiyə və Pakistan əsrlər boyu təşəkkül tapmış birgə dəyərlərə və qarşılıqlı dəstəyə əsaslanan dərin tarixi, mədəni və mənəvi tellərlə bağlıdır.

Əziz qardaşlarım, son dövrlərdə bu tarixi münasibətləri Qarabağda, Kəşmirdə və Şimali Kiprdə bir-birimizin yanında olmağımızla gücləndirmişik. Bizim gücümüz həmrəyliyimizə və qarşılıqlı hörmətə əsaslanır. Bu, təbiidir, çünki Türkiyədə və Azərbaycanda qardaş xalqlarımız bizə güclü dəstək olmuşlar. Sıravi vətəndaşlarımızın coşqusu bizi valeh etməyə bilməzdi. Mən Pakistanın Hindistanla sonuncu münaqişəsindən bəhs edirəm. Orada nəinki Pakistana qarşı tutarlı dəlillər təqdim olunmadı, hətta Pahalqamda baş vermiş insidentlə bağlı istənilən beynəlxalq qurum tərəfindən bitərəf və şəffaf tədqiqatın aparılması təklifimiz də rədd edildi.

Əziz qardaşlarım, bugünkü dünyamızda ciddi çağırışlar, silahlı münaqişələr, iqlim dəyişikliyi, xəstəliklər və iqtisadi böhranlar mövcuddur. Bu səbəbdən ölkələrimiz bir araya gələrək münaqişəni rədd edir və mərhəməti seçir. Biz əminik ki, səbir və müdriklik nəticə etibarilə qalib gələcəkdir və firavanlığı təmin edəcəkdir. Bugünkü təlatümlü dünyada siyasi və təhlükəsizlik arxitekturaları, bağlantı layihələri və aparıcı texnologiyalar yeni reallığı şərtləndirir. Belə bir şəraitdə Pakistanın bəxti gətirib ki, Türkiyə və Azərbaycan kimi səmimi qardaşları var. Siz əzəmətli qaya kimi bizimlə bərabər dayandınız və biz tərəddüdsüz olaraq sizə etibar edirik. Biz silahdaş qardaşlar kimi sülhü, ədaləti və mənəvi dəyərləri hər zaman üstün tutacağıq.

Əziz qardaşlarım, əminəm ki, zamanın sınağından keçmiş münasibətlərimiz xalqlarımızın mənafeyinə xidmət edəcək, regionda və daha geniş coğrafiyada sülhə və firavanlığa töhfə verəcək. Bu üçtərəfli format həm zamanında təşkil edilib, həm də mühüm əhəmiyyətə malikdir. Bu, bizə zəruri siyasi məsuliyyətlə yanaşı, qarşılıqlı maraq doğuran sahələrdə birgə irəliləmək üçün təkan verir.

Çıxışımın sonunda bir daha səmimi-qəlbdən Pakistana sonuncu münaqişədə göstərilən dəstəyə görə təşəkkür edirəm. Bu, açıq-aydın Hindistanın bizə qarşı hərbi təcavüzü idi və bunun üçün heç bir səbəb yox idi. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, həmin vaxt Sizin qəti mövqeyiniz və həmrəyliyiniz, eyni zamanda, əziz qardaşım İlham Əliyevin də eyni şəkildə göstərdiyi qətiyyət bizdə çox yüksək qiymətləndirildi, həm xalqımız, həm hökumətimiz, həm də şəxsən mənim tərəfimdən. Biz buna görə hər zaman hər ikinizə və hər iki xalqa təşəkkürümüzü bildirəcəyik.

Mən çıxışımın sonunda marşal Asim Munirin rolunu qeyd etmək istəyirəm. Çünki məhz onun rəhbərliyi ilə bizim ordumuz böyük şücaət, peşəkarlıq göstərdi. Bütün xalq ordunun və şəxsən marşalın arxasında idi. Mən həmin məqamda ona diqqət yetirdim. O, qorxmadan cəsur və qətiyyətli hərəkət etdi, eyni zamanda, səbir və çox güclü mövqe nümayiş etdirdi. Allaha şükürlər olsun ki, Allahın bizim üzərimizdə olması səbəbindən və sizin dəstəyiniz nəticəsində biz qalib gəldik.

Mən bir daha qeyd etmək istəyirəm ki, biz regionda sülh arzulayırıq. Biz keçmişdə də sülh istəyirdik, bu gün də sülh istəyirik və gələcəkdə də sülhün tərəfdarı olacağıq. Bunun üçün isə əlbəttə ki, danışıqlar masasında əyləşmək lazımdır. Çünki bu, çox mühüm məsələlərdir və bu məsələlər dinc yolla həll edilməlidir. Bu məsələ Kəşmir probleminə aiddir və burada BMT-nin müvafiq qətnamələri var. Eyni zamanda, bu məsələ Kəşmir xalqının iradəsinə uyğun həll edilməlidir.

İkinci məsələ su məsələsidir. Əziz qardaşlarım, çox təəssüflər ki, Hindistan bu münaqişə zamanı su ilə bağlı sazişi pozdu, Pakistanın 240 milyonluq xalqı sudan məhrum edildi. Bu, bizim həm içməli suyumuz, həm də kənd təsərrüfatı üçün vacib olan su ehtiyatları idi. Bu, bizi çox dərindən məyus etdi ki, Hindistan məhz bu məsələdən, bu imkandan bizə qarşı istifadə etdi. Bu, mümkünsüz bir məsələdir və ümidvarıq ki, gələcəkdə baş verməyəcək. Əlimizdən gələni edirik ki, Hindistan bir daha belə bir hərəkətə yol verməsin.

Sonda terrorçuluq məsələsinə toxunmaq istəyirəm. Mən qeyd etmək istəyirəm ki, Hindistan həqiqətən terrorçuluqla mübarizədə səmimi dialoqa hazırdırsa, biz Hindistanla bu məsələdə müzakirə aparmağa hazırıq. Ancaq qeyd etmək lazımdır ki, terrorun qurbanı bizik. Son onilliklər ərzində bizim 90 min vətəndaşımız terrorun qurbanı olub, bizə 150 milyard dollar həcmində iqtisadi ziyan dəyib. Ona görə də terrorun kökünü birdəfəlik kəsmək bizim öhdəliyimiz və niyyətimizdir. Bir daha deyirəm ki, Hindistan buna hazırdırsa, Pakistan Hindistanla bunu müzakirə edə bilər, eyni zamanda, ticarətin təşviqini və digər məsələləri.

Mən bir daha Sizə bütün bu məsələlərdə bizə dəstək göstərəcəyinizə ümid edirəm. Əziz qardaşlarım, Uca və Müdrik Allahdan bu işimizdə bizə yardımçı olmağı diləyirəm.

Əziz qardaşlarım, diqqətinizə görə təşəkkür edirəm. Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu!

* * *

Mayın 28-də Laçında 28 May - Müstəqillik Gününə həsr olunmuş konsert keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif konsertdə iştirak ediblər.

Əvvəlcə Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirilib.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

-Hörmətli Türkiyə Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərif.

Hörmətli qonaqlar, əziz laçınlılar.

İlk növbədə, bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm. Bu bayram günündə bizimlə bərabər olan Türkiyə və Pakistan liderlərinə və onlarla bərabər Azərbaycana gəlmiş qonaqlara “Xoş gəlmisiniz!” deyirəm.

Azərbaycan, Türkiyə və Pakistan - üç qardaş ölkə əməkdaşlığı ildən-ilə, gündən-günə gücləndirirlər. Biz yaxşı günlərdə də, ağır günlərdə də hər zaman bir-birimizin yanındayıq, həmrəylik, dəstək göstəririk. Bu gün ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi. İşğaldan azad edilmiş Laçında, Şərqi Zəngəzurda iki qardaş ölkənin liderlərinin iştirakı ilə keçirilən bugünkü mərasim Azərbaycan-Türkiyə-Pakistan birliyinin, qardaşlığının növbəti təzahürüdür.

Xüsusilə bu bölgədə, 30 il ərzində işğal altında qalan Laçın şəhərində bizim birgə olmağımız böyük rəmzi məna daşıyır. Çünki 44 günlük İkinci Qarabağ müharibəsi zamanı bizi Türkiyə və Pakistan dəstəkləmişdir. Türkiyənin və Pakistanın dəstəyi bizi ruhlandırırdı, bizə əlavə güc verirdi. Bu böyük siyasi və mənəvi dəstəyə görə biz hər zaman qardaş ölkələrin rəhbərlərinə, qardaş xalqlara minnətdarıq.

Bu gün bizim üçtərəfli əməkdaşlığımızın yeni səhifəsi açılır. Əminəm ki, bu gün müzakirə etdiyimiz məsələlər, əldə edilmiş razılaşmalar bizi bir-birimizə daha da yaxın edəcək.

107 il bundan əvvəl müsəlman aləmində ilk demokratik respublika – Azərbaycan Xalq Cümhuriyyəti yaradılmışdır. Bu, böyük tarixi hadisə idi. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı. İki il sonra – 1920-ci ilin aprel ayında müstəqilliyimiz əlimizdən alınmışdır. Ondan bir neçə ay sonra – 1920-ci ilin noyabr ayında sovet Rusiyası tərəfindən Qərbi Zəngəzur bölgəsi Azərbaycandan ayrılıb Ermənistana birləşdirilmişdir. Bu, böyük ədalətsizlik idi və Azərbaycan xalqı buna oxşar ədalətsizliklərlə tarix boyu üz-üzə qalmışdır. Ancaq xalqımızın iradəsi və qardaş xalqların dəstəyi bizə güc verirdi, bizi ruhlandırırdı və iradəmizi gücləndirirdi.

1991-ci ildə Sovet İttifaqı dağılandan sonra Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ancaq Ermənistanın işğalçılıq siyasəti Azərbaycana böyük faciələr gətirmişdir. Müstəqillik elan olunandan dörd ay sonra Ermənistan dövləti xalqımıza qarşı soyqırımı törətmişdir. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın, 63 uşaq bir gecə içində vəhşicəsinə öldürülmüşdür. Müstəqillik elan olunandan yeddi ay sonra isə Laçın erməni işğalına məruz qalmışdır. Ondan əvvəl Şuşa şəhəri işğal olunmuşdur. Ermənistanın işğalçılıq siyasəti ondan sonra da davam etdirilmişdir. Xarici ölkələrin dəstəyi hesabına Azərbaycan ərazisinin təxminən 20 faizi erməni işğalına məruz qalmışdır. Qarabağ və Şərqi Zəngəzur bölgəsindən 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdır, qaçqın-köçkün həyatına başlamışdır.

Azərbaycan dövləti və xalqı bu ədalətsizliklə, bu işğalla heç vaxt barışmayıb. Biz güc toplayırdıq, beynəlxalq müstəvidə daha güclü mövqelərə sahib olurduq. Beynəlxalq təşkilatlar çərçivəsində öz haqq işimizi aparırdıq. Bütün aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanımaqla münaqişənin həlli üçün siyasi və hüquqi zəmin yaratmışdır. Biz, eyni zamanda, güclü iqtisadiyyat qurmuşuq və məhz bunun nəticəsində ordu quruculuğuna lazımi həcmdə vəsait ayırmışıq. Güclü siyasi iradə, güclü iqtisadiyyat və güclü ordu faktorları bizi Qələbəyə aparan amillərdir.

Bununla bərabər, biz vətənpərvərlik ruhunda, xalqa, torpağa bağlı yeni gənc nəsli yetişdirərək Qələbəmizi şərtləndirdik. 44 günlük İkinci Qarabağ müharibəsi zamanı biz hər gün irəli gedirdik. Bir gün belə geri addım atmamışdıq. Döyüş meydanında 300-dən çox şəhər və kəndimizi erməni işğalçılarından azad etmişdik. O cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri döyüş meydanında işğalçılardan azad edildi. 2020-ci il noyabrın 8-də Şuşa Zəfərimizdən sonra Ermənistan ordusunda təslimçilik meyilləri daha da artdı və ondan bir gün sonra – noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını, təslim aktını imzalamağa məcbur oldu. Məhz bunun nəticəsində bir güllə atılmadan Laçın, Kəlbəcər və Ağdam işğalçılardan azad edilmişdir. Bu şanlı tariximiz bölgəmizdəki geosiyasi vəziyyəti dəyişdirdi, yeni reallıqlar yaratdı və hər bir ölkə bu reallıqlarla barışmalı oldu. Bizim 2023-cü ildə birgünlük antiterror əməliyyatı isə dövlət suverenliyimizi tam bərpa etdi və Azərbaycanda separatizmin kökü birdəfəlik kəsildi.

İndi isə azad edilmiş bütün torpaqlarda bərpa işləri, quruculuq işləri gedir. Böyük infrastruktur layihələri icra edilir – xəstəxanalar, məktəblər, üç hava limanı tikilib, dəmir yolları, avtomobil yolları salınıb, 70 kilometrə yaxın tunelin inşası sürətlə gedir. Bu gün bizim qonaqlarımız azad edilmiş torpaqlarda gedən işlərin bir hissəsi ilə tanış olmuşlar. Artıq Şərqi Zəngəzur və Qarabağ bölgələrimizdə 43 min insan yaşayır və çalışır. Bu bölgəyə həyat qayıdıb, bu bölgənin sahibləri qayıdıblar. Biz qayıtmalıydıq və qayıtmışıq. Biz Ermənistan ordusunu məğlub etmişik və bununla Azərbaycan xalqı fəxr edir. Artıq dörd ildən çoxdur ki, biz müzəffər xalq və dövlət kimi yaşayırıq və əbədiyyətə qədər yaşayacağıq. Bu gün əziz qardaşlarımın – Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin bizimlə bərabər bu bayram tədbirlərində iştirakı, bizə göstərilən dəstək və həmrəylik artıq tamamilə yeni dünya miqyasında reallıqlar yaradır. Bizim gücümüz birliyimizdədir. Bu gün birliyimizi üçtərəfli formatda bir daha təsdiqlədik. Bu gün bayram konsertində səslənəcək mahnılar bir daha bizim birliyimizi, nə qədər zəngin mədəniyyətə malik olmağımızı göstərəcək. Əminəm ki, azad edilmiş Laçından üç ölkənin bu gün dünyaya verdiyi mesajlar lazımi ünvana çatacaq.

Mən bir daha Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğana, Pakistanın Baş naziri, əziz qardaşım Məhəmməd Şahbaz Şərifə və onlarla bərabər gəlmiş bütün qonaqlara “Xoş gəlmisiniz!” deyirəm.

Laçınlıları ürəkdən salamlayıram. Allah səmamızı, yolumuzu həmişə açıq eləsin. Qələbə bizimlədir və bizimlə olacaq.

Yaşasın Azərbaycan-Türkiyə-Pakistan birliyi və qardaşlığı!

Sonra Türkiyə Prezidenti çıxış etdi.

**Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı**

– Əziz qardaşım, Prezident cənab İlham Əliyev.

Əziz dostum, Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Hörmətli hökumət üzvləri, dəyərli incəsənət xadimləri, xanımlar və cənablar.

Sizləri ən səmimi duyğularımla, hörmətlə, məhəbbətlə salamlayıram. Buradan Bakıdan Gəncəyə, Şuşadan Naxçıvana olmaqla, Azərbaycanın hər bir guşəsindəki qardaşlarıma sevgilərimi və ehtiramımı göndərirəm.

Əvvəlcə, sizlərə "Can Azərbaycan", "Bir millət, iki dövlət" deyiləndə qəlbində fırtınalar qopan 86 milyonun salamını çatdırmaq istəyirəm. İndi buradakı tabloda üç dövlət, bir millət var.

Can Azərbaycanın 28 May - Müstəqillik Günü münasibətilə ortaq mədəniyyətimizi və qardaşlığımızı vurğuladığımız bu mənalı görüşdə sizinlə birlikdə olmaqdan böyük məmnunluq duyuram. Müstəqilliyin necə qazanıldığını, nə qədər qiymətli olduğunu çox yaxşı bilən bir millətin övladı olaraq Müstəqillik Gününüzü səmimi-qəlbdən təbrik edirəm.

İstiqlal və gələcək uğrunda apardığımız şanlı mübarizələri şəhadətləri ilə taclandıran qəhrəmanlarımızı rəhmət və ehtiramla yad edirəm. Rəbbim əziz şəhidlərimizin ruhlarını şad, məkanlarını cənnət eləsin!

Bu unudulmaz gündə Azərbaycanın dahi şairi Səməd Vurğunun möhtəşəm misralarını bir daha xatırlayırıq:

El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən,
Anam, doğma Vətənimsən,
Ayrılarmı könül candan?
Azərbaycan, Azərbaycan!
Mən bir uşaq, sən bir ana,
Odur ki, bağlıyam sana,
Hankı səmtə, hankı yana
Hey uçsam da, yuvam sənsən,
Elim, günüm, obam sənsən.

Bəli, obamız, yuvamız və göz bəbəyimiz Azərbaycan ilə aramızdakı məhəbbəti, inşallah, gücləndirərək davam etdirəcəyik. Bu xoş gündə olduğu kimi, Allah göstərməsin, çətin günlərində də Azərbaycan xalqının hər zaman yanında olacağıq. Rəbbimdən Azərbaycan-Türkiyə qardaşlığını əbədi və daimi etməsini diləyirəm.

Əziz qardaşlarım, dəyərli qonaqlar, 1918-ci ildə Azərbaycanda qurulan Cümhuriyyət üsul-idarəsi istiqlalın və azad iradənin rəmzinə çevrildiyi kimi, Qarabağdakı azadlıq Zəfəri də bu gün Azərbaycanı daha güclü və firavan edir. O gün alovlanan istiqlal məşəli bu gün daha parlaq və daha güclü şəkildə Azərbaycanın yolunu işıqlandırır. Qarabağın azadlığı ilə bu torpaqlarda yüksələn hər bir musiqi sədası təkcə bir Zəfərin deyil, bir millətin, necə deyərlər, yenidən dirçəlişinin səsinə çevrildi.

Bir azdan dinləyəcəyimiz musiqilərdə Qarabağın azad torpaqlarının səsi var. Bu nəğmələrdə Şuşanın daşlarında əks-səda verən azadlığın, Laçının vadilərində böyüyən ümidin, Gəncədə və Bakıda canlanan milli iradənin təzahürü var. Səslənən hər bir bəstədə qəhrəman şəhidlərimizin canları və mübarək qanları bahasına əldə olunmuş möhtəşəm Zəfərin ruhu var. Məhz bu gün bu konserti əbədi qardaşlığımızı, ortaq yaddaşımızı, rifah və güclü gələcəyimizi salamlayan bənzərsiz bir görüş kimi qiymətləndiririk.

Xatırlayacaqsınız, daha əvvəl Qarabağın dünyaya açılan qapıları – Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarını İlham qardaşımla birlikdə açmışdıq. Çox xoşbəxtik ki, bu gün də Laçın Beynəlxalq Hava Limanını açmaq yenə bizə nəsib oldu.

Enerjidən nəqliyyata, müdafiədən ticarətə, kənd təsərrüfatından təhsilə qədər hər sahədə Azərbaycanla güclü əməkdaşlıqlar qururuq. İlham qardaşımın bənzərsiz töhfələri sayəsində münasibətlərimizi hər gün təkcə bölgəyə deyil, bütün dünyaya nümunə olacaq səviyyəyə çatdırırıq.

Sabitlik abidəsi kimi yüksələn Azərbaycanın uğurları ilə hamımız qürur duyuruq. Otuz ildən sonra əsarətdən azad olunan Qarabağ üçün artıq uğur, sülh və inkişaf hekayəsi yazmaq zamanıdır.

Bu gün keçmişdə yaşadığımız ağrılardan dərs alaraq davamlı sülhün bərqərar olmasını, etimadın və mehriban qonşuluq münasibətlərinin qurulmasını hədəfləyirik. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sülhün də memarı olaraq adını tarixə yazdıracağına inanırıq.

Bu fikirlərlə Can Azərbaycan xalqına, səmimi qonaqpərvərliyə görə laçınlı qardaşlarıma və buraya təşrif gətirməklə bizi son dərəcə sevindirən Pakistanın Baş naziri, dəyərli dostum cənab Şahbaz Şərifə təşəkkürlərimi ifadə edirəm.

Sizləri bir daha ən səmimi duyğularımla salamlayır, 28 May – Müstəqillik Günü münasibətilə bir daha təbrik edirəm. Allah yolumuzu və bəxtimizi açıq etsin. Yenidən görüşmək, yenidən qucaqlaşmaq diləyi ilə sizləri Allaha əmanət edirəm. Sağ olun, salamat qalın!

Daha sonra Pakistanın Baş naziri çıxış etdi.

**Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı**

– Bismillahir-rəhmanir-rəhim.

Əziz qardaşlarım, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Hörmətli nazirlər, zati-aliləri, əziz qonaqlar, bizim Laçından olan qardaş və bacılarımız.

Xanımlar və cənablar, salamaleyküm.

Əziz qardaşım İlham Əliyev, nə gözəl haldır ki, bu gün biz Azərbaycanın Müstəqillik Gününü bir yerdə qeyd edirik. Həmçinin bu gün – 1998-ci il mayın 28-də Pakistan nüvə dövlətinə çevrilmişdir. Bu səbəbdən, bu gün bu tədbirdə iştirak etmək mənim üçün çox böyük şərəfdir. Mən səmimi-qəlbdən əziz qardaşım, Prezident İlham Əliyevi və bizim azərbaycanlı bacı və qardaşlarımızı təbrik edirəm. Bu gün burada olmaq mənim üçün çox böyük şərəfdir. Bu gün bu gözəl məkanda, füsunkar dağlıq ərazidə yerləşən Laçın şəhərində olmağımdan çox məmnunam.

Siz böyük liderliyiniz və dinamik baxışınız sayəsində 30 illik işğala son qoymusunuz, bu bölgəni, Qarabağı azad etməyə müvəffəq olmusunuz və bu işdə Sizin Silahlı Qüvvələriniz böyük cəsarət göstərib. Mən buradan şəhidlərin xatirəsini anıram, o şəhidlər ki, bu iş naminə həyatlarından keçiblər. Həyatda olan qaziləri də buradan salamlayıram. Onlar da bu işdə çox böyük şücaət və cəsarət göstəriblər. Bu çox böyük nailiyyət və Silahlı Qüvvələrinizin bu işə verdiyi töhfə münasibətilə bir daha hər birinizi təbrik edirəm. Həmin mübarizəyə qardaşımız Prezident Ərdoğan və Türkiyədən olan bacı-qardaşlarımız çox böyük dəstək oldular, azərbaycanlı bacı və qardaşlarını ruhlandırdılar. Həmin dövrdə Türkiyə Azərbaycana çox böyük dəstək göstərdi. Pakistan da öz növbəsində töhfəsini vermişdir ki, bu mühüm missiya uğurla başa çatsın. Biz bütün siyasi və diplomatik dəstəyimizi verdik ki, azərbaycanlı qardaş və bacılarımız Qələbəyə nail olsunlar. Bu dəstək səmimi-qəlbdən gəlirdi, çünki bu işdə azərbaycanlı qardaş və bacılarımız mütləq dəstəklənməli idi. Xanımlar və cənablar, ona görə də deyə bilərəm ki, bu gün bu ərazilər transformasiyaya uğrayıb və şüar da dəyişib: İki ruh bir qəlbdə idisə, bu gün üç ruh bir qəlbdədir. Bu şüarı artıq biz dəyişmişik.

Xanımlar və cənablar, Pakistan bu yaxınlarda düşmənə qalib gəlməyə müvəffəq oldu. Bir neçə həftə bundan öncə baş vermiş hadisələrdən bəhs edirəm. Həmin düşmən ölkənin əhalisi Pakistan əhalisindən beş dəfə çoxdur. Həmin ölkənin iqtisadi baxımdan da gücü bizdən çoxdur və həmin ölkə onilliklərdir ki, yüzlərlə milyard dollar həcmində vəsait xərcləyərək dünyanın ən müasir silahlarını almışdır, sursat, qırıcı təyyarələr və ən müasir texnologiyanı əldə etmişdir. Aprelin 22-də Pahalqam məntəqəsində, – bu yaşayış məntəqəsi işğal olunmuş Cəmmu-Kəşmirdə yerləşir, - 26 nəfər qətlə yetirildi. Bu, çox kədərli, acınacaqlı bir hadisə idi. Təəssüflər ki, Hindistan tez-tələsik Pakistana qarşı əsassız iddialar irəli sürdü, bizi ittiham etdi və faktları uydurmağa çalışdı. Dünyaya mesaj verməyə çalışdı ki, Pakistan məhz bu Pahalqam insidentinə görə təqsirli bilinməlidir. Biz dərhal təklif etdik ki, şəffaf və tərəfsiz qaydada beynəlxalq təhqiqat aparılsın. Ancaq Hindistan cavabında Pakistana hücum etdi, 33 günahsız pakistanlı qətlə yetirildi. Həmçinin bu hücum nəticəsində 55 pakistanlı yaralanmışdı. Xanımlar və cənablar, biz bunu cavabsız qoya bilməzdik. Biz Pakistanı müdafiə etməli idik və qısa bir zamanda hava qüvvələrimiz Hindistana məxsus 6 təyyarəni vurdu. Fransa istehsalı olan dörd “Rafale” təyyarəsi, “MiQ” tipli təyyarə və dronlar da vuruldu. Biz Hindistana mesaj verdik ki, Pakistan sülhsevər ölkədir. Biz regionda sülhü və firavanlığı təşviq edirik. Amma əgər biz hücuma məruz qalsaq, dərhal var gücümüzlə buna cavab verəcəyik.

Biz 9-cu və 10-cu günlərdə olduqca adekvat şəkildə Hindistanın təcavüzünə cavab verdik və səhər saat 04:30-da – fəcr namazından sonra Pakistanın silahlı qüvvələri Səid Əsim Muirin rəhbərliyi ilə düşmənə dərs verməli oldu. Ona qədər isə Hindistan “BrahMos” tipli raketlərdən Pakistanın müxtəlif əyalətlərini, xüsusilə də Ravalpindidə və digər məntəqələrdə olan hava limanlarını atəşə tutdu.

Bizim baş qərargah rəisi, – o, bu gün burada ön sırada əyləşib. Xahiş edirəm, feldmarşal ayağa qalxasınız, hər kəs sizi görsün, – mənə məlumat verdi ki, cənab Baş nazir, Hindistan bizə növbəti dəfə hücum etdi. Onun səsi qətiyyətli idi. O, tamamilə sakit idi. Amma, eyni zamanda da çox qətiyyətli mövqedə idi ki, biz düşmənə həyatlarının ən yaxşı dərsini verməliyik. Beləliklə, biz Hindistanın hərbi infrastrukturuna hücum etdik. Yəni, bizim onlardan fərqimiz budur. Onlar günahsız insanları qətlə yetirirdilər, biz isə onların hərbi infrastrukturunu hədəfə aldıq və onların cavabını verdik. Səhər saat 9-da feldmarşal mənə zəng edərək dedi ki, cənab Baş nazir, Hindistan bizə müraciət edib ki, atəşkəs elan edək, hansı təlimatlarınız olacaq. Mən dedim ki, feldmarşal, Allah bizə qələbə günü nəsib etdi. Gəl indi Hindistanın bu müraciətini müsbət cavablandıraq. Çünki biz inanırıq ki, sülh olmalıdır, atəşkəs olmalıdır və biz bu müharibəyə istənilən üsullarla son qoymalıyıq. Xanımlar və cənablar, bunu bu gün sizinlə bölüşmək istədim.

Azərbaycan vaxtilə Ermənistanın hücumuna məruz qalanda Türkiyə və Pakistan bir qaya kimi Azərbaycanın yanında oldu. Pakistan Hindistan tərəfindən hücuma məruz qaldı və əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, bizim türkiyəli olan qardaş və bacılarımız dərhal Pakistanı dəstəklədilər. Əziz qardaşım İlham Əliyev də, azərbaycanlı bacı və qardaşlarımız da eyni qətiyyəti göstərdilər. Onlar Azərbaycanın və Pakistanın həmrəy

olduğunu nümayiş etdirdilər. Bu, dərhal baş verdi. Bu, bizim tariximizin ən gözəl anlarından biri idi ki, üç qardaş ölkə vahid ailə olaraq bir araya gəldilər. Çətin zamanda bir araya gəldilər. Biz bunu heç vaxt unutmayacağıq. İnanın mənə ki, qardaşım, Prezident Ərdoğanın və əlbəttə, əziz qardaşım Prezident İlham Əliyevin verdiyi dəstəyin əvəzini mən heç vaxt çıxa bilmərəm. Allah özü sizi mükafatlandıracaq bu qardaşlığa görə. Bu səmimi dəstəyə görə Sizə təşəkkür edirəm.

Bu gün bizim üçtərəfli formatda ikinci toplantımız oldu. Təfərrüata varmadan deyə bilərəm ki, bu üçtərəfli görüş çox səmərəli idi və bizi çox ruhlandırdı. Biz bir çox məsələləri müzakirə etdik və planlarımızı müəyyənləşdirdik ki, üç qardaş dövlət arasında daha sıx əlaqələndirmə olsun inşallah. Bu gün bu füsunkar məkanda – Laçın şəhərində üç ölkənin bayraqları dalğalanır və bu, onu sübut edir ki, bu bayraqlar bir yerdə, hər zaman yüksəklərdə ucalacaq, dalğalanacaq və inşallah, biz firavan gələcəyə doğru inamla irəliləyəcəyik.

Bununla yanaşı, hər iki qardaşıma təşəkkür edirəm ki, bizə Pakistanın ədalətli Cəmmu-Kəşmir məsələsində dəstək göstərirlər. Təəssüflər ki, o gözəl, füsunkar bölgədə qan tökülüb. Onlar onilliklərdir ki, zülmə qarşı mübarizə aparırlar. Onlar hər zamankı kimi qətiyyətlidirlər. Onlar heç zaman təslim olmayacaqlar, o vaxta qədər mübarizə aparacaqlar ki, onların BMT Nizamnaməsinə uyğun hüquqları təmin edilsin, Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr icra olunsun. Pakistan hər zaman kəşmirlilərin yanında olmuşdur, eyni zamanda, Türkiyə və Azərbaycan da eyni qətiyyəti nümayiş etdiriblər. İnşallah elə bir gün gələcək ki, tezliklə bu, baş verəcəkdir. Kəşmir xalqı da öz hüquqlarını təmin edəcək və mən deyərdim ki, bu quldarlıqdan canlarını qurtaracaqlar.

Xanımlar və cənablar, Qəzzada baş verənlər də o qədər fərqli deyil. 52 min fələstinli, o cümlədən qadınlar və uşaqlar, yaşlılar, mühəndislər, həkimlər şəhid olublar. Bu gün biz burada toplaşdığımız bir vaxtda da Qəzzada qan tökülür. Məncə, müasir tarixdə ona bənzər acınacaqlı mənzərə olmamışdır və sivil dünya nə vaxtadək bu vəhşiliyə göz yumacaqdır. Bu, İsrail tərəfindən törədilən barbarlıqdır və bir daha birlikdə pislənilməlidir. Türkiyə Prezidenti, əziz qardaşım Ərdoğan hər zaman bu çağırışları etmişdir. Təkcə müsəlman dünyasında deyil, bütün beynəlxalq arenada onun səyləri yüksək qiymətləndirilir ki, əziyyət çəkən insanlara dəstək verilsin. Mənim əziz qardaşım İlham Əliyev də eyni mövqedən çıxış edir. Pakistan da həmin mövqedən çıxış edir.

Əziz qardaş və bacılarımız, bu gün burada sizin qarşınızda çıxış edərək demək istəyirəm ki, biz səsimizi ən yüksək səviyyədə ucaltmalıyıq ki, bütün dünya Türkiyənin, Azərbaycanın və Pakistanın səsini eşitsin. Çünki Qəzzada mütləq atəşkəs əldə edilməlidir. Bu, nə qədər tez olsa, o qədər yaxşıdır. Çünki bu, bəşəriyyət naminə olmalıdır. Bizim orada olan qardaş və bacılarımızın qətlə yetirilməsi dərhal dayandırılmalıdır. Bizim fələstinli qardaş və bacılarımız azadlıq və ədalət naminə öz müqəddəratını müəyyən etmək hüququna nail olmalıdırlar. Orada məsələ iki dövlət prinsipi əsasında öz həllini tapmalıdır və bu prinsipi bütün dünya dəstəkləyir.

Xanımlar və cənablar, çıxışımın sonunda deyirəm ki, Türkiyənin, Azərbaycanın və Pakistanın bayraqlarında olan aypara hər zaman bir-birinin yanında ucalsın, işıq saçsın və bu, bizim gücümüzün, birliyimizin, inamımızın, xalqlarımızın və müsəlman dünyasının ümidinin rəmzinə çevrilsin.

Yaşasın Pakistan! Yaşasın Pakistan-Azərbaycan-Türkiyə qardaşlığı!

Allah sizi qorusun!

Çıxışlardan sonra Azərbaycan, Türkiyə və Pakistan mahnılarından ibarət konsert proqramı təqdim olundu.

Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Laçın şəhərində seyrəngahda olublar.

Prezident İlham Əliyevin iki il əvvəl mayın 28-də bu seyrəngahda ilk dəfə Laçına köçən keçmiş məcburi köçkünlərə evlərinin açarlarını təqdim etdiyi barədə qonaqlara məlumat verildi.

Bildirildi ki, indi burada Laçında istifadəyə verilmiş müəssisələrin məhsulları nümayiş olunur. Sərgidə “Laçın” Aqro-Sənaye Parkında, “PIRSHAGHI” ayaqqabı fabrikinin, “Gilabi Ceramics” Yaradıcılıq Mərkəzinin Laçın filiallarında, “LATIFA” Laçın tikiş fabrikində istehsal olunan məhsullar təqdim edilir. Həmçinin sərgidə “Bakı Abadlıq Xidməti”, efir yağları zavodu, “Naxışlı” tikiş evi, Laçındakı Heyvandarlıq Seleksiya Mərkəzi, “Həkəri” balıqçılıq təsərrüfatı da təmsil olunur.

Qeyd edək ki, sərgi 28 May – Müstəqillik Gününə həsr olunub.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri mayın 28-də başa çatıb.

Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə dövlətinin başçısını Azərbaycan Prezidenti İlham Əliyev yola saldı.

## *Türkiyəyə işgüzar səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyəyə işgüzar səfərə gəlib.

Kahramanmaraş Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşıladı.

İyunun 19-da Kahramanmaraşda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

İyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

Mərasimdə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirildi.

Sonra "Azərbaycan" məhəlləsinə həsr edilmiş videoçarx nümayiş etdirildi.

Azərbaycan Respublikasının Prezidenti tədbirdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

– Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.

Sayın tədbir iştirakçıları, əziz kahramanmaraşlılar.

İlk növbədə sizə Azərbaycan xalqının ən səmimi salamlarını çatdırıram. 2023-cü il fevralın 6-dakı dəhşətli zəlzələ nəticəsində həlak olmuş, həyatını itirmiş bütün bacı-qardaşlarımıza Allahdan bir daha rəhmət diləyirəm.

Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Zəlzələdən dərhal sonra əziz qardaşımın, hörmətli Cümhurbaşqanının liderliyi ilə axtarış-xilasetmə işləri başlamış, ondan sonra yenidənqurma və inşaat işlərinə start verilmişdir. Qısa müddət ərzində on minlərlə insan yeni mənzillərlə təmin edildi. Bu, bir daha Rəcəb Tayyib Ərdoğanın öz xalqına bağlılığını, sevgisini və güclü iradəsini göstərən amildir. Eyni zamanda, bu, güclü Türkiyənin təzahürüdür. Çünki ancaq güclü dövlət qısa müddətdə bu qədər böyük yenidənqurma və inşaat işləri görə bilər.

Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərmiş və dərhal işə başlamışdır. Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılmış, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərmişdir.

Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün "Azərbaycan" məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür.

Qarabağ məsələsində də qeyd etdiyiniz kimi, biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi dəstək, həmrəylik, siyasi dəstək, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması bizim gücümüzə güc qatıb. Biz tarixi ədaləti bərpa etdik və bu gün Azərbaycan xalqı öz əzəli torpağında rahat və təhlükəsizlik şəraitində yaşayır.

"Azərbaycan" məhəlləsinin yaradılması da çox gözəl hadisədir, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir.

Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan – iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir.

Bu gün ilk dəfə olaraq bu gözəl diyarı ziyarət edirəm. Mən Türkiyənin bir çox yerində olmuşam. Gözəl Türkiyənin gözəl təbiətini görmüşəm. Burada da, qədim türk torpağı Kahramanmaraşda olmağımdan da çox məmnunam. Kahramanmaraşlılar dəhşətli zəlzələ ilə üz-üzə qalaraq öz iradələrini göstərdilər, sınmadılar, əyilmədilər. Bilirdilər və inanırdılar ki, onların arxasında güclü lider Rəcəb Tayyib Ərdoğan dayanır. Onların arxasında güclü Türkiyə dayanır. Bu, təbii ki, bir daha kahramanmaraşlıların nə qədər öz doğma xalqına, liderinə, dövlətinə bağlı olmasını göstərir.

Zəlzələ bölgələrində yaşayan bütün insanlara Azərbaycan xalqının hörmətini, sevgisini ifadə edirəm. Siz bilirsiniz və bilməlisiniz ki, Azərbaycanda sizin 10 milyon bacı-qardaşlarınız var. Azərbaycanlılar da

bilirlər ki, Türkiyədə 80 milyondan çox bacı-qardaşlarımız var.

Yaşasın Türkiyə! Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

* * *

Sonra Türkiyə Respublikasının Prezidenti çıxış etdi.

### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

– Əziz qardaşım, cənab Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, əziz kahramanmaraşlılar.

Digər əyalətlərimizdəki hörmətli qardaşlarım.

Sizi ən səmimi duyğularımla, həsrətlə, sevgi ilə salamlayıram.

Buradan sizin vasitənizlə məhəllələri, rayonları və evləri ilə bütün Maraşa salamlarımı, ehtiramımı göndərirəm. Eyni qaydada, canlı bağlantı ilə hazırda bizi izləyən vətəndaşlarımı da Maraşdan hörmətlə salamlayıram. Açılışını etdiyimiz “Azərbaycan” məhəlləsinə töhfə verən Can Azərbaycandakı on milyon bacı-qardaşlarımızı hörmətli dostum, qardaşım Prezident İlham Əliyevin şəxsində ürəkdən salamlayıram.

Sizin qarşınızda İlham qardaşıma və hörmətli heyətinə ikinci evləri olan Türkiyəyə "Xoş gəldiniz!" deyirəm. Belə mənalı və bizim üçün əlamətdar bir mərasimlə əlaqədar onları Maraşda qəbul etməkdən məmnunluq duyuruq.

Bəli, bu gün burada "Bir millət, iki dövlət" şüarının həyata keçməsinə bir daha şahidlik edirik. Çünki biz eyni bayrağın kölgəsində dua edən, eyni səccadədə göz yaşı tökən, eyni istiqlal üçün qurban verən bir millətin, iki dövlətin tək ürək daşıyan övladlarıyıq. "Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan", – deyən şairlərin sözlərə hərfbəhərf nəqş etdiyi qardaşlığımızın nə məna daşıdığını bu gün bütün dünyaya yenidən göstəririk. Rəbbim aramızdakı bu sarsılmaz həmrəyliyi, bu məhəbbəti daimi etsin.

İlham qardaşıma və heyətinə kahramanmaraşlılar adından təşəkkür edirəm. Burada, ilk növbədə, bunu vurğulamaq istəyirəm: Türkiyə ilə Azərbaycan arasındakı tale birliyinin ən konkret nümunələrindən biri açılışını etdiyimiz mənzillərdir. Bilirsiniz, 2023-cü il fevralın 6-da tariximizin ən böyük təbii fəlakətlərindən birini yaşadıq. Keçmişdən bu günə bir çox kədərli xatirələrimiz oldu. Ancaq həmin gün 11 əyalətimizdə gördüyümüz fəlakət və dağıntılar hamısından ayrı idi, 12 min 796-sı Maraşda olmaqla 53 min 735 canımızı torpağa tapşırdıq. Rəbbim bizə belə bir faciəni bir daha yaşatmasın. Fürsətdən istifadə edərək, zəlzələdə həyatını itirən bacı-qardaşlarımıza bir daha Allahdan rəhmət, digər bacı-qardaşlarıma səbir diləyirəm.

Şükür olsun, zəlzələnin ilk anından etibarən inancımızı itirmədik. Yaşadığımız imtahan qarşısında bir gün belə ümidsizliyə qapılmadıq. Millətimizlə könül-könülə verdik və sürətlə özümüzü topladıq.

Əlbəttə, əziz qardaşlar, bu çətin dövrdə ölkəmizin köməyinə ilk gələnlərdən biri Can Azərbaycandır. Fəlakət xəbərini alar-almaz "Səninləyəm, Türkiyəm!" deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var.

“Azərbaycan” məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur. Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, inşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir. Hazırda burada ümumilikdə 2778 mənzilin, mağazanın və ofisin inşası sürətlə davam edir. Bu gün artıq layihələrimizin demək olar ki, yarısını başa çatdırdıq. İnşallah, ilin sonuna qədər qalan işlərimizi də başa çatdırıb öz sahiblərinə təhvil verəcəyik.

Burada böyük məmnunluqla demək istəyirəm ki, cənab İlham Əliyevin liderliyi ilə yardım edən bu qardaşlıq əli Maraşın qəlbinə qardaşlıq möhürünü vurub. Burada atılan hər addımda, vurulan hər mismarda, – istər Anadoluda, istər Azərbaycanda olsun, - türkün alın təri, səmimiyyəti və duası vardır. Rəbbim onlardan razı olsun. Fəhləsindən mühəndisinədək əməyi keçən hər bir qardaşıma, azərbaycanlı qardaşlarımızın hamısına təşəkkürlərimi bildirirəm. Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinə və Mənzil İnşaatı İdarəmizin rəhbərliyinə ayrılıqda şəxsən öz adımdan və millətim adından təbriklərimi çatdırmaq istəyirəm. Məhəlləmizin sakinlərinin yeni evlərində firavanlıqla, cansağlığı və könül xoşluğu ilə gözəl günlərdə şad-xürrəm yaşamalarını arzu edirəm.

Əziz maraşlılar, çox hörmətli qonaqlar, buradakı kimi layihələrlə "Əsrin fəlakəti"ndə dağılan şəhərlərimizə ümid, gələcəyimizə güvən verəcək yeni şərait yaradırıq. Mənzil layihələri ilə yanaşı, sosial təminat sahələri, infrastruktur layihələri ilə yeni yaşayış sahələri qururuq. Tarixi əraziləri öz əslinə uyğun şəkildə yenidən canlandırırıq. Kahramanmaraşda, Qapalı çarşıda qeydiyyatda olan mədəniyyət abidələrimizi təmir edir, tarixi Dəmirçilər çarşısında iş yerləri inşa edirik. Adıyamanda tarixi şəhər meydanımızı, Malatyada Şire bazarını, Kuyumcular, Yüzüncü il və Bakırcılar çarşılarını, Hatayda Uzun çarşını, Habib-i Neccar məscidimizi, yüzlərlə illik Kamal Paşa və

Qurtuluş prospektlərini tarixi görkəminə uyğun olaraq dirçəldirik.

Dünyadakı və bölgəmizdəki şərtlər nə olursa-olsun, bizim prioritetimiz bəllidir. Biz hökumət olaraq ən qısa müddətdə "Əsrin fəlakəti"nin şəhərlərimizdə açdığı yaraları sarımaq dərdindəyik. İqtidarımızın heç bir dövründə millətimizə xəyal qırıqlığı yaşatmadıq. Seçki meydanlarında verdiyimiz sözləri, inşallah, burada da yerinə yetirəcəyik.

İnşallah, bu anlayışla zəlzələ bölgəsini nəhəng tikinti meydanına çevirdik. İnanın, heç bir ölkə belə böyük təbii fəlakətin altından bu qədər sürətli şəkildə qalxa bilməz. Fəlakətin ilk günündən indiyədək demək olar ki, bir Avropa ölkəsi böyüklüyündə ərazini inşa etdik. On bir əyalətimizdə qurulan inşaat meydanlarında yüz minlərlə memar, mühəndis və fəhlə qardaşımız gecə-gündüz işlədi. “Əsrin inşa”sı çərçivəsində təhvil verdiyimiz evlərin sayı hər ötən gün artır. Siz də görürsünüz, müxalifət tamamilə özlərinin daxili çəkişmələri ilə məşğul olarkən biz infrastrukturu və yüksəkkeyfiyyətli işlərlə başa çatdırdığımız mənzilləri öz sahiblərinə təhvil veririk. İstismara verdiyimiz mənzil, kənd evi və iş yerinin sayını sentyabrda 100 minə, oktyabrda 130 minə, noyabrda 155 minə, yanvarda 201 minə çatdırdıq. Bu gün bu rəqəmi 250 minə çatdırırıq.

Bir azdan birbaşa bağlantı ilə həyata keçirəcəyimiz püşkatmada Hatayımızda 21 min 114 mənzil və 1125 iş yeri, Malatyamızda 8064 mənzil və 1097 iş yeri, Adıyamanımızda 3554 mənzil və 1723 iş yeri, Qaziantepimizdə 675 mənzil, Diyarbəkirimizdə 2636 mənzil, Adanamızda 490 mənzil, Şanlı Urfamızda 1263 mənzil, Elazığımızda 1429 mənzil, Osmaniyemizdə 1336 mənzil, Kilisimizdə 105 mənzil, Sivasımızda 85 mənzil, Kayserimizdə 49 mənzil, Kahramanmaraşımızda 3567 mənzil və 744 iş yeri olmaqla, ümumilikdə, 49 min 56 mənzil və mağazanı sahiblərinə təhvil verəcəyik. Hədəfimiz 2025-ci ilin sonunadək 453 min mənzil və obyektin inşasını başa çatdırmaqdır.

İndiyədək zəlzələ bölgəmizə 2 trilyon lirədən çox sərmayə yatırdıq. Əsrin fəlakəti tamamilə aradan qalxsın deyə 2025-ci il büdcəmizdə 584 milyard lirə vəsait ayırdıq. İlin sonunda bütün şəhərlərimizi yenidən ayağa qaldırmağı, geridə yarımçıq qalan bir hekayə də buraxmamağı hədəfləyirik. Müxalifət anlamasa da, yaşadığımız proses milli mücadiləyə bərabərdir. Biz Allahın izni ilə bu mübarizəni alın ağlığı ilə aparırıq.

Nə deyirdilər? Hökumət bu dağıntının altından qalxa bilməz. Bu acgözlərə baxmayaraq, əzmlə, səbirlə, qətiyyətlə çalışırıq. Həmişə deyirəm, hər kəsin dənizi üfüqü qədərdir. Hər seçki dövründə böyük-böyük atıb-tutan, indi zəlzələ bölgəsinin yolunu belə xatırlaya bilməyənlərin üfüqü də ancaq sandıqları qədərdir. İşləri bitdikdə, təəssüf ki, millət ağıllarına da gəlmir. Kreslo davasından, gəlir mübarizəsindən başlarını belə qaldıra bilmirlər. Həqiqətən də acınacaqlı haldadırlar.

Qardaşlarım, bizim kompasımız heç vaxt müxalifət olmadı. Biz 23 ildir olduğu kimi, yenə də ancaq işimizə baxırıq. Onlar ümidsizlik yayacaq, biz isə zəlzələdən əziyyət çəkən qardaşlarımızın ümidi, yoldaşı, tale dostu olacağıq. Onlar "Bacarmayacaqsınız" deyəcək, biz şəhərlərimizi hamımız birlikdə daha güclü şəkildə ayağa qaldıracağıq. Onlar mane olacaq, biz ya bir yol tapıb, ya da bir yol açıb maneələrin öhdəsindən gələcəyik. Onlar didişərkən, dava edərkən, boş-boş işlərlə günlərini keçirərkən, biz Kahramanmaraşla birlikdə bütün Türkiyəyə sevgi ilə xidmət edəcəyik. Səksən altı milyon olaraq hamımız birlikdə güclü sabahlara addımlayacağıq.

Ümidvar olmağımız üçün əlimizdə bir çox səbəbimiz var. Baxın, bunun ən gözəl örnəyi Kahramanmaraşın "İstiqlalspor"udur. 6 fevraldan əvvəl həvəskar liqada mübarizə aparan bu idman klubumuz zəlzələdə 14 idmançısını itirib. Futbol Federasiyası tərəfindən üçüncü liqaya alınan klubumuz fəaliyyətinə bir il ara vermişdi. Keçən il futbolda ikinci liqaya, basketbolda birinci liqaya yüksəldi. Onları təbrik edir, uğurlarının davamlı olmasını diləyirəm. Oxşar uğur nümunələrinin zəlzələdən təsirlənən digər əyalətlərimizdə də olduğunu çox yaxşı bilirəm.

Qardaşlarım, sizlərlə Kahramanmaraşın övladı rəhmətlik Abdülrahim Karakoçun Xocalı qətliamından dərhal sonra Qarabağa həsr etdiyi duyğu dolu misralarla sağollaşmaq istəyirəm:

Bəxtinə ağlayan Azəri qızı,
Sən Qarabağ deyirsən, mən Qarayazı.
Boşluqda çırpınır Türkün avazı,
Sanma ki, dərdlərin azı bizdədir,
Sizdəki yaranın özü bizdədir.

“Gəl, qardaş” deyirsən, gələcək yol yox,
Şəhidlər qəbrinə qoyacaq gül yox.
Çiləsiz saat yox, davasız il yox.
Güllələr sizdədir, ağrı bizdədir,
Sizdəki yaranın özü bizdədir.

Belə gəlib, belə getməz bu oyun,
Zalımları islah etməz bu oyun,
Umduqları kimi bitməz bu oyun.
Məzlumun çörəyi-duzu bizdədir.
Sizdəki yaranın özü bizdədir.

Bəli, mərhum şairimiz bundan otuz il əvvəl "Belə gəlib, belə getməz" demişdi. Rəbbim İlham qardaşımın Ali Baş Komandanlığı ilə tam otuzillik işğalın və zülmün ardından Qarabağın azadlığına qovuşduğunu bizlərə göstərdi. Üç həftə əvvəl 28 May - Müstəqillik Günü münasibətilə Laçında idik. Füzuli və Zəngilandan sonra Laçın Beynəlxalq Hava Limanını da İlham qardaşımla birlikdə istifadəyə verdik. İşğaldan azad edildikdən sonra Qarabağın hər tərəfində inkişaf və

bərpa işləri sürətlə davam edir. Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması ilə, inşallah, bu işlər daha da sürətlənəcək.

Allah Azərbaycan ilə birliyimizi və diriliyimizi daimi etsin! Bu düşüncələrlə Can Azərbaycanın 15 İyun – Milli Qurtuluş Gününü ən səmimi diləklərimlə bir daha təbrik edirəm. Zəlzələ nəticəsində itirdiyimiz canları bir daha rəhmət və ehtiramla yad edir, İlham Əliyev qardaşımın şəxsində Azərbaycan xalqına həmrəyliyi, dəstəyi və duaları üçün ən səmimi təşəkkürlərimi bildirirəm.

Püşklərini atacağımız yeni mənzil və iş yerlərimizin bir daha xeyirli olmasını diləyir, mənzillərin inşasında əməyi keçən Ətraf Mühit Nazirliyimizi, Mənzil İnşaatı İdarəmizi, Fəlakət və Fövqəladə Halların İdarə Edilməsi Birliyimizi, xeyriyyəçilərimizi və bütün qardaşlarımı təbrik edirəm.

Hamınızı bir daha hörmətlə, sevgi ilə salamlayır, Allaha əmanət edirəm. Sağ olun, var olun, salamat qalın!

* * *

Daha sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsində inşa olunacaq mədəniyyət mərkəzinin onlayn formatda təməlini qoydular.

Zəlzələdən zərər görmüş bir sıra ailələrə yeni mənzillərin açarları təqdim olundu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsinin açılışını bildirən rəmzi lenti kəsdilər.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsini gəzdilər, burada inşa edilmiş mənzillərə baxdılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsində inşa edilmiş Heydər Əliyev adına ibtidai məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış oldular.

Azərbaycan və Türkiyənin dövlət başçılarını balacalar böyük sevinclə qarşıladılar.

Sonra prezidentlər məktəbin müəllim və şagirdlərinin ifasında "Çırpınırdı Qara dəniz" mahnısını dinlədilər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan məktəbin 4-cü sinfini bitirən şagirdlərə qiymət cədvəllərini təqdim etdilər. Dövlət başçıları tərəfindən şagirdlərə, həmçinin məktəbli çantaları hədiyyə olunub.

Üçmərtəbəli müasir məktəb və uşaq bağçası binasında 20 ibtidai sinif otağı, 3 uşaq bağçası otağı var. Burada təhsilə dəstək məqsədilə əlavə otaqlar da uşaqların ixtiyarına verilib. Binada zəruri tədris materialları ilə təchiz olunmuş fənn otaqları, musiqi, rəsm, əmək dərslərinin keçirilməsi üçün otaqlar, texnologiya, riyaziyyat və mühəndislik sahələrində bacarıqların təkmilləşdirilməsi üçün emalatxanalar yaradılıb.

Qeyd edək ki, 2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında oldu.

Fəlakətin ilk günlərindən qardaş ölkəyə kömək üçün Prezident İlham Əliyevin tapşırığı ilə bütün imkanlar səfərbər edildi. Axtarış-xilasetmə işlərində iştirak etməklə yanaşı, ölkəmizin həm dövlət qurumlarının, həm də qeyri-hökumət təşkilatlarının səyləri digər istiqamətlərə yönəldildi.

Dövlətimizin başçısının digər bir mühüm tapşırığına əsasən, Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi.

Tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirildi. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılacaq.

2024-cü il sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışları olub.

"Azərbaycan" məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri iyunun 19-da başa çatıb.

Kahramanmaraş Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yola saldı.

## *Yevlax, Goranboy və Mingəçevirə səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax Olimpiya İdman Kompleksində görülmüş işlərlə tanış olub.

Gənclər və idman naziri Fərid Qayıbov dövlətimizin başçısına kompleksdə həyata keçirilmiş işlər barədə məlumat verdi.

Bildirildi ki, bu kompleks Prezident İlham Əliyevin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqram"ı çərçivəsində inşa olunur. Tikintisinə 2024-cü ilin yanvarında başlanılan kompleksin əsas binasında yerləşən universal idman zalı 1100 tamaşaçı tutumuna malikdir. Burada basketbol, voleybol, həndbol, minifutbol, badminton, gimnastika, cüdo, güləş, taekvondo, boks, karate və idmanın digər növləri üzrə məşqlərin və yarışların keçirilməsi nəzərdə tutulur. Binada, eyni zamanda, 80 nəfərlik iclas zalı, hakim, həkim, məşqçilər, şərhçilər üçün otaqlar, kafe olacaq. Kompleksdə 21 otaqdan ibarət 42 yerlik dördmərtəbəli mehmanxana və restoran da fəaliyyət göstərəcək. Burada 1300 tamaşaçı tutumuna malik tribunası olan, standartlara cavab verən futbol meydançası, həmçinin iki minifutbol meydançası yaradılacaq.

Qeyd edək ki, bu il sentyabr ayının sonunda Azərbaycanda keçiriləcək Müstəqil Dövlətlər Birliyi ölkələrinin III Oyunları zamanı boks idman növü üzrə yarışlar Yevlax Olimpiya İdman Kompleksində təşkil ediləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral yolunun Yevlax şəhərindən keçən hissəsində görülən işlərlə tanış olub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, magistral yolun Yevlax şəhərindən keçən hissəsində yeraltı piyada keçidinin, səkilərinin, həmçinin magistral yola avtomobillərin ikiistiqamətli giriş-çıxışını təmin edən yanaşma yollarının tikinti işləri başa çatmaq üzrədir. Piyada keçidinin ümumi uzunluğu 48 metr olacaq ki, onun da 37 metri qapalı hissədir. Eni 7 metr olan yanaşma yollarının ümumi uzunluğu isə 3,2 kilometrdir.

Qeyd edək ki, Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi magistral avtomobil yolu beynəlxalq nəqliyyat dəhlizinin Azərbaycandan keçən tərkib hissəsidir. Bu yolun müasir səviyyədə qurulması Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycanın beynəlxalq nəqliyyat daşımalarında rolunu daha da gücləndirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax şəhəri qumsüzgəc texnologiyalı sutəmizləyici qurğunun açılışında iştirak edib.

Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov Prezident İlham Əliyevə Yevlax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi barədə məlumat verdi.

Bildirildi ki, bu layihə 2035-ci ilədək perspektiv inkişaf nəzərə alınmaqla 70 min sakinin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihəyə əsasən Yevlax şəhərində məhsuldarlığı 20 min kubmetr olan içməli sutəmizləyici qurğu, 139 kilometr içməli su şəbəkəsi, 13 minə yaxın abonent birləşməsi, 115 kilometr tullantı su şəbəkəsi və 5 nasos stansiyasının tikintisi planlaşdırılır. Şəhərdə yaranacaq tullantı sularının təmizlənib kənarlaşdırılması məqsədilə məhsuldarlığı sutkada 12 min 500 kubmetr olan təmizləyici qurğunun tikintisi də nəzərdə tutulub.

Layihəyə uyğun olaraq ötən dövr ərzində şəhəri dayanıqlı içməli su ilə təmin etmək üçün Kür çayının sahilində məhsuldarlığı sutkada 20 min kubmetr olan sürətli qumsüzgəc texnologiyalı təmizləyici qurğunun tikintisi işləri həyata keçirilib. Qurğuda 16 ədəd süzgəc quraşdırılıb, emal prosesindən sonra təmiz suyun toplanması məqsədilə ümumi həcmi 2 min 500 kubmetr olan 2 su anbarı tikilib. Təmizləyici qurğuda zərərsizləşdirmə, əks-yuma prosesinin aparılması üçün xüsusi nasoslar, kompleksin enerji təchizatı məqsədilə transformator və generator quraşdırılıb. Həmçinin uzunluğu 86 kilometr paylayıcı su təchizatı şəbəkəsi inşa olunub, 4 min 230 ədəd ev birləşməsi verilərək sayğac quraşdırılıb.

Qeyd edək ki, Yevlax şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri 1950-1960-cı illərdə yaradılıb. Şəhərin ilkin su mənbələri subartezian quyuları və Kür çayı olmuşdur. Hazırda istismarda olan 15 subartezian quyusunun imkanları tələbatı ödəmirdi. Quyu zonasından şəhərə çəkilmiş ümumi uzunluğu 27 kilometr olan 2 magistral kəmər dəfələrlə cari və əsaslı təmir edilsə də, dayanıqlı su təchizatına imkan vermirdi. Kür çayından nasoslar vasitəsilə götürülən su ilkin təmizlənərək abonentlərə verilirdi. Şəhərin 191 kilometr uzunluğunda mövcud paylayıcı su şəbəkəsi uzun illər istismar olunaraq yararsız vəziyyətə düşdüyündən tələbatı ödəmirdi.

Son illərdə ölkə üzrə əhalinin təmiz içməli suya tələbatının təmin olunması istiqamətində mühüm layihələr icra edilib. Bu müddət ərzində Bakıda Mərkəzi Laboratoriya və 9 regional laboratoriya yaradılıb.

Görülmüş işlər nəticəsində ölkədə içməli su təchizatı üzrə itkilər son 20 ildə 62 faizdən 40 faizə qədər azaldılıb. 8,1 min kilometr tullantı və yağış su xətləri inşa edilib. Şəhər, rayon və qəsəbələr üzrə ümumi məhsuldarlığı sutkada 250 min kubmetr olan 28 ədəd tullantı sutəmizləyici qurğu quraşdırılıb. Bakı və Abşeron yarımadası üzrə isə 5 ədəd bu cür qurğu istismara verilib. Bundan başqa, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi də tikilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Yevlax" qovşaq yarımstansiyasının, Regional Təlim-Tədris və Laboratoriya Mərkəzinin açılışında iştirak edib.

"AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, "Yevlax" qovşaq yarımstansiyası 60 il əvvəl tikildiyindən tələbatı ödəmirdi. Respublikanın Mərkəzi Aran regionunun enerji təchizatının yaxşılaşdırılması, istehlakçıların fasiləsiz keyfiyyətli elektrik enerjisi ilə təmin edilməsi, enerjisistemin dayanıqlılığının və etibarlılığının artırılması məqsədilə bu yarımstansiya tamamilə yenidən qurulub. Yevlaxın tam, Bərdə və Ucar rayonlarının isə müəyyən hissəsi daxil olmaqla 180 mindən artıq əhalinin elektrik təchizatında, o cümlədən "Varvara" Su Elektrik Stansiyasında istehsal edilən yaşıl enerjinin enerjisistemə ötürülməsində xüsusi əhəmiyyətə malik bu yarımstansiyada 110 kilovoltluq yeni açıq paylayıcı qurğu quraşdırılıb, ərazidə yeni Rəqəmsal İdarəetmə Mərkəzi tikilib.

Yarımstansiyanın iş rejiminə real zaman çərçivəsində nəzarət edilir. Enerji obyekti ən son rəqəmsal texnologiyalara əsaslanan kommutasiya avadanlıqları ilə təchiz edilməklə, elektron resursların kibertəhlükəsizliyi tam təmin olunub. Enerjisistem üzrə bu tip innovativ texnologiyaların tətbiqi planlı və qəza təmiri xərclərini 35 faiz, ehtiyat hissələrə tələbatı 29 faiz, təmir işləri üzrə materialların gözlənilmə vaxtını və ehtiyatların normadan artıq olmasını 30 faiz, normativdən artıq iş saatlarını isə 25 faiz azaltmaqla səmərəliliyi yüksəldir. Burada müasir sayğac-uçot sistemi də quraşdırılıb.

Yarımstansiyanın ərazisində bütün zəruri avadanlıq, qurğu və simulyatorlarla təmin edilən üçmərtəbəli Regional Təlim-Tədris və Laboratoriya Mərkəzi yaradılıb. Mərkəzdə 12 fərqli istiqamət üzrə mühəndis hazırlığı və ixtisasartırma kursları təşkil olunacaq. Bu da bölgədə ixtisaslı kadr hazırlığını təmin etməklə məşğulluğun artırılmasına töhfə verəcək.

Tədris prosesinin əyani keçirilməsi, bilik və bacarıqların daha yaxşı mənimsənilməsi üçün yarımstansiyanın həyətyanı sahəsində transformatorlar, müasir kommutasiya qurğuları, hava və kabel xətlərinin komponentləri ilə tam təchiz edilmiş tədris simulyatoru yaradılıb. Müasir innovasiyalara əsaslanan test-diaqnostika avadanlıqları ilə təchiz olunan Laboratoriya Mərkəzində isə kimya və ekologiya, elektrik avadanlıqlarının sınağı və nəzarət-ölçü cihazlarının kalibrlənməsi laboratoriyaları da fəaliyyət göstərəcək. Laboratoriya Mərkəzi həm də paylayıcı şəbəkə, dəmir yolu infrastrukturu və sahibkarlıq subyektlərinin elektroenergetika avadanlıqlarının test-diaqnostika işlərinin həyata keçirilməsinə dəstək olacaq.

Qeyd edək ki, son beş ildə "AzərEnerji" ASC tərəfindən ümumilikdə 47 yerdə sistem əhəmiyyətli ötürücü yarımstansiya tikilib və ya tam yenidən qurulub, 2.500 kilometr uzunluğunda yüksəkgərginlikli elektrik verilişi xətti çəkilib.

Ölkədə ümumi gücü 3000 meqavatdan artıq elektrik enerjisi istehsal edən 45 stansiya tikilib. Təkcə işğaldan azad edilən ərazilərdə tikilən su elektrik stansiyalarının sayı 38, gücü isə 307 meqavatdır. Ümumilikdə son illərdə görülən işlər nəticəsində hər kilovat-saata görə sərf edilən şərti yanacaq 284 qramdan 252 qrama düşüb, 2,8 milyard kubmetr təbii qaza qənaət edilib, 1 milyon ton karbon qazı emissiyasının atmosferə atılmasının qarşısı alınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlaxda "Azərişıq" ASC-nin Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına Mərkəz barədə məlumat verdi.

Bildirildi ki, İdarəetmə Mərkəzi vasitəsilə kənd təsərrüfatı sahələrinin, dövlət əhəmiyyətli strateji obyektlərin, iaşə və xidmət obyektlərinin, xüsusən də əhalinin elektrik enerjisi təchizatında fasiləsizliyin, dayanaqlılığın və səmərəli idarəetmənin təmin olunması həyata keçiriləcək. Burada 35/10 kV-luq hər birinin gücü 6,3 MVA olan iki güc transformatoru, müasir avadanlıqlarla təchiz olunmuş 35 və 10 kV-luq qapalı paylayıcı qurğular quraşdırılıb.

Mərkəzin elektrik təchizatı üçün "Yevlax" yarımstansiyasından 14 kilometr uzunluğunda elektrik veriliş xətti çəkilib. "Dəliməmmədli", "Kürəkçay", "Ağdaş", "Ağsu", "Tərtər" və "Dəmir Beton Məmulatları" yarımstansiyaları Mərkəzi Aran Regional SCADA İdarəetmə Mərkəzinə inteqrasiya olunub. Bununla da vahid mərkəzdən operativ dispetçer xidməti tərəfindən texniki parametrlərin daimi izlənməsi və idarə olunması təmin edilib. Mərkəz elektrik şəbəkələrinin vəziyyəti haqqında bütün məlumatları toplayan və emal edən, eləcə də avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edən nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həlli üçün layihələndirilib. Bu layihə yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanmasını təmin edir. Bütün texnoloji

ölçmələrin yüksək dəqiqliyini və vahidliyini təmin edən Mərkəzdə şəbəkənin etibarlı istismarı dəstəklənməklə yanaşı, elektrik enerjisinin paylanması zamanı itkilərin və ümumi istismar xərclərinin azaldılmasına da şərait yaranır. Mərkəzdən qidalanan istehlakçıların enerji təchizatında yaranacaq planlı fasilələr barədə onlayn qaydada əvvəlcədən məlumatlandırılması imkanı yaradılıb. Alınan və ötürülən elektrik enerjisinin miqdarına görə yarımstansiya işinin multifunksional rejimdə qurulması cihaz və avadanlıqların bir-biri ilə koordinasiyasını tam təmin edir. Burada əməliyyatların paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılması, habelə informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti, yaşıl enerji mənbələrinin şəbəkəyə inteqrasiyası həyata keçirilir. Mərkəzdə yerləşən yarımstansiya qapalı tiplidir. Buna görə də istismar və idarəetmə əməliyyatları məsafədən həyata keçirildiyindən daimi işçi heyətə ehtiyac olmur. Mərkəzin ərazisində əhaliyə xidmət göstərmək məqsədilə elektromobillər üçün sürətli enerjidoldurma cihazları quraşdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Yevlax pilot aqroparkının açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov aqropark barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ümumi sahəsi 2.807 hektar, illik istehsal gücü 20 min tondan çox qarışıq meyvə, 20 milyon ədəd damazlıq yumurta və 1 milyon ədəd ting olan bu aqropark ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə yaradılan dövlət aqroparkıdır.

Aqropark İqtisadiyyat Nazirliyinin "Orta fermer təsərrüfatının aqrar-sənaye klasterlərinə inteqrasiyası" layihəsi çərçivəsində yaradılıb. Rezidentlər aqroparkda dövlət vəsaiti hesabına zəruri infrastrukturla - su, enerji, qaz və yolla təmin ediliblər. Rezidentlər, həmçinin Azərbaycan Biznesinin İnkişafı Fondunun güzəştli kreditindən faydalanıblar.

Səmərəliliyin artırılması üçün aqroparkda "ağıllı" idarəetmə sistemi tətbiq olunur. Bu məqsədlə əkin aparılan bağlarda iqlim stansiyaları, xüsusi kameralar və torpaq nəmlik sensorları qurulub. Aqroparkda 36 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Hazırda 21 rezident tərəfindən həyata keçirilən layihələr çərçivəsində burada meyvə, meyvə tingi, damazlıq yumurta, taxıl məhsulları istehsal olunur. Məhsulların daxili bazarla yanaşı, ixracı da nəzərdə tutulur. Rezidentlər tərəfindən bu günədək aqroparka 57 milyon manatadək investisiya yatırılıb, 200-ə yaxın daimi, 500-ə yaxın mövsümi iş yeri yaradılıb. Aqroparkın konsepsiyasına uyğun olaraq, intensiv meyvə bağlarının salınması, heyvandarlıq, quşçuluq və əkinçilik təsərrüfatlarının, həmçinin sənaye zonasında emal sahələrinin və logistik mərkəzin yaradılması ilə özəl investisiyaların 100 milyon manata çatdırılması, 500 daimi və 1000-dən çox mövsümi iş yerinin yaradılması nəzərdə tutulur. Görülən işlərin davamı olaraq sənaye zonasında logistik mərkəz, emal müəssisələri, eləcə də heyvandarlıq kompleksi və məhsulların topdansatış bazarı da yaradılacaq. Diqqətə çatdırıldı ki, aqroparkın ərazisinin 1.185 hektarını çoxillik əkin, 1.298 hektarını birillik əkin, 141 hektarını sənaye zonası, 183 hektarını isə kommunikasiya xətləri və mühafizə zolaqları təşkil edir.

Prezident İlham Əliyevə aqroparkın ərazisində yerləşən "Azerbaijan company for poultry development" MMC-nin və "İSFA" MMC-nin fəaliyyətləri barədə də məlumat verildi.

Qeyd edək ki, regionların tarazlı inkişafı, istehsal və ixrac imkanlarının artırılması, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının önəmli istiqamətlərindəndir. Davamlı islahatlarla investorlar üçün yaradılan əlverişli işgüzar mühit, güzəşt, imtiyaz və stimullar regionlarda müsbət iqtisadi dəyişiklikləri və nailiyyətləri təmin edir. Elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan bu cür müasir infrastruktur aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsul istehsalında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Xatırladaq ki, hazırda ölkədə 9 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir. Sənaye zonaları üzrə ümumi investisiya həcmi 8 milyard manatdan çox olan 170 sahibkarlıq subyektinə rezident və ya qeyri-rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 7 milyard manata yaxın investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri yaradılıb. 2015-ci ildən 2025-ci ilin I rübü də daxil olmaqla sənaye zonalarında ümumilikdə 16 milyard manatdan artıq məhsul satışı həyata keçirilib, bunun 5 milyard manatdan çox hissəsi ixrac edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib.

Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gipsəsaslı quru qarışıqlar istehsal olunacaq. Müasir avadanlıqla təchiz olunan müəssisədə istehsal edilən məhsulların yerli bazarda satışı ilə yanaşı, bir neçə ölkəyə ixracı da nəzərdə tutulur. Burada 200 nəfər daimi işlə təmin ediləcək. İstehsal zamanı istifadə edilən əsas xammal – yerli gips daşı Azərbaycanın müxtəlif regionlarındakı yataqlardan tədarük olunacaq. Növbəti mərhələdə kalsit və perlit istehsalı xətlərinin qurulması planlaşdırılır ki, bu da məhsulların maya dəyərinin aşağı düşməsinə səbəb olacaq.

Bununla yanaşı, gələcək inkişaf strategiyası çərçivəsində müəssisə fəaliyyətini genişləndirərək metal profil istehsalının təşkilini hədəfləyir. İnvestisiya dəyəri 33 milyon manat olan müəssisənin ümumi sahəsi 5 hektardır. Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən müəssisəyə 3,9 milyon manat güzəştli kredit ayrılıb. İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına müəssisə idxal etdiyi avadanlıqlara görə 900 min manat güzəşt əldə edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm layihələrin icrası ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə sənayenin müxtəlif sahələrinin davamlı inkişafına böyük təkan verib. Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə müasir sənaye müəssisələri, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı artır, ixrac imkanları genişlənir. Belə müəssisələrin bölgələrdə yaradılması isə ümumilikdə regionların sosial-iqtisadi inkişafını təmin etməklə, onların iqtisadi potensialının möhkəmləndirilməsində, məşğulluğun artırılmasında da mühüm rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının ərazisində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib.

Sonra dövlətimizin başçısı “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimində iştirak edən qonaqlarla görüşüb, onlarla söhbət edib. Söhbət zamanı bu stansiya layihəsinin əhəmiyyəti vurğulanıb. İtaliya və Çin şirkətlərinin bu layihədə iştirakının önəminə toxunulub. İşlərin qısa müddət ərzində yekunlaşması məmnunluqla qeyd edilib.

Daha sonra “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin**
**çıxışı**

– Əziz dostlar, hörmətli qonaqlar, əziz mingəçevirlilər.

Bu gün ölkəmizin energetika sahəsində əlamətdar bir gündür. “8 Noyabr” Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir. Bu gün “8 Noyabr” Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır. 1880 meqavat gücündə bu stansiya bizim enerji potensialımızı təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq və beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və əlbəttə ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir.

Mingəçevir 1970-ci illərdə Azərbaycan energetika sektorunun mərkəzi rolunu oynamışdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1974-cü ildə Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının təməli qoyulmuşdur və Ulu Öndərin iştirakı ilə stansiyanın birinci bloku 1981-ci ildə istismara verilmişdir. Ondan sonra digər bloklar da istismara verilərək artıq o zaman hələ sovet dövründə bu stansiya Qafqazın önəmli energetika mərkəzlərindən birinə çevrilmişdir. Təbii olaraq müstəqilliyin ilk illərində bizdə enerji qıtlığı yaranmışdır. Orta və yaşlı nəslin nümayəndələri o illəri yaxşı xatırlayırlar ki, o vaxt hətta axşam saat 12-də televiziya verilişləri də dayandırılırdı. Çünki energetika sistemimiz lazım olan həcmdə elektrik enerjisini istehsal edə bilmirdi. Həm yanacaq nöqteyi-nəzərindən çətinliklər var idi, həm də enerji sistemimiz tam köhnəlmişdi. Yalnız Ulu Öndərin təşəbbüsü ilə yaradılmış Mingəçevir stansiyası hesabına müəyyən dərəcədə fasilələrlə olsa belə, insanlara və müəssisələrə elektrik enerjisi verilirdi. Yəni, Mingəçevirin tarixi energetika mərkəzi kimi zəngindir və burada formalaşmış güclü kadr potensialı, əlbəttə ki, bu gün də bizə əldə edilmiş uğurlara nail olmaq üçün imkan yaradır.

Biz son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Ölkəmizin müxtəlif yerlərində yeni elektrik stansiyaları qurulmuşdur, eyni zamanda, Mingəçevirdə də yenidənqurma işləri aparılmışdır. Yadınızdadır, burada baş vermiş qəza nəticəsində ölkəmizin böyük hissəsi, demək olar ki, işıqsız qalmışdı. Ondan sonra praktiki tədbirlər görülməyə başlanmış və biz qısa müddət ərzində burada böyük uğurlara nail ola bilmişik.

2018-ci ildə “Azərbaycan” İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyuldu və 2020-ci il iyunun 25-də – düz beş il bundan əvvəl burada stansiyaya yeni həyat verilmişdir. Hazırda “Azərbaycan” Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, “8 Noyabr” Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və qeyd etdiyim kimi, bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir.

Bu layihənin qısa müddət ərzində icra edilməsi, – energetiklər bunu yaxşı bilirlər – rekord nəticə sayıla bilər. Çünki təxminən 2 min meqavatlıq elektrik stansiyasının inşa müddəti bir neçə il davam edir – bəlkə də

üç il, dörd il, beş il, bəlkə daha da çox. Misal üçün, elə sovet dövründə Mingəçevirdə "Azərbaycan" İstilik Elektrik Stansiyasının inşası 1974-cü ildə başlamışdır və birinci blok 1981-ci ildə istismara verilmişdir. Yəni, yeddi ildən sonra 300 meqavat enerji əldə edilmişdir. Biz isə iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı.

Mən xüsusilə bu gün burada iştirak edən İtaliyadan və Çindən olan qonaqları salamlamaq istəyirəm. Bu stansiyanın ərsəyə gəlməsində İtaliya və Çin şirkətlərinin böyük payı var. Azərbaycan energetikləri ilə birlikdə bu gözəl işi biz qısa müddət ərzində görə bildik.

Qeyd etməliyəm ki, həm İtaliya, həm Çin Azərbaycanın strateji tərəfdaşlarıdır. Strateji tərəfdaşlıq haqqında İtaliya ilə iki, Çinlə iki bəyannamə imzalanmışdır və mənim bu ölkələrə çoxsaylı səfərlərim nəticəsində bir sıra istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilmişdir. İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır. Çin də ticarət tərəfdaşlarımız arasında qabaqcıl yerlərdədir. Biz İtaliya ilə xüsusilə energetika sahəsində, xam neft, təbii qaz sahəsində uzunmüddətli və strateji əməkdaşlığa bir neçə il bundan əvvəl başlamışıq. Çinlə isə bu yaxınlarda daha çox bərpaolunan enerji layihələrini birgə icra etməyə başlayırıq. Mənim aprel ayında Çinə dövlət səfərim zamanı lazım olan razılaşmalar əldə edildi. Onu da bildirməliyəm ki, Azərbaycanda bu gün yaradılan yeni Günəş elektrik stansiyalarının təchizatı böyük dərəcədə Çin şirkətləri tərəfindən təmin edilir. Yəni, bu hər iki ölkə bizim üçün həm strateji tərəfdaşdır, həm də önəmli ticarət tərəfdaşımızdır. Qeyd etdiyim kimi, siyasi əlaqələr çox yüksək səviyyədədir və biz burada çox gözəl beynəlxalq əməkdaşlıq nümunəsini görürük.

"8 Noyabr" Stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. Qeyd etdiyim kimi, enerji sistemimizin səmərəliliyi artırılacaq, potensial, generasiya gücümüz artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. Təbii olaraq, biz təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görürük və görəcəyik. Azərbaycan bu istiqamətdə də qabaqcıl ölkələr sırasındadır. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcəkdir və əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bu, nə deməkdir, bunu hər kəs başa düşə bilər. Eyni zamanda, bizə təbii qaza qənaət etmək üçün imkanlar yaradılacaq və belə olan halda təbii qazımızın ixracı daha da artacaq. Yəni, bir neçə məqsəd burada təmin edilir və əlbəttə ki, bütün bu işlərin təməlində bizim düşünülmüş siyasət dayanır. Çünki biz hər istiqamət üzrə düşünülmüş siyasət və proqramlar əsasında çalışırıq.

Energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün dünyada, xüsusilə Avropa məkanında və digər bölgələrdə enerji xətlərinin təhlükə altında olmasının nə qədər böyük fəsadlara gətirib çıxardığını hər kəs öz gözləri ilə görə bilər. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır və təsadüfi deyil ki, Avropa İttifaqı tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki bu gün Azərbaycan qazı 12 ölkəyə qaz kəmərləri vasitəsilə ixrac edilir. Onlardan 10-u Avropa ölkəsidir və məhz bu göstəriciyə görə, qaz təchizatımızın coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir. Əlbəttə ki, bir çox ölkə Azərbaycan qazından istifadə edib öz enerji təhlükəsizliyini təmin edir. Biz həm təbii qaz, həm xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elektrik enerjisini ixrac edirik. Ancaq qeyd etdiyim layihələr istismara veriləndən sonra biz müxtəlif elektrik kabelləri vasitəsilə yaşıl enerjini də ixrac edəcəyik. Beləliklə, ölkəmizin iqtisadi gücü, geosiyasi önəmi daha da artacaq, – halbuki bu gün də kifayət qədər yüksək səviyyədədir, – və Azərbaycan bu bölgədə sabitlik, inkişaf, tərəqqi məkanı kimi öz rolunu daha da gücləndirəcəkdir.

Bu gün dünyada gedən prosesləri hər kəs izləyir. Bizim ətrafımızda demək olar ki, münaqişələr səngimir, əksinə, yeni münaqişə zonaları açılır. Böyük fəlakətlərə və insan faciələrinə gətirən toqquşmalar, müharibələr gedir. Biz də müharibə nədir, yaxşı bilirik. Bizim torpaqlarımız uzun illər işğal altında olmuşdur və İkinci Qarabağ müharibəsində Ermənistan nəinki bizim şəhər-kəndlərimizi və yaşayış obyektlərini məqsədyönlü şəkildə atəş altında saxlayırdı, hətta buraya da – Mingəçevirə də öz raketlərini göndərməyi də unutmamışdı – əgər belə demək mümkündürsə. Bunun da məqsədi bizim enerji infrastrukturumuzu iflic vəziyyətinə salmaq idi. Hətta İkinci Qarabağ müharibəsindən əvvəl bizi hədələmək üçün bir neçə üsuldan istifadə edən Ermənistan, o cümlədən Mingəçeviri bombalamaq, burada su bəndini dağıtmaq və Mingəçevir Elektrik Stansiyasını sıradan çıxarmaq kimi təhdidlər də səsləndirirdi. Buraya, bu əraziyə düşən həm mərmilər, həm də ki, uzaqmənzilli raketlər bunun əyani sübutudur. Bu, dinc əhaliyə, mülki infrastruktura yönəlmiş təcavüz idi və hərbi cinayətdir. Ermənistanın hərbi cinayətləri təkcə bununla məhdudlaşmır. Həm Xocalı soyqırımını

törədən, həm işğal dövründə bizim yaşayış məntəqələrimizi yerlə-yeksan edən, eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı Gəncəni, Mingəçeviri, Bərdəni, Tərtəri, Ağdamı və münaqişə zonasından kifayət qədər uzaqda yerləşən bir çox yaşayış məntəqələrini atəşə tutan Ermənistan hərbi cinayətkar dövlətdir.

Yəni, bunu deməklə bir daha qeyd etmək istəyirəm ki, bu bölgənin, bu infrastruktur obyektinin ölkəmiz üçün nə qədər böyük əhəmiyyəti var. İndi isə biz sülh şəraitində yaşayırıq. Beş ildir ki, Azərbaycanda sülh tam təmin edilib və əlbəttə ki, hüdudlarımızın kənarında da nə qədər tez sülh təmin edilərsə, bir o qədər həm o ölkələr üçün, həm təbii olaraq, bizim üçün də yaxşı olacaq. Ancaq reallıq budur ki, bu gün bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq. Bu gün bu stansiyanın adının seçilməsi də çox vaxt aparmadı. Təklif edilən variantlar arasında "8 Noyabr"ı mən seçdim. Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır. Əminəm ki, bu stansiyanın ömrü uzun və fəaliyyəti uğurlu olacaq.

Bir daha sizin hər birinizi, hər birimizi bu gözəl hadisə münasibətilə təbrik edirəm. Sağ olun.

İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Urso çıxış edərək dedi:

– Bu gün burada olmağımdan və cənab Prezident İlham Əliyevlə birlikdə belə bir mühüm, elektrik enerjisi istehsal edən bu qurğunun açılışında iştirak etməkdən çox məmnunam.

Mingəçevir şəhərində tədbirdəyik. Yaxşı yadımdadır, iki il öncə şəxsən öz iştirakımla biz "Ansaldo Energia" şirkəti ilə, o cümlədən o şirkətin rəhbəri Fabbri ilə müqavilə imzaladıq və uzun vaxt çəkmədi ki, həmin layihə həyata keçirilməyə başlanıldı. Bu da bizim ölkələrimiz, müəssisələrimiz arasında əməkdaşlığın zirvəsinə çevrildi.

2000 meqavatlıq enerji imkanına malik olan bu qurğu keçmişlə müqayisədə havaya atılmaları 50 faiz azaldacaqdır. Bu, həmçinin ətraf mühitin qorunması deməkdir. Bu, olduqca vacib bir addımdır, çünki bizim energetika sahəsində olan əməkdaşlığımızı daha da gücləndirir və əlbəttə ki, bütün bunlar Azərbaycanın enerji baxımından inkişafına yönəlibdir.

Təbii ki, energetika sahəsində İtaliya ilə Azərbaycan arasında olan bu inkişaf göz qabağındadır. Cənab Prezident Əliyev elə indicə qeyd etdi ki, artıq 10 Avropa ölkəsinə Azərbaycanın təbii qazı çatdırılır. TAP boru kəməri strateji əhəmiyyətə malik boru kəməridir və qaz İtaliya ərazisindən Avropaya daxil olur. Hesab edirəm ki, bu, bizim, ümumiyyətlə, strateji tərəfdaşlığımızın enerji sahəsində olan mühüm bir hissəsidir. Bu gün bu qurğu artıq istismara verilir və bizim enerji sahəsində göstərdiyimiz daha böyük səylərimizin təzahürüdür. Bu, bizim ölkəmizə verdiyimiz töhfədir. Strateji addım atılaraq enerji təhlükəsizliyi gücləndirilir və təbii ki, bunun sayəsində, həmçinin digər sənaye və istehsal sektorlarında da inkişaf olacaqdır. Bizim liderlər – Prezident Əliyev və Baş nazir Ciorcia Meloni arasında başlanılmış strateji tərəfdaşlıq çərçivəsində bu işbirliyimiz baş tutur.

Düşünürük ki, belə bir əməkdaşlıq digər sahələrdə də olsun. Onların arasında metallurgiya, yaşıl texnologiya, xammal kimi sektorlar mövcuddur. Onlar hər iki ölkədə enerji keçidi baxımından çox əhəmiyyətlidir. Necə ki, bizim ölkədə və bütövlükdə Avropada biz buna çox sadiqik və düşünürük ki, biz, həmçinin mədəniyyət və elm sahələrində də əməkdaşlıq aparırıq. Biz bunu Bakıdakı İtaliya-Azərbaycan Universitetinin timsalında görürük. Təbii ki, həmin universitetdə gələcəkdə yeni mühəndislər formalaşacaq və Azərbaycanın inkişafına töhfə verəcəklər. Hesab edirəm ki, bu, ölkələrimiz arasında olan nəinki təhsil və mədəniyyət sahələrində, həmçinin digər sahələrdə, o cümlədən iqtisadi sahədə də əməkdaşlığa imkan yaradır.

Mən Prezident Əliyevə İtaliyaya diqqət yetirdiyinə görə təşəkkür edərək, bugünkü açılışdan çox məmnunluğumu bildirir, Baş nazir Ciorcia Meloninin salamlarını çatdırıram. Düşünürük ki, bundan sonra da hər iki ölkənin rifahı naminə əməkdaşlığımızı davam etdirəcəyik.

Mən Prezident Əliyevə Azərbaycanın bizimlə qurduğu əməkdaşlığa, bizim səfirliklə apardığı işə görə təşəkkürümü bildirirəm və səmimi-qəlbdən sizin hamınızı təbrik edirəm. Həmçinin istəyirik ki, sizin qonşu ölkədə - İranda baş verən münaqişə də səngisin, deeskalasiya olsun. Çünki bu, olduqca vacibdir. Çünki düşünürük ki, münaqişələr nə qədər çox azalarsa, diplomatiya, dialoq daha çox olarsa, bir o qədər əməkdaşlıq üçün də imkanlar yaranar. Bütün bunlar elə məfhumlardır ki, hər bir ölkənin buna ehtiyacı var. Hesab edirik ki, Azərbaycan qonşuları üçün də bir nümunə ola bilər.

Çıxışımın sonunda sizi bir daha təbrik edirəm.

İtaliyanın "Ansaldo Energia" şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri çıxış edərək dedi:

– Zati-aliləri Prezident İlham Əliyev.

Cənab nazir Adolfo Urso.

Xanımlar və cənablar.

Bu gün Mingəçevirdə belə əlamətdar bir elektrik stansiyasının açılışını qeyd etmək məqsədilə burada olmaq mənim üçün böyük şərəfdir. Bu layihə Azərbaycanın enerji təhlükəsizliyinə, davamlı inkişafa və sənaye tərəqqisinə sarsılmaz sədaqətinin rəmzidir.

"Ansaldo Energia" üçün bu gün Azərbaycanla uzunmüddətli və etibarlı əməkdaşlığımızın mühüm mərhələsidir. Əməkdaşlığımız azad edilmiş ərazilərdə dörd yarımstansiyanın avadanlıqla təmin olunması ilə başladı və o gündən etibarən daha da güclənərək inkişaf edir.

Yeni “8 Noyabr” Elektrik Stansiyası bu gün ölkədə öz növündə ən böyük və ən strateji obyektə çevrilmişdir. Bu stansiya Azərbaycan Respublikasının enerji infrastrukturunu modernləşdirmək, daha təmiz, daha etibarlı və daha səmərəli texnologiyalar tətbiq etmək istiqamətində dinamik və uzaqgörən yanaşmasının bariz nümunəsidir. Stansiyada “Ansaldo Energia” tərəfindən təchiz olunmuş dörd ədəd müasir qaz turbini və generatorlar quraşdırılıb. Bu avadanlıqlar sayəsində karbon qazı emissiyalarında ciddi azalma və təbii qaz istehlakında böyük qənaət əldə olunacaq. Bu isə ətraf mühitin qorunmasına və enerji səmərəliliyinə əlamətdar töhfədir.

Bu mühüm layihə üçün “Ansaldo Energia”nın təmin etdiyi AE94.3A qaz turbinləri yüksək istismar çevikliyi, etibarlılığı və sərfəliliyi ilə fərqlənir. Bundan əlavə, bu turbinlər təbii qazla qarışıq şəkildə 40 faizə qədər hidrogen yandırmaq imkanına malikdir. Bu xüsusiyyət stansiyanı gələcək üçün hazırlıqlı edir. Həmçinin Azərbaycanın milli iqlim hədəflərinə, eləcə də aşağıkarbonlu gələcək qurmaq istiqamətindəki genişmiqyaslı məqsədlərinə töhfə verir. Bu layihə həm texniki, həm də çatdırılma baxımından çox iddialı və çətin bir təşəbbüs olmuşdur. Layihənin cəmi iki il ərzində tam şəkildə həyata keçirilməsi və aşağı dəyəri, aşağı xərci onu oxşar layihələrlə müqayisəolunmaz edir. Qarşıya çıxan bütün çətinliklər daimi əməkdaşlıq, ortaq problemin həlli və qarşılıqlı öhdəlik sayəsində uğurla dəf edildi.

Bu gün stansiya tam fəaliyyət göstərir və avadanlıq yüksək nəticə verir. Bu, ortaq uğurdur və biz bu nailiyyəti “AzərEnerji” ilə birlikdə Azərbaycanda qeyd etməkdən qürur duyuruq.

Bu əməkdaşlıq adi təchizatçı-müştəri münasibətlərindən xeyli genişdir. O, ortaq dəyərlərə və cənab nazir Adolfo Ursonun qeyd etdiyi kimi, uzunmüddətli baxışlara əsaslanır. “Ansaldo Energia” yalnız texnologiya təqdim etmir. Biz həm də qabaqcıl təlim proqramlarına və yerli potensialın gücləndirilməsinə sərmayə qoyuruq ki, bu da Azərbaycanın enerji keçidinə uzunmüddətli dəstək verəcək.

Tərəfdaşlığımızın gücü dövlətlər səviyyəsində də öz təzahürünü tapır. Azərbaycanla İtaliya arasında möhkəmlənən əlaqələr bunun sübutudur. Zati-aliləri Prezident İlham Əliyevlə Baş nazirimiz xanım Ciorcia Meloni arasında keçirilmiş son görüş bu strateji münasibətlərin əhəmiyyətini bir daha təsdiq edir. COP29 İqlim Konfransı çərçivəsində “Ansaldo Energia” və “AzərEnerji” arasında Anlaşma Memorandumu imzalanmışdır. Bu sənəd enerji təhlükəsizliyi, enerji keçidi strategiyaları və təlim sahəsində ortaq öhdəliyimizi rəsmiləşdirmişdir. Bu, əməkdaşlığımızın innovasiya, davamlılıq və birgə gələcək məsuliyyət üzərində qurulan yeni mərhələsinə keçidi simvolizə edir.

Azərbaycan Respublikası öz strateji mövqeyi, təbii ehtiyatları və ardıcıl enerji siyasəti sayəsində Avropanın enerji təhlükəsizliyində həlledici rol oynayır. Təbii qaz təchizatçısı kimi rolu və infrastrukturun modernləşdirilməsi sahəsindəki səyləri Azərbaycanı qlobal enerji əməkdaşlığında əsas oyunçulardan birinə çevirmişdir.

Xanımlar və cənablar, “Ansaldo Energia” Azərbaycan Respublikasının innovasiya yolunun bir parçası olmaqdan qürur duyur. Bu, yalnız qabaqcıl texnologiyalarla deyil, həm də enerjinin gələcəyi ilə bağlı ortaq baxışımızla mümkündür. Biz birlikdə həm təhlükəsiz, həm də davamlı texnologiyaya və insan amilinə əsaslanan enerji əməkdaşlığı modeli qururuq. Bu tərəfdaşlığın yaradacağı yeni imkanları səbirsizliklə gözləyirik. Bu gün bu, bir layihənin sonu deyil. Bu, ortaq yolumuzun yeni bir fəslinin başlanğıcıdır.

Prezident İlham Əliyevə, cənab nazir Adolfo Ursoya, “AzərEnerji”nin rəhbərliyinə və bu möhtəşəm nəticənin əldə olunmasına töhfə verən hər kəsə təşəkkürümü ifadə etmək istəyirəm. Bu sıraya mühəndislərdən sahə işçilərinə, layihə komandalarından ölkənin milli və yerli qurumlarına qədər hamı daxildir. Sizin peşəkarlığınız, əzmkarlığınız və fədakarlığınız bizi bu gün bu uğurun şahidi olmağa gətirib çıxardı.

Hamınıza təşəkkür edirəm.

Çinin “Dongfang Electric İnternational Corporation” şirkətinin İdarə Heyətinin sədri Çen Qianq çıxış edərək dedi:

– Möhtərəm cənab Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün biz burada Azərbaycanın energetika tarixində əlamətdar bir mərhələyə – Mingəçevirdə yeni 1880 MVt gücündə elektrik stansiyasının tam istismara verilməsinə şahidlik etmək üçün toplaşmışıq.

Bu münasibətlə “Dongfang Electric İnternational Corporation” adından Azərbaycan Respublikasının Prezidentinə, dövlətinə, “AzərEnerji” Açıq Səhmdar Cəmiyyətinə və tikintidə iştirak edən bütün tərəfdaşlara ən səmimi təbriklərimi, dərin hörmət və ehtiramımı bildirirəm.

Mingəçevir su anbarının yaxınlığında yerləşən və Azərbaycanın ən böyük enerji istehsalı mərkəzi olan bu müasir elektrik stansiyası bərpaolunan enerji mənbələrinin inkişafı prosesində “şəbəkə stabilizatoru” kimi mühüm rol oynayacaq. “Dongfang Electric İnternational Corporation” olaraq, “AzərEnerji” ASC tərəfindən əsas avadanlıq təchizatçısı kimi bu mühüm layihənin bizə etibar edilməsindən böyük qürur duyuruq. Bu, bizim texniki imkanlarımıza verilən dəyərin göstəricisi olmaqla yanaşı, üzərimizə düşən böyük bir məsuliyyətdir.

“Dongfang” şirkəti ilə Azərbaycanın enerji sektoru arasında uzunmüddətli və geniş əlaqələr mövcuddur. On beş il əvvəl Mingəçevir Su Elektrik Stansiyası üçün əsas

hidrogenerasiya bloklarını biz təmin etmişdik. İki il əvvəl isə Azərbaycanın ən böyük Günəş enerjisi layihəsində "Dongfang" şirkəti mühəndislik, təchizat və tikinti podratçısı olmuş, bu stansiyanın açılış mərasi-mində hörmətli cənab Prezident şəxsən iştirak etmişdi. Bu gün isə Azərbaycanın ən böyük elektrik stansiyasını inşa edərək Çin və Azərbaycan arasındakı əməkdaşlıqda yeni bir səhifə açırıq.

2022-ci ilin sonunda Bakıda "AzərEnerji" ASC ilə müqavilə imzalayarkən bu layihənin əhəmiyyətini bir daha anladım. Şirkətimiz bu layihəyə xüsusi önəm vermişdir. Sifarişçi komandanın peşəkarlığını, layihə üzrə keyfiyyət tələblərini və icra müddətini nəzərə alaraq, biz də layihələndirmədən istehsala, logistikadan quraşdırmaya və istismar mərhələlərinə qədər bütün işlər üçün ən peşəkar komandamızı səfərbər etdik.

İki il davam edən fasiləsiz əməyin nəticəsi olaraq, layihə planında əksini tapan bütün göstəriciləri birgə səylərlə, nəhayət, reallığa çevirməyə nail olduq. Bu xüsusda "AzərEnerji" komandasına öz təşəkkürümü ifadə etmək istərdim.

Buradan Azərbaycan dövlətinə "Enerji müstəqilliyi" strategiyası çərçivəsində göstərdiyi köməyə, Çin Hökumətinə isə "Kəmər və yol" təşəbbüsü çərçivəsində göstərdiyi dəstəyə görə dərin təşəkkürümü bildirirəm. Məhz bu kömək və dəstək sayəsində transsərhəd layihələr coğrafi məhdudiyyətləri aşaraq həyata keçirilə bilmişdir.

Əminəm ki, bu yeni stansiya regional enerji əməkdaşlığı üçün nümunəvi layihəyə çevriləcək.

Qeyd etmək istərdim ki, "Dongfang" şirkəti Azərbaycan bazarında fəaliyyəti çərçivəsində hidroenerji, Günəş, külək və qaz enerjisi istehsalı daxil olmaqla sənaye zəncirinin bütün mərhələlərində texnologiyalarla ölkənizin enerji keçidinə hərtərəfli dəstək göstərməyə, Çin ilə Azərbaycan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsi istiqamətindəki fəaliyyətlərinə davam edəcək.

Sonda "8 Noyabr" Elektrik Stansiyasının təhlükəsiz və dayanıqlı şəkildə işləməsini arzulayır, eyni zamanda, onun Azərbaycanın inkişafına güclü təkan verəcəyinə inanırıq. Çinlə Azərbaycan arasındakı enerji əməkdaşlığı çərçivəsində daha böyük nailiyyətlər əldə etməyimizi və dostluq münasibətlərimizin daha da dərinləşməsini arzulayırıq.

Təşəkkür edirəm, cənab Prezident Əliyev və hər birinizə minnətdaram.

"AzərEnerji" ASC-nin enerjinin istehsalı operatorunun direktoru Üzeyir Yusifov çıxış edərək dedi:

– Hörmətli möhtərəm cənab Prezident.

Hörmətli tədbir iştirakçıları.

Əvvəlcə möhtərəm cənab Prezident, icazə verin, bu gün ölkəmizin müstəqillik dövrünün ən böyük elektrik stansiyasının istifadəyə verilməsinin açılış mərasimində şəxsən iştirak etdiyinizə görə Azərbaycan energetikləri adından Sizə dərin təşəkkürümüzü və əməyimizi yüksək dəyərləndirərək hər zaman olduğu kimi, bizim üçün belə bir əlamətdar gündə də yanımızda olduğunuzdan qürur hiss etdiyimizi bildirim.

Tarix doğrudan da təkrar olunur. Cənubi Qafqazın hələ də ən böyük istilik elektrik stansiyası sayılan "Azərbaycan" İES-in birinci enerji bloku 1981-ci il oktyabrın 20-də məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə işə salınaraq istifadəyə verilmişdir. Fəxr edirəm ki, həmin tədbirdə gənc mühəndis kimi iştirak etmək mənə də qismət olub. Oktyabrın 20-si Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoydu və sonradan Zati-alinizin Sərəncamı ilə ölkəmizin energetiklərinin peşə bayramı günü kimi təsis edildi.

Keçmiş SSRİ miqyasında ümumxalq tikintisi səviyyəsində inşa edilən "Azərbaycan" İES-in mövcudluğu sovetlər birliyi dağılarkən müstəqil Azərbaycan dövlətinin enerji tələbatının əsas hissəsini qarşılaya bildi, ölkənin enerjisisteminin ən dayanıqlı və etibarlı müəssisəsi oldu.

Möhtərəm cənab Prezident, xoşbəxtik ki, Ulu Öndərin bu möhtəşəm yadigarını Sizin rəhbərliyinizlə biz energetiklər qoruyub saxlaya bildik.

2018-ci ilin iyul hadisələrindən - məlum qəzadan sonra Sizin tapşırığınızla qısa müddətdə hazırlanmış "Reabilitasiya Proqramı" çərçivəsində stansiyada yenidənqurma və əsaslı təmir işləri aparıldı, müəssisəyə ikinci nəfəs verildi. Ölkə əhalisi və iqtisadiyyatı üçün xüsusi əhəmiyyət daşıyan stansiya dayanmaq təhlükəsindən xilas edildi, ömrü ən azı 20 il uzadıldı, etibarlılıq və dayanıqlılığı təmin olundu, 620 MVt itirilmiş generasiya gücü bərpa edildi.

Ölkənin artan güc tələbatının qarşılanması, yaradılan böyük gücdə bərpaolunan enerji mənbələrinin enerjisistemə inteqrasiyasının balanslaşdırılması, enerjisistemin dayanıqlılığının təmin olunması məqsədilə tərəfimizdən daha səmərəli layihənin icrası təklifi verilmişdir. Bu məqsədlə "AzərEnerji" ASC-nin mütəxəssisləri tərəfindən faydalı iş əmsalı 35 faiz və 1 kVts elektrik istehsalına şərti yanacaq sərfiyyatı 340 qram olan "Azərbaycan" İES-in buxar turbinlərinə gücü 320 meqavat olan 4 qaz turbini inteqrasiya etməklə əlavə generasiya gücü yaratmaq, faydalı iş əmsalını 55 faizədək, şərti yanacağı isə 225 qram kilovat-saata qədər stansiyanın layihəsi hazırlandı. Zati-alinizin xeyir-duası ilə 2023-cü il fevralın 13-də "Azərbaycan" İES ərazisində əlavə 1280 MVt gücündə yeni elektrik stansiyasının tikintisinə start verildi.

44 ildən sonra Mingəçevir şəhərində ikinci dəfə böyük gücdə yeni elektrik stansiyasının tikintisində və açılış mərasimində iştirak etməkdən həqiqətən böyük qürur duyuram.

Yeni layihənin ümumi gücünün 1880 MVt-a çatdırılması məqsədilə mütəxəssislərimiz tərəfindən yeniliklər tətbiq edilmiş və texnoloji prosesin tam səmərəliliyinin təmin olunması üçün "Azərbaycan" İES-in iş prinsipinə toxunulmadan digər enerji bloklarını işlək vəziyyətdə saxlamaq şərti ilə 7-ci və 8-ci enerji bloklarının buxar turbinlərinin zəmanətli əsaslarla rekonstruksiya və modernləşdirmə işləri tam başa çatdırılmışdır. Avadanlıqlar yeniləri ilə əvəz edilmişdir. Dövretmə soyuducu su xətləri tamamilə yenilənmiş, nasoslar və soyuducu sutəmizləyici qurğular yeniləri ilə əvəz olunmuş, buxar turbininin idarəetmə, nəzarət və ölçü sistemləri tamamilə müasir texnologiyaya uyğun avadanlıqlarla təchiz edilmişdir.

Mövcud qaz turbin qurğularında ilk dəfə olaraq qaz turbinlərinin qaz təchizatında elektrik qaz kompressoru əvəzinə İtaliyanın "Franco Tosi" şirkətinin istehsalı olan iki ədəd turbokompressor qurğusundan istifadə edilir. Enerjisistemin avtomatlaşdırılması, SCADA və digər müasir idarəetmə sistemlərinin inteqrasiyası sayəsində stansiyanın təhlükəsiz, sabit və səmərəli fəaliyyəti təmin olunmuşdur.

İnteqrasiyanın nəticəsi olaraq yeni tikilən elektrik stansiyasının util qazanlarından çıxan buxar "Azərbaycan" İES-in 7 və 8 saylı buxar turbinlərinə verilir, nəticədə yeni stansiyanın şərti yanacaq sərfiyyatı "Azərbaycan" Elektrik Stansiyasının digər blokları ilə müqayisədə 115 qram azalmaqla 225 qram təşkil edir. Bu da istehsal həcmindən asılı olaraq illik 1 milyard kubmetr təbii qaza qənaət, 2 milyon tona yaxın karbon emissiyasının azalması deməkdir.

Qeyd etmək istərdim ki, yeni layihənin sınaq və işəsalma müddətində maksimal yükə çıxmadan artıq 250 milyon kubmetr təbii qaza qənaət edilmiş, istehsal olunan elektrik enerjisinin həcmi 2,8 milyard kilovat-saat təşkil etmişdir.

Layihənin ərsəyə gəlməsində milli podratçı "BCC-GROUP" və "Elektro İndustries", İtaliyanın "Ansaldo Energia", "AFRY" və "Franco Tosi", Çinin "Dongfang" və "TBEA", İspaniyanın "İDOM", Rusiyanın "SRMZ", Türkiyənin bir sıra aparıcı şirkətlərinin, yerli və xarici mütəxəssislərin xüsusi əməyi olmuşdur.

Dünyanın nüfuzlu enerji şirkətləri və müstəqil texniki ekspertlər – "TEPSCO" (Yaponiya), "McKinsey& Company" (ABŞ), "ABB" (İsveç), Azərbaycan Milli Elmlər Akademiyası, Enerjisistemin Texniki Şurası tərəfindən layihənin texniki-iqtisadi səmərəsi barədə müsbət rəylər verilmişdir.

Daha bir yenilik olaraq qeyd etmək istərdim ki, sınaq-sazlama tədbirləri zamanı mütəxəssislərimiz tərəfindən əlavə 100 ton buxarın yaranması müəyyənləşdirilmişdir. Belə böyük həcmdə buxardan səmərəli istifadə məqsədəuyğun hesab edilmiş və əlavə güc əldə olunması üçün 6-cı buxar turbininə inteqrasiyası tədbirlərinə başlanılmışdır.

Bununla da artıq qalan buxardan istifadə etməklə 1880 MVt-dan əlavə, 90 MVt güc əldə olunacaq və yeni stansiyanın gücü 1970 MVt təşkil edəcəkdir. Eyni zamanda, 6 saylı buxar turbininin inteqrasiyası enerjisistemi və stansiyanı yarana biləcək yük qıtlığından qoruyaraq, istehsal edilən elektrik enerjisinin şərti yanacaq sərfinin 10-15 qram azalmasına, yəni şərti yanacaq sərfinin 210-215 qr/kVt-saata düşməsinə səbəb olacaqdır. "AzərEnerji" ASC olaraq biz bu layihənin uğurla tamamlanmasından qürur duyuruq və əminik ki, bu stansiya uzun illər Azərbaycan xalqına xidmət edəcəkdir.

Möhtərəm cənab Prezident, şəxsən Sizin qüdrətli sərkərdərliyinizlə qazanılan və xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılan şanlı Zəfər Günümüz olan 8 Noyabr tarixi adını yeni müəssisəmizə layiq bilməyiniz əməyimizə verdiyiniz ən yüksək qiymətin təzahürüdür və bu möhtəşəm ada hər zaman öz işimizlə layiq olacağımıza Sizi əmin edirik.

Bu əlamətdar hadisə münasibətilə hamını təbrik edir, "8 Noyabr" Elektrik Stansiyasının xalqımıza və dövlətimizə uğur və rifah gətirməsini arzu edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

Sonra "8 Noyabr" Elektrik Stansiyasının inşasına həsr edilmiş videoçarx nümayiş olundu.

Daha sonra Prezident İlham Əliyev və İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso stansiyanın açılışını etdilər.

Prezident İlham Əliyev və qonaqlar Vətən müharibəsi zamanı Ermənistan tərəfindən bu stansiyaya atılan raketin düşdüyü əraziyə baxdılar.

Qeyd edək ki, 2020-ci il oktyabrın 4-də stansiyanın ərazisinə böyük dağıdıcı qüvvəyə malik "Smerç" reaktiv yaylım atəşli raket atılıb. Raket 6-cı və 7-ci enerji bloklarının arasındakı sahəyə düşüb. Bundan başqa, 2020-ci il oktyabrın 11-də ikinci dəfə atılan raket isə İdarəetmə Mərkəzinin yaxınlığına düşüb.

Müvafiq müdafiə sistemlərinin qabaqlayıcı tədbirləri nəticəsində atılmış raketlər zərərsizləşdirilib.

Sonra dövlətimizin başçısı və açılışda iştirak edən qonaqlar stansiyanın ərazisini gəziblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı Sərəncamla enerji dayanıqlılığının təmin olunması, artan tələbatın qarşılanması, əlavə generasiya güclərinin yaradılması, ixrac imkanlarının artırılması, təbii qaza qənaət edilməsi və ətraf mühitin qorunması məqsədilə Mingəçevir şəhərindəki "Azərbaycan" İstilik Elektrik Stansiyasının (İES) ərazisində müstəqillik dövrünün ən böyük elektrik stansiyasının tikilməsinə qərar verilib. Azərbaycanın peşəkar mühəndislərinin təklifləri əsasında işlənilən layihənin icrasına dünyanın nüfuzlu enerji şirkətləri və müstəqil texniki ekspertləri də cəlb edilib.

Stansiyanın inşası üçün xarici ölkələrdən gəmilərlə 1500-ə yaxın konteyner mal-material gətirilib.

Çinin "Dongfang" şirkətindən alınmış, ümumilikdə 40 min kubmetr həcmində 20 min ton çəkisi olan 4 ədəd Util Qazan Çindən gətirilib.

Sifariş əsasında İtaliyanın "Ansaldo Energia" şirkəti tərəfindən hazırlanan, ümumi çəkisi 3 min tondan çox olan qaz turbinləri və generatorlar, o cümlədən köməkçi avadanlıq ikinci logistika marşrutu ilə İtaliyadan Bakı limanına çatdırılıb. Hər birinin çəkisi 300 və 400 tondan artıq olan yüklərin qabariti böyük olduğundan Mingəçevirə qədər yolboyu körpülərin altı qazılıb və keçid təmin ediləndən sonra yollar bərpa olunub.

"8 Noyabr" Elektrik Stansiyasının tikinti və quraşdırma işlərində 2500-dən çox xarici və yerli mütəxəssis çalışıb.

Stansiyanın dayanıqlı qaz təchizatı üçün 10 kilometr uzunluğunda yeni qaz kəməri inşa edilib, iki yeni qazpaylayıcı və tənzimləyici stansiya tikilib, kompressor qurğuları quraşdırılıb.

"8 Noyabr" Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün "Azərbaycan" İstilik Elektrik Stansiyasının 500 və 330 kV-luq yarımstansiyaları tam yenidən qurulub. Əlavə olaraq 65,6 kilometr uzunluğunda "Mingəçevir-Samux" ötürmə xətti inşa edilib və "Samux" yarımstansiyasında yenidənqurma işləri aparılıb. O cümlədən stansiyada yanğından mühafizə, havalandırma, rəqəmsal idarəetmə, monitorinq və digər zəruri infrastruktur yaradılıb.

Adətən bu cür böyük stansiyaların tikintisi 3-5 ilə icra edildiyi halda, Azərbaycan bunu 2 il ərzində həyata keçirə bildi. Dünyanın bir çox ölkələrindəki bənzər layihələrə xərclənən vəsaitlə müqayisədə bu stansiyanın inşasına kifayət qədər az vəsait sərf olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Söhbət zamanı dövlətimizin başçısının Adolfo Urso ilə görüşləri məmnunluqla xatırlandı.

Prezident İlham Əliyev Adolfo Ursoya "8 Noyabr" Elektrik Stansiyasının açılışında iştirakına görə minnətdarlığını bildirdi, gələcəkdə də birgə layihələrin həyata keçiriləcəyinə ümidvarlığını ifadə etdi.

Qonaq İtaliyanın "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakını ölkələrimiz arasında dostluğun və uğurlu əməkdaşlığın göstəricisi kimi dəyərləndirdi.

Azərbaycana dəfələrlə səfər etdiyini xatırlayan Adolfo Urso bu tədbirdə iştirakdan məmnunluğunu bildirdi. O, 2020-ci ildə Gəncə və Ağdam şəhərlərinə səfərinə toxundu.

Dövlətimizin başçısı Adolfo Ursonun işğaldan azad edilmiş torpaqlarımızda Avropa ölkəsini təmsil edən ilk xarici yüksəksəviyyəli şəxslərdən biri olduğunu vurğuladı və buna görə minnətdarlığını bildirdi.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və orada artıq 3 beynəlxalq hava limanının istifadəyə verildiyini dedi.

Söhbət zamanı münasibətlərimizin strateji xarakter daşıdığı bildirildi, siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluq ifadə edildi. Azərbaycan-İtaliya əməkdaşlığının daha da genişləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxunuldu.

Görüşdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi bildirildi, enerji, o cümlədən bərpaolunan enerji, metallurgiya, kənd təsərrüfatı, əczaçılıq, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı, İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərində iştirakı qeyd edildi. "AzərEnerji" ilə "Ansaldo Energia" şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olundu.

Sonra xatirə şəkli çəkdirildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə Çinin "Dongfang Electric İnternational Corporation" şirkətinin İdarə Heyətinin sədri Çen Qianqı qəbul edib.

"Dongfang Electric İnternational Corporation" şirkətinin "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakının roluna toxunuldu, Azərbaycanla Çinin bu şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə şəkli çəkdirildi.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQLƏRİ, ÇIXIŞLARI VƏ MÜSAHİBƏLƏRİ

## *Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında İlham Əliyevin nitqi*

– Sabahınız xeyir olsun, xanımlar və cənablar, əziz qonaqlar.

Mən sizin hamınızı Azərbaycanda salamlayıram. Mən Brüsseldən gəlmiş qonağımızı xüsusi olaraq salamlayıram. Cənab komissar, xoş gəlmisiniz. İlk dəfədir ki, bu tədbirdə iştirak edirsiniz. Lakin hamımız bilirik və mən artıq qeyd etdim ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası 11-ci dəfədir Bakıda toplaşır. Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamışdır. Həmçinin bu gün birgə foto çəkdirdiyimiz zaman söylədim ki, bəlkə də bizə daha çox yer lazım olacaq, çünki komanda genişlənir. Bu isə əməkdaşlığın çox yaxşı təzahürüdür. Vaxt keçdikcə prosesdə iştirak edən ölkələrin və şirkətlərin sayı artır, onlar ortaq məqsəd ətrafında birləşir. Birinci məqsəd əməkdaşlığın gücləndirilməsidir, çünki əməkdaşlıq olmadan enerji təhlükəsizliyi layihələrinin heç biri mümkün olmazdı.

İkinci məqsəd özləri, öz qonşuları və tərəfdaşları üçün enerji təhlükəsizliyini təmin etməkdir. Hesab edirəm ki, bizi birləşdirən tərəfdaşlığın və əməkdaşlığın çox müsbət əzmi məsuliyyətimizin aydın təzahürüdür. Bu, istehsalçıların, tranzit ölkələrin və istehlakçıların məsuliyyətidir. Əlbəttə ki, bu prosesin üç əsas iştirakçısı arasında maraqların tarazlığı beynəlxalq maliyyə təsisatlarının dəstəyi ilə bizim hekayətimizi və ya hekayətlərimizi uğura çevirdi. Ölkələr, onların hökumətləri, investorlar, şirkətlər, aparıcı maliyyə təsisatları bizim komandamızdır və bu komanda genişlənir. Bu gün heç vaxt görünmədiyi kimi aydındır ki, enerji təhlükəsizliyi ölkələrin milli təhlükəsizliyinin ayrılmaz hissəsidir. Mən hətta deyərdim ki, bu gün biz, həmçinin sənaye təhlükəsizliyi haqqında danışa bilərik, çünki sənayeni inkişaf etdirmək üçün bizə enerji ehtiyatları, neft-kimya məhsulları, gübrələr lazımdır. Azərbaycan isə xam neftin, təbii qazın, neft məhsullarının, neft-kimya məhsullarının və gübrələrin istehsalçısı və ixracatçısıdır.

Enerji şirkətimiz - Dövlət Neft Şirkəti Azərbaycan daxilində və ondan kənarda həm hasilat, həm nəqlolunma, həm də çatdırılma ilə məşğuldur. Uzun illər ərzində Azərbaycan etibarlı tərəfdaş olub və bundan sonra da olacaq. Avropa Komissiyasının yüksəkrütbəli nümayəndələrinin qeyd etdikləri kimi, Azərbaycan enerji sahəsində etibarlı tərəfdaşdır və Pan-Avropa qaz təchizatçısıdır. Bu, həqiqətdir. Qaz təchizatımızın coğrafiyası genişlənir. Bizim Bakıda keçirilmiş son görüşdən, yəni, 10-cu Məşvərət Şurasından sonra əlavə 5 ölkə təbii qazımızın alıcısına çevrildi. Bu gün Azərbaycanın təbii qazı 12 ölkəyə çatdırılır. Onlardan 10-u Avropa ölkəsidir və 8-i isə Avropa İttifaqının üzvüdür. Avropada qaz təchizatımızın coğrafiyası birmənalı olaraq genişlənəcək, çünki bu gün bəzi Avropa ölkələrinin qazpaylama şəbəkəsinin yaradılmasında artıq iştirak edirik. Onların bəzilərində yoxdur, digərləri isə genişləndirilməlidir və Azərbaycan investor kimi bunu etməyi planlaşdırır. Beləliklə, qaz təchizatımızın coğrafiyası birmənalı olaraq müxtəlif yollarla, o cümlədən interkonnektorlar vasitəsilə genişlənəcək.

Təbii ki, biz mövcud qaz boru kəməri sisteminin genişləndirilməsində birgə səylər haqqında düşünməliyik. Cənub Qaz Dəhlizi hamımız üçün böyük uğur hekayətidir. Bu gün 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bir çox ölkələrin enerji təhlükəsizliyi üçün əsas arteriyadır. İndi o, tam gücü ilə işləyir. İstər Cənubi Qafqaz Boru Kəməri, istərsə də TANAP və ya TAP - Cənub Qaz Dəhlizinin üç ayrılmaz hissəsi tam dolu işləyir. Biz onları genişləndirməliyik. Əlbəttə ki, bunun üçün bizə maliyyələşmə lazım olacaq. Burada biz vacib bir nöqtəyə gəlib çıxırıq və bu məsələni dəfələrlə qaldırmışıq. Bəlkə faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini dayandırmaq qərarını qəbul etmiş beynəlxalq maliyyə təsisatları, xüsusən də müşahidə etdiyimiz böyük geosiyasi dəyişiklikləri nəzərə alaraq, öz siyasətinə yenidən baxsınlar. Çünki nəql infrastrukturuna və hətta hasilata əlavə sərmayələr qoyulmasa, bu, çox problemli olacaqdır.

Biz nəhəng hasilat və nəqletmə layihələrinin icrasını mümkün etmiş korporativ maliyyələşmə, o cümlədən borca götürülmüş pul vəsaitlərinin kombinasiyasında böyük təcrübəyə malikik. AÇG, "Şahdəniz" və "Abşeron" - bütün bunlar bu gün bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edən neft və qaz yataqlarıdır. Bir neçə ildən sonra bir çox digər neft-qaz yataqlarının da istismarına başlanılacaq. Beləliklə, müqavilələr artıq imzalanıb, işçi proqram təsdiqlənib. Boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənub Qaz Dəhlizi – bütün bu işlər qeyd etdiyim kimi, bütün iştirakçılarla əməkdaşlıq

səyəsində görülmüşdür. Beləliklə, faydalı qazıntı layihələrinin maliyyələşdirilməsinin dayandırılması siyasəti başlayanda, bu, investorlara, şirkətlərə, ölkələrə müsbət olmayan siqnal göndərir. Bir sözlə, düşünürəm ki, həmin mühüm məqam da, ola bilsin, müzakirə ediləcək.

Ümid edirik ki, Avropada çox geniş yaşıl gündəliyə baxmayaraq, faydalı qazıntı hasilatçıları və ənənəvi yanacaq enerji təhlükəsizliyinin mühüm meyarı kimi yaddan çıxmayacaq və ayrı-seçkiliyə məruz qalmayacaq. Əslində, bu, bizim COP29-dakı mesajımız idi. Azərbaycan qlobal beynəlxalq tədbirə ev sahibliyi etdiyi zaman qeyd olundu ki, faydalı qazıntıları zəngin olan ölkələrlə sərvətləri olmayan ölkələr arasında ayrı-seçkilik və ayırıcı xətlər olmamalıdır. Əksinə, faydalı qazıntıları zəngin olan və bərpaolunan enerjiyə sərmayə qoyan ölkələr alqışlanmalıdır, onlara hücum çəkilməli deyil.

Beləliklə, düşünürəm ki, əgər belə bir mühüm məsələ öz həllini taparsa, onda hasilatçıların işi asanlaşar. Eyni zamanda, uzunmüddətli müqavilələr prosesi də vacibdir. Çünki hamımız bilirik ki, neft və qaz, eləcə də enerji layihələrinə böyük sərmayələr yatırılmalıdır və siz onları uzun illərdən sonra qaytarırsınız. Yeri gəlmişkən, təbii ki, bu günə qədər biz ölkə kimi Cənub Qaz Dəhlizinə sərmayə qoymuşuq, lakin onlar hələ qayıtmayıb. Biz hələ də bu balansda sıfra çıxmamışıq. Ona görə əmin olmalıyıq ki, gələn bir neçə illər əsas bazarımız olacaq Avropada bizim təbii qaza ehtiyac duyulacaq. Yəni, biz əmin olmalıyıq ki, bunun üçün hələ bir neçə il bazar olacaq. Əgər bizdə belə bir təminat olmasa, onda investorlar və ölkələr sərmayə yatırmayacaqlar. Beləliklə, təbii qazın böyük qıtlığı yaranacaq. Bizim ehtiyatlar isə məlumdur.

Biz bu il yeni yataqlarda, əsasən “Azəri-Çıraq-Günəşli” Dərin Qaz Strukturunda yeni hasilatın başlamasını gözləyirik. Həmçinin düşünürəm ki, “Abşeron” yatağında hasilatın artırılmasına dair razılaşmanın son mərhələsindəyik. Yəni, ikinci fazaya keçid edərək hazırkı 1,5 milyard kubmetrə minimum 3 milyard kubmetr əlavə olunacaq.

Bir sözlə, bütün bunlar mümkündür, lakin dediyim kimi, iki əsas meyar olmalıdır: interkonnektorlar və Cənub Qaz Dəhlizinin genişləndirilməsi. Etibarlı proqnozlaşdırma və etibarlı tərəfdaşlıq da olmalıdır, çünki tərəfdaşlıqda bütün tərəflər etibarlı olmalıdır.

Yaşıl gündəliyə gəldikdə, qeyd etdiyim kimi, biz iki mühüm meyarı bir araya gətirə bildik və istehlakçılarımızın tələbatlarını qarşıladıq.

Yeri gəlmişkən, Azərbaycan və Avropa Komissiyası energetika sahəsində strateji tərəfdaşlıqla bağlı memoranduma imza atdıqdan sonra Avropaya qaz təchizatımız təxminən 60 faiz artdı. Bu memorandum Avropa Komissiyasının Prezidenti və mənim tərəfimdən 2022-ci ilin ortasında imzalandı. Avropaya qaz təchizatımız 2021-ci ildə təxminən 8 milyard kubmetr idi. Ötən il demək olar ki, 13 milyard kubmetr oldu. Yəni, bu, bizim ümumi ixracatımızın təxminən yarısından çoxdur. Bu, 25 milyard kubmetrdir və bundan sonra da artacaq. Bu gün həmin həcm artıq kifayət qədər çoxdur. Yeni yataqları əlavə etmək və mövcud qaz yataqlarında hasilatı artırmaq planlarımızı nəzərə alaraq, biz birmənalı olaraq istehlakçılarımıza daha çox qaz verəcəyik. Bir sözlə, təsəvvür edə bilərik ki, əgər bizə daha çox təbii qaza qənaət etmək imkanı verən yaşıl enerji gündəliyini əlavə etsək, Azərbaycan enerji təhlükəsizliyi baxımından tərəfdaşları üçün daha mühüm rol oynayacaq.

Bu gün Günəş və Külək Enerji stansiyalarına aid sərmayədarlarımızla artıq imzalanmış müqavilələr bizə 2030-cu ilə qədər 6 giqavat günəş və külək enerjisi təmin edəcək. Qeyd etdiyim kimi, nəticədə daxildə bu gün elektrik enerjisinin istehsalında istifadə etdiyimiz təbii qaza xeyli dərəcə qənaət etmək imkanı yaranacaq və həmin qazı ixraca yönəldəcəyik. Biz öz sərmayələrimizlə fəal şəkildə inkişaf edirik. Ermənistan işğalından azad edilmiş Şərqi Zəngəzur və Qarabağ ərazilərində su elektrik enerjisi potensialına gəldikdə, biz artıq 270 meqavatlıq su elektrik stansiyalarını qurmuşuq. Artıq 30-dan çox kiçik su elektrik stansiyası istismara verilib və maksimum növbəti beş ildə bu rəqəm əlavə 30 kiçik su elektrik stansiyası ilə 500 meqavata çatdırılacaq. Beləliklə, nəticədə 2030-cu ilə qədər 6.5 giqavatlıq enerji potensialı yaranacaq. Sizi, sadəcə, məlumatlandırmaq üçün deyə bilərəm ki, bu gün Azərbaycanın yaradılmış imkanları 8 giqavatdan çoxdur. Beləliklə, biz növbəti beş il ərzində bərpaolunan mənbələrdən enerji istehsalı potensialımızı demək olar ki, iki dəfə artıracağıq.

Əlbəttə, bu gün əminəm ki, Yaşıl Enerji Məşvərət Şurasının iclasında Azərbaycandan Avropaya gedən yaşıl kabel də müzakirə olunacaq. Mənə verilən məlumata görə, həmin layihənin texniki əsaslandırma işləri son mərhələdədir. Beləliklə, tam başa çatandan sonra birmənalı olaraq maliyyələşmə ilə bağlı praktiki danışıqlar başlayacaq. Əlbəttə, biz indidən söyləyə bilərik, ümid edirik ki, yaşıl enerji layihələrinin maliyyələşdirilməsi ilə bağlı məhdudiyyətlər qoyulmayacaq. Lakin düşünürəm ki, Avropa təsisatlarında həmin layihələrin ümumi maraq doğuran layihə səviyyəsinə qədər təkmilləşdirilməsi vacibdir.

Bununla mən əməkdaşlığımızın fəal formatında əldə etdiyimiz nəticələri yüksək dəyərləndirərək, çıxışımı yekunlaşdırıram. Baxmayaraq ki, Bakıda ildə bir dəfə toplaşırıq, lakin bütün il ərzində çoxsaylı tədbirlər, görüşlər, konfranslar, ikitərəfli və çoxtərəfli tərəfdaşlıq formatları olur və bu format işbirliyi üçün əsas yaradır. Məşvərət Şurasında isə hər dəfə olduğu kimi, biz ötən il ərzində gördüyümüz işləri nəzərdən keçiririk və gələcək addımları planlaşdırırıq. Mən hər iki Məşvərət Şurasına uğurlar arzu edirəm.

## *İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibə verib.

– Hörmətli cənab Prezident, xatırlayırıq ki, ötən ilin iyulunda ŞƏT-in Astanada keçirilən 24-cü sammitində Siz və ÇXR-in Sədri Si Cinpin strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamə imzaladınız. Bu sənəddə qarşılıqlı hörmət, bərabər səviyyədə etimad, bir-birinə dəstək və əməkdaşlıq prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın qurulmasını bəyan etdiniz. Bu, iki ölkə arasında münasibətlərin tarixində mühüm mərhələdir. Sizin fikrinizcə, Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafında hansı mühüm nəticələr əldə olunub və bunu necə qiymətləndirirsiniz?

– Haqlısınız, ötən il iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olundu. Bəyannamədə xüsusi olaraq qeyd edildi ki, 1992-ci il aprelin 2-də diplomatik münasibətlərin qurulduğu andan sonra ikitərəfli əməkdaşlığımız bir çox səmərəli nəticə verib. Bununla yanaşı, biz razılaşdıq ki, əməkdaşlığı gələcəkdə də genişləndirək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirək, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə edək, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq edək.

Birlikdə bəyan etdik ki, bizim strateji tərəfdaşlığımız qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıq kimi ikitərəfli münasibətlərin əsas prinsipləri üzərində qurulacaq. Birgə Bəyannamədə, həmçinin təsdiq etdik ki, biz bir-birinin suverenliyinə və ərazi bütövlüyünə layiqli hörmətlə yanaşan, daxili işlərə qarışmamaq və dinc yanaşı yaşamaq prinsiplərindən irəli gələn müstəqil xarici siyasət yürüdən vacib və etibarlı tərəfdaşlarıq.

Hesab edirəm ki, bizim Astanadakı görüşümüz və onun yekunlarına dair qəbul edilən Birgə Bəyannamə tarixi hadisədir və Azərbaycan-Çin münasibətlərində yeni səhifə açır. ÇXR-in Sədri Si Cinpin ilə ikitərəfli görüş əsnasında çıxışımda qeyd etdim ki, qəbul olunan Bəyannamə ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirir və bu, böyük nailiyyət, böyük məsuliyyətdir. Astanada görüşümüz zamanı mən Çinə dövlət səfərinə dəvət olundum və bu dəvəti məmnunluqla qəbul etdim. Mən də ÇXR-in Sədrini onun üçün uyğun olan vaxtda ölkəmizə səfərə dəvət etdim. İnanıram ki, yüksək səviyyədə belə səfərlər mübadiləsi dövlətlərarası münasibətlərimizin dərinləşməsi prosesinə əlavə impuls verəcək.

Ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət veririk və ikitərəfli münasibətlərin dərinləşməsini Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndiririk. Bu gün əminliklə demək olar ki, münasibətlərimiz çox müsbət dinamikaya malikdir. 2024-cü ildə hökumət və parlamentin yüksəkvəzifəli üzvləri, nazirliklərin və idarələrin, Baş Prokurorluğun rəhbərləri, həmçinin Prezident Administrasiyasının və Yeni Azərbaycan Partiyasının mərkəzi aparatının rəsmi nümayəndələri Çində səfərdə olublar.

Ötən il Çinin Xalq Siyasi Məşvərət Şurasının Ümum-Çin Komitəsi sədrinin müavini və Çinin Xarici Ölkələrlə Dostluq Cəmiyyətinin sədri Azərbaycana səfər ediblər. ÇXR Baş nazirinin müavininin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında – COP29-da iştirakı əlamətdar hadisə oldu. Bu tədbirdə 196 dövlətin, 150 beynəlxalq təşkilatın və BMT strukturlarının, həmçinin təxminən 2 min QHT-nin nümayəndələri iştirak etdilər. İnkişaf etməkdə olan ölkələrə iqlim maliyyəsinin ayrılması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması, həmçinin Paris Sazişinin 6-cı maddəsinin tam reallaşdırılması COP29 çərçivəsində qəbul edilən mühüm qərarlardır.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində iqlim fəaliyyəti və dayanıqlı inkişaf arasında əlaqəni əhatə edən 14 qlobal təşəbbüslə çıxış etdi və onlar geniş beynəlxalq dəstək aldılar. Əldə olunan razılaşmalar, dəstəklənən təşəbbüslər və qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi və dünyanın iqlim gündəliyi üçün müstəsna əhəmiyyətə malikdir.

Dünya ictimaiyyəti üçün belə bir mühüm tədbirdə Azərbaycana qarşı bəzi Qərb dairələri tərəfindən genişmiqyaslı əsassız təzyiq və boykot kampaniyalarına baxmayaraq, biz bir daha güclü siyasi iradə və peşəkarlıq nümayiş etdirdik ki, bu da konfransı yüksək səviyyədə keçirməyə, tarixi nəticələr əldə etməyə və çoxtərəfli danışıqlarda əsl sıçrayışa imkan verdi. Fürsətdən istifadə edərək, fəal iştirakına və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə qiymətli töhfəsinə görə Çinin nümayəndə heyətinə minnətdarlığımı bildirmək istəyirəm.

– Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2024-cü ildə Azərbaycanın xarici ticarətinin ümumi həcminin 7,9 faizi Çinin payına düşür. Çin ölkənizin dördüncü böyük ticarət tərəfdaşıdır və ilk dəfə əsas idxal mənbəyinə çevrilib. Noyabrın 24-də Azərbaycanın ixrac malları daşıyan ilk dəmir yolu qatarı Bakıdan Çinə yola salınıb. Çinin şəhərlərində Azərbaycan ticarət evləri yaradılır, Azərbaycan xalçaları, nar şirələri və başqa yüksəkkeyfiyyətli məhsullar isə minlərlə çinli ailənin evinə daxil olur. Siz “Kəmər və yol” təşəbbüsünün iki ölkə arasında praktik əməkdaşlığın inkişafında rolu haqqında nə düşünürsünüz?

– Astanada ÇXR-in Sədri ilə görüşüm əsnasında əldə olunan daha bir razılaşmaya diqqətinizi yönəltmək istəyirəm. Söhbət ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin gələcək inkişafından, onların keyfiyyətcə yeni məzmunla zənginləşməsindən gedir.

Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Bəli, həqiqətən Çin Azərbaycanınz 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb.

İki ölkə arasında getdikcə artan iqtisadi-ticari əməkdaşlığa baxmayaraq, hələ də reallaşdırılmayan böyük potensial mövcuddur. Hesab edirəm ki, iki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi əlaqələri genişləndirmək, əməkdaşlığın perspektivli istiqamətlərini aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün mühüm mexanizmdir. Komissiyanın qərarlarının vaxtında yerinə yetirilməsi səylərimizin uğur qazanmasının rəhni olacaq. ÇXR-ə səfərim ərəfəsində Bakıda Komissiyanın 10-cu iclasının keçirilməsi planlaşdırılır.

Sizin xatırlatdığınız Azərbaycan ticarət və şərab evləri artıq ÇXR-in Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Onlar ikitərəfli ticari münasibətlərimizin inkişafına sanballı töhfə verir. Azərbaycan Ticarət Evi, həmçinin Çində tanınmış beynəlxalq “JD” onlayn ticarət platformasında yaradılıb.

Bu gün Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir. Hazırda Azərbaycanla Çin arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan energetikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılır.

Məlum olduğu kimi, Azərbaycan ÇXR-in Sədri tərəfindən irəli sürülmüş “Kəmər və yol” təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir. Biz bu istiqamətdə ciddi praktik layihələr həyata keçiririk. Əminliklə demək olar ki, Azərbaycan bu layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci ölkədir. 2019-cu ilin aprelində Çində keçirilən 2-ci “Kəmər və yol” Forumunda çıxış edərkən qeyd etdim ki, bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Biz “Kəmər və yol” təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığı genişləndiririk. Bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb. Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir.

Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yolları salınıb və təmir edilib, 335 körpü və yolayrıcı, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə böyük işlər görülüb, 1500 kilometrdən artıq dəmir yolu tikilib və 1800 kilometrlik sahə təmir edilib.

Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı “Kəmər və yol” təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır.

Onu da diqqətinizə çatdırmaq istərdim ki, hazırda Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Onun əhəmiyyəti sürətlə artır.

Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb.

– Çin və Azərbaycan qədim İpək Yolu sivilizasiyasının mərkəzində yer alır. Son illərdə iki ölkə arasında humanitar mübadilələr, xüsusən dillərin tədrisi və turizm sahələri inkişaf edir. Pekin Xarici Dillər Universiteti Azərbaycan dilinin öyrənilməsi proqramını həyata keçirir. Daha çox azərbaycanlı tələbə Çin dilinə maraq göstərir. Azərbaycan mənbələrinin məlumatına görə, ötən il Azərbaycana səyahət edən çinli turistlərin sayı əvvəlki illə müqayisədə iki dəfə artıb. Siz bu tendensiyanı necə qiymətləndirirsiniz?

-Siz hər iki dövlətin xüsusi əhəmiyyət verdiyi əməkdaşlığın mühüm sahələrinə toxundunuz. Strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamədə iki ölkənin mövcud müqavilə-hüquqi bazası çərçivəsində təhsil sahəsində əməkdaşlığın sabit inkişafı bəyan edilib. Bununla yanaşı, biz dillərin öyrənilməsi və tədrisi sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişik.

Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır. Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb.

İki ölkənin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir, zəruri müqavilə-hüquqi baza yaradılır.

Əminəm ki, Çin və Azərbaycan dillərinin təhsil müəssisələrində tədrisinin, müəllimlər arasında mübadilənin və mütəxəssislər hazırlanmasının dövlət

tərəfindən dəstəklənməsi dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətinin səmərəliliyinə imkan yaradacaq, iki xalqın yaxınlaşmasına və qarşılıqlı mədəni zənginləşməsinə xidmət edəcək.

Ötən il Azərbaycan turizmin inkişafı və işgüzar fəaliyyətin artırılması məqsədilə Çin vətəndaşlarına münasibətdə vizasız rejimi birtərəfli qaydada tətbiq etdi. Ölkələrimizin vətəndaşlarının vizasız gediş-gəlişinin asanlaşdırılması turist axınının artmasına kömək edəcək və bununla da iqtisadi, humanitar və mədəni əlaqələr genişlənəcək.

– 2016-cı ildə Azərbaycan ŞƏT-in dialoq üzrə tərəfdaş ölkəsi oldu və ŞƏT ailəsinin mühüm üzvüdür. Məhz ŞƏT-in Astana sammitində iki ölkə arasında strateji tərəfdaşlıq quruldu. 2024-2025-ci illərdə ŞƏT-ə sədrlik edən Çin cari ildə ŞƏT-ə üzv dövlətlərin Dövlət Başçıları Şurasının 25-ci iclasına ev sahibliyi edəcək. Sizin bu sammitdən gözləntiləriniz nədən ibarətdir?

– Hesab edirəm ki, Çinin "Şanxay ruhunun təşviqi: ŞƏT fəaliyyətdədir" devizi altında təşkilata sədrliyi onun institusionallaşdırılmasına və beynəlxalq arenada rolunun gələcəkdə də möhkəmlənməsinə kömək edəcək. ÇXR ŞƏT-in təsisçi ölkələrindəndir və təşkilatın inkişafının aparıcı güclərindən biri olaraq qalır. Əminəm ki, Çinin sədrliyi üzrə geniş proqramı çərçivəsində səyləri ŞƏT prinsipləri əsasında çoxtərəfli əməkdaşlığın möhkəmlənməsinə, həmçinin onun vəzifələrinin həyata keçirilməsinə əlavə impuls verəcək.

Ötən il Qazaxıstan Respublikası Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə mən ŞƏT-in sammitində iştirak etdim. Hazırda Azərbaycan ŞƏT-də dialoq üzrə tərəfdaş statusuna malikdir. Azərbaycanın ŞƏT ilə əməkdaşlığı terrorizmlə, ekstremizmlə və separatçılıqla mübarizə, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi kimi müxtəlif sahələri əhatə edir. Həmçinin sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın dəstəklənməsi kimi məsələlər diqqət mərkəzindədir. Məlum olduğu kimi, ölkəmiz bu sahələr üzrə beynəlxalq arenada fəal rol oynayır.

Biz ŞƏT-in fəaliyyətinə böyük əhəmiyyət veririk və bu təşkilatın təməlində dayanan prinsipləri bölüşürük. Regionda etibarlı tərəfdaş və mühüm dövlət olan Azərbaycan beynəlxalq və regional sülhün, təhlükəsizliyin bərqərar olmasına töhfə verməkdə davam edir, ticarət, kommersiya və investisiya əlaqələrinin genişlənməsinə yönəlmiş, bununla da qlobal iqtisadi inkişafa və Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına kömək edən irimiqyaslı iqtisadi-ticari, nəqliyyat, infrastruktur və energetika sahələrində layihələr həyata keçirir.

Həmçinin əminəm ki, ölkələrimizin sıx ikitərəfli qarşılıqlı fəaliyyəti Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcək.

– Çin və Azərbaycan Qlobal Cənubun mühüm üzvləri kimi çoxtərəfli platformalarda sıx əməkdaşlığı dəstəkləyir və beynəlxalq ədaləti səmərəli şəkildə müdafiə edir. Siz Qlobal Cənubun yüksəlişinin qlobal idarəetməyə təsirini və Çin tərəfindən irəli sürülmüş bəşəriyyətin ortaq taleyi konsepsiyasını necə qiymətləndirirsiniz?

– Ötən il Astanada biz ÇXR-in Sədri Si Cinpin ilə bəşəriyyətin ortaq taleyi cəmiyyətinin yaradılmasına kömək etmək səylərimizi bəyan etdik. Biz sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq uğrunda, həmçinin hegemoniyaya və güc siyasətinə qarşı bəşəriyyətin ümumi dəyərlərinin təşviqi istiqamətində çıxış etdik. Bizim tərəfimizdən BMT-nin himayəsi altında beynəlxalq sistemin birgə dəstəklənməsi onun beynəlxalq məsələlərdə rolu, həqiqi çoxtərəflilik mövqeyi, həmçinin BMT Nizamnaməsi əsasında beynəlxalq hüquq, məqsəd və prinsiplərə əsaslanan dünya nizamının birgə dəstəklənməsi əzmi ifadə olundu.

Mən artıq dedim ki, Qlobal Cənubun bir hissəsi kimi, biz həmişə onun maraqlarını müdafiə etmişik. Azərbaycan 2019-2023-cü illərdə BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri olub. Bizim sədrliyimiz dövründə Qlobal Cənub ölkələrini birləşdirən bu vacib platformanın rolunun və statusunun artırılması istiqamətində bir sıra ardıcıl səylər göstərilib. Qlobal Cənub ilə Qlobal Şimal arasında daha möhkəm körpülərin qurulması bizim COP29-da sədrliyimiz çərçivəsində ideyalardan biri olub.

Bu gün Qlobal Cənubun tərkibinə daxil olan Asiya, Afrika və Latın Amerikası ölkələri birlikdə BMT-yə üzv dövlətlərin təqribən üçdə ikisini təşkil edir. Planetin əhalisinin 80 faizi, dünya ÜDM-inin təxminən 50 faizi və məcmu beynəlxalq ticarət həcminin təqribən yarısı bu təşkilatın payına düşür. Qlobal Cənubun daha dayanıqlı, ədalətli və təhlükəsiz dünya nizamı qurulmasında iştirakı təbii prosesdir.

– 2019-cu ilin aprelində Sizin Çinə səfərinizdən altı ilə yaxın vaxt keçir. Çinə bundan əvvəlki səfərləriniz haqqında təəssüratlarınızı bölüşə bilərsinizmi? Çinə qarşıdakı səfərdən gözləntiləriniz nədən ibarətdir?

– Çin dünyanın ən çox dinamik inkişaf edən ölkələrindən biridir. ÇXR-in Sədri Si Cinpinin qətiyyətli və müdrik rəhbərliyi altında Çinin bütün sahələrdə qazandığı nailiyyətlər və uğurlar onu dünyanın ən güclü və qabaqcıl ölkələri sırasına çıxardı, ölkənin beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirdi. Si Cinpinin başçılığı ilə Çin böyük uğurlar qazanıb. Çinin inkişafı təkcə Çin xalqının deyil, həm də dünyanın maraqlarına cavab verir.

Sədr Si Cinpinin dəvəti ilə 2014-cü ildə Çinə işgüzar səfər etdim, artıq 2015-ci ildə mənim ÇXR-ə dövlət səfərim oldu. 2019-cu ildə ÇXR Sədrinin dəvəti ilə Pekində keçirilən İkinci "Kəmər və yol" beynəlxalq əməkdaşlıq forumunda iştirak etdim.

Sədr Si Cinpin ilə görüşlərimizi və səmərəli müzakirələrimizi böyük məmnuniyyətlə xatırlayıram. Şadam ki, qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf

edir, bizim strateji tərəfdaşlığımız isə yeni müsbət məzmunla zənginləşir. Fəal dialoqumuz, şəxsi görüşlər, telefon danışıqları, məktubların mübadiləsi əsasında yaranan qarşılıqlı hörmət və etimad ikitərəfli münasibətlərin dərinləşməsində misilsiz rol oynayır.

Əminliklə deyə bilərəm ki, ÇXR-ə bütün əvvəlki səfərlər zəngin proqrama malik idi və qarşılıqlı maraqlara əsaslanan Azərbaycan-Çin çoxtərəfli əməkdaşlığının genişləndirilməsinə yönəlmiş bir sıra mühüm ikitərəfli sənədlərin imzalanması ilə müşayiət olunurdu. İnanıram ki, qarşıdakı səfər də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək.

## *İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Pekində Çinin CGTN (China Global Television Network) telekanalına müsahibə verib.

Dövlətimizin başçısının müsahibəsi aprelin 25-də həmin televiziya kanalında yayımlanıb.

Müsahibəni təqdim edirik.

*Müxbir Lyu Sin: Zati-aliləri Prezident ƏIiyev, "Danışır liderlər" verilişinə xoş gəlmisiniz.*

**Prezident İlham Əliyev:** Sağ olun.

*– Sizi verilişimizdə yenidən görmək böyük şərəfdir. Altı ildən sonra Çinə ilk dəfədir ki, dövlət səfərinə gəlmisiniz. Son dəfə Siz səfərinizin və ikitərəfli münasibətlərinizin əla səviyyədə olduğunu qeyd etdiniz. Beləliklə, indiki səfərinizi və ikitərəfli əlaqələri bir sözlə ifadə etsəydiniz, nə deyərdiniz?*

– Elə indi də deyərdim ki, əlaqələr əladır. Bəli, haqlısınız. Altı ildən sonra yenidən səfər edirəm. Lakin bununla belə, mənim bu vaxta qədər bir sıra tədbirlərdə Sədr Si ilə görüşmək imkanım olub. Sonuncu dəfə biz iyul ayında Strateji Tərəfdaşlıq Haqqında Bəyannaməni qəbul etdiyimiz bir beynəlxalq tədbir çərçivəsində görüşdük. Bir sözlə, həmin görüş əməkdaşlığımızın olduqca mühüm tarixinə çevrildi, çünki münasibətlərimiz daha yüksək səviyyəyə qalxdı. Sonuncu görüşümüzdən bir ildən az vaxtın keçməsinə baxmayaraq, bu gün biz Sədr Si ilə hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanatı imzaladıq. Beləliklə, münasibətlərimizi daha yüksək səviyyəyə qaldırdıq. Bununla yanaşı, bir çox sahəni əhatə edən 20-dən artıq sənəd imzalandı. Bir sözlə, mən deyərdim ki, münasibətlər əladır. Səfər də, həmçinin. Nəticələrdən çox razıyam. İlk olaraq, Sədr Si tərəfindən Çinə dövlət səfərinə dəvət edilməkdən çox şərəfləndim. Buradakı mühit, qonaqpərvərlik, dostluq, eləcə də müzakirələrimizin mahiyyəti həqiqətən çox həvəsləndiricidir. Biz münasibətlərimizi daha yüksək səviyyəyə qaldırdıq.

*– Əla. Yeri gəlmişkən, bu münasibətlə Sizi təbrik edirəm.*

– Sağ olun.

*– Bununla belə, bu dəfə fərqli nə isə hiss etdinizmi? Şəxsən Sizə nə isə təəssürat bağışladımı?*

– Bu gün Çin rəhbərliyi ilə görüşlərim zamanı qeyd etdim ki, hər dəfə Çinə gələndə inkişaf görürəm. Bir çox yeni infrastruktur layihələrini, binaları və gözəl şəhəri görürəm. Dostlarımı sosial və iqtisadi inkişafda qeyri-adi nailiyyətlərlə, o cümlədən Çinin beynəlxalq aləmdəki fəaliyyəti ilə təbrik etdim. Hər zaman buraya gəlmək olduqca xoşdur. Burada dəfələrlə olmuşam. Çinə ilk səfərim hələ 2005-ci ildə olub. Bir sözlə, ötən 20 il ərzində ölkənin sürətli inkişafının və inanılmaz dəyişikliklərin şahidi olmuşam. Gördüklərim, iqtisadi inkişafla bağlı oxuduqlarım və mənə verilən məlumatlar göstərir ki, ölkəniz həqiqətən düzgün yoldadır. Bu münasibətlə sizi təbrik edirəm.

*– Sağ olun. Bu yaxınlarda beynəlxalq forumda iştirakınız zamanı Siz bildirdiniz ki, "Bizim üçün xüsusi əhəmiyyət kəsb edən Çin kimi böyük ölkə ilə əməkdaşlığın strateji tərəfdaşlıq formatı Çin ilə Azərbaycan arasında ikitərəfli münasibətlərdə çox mühüm mərhələdir". Bir halda ki, hazırda Siz bu münasibətləri hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə qaldırdınızsa, Sizə əlavə sual verim. Həmin addım konkret olaraq ikitərəfli əlaqələr üçün nə məna kəsb edir və Azərbaycan xalqı üçün hansı mahiyyətə malikdir?*

– Əvvəlcə əgər siz Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələrinin Qurulması Haqqında Birgə Bəyanatın mətninə nəzər yetirsəniz, ikitərəfli əlaqələrin geniş gündəliyini görəcəksiniz. Ölkələrimiz milli maraqlara aid məsələlərdə həmrəylik və dostluq nümayiş etdirir. Biz bir-birimizin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyirik. Biz "Vahid Çin" siyasətini qətiyyətlə dəstəkləyirik. Tayvanda qeyri-qanuni seçkiləri ictimaiyyət qarşısında açıq şəkildə pisləyən ilk ölkələr sırasında olmuşuq. Bəyanatın digər hissəsi ticarət, daşımalar, xalqlararası əlaqələr, humanitar tərəfdaşlıq kimi çox sayda məsələləri əhatə edir və əlbəttə ki, bu addım birgə təşəbbüsümüzdür. Beləliklə, həmin sənədin mahiyyəti çox əhəmiyyətlidir. Buna görə həmin ölkə ilə Bəyanatın imzalanması Azərbaycan üçün həqiqətən mühüm nailiyyətdir. Sizə deyə bilərəm ki, Azərbaycan öz bölgəsində bir çox ölkə ilə və həmçinin bəzi Avropa ölkələri ilə Strateji Tərəfdaşlıq haqqında bəyanatlar imzalayıb, lakin Çin ilə Bəyanat onların

daxilində ən güclüsüdür. Məhz buna görə bu sənədin xüsusi vacibliyi bir daha göz qarşısındadır.

*– Siz və Sədr Si arasında çox dərin münasibətlər var. Siz çoxsaylı müxtəlif tədbirlərdə bir-birinizlə görüşmüsünüz. Adətən söhbətiniz necə alınır? Onu dövlət başçısı kimi necə dəyərləndirərdiniz?*

– Bizim çox mehriban münasibətlərimiz var. Görüşlərin birində o, məni Çinin yaxın dostu adlandırıb. Bunu mən bir növ mükafat kimi qəbul edirəm. Onunla görüşməyə, çox səmimi və açıq qaydada söhbət aparmağa hər zaman məmnunam. Biz danışıqlar zamanı çox vaxt bir yerdə olmuşuq, sonra rəsmi ziyafət zamanı söhbət etmişik. Bir sözlə, regional sabitlik, təhlükəsizlik və beynəlxalq münasibətlərin bir çox sahəsini əhatə etmişik. Müxtəlif məsələlər ətrafında öz aramızda fikir mübadiləsi apardığımız zaman mənim üçün onun mövqeyini bilmək hər zaman vacibdir, çünki o, çox təcrübəli dövlət xadimidir. Ona böyük hörmətim var. O, çox dərin biliklərə malik olan, Çinin milli maraqlarına və bütövlükdə qlobal məsələlərə gəldikdə, çox qətiyyətli mövqeyi ilə seçilən insandır. Bildiyiniz kimi, Azərbaycan Sədr Sinin inkişaf, təhlükəsizlik və sivilizasiyalar ilə bağlı bir neçə təşəbbüsünə qoşulub. Biz onun mövqeyinə şərikik. “Bir kəmər, bir yol” təşəbbüsünü açıq şəkildə dəstəkləmiş və sonradan qoşulmuş ilk ölkələrdən biri də bizik və öz ölkəmizdə xeyli infrastruktur layihələrini həyata keçirmişik. Həqiqətən, onunla görüşmək hər zaman xoşdur. O, dünyanın ən güclü ölkələrindən birinin rəhbəridir, lakin, eyni zamanda, çox təvazökar, çox mehriban insandır. O, elə bir mühit yaradır ki, siz onunla söhbət edəndə sanki köhnə dostunuzla danışırsınız.

*– Bunu eşitmək çox xoşdur. Bu gün xəbərlərə baxdım və Böyük Xalq Sarayında Sizinlə görüşü barədə söylədiyi fikirləri dinlədim. İki ölkə arasında diplomatik münasibətlərin qurulmasında olan iradənin onun tərəfindən qeyd edilməsi mənə böyük təəssürat bağışladı. Həmçinin Çin ilə dost və deyərdim ki, uzaqgörən münasibətlərin qurulmasında çox əhəmiyyətli rol oynamış mərhum atanız haqqında danışmaq istərdim. O vaxt Çinin iqtisadi inkişaf baxımından keçəcəyi yol uzun idi. Soruşmaq istərdim: ikitərəfli əlaqələrdə bu qədər dəyişikliklər və onların bu cür səviyyəsini gördükdən sonra mərhum atanıza nə söyləyərdiniz?*

– Tam haqlısınız. O, iki ölkə arasında münasibətlərin möhkəm təməl üzərində qurulmasında mühüm rol oynamışdır. O, Prezident olanda ilk səfərlərindən birini Çinə etdi. Zənnimcə, bir ildən sonra Çini ziyarət etdi.

*– 1990-cı illərin əvvəlində.*

– Bəli, zənnimcə, 1994-cü il idi. O gündən bu münasibətlər quruldu. Onun irsi bizim hamımız üçün əzizdir. Biz onun yolunu davam etdiririk, o cümlədən xarici siyasət prioritetlərində. Bu prioritetlər sırasında Çin xüsusi yer tutur. Əlbəttə ki, ötən 20 ildə dünya dəyişib, Azərbaycan dəyişib. Lakin prioritetlər dəyişməyib. Odur düşünürəm ki, əgər atam səmadan baxaraq bizim harada olduğumuzu görə bilsəydi, o, Azərbaycana və Çin-Azərbaycan münasibətlərinə görə qürur duymuş olardı.

*– Siz atanızın başladığı islahatlardan danışdınız. Siz də geniş islahatlar həyata keçirməyə başlamısınız. Resursların ixracı ilə məşğul olan ölkənin müasir və yaşıl sənayelərin qurulmasına keçidi barədə məlumat verə bilərsinizmi? Bu istiqamətdə bizə nə söyləyə bilərsiniz? Çin bu prosesdə hansı rolu oynamışdır?*

– Çinin nümunəsi, modernləşməsi və apardığı islahatlar bir çox ölkələri ilhamlandırır. Bu, ölkələrin həmin təcrübədən necə istifadə etməsindən, müxtəlif ölkə liderlərinin digər ölkələrin müsbət təcrübələrindən necə öyrənməsindən asılıdır. Sizə deyə bilərəm ki, Çinin keçdiyi tərəqqi yolu bizim üçün ilham mənbəyi olmuşdur. Mənə gəldikdə, səlahiyyətlərimə başlayanda mənim əsas məqsədim ölkədə siyasi və sosial sabitliyi qorumaq idi. O vaxt ölkə çox yoxsul idi. Əlbəttə ki, bizə müdaxilələr olunurdu, yürütdüyümüz siyasətə təsir göstərmək cəhdləri edilirdi, müxtəlif Qərb dairələri tərəfindən daxili işlərimizə müdaxilələr olunurdu. Belə bir vəziyyətdə siyasi sabitliyi və təhlükəsizliyi qorumaq bir nömrəli vəzifə idi. Çünki mən aydın dərk edirdim ki, bunsuz biz inkişaf edə bilmərik. Belə də oldu.

Sonra biz güclü iqtisadiyyat qurmağa başladıq. Bu gün Azərbaycanın xarici borcu ÜDM-in 7 faizindən azdır. Bizim mübadilə olunan valyuta ehtiyatlarımız xarici borcumuzdan 14 dəfə çoxdur. İşsizlik, yoxsulluq səviyyəsini 5 faizə endirdik, iqtisadiyyatımızı şaxələndirdik. Siz qeyd etdiyiniz kimi, yaşıl gündəlik bizim üçün əsas prioritetlərdəndir. Beləliklə, Çin burada çox mühüm rol oynayır. Çünki Azərbaycanda quraşdırılmış Günəş panelləri Çində istehsal olunub.

*– Mən bu barədə eşitmişəm. Siz bu barədə danışırdınız. Mən çox şadam ki, yaşıl enerji potensialı olan yeni bir sahədir. Mən bu haqda Sizdən bir az daha təfərrüatlı məlumat eşitmək istərdim, məsələn, yaşıl enerji əməkdaşlığı baxımından iki ölkənin daha böyük potensialdan necə bəhrələnə biləcəyini düşünürsünüz? Bu, Azərbaycan xalqına yaxşılığa doğru hansı nəzərəçarpan dəyişiklikləri gətirəcək?*

– Bu vaxtadək Çin şirkətləri investorlarla, Azərbaycanın yaşıl enerjisinə sərmayə yatıran şirkətlərlə podratçı qismində çalışırdılar. Hələ ki, bizim imzaladığımız və icra fazasında olan müqavilələr bizə 2030-cu ilə qədər 6500 meqavat bərpaolunan enerji verəcək. Sadəcə, müqayisə üçün deyim ki, Azərbaycanın ümumi quraşdırılmış gücü 8 min meqavat təşkil edir. Beləliklə, beş ildən sonra biz demək olar ki, elektrik enerjisinin bugünkü tutumunu iki dəfə artırmış olacağıq - 6 min meqavat Günəş və külək elektrik enerjisindən əldə olunacaq, 500 meqavat hidroelektrik stansiyalarından gələcək. Bu, bizim üçün həlledici olacaq. Çünki biz elektrik enerjisini istehsal etmək üçün əsasən təbii qazdan istifadə etməyi dayandıracağıq. Biz elektrik

enerjisini bərpaolunan enerji resurslarından əldə edəcəyik və təbii qazı beynəlxalq bazarlara ixrac edəcəyik və əlbəttə ki, çoxlu mənfəət əldə edəcəyik. Eyni zamanda, biz daxili ehtiyaclarımız üçün enerjiyə qənaət edəcəyik. Biz artıq küçələrdə hərəkət edən elektriklə işləyən 160 avtobus almışıq. Bu, hamını sevindirir. Biz əlavə 200 avtobusun alınması üçün podrat müqaviləsi bağlamışıq. Ən vacibi isə odur ki, ümidvaram, biz bu il Azərbaycanda ildə 500 avtobus istehsal etmək gücündə olan BYD-nin elektrik avtobuslarının birgə istehsalına başlayacağıq. Odur ki, bizim planımız Bakının ictimai nəqliyyat sistemini, sonra isə Azərbaycanın bütün digər şəhərlərini tamamilə yaşıl nəqliyyata çevirməkdir. Beləliklə, bizim bərpaolunan enerji resursları ilə bağlı ikitərəfli əlaqələr istiqamətində işləmək üçün həqiqətən də nadir fürsət var. Çünki bu məsələ bizim strategiyamıza və sizin gündəliyinizə uyğundur.

*– Bu gün hərtərəfli strateji tərəfdaşlıq haqqında sənədin imzalanması belə təşəbbüsə əlavə siyasi təkan verəcəkdir.*

– Elədir ki, var.

*– Bilirsiniz, cənab Prezident, biz danışırıq və mən sanki susamışam, yanımızda çay var.*

– Bilirəm nəyi nəzərdə tutursunuz.

*– Bayaqdan ona baxıram. Sizin şərəfinizə.*

– Sizin şərəfinizə.

*– Həqiqətən də ləzizdir. İlk dəfədir ki, Azərbaycan çayının dadına baxıram.*

– Doğrudan?

*– Bəli. Stəkan çox gözəldir. Bunun nə olduğunu bilmək istəyirəm.*

– Bəli, bu, milli stəkandır. Bilirsiniz, onun forması, zənnimcə, armuda bənzəyir. Beləliklə, stəkanın forması, əslində, çayın isti qalması üçün nəzərdə tutulub, çünki adətən biz çayı çox qaynar içirik.

*– Çox qaynar, anladım.*

– Beləliklə, çay soyumur. Stəkanın bu forması aşağı hissəni qaynar saxlayır.

*– Anladım. Əlbəttə ki, bu forma dada əlavə rəng qatır.*

– Lakin mən Çində çayın o qədər də qaynar verilmədiyini görmüşəm. Bu, elədir?

*– Bizdə də çay çox qaynar verilir. Ola bilsin ki, Siz qonaq olduğunuz üçün onlar Sizə zərər dəyməsin deyə çayı qaynar vermirlər. Çünki çox nəzakətli və ehtiyatlı davranırlar. Lakin çay nöqteyi-nəzərindən bizim çoxlu oxşarlıqlarımız var. Məsələn, hamımız çay içməyi sevirik, lakin fərqli bir təamlarla. Bu da bizi bir çox məsələlərə gətirib çıxarır. Bilirsiniz, Qədim İpək Yolu, məsələn, mən onun haqqında danışa bilərəm. Ya da biz xalqlararası mübadilələr, turizm haqqında danışa bilərik. Bilirəm ki, ölkəniz artıq bir ildir ki, birtərəfli olaraq çinli turistləri viza almaq tələbindən azad edib. İndi isə bu səfərdə bizimlə ən son xəbərləri paylaşmaq istərdinizmi?*

– Bəli, bu gün hər bir pasport sahibi, hər bir sıravi vətəndaş üçün tamamilə vizasız rejimin tətbiq olunması ilə bağlı sənədin imzalanması möhtəşəm bir xəbərdir. Bu qarşılıqlı addımı atdıqları üçün çinli dostlarımıza minnətdarıq. Siz də düzgün qeyd etdiyiniz kimi, keçən il biz birtərəfli qaydada Çin vətəndaşlarını viza almaq tələbindən azad etdik. Bu, ilk dəfə idi ki, baş verirdi.

*– Azərbaycan ilk dəfədir ki, xarici ölkəyə qarşı belə bir təşəbbüslə çıxış edir?*

– İlk dəfədir ki, birtərəfli qaydada.

*– Deməli, Çinə həqiqətən də xüsusi münasibət göstərilmişdir.*

– Bəli, bu, doğrudur. Bəli, elədir ki, var. Adətən, biz bunu həmişə ikitərəfli əsasda edirdik. Lakin bu halda biz dostluğumuzu və səmimiliyimizi nümayiş etdirmək üçün bunu birtərəfli qaydada etdik. Bu gün, həmçinin həmkarlarımla aviareyslərin sayının artırılması barədə danışdıq. Hazırda düşünürəm ki, həftədə 6 və ya 7 aviareys həyata keçirilir. Ötən il viza rejimi ləğv ediləndən sonra Çindən bundan demək olar ki, iki dəfə çox turist qəbul etdiyimizi nəzərə alsaq, ümidvaram, bu rəqəm artacaq. Bu gün mən öyrəndim ki, 150 milyon çinli xaricə səfər edir. Görüşlərimdən birində söylədim ki, onların cəmi 1 faizi Azərbaycana gəlsə, bizim üçün yetərli olacaq. Çünki, əlbəttə, biz turizm sektorumuzu inkişaf etdirmək istəyirik. Bizim coğrafi üstünlüklərimiz var – Xəzər dənizi, xizək kurortları, meşələr və çaylar və hətta yarımsəhra ərazimiz var. Ona görə də hər kəs zövq almaq üçün bir məkan tapa bilər. Bundan əlavə, çox yaxşı mətbəximiz, qonaqpərvər insanlarımız var. Sadəcə olaraq bizim özümüzü təqdim etməyə, ölkənin təqdimatını etməyə və sözsüz ki, dost ölkələrlə viza rejimini aradan qaldırmağa ehtiyacımız var. Bu gün həqiqətən də tarixi gündür və Azərbaycan vətəndaşları üçün çox yaxşı xəbərdir, çünki onlar sadəcə olaraq bilet alıb Çinə gələ bilərlər.

*– Bəs, əksinə necə? Azərbaycanlılar və ya Azərbaycan vasitəsilə səyahət edən digər insanlar üçün Çinə gəlib, hər şeyi öz gözləri ilə görmək, təhsil almaq, işləmək nə dərəcədə vacibdir? Əslində, mən Çinə "Bir kəmər, bir yol" vasitəsilə yay düşərgəsinə gələn və burada qalan gənc insan tanıyıram. O, fəlsəfə doktoru dərəcəsinə yiyələnmək üçün təhsil alır, özü üçün yeni gələcək qurur. Əks tərəfdə vəziyyət necədir?*

- Sözsüz ki, biz daha çox azərbaycanlının Çinə səfər etməsini, təhsil almaq, işləmək üçün gəlməsini istəyirik. Bu gün biz, həmçinin təhsil sahəsində əməkdaşlığımızı müzakirə etdik. Ölkələrimizdə hər iki ölkədən təhsil alan 100-dən çox tələbə var.

*– Bu, çox azdır.*

– Bəli, çox azdır. Əminəm ki, xüsusilə texnologiyanın inkişafında, süni intellekt sahəsində potensialı nəzərə alsaq, onların sayı artacaq. Biz qlobal trendlə ayaqlaşmaq istəyirik. Düşünürəm ki, Azərbaycandan daha çox sayda tələbənin buraya gəlməsi üçün böyük imkan var. Həmçinin, zənnimcə, Azərbaycanda Çin-Azərbaycan Universitetinin yaradılması barədə düşünmək yaxşı fikir olar. Hazırda biz bu imkanın

dəyərləndirilməsi mərhələsindəyik. Lakin sözsüz ki, insanlar nə qədər çox səyahət edirlərsə, mədəniyyət, xalq barədə nə qədər çox bilirlərsə, ölkələr arasında əlaqələr bir o qədər də daha sıx olur. Çünki, bəli, biz siyasi qərarlar qəbul edirik, strateji tərəfdaşlarıq. Biz liderlər və hökumətlər olaraq dostuq. Lakin bizim xalqlarımızın da daha çox yaxınlaşmasına, onların da dost olmasına ehtiyacımız var.

*– Sözsüz. Söhbət təkcə insanların səyahətindən getmir, həm də yüklərin daşınmasından gedir. İcazə verin, bir qurtum da içim, həqiqətən də ləzizdir. Düşünürəm ki, kiçik bir limon dilimi və bir az şəkərlə daha yaxşı olar. Ola bilsin ki, daha çox olacaq. Yeri gəlmişkən, bunlar Azərbaycan məhsullarıdır.*

– Bəli, bilirəm.

*– Azərbaycan çayı, fərqli bir tam.*

– Yeri gəlmişkən, Azərbaycandan gətirilmiş mineral su da çox yaxşıdır.

*– Budur?*

– Bəli, sağlamlıq üçün çox yaxşıdır.

*– İstisu?*

– İstisu. İsti su deməkdir. Demək olar ki, qaynar bulaqdan çıxır.

*– Yaxşı. Mən əminəm ki, çinlilər bu məhsulu tapmaq üçün öz Taobao və JD hesablarında araşdırıb baxacaqlar. Bəli, həqiqətən də demək istəyirəm ki, malların daşınması baxımından, Azərbaycan Çinlə əlaqələri xeyli inkişaf etdirib. Çin Azərbaycanın 5 ən böyük ticarət tərəfdaşından biridir.*

– Artıq 4 ən böyük tərəfdaşından biridir.

*– Yaxşı, irəliləyiş var. Çin ən böyük ixracatçıdır və ya bir nömrəli idxal mənbəyidir.*

– Tamamilə doğrudur.

*– Siz "Bir kəmər, bir yol" layihəsi çərçivəsində elektron ticarətə, infrastruktur bağlantılarına, malların daşınmasına necə baxırsınız? Bu, hər iki tərəfdə insanlara və şirkətlərə nə fayda verəcək?*

– Bəli, söylədikləriniz tamamilə vacibdir. Çünki Çin həqiqətən də idxal baxımından bir nömrəli və ticarət dövriyyəsi baxımından 4-cü tərəfdaşdır. Biz Çində 6 Azərbaycan Ticarət Evi açmışıq. Biz artıq Çinə şərab ixrac etməyə başlamışıq. Sizin bazarınızda daha çox payımızın olmasını istəyirik. "Bir kəmər, bir yol" layihəsinə gəlincə, bizim üçün bu təşəbbüs yalnız bir tranzit marşrutu deyil. Biz bu marşrut üzərində şirkətlər qurmaq istəyirik, çünki bizim coğrafi mövqeyimiz əlverişlidir. Biz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşirik. Bağlantılara gəlincə, biz artıq bütün infrastrukturu – dəmir yollarını, dəniz limanlarını, magistral yolları, 8 beynəlxalq hava limanı inşa etmişik. Biz qlobal miqyasda ən böyük yükdaşıma, hava yolu ilə yükdaşıma şirkətlərindən birinə sahibik. Beləliklə, hədəfimiz bu marşrut üzərində biznes qurmaqdır. Əlbəttə ki, biz Çin şirkətlərinə arxalanırıq. Cəmi bir həftədən də az vaxt bundan əvvəl biznes-forumda hər iki ölkədən müxtəlif şirkətlər iştirak edirdilər, onlar Azərbaycana 300 milyon dollardan artıq həcmdə investisiya yatırılmasına dair sazişlər imzaladılar. Bu gün mən həmkarlarıma söylədim ki, bu, bizim üçün yaxşı göstəricidir. Lakin düşünürəm ki, bu göstərici daha böyük ola bilər.

*– Fikrinizdə 2 illik, 5 illik perspektivdə bir rəqəm varmı?*

– Mən milyardlar barədə danışmaq istəyirəm. Düşünürəm ki, bu, tamamilə realdır. İndi bizim hədəfimiz bərpaolunan enerji, nəqliyyat və istehsaldır. Bizim bacarıqlı işçi qüvvəmiz var. Əhalimizin sayı artır, bazarımız böyüyür. Beləliklə, vergilər və müxtəlif hüquqi tələblər baxımından Azərbaycanda biznes qurmaq çox asandır. Çoxlu stimullaşdırıcı amillər var. Bizim sadəcə olaraq tərəfləri bir araya gətirməyimizə və Azərbaycanın biznes imkanları barədə çinli iş adamlarına daha çox məlumat çatdırmağımıza ehtiyac var.

*– Qeyd etdiyiniz kimi, Azərbaycan "Bir kəmər, bir yol" təşəbbüsünü açıq şəkildə dəstəkləyən ilk ölkələrdən biridir. Bu təşəbbüs ikinci onilliyə qədəm qoydu və hələ görüləcək çox iş var. Sizin gələcəyə dair baxışınız necədir?*

– Biz artıq qonşularımızla birlikdə yüklərin keçidini xeyli asanlaşdırmaq və sürətləndirmək üçün birgə müəssisə yaratmışıq. Məsələn, bu gün nəqliyyat infrastrukturu və həmçinin gömrüyümüzdə idarəetmədə islahatlar, o cümlədən rəqəmsallaşma ilə əlaqədar Çindən Azərbaycan vasitəsilə Qara dənizə yüklərin daşınma müddəti cəmi 10 gündən 12 günədəkdir. Ötən il Çinlə Azərbaycan arasında tranzit daşımalarında 86 faiz artım olub. Bu gün söylədiyim kimi, bu, yalnız başlanğıcdır. Düşünürəm ki, Azərbaycan vasitəsilə nəqliyyat marşrutları həqiqətən də bu gün mövcud olan digər marşrutlar arasında ən təhlükəsiz, ən qısa və ən cəlbedici marşrutlardan biri olacaq.

*– Sizə uğurlar arzulayıram və inanıram ki, Çin şirkətləri Azərbaycanın təklif etdiyi üstünlükləri qiymətləndirəcək. Azərbaycan Avropa ilə Asiyanı birləşdirən çox strateji coğrafiyada yerləşir, eləcə də Mərkəzi Asiya və Qərbi Çin üçün çox mühüm birləşmə nöqtəsidir. Siz Azərbaycanın bu regiondakı üstünlüklərini və oynamaq istədiyi rolu necə görürsünüz? Ölkənizin nöqteyi-nəzərindən regionda sülhü və inkişafı təbliğ etmək üçün hansı işləri görmək istəyirsiniz?*

- Siz tamamilə doğru qeyd etdiniz ki, biz Asiya və Avropa, habelə Şimal və Cənub arasında yerləşirik və hər iki nəqliyyat dəhlizi Azərbaycan ərazisindən keçir. Ancaq həqiqətən tranzit ölkəyə çevrilmək üçün qonşu ölkələr və onların qonşuları ilə yaxşı münasibətlərə malik olmaq lazımdır. Məqsədimiz məhz budur və zənnimcə, biz buna nail olmuşuq.

*– Siz qonşu ölkələr və onların qonşuları haqqında bəhs edirsiniz. Bu, çox vacib amildir və mühüm bir platforma olan Şanxay Əməkdaşlıq Təşkilatına daha bir ölkə üzv olur. Azərbaycan da təşkilatın dialoq üzrə*

*tərəfdaşıdır. Cari ildə Çin təşkilatda sədrliyi öz üzərinə götürür. Region və daha geniş coğrafiya üçün belə bir təşkilatın rolunu nədə görürsünüz? Şanxay Əməkdaşlıq Təşkilatının şüarı olan və qarşılıqlı etimad, qarşılıqlı mənfəət, bərabərlik, məsləhətləşmə, sivilizasiyaların fərqliliyinə hörmət və vahid inkişafın təmin edilməsini tərənnüm edən "Şanxay Ruhu"nun əhəmiyyətini necə qiymətləndirirsiniz?*

– Bütün sadaladıqlarınız bizim siyasətimizin və gündəliyimizin tərkib hissəsidir. Azərbaycan çoxtərəfliliyin güclü tərəfdarıdır. Əlbəttə, biz Şanxay Əməkdaşlıq Təşkilatına daha yaxın olmaq istəyirik. Prezident Si Cinpin məni Zirvə toplantısına dəvət edib və bir neçə aydan sonra mən yenidən Çinə səfər edəcəyəm.

*– Bizi məlumatlandırdığınıza görə sağ olun.*

– Bəli, mən hesab edirəm ki, bizim təşkilatla yaxınlığımız həm təşkilat, həm də Azərbaycan üçün faydalı olar. Çünki biz Xəzərin qərb sahilində yerləşən ölkəyik. Eyni zamanda, Azərbaycan güclü siyasi münasibətlərə və nəqliyyat layihələrinə malik Cənubi Qafqaz ölkəsidir. Çinlə strateji tərəfdaş olmağımız Şanxay Əməkdaşlıq Təşkilatının çətiri altında əməkdaşlığımız baxımından bizə bir çox imkanlar açır.

*– Ölkəniz, həmçinin bu gün dünya üçün vacib olan Qlobal Cənubun üzvüdür. Çin və Azərbaycan kimi ölkələrin səylərini birləşdirərək çoxtərəfli müstəvidə əməkdaşlıq etmək potensialını necə qiymətləndirirsiniz? Çünki biz birtərəfli addımların və birtərəfli tendensiyaların şahidi oluruq. Potensial nədən ibarətdir və birlikdə biz hansı rolu oynaya bilərik?*

– Zənnimcə, biz proaktiv olmağa, yəni, öncədən tədbir görməyə davam etməliyik. Azərbaycan Qlobal Cənubun fəal üzvüdür. Biz bunu yalnız Qoşulmama Hərəkatındakı sədrliyimiz deyil, həmçinin COP29-dakı sədrliyimiz zamanı nümayiş etdirdik. Azərbaycan COP29 konfransına ev sahibliyi etdi. Orada şəxsən mən Qlobal Cənubun maraqlarını müdafiə etdim və iqlim dəyişikliyi ilə əlaqədar Qlobal Cənuba aid bəzi dövlətlərin mövcudluğuna olan təhlükələrlə bağlı narahatlığı ifadə etdim.

Biz Azərbaycanda Çini Qlobal Cənubun lideri hesab edirik və burada bu prinsiplər əsasında ölkələrin birləşdirilməsi baxımından Çin xüsusi rol oynayır.

Qoşulmama Hərəkatının "Bandunq prinsipləri" sizin dediklərinizi tam əks etdirir. Bununla yanaşı, suverenlik, ərazi bütövlüyünə hörmət, daxil işlərə qarışmama, bərabərlik, çoxtərəflilik və heç bir ölkə və ya ölkələr qrupunun digərləri üzərində dominantlığına yol verilməmə prinsipləri bizim üçün vacibdir. Biz onları öz milli maraqlarımız baxımından müdafiə edirik və beynəlxalq birliyin fəal üzvüyük.

*– Prezident Əliyev, çox təşəkkür edirəm.*

– Sağ olun.

*– Çox məmnun oldum, təşəkkür edirəm.*

– Sağ olun.

## *Azərbaycan-İran biznes forumunda İlham Əliyevin nitqi*

– Hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün İran İslam Respublikasının Prezidenti cənab Pezeşkianın Azərbaycana rəsmi səfəridir. Deyə bilərəm ki, səfər çox uğurlu keçir. Səfər zamanı əldə edilmiş razılaşmalar, imzalanmış sənədlər bir daha Azərbaycan-İran dostluğunu, qardaşlığını təsdiqləyir. Bir sözlə, bu rəsmi səfərin çox gözəl siyasi nəticələri vardır. İmzalanmış sənədlər arasında xüsusilə prezidentlər tərəfindən imzalanmış Birgə Bəyannaməni qeyd etmək istərdim. Çox ciddi sənəddir və gələcək əməkdaşlıq üçün bizə yol göstərən sənəddir. Əlbəttə, biz istərdik ki, ticarət, iqtisadi əməkdaşlığımız da eyni nəticələri hasil etsin. Əfsuslar olsun ki, bu günə qədər bu, belə olmayıb. Ancaq əminəm ki, bu səfərdən sonra və biznes-forumun nəticələrindən irəli gələrək biz növbəti illərdə ticarət, iqtisadi, sərmayə qoyuluşu və digər bu kimi sahələrdə ciddi irəliləyiş görəcəyik. Mən şadam ki, hörmətli cənab Prezidentlə bərabər Azərbaycana böyük biznes heyəti gəlib. İrandan gələn 120-dən çox iş adamı əminəm ki, Azərbaycanda öz həmkarları ilə artıq təmaslar qurublar və biznes-forum nəticəsində real layihələr meydana gələcək.

Əminəm ki, növbəti dəfə biz biznes-forum keçirəndə bu toplantı salonu tam dolu olacaq. Halbuki indi də nümayəndələrin sayı az deyil, biznes-forumda 400-dən çox iştirakçı vardır. Bu onu göstərir ki, qarşılıqlı maraq kifayət qədər böyükdür. Təbii ki, siyasi əlaqələr güclü olanda biznes dairələri də öz fəaliyyətlərini buna uyğun şəkildə qururlar və hesab edirəm ki, növbəti illərdə ticarət dövriyyəsinin artırılması üçün konkret addımlar atılmalıdır. Bu gün biz statistik rəqəmlərə baxdıqda görürük ki, iki ölkə arasındakı ticarət dövriyyəsi heç bir milyard dollara çatmır və əlbəttə ki, bu, bizi qane edə bilməz. Ona görə ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, müştərək müəssisələrin yaradılması və digər buna oxşar təşəbbüslər əlbəttə ki, təqdirəlayiq olacaq. Hesab edirəm ki, burada aparıcı rol Azərbaycan-İran hökumətlərarası komissiyaya məxsusdur. Mən komissiyanın fəaliyyətini yüksək qiymətləndirirəm. Komissiyanın həmsədrləri, üzvləri müntəzəm olaraq görüşürlər və hər bir görüşün böyük əhəmiyyəti var.

Azərbaycan və İran, eyni zamanda, önəmli beynəlxalq layihələrdə iştirak edir, o cümlədən Şimal-Cənub nəqliyyat dəhlizi üzrə biz sıx əməkdaşlıq edirik.

Biz istəyirik ki, bu, sadəcə, nəqliyyat dəhlizi olmasın, həm Azərbaycan, həm də İran ərazisində yol boyunca yeni bizneslərin açılması, yeni sənaye müəssisələrinin yaradılması üçün imkan yaratsın. Bunun üçün kifayət qədər imkanlar var. Çünki hər iki ölkənin çox böyük iqtisadi potensialı var, hər iki ölkədə sahibkarlar sinfi kifayət qədər fəaldır. Sadəcə olaraq, biz gərək iş adamlarımızı bir araya gətirək, necə ki, bu gün biz bunu edirik. Onlara konkret layihələr təqdim olunmalıdır. Ölkələrimizin vergi sistemi, tariflər, sərmayə iqlimi, biznes sahəsindəki qanunvericilik – bütün bunlar iki ölkənin iş adamlarına aydın olmalıdır. Yəni, qaydalar nədir, qanunlar nədir? Ondan sonra əlbəttə ki, böyük sərmayə qoyuluşundan söhbət gedə bilər. Mən hesab edirəm ki, uzun fasilədən sonra Azərbaycan və İran iş adamlarının belə mötəbər toplantısı, xüsusilə prezidentlərin iştirakı ilə biznes-forumun keçirilməsi çox ciddi bir addımdır və əlbəttə ki, biz iş adamlarımızdan konkret nəticələr gözləyirik.

Azərbaycanda dövlət xətti ilə bir çox infrastruktur layihələri həyata keçirilir. Biz İran şirkətlərini bu layihələrdə iştirak etməyə dəvət edirik. Burada həm dəmir yolları, avtomobil yolları, kommunikasiya xətləri, elektrik xətləri - bütün bu layihələr bizdə bu gün əsas gündəlikdədir. Eyni zamanda, erməni işğalından azad edilmiş ərazilərdə hazırda geniş quruculuq işləri gedir. Biz kəndləri, şəhərləri demək olar ki, sıfırdan qururuq. Çünki işğal dövründə Ermənistan bizim bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Ona görə orada böyük iş imkanları yaradılır və istərdim ki, İrandan, bizim dost, qardaş ölkədən olan biznesmenlər bu istiqamətdə də işləsinlər.

Biz bu gün müzakirə etdiyimiz məsələlər arasında elektroenergetika məsələlərinə də böyük diqqət ayırdıq. Burada təkcə elektrik stansiyalarının tikintisi yox, eyni zamanda, ötürücü xətlərin tikintisi məsələsi nəzərdə tutulur. Burada da bu sahədə təcrübəsi olan şirkətlər üçün yaxşı fürsətlər, yaxşı imkanlar yaradılır. Biz gələcəkdə iki ölkə arasında həm ikitərəfli, həm də çoxtərəfli – qonşu ölkələrlə birlikdə formatda enerji mübadiləsi layihələrinə də baxa bilərik. Daha doğrusu, bu gün artıq bu, gündəlikdə duran məsələlərdən biridir. Azərbaycanda yaşıl enerjinin istehsalı prosesi artıq başlamışdır və bunun böyük gələcəyi var. Biz beş ildən sonra 6500 meqavat gücündə Günəş, külək və su enerji potensialımızı ortaya qoyacağıq və bunun böyük hissəsi ixracyönümlü enerji növləridir. Bu istiqamətdə əlbəttə ki, indidən hazırlıq işləri aparılmalıdır. Eyni zamanda, Araz dəhlizi layihəsi böyük diqqət cəlb edir, həm bölgəmizdə, həm dünyada, bu layihə ilə bağlı müxtəlif fərziyyələr, müxtəlif şayiələr gəzir. Əslində, buna heç bir əsas yoxdur. Çünki bu, sadəcə olaraq, yeni bir nəqliyyat, bağlantı layihəsidir və Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə İran ərazisindən birləşdirən bir layihədir. Burada, eyni zamanda, böyük tranzit imkanları yaranacaq. Bu, sadəcə olaraq, bu bölgənin layihəsi deyil. Biz hesab edirik ki, bu, Asiyadan Avropaya uzanan nəqliyyat dəhlizinin bir qolu olmalıdır. Bir tərəfi Aralıq dənizinə, bir tərəfi Fars körfəzinə uzanan yeni nəqliyyat bağlantı dəhlizi olmalıdır və bir çox ölkələr bundan fayda götürəcək. Təbii olaraq, bu layihənin ərsəyə gəlməsində əsas rol yenə də bizim ölkələrimizin üzərinə düşür və bu istiqamətdə Azərbaycan tərəfindən aparılan işlər demək olar ki, tamamlanıb. Araz çayı üzərində Azərbaycan tərəfinə düşən körpünün inşası demək olar ki, hazırdır, o cümlədən sərhəd-keçid məntəqəsinin inşası prosesi gedir. Əgər hər şey istədiyimiz kimi olsa, bu ilin sonuna qədər avtomobil körpüsü istismara verilə bilər.

O ki qaldı, dəmir yolu körpüsünə, bu məsələ də müzakirə mövzusudur. Biz dəmir yolumuzu artıq gələn il İran sərhədinə, Zəngilan-Ağbənd istiqamətinə çatdıra bilərik və təbii olaraq İran ərazisində dəmir yolu inşası da nəzərdə tutularsa, o zaman bu da beynəlxalq nəqliy yat dəhlizi olacaq. Yəni, çox geniş perspektivlər açılır və bütün bunları həyata keçirmək üçün əsas amillər var. Birincisi, Azərbaycan-İran arasındakı dostluq, ikincisi, qarşılıqlı siyasi iradə, üçüncüsü bu layihələrin bir çox ölkələrə xidmət göstərməsi və qarşılıqlı fayda verməsi məsələsi. Bu, yəni, əsas məsələlərdən biri olan layihədir.

Təbii ki, kiçik və orta sahibkarlığın inkişafı da həmişə bizim diqqət mərkəzində olub və hesab edirəm ki, biznes dairələri, Azərbaycan, İran iş adamları rəhbərlikdən, yəni siyasi rəhbərlikdən gələn bu mesajları düzgün qəbul edəcəklər və öz fəaliyyətlərində bunu rəhbər tutaraq, konkret iş görməklə bizim ticari-iqtisadi əlaqələrimizi daha da gücləndirəcəklər. Yenə də ümid edirəm ki, növbəti dəfə biz burada görüşəndə bu salon tam dolu olacaq.

Bir daha xoş gəlmisiniz, hörmətli cənab Prezident, əziz qardaşım.

Hörmətli iranlı dostlarımıza da xoş gəlmisiniz deyirəm. Sağ olun.

## *İlham Əliyev “Vietnam News Agency” agentliyinə müsahibə verib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Sosialist Respublikasının “Vietnam News Agency” agentliyinə müsahibə verib.

*– 2025-ci il mayın 7-8-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam Azərbaycan Respublikasına dövlət səfəri edəcək. Siz ölkələrimiz arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın indiki vəziyyətini necə qiymətləndirirsiniz?*

– Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min

Azərbaycan SSR-ə səfər edib. O dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsini tutan Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Şübhəsiz ki, bu əlamətdar səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib.

Mənim 2014-cü ildə ölkənizə dövlət səfərim və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri iki dövlət arasında münasibətlərdə yeni səhifə açdı və onların gələcək inkişafına təkan verdi. Prezident Çıonq Tan Şanqın səfəri çərçivəsində rəsmi şəxslərlə yanaşı, neft-qaz, energetika, inşaat, informasiya-kommunikasiya, maliyyə, sənaye, ticarət, turizm, nəqliyyat, əczaçılıq və digər sahələrin işgüzar dairələrinin iştirakı ilə Birinci Azərbaycan-Vyetnam biznes forumu keçirildi.

Müxtəlif sahələrdə əməkdaşlığın inkişafı, qarşılıqlı fəaliyyətin yeni istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası yaradılıb. Komissiya mütəmadi dialoq və birgə təşəbbüslərin səmərəli reallaşdırılmasında mühüm platformadır.

Xarici İşlər nazirliklərinin xətti ilə siyasi məsləhətləşmələr aparılır. Onlardan sonuncusu bu il aprelin ikinci yarısında keçirilib. Hər iki ölkənin parlamentlərində parlamentlərarası əlaqələr üzrə işçi qrupları fəaliyyət göstərir.

Ölkələrimiz ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur.

Ölkələrimiz neft sahəsində də qarşılıqlı fəaliyyət göstərir. 2019-cu ildə Vyetnamın "Binh Son Refinery and Petrochemical Company" ilə SOCAR arasında müqavilə imzalanıb. Neft sahəsində əməkdaşlığımız möhkəm tarixi təmələ əsaslanır – çünki Azərbaycan mütəxəssisləri Vyetnamın neft sənayesinin yaradılmasında və inkişafında əsas rol oynayıblar. Təsadüfi deyil ki, 1981-ci ildə Sovet İttifaqının köməyi ilə yaradılan "Veso Petrol" müştərək müəssisəsinin ilk baş direktoru azərbaycanlı Cəlal Məmmədov olub.

Mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlığımızın kökləri sovet dövrünə gedib çıxır, amma son illərdə daha da inkişaf edib. 1955-ci ildə Azərbaycan bəstəkarı Qara Qarayev Vyetnam müharibəsi haqqında ilk sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı bəstələyib, onun premyerası 2023-cü ildə Hanoyda olub. 1959-1962-ci illərdə Prezident Ho Şi Minin dəvəti və sovet hökumətinin təklifi əsasında azərbaycanlı rejissor Əjdər İbrahimov Vyetnamda kino məktəbinin yaradılmasında fəal iştirak edib, orada ustad dərsləri keçib və üç film çəkib. O, bu xidmətlərinə görə Vyetnam Sosialist Respublikasının ali "Əmək" ordeni ilə mükafatlandırılıb.

Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur. Mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər. 2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi.

Ölkələrimiz arasında mədəni əlaqələrdən söz düşmüşkən qeyd etmək istərdim ki, onlar müxtəlif təşəbbüslər və layihələr vasitəsilə inkişaf etməkdə və möhkəmlənməkdə davam edir. Məsələn, 2024-cü ildə Bakıda sizin əsgərlərin Vyetnam müharibəsində qəhrəmanlığına həsr edilmiş "Əfsanə yaradanlar" filminin nümayişi oldu. Həmin il paytaxtımızda Vyetnam Lideri Ho Şi Minin Azərbaycana səfərinin 65 illiyi münasibətilə Vyetnam Günləri keçirildi.

Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir. Bu ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib.

Beləliklə, Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir.

*– İkitərəfli münasibətlərin yeni səviyyəyə qaldırılması kontekstində Vyetnam Liderinin Azərbaycana qarşıdakı səfəri nə kimi əhəmiyyətə malikdir?*

– Məlum olduğu kimi, cənab Lamın qarşıdakı səfəri onun Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi qismində ilk səfəri olacaq. Tərəflərin ikitərəfli münasibətlərin dərinləşdirilməsi səylərini əks etdirən və qarşılıqlı fəaliyyətdə yeni istiqamətlər açan bu hadisə böyük siyasi əhəmiyyətə malikdir. Bu kontekstdə səfəri haqlı olaraq Azərbaycan-Vyetnam əməkdaşlığının inkişafında mühüm mərhələ kimi qiymətləndirmək olar.

Səfər proqramına ikitərəfli gündəliyin əsas aspektlərini əhatə edən məsələlərin geniş dairəsi daxildir. Bu, aktual mövzulara dair hərtərəfli fikir mübadiləsi aparmağa, yanaşmaları razılaşdırmağa və gələcəkdə qarşılıqlı fəaliyyətin perspektiv istiqamətlərini müəyyənləşdirməyə imkan verəcək. Siyasi dialoqa, iqtisadi-ticari əlaqələrə, həmçinin humanitar və mədəni mübadiləyə xüsusi diqqət yetiriləcək.

Bundan başqa, partiyalararası dialoqun inkişafına ayrıca əhəmiyyət verilir. Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında əməkdaşlıq müsbət dinamika nümayiş etdirir. Qarşıdakı səfər siyasi və ideoloji zəmində qarşılıqlı fəaliyyətin yüksək səviyyəsinin əlavə təsdiqi olacaq.

İnanıram ki, cənab Lamın səfəri daha fəal əməkdaşlığa mühüm təkan olacaq, Azərbaycanla Vyetnam arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət ruhunda inkişafı üçün yeni üfüqlər açacaq.

*– Vyetnam ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişafı üçün hansı perspektivlər və potensial mövcuddur?*

– Hesab edirəm ki, ölkələrimiz ən müxtəlif sahələrdə əməkdaşlıq potensialını bundan sonra da inkişaf etdirmək üçün bütün imkanlara malikdir. İqtisadi-ticari münasibətlərdən danışarkən qeyd etmək lazımdır ki, bu gün təkcə iqtisadi artımı stimullaşdıracaq deyil, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da öz növbəsində iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri turizmdir. Bakı ilə Vyetnam şəhərləri arasında birbaşa hava əlaqəsinin yaradılması turizm proqramlarının inkişafı ilə paralel surətdə iki ölkənin vətəndaşlarının bir-birinin mədəniyyətinə və tarixinə marağının artmasına kömək edəcək. Müştərək mədəniyyət layihələrinin intensivləşdirilməsi, səhiyyə və ekologiya sahələrində humani-tar missiyalarla bağlı proqramların və birgə təşəbbüslərin inkişafı – bütün bunlar ölkələrimiz üçün qarşılıqlı maraq doğuran istiqamətlərdir.

Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər. Bu, akademik mübadilə, elmi tədqiqatlar və Azərbaycanla Vyetnam arasında şəxsi təmasların möhkəmləndirilməsi üzrə imkanları yaxşılaşdıracaq. Mübadilə proqramlarının reallaşdırılması, həmçinin elmi-texniki sahədə əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün daha bir perspektivli istiqamətə çevrilə bilər.

## *30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində İlham Əliyevin nitqi*

– Xanımlar və cənablar, sabahınız xeyir olsun.

Əvvəlcə, bütün qonaqlarımızı salamlayıram və bizimlə birlikdə olduqlarına görə təşəkkür edirəm. Eyni zamanda, təşkilatçılara da Azərbaycanın enerji gündəliyini davamlı olaraq dəstəklədiklərinə görə minnətdarlığımı bildirirəm.

Artıq qeyd edildiyi kimi, ilk neft-qaz sərgisi 1994-cü ildə təşkil edilmişdir. Həmin sərgidən dərhal sonra Azərbaycan beynəlxalq neft şirkətləri konsorsiumu ilə sonralar "Əsrin müqaviləsi" adlandırılan, regionda bütün geosiyasi və geoiqtisadi vəziyyəti dəyişdirən sazişi imzaladı.

Bunlar Prezident Heydər Əliyevin baxışı sayəsində mümkün oldu. O, aydın şəkildə anlayırdı ki, xüsusilə də enerji sahəsində geniş beynəlxalq əməkdaşlıq olmadan – nəzərə alsaq ki, o zaman bizim iqtisadiyyatımızın ən cəlbedici sahəsi məhz enerji idi, – Azərbaycan çətinliklərin öhdəsindən gələ bilməyəcək və həqiqi müstəqil dövlət ola bilməyəcək.

Çünki bu gün həmin dövrə nəzər salanda aydın olur ki, müstəqillik uğrunda yol həmin tarixi məqamdan başladı. O zaman Azərbaycan müəyyən obyektiv səbəbdən xarici investorlar üçün riskli ölkə hesab edilirdi. Ölkədə vətəndaş qarşıdurması yeni başa çatmışdı, iqtisadiyyat iflic vəziyyətində idi, inflyasiya 1000 faizlə ölçülürdü və yoxsulluq hökm sürürdü. Bununla yanaşı, ərazilərimizin Ermənistan tərəfindən işğalı nəticəsində 100 minlərlə azərbaycanlı etnik təmizləməyə məruz qalmışdı. Təsəvvür edirsiniz ki, gələcəklə bağlı nə dərəcədə qaranlıq mənzərə yaranmışdı?! Bu gün isə onu görürük ki, bizim enerji siyasətimiz iqtisadi və siyasi uğurumuzun aparıcı qüvvəsidir.

Bu gün Azərbaycan sabit siyasi sistemə və inkişaf etməkdə olan iqtisadiyyata malik ölkədir. Neft və qazın bizim ÜDM-də payı təqribən 30 faizdən artıqdır. Azərbaycan genişmiqyaslı islahatlar həyata keçirir. Bizim iqtisadiyyatımız özünü təmin edir. Bizim xarici borcumuzun səviyyəsi ÜDM-in 7 faizindən azdır və maliyyə ehtiyatlarımız borcumuzu 14 dəfə üstələyir. Biz milli sərvətlərin düzgün bölüşdürülməsi nəticəsində yoxsulluğun azaldılmasına müvəffəq olduq və bu gün yoxsulluq səviyyəsi 5 faizə bərabərdir.

Biz insan kapitalına və təhsilə ciddi maliyyə vəsaitləri yatırdıq. Savadlılıq səviyyəsi 100 faizə bərabərdir. Azərbaycan regionda yeni mühit formalaşdırdı.

Açıq dənizə çıxışı olmayan ölkə olduğumuza baxmayaraq, biz Avrasiyanın vacib nəqliyyat qovşaqlarının birinə çevrilmişik. Çünki biz infrastruktur layihələrinə çox böyük sərmayə yatırdıq. Bununla yanaşı, bizim enerji layihələrimiz sayəsində Avrasiyanın enerji xəritəsi yenidən tərtib edilib.

Biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir.

Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır.

Ötənilki "Bakı Enerji Həftəsi"ndəki çıxışım zamanı mən iştirakçılara məlumat verdim ki, o zaman biz səkkiz ölkəyə təbii qaz ixrac edirdik. Bu gün isə deyə bilərəm ki, həmin ölkələrin sayı 12-yə çatıbdır və bu, hələ də son deyil.

Biz ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar və sərmayə qoyuluşu mərhələsindəyik. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilmişdir.

Bütün bunlar müsbət dinamikadır və biz enerji sahəmizin inkişafının təkcə Azərbaycanın potensialına deyil, həmçinin qonşuluğumuza da töhfə verdiyini görürük.

Beləliklə, enerji resursları düzgün idarə edilirsə, investorlar, tranzit ölkələr və istehsalçılar arasında əməkdaşlıq məhz bu səviyyədədirsə, o zaman uğur əldə edilir. Hər kəs üçün uğurlu vəziyyət yaranır və biz hər zaman istehsalçılar, tranzit ölkələr və istehlakçılar arasında maraqların balansına diqqət yetirmişik. Çünki zənnimcə, bu amil gələcək enerji əməkdaşlığı baxımından olduqca vacibdir.

Bizim təbii qaz ixracımız ötən il 25 milyard kubmetrə çatmışdır. Biz hasilatı artırmaq niyyətindəyik, çünki artıq müqavilələr imzalanıbdır və proses getməkdədir. İşlər planlarımıza uyğun getsə, biz 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artıracağıq və o, xarici bazarlara təklif ediləcəkdir.

Bununla yanaşı, imzalanmış müqavilələrə və sərmayə öhdəliklərinə əsasən, biz 2030-cu ilədək 6,5 giqavat həcmində istehsal edilə biləcək bərpaolunan enerji gücünə malik olacağıq. Bu da bizim ümumi enerji istehsalımızın 35 faizdən çoxunu təşkil edəcək.

Yəni, Azərbaycanın yaşıl enerji gündəliyi olduqca iddialıdır. Neft və qazla zəngin olan ölkənin xarici investorlarla bərabər yaşıl enerjiyə sərmayə qoyması bizim məsuliyyətimizi nümayiş etdirir.

Bütün bu yaşıl enerji potensialımız sayəsində biz, əlbəttə ki, Azərbaycanın elektrik enerjisinə artan tələbatını təmin edəcəyik, əsasən bərpaolunan enerji hesabına təmin edəcəyik. Bunun nəticəsində bir neçə milyard kubmetr qaza qənaət ediləcəkdir və bu həcm ixrac oluna biləcək.

Əlbəttə, ola bilər ki, COP29-un sədri olaraq neft və qaz haqqında danışmağımız bir o qədər də uyğun deyil. Ancaq bizim COP29-la bağlı gündəliyimiz çox praqmatik idi. Biz populizmdən, yalançı narrativlərdən uzaq idik. Həmin gündəlik ölkələrin qazıntı yanacağına olan tələbatının praqmatik hesablamalarına əsaslanır.

Bəzi ölkələrdə bu gün qazıntı yanacağı növləri ilə yaşıl enerji arasında olan balans nəzərə alınmır. Nəticədə genişmiqyaslı enerji kəsilməsi, enerji sisteminin çökməsi baş verir. Həmçinin burada daha mürəkkəb ssenarilər də baş verə bilər. Yəni, bəzi müəyyən addımları şərtləndirən meyillərə rəğmən həmin balansın qorunması düzgün siyasətdir.

Azərbaycana gəldikdə, biz təbii qazın hasilatının həcmini artırırıq. Çünki buna ehtiyacı olan ölkələr var və biz bu tələbatı ödəməliyik. Eyni zamanda, biz tərəfdaşlarımızla birlikdə yaşıl enerji layihələrinə də yatırım edirik.

2030-cu ilə qədər istehsal olunan 8 milyard kubmetr qaz 5 mövcud yataqdan və əlavə yeni yataqlardan hasil ediləcəkdir. Yəni, bu gün buraya sərmayə qoymuş investorlar hasilatın həcmini artıracaqlar. Həmçinin imzalanmış yeni sazişlər və nəzərdə tutulan müqavilələr həmin potensialı təmin edəcəkdir.

Ötən il "Bakı Enerji Həftəsi" çərçivəsində toplam 1000 meqavat yaşıl enerji həcmində müqavilələr imzalandı. Bu tədbir çərçivəsində də bir neçə yüz meqavat həcmində yeni sazişlər imzalanacaqdır. Yəni, biz bu yol ilə irəliləyirik.

COP29 haqqında danışarkən onun həqiqətən də uğurlu olduğunu qeyd etməliyik. Onun "Bakı sıçrayışı" adlandırılması bir çox hədəflərə nail olmağımızla bağlıdır. Onların hər birini sadalamaq istəmirəm. Ancaq burada mühüm nailiyyət kimi, İtki və Zərər Fondunu və inkişafda olan ölkələr üçün nəzərdə tutulmuş yardımın 100 milyard dollardan 300 milyard dollara qədər artırılmasını qeyd etmək istəyirəm. Bununla yanaşı, 10 il davam edən müzakirələrdən sonra karbon bazarı da işlək vəziyyətə gətirildi.

Enerji bazarında məsuliyyətli aktor, hər zaman real hədəfləri qarşısına qoyan və müxtəlif oyunçuları bir araya gətirə bilən ev sahibi olan Azərbaycanın mirası məhz bundan ibarətdir.

COP29-la bağlı daha bir hədəfimiz Qlobal Cənub və Qlobal Şimal arasında körpünün qurulması idi və biz buna nail ola bildik. Hədəf ətraf mühiti ən çox çirkləndirən ölkələr, – inkişaf etmiş ölkələr, – və bundan əziyyət çəkən, hətta bəzilərinin mövcudluğuna təhlükə olan inkişafda olan ölkələr arasında etimadın artırılması idi.

İnkişaf etməkdə olan kiçik ada dövlətlərinə yardım paketi də COP29-da elan edildi və biz köməyimizə ehtiyacı olan ölkələrə dəstək verməyə davam edəcəyik.

Bir daha bütün qonaqlarımızı salamlayır və "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Sağ olun.

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.001

# DAVAMLI İNKİŞAF SİYASƏTİ
# SUSTAINABLE DEVELOPMENT POLICY

UOT 328; 342.5; 351/354

**URXAN ƏLƏKBƏROV**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik**

*e-mail: alakbarovuk@gmail.com*

## DAVAMLI İNKLÜZİV İNKİŞAF VƏ ONUN ÖLÇÜLMƏSİ

### Dövlət idarəçiliyində inkişaf prosesinin ölçülməsinin əhəmiyyəti

Uğurlu dövlət idarəçiliyi sahəsində həyata keçirilən siyasətin əsasında bu prosesin optimal planlaşdırılması durur. Öz növbəsində uğurlu inkişaf üçün, perspektivli planların qurulması üçün ölkənin inkişafının real vəziyyətinin dəyərləndirilməsi çox əhəmiyyətli bir mərhələdir. Bu istiqamətdə ölkələr haqqında toplanmış məlumatlar həm iqtisadi, həm siyasi, həm də diplomatik fəaliyyət üçün çox əhəmiyyətlidir.

Azərbaycan Respublikası uğurla inkişaf edir. Bu proses son illər çox sürətlə həyata keçirilir və innovativ dövlət idarəçilik texnologiyalarının tətbiqi ilə reallaşır. Ölkə Prezidenti Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə həyata keçirilmiş 44 günlük Vətən Müharibəsi, 2023-cü ildə 24 saatdan az vaxt aparmış xüsusi terrora qarşı əməliyyat ölkənin ərazi bütövlüyünü və tam suverenliyini bərpa etdi. Bununla Azərbaycan Respublikası öz gücü ilə BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və digər beynəlxalq təşkilatların çoxsaylı qərarlarını həyata keçirdi. Hazırda işğaldan azad edilmiş ərazilərdə davamlı inkişaf siyasəti və inklüziv cəmiyyətin qurulması uğurla həyata keçirilir. Qarabağ və Şərqi Zəngəzur ərazilərinin iqtisadi, sosial, ekoloji, humanitar reabilitasiyası prosesinin analoqu dünyada yoxdur [1, 2].

İnkişaf dedikdə əksər hallarda müsbət bir prosesin baş verməsi və ya pozitiv halın müşahidəsi nəzərdə tutulur. Bu zaman gender balansının əhəmiyyəti də planlaşdırılır [3]. İnkişaf etmiş ölkə və yaxud inkişaf etmiş şəxs dedikdə əksər halda müsbət bir hadisənin baş verməsi nəzərdə tutulur. Lakin, nəzərə almaq lazımdır ki, inkişaf bir prosesdir və həm müsbət, həm də mənfi tərəfə yönələ bilər. İqtisadi böhranın inkişafı, yaxud epidemiyanın inkişafı və pandemiya prosesinə transformasiyası müsbət bir proses kimi qəbul edilə bilməz. Təsadüfi deyil ki, BMT "gələcəksiz inkişaf", "qeyri-bərabər inkişaf", "texnoloji ləngimə ilə inkişaf" kimi anlayışları dövrəyə daxil edib və onları 2030-cu ilə qədər idarəetmə üçün "Davamlı inkişaf məqsədləri" kimi qəbul edib [4].

Dövlət və ərazilərdə inkişafda mənfi proseslərin qarşısını almaq, davamlı inkişaf siyasətini həyata keçirmək və inklüziv cəmiyyətin qurulması üçün bu prosesin planlaşdırılması mərhələsi olduqca əhəmiyyətlidir. Optimal planlaşdırma prosesi isə dövlət idarəçiliyinin nəticəsində real vəziyyətin dəyərləndirilməsinə əsaslanır. Hazırkı məqalə

### Ölkələrin inkişaf siyasətinin dəyərləndirilməsinə tarixi baxış

Ölkələrin inkişafı sahəsində həyata keçirilən siyasəti dəyərləndirən göstəricilər tarixən

dəyişib və bu dəyişikliklər hər zaman təkmilləşməyə yönəldilib. XX əsrə qədər ölkələrin inkişaf səviyyəsini dəyərləndirmək üçün vahid bir sistem mövcud deyildi. Ölkənin inkişaf səviyyəsi, onun iqtisadi və hərbi imkanları, mövcud potensialı isə fərqli göstəricilər əsasında müəyyən edilirdi. Bu göstəricilərə ölkənin ərazisi, əhalinin sayı, istehsal edilən məhsulların çeşidi, ölkədən ixracın vəziyyəti və buna oxşar məlumatlar daxil olurdu.

Bu dövrdə ölkələrin inkişafı haqqında məlumatlar fərqli mənbələrdən əldə edilirdi. Orta əsrlərdə bu sahədə rəsmi fəaliyyətlə bir qayda olaraq ölkələrə ezam edilmiş səfirlər məşğul olurdu. Bunlarla yanaşı müxtəlif ölkələrdə missioner kimi fəaliyyət göstərən və fərqli dinləri təmsil edən dini xadimlər də, ezam edilmiş ölkələr barədə çox dəyərli məlumatlar toplayan və öz ölkəsinə ötürən bir zümrə idi. Digər ölkələrin vəziyyətinin öyrənilməsi və dəyərləndirilməsi sahəsində XX əsrin əvvəllərinə qədər ən yüksək fəallıq Vatikan tərəfindən həyata keçirilirdi. Müqəddəs Vatikan və digər dini qurumların müxtəlif ölkələrdə fəaliyyət göstərən səfir və missionerləri xidmət etdiyi ölkələr haqqında məlumatları toplayıb öz ölkələrinə ötürürdülər. Ölkələrin inkişafı haqqında həmin dövrə aid ən zəngin məlumatlar hazırda da Vatikanın qızıl arxivlərində qorunurlar [5].

Qeyd edilməlidir ki, elə o zamanlarda müxtəlif ölkələrdə xüsusi müşahidə və təhlillər ilə məşğul olan mərkəzlər, ekspert qrupları fəaliyyət göstərirdilər ki, onlar qonşu və ya rəqib ölkələrin inkişaflarına dair müxtəlif mənbələrdən əldə etdiyi məlumatları təhlil edib, ölkəni idarə edənlərə müvafiq hesabat və təkliflər təqdim edirdilər.

O zaman ölkələrin inkişaf səviyyəsini təhlil etdikdə əsas diqqət yönəldildi (şəkil 1):

1. **Ölkənin ərazisi:** Daha böyük əraziyə malik olan ölkələr adətən daha güclü və inkişaf etmiş sayılırdı. Ərazinin böyük olması daha çox təbii ehtiyatların olması və strateji üstünlüklərə malik olmasının təzahürü kimi qəbul edilirdi.




**Şəkil 1.** Tarixən istifadə edilən ölkələrin inkişaf göstəriciləri (4).

2. **Təbii ehtiyatların (resurslar) mövcudluğu:** Qızıl, gümüş, qiymətli daşlar, məhsuldar torpaqlar və meşələr kimi dəyərli resursların mövcudluğu dövlətin zənginliyi və gücünün vacib əlaməti sayılırdı.
3. **Əhalinin sayı (demoqrafik strukturu):** Əhalinin sayı çox olan ölkələr daha çox işçi qüvvəsi, daha böyük ticarət bazarı və daha böyük ordu demək idi. Əhalinin sayı, onun yaş strukturu tez-tez iqtisadi və hərbi gücün göstəricisi kimi də istifadə olunurdu.
4. **Ordunun sayı:** Çoxsaylı ordu dövlətin inkişaf səviyyəsinin və gücünün əsas faktoru kimi qəbul edilirdi. Dövlətin özünü müdafiə etmək potensialını, yeni əraziləri fəthetmə qabiliyyəti nümayiş edirdi.
5. **Hərbi texnologiyalar:** Mütərəqqi hərbi texnologiyaların, məsələn, atəşli silahların, artilleriyanın və donanmaların inkişafı və istifadəsi ölkənin inkişaf səviyyəsinin vacib göstəricisi kimi nəzərə alınırdı.
6. **Kommersiya və ticarət:** İqtisadi fəaliyyət üçün mövcud şərait, ticarətin inkişaf səviyyəsi, ticarət yollarının, limanların və bazarların mövcudluğu, beynəlxalq ticarətdə iştirak və oxşar göstəricilər ölkənin inkişaf səviyyəsinin dəyərləndirilməsi üçün önəmli hesab edilirdi.
7. **Şəhərlər və infrastruktur:** Şəhərlərin, yolların, körpülərin, su təchizatı sistemlərin, digər infrastruktur obyektlərinin mövcudluğu iqtisadi inkişafın göstəricisi sayılırdı.
8. **İdarəetmə sistemi və sosial struktur:** İdarəetmə sisteminin xüsusiyyətləri, onun effektiv olması, ölkədə yazılı qanunların mövcudluğu və onların icrası, inzibatı strukturlar və onların fəaliyyəti ölkələrin inkişaf səviyyəsi üçün vacib hesab edilirdi.
9. **Elm, təhsil və mədəniyyət:** Elm, təhsil sisteminin vəziyyəti, məktəb, universitetlərin, kitabxanaların və mədəniyyət obyektlərin mövcudluğu inkişaf səviyyəsinin indikatorları kimi istifadə edilirdi.
10. **Qulların və təhkim olunmuş kəndlilərin mövcudluğu və sayı:** Bəzi hallarda ölkədə qul və təhkim olunmuş kəndlilərin mövcudluğu və sayı ölkənin iqtisadi imkanlarının nə səviyyədə olmasının dəyərləndirilməsi üçün vacib amil hesab edilirdi. Bu amil ölkə inkişafının həm iqtisadi, həm də sosial və siyasi göstəricisi kimi istifadə edilirdi.

Göründüyü kimi, XX əsrə qədər yuxarıda sadalanan göstəricilər dövlətlərin inkişaf səviyyəsini qiymətləndirmək üçün əsas meyarlar idi. Bu məlumatlar keçmişdə ölkələrin inkişafının necə dəyərləndirildiyini göstərmək üçün yaxşı bir nümunə ola bilər. Lakin, nəzərə almaq lazımdır ki, bu məlumatlar tam deyildi və inkişafı ölçülə bilən göstəricilər ilə dəyərləndirmək imkanı yaratmırdı. İnkişafın ölçülən göstəricilər ilə qiymətləndirilməsi imkanları yalnız iyirminci əsrdə yarandı.

### Ölkələrin inkişafının ilk ölçüləbilən göstəricisi – hər nəfərə düşən ÜDM

Öncəki bölümdə təqdim olunmuş məlumatlardan aydın olur ki, qədim zamanlardan başlayaraq XX əsrin ortalarına qədər inkişaf siyasətinin uğurlarını dəyərləndirmək üçün vahid, ölkələr arasında müqayisə aparmaq imkanı yaradan bir göstərici yox idi. Belə vasitə yalnız XX əsrin ilk onilliklərində formalaşdı. İnkişafın dəyərləndirilməsi üçün vahid və universal üsulun istifadəsi haqqında təklifi ilk dəfə ABŞ-da fəaliyyət göstərən görkəmli iqtisadçı Professor Saymon Kuznets təklif etdi [6]. Onun nəzəriyyəsinə görə ölkənin inkişaf səviyyəsi iqtisadi göstərici əsasında müəyyən edilməlidir. O inkişafın səviyyəsini müəyyən edən vahid və universal göstərici kimi ölkədə orta gəlirdən – hər nəfərə

düşən Ümumdaxili Məhsulun (ÜDM) dəyəri kimi göstəricidən istifadə edilməsini təklif etdi. Hər nəfərə düşən ÜDM, dövlətin ümumi iqtisadi fəaliyyətinin ölçülməsi üçün istifadə olunan əsas göstəriciyə çevrildi. ÜDM ölkədə istehsal olunmuş bütün malların və təqdim edilmiş bütün xidmətlərin ümumi dəyərini əks etdirən bir göstəricidir. Qiymətləndirmək üçün təklif olunan bu rəqəmi əhalinin sayına böləndə "hər nəfərə düşən Ümumdaxili Məhsulun (ÜDM) dəyəri" kimi göstəricinin qiyməti alınır. Hər nəfərə düşən ÜDM orta gəlir kimi də qəbul olunur və onun hesablaması 4 ardıcıl mərhələdən keçir:

1. **Ölkədə Ümumi Daxili Məhsul (ÜDM) dəyərinin müəyyən edilməsi.** ÜDM, dövlətin müəyyən bir dövr ərzində (adətən bir il) istehsal etdiyi bütün mal və təqdim etdiyi bütün xidmətlərin bazar dəyəri müəyyən edilir. Bir qayda olaraq ölkənin rəsmi statistik təşkilatları bu məlumatları toplayır və dərc edir.
2. **Hər nəfərə düşən ÜDM-nin hesablanması:** ÜDM-nin dəyərinin əhalinin sayına bölünməsi ilə hər nəfərə düşən ÜDM hesablanır. Bu göstərici, dövlətin iqtisadi inkişaf səviyyəsini və əhalinin orta rifahını ölçmək üçün istifadə olunur.
3. **Ölkənin iqtisadi inkişaf dinamikasının müəyyən edilməsi:** İllər üzrə ölkədə hər nəfərə düşən ÜDM-nin dəyərinin vəziyyəti, bu göstəricinin illərlə artması, əskilməsi və ya dəyişməz qalması təhlil edilir. Nəzərə almaq lazımdır ki, bu göstəricinin dinamikasına ölkədə əhalinin sayının dəyişməsi də təsir göstərir.
4. **Ölkələrin inkişaf səviyyəsinin müqayisəsi:** Hər nəfərə düşən ÜDM, müxtəlif dövlətlərin inkişaf səviyyəsini müqayisə etmək üçün istifadə olunur. Bu müqayisə dövlətlərin iqtisadi inkişafını və əhalinin yaşayış səviyyəsi üçün mövcud potensialı obyektiv şəkildə qiymətləndirməyə imkan verir.

Lakin nəzərə almaq lazımdır ki, fərqli ölkələrdə hər nəfərə düşən ÜDM-nin ilkin dəyərləri milli valyutada hesablanır. Belə vəziyyətdə, yəni bu inkişaf göstəricisi fərqli pul vahidləri ilə ifadə olunduğu halda ölkələr arasında müqayisə aparmaq mümkün deyil. Müqayisə edilməsi üçün milli pul vahidləri ümumi bir pul vahidinə konvertasiya olunmalıdır. Beynəlxalq razılaşmalar əsasında bu ümumi valyutanın ABŞ dolları olması müəyyən edilmişdi .

Hər nəfərə düşən ÜDM göstəricisi ölkələrdə iqtisadi inkişafın planlaşdırılması və idarəedilməsi üçün çox vacib alətdir. Bu səbəbdən bu yeniliyin müəllifi professor S. Kuznets, 1971-ci ildə "iqtisadi artımın quruluşu və xüsusiyyətləri" sahəsində apardığı tədqiqatlara görə Nobel İqtisadiyyat Mükafatına layiq görülmüşdür.

### Ölkələrin inkişaf səviyyəsinin müqayisəsində alıcılıq qabiliyyəti pariteti (AQP)

Ölkələrin inkişaf səviyyəsini ölçmək üçün XX əsrin ortalarında Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və BMT tərəfindən vahid bir göstərici qəbul olunmuşdu. Bu göstərici ölkədə hər nəfərə düşən ümumdaxili məhsulun dəyəridir və milli pul vahidlərində ifadə olunurdu. İnkişafı ölçən həmin vahid XX əsrin ortalarında tətbiq edilməyə başlanılsa da, o hazırda da geniş istifadə edilir. Müxtəlif ölkələr arasında müqayisələr aparmaq fərqli milli pul vahidində ifadə olunmuş, hər nəfərə düşən ÜDM vahidi bir valyutaya çevrilməli idi. Beynəlxalq təşkilatların qərarı əsasında belə universal valyuta kimi ABŞ dolları qəbul edildi.

Hər nəfərə düşən ÜDM-nin milli pul vahidindən ABŞ dollarına konvertasiya edilməsi və bu zaman alıcılıq qabiliyyəti paritetinin (AQP) nəzərə alınması ilk dəfə Beynəlxalq Valyuta Fondu (IMF) və Dünya Bankı tərəfindən 20-ci əsrin ortalarında təklif edilmişdir. Beynəlxalq Valyuta Fondu, 1944-cü ildə təsis

edildiyi zamandan müxtəlif ölkələrin iqtisadi inkişaf səviyyələrini müqayisə etmək üçün ÜDM və alıcılıq qabiliyyəti pariteti (AQP) kimi göstəricilərdən istifadə etməyə başlamışdı [7].

Alıcılıq qabiliyyəti pariteti müəyyən edilməsinin əsas üsulu müxtəlif ölkələrdə eyni tərkibli istehlak səbətlərinin qiymətlərinin müqayisəsidir. Bu müqayisə Dünya Bankı tərəfindən həyata keçirilir və prosesdə eyni mal və xidmətlər toplusu olan istehlak səbətinin qiymətləri ABŞ və müxtəlif ölkələrin fərqli valyutalarında müəyyən edilir. Sonralar isə nisbətlər hesablanır və əldə edilmiş əmsal əsasında alıcılıq pariteti müəyyən edilir.

Beləliklə, artıq XX əsrin ortalarında ölkələrin inkişafını dəyərləndirmək və müqayisələr aparmaq üçün ilk ölçülən göstərici istifadə üçün təklif edildi. Bu göstərici daha çox iqtisadi məlumatlara əsaslansa da, eyni zamanda sosial inkişaf üçün potensialı da müəyyən dərəcədə əks edirdi.

Qeyd edilməlidir ki, hər nəfərə düşən ÜDM eyni zamanda hər nəfərə düşən gəlir kimi də qəbul edilir. Lakin nəzərə almaq lazımdır ki, hər nəfərə düşən gəlir kimi təqdim edilən bu göstərici orta rəqəmlərə əsaslanır və gəlirlərin əhali arasında nə dərəcədə ədalətli bölünməsini əhatə etmir. Bu səbəbdən ölkələrin inkişafını ölçən bu göstərici mahiyyətcə iqtisadidir. İnkişaf göstəricisi kimi bu indikator yalnız sosial proqramların həyata keçirilməsi üçün potensialın mövcudluğu baxımından dəyərləndirilə bilər.

## Ölkələrin inkişafının ölçülməsi prosesində iqtisadi göstəricilərə sosial göstəricilərin əlavə edilməsi

Keçən əsrin ortalarında ölkələrin inkişaf səviyyəsini dəyərləndirmək və ölkələr arasında müqayisələr aparmaq üçün yeni ölçülən bir göstərici – ölkədə hər nəfərə ÜDM-nin dəyəri daxil edildi. Bu göstərici eyni zamanda ölkədə hər nəfərə düşən gəlir kim də təqdim olunur. Lakin hər nəfərə düşən ÜDM-nin dəyəri və ya hər nəfərə düşən gəlir ümumləşdirilmiş orta göstəricidir və konkret olaraq ölkədə əhalinin iqtisadi və sosial vəziyyətini əks etdirmir. Dünya ölkələrində əhali arasında gəlir və istehlak səviyyəsində kəskin qeyri-bərabərlik mövcuddur və BMT bu vəziyyəti “qeyri-bərabər inkişaf” kimi dəyərləndirir.

XX əsrin ortalarında başlamış ölkələrin inkişaf səviyyəsinin ölçülməsi prosesində hər nəfərə düşən ÜDM-nin ölçülməsi 1990-cı ilə qədər davam etdi. Həmin il ABŞ-da çalışan Pakistan mənşəli alim Məhbub ul Haqq yeni bir nəzəriyə və praktiki təklif ilə çıxış etdi. Onun nəzəriyyəsinə görə iqtisadi inkişaf çox vacib bir göstəricidir. Lakin, iqtisadi inkişaf məqsəd deyil və sosial inkişaf siyasəti sahəsində fəaliyyət göstərmək üçün şərait yaradan bir amildir. Onun fikirlərinə görə, əgər ölkədə maddi imkanlar mövcuddur və ölkədə inkişaf siyasəti düzgün həyata keçirilirsə, həmin ölkənin əhalisi sağlam, bilik və bacarıqlara malik olmalıdır. Sağlam, bilik və bacarıqlı əhali isə hər zaman iqtisadiyyat və sosial sahələrinin yüksək səviyyədə saxlanılmasını təmin edə bilər.

Bununla əlaqədar Professor Məhbub ul Haqq ölkələrin inkişafının dəyərləndirilməsi və müqayisəli təhlillər aparılması üçün yeni ölçüləbilən bir göstəricinin istifadə edilməsini təklif etdi. Bu ölkələrin inkişafını ölçən yeni göstərici İnsan İnkişafı İndeksi (İİİ) adlanır və onun hesablanmalı 3 göstəricidən istifadə olunur. İnkişafın bu yeni göstəricilər 3 sahəni əhatə edir [7]:

1. **Sağlamlıq.** Aydındır ki, milli səviyyədə əhalinin sağlamlığını əks etdirən elə göstəricilər seçilməlidir ki, onların əldə edilməsi əlçatan olsun və bütün əhalinin sağlamlıq göstəricisi kimi istifadə edilə bilsin. Eyni zamanda bu məlumatların əldə edilməsi üçün əlavə xərclər tələb olunması da vacib şərtdir. Bu səbəbdən təklif edildi ki, İnsan İnkişafı İndeksinin hesablanmasında sağlamlıq göstəricisi kimi əhalinin orta

gözlənilən ömür müddəti haqqında məlumatlar istifadə edilsin. Seçim tam əsaslı idi: Əhalinin orta ömür müddəti onun sağlamlığı haqqında məlumat daşıyır. Bir qayda olaraq iqtisadi və sosial siyasətə diqqət ayıran ölkədə əhali daha çox yaşayır. Ömür müddəti barəsində məlumatlar rəsmi statistikada mövcuddur, əlçatandır və əldə edilməsi üçün əlavə vəsaitin səfərbər edilməsini tələb etmir.

2. **Təhsil.** İnsan İnkişafı İndeksinin müəyyən edilməsində iki təhsil göstəricisindən istifadə olunur. Onlardan biri əhalinin orta təhsil müddətidir, yəni orta hesabla bu ölkənin əhalisi neçə illik təhsilə malikdir. İkinci təhsil göstəricisi isə gözlənilən təhsil müddətinə aiddir. Hazırda dünyada "fasiləsiz təhsil", "ömür boyu" təhsil proqramları mövcuddur və bu səbəblərdən bir sıra iqtisadi baxımdan yüksək inkişaf etmiş ölkələrdə gözlənilən təhsil müddəti yüksəkdir.
3. **Gəlir.** Bu artıq məlum olan ildə hər nəfərə düşən ÜDM-nin dəyəridir.

İnsan İnkişafı İndeksi (III) ilk dəfə 1990-cı ildə BMT-nin İnkişaf Proqramı (UNDP) tərəfindən hazırlanmış və təqdim edilmişdir. İnsan İnkişafı İndeksi ölkələrin inkişaf səviyyəsini daha əhatəli şəkildə qiymətləndirir və iqtisadi göstəricilər ilə yanaşı sosial inkişafını da nəzərə alır. Bu indeks, ölkələrin yalnız iqtisadi potensialını deyil, həm də əhalinin ümumi rifahını və sosial inkişafını əks etdirir. Dünyada insan inkişafı sahəsində yaranmış vəziyyət BMT-nin İnkişaf Proqramı tərəfindən hər il xüsusi hesabatda dərc edilir.

Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında ilk Hesabat 1995-ci ildə dərc edilmişdi və 2003-cü ilə qədər hər il dərc edilirdi. İnsan İnkişafı Haqqında Hesabat ilk dəfə 1995-ci ildə dərc edilmişdi və onun beynəlxalq səviyyədə təqdimatı Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilmişdi. Sonrakı illərdə də hesabatların təqdimetmə prosesi Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilirdi.

### Ölkələrin inkişafının ölçülməsi prosesində iqtisadi və sosial göstəricilərə ekoloji göstəricilərin əlavə edilməsi

Dövlət idarəçiliyi sahəsində formalaşmış siyasətdən aydın oldu ki, ölkənin inkişaf səviyyəsinin ölçülməsi təkcə iqtisadi göstəricilərlə məhdudlaşmamalıdır. Zamanla bu yanaşmaya güclənmiş və inkişafın dəyərləndirilməsi prosesinə sosial göstəricilər də əlavə edildi. 1990-cı ildə inkişafın dəyərləndirilməsi üçün iki amili – iqtisadiyyatı və sosial sahəni əhatə edən və eyni zamanda ölçülən bir göstərici formalaşdı. Bu İnsan İnkişafı İndeksi idi və artıq ölkədə sosial sahədə vəziyyəti (əhalinin sağlamlıq göstəriciləri, ölkə əhalisinin təhsil ilə əhatə olunması) və eyni zamanda ölkənin iqtisadi imkanlarını (hər nəfərə düşən ÜDM-un dəyəri) əlaqəli şəkildə təhlil etmək üçün şərait yaradırdı.

Ölkələrin inkişafının ölçülməsi sahəsində dövlət idarəçiliyi qarşısında duran növbəti problem bu prosesdə ekoloji göstəricilərin də nəzərə alınması idi. Dünyada əhalinin sayının durmadan artması və orta hesabla hər nəfərə düşən istehlakın sürətlə yüksəlməsi digər qlobal ekoloji və sosial problemlərin şiddətlənməsini şərtləndirdi, davamlı inkişaf üçün böyük risklər yaratdı. Bu səbəbdən XX əsrin ikinci onilliyində inkişafın dəyərləndirilməsi üçün yeni göstərici – Davamlı İnkişaf İndeksinin istifadəsi təklif edildi və atmosferə atılan istixana qazlarının miqdarı bu göstəricinin hesablanmasında istifadə edilməyə başladı. Davamlı inkişaf indeksinin hesablanmasında istifadə edilən digər ekoloji göstərici Yer Kürəsində hər fərd tərəfindən istifadə edilən təbiətin məhsullarıdır ki, o ekoloji iz kimi məlumdur. Beləliklə 2015-ci ildən sonra bu inkişafın dəyərləndirilməsi üçün yeni göstəri-

cinin – davamlı inkişaf indeksinin istifadəsinə start verildi [8]. Davamlı inkişaf indeksinin hesablanmasının bir neçə üsulu məlumdur. Ən çox istifadə edilən üsul isə 6 göstəriciyə əsaslanır. Onların dördü insan inkişafı indeksini müəyyən edən göstəricilərdir. Digər ikisi isə yuxarıda göstərilən ekoloji indikatorlardır. Qeyd edilməlidir ki, Prezident İlham Əliyevin tətbiq etdiyi innovativ dövlət idarəçilik siyasəti öz yüksək səmərəliyini həm hərbi təhlükəsizliyin təmin edilməsi prosesində, həm də işğaldan azad olunmuş ərazilərin iqtisadi, sosial, ekoloji və demoqrafik reabilitasiyası zamanı müşahidə edildi [9].

Ölkələrin inkişafının nə dərəcədə səmərəli olmasının ölçülməsi prosesi iqlim dəyişmələrinə təsirlərdən əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan Respublikasında yaşıl iqtisadi artım əsas inkişaf prioritetidir [10]. Bu səbəbdən enerji transformasiyası xüsusi əhəmiyyət daşıyır [11, 12] və ölkədə bu sahədə yüksək nəticələr əldə edilmişdir [13].

## İngilis dilində "sustainable development" azərbaycan dilində "davamlı inkişaf" və ya "dayanaqlı inkişafdır: Süni İntellekt (Chat GPT-nin) təhlili

Davamlı inkişaf siyasətinin uğurlarını ölçən davamlı inkişaf indeksinin formalaşmasında BMT tərəfindən 2015-ci ildə keçirilən 70-ci Yubiley Sessiyasının xüsusi rolu olmuşdu. Həmin tədbirdə 2015-2030-cu illərdə icrası planlaşdıran Davamlı İnkişaf Məqsədləri qəbul edilmişdi. Qəbul olunmuş 17 məqsəd inkişafın davamlı olunmasını təmin edən iqtisadi, sosial, ekoloji və humanitar tədbirlərin keçirilməsini nəzərdə tutur [8].

İngilis dilində "sustainable development" termini azərbaycan dilində "davamlı inkişaf" və "dayanaqlı inkişaf" kimi istifadə edilməkdədir. "Dayanaqlı inkişaf" termini nisbətən yenidir və Azərbaycan dilinə 2016-ci ildə daxil edilib. Davamlı inkişaf termini isə XX əsrdən istifadə edilməkdədir. 2016-cı ilə qədər ölkədə dərc edilmiş Prezident Fərman və Sərəncamlarında, Nazirlər Kabineti, Xarici işlər, İqtisadiyyat və digər nazirlik, fərqli dövlət qurumlarının, ölkədə fəaliyyət göstərən beynəlxalq təşkilatların sənədlərində "davamlı inkişaf" termínindən istifadə olunub. Ölkənin təhsilində istifadə edilən dərslik və dərs vəsaitlərində də "davamlı inkişaf" terminindən istifadə edilib. Bunların arasında orta məktəblər üçün Təhsil Nazirliyi tərəfindən dərc edilmiş "İnsan inkişafı" (2003), "İnsan və cəmiyyət" (2005 və sonrakı illər), ali məktəblər üçün çoxsaylı tədris proqramları, dərslik və dərs vəsaitləri mövcuddur.

Qeyd edilməlidir ki, süni intellekt (Chat GPT) ingilis dilində "Sustainable Development" kimi inkişaf prosesinin "davamlı inkişaf" və yaxud "dayanaqlı inkişaf" kimi təqdim olunması barəsində belə bir təhlil təqdim edir (cədvəl 1).

**Cədvəl 1.**

İngilis dilində "sustainable development" terminin Azərbaycan dilində "davamlı" və ya "dayanaqlı" inkişaf termini kimi istifadə edilməsi barəsində "süni intellektin" (Chat GPT) təhlili

| Termin | Mənşə | Əsas mənası | İnkişaf anlayışı ilə uyğunluğu | Qeyd |
|---|---|---|---|---|
| Davamlı | "Davam etmək" felindən | Fasiləsiz, dəyişən, ardıcıl, uzun müddətli, dinamik | Tam uyğundur | Azərbaycan dilində XX əsrin son illərindən elmi və rəsmi sənədlərdə işlənir |
| Dayanaqlı | "Dayanaq" felindəndir | Sabit, dəyişməz, yerindən tərpənməyən vəziyyət | Uyğun deyil | 2016-cı ildə təklif olunub, lakin geniş qəbul edilməyib |

Süni intellektin təhlilindən də aydın olur ki azərbaycan dilində "davamlı inkişaf" ingilis dilində "sustainable development" kimi hadisənin təsviri üçün daha uyğundur. Bu zaman Türkiyə Respublikasında ingilis dilində "sustainable development" termini "sürdürülə bilen gelişim" kimi, yəni "davam edə bilən inkişaf" kimi rəsmi istifadə olunması qeyd edilir. Hazırda hər iki termin istifadə edilir və bu ziddiyyət törətmir.

## Ölkələrin inkişafının inklüziv olmasını ölçən göstərici

İnsan cəmiyyəti öz inkişafında müxtəlif mərhələlərdən keçib və hər mərhələnin öz məqsədləri və bu məqsədlərə müvafiq olaraq, inkişaf prioritetləri müəyyən edilib. Əgər ibtidai cəmiyyətdə insanlar üçün əsas prioritet özünün, ailə və yaxınlarının həyatda qalmaq qayğısı idisə, sonrakı mərhələlərdə digər prioritetlər və müvafiq inkişaf göstəriciləri formalaşırdı. Yeni inkişaf prioritetinə nail olunması istiqamətində qazanılan nəticələri dəyərləndirmək üçün inkişafı ölçən yeni göstəricilər formalaşırdı (cədvəl 2).

Cədvəl 2-dən göründüyü kimi, zaman dəyişdikcə cəmiyyətin inkişaf sahəsində qəbul olunan siyasi prioritetlər dəyişir, əvvəlkiləri öz mövqeyini saxlamaqla, yeniləri formalaşır və onlara nail olunması artıq müasir, zamanın tələblərinə cavab verən inkişaf məqsədi kimi formalaşır. Sənayeləşmə dövründən başlayaraq, iqtisadiyyat – hər nəfərə düşən ÜDM əsas prioritet kimi formalaşıb. Bu istiqamət öz aktuallığını qorusa da, artıq yeganə, alternativi olmayan inkişaf göstəricisi kimi çıxış etmir. Dövlət idarəçiliyində iqtisadi fəaliyyətin sosial məsuliyyəti aktuallaşdı və 1990-cı ildə ölkələrin inkişafının ölçülməsi prosesinə sosial indikatorlar əlavə olundu və İnsan inkişafı indeksi kimi yeni inkişafı ölçən göstərici dövriyyəyə daxil edildi. Dünyada ekoloji problemlərin kəskinləşməsi, xüsusən iqlim dəyişmələri ilə əlaqədar 2015-ci ildə yeni bir inkişafı ölçən göstərici Davamlı inkişaf indeksi istifadə üçün təklif edildi. Bu göstərici artıq ölkənin inkişafının dəyərləndirilməsi prosesində həm iqtisadi, həm sosial, həmdə ekoloji göstəriciləri nəzərə alırdı.

İnkişafı ölçən göstəricilərin təkamülündə bir qanuna uyğunluq nəzərə çarpır: vaxt keçdikcə inkişafın dəyərləndirilməsində istifadə olunan indikatorlar arasında iqtisadi göstəricilərin payı azalır, sosial və ekoloji indikatorların payı isə artır (şəkil 2).

Ölkələrin inkişafının ölçülməsi prosesinə 2018-ci ildə yeni bir yanaşma və üsul təklif edildi. Bu üsul inkişafın davamlı olması tələbi ilə yanaşı, onun inklüziv olmasını, yəni bir çox yeni iqtisadi, sosial, ekoloji, demoqrafik göstəricilərin nəzərə alınmasını tələb edirdi. Ölkələrin inkişafının inklüziv olmasını ölçmək üçün ən müasir göstəricilərdən biri İnklüziv

**Cədvəl 2.**

Cəmiyyətin inkişafını ölçən göstəricilər və onların prioritetləri

| İnkişaf ölçüsü | Tətbiqin başlandığı il | Ölçü vahidinin prioritetləri |
|---|---|---|
| Hər nəfərə düşən ÜDM | 1944 | İqtisadiyyat |
| İnsan inkişafı indeksi | 1990 | İqtisadiyyat + sosial |
| Davamlı inkişaf indeksi | 2015 | İqtisadiyyat + sosial + ekoloji |
| İnklüziv inkişaf indeksi | 2018 | İqtisadiyyat + sosial + ekoloji + əhatəlilik |




**Şəkil 2.** Ölkə inkişafının ölçülməsi prosesinin təkamülü: 1 göstəricidən 12 göstəriciyə keçid.

İnkişaf İndeksi (Inclusive Development Index, IDI) hesab olunur. Bu göstərici, dövlətlərin inkişaf səviyyəsini 12 parametr əsasında qiymətləndirir və iqtisadi, sosial və ekoloji meyarları nəzərə alaraq hərtərəfli bir yanaşma təqdim edir.

Bir sıra hallarda inklüziv inkişaf deyəndə inklüziv təhsil və ya xüsusi qayğıya ehtiyacı olanların oxşar problemləri nəzərdə tutulur. Lakin yeni inklüzivlik siyasəti, inkişaf prosesinə hamının, o cümlədən xüsusi qayğıya ehtiyacı olmayan əhalinin də əhatə olunmasını nəzərdə tutur.

Beləliklə, ölkələrin inkişafını dəyərləndirmək üsulları tarixən dəyişir və təkmilləşir. XX əsrə qədər dövlətlərin inkişafı müxtəlif göstəricilər ilə dəyərləndirilirdi və ölçülə bilmirdi. Yalnız XX əsrin ortalarında inkişafı ölçən bir analitik üsul istifadə edilməyə başlandı və bu üsul yalnız bir iqtisadi göstəriciyə əsaslanırdı. Zaman keçdikcə, xüsusən XXI əsrdə, ölkələrin inkişafının ölçülməsi təkmilləşdi və bu zaman sosial, ekoloji, demoqrafik və humanitar göstəricilərin payı getdikcə artdı. Bu tendensiya hazırda da davam edir və beynəlxalq təşkilatların rəsmi hesabatlarına əsasən ölkə inklüziv inkişaf sahəsində yüksək nəticələr əldə edib [14]. İnkişaf prosesinin ölçülməsi, bu prosesin fasiləsiz monitorinqi davamlı inkişaf siyasətinin və inklüziv cəmiyyətin formalaşması prosesinin vacib şərtidir.

**Ədəbiyyat:**


1. Əliyev İ.H. "Euronews" televiziyasına müsahibə. https://president.az/az/articles/view/68336, 14 mart 2025
2. Əliyev İ.H. "Əl-Ərəbiyyə" telekanalına müsahibə. https://president.az/az/articles/view/69968, 27 avqust 2025
3. Əliyeva M.A. ICESCO-nun "Qadınlar və qızlar elmdə". https://islamworld.preslib.az/page/zYQ5oCn38T, 11.02.2021
4. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı, Təhsil 2018, 216 s.
5. Ələkbərli F.U. Vatikanın məxfi arxivindəki Azərbaycan əlyazmaları. Virtual Azərbaycan, 2020-08-07 tarixində arxivləşdirilib.
6. Kuznets S. Economic growth of nations. Harvard University Press, 375 p.
7. Mahbub ul Haqq. Projection on human development. Oxford Academic, 1995, 276 p.
8. Sustainable Development Goals. UNDP, New York, https://sdgs.un.org/goals, 2015
9. Ələkbərov U.K. Prezident İlham Əliyevin unikal dövlət idarəçilik texnologiyalarının parlaq hərbi sınağı. // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, 2020. – №4(72). – s.157-164.
10. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. https://president.az/az/articles/view/50474, 02.02.2021
11. Nace T. Global Energy Monitor. Annual Report, 2023, 26 p.
12. Alakbarov U.K., Lawrence J.E. Energy efficiency as an Indicator of Sustainable Development Policy: Azerbaijan Experience // Journal of Sustainable Development (Canada, ISSN 1913-9063). – v.10. – №3. – p. 187-193.
13. Ələkbərov U.K. Azərbaycan Respublikasının enerji strategiyasının uğurları Dünya İqtisadi Forumun hesabatlarında // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı.– 2024, –№2(86). – s.117-128.
14. Schwab K. The Global Competitiveness Report 2018. – Geneva: 2018. – 667 p.


***Açar sözlər:*** *dövlət idarəçiliyi, davamlı inkişaf, inklüziv cəmiyyət, iqtisadi inkişaf, sosial inkişaf, insan inkişafı*

**Urkhan Alakbarov**

*Rector of the Academy of Public Administration under the President of the Azerbaijan Republic, Academician*

# SUSTAINABLE INCLUSIVE DEVELOPMENT AND ITS MEASUREMENT

## ABSTRACT

This article examines the evolution of state development assessment methods. Until the mid-20th century, evaluations were largely subjective and relied on such factors as territory, population, natural resources, the quantitative and qualitative measures of military strength, science and educational capacity. The introduction of GDP per capita provided the first quantitative measure, though limited to economic indicators. Since then, the scope of assessment has expanded to include social, environmental, and demographic dimensions. The Inclusive Development Index, introduced in 2018, is currently regarded as the most comprehensive measure of sustainable and inclusive development.

***Keywords:*** *public administration, sustainable development, inclusive society, economic development, social development, human development*

**Урхан Алакбаров**

*Ректор Академии Государственного Управления
при Президенте Азербайджанской Республики,
академик*

## УСТОЙЧИВОЕ ИНКЛЮЗИВНОЕ РАЗВИТИЕ И ЕГО ИЗМЕРЕНИЕ

## РЕЗЮМЕ

Статья посвящена оценки процесса изменения задач и методов оценки уровня развития государств. Показано, что до середины XX века отсутствовали методы количественной оценки уровня развития государств. Оценки носили субъективный характер и осуществлялись на основе таких показателей, как размер страны, численность населения, наличие природных ресурсов, производств, количественные и качественные показатели армии, состояние науки и образования. Такой показатель, как ВВП на душу населения стал первым количественным показателем развития, базирующимся только на экономических показателях. Дальнейшая эволюция задач в области государственного развития и методов оценки этого процесса базируются на вовлечение в процесс оценки социальных, экологических и демографических показателей. Введенный в 2018-ом году индекс инклюзивного развития на сегодняшний день является наиболее полным показателем.

***Ключевые слова:*** *государственное управление, устойчивое развитие, инклюзивное общество, экономическое развитие, социальное развитие, человеческое развитие*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.005

**B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L   R E L A T I O N S**

UOT 327(4/9);930.22(4/9); 327; 351.78; 504.4/8; 614.8

**FUAD HÜMBƏTOV**

**Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyasının
Davamlı inkişaf kafedrasının dosenti,
riyaziyyat üzrə fəlsəfə doktoru**

*e-mail: fuad.humbatov@dia.edu.az*

# EKOLOJİ DİPLOMATİYANIN İNSTİTUSİONAL FORMALAŞMASI BEYNƏLXALQ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ

Məlum olduğu kimi, hazırda davamlı inkişaf məqsədlərinə nail olunmasına mane olan əsas qlobal risklər qlobal və regional siyasi, iqtisadi qarşıdurmalar, hərbi münaqişələr, iqtisadi və maliyyə böhranları, qlobal ekoloji problemlər, o cümlədən qlobal iqlim dəyişmələri, habelə yeni mümkün pandemiya dalğaları və digər qlobal çağırışlardan ibarətdir. Bu risklər arasında qlobal ekoloji təhlükəsizlik sisteminə olan risklər, o cümlədən iqlim dəyişmələri – bəşəriyyətin bütün sahələrinə öz neqativ təsirlərini getdikcə artıran, çətin idarəolunan fenomen kimi mütəxəssislər tərəfindən daha təhlükəli hesab edilir. Son elmi araşdırmalar sübut etmişdir ki, effektiv ekoloji idarəçilik, siyasət və tədbirlər vaxtında həyata keçirilməzsə, qarşısı alınmaz problemlər, geri dönməz qlobal ekoloji fəlakət və böyük iqtisadi itkilər baş verəcək və ümumi zərər və itkilərin dəyəri 2025-ci ildən 2100-cü ilə qədər onlarla trilyon dolları keçəcəkdir [3, 4, 6-10].

Bu mənada, ekoloji təhlükəsizlik konsepsiyasının tarixi inkişaf mərhələləri və bu konsepsiya əsasında beynəlxalq münasibətlərdə ekoloji diplomatiyanın institusional formalaşması, ekoloji təhlükəsizlik üzrə hüquqi-tənzimləyici inkişaf kontekstində müxtəlif ölkələrin, xüsusən də ABŞ, Avropa İttifaqı ölkələri və digər aparıcı dövlətlərin təcrübəsinin öyrənilməsi böyük əhəmiyyət daşıyır. Hazırkı məqalədə qeyd olunan məsələlər ətraflı tədqiq edilmişdir.

Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik siyasətinin normativ-hüquqi bazasının formalaşması və onun ekoloji diplomatiya yolu ilə müvafiq institutlar və beynəlxalq müqavilələrdə konseptuallaşması prosesində ilkin və önəmli təşəbbüslər qərb ölkələrində, xüsusən də ABŞ, Avropa Birliyində fəaliyyət göstərən bir neçə mərkəzə aiddir. Məlum olduğu kimi, 1987-ci ildə Brundtland Komissiyası, yəni BMT-nin Ümumdünya Ətraf Mühit və Inkişaf üzrə Komissiyası (The World Commission on Environment and Development) tərəfindən dərc edilmiş «Ümumi gələcəyimiz» adlı məruzədə, ilk dəfə olaraq, «ekoloji təhlükəsizlik» termini istifadə olunmuşdur [1, 6, 11]. 1989-cu ildə isə Vyana (Avstriya) şəhərində fəaliyyət göstərən Beynəlxalq Tətbiqi Sistemlərin Təhlili İnstitutu (IIASA - International Institute for Applied Systems Analysis) tərəfindən "ekoloji təhlükəsizlik" anlayışının həm geniş, həm də dar mənada tərifi verilmişdir [6, 31]. Diqqətəlayiqdir ki, IIASA-

nın beynəlxalq tədqiqat mərkəzi kimi əsası 1972-ci ilin oktyabr ayında məhz Sovet İttifaqı, ABŞ və digər aparıcı dövlətlərin nümayəndələrinin London şəhərində görüşü zamanı qoyulmuşdur. Qeyd olunan görüşdə adı çəkilən tədqiqat mərkəzinin nizamnaməsi imzalanmışdır. Bu məsələ ABŞ-ın həmin dövrdəki prezidenti Lindon Conson ilə SSRİ Nazirlər Kabinetinin sədri Aleksey Kosıqin arasında altı il müddətində aparılmış danışıqlar prosesinin predmeti olmuşdur. Danışıqların əsas məqsədi həmin dövrdə vüsət almış "soyuq müharibə"nin ətraf mühit məsələləri, qlobal ekoloji təhlükəsizlik problemlərinin birgə həlli üçün diplomatik körpülərin salınması və beynəlxalq miqyasda artan qlobal problemlərin həlli məqsədilə elmi əməkdaşlığın genişləndirilməsindən ibarət olmuşdur. Belə ki, ötən əsrin 70-ci illərində dünyanın müxtəlif yerlərindəki elmi-tədqiqat qurumlarının əksəriyyəti yalnız milli problemlərə fokuslanmışdı və məhdud sayda elmi sahələri təmsil edən çox az sayda tədqiqatçı qlobal səviyyədə birgə elmi araşdırmalara maraq göstərirdi. Buna görə də, IIASA-nın təsis edilməsi və burada həyata keçiriləcək iddialı tədqiqat işləri müxtəlif ölkələr və elmi sahələr arasındakı mövcud maneələri aradan qaldırmalı idi. Beləliklə, IIASA ötən dövrdə çox sayda həm əvvəlki dövrlərdən indiyədək baş vermiş, həm də yeni qlobal problemlərin öyrənilməsi məqsədilə qabaqcıl sistemli təhlildən istifadə edə bilən, fənlərarası alimlər qruplarının müxtəlif ölkələrdən formalaşdırılması ilə qarşıya qoyulan missiyanı uğurla həyata keçirmişdir. Belə müştərək tədqiqat layihələrinə misal olaraq, 1980-ci illərdə IIASA-nı təmsil edən kimyaçı, bioloq və iqtisadçılar qrupu tərəfindən suların çirklənməsinin tədqiqi üzrə aparılmış tədqiqatların nəticələri Yaponiyada, ABŞ və keçmiş SSRİ respublikalarında müasir su siyasətlərinin işlənib hazırlanmasına böyük töhfə vermişdir və bu sənədlər indiyədək geniş istifadə olunmaqdadır. Maraqlıdır ki, "soyuq müharibə" bitdikdən sonra institutun sponsoru olan ölkələr ekoloji təhlükəsizlik sisteminə qlobal çağırışları nəzərə alaraq, IIASA-nın maliyyələşməsini davam etdirmişlər. Beləliklə, qeyd olunan institutda qərb və şərq dövlətlərindən, müxtəlif elmi sahələri təmsil edən alimlər arasında ötən dövrdə yaranmış qarşılıqlı anlaşma və əməkdaşlıq nəticəsində yeni elmi kəşflər və önəmli texnoloji nəticələr əldə edilmişdir. Məhz bu elmi sinergetika və birgə elmi araşdırma ruhu növbəti mərhələlərdə UNEP (BMT-nin Ətraf Mühit Proqramı) və WMO (Ümumdünya Meteorologiya Təşkilatı) tərəfindən 1988-ci ildə əsası qoyulmuş İqlim Dəyişmələri üzrə Hökumətlərarası Ekspertlər Qrupu (İPCC) [33] və 1987-ci ildə yaradılmış Beynəlxalq Geosfer və Biosfer Proqramı (International Geosphere-Biosphere Programme) [34] kimi qurumların iş prinsipinin əsasını təşkil etmiş, yəni onlar siyasətdən uzaq, müxtəlif kənar siyasi təsirlərdən, ayrı-ayrı dövlətlərin maraqları və təsirlərindən tam azad, müstəqil surətdə fəaliyyət göstərməyə başlamışlar.

Beləliklə, ötən əsrin 60-cı illərindən etibarən ekoloji paradiqmanın, yəni insan fəaliyyəti və bütövlükdə biosferlə əlaqəli geniş anlamda ekoloji təhlükəsizlik anlayışının institutlaşması prosesi vüsət almış, onun beynəlxalq münasibətlər kontekstində yeni konseptual və hüquqi dizaynının formalaşması, beynəlxalq ekoloji idarəetmə rejimlərinin hazırlanmasına başlanılmışdır. Bu proseslərin əvvəlində "ekoloji diplomatiya" anlayışı elmi termin kimi istifadə olunmasa da, faktiki olaraq, bir fəaliyyət sahəsi kimi gündəmə gəlmişdir. Həmin dövrdə ekoloji təhlükəsizliyin mövcud institutları və müvafiq sazişlərdə ekoloji paradiqmanın konseptuallaşdırılması, müvafiq ekoloji münasibətlərə önəmli dərəcədə təsir göstərə bilən bir neçə əsas mərkəzdə baş vermişdir. Ətraf mühitin mühafizəsi üzrə hüquqi-normativ bazanın, ekoloji siyasətlərin yaradılması prosesi ilk əvvəl ABŞ-da geniş vüsət almış və daha sonra Avropa İttifaqı da bu prosesə fəal qoşulmuşdur. Paralel olaraq, ekoloji problemlərin əhəmiyyətinin dərk edilməsi prosesində qeyd olunan ölkələrlə yanaşı, BMT və digər beynəlxalq təşkilatların da böyük rolu olmuşdur. Qeyd olunan aparıcı ölkələrdə ekoloji siyasətin formalaşmasının əsas aspektlərini və beynəlxalq müstəvidə

ekoloji təhlükəsizlik sisteminin təşəkkül tapması prosesini nəzərdən keçirək.

ABŞ-da ötən əsrin 60-cı illərindən etibarən formalaşan ekoloji təhlükəsizlik sistemi və ekoloji idarəçilik təcrübəsi maraq doğurur. Belə ki, bu ölkədə ekoloji dünyagörüşünün təşəkkül tapmasına, müvafiq ekoloji təhlükəsizlik sisteminin qurulmasına əhəmiyyətli dərəcədə təsir göstərən hadisə 1962-ci ildə ABŞ-da Raçel Karsonun (Rachel Carson) "Səssiz bahar" ("Silent Spring") adlı kitabının nəşr edilməsi olmuşdur [12]. Bu kitabda araşdırmaçı xanım tərəfindən amerikalı fermerlər və digərləri tərəfindən pestisidlərin geniş istifadəsinin kəskin tənqidi yer almışdır. Məhz kitabın təsiri ilə həmin dövrdə ABŞ ictimaiyyətində havanın və suyun çirklənməsi ilə bağlı ilkin kütləvi narahatlıqlar meydana gəlmiş, daha sonra həmin dövrdə neft-qaz sektorunda baş vermiş texnogen qəzalar, o cümlədən Kaliforniya yaxınlığında dənizdəki neft platformasında qəza nəticəsində yayılmış milyonlarla barel neftin çimərlikləri çirkləndirməsi, Ohayo ştatının Klivlend şəhəri yaxınlığında kimyəvi çirkləndiricilərə qərq olmuş Cuyahoqa çayının kortəbii olaraq alovlanması və digər hadisələr ictimai narazılığı getdikcə artırmışdır. Bu xüsusda, məhz iri sənaye şəhərlərinin havasının pisləşməsi, təbii ərazilərin zibilliklərə qərq olması və təhlükəli tullantılarla çirklənmiş şəhər, su təchizatı ilə bağlı artan ictimai narahatlıqlar ilə əlaqədar, 1970-ci ilin əvvəllərində ölkənin 37-ci prezidenti Riçard Nikson (Richard Nixon) tərəfindən ABŞ Nümayəndələr Palatasına və Senata ətraf mühitlə bağlı məhz 37 bənddən ibarət müraciət təqdim edilmişdir. Müraciətdə su təmizləyici qurğuların təkmilləşdirilməsi üçün dörd milyard ABŞ dolları tələb edilməsi, daxili yanma mühərrikli nəqliyyat vasitələrinin emissiyalarını azaltmaq üçün hava keyfiyyətinin milli standartlarının və ciddi monitorinq qaydalarının təlimatlarının hazırlanması, avtomobillər tərəfindən atmosfer çirklənməsini azaltmaq üçün federal hökumət tərəfindən maliyyələşdirilən elmi araşdırmalara başlanılması, benzində qurğuşun əlavələrinə görə vergiqoymanın təklif edilməsi, hava və su ilə çirklənmiş federal obyektlərin təmizlənməsinə göstəriş verilməsi, Böyük Göllərə tullantıların atılmasına son qoymaq üçün qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi, ən əsası isə neftin dəniz yolu ilə daşınması barədə müvafiq mühafizə tədbirlərinin gücləndirilməsi planının Konqresə göndərilməsi və neft dağılmalarının qarşısının alınması üçün Milli Fövqəladə Hallar Planının təsdiq edilməsi kimi məsələlər əks olunmuşdur. Paralel olaraq, prezident Nikson ətraf mühitə dair Konqresə təqdim etdiyi məktubda bəhs edilən məqsədlərə səmərəli şəkildə nail olmaq üçün federal hökumət proqramlarının hazırlanmasını təmin etmək üçün müvafiq şuranı da yaratmişdir. Məhz bu şuranın aktual tövsiyələrindən sonra prezident federal hökumətin ekoloji təhlükəsizlik məsələləri üzrə bir çox öhdəliklərini bir agentlik, yeni Ətraf Mühitin Mühafizəsi Agentliyi (EPA - Environmental Protection Agency) altında birləşdirmək planını 1970-ci ilin iyul ayında Konqresə təqdim etmiş və cəmi beş ay sonra, yəni 2 dekabr 1970-ci ildə Senat tərəfindən agentliyin yaradılması təsdiqlənmişdir. EPA-nın ilk rəhbəri isə ölkənin keçmiş baş prokuroru Vilyam Rukelhaus (William Ruckelshaus) adlı şəxs təyin olunmuşdur. Bu vəzifəyə məhz sabiq baş prokurorun təyin edilməsi isə ölkədə ekoloji təhlükəsizlik institutlarının ciddi hüquqi islahatlara ehtiyacı ilə əlaqədar idi. Eyni zamanda, ətraf mühitin mühafizəsini effektiv təşkil etmək üçün EPA-ya ekoloji problemlərə dair sorğular və müxtəlif tədqiqatlar aparmaq səlahiyyəti də verilmişdir [15].

Ümumiyyətlə, ABŞ-da ekoloji siyasətin inkişafı tarixinə nəzərə salsaq, görərik ki, bu ölkədə ilk ekoloji qanun 1899-cu ildə qəbul edilmişdir və o, çayların və limanların mühafizəsinə həsr edilmişdir. Bir il sonra isə ölkədə Təmiz Su Aktı kimi tanınan digər ekoloji məzmunlu qanun qəbul edilmişdir [15]. Sonuncu sənəd çaylar, göllər, dənizlər və çaylar kimi təbii su mənbələrini qorunmasının hüquqi rejimini müəyyən etsə də, növbəti illərdə dəfələrlə əlavə və dəyişikliklərə məruz qalmışdır. Ölkədə biomüxtəlifliyin qorunması istiqamətində ilk normativ akt isə 1918-ci ildə qəbul

edilmiş Köçəri Quşlar Sazişi Aktı kimi tanınan qanundan ibarət olmuşdur və o, ölkədə mövcud quşları və xüsusən də ABŞ-dan başqa ölkələrə miqrasiya edən quşları qorumaq məqsədi daşımışdır [17].

1948-ci ildə ABŞ hökuməti tərəfindən qəbul edilmiş Təmiz Suyun Mühafizəsi Aktı isə suyun kimyəvi çirklənmədən qorunması məqsədilə əvvəlki eyni adlı qanunu təkmilləşdirmişdir. 1949-cu ildə hökumət bu dəfə havanın çirklənməsinin qarşısını almaq üçün başqa bir normativ akt qəbul etmiş və sonrakı illərdə meydana gələn yeni ekoloji çağırışlarla əlaqədar bu sənədə dəfələrlə əlavə və dəyişikliklər edilmişdir. Belə ki, məsələn, 1967-ci ildə havanın çirklənməsi standartlarının müntəzəm monitorinqi yolu ilə havanın keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək üçün bu sənəd alt hissələrə bölünmüşdür. Paralel olaraq, hökumət bərk məişət tullantılarının idarə olunması ilə bağlı təhlükəli və bərk məişət tullantılarının utilizasiyasına nəzarət üçün Resursların Qorunması və Bərpası Aktını qəbul etmişdir. 1972-ci ildən 2003-cü ilə qədər isə ABŞ hökuməti təkcə ətraf mühiti qoruyan deyil, həm də istehlakçıların hüquqlarının müdafiəsini təşviq edən bir sıra ekoloji aktlar qəbul etmişdir. Məsələn, 1974-cü ildə qəbul edilmiş İstehlakçının Müdafiəsi Qanunu istehsal olunan məhsulların ekoloji cəhətdən təhlükəsiz və insan istehlakı üçün yararlı olmasını geniş ölçüdə təmin etmişdir [14].

Bununla yanaşı, ABŞ-da ekoloji təhlükəsizlik sisteminin hüquqi-institusional bazasının formalaşmasında müstəsna əhəmiyyət daşıyan əsas hadisə, yəni 01.01.1970-ci il tarixində ölkədə Milli Ətraf Mühit Siyasəti Qanununun qəbul edilməsi olmuşdur. Belə ki, bu qanun ABŞ-da ətraf mühitin mühafizəsi məsələlərinin institusional əsasını qoymuşdur və 1972-ci ildə Ətraf Mühitin Mühafizəsi Agentliyinin (EPA - Environmental Protection Agency) yaradılması üçün hüquqi baza rolunu oynamışdır [14]. Qanunda birbaşa tələb olunur ki, hökumət və özəl sektor qurumlarının bütün iqtisadi fəaliyyətləri zamanı ətraf mühit haqqında məlumatlılıq və təbii ehtiyatlardan məsuliyyətli istifadə təmin edilsin. Ətraf Mühitin Mühafizəsi Agentliyi məhz Milli Ətraf Mühit Siyasəti Qanununun icrasına nəzarət etmək məqsədilə 1972-ci ildə yaradılmışdır.

Bundan əlavə, qeyd olunan qanun ABŞ hökumətinə zəhərli maddələrin utilizasiyası ilə bağlı tənzimləmələri, Təmiz Su Aktı, bataqlıq ərazilər və su ehtiyatları ilə bağlı siyasət və resursların qorunması və bərpası siyasətini əhatə edən digər qanunları təkmilləşdirməyə imkan vermişdir [14]. O, həmçinin, müxtəlif hökumət layihələrini maliyyələşdirmək və icazə vermək barədə qərarların verilməsi zamanı bu layihələrin ətraf mühitə təsirlərinin nəzərə alınmasını təmin etmişdir.

ABŞ ilə yanaşı, qlobal səviyyədə ekoloji təhlükəsizlik sisteminin, müvafiq ekoloji siyasətin mütərəqqi formatda meydana gəldiyi ilk bölgələrdən biri Avropa İttifaqıdır.

Məlumdur ki, sosial-iqtisadi, xarici siyasət, təhlükəsizlik məsələləri kimi, ekoloji siyasət məsələləri üzrə də Avropa İttifaqında müvafiq qərarların işlənib hazırlanması üçün vahid, ümumi yanaşma tələb olunur. Belə ki, Avropa məkanında lokal, milli, regional və qlobal ekoloji maraqlar və prioritetlər arasında ümumi kompromisin əldə olunması mürəkkəb danışıqlar prosesindən keçir.

Avropa İttifaqında ekoloji təhlükəsizlik üzrə hüquqi-tənzimləyici inkişaf əsasən tarixən dörd mərhələ üzrə baş vermişdir. Birinci mərhələ, yəni 1957-1972-ci illər, heç şübhəsiz, ilk növbədə Avropa İqtisadi Birliyinin yaradılması və Roma Müqaviləsinin (1957) imzalanması ilə başlamışdır. Belə ki, "Avropa Daş Kömür və Polad Birliyinə" daxil olan altı ölkə (Almaniya Federativ Respublikası, İtaliya, Fransa və üç Benelüks ölkələri, yəni Belçika, Hollandiya, Lüksemburq) arasında münasibətlər o qədər sabit və mütərəqqi xarakter almışdı ki, tezliklə "Avropa İqtisadi Birliyinin" yaradılması barədə qərar qəbul olunmuş və 25 mart 1957-ci il tarixində imzalanmış Roma müqaviləsi ilə rəsmiləşmişdir [32]. Paralel olaraq, atom enerjisindən dinc məqsədlərlə istifadənin inkişafı və genişləndirilməsini təşviq etmək üçün nəzərdə tutulmuş Avropa Atom Enerjisi Birliyi (EURATOM)

müvafiq müqavilə əsasında yaradılmışdır. Roma müqaviləsinin əsas nailiyyətlərindən biri ümumi iqtisadi bazarın yaradılması haqqında anlaşma idi ki, bunun ardınca bir müddət sonra gömrük ittifaqı formalaşmışdır. Avropa Birliyinə üzv ölkələrin formalaşdırdığı ümumi bazar malın, xidmətin, kapitalın və insanların yerdəyişməsini, mövcud maneələrin ləğv olunmasını nəzərdə tutmuşdur. Roma müqaviləsi eləcə də ümumi kənd təsərrüfatı və xarici ticarət siyasətinin formalaşmasını təmin etmişdir. Məlum olduğu kimi, 1965-ci ildə imzalanmış Brüssel müqaviləsi (Merger Treaty) əsasında sözügedən üç təşkilatın, yəni Avropa Kömür və Polad Birliyinin, Avropa İqtisadi Birliyinin (Avropa Birliyi) və "Avroatomun" icraçı orqanlarının bir qurum (Avropa Komissiyası) şəklində tarixi birləşməsi hadisəsi 1967-ci ildə baş vermiş və yaranan ittifaq "Avropa Birlikləri" (AB) adlandırılmışdır. Bu ad 1992-ci ildə qəbul edilmiş Maastrixt müqaviləsinə əsasən Avropa İttifaqına (Aİ) çevrilmişdir.

Ətraf mühit kontekstində proseslərə nəzər salsaq görərik ki, AB-nin hüquqi bünövrəsini təşkil edən Roma müqaviləsinin 2-ci maddəsində ətraf mühit məsələlərinə də toxunulmuş və müqavilənin məqsədi olaraq aşağıdakı norma qeyd edilmişdir: "ümumi bazarın yaradılması yolu ilə üzv dövlətlərin... Birlik daxilində iqtisadi fəaliyyətinin ahəngdar, balanslaşdırılmış və davamlı inkişafı .. ətraf mühitin yüksək səviyyədə mühafizəsi və keyfiyyətinin yaxşılaşdırılması ...." [26].

Doğrudur, ekoloji təhlükəsizlik üzrə hüquqi-tənzimləyici inkişafın yuxarıda qeyd olunan ilkin mərhələsində (1957-1972) AB-nin ekoloji siyasəti tam formalaşmamışdı. Buna səbəb, həmin dövrdə əsas prioritet məqsədin AB-yə üzv olmuş dövlətlərin iqtisadi inkişafının qısa müddətdə təmin edilməsindən və digər inkişaf etmiş ölkələrin inkişaf səviyyəsinə çatdırılmasından ibarət olması ilə əlaqədardır. Bu mərhələdə ekoloji məsələlələr bir qədər diqqətdən kənarda qalmış, praktiki olaraq, heç bir ekoloji siyasət qəbul edilməmişdir.

AB-də ekoloji təhlükəsizlik üzrə hüquqi-tənzimləyici inkişafın ikinci mərhələsi 1972-1986-cı illəri əhatə edir. Bu dövr ətraf mühitin mühafizəsi sahəsində 1973-1976-cı illər üçün nəzərdə tutulan Ətraf Mühit üzrə Birinci Fəaliyyət Proqramının (The First Environment Action Programme [29] hazırlanması və 1973-cü ildə Avropa Parlamenti və Avropa İttifaqı Şurası tərəfindən qəbul edilməsinə təsadüf edir. Bu sənədin məhz 1972-ci ildə meydana gəlməsi, şübhəsiz ki, həmin ilin iyun ayında Stokholm şəhərində Birləşmiş Millətlər Təşkilatı tərəfindən İnsan Ətraf Mühiti Beynəlxalq Konfransının təşkili və ekoloji təhlükəsizlik sahəsində yeni qlobal çağırışların səsləndirilməsi ilə əlaqədar olmuşdur [39].

Qeyd edək ki, indiyədək Aİ tərəfindən səkkiz belə fəaliyyət proqramı qəbul edilmişdir, lakin məhz Ətraf Mühit üzrə Birinci Fəaliyyət Proqramı (bu sənədi bəzən Avropa Fəaliyyət Proqramı – European Action Programme (EAP) adlandırırlar) ətraf mühitin çirklənməsinin azaldılması, ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması və ictimaiyyətin məlumatlılığının artırılması kimi məsələləri ön plana çıxarmaqla, Avropa İttifaqının növbəti dövrlər üçün ətraf mühitin mühafizəsi sahəsində müvafiq qanunvericiliyinin və inklüziv siyasi kursunun əsasını qoymuşdur. Qeyd edək ki, Avropa Fəaliyyət Proqramı Avropa İttifaqının əsas ekoloji prioritetlərini və məqsədlərini müəyyən edən strateji xarakterli ilk sənəddən ibarətdir. O, 1973-cü ildə qəbul edildikdən sonra hər sonrakı proqram əvvəlkinə istinad edilərək, ekoloji problemlər və siyasi yanaşmalar sahəsinə görə genişləndirilmişdir. Məlumat üçün əlavə edək ki, 2-ci Avropa Fəaliyyət Proqramı 1977-1982-ci illəri, 3-cü Avropa Fəaliyyət Proqramı 1982-1987-ci illəri, 4-cü Avropa Fəaliyyət Proqramı 1987-1992-ci illəri, 5-ci Avropa Fəaliyyət Proqramı 1992-2000-ci illəri, 6-cı Avropa Fəaliyyət Proqramı 2002-2012-ci illəri, 7-ci Avropa Fəaliyyət Proqramı isə 2014-2020-ci illəri, 8-ci Avropa Fəaliyyət Proqramı isə 2021-2030-cu illəri əhatə edir.

Əvvəldə qeyd edildiyi kimi, ətraf mühit problemləri barədə ümumən cəmiyyətdə mövcud narahatlığın artmasına səbəb olan bir neçə texnogen qəza məhz həmin ərəfədə baş

vermişdir. Bunlardan biri 1969-cu ildə Santa Barbara yaxınlığında xeyli neft sızmasından ibarət olmuş və əvvəldə də bəhs edildiyi kimi bu kimi hadisələr ABŞ-da müvafiq ekoloji institutlaşma və qanunvericilik bazasının yaranması prosesini xeyli sürətləndirmişdir.

Qeyd edək ki, 1972-ci ilin iyun ayında Stokholmda keçirilmiş BMT İnsan Ətraf Mühiti Beynəlxalq Konfransı zamanı ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq üzrə iki mühüm sənəd gərgin müzakirələrdən sonra qəbul edilmişdir. Bu sənədlərdən biri Dayanıqlı İnkişaf Konsepsiyası və ətraf mühitin mühafizəsinin 26 prinsipini təsbit edən Birləşmiş Millətlər Təşkilatının İnsan Ətraf Mühiti Konfransının Stokholm Bəyannaməsidir. Əslində bu bəyannamə BMT səviyyəsində insanların sağlam ətraf mühitdə yaşamaq hüququnu ön plana çıxaran ilk beynəlxalq hüquqi sənəddir. Burada insan haqları və ekoloji rifah arasında qarşılıqlı əlaqə xüsusi vurğulanmış və ətraf mühitin deqradasiyası ilə mübarizəyə və dayanıqlı inkişafa yardım istiqamətində beynəlxalq əməkdaşlığa çağırış yer almışdır. Stokholm konfransı zamanı qəbul edilmiş digər sənəd isə 109 bənddən ibarət olan İnsan Ətraf Mühiti üzrə Fəaliyyət Planı (Action Plan for the Human Environment) olmuşdur və onun icrası BMT-nin ixtisaslaşmış qurumu kimi Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramına (UNEP) tapşırılmışdır [36].

Qeyd edilməlidir ki, Birləşmiş Millətlər Təşkilatının ətraf mühit problemlərinə dair Stokholm konfransı qlobal miqyasda ümumən ekoloji təhlükəsizlik, o cümlədən ətraf mühitin mühafizəsi kimi məsələlərə diqqətin artırılması prosesinə xüsusi təkan vermişdir. Təsadüfi deyildir ki, həmin ərəfədə, yəni 1971-1975-ci illərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) üzvü olan ölkələrin əksəriyyətində ətraf mühit məsələləri üzrə 31 yeni qanun qəbul edilmiş, məhz həmin konfransdan sonra cəmi on il ərzində yüzə yaxın ölkədə isə ətraf mühit üzrə nazirliklər yaradılmışdır [30].

Məhz bu kontekstdə Avropa Birliyi də ekoloji problemlər ilə mübarizənin müstəsna əhəmiyyətini qəbul edərək Avropa dəyərləri üzrə ümumi yanaşmaya əsaslanan ekoloji siyasət məsələlərini ön plana çıxarmışdır. Belə ki, Avropa Komissiyası 22 iyul 1971-ci ildə Birinci Kommunikasiyanı, onun ardınca isə 24 mart 1972-ci ildə ilk Avropa Fəaliyyət Proqramı (EAP-1) layihəsini dərc etmişdir. Ümumi ekoloji siyasətin qəbul edilməsi haqqında qərar, rəsmi olaraq, 1972-ci ilin oktyabrında Parisdə keçirilmiş Avropa Sammitində qəbul edilmişdir.

Qeyd olunmalıdır ki, 19 iyul 1973-cü ildə AB-nin Ətraf Mühit Şurasının (AB rəhbərləri ilə birliyin ətraf mühit nazirlərinin birgə toplantısı) ilk iclası keçirilmiş və bu iclasda ümumi ekoloji siyasətin prinsipləri razılaşdırılmışdır. 22 noyabr 1973-cü il tarixində isə bu Şura Ətraf Mühit üzrə Birinci Fəaliyyət Proqramının qəbulunu öz qətnaməsi ilə təsdiq etmişdir. Eyni zamanda qərara alınmışdır ki, belə fəaliyyət proqramları beşillik dövrü əhatə etsin və ilk proqramın icrası 31 dekabr 1976-cı il tarixinədək başa çatdırılsın. Hərçənd ki, dördüncü fəaliyyət proqramından sonra icra müddəti beş ildən daha çox müddəti əhatə etmişdir və bunun da əsas səbəblərindən biri hər növbəti fəaliyyət dövrlərində Aİ-nin sıralarına yeni üzv-dövlətlərin və bir sıra hallarda isə ətraf mühit məsələlərinə ümumiyyətlə laqeyd olmuş keçmiş sosialist ölkələrinin qoşulması ilə əlaqədar olmuşdur. Bununla əlaqədar, ətraf mühit məsələləri üzrə müvafiq hədəflərə nail olunması üçün beş ildən artıq müddətə ehtiyac yaranmışdır. Məlumat üçün qeyd edək ki, 1973-1976-cı illəri əhatə edən ilk Avropa Fəaliyyət Proqramının icrası zamanı AB-ə Danimarka, İrlandiya və Böyük Britaniya kimi yeni üzv-dövlətlər qoşulmuşlar.

Ətraf Mühit üzrə ilk Fəaliyyət Proqramını təhlili göstərir ki, bu proqram ekoloji problemlərin qarşısının alınmasının vacibliyini vurğulayan ilk rəsmi ümum-Avropa xarakterli sənəddir. Sənəddə xüsusi olaraq vurğulanmışdır ki, hər hansı siyasi və ya texnoloji qərar qəbul edilməzdən əvvəl onun ətraf mühitə potensial təsirləri mütləq araşdırılmalıdır. Bundan əlavə, burada ekoloji təhlükəsizlik məsələlərinin ətraf mühitin mühafizəsi üzrə bir

neçə önəmli prinsipi təsbit edilmişdir. Bunlardan biri, məsələn, "yalnız çirkləndiricinin dəymiş ziyanı ödəməsi" prinsipidir ki, onun məzmunu ətraf mühitin çirkləndirilməsi zamanı yaranmış müvafiq problemlərin qarşısının alınması və ya onun neqativ təsirlərinin azaldılması üçün görülən bütün tədbirlərin xərcinin dövlət tərəfindən deyil, yalnız çirkləndirici tərəfindən ödənilməsindən ibarətdir. Digər prinsip Aİ-nin üzv dövlətlərinin transsərhəd problemlər yaratmamaq və ya üçüncü dünya ölkələrinin iqtisadi inkişafı üçün hər hansı problem yaratmamaq vəzifəsidir. Başqa bir önəmli prinsip "kommersiya" prinsipidir, yəni ümumi ekoloji vəziyyətin korlanmasının və çirklənmənin problemli ərazilərdən nisbətən təmiz ərazilərə keçirilməsinin qəbuledilməzliyi məsələsidir. Başqa önəmli prinsiplər ekoloji siyasətin uzunmüddətli konsepsiyasının hazırlanması zərurəti, ictimaiyyətin ətraf mühitin mühafizəsi məsələlərində inklüziv iştirakının təmini, qlobal ekoloji tədqiqatların dövlət siyasətinə effektiv təsiri və ətraf mühitin mühafizəsinin Aİ-nin hər bir üzv-dövlətinin milli prioritetinə çevrilməsi kimi məsələləri əhatə edir.

1977-1981-ci illəri əhatə edən İkinci Fəaliyyət Proqramında (EAP-2) sənaye çirklənmələrinə nəzarət üzrə bütün xərclərin hesablanması barədə tövsiyələr təqdim edilmişdir. Bundan əlavə, 1980-ci ildə havada kükürd dioksid və digər hissəciklərin mövcud olması problemlərini həll etmək üçün havanın keyfiyyətinə dair ilk əhəmiyyətli direktiv qəbul edilmişdir. Eyni zamanda, balıq və molyuskların mühafizəsini təmin etmək üçün zəruri olan şirin suyun keyfiyyəti, yeraltı suların mühafizəsi və içməli su ilə bağlı direktivlər qəbul edilmişdir. Həmin dövrdə ətraf mühitin kimyəvi və nüvə tullantıları ilə çirklənməsi problemlərini həll etmək üçün ayrıca direktiv də qəbul edilmişdir.

Ümumən, Avropa İttifaqının ekoloji təhlükəsizlik və ətraf mühit siyasətinin inkişafında kimyəvi maddələr məsələsi daim mərkəzi yeri tutmuşdur. Bu həm də onunla əlaqədar idi ki, kimyəvi maddələrin ətraf mühitə mümkün zərərləri ilə mübarizə məsələləri istiqamətində qərbdə Aİ-dən əvvəl məhz ABŞ-da 1976-cı ildə Zəhərli Maddələrə Nəzarət Aktı (The Toxic Substances Control Act – TSCA) adlı qanun qəbul olunmuş və bu qanun Ətraf Mühitin Mühafizəsi Agentliyinə (EPA - Environmental Protection Agency) kimyəvi maddələr və ya qarışıqlarla bağlı hesabatları, onların uçotunu və müvafiq sınaqların keçirilməsini tələb etmək, həmçinin bu maddələrlə əlaqədar məhdudiyyətlər tətbiq etmək səlahiyyətini vermişdir [24]. Məlumat üçün qeyd edək ki, bəzi məhsullar və kimyəvi maddələr, o cümlədən qida, dərman, kosmetika və pestisidlər bu qanunun təsir dairəsindən çıxarılmışdır. 22 iyun 2016-cı ildə prezident Obamanın Frank R. Lautenberq tərəfindən irəli sürülmüş "XXI əsr üçün Kimyəvi Təhlükəsizlik Qanunu"nu imzalaması ilə, faktiki olaraq, Zəhərli Maddələrə Nəzarət Aktı yenilənmişdir. Bu qanun həm də istehsalçılardan bütün yeni kimyəvi maddələr üçün bazara qədər bildirişlər təqdim etmələrini tələb edir və onlardan bir sıra sınaqların nəticələrinin təqdim edilməsini ehtiva edir. Beləliklə, Avropa Birliyi kimyəvi maddələrlə bağlı qeyd olunan bir sıra müxtəlif bahalı sınaqlara ehtiyacın qarşısını almaq üçün ABŞ-ın bəhs olunan yanaşmasını qəbul etməyi nəzərdən keçirmişdir və yalnız bir sıra mürəkkəb danışıqlardan sonra AB-də analoji qanunvericilik aktı barədə razılıq əldə olunaraq, 1967-ci ildə qəbul edilmiş müvafiq direktivə düzəliş qismində rəsmiləşdirilmişdir.

AB-də Üçüncü Fəaliyyət Proqramı (EAP-3) 1982-1986-cı illəri əhatə etmişdir. Bu dövrdə Yunanıstanın AB-ə qoşulması prosesi yekunlaşmış və bununla da birlikdə İrlandiyadan sonra iqtisadi vəziyyəti zəif, işsizlik səviyyəsi yüksək olan yeni bir yoxsul dövlət meydana gəlmiş və özü ilə Aralıq dənizinin bir sıra ciddi ekoloji problemlərini də gətirmişdir. Qeyd olunan vəziyyət ətraf mühitin mühafizəsi və işsizliklə mübarizə məsələləri üzrə sinergetik idarəetmə texnologiyalarının tətbiqi barədə bir sıra strateji əhəmiyyətli fəaliyyətlərin EAP-3-ə daxil edilməsi ilə nəticələnmişdir.

Eyni zamanda, bu fəaliyyət proqramının icrası zamanı aydın olmuşdur ki, istənilən ölkədə və ya onların birliyində, o cümlədən

AB-də ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində tədbirlərin işlənib hazırlanması və strateji sənədlərə daxil edilməsi heç də onların, avtomatik olaraq, icra ediləcəyinə zəmanət vermir. Belə ki, Üçüncü Fəaliyyət Proqramının icrası və icrasına monitorinq məsələləri bir sıra hallarda aşağı səviyyədə aparılmışdır. Bundan əlavə, proqramın icrasının nəticələri ekoloji problemlərin digər əlaqəli siyasət, idarəçilik sahələrinə inteqrasiyasının zəruriliyini vurğulamışdır. Bu dövr həm də qlobal səviyyədə ekoloji problemlərlə əlaqədar beynəlxalq hadisələrin baş verməsi ilə yadda qalmışdır. Belə ki, bu hadisələr misal olaraq, əvvəlki illərdə məsuliyyətsiz şəkildə tullantı idarəçiliyi, utilizasiyası məsələlərini, o cümlədən ABŞ-da Lav kanalında və Hollandiyada Lekkerkerkdə yaşayış məntəqələrində kimyəvi tullantıların sızması kimi hadisələri, habelə inkişaf etmiş ölkələrdən inkişaf etməkdə olan ölkələrə utilizasiya məqsədilə tullantıların "turizmi" kimi neqativ təcrübələri göstərmək olar.

Beləliklə, bir sıra elmi mənbələrin təhlili göstərmişdir ki, Avropa Birliyi tərəfindən atmosfer havasının keyfiyyəti və tullantıların idarə olunması kimi ekoloji məsələlərə diqqət yetirilməsinə baxmayaraq, birliyin ekoloji təhlükəsizlik məsələləri və ümumi yanaşmaya əsaslanan ətraf mühit siyasətinin işlənib hazırlanması və onun həyata keçirilməsinin ilk 30-35 ilində əldə olunmuş nəticələr o qədər də effektiv olmamışdır. Belə ki, 1980-ci illərin ortalarına qədər dövrdə ətraf mühitin mühafizəsi sahəsində istər institusional, istərsə də qanunvericilik sahələrində, ABŞ ilə müqayisədə, ciddi gerilik hiss olunmuşdur.

Ümumiyyətlə, ötən əsrin 60-cı illərinin sonuna doğru istər Avropada, istərsə də digər inkişaf etmiş ölkələrdə müvafiq tədqiqatçı alimlərin, siyasətçilərin və iş adamlarının ətraf mühit məsələlərinin, xüsusən də onun gələcəyi ilə bağlı mövzuların birgə müzakirələrinə, fikir mübadiləsinə marağı artmışdır. Bir sıra hallarda birgə müzakirələr təcrübəsinin geniş yayılmasına yeni müxtəlif təşkilati strukturlar, qeyri-hökumət təşkilatları tərəfindən bu sahədə irəli sürülmüş nəzəri konsepsiyalar ilə əlaqədar təkan verilmişdir. Bütün bu elmi və nəzəri biliklər dünyanın müxtəlif ölkələrində, xüsusən də qərb ölkələrində ətraf mühit və dayanıqlı inkişaf məsələləri üzrə yeni nəsil mütəxəssislərin formalaşması, habelə onların siyasətçilər və ictimai xadimlərlə birlikdə bu mövzular ətrafında bir araya gəlməsi və təşkilatlanması ilə nəticələnmişdir. Paralel olaraq, müxtəlif ölkələrin siyasi həyatında yaşıllar partiyasının fəallığı artmağa başlamış, ətraf mühit, dayanıqlı inkişaf məsələlərinin ölkələrin siyasi gündəliyinə inteqrasiyası fonunda yeni beyin mərkəzləri yaradılmağa başlamışdır. Məhz bu dövrdə qlobal problemlərin, o cümlədən dayanıqlı inkişaf, ətraf mühit məsələlərinin araşdırılması məqsədilə tanınmış iş adamı Aurelio Peççei (Aurelio Peccei) tərəfindən 30-a yaxın həmfikri ilə birgə 1968-ci ildə Roma Klubunun yaradılması bu qəbildəndir. Bu klub müxtəlif qlobal problemlərlə bağlı “Qlobal problem” adlandırılan tədqiqat işlərinin əsasını qoymuşdur. Belə ki, klub tərəfindən qoyulan sualları cavablandırmaq üçün həmin dövrün bir sıra görkəmli alimləri tərəfindən həmin o dönəmin mütərəqqi metodologiya hesab olunan elektron hesablama maşınlarının köməyi ilə qlobal modelləşdirmə və digər təhlil üsulları ilə dünyanın inkişaf perspektivləri barədə məruzələr təqdim olunmağa başlamış və bu məruzələr Roma Klubunda geniş müzakirə olunmuşdur. Məsələn, Roma klubunun "Bəşəriyyətin çətinlikləri” başlıqlı məruzələr seriyası bu qəbildəndir. Məsələn, dünyanın inkişaf dinamikasının qlobal modelləşdirilməsinin başlanğıcında Aurelio Peççei və Aleksandr Kinqin sifarişi ilə sivilizasiyanın inkişafının riyazi modelini hazırlayan alimlər arasında türk əsilli amerikalı filosof və riyaziyyatçı Həsən Özbəkxan, Erix Yanç və Aleksandr Xristakis kimi alimlər də yer almışlar. Məhz Həsən Özbəkxan tərəfindən, ilk dəfə olaraq, dünya inkişafının ilk qlobal riyazi kompüter modeli işlənib hazırlamışdır.

Bu xüsusda qeyd edək ki, «Böyümənin hədləri» (The Limits to Growth) adlanan hesabat da 1972-ci ildə Roma klubu tərəfindən hazırlanmışdır [21]. Bu hesabatda sistemli

təhlil əsasında irəli sürülmüş əsas fərziyyə ondan ibarətdir ki, cari tendensiyalar dəyişmədiyi təqdirdə cəmiyyət növbəti əsrdə iqtisadi artımın son həddinə, yəni "sıfır böyümə" nöqtəsinə yetişəcəkdir. Belə ki, hesabatda "artım sərhədləri", "iqtisadi artımın resurs və ekoloji məhdudiyyətləri" və "dayanıqlı inkişaf" kimi anlayışlar təhlil edilmişdir. "Planet-bəşəriyyət" sisteminin sabitləşməsi üçün kafi şərt kimi "sıfır əhali artımı və sənaye" ideyası məhz qeyd olunan hesabatda irəli sürülmüşdür. Eyni zamanda, Roma Klubunun məruzələrində vurğulanır ki, sənayenin və əhalinin sıfır artım strategiyası yalnız böhranın başlanmasını gecikdirə bilər, lakin onun qarşısını ala bilməz. Qeyd edək ki, həmin dövrdə bütün nüfuzlu iqtisadçılar Roma Klubunun bu ideyalarını qəbul etməmişlər. Buna baxmayaraq, ətraf mühitin, bütövlükdə planetin mühafizəsi məqsədlərini ehtiva edən müasir sosial-iqtisadi inkişaf konsepsiyalarının meydana gəlməsində bu klubun hesabatlarının verdiyi töhfə əvəzsizdir.

Qeyd olunmalıdır ki, «Böyümənin hədləri» hesabatı ilə eyni vaxtda ABŞ-da da bir sıra elmi hesabatlar ictimaiyyətə təqdim olunmuşdur. Bunlara misal olaraq, ABŞ-ın Ətraf Mühitin Keyfiyyəti və Dövlət Departamenti Şurası tərəfindən 1980-ci ildə hazırlanmış "Qlobal 2000" [10], Beynəlxalq İnkişaf üzrə Müstəqil Komissiya (Brandt Komissiyası) tərəfindən 1980-ci ildə hazırlanmış "Üçüncü Dünyanın inkişafı üzrə hesabat" [19], Ümumdünya Vəhşi Təbiət Fondu və Beynəlxalq Təbiəti və Təbii Sərvətləri Mühafizə İttifaqı tərəfindən 1980-ci ildə təqdim edilmiş "Ümumdünya Mühafizə Strategiyası" [20] kimi sənədləri göstərmək olar. Bu hesabatlar ətraf mühit siyasəti, ətraf mühitin mühafizəsi və dayanıqlı inkişaf sahəsində uzunmüddətli strategiyanın hazırlanmasına fokuslanmışdır, lakin bir çox elmi mənbələrdə bu hesabatların heç biri həmin dövrdə Avropa Birliyinin ekoloji təhlükəsizlik siyasətinə ciddi təsir göstərmədiyi qeyd edilir.

AB-də ekoloji təhlükəsizlik üzrə hüquqi-tənzimləyici inkişafın üçüncü mərhələsi 1987-ci il iyulun 1-də Vahid Avropa Aktının (Single European Act, SEA) qəbul edilməsi ilə başlamışdır və 1993-cü ilin dekabr ayında Avropa İttifaqının yaradılmasını rəsmiləşdirən Maastrixt Müqaviləsinin qüvvəyə minməsi ilə başa çatmışdır. Belə ki, qəbul edilmiş Vahid Avropa Aktı AB-nin ətraf mühit siyasətinə ən azından iki aspektdə əhəmiyyətli dərəcədə təsir etmişdir. Belə ki, ilk növbədə ekoloji siyasət üçün hüquqi baza yaradılmış və onun həyata keçirilməsi üçün bir sıra hüquqi və iqtisadi alətlər təmin edilmişdir. Digər aspekt isə ondan ibarətdir ki, bu qanun ətraf mühit məsələlərinə dair qərarların qəbulu zamanı əvvəllər mühüm maneələr təşkil etmiş məqamlar üzrə qərar qəbuletmə prosedurlarında mühüm dəyişiklikləri müəyyən etmişdir. Qanunda ətraf mühit siyasətinin əsas məqsəd və prinsipləri onun 130R nömrəli maddəsində təqdim edilmişdir:

- ekoloji siyasət ətraf mühitin mühafizəsinə, onun qorunub saxlanılmasına və keyfiyyətinin yaxşılaşdırılmasına, insanların sağlamlığının qorunmasının və təbii ehtiyatlardan məqsədəuyğun və səmərəli istifadənin dəstəklənməsinə yönəldilmişdir;
- ekoloji siyasət qabaqlayıcı fəaliyyətlərin icrası prinsiplərinə, zərərin ilkin mərhələdə aradan qaldırılması, habelə buna görə məhz çirkləndiricinin maddi məsuliyyətinə əsaslanmalıdır;
- ekoloji tələblər "xarici inteqrasiya" prosesinə tabe olmalıdır, yəni AB-nin digər siyasətlərinin, xüsusən də, ümumi kənd təsərrüfatı siyasətinin, regional siyasətin və sosial inkişaf siyasətinin tərkib hissəsinə çevrilməlidir;
- AB-nin ətraf mühit siyasəti elmi-texniki məlumatları, regional ekoloji şəraiti, bu istiqamətdə fəaliyyətlərin və ya fəaliyyətsizliyin, habelə iqtisadi və sosial inkişafın potensial fayda və zərərlərini nəzərə almalıdır;
- Nəhayət, subsidiarlıq prinsipi (bu prinsip Birinci Fəaliyyət Proqramında

təqdim edilmişdir) rəsmən ekoloji siyasətə də şamil edilməlidir ki, bu da tədbirlərin ən uyğun səviyyədə görülməsinin zəruriliyini ifadə edir.

Beləliklə, Dördüncü Fəaliyyət Proqramının (EAP-4) hazırlanması Vahid Avropa Aktının qüvvəyə minməsinə təsadüf etmişdir və, ilk dəfə olaraq, bu proqramın hazırlanması və onun icrası prosesinə Avropa Komissiyası tərəfindən ətraf mühitin mühafizəsi üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, sənaye müəssisələri, həmkarlar ittifaqlarının təmsilçiləri və digər maraqlı tərəflər geniş surətdə cəlb edilmişdir. Bu inklüziv iştirakçılıq sayəsində ətraf mühitə dair tələblər artıq müvafiq maraqlı tərəflərin sırf ekoloji təhlükəsizlik təlimatlarına formal əməl olunması və ya müvafiq ödənişlərin həyata keçirilməsi kimi qəbul edilmirdi, o həm də Avropa Birliyinin bütün istiqamətləri üzrə müvafiq siyasətlərinin optimallaşdırılmasına şərait yaratmağa başlamışdı. EAP-4 ətraf mühit siyasətinin inkişaf etdirilməsi üzrə beş prioritet istiqaməti müəyyən etmişdir:

1. AB-nin qanunvericiliyinə riayət olunmasının təmini və icrası;
2. Ətraf mühit siyasətinə, xüsusilə çirklənmənin qarşısının alınmasına münasibətdə maddə-yönümlü və mənbə-yönümlü yanaşma;
3. Ekoloji məlumat azadlığı kontekstində müvafiq məlumatların yayılması və ətraf mühitin vəziyyəti haqqında AB-nin üç illik hesabatının hazırlanması;
4. Ətraf mühitin mühafizəsi ilə yeni iş yerlərinin yaradılması arasında əlaqə;
5. Qanunvericiliyin tamamlanması üçün yeni siyasət alətlərinin (məsələn, maliyyə və iqtisadi təşviqlər və kommunikasiya vasitələri) yaradılması.

Qeyd olunmalıdır ki, Vahid Avropa Aktı həm Avropa Birliyində, həm də digər bölgələrdə ekoloji təfəkkürün canlanmasına böyük töhfə vermişdir. Belə ki, məsələn, 1987-ci il martın 1-dən 1988-ci il martın 1-dək elan olunmuş Avropa Ətraf Mühit İli ərzində Avropa Komissiyası öz ekoloji imicini gücləndirmək, habelə vətəndaşlar, özəl sektorla sıx əlaqələr yaratmaq istiqamətində önəmli fəaliyyətlər göstərmişdir. Bundan əlavə, əvvəlki mərhələlərdən fərqli olaraq, məhz üçüncü mərhələdə Avropa Birliyinin rəhbərliyi ətraf mühit problemləri ilə daha fəal məşğul olmuş, Ətraf Mühit Agentliyini yaratmış, yeni siyasət alətlərini tətbiq etmiş, müvafiq istiqamətdə vəsaitlərin ayrılmasını həyata keçirmiş və zəruri fondları yaratmış, kommunikasiya probleminin həlli, vəzifələrin müəyyən edilməsi, ətraf mühitin mühafizəsi üzrə elmi tədqiqatların təşkili ilə məşğul olmuşdur.

1992-ci il iyun ayının 3-dən 14-dək Braziliyanın Rio-de-Janeyro şəhərində təşkil edilən BMT-nin Ətraf Mühit və İnkişaf üzrə Konfransı, Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf üzrə Konfransı, UNCED 1972-ci ildə keçirilmiş BMT-nin Stokholm Konfransının məntiqi davamı kimi baş tutdu və bu konfrans Ətraf Mühit və İnkişaf üzrə Rio de Janeyro Bəyannaməsi çərçivəsində effektiv fəaliyyət üçün qlobal miqyasda siyasi iradə və öhdəliyi bir qədər fərqli ölçüdə möhkəmləndirdi [37]. Qeyd olunan bəyannamənin məqsədi "... dövlətlər, cəmiyyətin əsas sektorları arasında əməkdaşlığın yeni səviyyələri..." vasitəsilə "yeni, ədalətli qlobal tərəfdaşlığın qurulmasından..." ibarətdir və tərəfdaşlığın alətləri isə "... hamının maraqlarının nəzərə alınmasını və qlobal ətraf mühitin və inkişaf sisteminin bütövlüyünün qorunmasını..." təmin edən yeni beynəlxalq ekoloji sazişlər olmalıdır [37].

Bununla yanaşı, iqlim dəyişmələri, bioloji müxtəliflik, meşələrin mühafizəsi və inkişafı prinsiplərinə dair çərçivə konvensiyalarına əlavə olaraq, UNCED 16 əsas prinsipi özündə ehtiva edən "Yer Xartiyasını" ("Earth Charter") [38] qəbul etməklə ekoloji təhlükəsizlik və əlaqəli çərçivənin qlobal səviyyədə formalaşması istiqamətində önəmli addım atmışdır. Bu xartiya 4 əsas hissədən ibarətdir:

– Yerin bütün canlı aləminə hörmət və onun mühafizəsi;

– Ekoloji bütövlük;

– Sosial və iqtisadi ədalət;

– Demokratiya, qeyri-zorakılıq və sülh.

Bununla yanaşı, Rio Konfransı zamanı BMT-nin qlobal səviyyədə cəmiyyətin inkişafı üzrə baxışını əks etdirən "XXI Əsr üçün Gündəlik" ("Gündəlik 21") adlı sənəd qəbul edildi [38]. Sammitdə 179 ölkə "Gündəlik 21"i imzaladı və sonrakı mərhələdə bir çoxları da onlara qoşuldu.

Qeyd olunmalıdır ki, "Gündəlik 21" dövlətlərin dayanıqlı inkişafına keçidini asanlaşdırmaq üçün nəzərdə tutulmuş 115 spesifik proqramdan ibarətdir. "Yer Sammiti" zamanı liderlər tərəfindən ifadə edilən məqsəd mümkün qədər çox ölkənin ekoloji siyasətinə mütərəqqi dəyişiklərin həyata keçirilməsindən ibarət olmuşdur. Beləliklə, Gündəlik 8 fəaliyyət sahəsinə bölünmüşdür: kənd təsərrüfatı, biomüxtəlifliyin və ekosistemlərin idarə edilməsi, təhsil, enerji və mənzil, əhali, ictimai sağlamlıq, resurslar və təkrar emal, nəqliyyat, davamlı iqtisadi inkişaf.

Məlum olduğu kimi, 7 fevral 1992-ci ildə Avropa Birliyinin Avrova İttifaqına çevrilməsi haqqında tarixi Maastrixt Müqaviləsi imzalandı. Müqavilə əsasında o dövrdə mövcud olan üç Avropa Birlikləri (Avropa İqtisadi Birliyi, Avropa Atom Enerjisi Birliyi və Avropa Kömür və Polad Birliyi) vahid struktur altında birləşərək Avropa İttifaqını yaratdı. Maraqlıdır ki, bu müqavilənin 2-ci maddəsində yeni formalaşan biriliyin əsas məqsədlərindən biri kimi balanslaşdırılmış, harmonizə edilmiş iqtisadi fəaliyyətlərin, dayanıqlı, inflyasiyasız artımın ətraf mühit məsələləri nəzərə alınmaqla təşviq edilməsi vurğulanmışdır [27]. Bundan əlavə, 3-cü Maddənin 3(k) bəndində birliyin fəaliyyətinin əsas istiqamətləri sırasında ətraf mühit sferası qeyd olunmuşdur. Eyni zamanda, müqavilənin 130r, 130s, 130t maddələrində yüksək dərəcəli ekoloji mühafizə məsələləri, ekoloji tələblərin Aİ-nin digər siyasətlərinə inteqrasiyası, Aİ-nin müxtəlif bölgələrində ekoloji vəziyyətin müxtəlifliyi nəzərə alınmaqla, regional və qlobal ekoloji problemlərin həlli üzrə kollektiv tədbirlərin təşviqi, ətraf mühitin mühafizəsi siyasətinin mümkün elmi-texniki məlumatlara, Aİ-nin bütövlükdə və regionların ehtiyacları nəzərə alınmaqla, balanslaşdırılmış sosial-iqtisadi inkişafına əsaslanması və digər ekoloji təhlükəsizlik aspektləri yer almışdır.

Qeyd edildiyi kimi, Ətraf Mühit üzrə Beşinci Fəaliyyət Proqramı (EAP-5) Rio konfransının təşkili dövründə hazırlanmışdır. Bu proqram "Dayanıqlı inkişafa doğru" ("Towards Sustainability") adlanır və Brundtland Hesabatında və "Gündəlik 21"-də müəyyən edilmiş prinsiplərə uyğun tərtib olunmuşdur [24].

Məlumat üçün qeyd edək ki, proqramın hazırlanmasında Hollandiyanın Milli Ətraf Mühit Siyasəti Planından (National Environmental Policy Plan, NEPP) bir model kimi istifadə edilmişdir. Belə ki, beş illik dövrü əhatə edən NEPP-in mühüm xüsusiyyəti ondan ibarətdir ki, o, növbəti 20 il ərzində ətraf mühitin vəziyyətinin gözlənilən bütün tendensiyaları və ekoloji siyasətin mümkün nəticələrini nəzərə almaqla müstəqil tədqiqata əsaslanmışdır və bu tədqiqat hər beş ildən bir yenilənmişdir.

Strateji əhəmiyyətli bu sənəddə dayanıqlı inkişafın və cəmiyyətin bütün sahələrində, o cümlədən insanların həyat tərzində, təfəkküründə, ətraf mühitə münasibətində, vərdişlərində əsaslı dəyişikliklərin həyata keçirilməsinin zəruriliyi vurğulanmışdır. Proqramda bəhs olunan məsələlər ətraf mühitlə bağlı siyasət və məqsədlərin bütün digər ümumi siyasi sahələrə inteqrasiyasını tələb edir. Bu baxımdan proqramda ən mühüm sektorlar qismində kənd təsərrüfatı, enerji, sənaye, nəqliyyat və turizm kimi sahələr göstərilmişdir. Digər mühüm məsələ ondan ibarətdir ki, inzibati tədbirlər qeyd olunan dayanıqlı inkişaf, o cümlədən ekoloji təhlükəsizlik sistemi üçün proqramda nəzərdə tutulan islahatları stimullaşdırmaq üçün, ənənəvi olaraq, ən effektiv alət sayılmadığından, bu aləti tamamlayan və ya onu qismən əvəz edən bazar iqtisadiyyatı əsaslı siyasi alətlərin qəbul edilməsi qərara alınmışdır.

Beləliklə, Avropa İttifaqında həmin dövrdə qanunvericilik bazasının ekoloji təhlükəsizlik

sisteminin təmini məsələlərinə nəzarətin zəifliyi fonunda ABŞ-da ekoloji siyasətin effektivliyi üzrə ciddi hesabatlılıq prinsiplərinin təmini üzrə əldə edilmiş uğurlar aydın nəzərə çarpmışdır. Bu məqamla yanaşı, Avropa ictimaiyyətində Avropa Komissiyasının fəaliyyəti ilə bağlı artan narazılıq, inamsızlıq, habelə iqtisadi liberallaşma tələbi "qoca qitədə" ekoloji siyasət üzrə əlavə alətlərin işlənib hazırlanması ehtiyacını formalaşdırmışdır. Avropa Komissiyası tərəfindən bu istiqamətdə yaradılması nəzərdə tutulan bütün alətlər əsasən üç kateqoriyaya bölünürdü: hüquqi, iqtisadi və kommunikativ. Eyni zamanda, qəbul edilmiş Beşinci Fəaliyyət Proqramında strategiyanın dörd kateqoriyaya bölünməsi təklif edilmişdir [16]:

1. Ətraf mühitin mühafizəsinin minimal səviyyələrini müəyyən etmək, habelə daha geniş öhdəliklərin həyata keçirilməsi və zəruri hallarda vahid Aİ bazarının bütövlüyünün qorunması istiqamətində Aİ-nin müvafiq qayda və standartlarını təmin etmək üçün nəzərdə tutulmuş qanunvericilik sənədləri;
2. İqtisadi və vergi güzəştləri, habelə həvəsləndirici alətlərdən istifadə etməklə xarici ekoloji xərclərin beynəlmiləlləşdirilməsinə, habelə təbii ehtiyatlardan məsuliyyətli istifadəni, çirklənmənin qarşısının alınmasını və "düzgün qiymətlərin idarəçiliyi" prinsipini təşviq etmək üçün mülki məsuliyyətə yönəlmiş bazar alətləri ("düzgün qiymətlərin idarəçiliyi" prinsipi dedikdə ekoloji cəhətdən təmiz mal və xidmətlərin bazarda çirkləndirici və ya israfçı rəqib mal və xidmətlərlə müqayisədə kommersiya baxımından dezavantajlı olmaması nəzərdə tutur);
3. Təkmilləşdirilmiş giriş və statistik məlumatlar, elmi tədqiqatları və texnoloji inkişafı, təkmilləşdirilmiş sektoral və məkan planlamasını, ictimai/istehlakçı məlumatları, peşə təhsili və təlimi ehtiva edən üfüqi dəstəkləyici alətlər;
4. Dayanıqlı inkişafın reallaşdırılması üçün Avropa Birliyinin Struktur Fondları tərəfindən icra olunan inkişaf proqramları və layihələri, davamlı tədbirlərin və inzibati strukturların gücləndirilməsi üzrə fəaliyyətlərin praktik nümayiş modelləri üçün Ətraf Mühit üçün AB Maliyyə Aləti (LİFE) tərəfindən dəstəyi və s. habelə Maastrixt Müqaviləsinə əsasən AB-nin daha az inkişaf etmiş ölkələrində konkret ekoloji problemlərin həlli üçün nəzərdə tutulmuş yeni Ətraf Mühit və İnfrastrukturun Mobilizasiyası Fondunu əhatə edən maliyyə dəstəyi mexanizmləri.

Beləliklə, nəzərdən keçirilən fəaliyyət dövrü həm Avropa Birliyinin ətraf mühit siyasətinin qanunvericilik bazasının formalaşdırılması, həm də ekoloji məsələlər üzrə qərarların qəbulu prosesində ötən illərdən qalmış əsas maneələrin aradan qaldırılması istiqamətində uğurlu nəticələrin əldə olunması ilə yadda qalmışdır.

Aİ-də ekoloji təhlükəsizlik üzrə hüquqi-tənzimləyici inkişafın dördüncü mərhələsi 1993-cü ilin sonundan etibarən başlamışdır və günümünzə qədər davam etməkdədir. Bu mərhələdə, konkret olaraq, 2002-ci ildə qlobal inkişafın dayanıqlı modellərinə nail olmağa fokuslanmış ətraf mühit üzrə Altıncı Avropa Fəaliyyət Proqramı (EAP-6) qəbul edilmişdir [18]. "Ətraf Mühit 2010: Gələcəyimiz, Seçimimiz" adlanan bu fəaliyyət proqramı 2002-ci ildən 2012-ci ilə qədər Avropa İttifaqının ekoloji siyasətinin əsasını təşkil etmişdir. Əvvəlki Beşinci Avropa Fəaliyyət Proqramına əsaslanan və ətraf mühitə zərər vermədən həyat keyfiyyətinin yaxşılaşdırılmasına yönəlmiş bu proqram dayanıqlı inkişafın reallaşdırılmasına yönəlmişdir. Proqramda dörd prioritet istiqamət müəyyənləşdirilmişdir: iqlim dəyişmələri, təbiət və biomüxtəliflik, ətraf mühit və sağlamlıq, həmçinin təbii ehtiyatlar və tullantılar.

2014-cü ildə isə ətraf mühit üzrə Yeddinci Avropa Fəaliyyət Proqramı (EAP-7) qəbul edilmişdir [35]. 2020-ci ilə qədər dövrü əhatə

edən bu proqram Aİ-nin ekoloji siyasətinin planlaşdırılması və həyata keçirilməsi üçün inteqrə edilmiş çərçivə sənədi kimi 2020-ciilədək bir sıra ekoloji çağırışların həllinə fokuslanmışdır. Sənəddə üç tematik sahəni əhatə edən doqquz prioritet məqsəd, dörd stimullaşdırıcı çərçivə və iki üfüqi sahə müəyyən edilmişdir. Proqram Aİ-nin ətraf mühit və iqlim dəyişmələri sahəsində fəaliyyətlərini istiqamətləndirmək, ekoloji limitlər çərçivəsində dayanıqlı və çiçəklənən gələcəyi təşviq etmək məqsədi daşıyır. Bundan əlavə, burada Aİ-nin 2050-ci ildə "yaxşı və planetlərin ekoloji limitləri daxilində" yaşamalı olduğu şərait barədə təsəvvür də təqdim edilir.

Hazırda icra olunan Səkkizinci Avropa Fəaliyyət Proqramı (EAP-8) [25] 2021-2030-cu illəri əhatə edir və Avropa Yaşıl Sazişinin (European Green Deal [22]) 2030-cü ilədək Aİ-də istixana effekti yaradan qazların 1990-cı il (baza ili) ilə müqayisədə 55% azaldılması, 2050-ci ilədək isə xalis sıfır emissiya səviyyəsinə nail olunması kimi hədəfləri ilə yanaşı, Aİ-də iqlim neytrallığına, resurs cəhətdən səmərəli və dairəvi iqtisadiyyata keçidin sürətləndirilməsi üzrə bir sıra məqsədləri ehtiva edir. Faktiki olaraq, bu fəaliyyət proqramı Avropa İttifaqının iqlim və ətraf mühitin mühafizəsi üzrə qanunlarının səmərəli icrasını təmin etmək üçün bütün idarəetmə səviyyələrində, yəni regional, milli, lokal səviyyələrdə bütün maraqlı tərəfləri fəal iştirak etməyə dəvət edir. Eyni zamanda, proqram BMT-nin 2030-cu ilə qədər olan dövrdəki gündəliyinə və dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün Aİ-nin fəaliyyətini istiqamətləndirir.

Ümumiyyətlə, Aİ-nin ətraf mühit proqramları hava, su və torpağın çirklənməsi, tullantıların idarə edilməsi, kimyəvi maddələr və biotexnologiyalar üzrə ekoloji təhlükəsizlik tədbirləri, məhsul standartları, ətraf mühitə təsirin qiymətləndirilməsi və təbiətin mühafizəsini əhatə edən 300-dən çox normativ aktın qəbulu ilə yadda qalmışdır.

Heç şübhəsiz ki, Aİ-nin ekoloji təhlükəsizlik üzrə qanunvericilik aktları siyasi və iqtisadi aktorlarla dialoqun gücləndirilməsini və potensial mənfəət, habelə fəaliyyət və ya hərəkətsizlik nəticəsində yaranan ekoloji zərərin aradan qaldırılması üçün adekvat xərcləri nizamlayır. Aİ-nin bütün üzv dövlətlərində ekoloji siyasət üzrə qanunvericilik təşəbbüsü mərhələsində, habelə təşəbbüsün qanun layihəsi səviyyəsinə qədər çatdırılması və hazırlanmış hüquqi tənzimləmənin icrası mərhələlərində Aİ-nin ekoloji qanunvericiliyinin effektivliyinə xüsusi diqqət yetirilir.

Qeyd olunmalıdır ki, ekoloji siyasətin ötən əsrin 90-cı illərinin əvvəllərindən etibarən istər beynəlxalq münasibətlər, istərsə də ölkələrin idarəçilik sisteminə inteqrasiyası miqyası genişləndikcə, bu istiqamətdə beynəlxalq və lokal səviyyələrdə müxtəlif qurumlar, yeni institusional mexanizmlər də meydana gəlmişdir.

Belə ki, ekoloji təhlükəsizlik konsepsiyasının müxtəlif ölkələrin idarəçilik sisteminə inteqrasiyası istiqamətində atılmış addımlar sırasında 1993-cü ildə ABŞ-da Müdafiə Nazirinin Ətraf Mühitin Təhlükəsizliyi üzrə müavini vəzifəsinin təsis edilməsini misal göstərmək olar. Bir qayda olaraq, bu vəzifəni tutmuş şəxs fəal surətdə ekoloji təhlükəsizlik məsələləri ilə məşğul olmalı, hətta ölkənin əsas siyasi təhlükəsizlik xidmətləri (Mərkəzi Kəşfiyyat Agentliyi, Dövlət Departamenti və s.) ilə birlikdə ətraf mühitlə əlaqədar yarana biləcək hər hansı risklər, təhlükəsizlik məsələləri ilə ciddi surətdə məşğul olmalıdır. Göstərilən nümunə ABŞ və digər inkişaf etmiş dövlətlərdə xeyli müddət əvvəldən ümumi, universal təhlükəsizlik sisteminin ekoloji təhlükəsizlik məsələlərini də ehtiva etdiyini bir daha sübut edir. Bu prosesin gələcəkdə digər ölkələrdə baş verməsi gözləniləndir, belə ki, qlobal təhlükəsizlik sisteminin vacib elementi kimi ekoloji təhlükəsizlik sisteminin effektiv qurulması istər ayrı-ayrı ölkələrin təhlükəsizlik mexanizminin transformasiyası, istərsə də beynəlxalq təşkilatların və qurumların yenidən şəkillənməsi hesabına baş verəcəkdir. Qeyd edək ki, bu istiqamətdə konkret cəhd kimi hələ 2007-ci ilin aprel ayında Birləşmiş Millətlər Təşkilatının (BMT) Təhlükəsizlik Şurasında qlobal ekoloji təhlükə mənbəyi kimi iqlim dəyişmələrinin təhlükəsizlik məsələləri baxımından nəticələrinin müzakirə olunmasını göstər-

mək olar. Həmin dövrdə BMT TŞ-da təmsil olunan dövlətlərin təmsilçiləri ümumən ətraf mühitin deqradasiyasının siyasi təhlükəsizlik məsələsi kimi nəzərdən keçirilməsini, təəssüf ki, fikir ayrılığı ilə qarşılaşmışlar [8].

Halbuki, qlobal ekoloji təhlükəsizlik risklərinin, o cümlədən iqlim dəyişmələrinin ölkələrin və onların birliklərinin hərbi-siyasi təhlükəsizlik sisteminə bilavasitə və nəzərə çarpan təsirinin olması ATƏT və digər beynəlxalq təşkilatların, siyasi təhlükəsizlik institutlarının gündəliyinə xeyli müddət əvvəl daxil edilmişdir və bu istiqamətdə konkret layihələr artıq icra olunmaqdadır. Misal olaraq qeyd edə bilərik ki, iqlim dəyişmələrinin milli və qlobal təhlükə mənbəyi kimi təsirinin artması ilə bağlı, ATƏT tərəfindən «Ətraf mühit və təhlükəsizlik» (ENVSEC) adlı təşəbbüs qurumun Iqtisadi və Ekoloji Forumunda müzakirələrə çıxarılmış və 2003-cü ilin may ayında Kiyev şəhərində keçirilmiş «Avropa üçün ətraf mühit» mövzulu Nazirlər Konfransında və Praqada keçirilmiş ATƏT-in On Birinci Iqtisadi və Ekoloji Forumunda eyni vaxtda bəyan edilərək onun icrasına başlanılmışdır. İqlim dəyişmələrinin artan təsiri ilə su və digər təbii resurslara çıxış üçün dövlətlər arasında rəqabətin güclənməsi müvafiq mübahisələrin həlli üçün səmərəli mexanizmlər yaradılmadığı təqdirdə, ciddi qarşıdurma və hətta silahlı münaqişə mərhələsinə keçə bilər və ya regionda artıq mövcud münaqişələri gücləndirə bilər. Bundan əlavə, iqlim dəyişmələrinin səbəb olduğu ekstremal hava hadisələrinin və təbii fəlakətlərin intensivliyinin və miqyasının getdikcə artması region ölkələrində siyasi qeyri-sabitliyi daha da artıra bilər və əhalinin yaşayış səviyyəsinə ciddi neqativ təsir edə bilər ki, bu da öz növbəsində əhalini kütləvi surətdə miqrasiyaya məcbur edə bilər və ya onları qeyri-formal iqtisadiyyata keçməyə, qanunsuz gəlir mənbələrinə üstünlük verməyə sövq edə bilər.

Qeyd olunan aspektlər üzrə Cənubi Qafqaz ölkələri arasında su, kənd təsərrüfatı və enerji məsələləri üzrə münasibətlər xüsusilə həssas xarakter daşıyır. Bu, ələlxüsus su ehtiyatlarının müxtəlif sektorlar üzrə milli səviyyədə istifadəsi və transsərhəd çayların axımından yuxarıda və aşağıda yerləşən ölkələr arasında su ehtiyatlarının koordinasiyalı istifadəsi məsələləri ilə əlaqədardır. Məhz su məsələsi, geniş anlamda regional təhlükəsizlik məsələsinə risk formalaşdıran məqam kimi hazırda regionun hər üç qonşu ölkəsi arasında su ehtiyatlarının əlaqəli istifadəsi və mühafizəsi haqqında ikitərəfli və üçtərəfli formatlarda beynəlxalq müqavilələrin imzalanması məsələsini aktuallaşdırmışdır. Məsələn, Azərbaycan ilə Gürcüstan arasında Kür çayı üzrə ikitərəfli sazişin hazırlanması istiqamətində fəaliyyət hazırda davam etdirilir. Lakin Ermənistan ilə bu istiqamətdə hər hansı müqavilənin imzalanması yalnız Azərbaycan Respublikasının bu ölkə ilə müvafiq sülh sazişinin imzalanmasından sonra mümkündür ki, bu da bir daha AR Prezidenti İlham Əliyev tərəfindən Münhen Təhlükəsizlik Konfransında qeyd olunan sülh sazişinin imzalanmasının vacibliyi barədə bildirilən fikirlərin əhəmiyyətini artırmış olur. Belə ki, Prezident İlham Əliyev həmin konfransda bu xüsusda açıq mesaj verərək bildirmişdir: "Hesab edirəm ki, Azərbaycan və Ermənistan uzun müddət çəkmiş toqquşmadan uzaqlaşmanı nümayiş etdirməli, qarşılıqlı ədavət və düşmənçiliyə son qoymalıdırlar. Hazırda biz Ermənistan ilə Azərbaycan arasında sülh sazişi üzərində çalışırıq. Ümid edirik ki, biz bu işi gec yox, tezliklə tamamlayacağıq. Düşünürəm ki, bu, ciddi tarixi fikir ayrılığına malik olan ölkələrin bir araya gəlməsi və düşmənçilik səhifəsinin bağlanmasında yaxşı nümunə ola bilər..." [9].

Bununla əlaqədar, qlobal iqlim dəyişmələrinin ekoloji təhlükəsizlik kontekstində yaratdığı risklər, beynəlxalq münasibətlər formatında bu qlobal fenomenlə mübarizə istiqamətində digər ölkələrlə yanaşı, Azərbaycan Respublikasında da ötən dövrdə həyata keçirilən ekoloji diplomatiya böyük əhəmiyyət daşıyır. Qeyd olunan məsələlər, habelə iqlim dəyişmələrinin təsirlərinin azaldılması üzrə dekarbonizasiya və iqlim dayanıqlığının təmin edilməsi üzrə tədbirlər müəllifin müvafiq əsərlərində geniş tədqiq edilmişdir [6-9]. Bu əsərlərdə habelə qlobal energetik və ekoloji təhlükəsizlik məsələlərinin təmin edilməsi

üzrə beynəlxalq əməkdaşlıq institutlarının, beynəlxalq təşkilatların fəaliyyəti geosiyasi kontekstdə öyrənilmiş, bu əməkdaşlıq formatlarının rolu və siyasi əhəmiyyəti tədqiq edilmiş, ekoloji təhlükəsizlik məsələlərinin təmini ilə bağlı yaranmış müasir çağırışlar, bu çağırışların həlli üzrə effektiv beynəlxalq təcrübə və mexanizmlər araşdırılmışdır.

Qeyd olunan qlobal çağırışlar fonunda, hazırda ənənəvi hərbi-siyasi təhlükəsizlik məsələləri ilə yanaşı, ekoloji təhlükəsizlik məsələləri, müvafiq institutlar, bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişlənməsi, yəni ümumən ekoloji diplomatiyanın əhəmiyyətinin getdikcə artması müşahidə olunmaqdadır. Bununla bağlı, istər qlobal, istərsə də regional siyasi aktyorların ekoloji təhlükəsizlik məsələlərinə və müvafiq risklərə xüsusi önəm verməsinə və doktrinal anlamda bu risklərin gələcək inkişaf dinamikasının modelləşdirilməsinə, o cümlədən ekoloji və siyasi təhlükəsizlik məsələlərinin hazırkı və gələcəkdəki korrelyasiyanın ciddi təhlilinə ehtiyac vardır. Belə ki, ekoloji təhlükəsizlik məsələlərinin gələcəkdə geosiyasi problemlərdə müəyyənedici və ya ən azından mərkəzi yer oynayacağının, klassik təhlükəsizlik formatını dəyişdiyi kimi beynəlxalq münasibətlər sistemini də xeyli transformasiyaya uğradacağının konturları artıq indidən görünməkdədir.

**Ədəbiyyat:**


1. Abbasbəyli. A.N., Diplomatik-siyasi ensiklopediya. 5 cilddə 2024.
2. Azərbaycan beynəlxalq aləmdə/Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar/ I-IV cildlər. Bakı (c.I. 1996, 268 s.; c. II, 1997, 761 s.; c. IV, 1999, 520 s.).
3. Ələkbərov U.K., Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, Təhsil, 2013, 224 s.
4. Ələkbərov U.K. İnklüziv inkişafın idarə edilməsinin əsasları, Ali Məktəblər üçün dərslik. Bakı, “Təhsil” nəşriyyatı, 2018, 216 s.
5. Heydər Əliyev, Azərbaycan nefti dünya siyasətində, Bakı, "Azərbaycan" nəşriyyatı, 1997.
6. Hümbətov F.D., “Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sisteminə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri”, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, № 3 (75) 2021, c. 159-176.
7. Hümbətov F.D., “Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik məsələləri və müasir çağırışlar”, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, № 4 (80) 2022, c. 177-187
8. Hümbətov F.D., “Ekoloji və siyasi təhlükəsizlik risklərinin korrelyasiyası və onların qarşısının alınmasında beynəlxalq əməkdaşlığın rolu”, AR Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə jurnalı, № 4 (84) 2023, c. 161-186 (DOI 10.30546/2309-1347.84.2023.161)
9. Hümbətov F. Beynəlxalq münasibətlərdə iqlim diplomatiyası, müasir çağırışlar, Bakı, “Zərdabi Nəşr” MMC, 2025, 352.
10. Barney G.O. The global 2000 report to the President : entering the twenty-first century: a report / prepared by the Council on Environmental Quality and the Department of State [Electronic resource] // URL: https://babel.hathitrust.org/cgi/pt?id=mdp.35112100697970;view=1up;seq=1
11. Burton, I. (1987). Report on Reports: Our Common Future: The World Commission on Environment and Development. Environment: Science and Policy for Sustainable Development, 29(5), 25–29. https://doi.org/10.1080/00139157.1987.9928891

12. Carson R. Silent Spring. Boston, MA: Houghton Mifflin, 1962. P. 368
13. Lars, Petersen. “The Materiality of Everyday Practices in Urban Green space.” Journal of Environmental Policy and Planning, 33.1 (2013): 80-98. Print
14. Myllntaus, Timo and Mikko, Saikku. Encountering the Past in Nature: Essays in Environmental History, Ohio: Ohio University Press, 2010. Print.
15. Orsi, John. “From Horicon to Hamburgers and Back Again: Ecology, Ideology, and Wildfowl Management”. Environmental History Review. 23.1 (2008): 74-77. Print.
16. Resolution of the Council and the Representatives of the Governments of the Member States, meeting within the Council of February 1993 on a Community Programme of policy and action in relation to the environment and sustainable development Official Journal of the EU [Electronic resource] // URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:41993X0517&from=EN
17. Rushefsky, Mark. Public Policy in the United States at the Dawn of the Twenty-first Century, New York: M.E. Sharpe, 2007. Print.
18. Sixth Environment Action Programme Official Journal of the EU [Electronic resource] // URL: http://ec.europa.eu/environment/archives/action-programme/intro.htm
19. Updated version of this report: The Brandt Equation 21st Century Blueprint for the New Global Economy [Electronic resource] // URL: http://www.brandt21forum.info/BrandtEquation-19Sept04.pdf
20. World Conservation Strategy. Living Resource Conservation for Sustainable Development [Electronic resource] // URL: https://portals.iucn.org/library/sites/library/files/documents/WCS-004.pdf
21. https://www.clubofrome.org/publication/the-limits-to-growth/
22. https://commission.europa.eu/strategy-and-policy/priorities-2019-2024/european-green-deal_en
23. https://www.epa.gov/laws-regulations/summary-toxic-substances-control-act
24. http://ec.europa.eu/environment/archives/action-programme/env-act5/pdf/5eap.pdf
25. https://environment.ec.europa.eu/strategy/environment-action-programme-2030_en
26. http://eulaw.ru/content/2001
27. https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=CELEX:11992M/TXT
28. http://earthcharter.org/discover/download-the-charter/
29. First Environmental Action Programme. Official Journal of the EU [Electronic resource] // URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/PDF/?uri=CELEX:41973X1220&from=EN
30. http://www.geogr.msu.ru/science/projects/our/experts/stockholm_apr_2012.pdf
31. https://iiasa.ac.at/
32. https://infocenter.gov.ge/az/eu/stages/
33. https://www.ipcc.ch
34. http://www.igbp.net/about.4.6285fa5a12be4b403968000417.html
35. https://trinomics.eu/project/support-to-the-evaluation-of-the-7th-environment-action-programme-7th-eap/
36. https://www.unep.org/
37. http://www.un.org/ru/documents/decl_conv/declarations/riodecl.shtml
38. http://www.un.org/ru/documents/decl_conv/conventions/agenda21.shtml
39. https://www.un.org/en/conferences/environment/stockholm1972

***Açar sözlər:*** *beynəlxalq münasibətlər, dayanıqlı inkişaf, ekoloji təhlükəsizlik, ekoloji diplomatiya, iqlim dəyişmələri, insan hüquqları, beynəlxalq iqlim rejimi*

**Fuad Humbatov**

*Associate Professor of the Chair of Sustainable Development of the State Academy of Public Administration under the President of the Republic of Azerbaijan, PhD in Mathematics*

# INSTITUTIONAL FORMATION OF ENVIRONMENTAL DIPLOMACY IN THE CONTEXT OF INTERNATIONAL RELATIONS

## ABSTRACT

The article examines the experience of various countries, in particular the United States, the European Union, in the context of the historical formation of the concept of environmental security and the institutional development of environmental diplomacy in international relations based on this concept. Thus, the article provides a comparative analysis of the United States and the European Union in terms of the process of forming a system of environmental security, the environmental paradigm, environmental diplomacy, the relevant regulatory and institutional framework, and the experience of environmental management since the 60s of the last century. The article indicates that the process of institutionalization of the system of environmental security and environmental diplomacy in the context of international relations was widely developed namely after the UN Conference on the Human Environment, that was held in Stockholm in 1972, and was formed to the great extent after the UNs Conference on Environment and Development (UNCED), also known as the 'Earth Summit', which was held in Rio de Janeiro, Brazil, in 1992.

***Keywords:*** *international relations, sustainable development, environmental security, environmental diplomacy, climate change, human rights, international climate regime*

**Фуад Гумбатов**

*Доцент кафедры Устойчивого развития Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по математике*

# ИНСТИТУЦИОНАЛЬНОЕ ФОРМИРОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ ДИПЛОМАТИИ В КОНТЕКСТЕ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

## РЕЗЮМЕ

В статье изучен опыт различных стран, в частности США, Европейского Союза, в контексте исторического формирования концепции экологической безопасности и институционального развития экологической дипломатии в международных отношениях на основе этой концепции. Так, проводится сравнительный анализ процесса формирования системы экологической безопасности, экологической парадигмы, экологической дипломатии, соответствующей нормативно-правовой базы, опыта экологического управления с 60-х годов прошлого века в США и Европейском Союзе. Указывается, что процесс институционализации системы экологической безопасности и экологической дипломатии в контексте международных отношений получил широкое развитие именно после Международной Конференции ООН по проблемам окружающей среды человека, состоявшейся в Стокгольме в 1972 году, и в значительной степени сформировался после Конференции ООН по окружающей среде и развитию, состоявшейся в Рио в 1992 году.

***Ключевые слова:*** *международные отношения, устойчивое развитие, экологическая безопасность, экологическая дипломатия, климатические изменения, права человека, международный климатический режим*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.007

**B E Y N Ə L X A L Q   M Ü N A S İ B Ə T L Ə R**
**I N T E R N A T I O N A L   R E L A T I O N S**

UOT 327

**İRİNA KUNİNA**

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Layihələr şöbəsinin müdiri, Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru**

*e-mail: kunina.irina@mail.ru*

# DÖVLƏT BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNİN ƏSAS ELEMENTİ KİMİ

## Giriş

Beynəlxalq münasibətlər sistemi tarix boyu müxtəlif siyasi, iqtisadi və sosial faktorların təsiri altında formalaşmış və inkişaf etmişdir. Bu sistemin əsas aktoru kimi dövlətlər mühüm rol oynayır. Dövlət anlayışının inkişafı və onun beynəlxalq münasibətlərdəki mərkəzi mövqeyi realizm, liberalizm və konstruktivizm kimi nəzəri yanaşmalar çərçivəsində müxtəlif şəkildə izah olunur. Eyni zamanda, qloballaşmanın təsiri ilə dövlətin rolu yeni çağırışlarla qarşılaşır və suverenlik məsələsi yenidən müzakirəyə açılır. Çünki qloballaşma müasir beynəlxalq münasibətlərin strukturunu dəyişən ən mühüm amillərdən biri olmuşdur. İqtisadi, siyasi, texnoloji və mədəni inteqrasiyanın sürətlənməsi nəticəsində dövlətlərin klassik anlamda sərhədləri və funksiyaları yeni çağırışlarla üzləşmişdir. Bir tərəfdən dövlətlər qlobal sistemdə öz maraqlarını qorumaq üçün yeni strategiyalar formalaşdırmalı, digər tərəfdən isə transmilli aktorlar və beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrini yenidən tənzimləməli olmuşdurlar. Beləliklə, görürük ki, dövlətlərin beynəlxalq münasibətlərdə necə davranması müxtəlif amillərlə formalaşır və dəyişir. Dövlətlərin xarici siyasət seçimləri və beynəlxalq sistemdəki mövqeləri coğrafi, iqtisadi, siyasi və hüquqi faktorların təsiri altında müəyyən edilir. Geosiyasi və geoiqtisadi maraqlar, beynəlxalq hüquq və normativ çərçivə, eləcə də regional və qlobal münaqişələr dövlətlərin davranışına birbaşa təsir edən əsas amillər arasında yer alır.

Beləliklə, görürük ki, beynəlxalq münasibətlər sisteminin mürəkkəb və dinamik təbiəti müasir dövrdə dövlətin rolunu yenidən qiymətləndirməyi zəruri edir. Qloballaşma, regional inteqrasiyalar, yeni texnoloji inqilablar və qeyri-dövlət aktorlarının artan təsiri dövlətlərin beynəlxalq siyasətdəki ənənəvi funksiyalarına yeni çağırışlar gətirir. Transmilli korporasiyalar, beynəlxalq təşkilatlar və beynəlxalq hüququn inkişafı dövlətlərin suverenliyini nisbi hala gətirmiş, eyni zamanda dövlətlərarası münaqişələr və güc balansındakı dəyişikliklər yeni siyasi reallıqlar yaratmışdır. Xüsusilə geosiyasi və geoiqtisadi maraqların beynəlxalq münasibətlərdə təsiri nəzərəçarpacaq dərəcədə artmış, dövlətlər öz strategiyalarını bu yeni sistemə uyğunlaşdırmağa

məcbur olmuşlar. Bu səbəbdən, dövlətin beynəlxalq münasibətlər sistemində əsas element kimi yerini və onun müasir çağırışlarla qarşılıqlı təsiri həm nəzəri, həm də praktiki baxımdan aktual və vacib bir tədqiqat sahəsidir.

Bu baxımdan, tədqiqatımızın məqsədi beynəlxalq münasibətlər sistemində dövlətin mərkəzi aktor kimi rolunu araşdırmaq, onun dəyişən funksiyalarını və beynəlxalq sistemdəki yerini nəzəri və empirik çərçivədə təhlil etməkdir. Tədqiqat çərçivəsində dövlətin funksional transformasiyasını öyrənmək üçün realizm, liberalizm və konstruktivizm kimi əsas beynəlxalq münasibətlər nəzəriyyələrinə müraciət edilmiş, eyni zamanda tarixi-sistemli yanaşma vasitəsilə Vestfal sülhündən başlayaraq dövlətlərin beynəlxalq sistemdə inkişafı və qloballaşmanın təsiri qiymətləndirilmişdir. Bu tədqiqat beynəlxalq münasibətlər nəzəriyyələrinin dövlətin müasir rolu ilə bağlı diskursuna töhfə verməklə yanaşı, həm də beynəlxalq hüquq və diplomatiya sahələrində aparılan tədqiqatlara əlavə dəyər qatacaqdır.

### Dövlətin beynəlxalq münasibətlər sistemində mərkəzi aktor kimi nəzəri və tarixi əsasları

Beynəlxalq münasibətlər nəzəriyyələri dövlətin rolunu müxtəlif çərçivələrdə izah edir. Məsələn, realizm nəzəriyyəsi beynəlxalq münasibətləri anarxik bir sistem kimi təsvir edir. Bu yanaşmaya əsasən, dövlətlər beynəlxalq sistemdə əsas aktorlardır. Beynəlxalq sistemdə anarxiya hökm sürdüyü üçün hər bir dövlət öz milli maraqlarını qorumağa çalışır. Güc balansı beynəlxalq münasibətlərin əsas mexanizmi hesab olunur. Makiavelli, Hobbs və Morqentau kimi nəzəriyyəçilər dövlətlərin yalnız güc və maraqlar əsasında hərəkət etdiyini irəli sürürlər. Klassik realizmdən fərqli olaraq, neorealizm (Kennet Uoltz) beynəlxalq sistemin strukturunu əsas determinant kimi qəbul edir və dövlətlərin davranışlarını beynəlxalq sistemin tələblərinə uyğun formalaş-dır-dıqlarını bildirir [6, s.56].

Liberalizm realizmə qarşı olaraq dövlətlərin əməkdaşlıq edə biləcəyini və beynəlxalq təşkilatların dövlətlər arasındakı münasibətləri tənzimləyə biləcəyini müdafiə edir. Liberalizmə əsasən, beynəlxalq sistemdə təkcə dövlətlər deyil, beynəlxalq təşkilatlar, qeyri-dövlət aktorları və fərdlər də mühüm rol oynayır. Dövlətlər arasında qarşılıqlı asılılıq (interdependence) artdıqca münaqişə riski azalır. Demokratik dövlətlər bir-biri ilə müharibə aparmamağa meyllidirlər (Demokratik sülh nəzəriyyəsi) [10]. Kant, Uilson və Keohan kimi nəzəriyyəçilər beynəlxalq təşkilatların və beynəlxalq hüququn dövlətlər arasındakı münasibətləri tənzimləyə biləcəyini iddia edirlər. Bu yanaşma Avropa İttifaqı kimi inteqrasiya layihələrinin uğurlu nümunələrinə əsaslanır [6, s. 58].

Konstruktivizm dövlətlərin davranışlarını sosial strukturlar, ideyalar və kimliklər vasitəsilə izah edir. Onun ən görkəmli nümayəndələrindən biri olan Aleksandr Uendtin fikirlərinə görə, dövlətlərin maraqları dəyişkəndir və sosial kontekstdən asılıdır. Dövlətlərin xarici siyasəti yalnız maddi güclə deyil, normativ çərçivələrlə də müəyyən edilir. Beynəlxalq münasibətlər yalnız güc balansı və ya iqtisadi maraqlarla izah edilə bilməz; normativ diskurslar və sosial struktur da önəmlidir. Bu yanaşma xüsusilə beynəlxalq hüququn və insan haqları diskurslarının dövlətlərarası münasibətlərə təsirini izah etmək üçün istifadə olunur [1, s. 256-257].

Müasir dövlət anlayışı əsasən 1648-ci ildə imzalanmış Vestfal sülhü ilə formalaşmışdır. Bu müqavilə Avropada uzun illər davam edən dini və siyasi müharibələrə son qoyaraq, müasir dövlət suverenliyi konsepsiyasını təsbit etdi [12]. Vestfal sistemi ilə dövlətlər müstəqil və bərabərhüquqlu aktorlar kimi qəbul edildi; xarici müdaxilənin qeyri-legitim olduğu prinsipi yaradıldı; dövlətlərin daxili işlərinə qarışmamaq beynəlxalq hüququn əsas prinsiplərindən biri kimi qəbul olundu. Vestfal sisteminin yaradılması ilə dövlətlərarası münasibətlərdə güc balansı və suverenlik konsepsiyası əsas müəyyənedici faktor oldu. XIX və XX əsrlərdə

millət-dövlət modelinin güclənməsi ilə dövlətlərin beynəlxalq arenadakı rolu daha da möhkəmləndi.

XX əsrdən etibarən dövlət suverenliyi anlayışı yeni mərhələyə qədəm qoydu. Birinci və ikinci dünya müharibələrindən sonra beynəlxalq hüququn inkişafı və beynəlxalq təşkilatların (BMT, NATO, Aİ, ATƏT və s.) güclənməsi dövlətlərin suverenliyinə yeni məhdudiyyətlər gətirdi. BMT Nizamnaməsi ilə dövlətlərin ərazi bütövlüyü və siyasi müstəqilliyi beynəlxalq hüquqi norma kimi təsbit olundu [11]. Bununla belə, qlobal idarəetmənin inkişafı və qloballaşmanın təsiri nəticəsində dövlətlərin suverenliyi nisbi xarakter almağa başladı. Qərbi Avropada Avropa İttifaqının yaranması və onun üzv dövlətlərin iqtisadi və siyasi suverenliyinə təsiri bu fenomenin ən bariz nümunəsidir. Qloballaşma prosesində dövlətlərin iqtisadi və siyasi qərarları beynəlxalq təşkilatlar və transmilli korporasiyalar tərəfindən daha çox təsir altına düşməkdədir.

## Qloballaşma və dövlətin beynəlxalq münasibətlərdə rolu

Qloballaşma dövlətlərin funksiyalarını fundamental şəkildə dəyişdirmişdir. Ənənəvi dövlət anlayışı Vestfal suverenliyi prinsipi ilə bağlı olaraq, dövlətin daxili və xarici siyasətində müstəqil qərarlar qəbul edən əsas aktor olduğunu vurğulayırdı. Lakin XXI əsrdə texnoloji irəliləyişlər, beynəlxalq ticarət sistemlərinin genişlənməsi və informasiya axınının artması nəticəsində dövlətlərin bu müstəqilliyi getdikcə daha mürəkkəb çərçivədə formalaşır. Dövlətlər artıq yalnız güc balansı və milli maraqlar çərçivəsində deyil, həm də beynəlxalq tənzimləmə sistemlərinin və iqtisadi-siyasi inteqrasiyanın təsiri altında qərarlar qəbul edirlər. Qlobal maliyyə bazarlarının bir-biri ilə sıx əlaqəli olması milli iqtisadiyyatların beynəlxalq tendensiyalara həssaslığını artırır və dövlətlərin müstəqil şəkildə makroiqtisadi siyasət yürütməsini çətinləşdirir. Eyni zamanda, beynəlxalq hüquq və normativlər, xüsusilə insan hüquqları və ətraf mühit məsələləri kontekstində, dövlətlərin daxili siyasətlərinə daha çox təsir göstərməyə başlamışdır.

Dövlətlərin xarici siyasətində də qloballaşma yeni dinamika yaratmışdır. Əvvəllər beynəlxalq münasibətlərdə dominant olan ikiqütblü sistem (soyuq müharibə dövrü) sonrakı mərhələdə çoxqütblü xarakter almağa başlamışdır. Regional güclərin artan təsiri və beynəlxalq təşkilatların genişlənməsi nəticəsində dövlətlər arasında əlaqələrin təkcə siyasi deyil, həm də iqtisadi və mədəni platformalarda inkişaf etdiyi müşahidə olunur. Qloballaşma dövründə dövlətlər artıq təkcə bir-biriləri ilə deyil, həm də transmilli korporasiyalar, beynəlxalq təşkilatlar və qeyri-dövlət aktorları ilə rəqabət və əməkdaşlıq münasibətlərinə daxil olmuşlar [7].

Transmilli korporasiyalar dövlətlər üçün həm iqtisadi fürsətlər, həm də təhlükələr yaradır. Bu şirkətlər qlobal kapital axınlarını idarə edir, texnoloji innovasiyaların əsas daşıyıcıları kimi çıxış edir və dövlətlərin vergi siyasətinə, tənzimləmə sistemlərinə və əmək bazarına ciddi təsir göstərirlər. Google, Apple, Microsoft kimi texnologiya nəhəngləri artıq milli dövlətlərə bərabər gücə malik iqtisadi aktorlar kimi çıxış edirlər. Onların informasiya və texnologiya sahəsində yaratdıqları monopoliyalar dövlətlərin suveren iqtisadi siyasətlərini həyata keçirmək imkanlarını məhdudlaşdıra bilər. Bununla yanaşı, transmilli korporasiyalar müəyyən hallarda dövlətlərin siyasi və tənzimləyici sistemlərindən yan keçərək öz qaydalarını tətbiq edirlər ki, bu da milli hökumətlərin iqtisadi idarəetmə gücünü zəiflədir [3].

Beynəlxalq təşkilatlar dövlətlərin qlobal idarəetmədəki rolunu dəyişən digər mühüm aktorlardır. Birləşmiş Millətlər Təşkilatı (BMT), Dünya Ticarət Təşkilatı (DTT), Beynəlxalq Valyuta Fondu (BVF) və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) kimi qurumlar dövlətlərarası əməkdaşlıq üçün normativ çərçivələr yaratmışdır [9]. Bu təşkilatlar vasitəsilə dövlətlər beynəlxalq iqtisadi və siyasi sistemlərdə bir-birləri ilə tənzimlənmiş qaydalar

əsasında qarşılıqlı əlaqədə olurlar. Bununla belə, qlobal idarəetmə sistemində bəzi beynəlxalq təşkilatların hegemon dövlətlərin maraqlarına uyğun hərəkət etdiyi və universal normativ qaydalardan çox, siyasi məqsədlərə xidmət etdiyi hallarda dövlətlərin suverenliyinə təhlükə yarandığı müşahidə olunur [7].

Qeyri-dövlət aktorları olan qeyri-hökumət təşkilatları (QHT-lər), beynəlxalq media qurumları, vətəndaş cəmiyyəti platformaları və sosial hərəkatlar dövlətlərin daxili və xarici siyasətlərinə təsir edən mühüm güclərə çevrilmişdir. İnformasiya texnologiyalarının inkişafı ilə birlikdə beynəlxalq qeyri-dövlət aktorları müəyyən hallarda dövlətlərdən daha geniş təsir dairəsinə malik olmuşlar. Məsələn, Amnesty International və Human Rights Watch kimi təşkilatlar dövlətlərin insan hüquqları sahəsindəki siyasətlərinə qlobal miqyasda təsir göstərir, eyni zamanda sosial media platformaları hökumətlərin rəsmi informasiya axınını dəyişdirərək ictimai rəyə yön verə bilir.

Ancaq bununla belə, beynəlxalq münasibətlərdə dövlətlər güc balansına görə fərqli mövqelərdə yerləşirlər. Hegemon dövlətlər beynəlxalq sistemdə dominant rola sahib olan, hərbi, iqtisadi və diplomatik gücləri ilə qlobal siyasəti yönləndirən aktorlardır. XX və XXI əsrin hegemon dövlətləri sırasına ABŞ, Çin və Avropa İttifaqının güclü ölkələri daxil edilir. Hegemon dövlətlər beynəlxalq təşkilatlarda əsas qərarverici mövqelərə sahibdirlər və qlobal ticarət sisteminin qaydalarını müəyyən edirlər. ABŞ-ın Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi institutlar üzərindəki təsiri, Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü ilə dünya iqtisadiyyatında artan dominantlığı bu hegemoniyanın təzahürləridir. Hegemon dövlətlər beynəlxalq hüquq çərçivələrini formalaşdırmaq gücünə malikdirlər və digər dövlətlərin siyasətlərinə yön vermək üçün sanksiyalar, ticarət məhdudiyyətləri və hərbi müdaxilələr kimi vasitələrdən istifadə edirlər.

Kiçik dövlətlər isə beynəlxalq sistemdə müxtəlif strategiyalar vasitəsilə mövqelərini qorumağa çalışırlar. Bəzi kiçik dövlətlər qlobal ticarətə inteqrasiya olunaraq iqtisadi cəhətdən güclənməyə çalışır (məsələn, Sinqapur və İsveçrə), digərləri isə regional alyanslara qoşularaq siyasi təsirlərini artırmağa çalışırlar. Bununla belə, kiçik dövlətlər beynəlxalq siyasətdə hegemon dövlətlərin təsirinə daha çox məruz qalırlar və xarici siyasətlərini böyük güclərin maraqları çərçivəsində tənzimləməyə məcbur olurlar.

Bütün bunları ümumiləşdirib deyə bilərik ki, qloballaşma dövlətlərin beynəlxalq münasibətlərdəki mövqeyini dəyişdirmiş və yeni aktorların rolunu artırmışdır. Transmilli korporasiyalar, beynəlxalq təşkilatlar və qeyri-dövlət aktorları dövlətlərin qərarvermə proseslərinə təsir göstərir, nəticədə dövlətlərin suverenliyi nisbi xarakter almağa başlayır. Bununla belə, hegemon dövlətlər beynəlxalq sistemdə güclərini qorumağa çalışır, kiçik dövlətlər isə özlərini qorumaq və mövqelərini gücləndirmək üçün müxtəlif strategiyalar tətbiq edirlər. Qlobal idarəetmə və dövlətlərarası münasibətlərin gələcəyi bu balansın necə formalaşacağı ilə müəyyən olunacaqdır.

Bəzi nəzəriyyəçilər qloballaşmanın dövlət suverenliyini zəiflətdiyini, digərləri isə dövlətlərin yeni şəraitə uyğunlaşaraq öz rolunu qoruduğunu müdafiə edirlər. Dövlətlər beynəlxalq əməkdaşlıq və qlobal idarəetmə mexanizmlərinə daha çox inteqrasiya olunduqca, suverenlik anlayışı dəyişir.

### Dövlətlərin beynəlxalq münasibətlərdə davranışına təsir edən amillər

Dövlətlərin beynəlxalq münasibətlərdə tutduqları mövqe və davranışları ilk növbədə geosiyasi və geoiqtisadi maraqlarla müəyyən olunur. Dövlətlərin coğrafi mövqeyi və bu mövqedən qaynaqlanan strateji üstünlüklər və məhdudiyyətlər əsasında aparılan geosiyasət çərçivəsində xüsusi əhəmiyyət kəsb edən geoiqtisadi maraqlar enerji resursları, ticarət marşrutları, iqtisadi tərəfdaşlıqlar və sənaye istehsal potensialı kimi amillərdən asılıdır. Geosiyasi maraqlar çərçivəsində dövlətlər adətən öz təhlükəsizliklərini təmin etmək, ərazi

bütövlüyünü qorumaq və regional təsir dairələrini genişləndirmək üçün müxtəlif strategiyalar tətbiq edirlər. Tarix boyu böyük dövlətlər öz geosiyasi mövqelərini gücləndirmək üçün hərbi və siyasi vasitələrdən istifadə etmişlər. Məsələn, soyuq müharibə dövründə ABŞ və SSRİ arasındakı qarşıdurma geosiyasi maraqlara əsaslanırdı və iki qütblü dünya nizamı bu çərçivədə formalaşmışdı.

Geoiqtisadi maraqlar isə dövlətlərin xarici siyasətində ticarət və enerji siyasətlərinə üstünlük verməsinə səbəb olur. Xüsusilə enerji resurslarına malik ölkələr öz iqtisadi güclərini xarici siyasətdə təsir vasitəsi kimi istifadə edirlər. Məsələn, son illərdə Qətər, Küveyt, BƏƏ kimi Körfəz ölkələri neft ixracından əldə etdikləri gəlirlərlə beynəlxalq siyasətdə mühüm rol oynayırlar. Eyni zamanda, Çinin "Bir Kəmər, Bir Yol" təşəbbüsü geoiqtisadi maraqlara əsaslanaraq qlobal ticarət və nəqliyyat marşrutlarında təsir dairəsini genişləndirməyə yönəlib.

Geosiyasi və geoiqtisadi maraqlar dövlətlərarası münaqişələrin və alyansların formalaşmasında da mühüm rol oynayır. Dövlətlər yalnız hərbi güclə deyil, iqtisadi rıçaqlarla da rəqiblərinə təsir etməyə çalışırlar. Sanksiyalar, ticarət məhdudiyyətləri və iqtisadi blokadalar kimi vasitələr beynəlxalq siyasətdə dövlətlərin davranışını müəyyən edən əsas alətlərdən biridir. Məsələn, Rusiya-Ukrayna münaqişəsi geosiyasi və geoiqtisadi maraqların dövlətlərarası münasibətlərə təsirinin bariz nümunəsidir. 2014-cü ildə Krımın Rusiya tərəfindən ilhaqından sonra Qərb ölkələri, xüsusilə ABŞ və Avropa İttifaqı Rusiyaya qarşı genişmiqyaslı iqtisadi sanksiyalar tətbiq etdilər [2]. Bu sanksiyalar Rusiyanın enerji sektoruna, bank sisteminə və yüksək texnologiyalara çıxışına ciddi məhdudiyyətlər gətirdi, nəticədə ölkənin iqtisadiyyatı qismən tənəzzül yaşadı. Bununla belə, Rusiya da qarşılıq olaraq Avropaya qaz tədarükünü məhdudlaşdırdı və alternativ bazarlara yönəlməklə iqtisadi müqavimət strategiyası qurmağa çalışdı.

Hər nə qədər son illərdə tətbiqində problemlər olsa da, dövlətlərin beynəlxalq münasibətlərdə davranışını müəyyən edən digər mühüm amil beynəlxalq hüquq və normativ çərçivələrdir. Dövlətlərin fəaliyyət sahələrini tənzimləyən beynəlxalq hüquq qaydaları onların hərəkət imkanlarını məhdudlaşdırır və ya genişləndirir. Müasir beynəlxalq hüququn əsasını Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsi və digər beynəlxalq müqavilələr təşkil edir. BMT-nin prinsipləri çərçivəsində dövlətlərin suverenliyi, ərazi bütövlüyü və daxili işlərinə müdaxilə edilməməsi hüququ təsbit olunmuşdur. Bununla belə, beynəlxalq hüquq dövlətlərin davranışlarına təsir göstərsə də, onun icrası adətən böyük dövlətlərin siyasi maraqları ilə uzlaşır [4, s. 52-56]. Bu çərçivədə, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri beynəlxalq hüququ öz siyasi mövqelərinə uyğun şəkildə tətbiq etməyə çalışırlar. Məsələn, İraqın 2003-cü ildə ABŞ və müttəfiqləri tərəfindən işğalı beynəlxalq hüququn böyük dövlətlərin siyasi maraqlarına uyğun tətbiq olunmasının nümunəsidir. Birləşmiş Ştatlar İraqın kütləvi qırğın silahlarına sahib olduğunu iddia etsə də, BMT Təhlükəsizlik Şurası bu müdaxiləni təsdiqləyən rəsmi bir qərar qəbul etməmişdi. Buna baxmayaraq, ABŞ və Böyük Britaniya beynəlxalq hüququ nəzərə almadan hərbi əməliyyatı həyata keçirdi və sonradan İraqda belə silahların tapılmadığı məlum oldu. Bu hadisə göstərdi ki, beynəlxalq hüquq normativ çərçivə kimi mövcud olsa da, onun tətbiqi əsasən güclü dövlətlərin geosiyasi maraqları ilə müəyyən edilir.

Beynəlxalq hüququn dövlətlərin davranışına təsir edən əsas istiqamətlərindən biri insan hüquqları və müharibə qanunlarıdır. İkinci dünya müharibəsindən sonra yaradılan Beynəlxalq Cinayət Məhkəməsi (BCM) və Müharibə Cinayətləri Tribunalları (MCT) dövlətlərin beynəlxalq hüquq normalarına uyğun hərəkət etmələrini təmin etmək üçün fəaliyyət göstərir. Lakin bu hüquqi sistemlərin tətbiqi bəzən siyasi motivasiyalarla manipulyasiya olunur və dövlətlər beynəlxalq hüququ öz maraqlarına uyğun şəkildə şərh edirlər. Nümunə üçün, keçmiş Yuqoslaviya

üzrə Beynəlxalq Cinayət Tribunalı beynəlxalq hüququn insan hüquqları və müharibə cinayətləri ilə bağlı selektiv tətbiqinin nümunəsidir. 1993-cü ildə BMT tərəfindən yaradılan tribunal keçmiş Yuqoslaviya ərazisində törədilmiş müharibə cinayətlərini araşdırmaq məqsədini daşıyırdı və nəticədə əsasən serb liderləri mühakimə olundu [5]. Lakin tribunalın tənqidçiləri hesab edirlər ki, eyni münaqişədə iştirak edən xorvat və bosniyalı liderlərə qarşı eyni səviyyədə sərt yanaşma tətbiq edilməmişdir. Bəzi hallarda məhkəmənin qərarlarının siyasi motivasiyalarla verildiyi və beynəlxalq güclərin maraqlarına uyğun şəkildə yönləndirildiyi irəli sürülmüşdür. Bu vəziyyət göstərir ki, beynəlxalq hüquq və tribunal sistemləri universal ədaləti təmin etməyə çalışsa da, onların tətbiqi bəzən siyasi maraqlardan təsirlənir.

Bununla yanaşı, normativ çərçivə təkcə beynəlxalq hüquqla məhdudlaşmır, eyni zamanda beynəlxalq təşkilatlar və iqtisadi birliklərin yaratdığı qaydaları da əhatə edir. Məsələn, Dünya Ticarət Təşkilatı beynəlxalq ticarət qaydalarını tənzimləyir və dövlətlərin iqtisadi siyasətlərinə təsir göstərir. Avropa İttifaqı üzv dövlətlər üçün hüquqi və iqtisadi normativlər müəyyən edərək onların siyasi davranışlarını istiqamətləndirir.

Beynəlxalq hüquq və normativ qaydaların təsiri həmçinin dövlətlərin xarici siyasətində hüquqi legitimlik axtarışını da stimullaşdırır. Dövlətlər adətən beynəlxalq hüquqa əsaslanaraq öz xarici siyasət qərarlarını əsaslandırmağa çalışır və legitimlik əldə etmək üçün beynəlxalq hüququn prinsiplərinə istinad edirlər.

Dövlətlərin beynəlxalq münasibətlərdə davranışına təsir edən ən mühüm faktorlardan biri də regional və qlobal münaqişələrdə tutduqları mövqedir. Münaqişələr dövlətlərin xarici siyasət istiqamətlərini formalaşdırır və onların beynəlxalq sistemdəki rolunu müəyyən edir. Regional münaqişələrdə dövlətlər adətən ya birbaşa tərəf kimi iştirak edir, ya da vasitəçi rolunu oynayır. Münaqişələrdə dövlətlərin davranışı bir neçə əsas amildən asılıdır: geosiyasi maraqlar, etnik və dini faktorlar, iqtisadi resurslar və tarixi kontekst. Məsələn, Kipr böhranı dövlətlərin regional münaqişələrdə tutduğu mövqenin beynəlxalq siyasətə təsirinin bariz nümunəsidir. 1974-cü ildə Yunanıstan tərəfindən dəstəklənən çevrilişə cavab olaraq Türkiyə Kipr türklərinin təhlükəsizliyini təmin etmək və adadakı siyasi balansı qorumaq məqsədilə hərbi müdaxilə həyata keçirdi. Bu hadisə nəticəsində ada faktiki olaraq iki hissəyə bölündü və 1983-cü ildə Şimali Kipr Türk Cümhuriyyəti elan olundu, lakin bu dövlət beynəlxalq ictimaiyyət tərəfindən yalnız Türkiyə tərəfindən tanındı [8]. Yunanıstan və Kipr Respublikası isə Avropa İttifaqı və BMT çərçivəsində beynəlxalq dəstək qazanaraq Türkiyənin adadakı hərbi varlığını qanunsuz hesab etdilər. Bu münaqişə regional güclər arasındakı geosiyasi maraqların və tarixi-etnik faktorların dövlətlərin beynəlxalq münasibətlərdəki davranışına necə təsir etdiyini açıq şəkildə nümayiş etdirir.

Qlobal münaqişələrdə dövlətlərin mövqeyi daha mürəkkəb strategiyalarla müəyyən edilir. Böyük dövlətlər münaqişələrə müdaxilə etməklə öz təsir dairələrini genişləndirməyə çalışır, kiçik və orta dövlətlər isə əsasən beynəlxalq təşkilatlar çərçivəsində vasitəçilik etməklə və ya sülhməramlı missiyalara qoşulmaqla beynəlxalq nüfuzlarını artırmağa çalışırlar. Bəzi dövlətlər qlobal münaqişələrdə neytral mövqe tutur və diplomatik vasitələrlə vasitəçilik etməyə çalışırlar. İsveçrə kimi neytral ölkələr və beynəlxalq təşkilatlar vasitəsilə bu cür münaqişələrə müdaxilə edən dövlətlər beynəlxalq arenada etibarlı tərəfdaş imici yaradırlar. Digər tərəfdən, bəzi dövlətlər qlobal münaqişələrdə aktiv iştirak edərək öz geosiyasi və iqtisadi maraqlarını irəlilətməyə çalışırlar.

Təcrübə göstərir ki, münaqişələr dövlətlər üçün həm risklər, həm də fürsətlər yaradır. Münaqişə zonasına yaxın olan dövlətlər təhlükəsizlik təhdidləri ilə üzləşir, lakin bəzi dövlətlər hərbi-siyasi və iqtisadi qazanc əldə etmək üçün münaqişələrdən istifadə edirlər. Misal üçün, Suriyanın vətəndaş müharibəsi bəzi dövlətlər üçün geosiyasi və iqtisadi

fürsətlər yaratmışdır. Rusiya 2015-ci ildən etibarən Suriya hökumətini dəstəkləməklə Yaxın Şərqdə təsir dairəsini genişləndirdi və eyni zamanda öz silah sənayesinin gücünü nümayiş etdirdi. Hərbi müdaxilə nəticəsində rəsmi Moskva Suriyada strateji hərbi bazalar quraraq Aralıq dənizində mövqeyini möhkəmləndirdi və bölgədə əsas güc vasitəçisinə çevrildi. Eyni zamanda, Rusiya Suriya ilə enerji və rekonstruksiya layihələrində iqtisadi müqavilələr bağlayaraq müharibədən sonra ölkənin bərpasında mühüm iqtisadi qazanc əldə etməyə başladı. Bu nümunə göstərir ki, bəzi dövlətlər münaqişələri təkcə təhlükə deyil, həm də uzunmüddətli siyasi və iqtisadi dividendlər əldə etmək üçün bir fürsət kimi qiymətləndirə bilərlər.

Beləliklə, müxtəlif nümunələr əsasında görürük ki. dövlətlərin beynəlxalq münasibətlərdə davranışına təsir edən amillər kompleks və çoxşaxəlidir. Geosiyasi və geoiqtisadi maraqlar dövlətlərin xarici siyasət istiqamətlərini formalaşdırır, beynəlxalq hüquq və normativ qaydalar isə onların hərəkət imkanlarını müəyyən dərəcədə məhdudlaşdırır. Regional və qlobal münaqişələr dövlətlərin mövqeyini və strategiyalarını formalaşdıran əsas faktorlar arasında yer alır. Müasir beynəlxalq sistemin mürəkkəbliyi və dinamizmi dövlətlərin siyasətini daha çevik və çoxistiqamətli etməyə vadar edir.

**Nəticə**

Tədqiqatımızın nəticəsi kimi deyə bilərik ki, dövlətin beynəlxalq münasibətlər sistemində əsas element kimi mövqeyi zamanla dəyişən və müxtəlif nəzəri yanaşmalarla izah olunan bir fenomendir. Müasir beynəlxalq münasibətlərdə dövlətlərin rolu nə qədər güclü görünsə də, qloballaşma və qeyri-dövlət aktorlarının yüksəlişi onların funksiyalarını yenidən qiymətləndirməyə məcbur edir. Ənənəvi güc balansı və suverenlik prinsipləri beynəlxalq təşkilatlar, transmilli korporasiyalar və hüquqi-normativ sistemlərin təsiri altında nisbi xarakter almağa başlamışdır. Bu proses bir tərəfdən dövlətlərin qarşılıqlı asılılığını artıraraq münaqişə risklərini azaltmaq potensialına malikdir, digər tərəfdən isə müəyyən dövlətlərin beynəlxalq sistemdə hegemon mövqe əldə etməsinə və ya digər aktorlar tərəfindən sıxışdırılmasına gətirib çıxara bilər. Beynəlxalq münasibətlərin nəzəri çərçivələri bu dəyişiklikləri izah etmək üçün müxtəlif yanaşmalar təklif etsələr də, heç biri dövlətin mövqeyinin tamamilə zəiflədiyini və ya əksinə, dəyişməz qaldığını iddia etmir.

Bu çərçivədə, geosiyasi və geoiqtisadi maraqlar dövlətlərin davranışlarını formalaşdıran əsas amillərdən biri olaraq qalır. Dövlətlər yalnız hərbi güc və siyasi təsir mexanizmləri ilə deyil, həm də iqtisadi alətlərlə beynəlxalq münasibətlər sistemində mövqelərini müəyyənləşdirirlər. Sanksiyalar, ticarət məhdudiyyətləri və enerji siyasətləri qlobal siyasətin mühüm vasitələrinə çevrilmişdir. Hegemon dövlətlər beynəlxalq hüququ və təşkilatları öz maraqlarına uyğun şəkildə yönləndirməklə qlobal idarəetməni nəzarətdə saxlamağa çalışırlar. Bununla yanaşı, kiçik və orta dövlətlər dəyişən qlobal konfiqurasiyada öz milli maraqlarını qorumaq üçün fərqli strategiyalar – regional əməkdaşlıq, neytrallıq və ya çoxvektorlu diplomatiya tətbiq edirlər. Bütün bunlar göstərir ki, beynəlxalq sistemdə dövlətlər hələ də əsas aktor olsalar da, onların rolunun dəyişməsi və adaptasiya qabiliyyəti beynəlxalq münasibətlərin gələcəyini müəyyən edən əsas faktor olacaqdır.

Dövlətlərin beynəlxalq münasibətlərdə davranışına təsir edən amillərin çoxşaxəli olması göstərir ki, bu sistemin statik bir çərçivədə izah edilməsi mümkün deyil. Qlobal idarəetmənin inkişafı, normativ sistemlərin güclənməsi və yeni aktorların beynəlxalq siyasətə daxil olması dövlətlərin təkbaşına qərar vermə imkanlarını məhdudlaşdırır. Bu, beynəlxalq münasibətlərin gələcəyinin daha çox qarşılıqlı asılılıq və kooperasiya əsasında formalaşacağını göstərir. Bununla belə, bəzi dövlətlər güc siyasətini ön planda tutaraq mövcud beynəlxalq nizama qarşı alternativ modellər formalaşdırmağa çalışırlar ki, bu da

gələcəkdə qlobal münasibətlər sistemində yeni toqquşma və ya əməkdaşlıq formatlarının yaranmasına səbəb ola bilər. Beləliklə, dövlətin beynəlxalq münasibətlər sistemindəki əsas aktor kimi rolu dəyişən, lakin tamamilə yox olmayan bir fenomen olaraq qlobal siyasətin təkamülünə uyğun şəkildə formalaşmaqda davam edir.

**Ədəbiyyat:**


1. Asgarov, A. Enhancing The Geopolitical Standing of The Republic of Azerbaıjan: Insights From Contemporary Geopolitical Theories. Baltic Journal of Legal and Social Sciences, 2024, (4), 255-261. https://doi.org/10.30525/2592-8813-2024-4-26
2. BBC. Putin: ABŞ-ın yeni sanksiyaları ikitərəfli əlaqələri dalana sürükləyir. 17 iyul 2014. URL: https://www.bbc.com/azeri/region/2014/07/140717_putin_ukraine_sanctions
3. Doğruluk, M. B. Uluslararası İlişkiler Disiplininde Küreselleşme Sorunu. Çatalhöyük Uluslararası Turizm Ve Sosyal Araştırmalar Dergisi, 2021, (6), 109-120.
4. Fert, H. K., & Maghamınıa, M. Uluslararası İlişkiler Görüşlerde Uluslararası Hukukun Konumu. Küresel Bakış Çeviri Hukuk Dergisi, 2017, 7(23), 51-76.
5. İsmayılov, S. Yuqoslaviya Tribunalının sonuncu böyük işi başa çatıb, müttəhimlərə 15 il iş kəsilib. REPORT, 31 may 2023. URL: https://report.az/diger-olkeler/kivhusiler-sulhe-nail-olmaq-ucun-abs-ladanisiqlara-hazirdir/
6. Jahangirli, J. Contradictions of Realism and Liberalism on Interstate Relations: in the Case of Russo-Georgian War. Scientific and Theoretical Almanac Grani, 2021, 24(11), 55-66. https://doi.org/10.15421/1721109
7. Kan, K. Globalleşmenin Uluslararası İlişkilere Etkileri. Karamanoğlu Mehmetbey Üniversitesi Sosyal Ve Ekonomik Araştırmalar Dergisi, 2011(1), 1-10.
8. Qarayeva, G. İ. Kipr böhranının Türkiyə-ABŞ münasibətlərinə təsiri. Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2014, № 3, 52-59. URL: http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Humanitar%20%20%202014%20%203/8%20%20%20G.%C4%B0.QARAYEVA.pdf
9. Mustafaeva, L. The Role of International Organizations in Ensuring Security in The South Caucasus: Contemporary Challenges and Perspectives. Baltic Journal of Legal and Social Sciences, 2024, (4), 303-310. https://doi.org/10.30525/2592-8813-2024-4-32
10. Özkeçeci, B. The Myth of Democratic Peace: Theoretical and Empirical Shortcomings of the "Democratic Peace Theory". Alternatives: Turkish Journal of International Relations, 2005. 1(3). URL: https://dergipark.org.tr/tr/download/article-file/19378
11. Şimşek, İ.S. Uluslararası İlişkilere Tarihsel Bakış. Avrasya İncelemeleri Dergisi 9, sy. 2 (Eylül 2020): 315-25. https://doi.org/10.26650/jes.2020.021.
12. Vestfal sülhü çox şeyi dəyişdi: Birinci və İkinci Müharibə nəsillərinə baxış. Strategy Vision, 9 iyun 2021. URL: https://strategyvision.org/az/news/42/--vestfal-sulhu-cox-seyi-deyisdi-birinci-ve-ikinci-muharibe-nesillerine--baxis--


***Açar sözlər:*** *dövlət, beynəlxalq münasibətlər, qloballaşma, suverenlik, geosiyasət*

**Irina Kunina**

*Baku International Multiculturalism Center*
*Head of the Projects Department*
*Associate Professor*
*Azerbaijan University of Languages*
*Department of International Relations,*
*Ph.D. in Political Science*

# STATE AS THE MAIN ELEMENT OF THE SYSTEM OF INTERNATIONAL RELATIONS

## ABSTRACT

The state is analyzed as a key element of the international relations system within various theoretical approaches and historical development processes. Realism describes states as power- and interest-driven actors, whereas liberalism argues that they operate within the framework of cooperation and interdependence. Constructivism explains state behavior in international relations through social and normative contexts. In the modern era, globalization has made state sovereignty relative, with international organizations, transnational corporations, and non-state actors exerting significant influence over state decision-making processes. States' foreign policy choices and positions in the international system are determined by geographical, economic, political, and legal factors. Geopolitical and geo-economic interests, international law and normative frameworks, as well as regional and global conflicts, are among the key factors directly shaping state behavior. While hegemonic states play a leading role in global governance, small and medium-sized states prioritize multi-vector diplomacy and regional cooperation strategies. In this context, the evolving role of the state in the international relations system, its ability to adapt to new challenges, and its interactions with dominant forces in the global system remain crucial factors in shaping the future of international politics.

***Keywords:*** *state, international relations, globalization, sovereignty, geopolitics*

**Ирина Кунина**

*Руководитель отдела проектов*
*Бакинского международного центра мультикультурализма,*
*доцент кафедры международных отношений*
*Азербайджанского университета языков,*
*доктор философии по политическим наукам*

# ГОСУДАРСТВО КАК ОСНОВНОЙ ЭЛЕМЕНТ СИСТЕМЫ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ

## РЕЗЮМЕ

Государство анализируется как основной элемент системы международных отношений в рамках различных теоретических подходов и исторических процессов развития. Реализм рассматривает государства как акторов, ориентированных на силу и интересы, тогда как либерализм утверждает, что они действуют в рамках сотрудничества и взаимозависимости. Конструктивизм объясняет поведение государств в международных отношениях через социальный и нормативный контекст. В современный период глобализация сделала суверенитет государств относительным, а международные организации, транснациональные корпорации и негосударственные акторы оказали значительное влияние на процесс принятия государственных решений. Внешнеполитический выбор и положение государств в международной системе определяются географическими, экономическими, политическими и правовыми факторами. Геополитические и геоэкономические интересы, международное право и нормативная база, а также региональные и глобальные конфликты являются основными факторами, непосредственно влияющими на поведение государств. В то время как гегемонистские государства играют ведущую роль в глобальном управлении, малые и средние государства отдают предпочтение многовекторной дипломатии и стратегиям регионального сотрудничества. В этом контексте изменяющаяся роль государства в системе международных отношений, его способность адаптироваться к новым вызовам и взаимодействие с доминирующими силами международной системы остаются одними из ключевых факторов, определяющих будущее глобальной политики.

***Ключевые слова:*** *государство, международные отношения, глобализация, суверенитет, геополитика*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.010

**H Ü Q U Q**
**L A W**

UOT 342.7(479.24):061.2

**MEHRİBAN BABAXANOVA**
**Azərbaycan Dillər Universitetinin Beynəlxalq münasibətlər kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: mbabakhan@yahoo.com*

# VƏTƏNDAŞ CƏMİYYƏTİ HAQQINDA KLASSİK KONSEPSİYALAR

Adətən, dövlətdən fərqlənən sosial həyat sferası vətəndaş cəmiyyəti adlandırılır. Bu isə onunla bağlıdır ki, fəlsəfi-hüquqi sosiologiya hüququn sosial təbiətinə təməlli fakt kimi yanaşır, hüquq, dövlət və cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin mahiyyətini aşkar etməyə səy göstərir və nəhayət, hüququn cəmiyyətin inkişafında hansı rolu oynadığı sualına cavab verir. Bu isə fəlsəfi-hüquqi sosiologiyanın öyrənmə predmetinin başlıca məzmununu təşkil edir. Məhz bu cəhətdən də vətəndaş cəmiyyəti sosial həyat sferası kimi xarakterizə olunur.

Vətəndaş cəmiyyətinə eyni zamanda da xüsusi şəxslərin mütləq azadlığı, sərbəstliyi sferası qismində baxılır. Belə mütləq azadlıq xüsusi şəxslərin bir-birinə münasibətində təzahür edir. Bu mənada dövlət siyasi cəhətdən mütəşəkkil olan subyektlərin qarşılıqlı münasibətlərinin tənzimlənmiş məkanı hesab olunur. Məsələn, hüquq fəlsəfəsində belə hesab edilir ki, biz vətəndaş cəmiyyətində hər hansı siyasi fiqurla deyil, şəxsi mənafe və maraqların daşıyıcısı olan insanla, mülki hüquqların subyekti və mülki münasibətlərinin iştirakçısı ilə qarşılaşırıq.

Deməli, vətəndaş cəmiyyətində məhz şəxsi, insanlar arasındakı xüsusi münasibətlər aparıcı rola malikdir. Həmin münasibətlərin tənzimlənməsində isə əsas rol mülki hüquqa məxsusdur. B.N.Çiçerin yazırdı ki, "vətəndaş cəmiyyəti – bu, mülki və ya xüsusi hüquqla idarə olunan şəxslər arasındakı şəxsi münasibətlərin məcmusudur. Bu məcmuya ayrı-ayrı şəxslərdən başqa, onların təkamül etdikləri xüsusi ittifaqlar da daxildir" [11, s.166].

Vətəndaş cəmiyyəti qeyri-dövlət xarakterli ictimai münasibətlərin və institutların bütöv bir sistemindən ibarətdir. Belə ictimai münasibətlər və institutlar fərdi azadlıqların, vətəndaşların hüquq bərabərliyi, onların müstəqilliyi və özünütəşkili prinsiplərinin realizəsi əsasında formalaşdırılır. Vətəndaş cəmiyyətini dövlətdən fərqləndirən biri də məhz bundan ibarətdir.

Bərabərhüquqlu, sərbəst və işgüzar fəaliyyət fərdlərin birliyindən ibarət olan azad vətəndaş kollektivinin mövcudluğu vətəndaş cəmiyyətinin mühüm meyarıdır. Bu cəhətdən aşağıdakı sferaların mövcud olması vətəndaş cəmiyyəti üçün əhəmiyyət kəsb edir:

- öz fiziki və digər tələbatlarını rəhbər tutan ayrı-ayrı fərdlərin mövcudluğu;
- ayrı-ayrı fərdlərin öz məqsədlərinə nail olmaq səylərinin olması;

- birlikdaxili mənafelərin üstün tutulması;
- hər kəsin və hamının şəxsi maraqlarının nəzərə alınması və s.

Yuxarıda göstərilənlər elə sferalardır ki, burada xüsusi şəxs öz maraqların istədiyi müsbət istiqamətdə realizə edir. Həmin sferalarda özünümüəyyənləşdirmə fərdiyyətçiliyi sərbəstliklə yanaşı şəxsi istəklərin təmin olunmasına yönələn tələbləri irəli sürür. Ona görə də vətəndaş cəmiyyətində qarşılıqlı təsirin ümumi sferası yalnız fərdlərin mənafelərinə uyğun olduğu qədər ümumi məkan hesab olunur. Ayrı-ayrı fərdlərin istək və məqsədlərinə uyğun gəlməyən məkan vətəndaş cəmiyyəti üçün səciyyəvi hesab edilmir.

Aydındır ki, tarixən təşəkkül tapmış “vətəndaş cəmiyyəti” termini aşkar şəkildə öz adı (yəni işarə edildiyi adla) ilə uyğunluq təşkil etmir. Zira, vətəndaş cəmiyyəti deyil, məhz dövlət vətəndaşların birliyi, məcmusu hesab olunur. Dövlət insanların siyasi birliyini formalaşdıran fenomen kimi təzahür edir və özündə təşəkkül tapmış cəmiyyətlə özü arasında qarşılıqlı əlaqələrin və təsirin formalaşmasına meyi edir. Tarixən ənənəvi cəmiyyəti əvəz etməyə meyilli olan vətəndaş cəmiyyəti dövlətdən kənarda mövcud ola bilməz. Çünki vətəndaş cəmiyyətinin əvəz etdiyi ənənəvi cəmiyyətdə dövlət praktiki olaraq hökmran olan elita ilə üst-üstə düşürdü. Bu elita əhali kütləsindən sosial-iqtisadi və siyasi-hüquqi statusuna görə fərqlənən əlahiddə əhali qrupunu təşkil edirdi. Lakin həmin elita hələ vətəndaş cəmiyyəti deyildi. Çünki vətəndaş cəmiyyətinin təşəkkülü müxtəlif kollektiv strukturların varlığı vasitəsilə baş vermişdi. Həmin strukturlara aşağıdakıları aid etmək olar:

a) azad şəhərlər;

b) kommunalar;

c) sənətkarların gildiyası;

d) ayrı-ayrı sənətkarların korporasiyaları.

Fikrimizcə, məhz qeyd edilən strukturlar (bunlar sosial institutlar da adlandırmaq olar) tədricən “aşağıdan” siyasi demokratiyanın təbii mühitini formalaşdırmışlar.

Göstərmək lazımdır ki, vətəndaş cəmiyyətinin ilkin elementləri Qərbi Avropada artıq yetkin Orta əsrlər dövründə təşəkkül tapmışdır. Həmin dövr isə iri şəhərlərin artması və yenilərinin meydana gəlməsi, eləcə də bazarların formalaşması və dövlətlər arasında iqtisadi-təsərrüfat əlaqələrinin yaranması ilə əlamətdar olmuşdur. Məhz belə şəraitdə vətəndaş cəmiyyətinin təşəkkül tapmaqda olan elementlərinə aşağıdakı təsəvvürlər aid oluna bilər:

- kiminsə tərəfindən üstünlüyün olmadığı azadlıq;
- hamının qanun qarşısında bərabərliyi prinsipi;
- mülkiyyət hüququ;
- şəxsi həyat hüququ;
- fərdlə müxtəlif insan qrupları, insan kollektivləri arasında əlaqə (kontrakt) münasibətləri institutu.

Qeyd edilən təsəvvürlərin tədricən püxtələşməsi nəticəsində Qərbdə dövlətdən asılı olmayan sosial institutların sistemi formalaşmağa başlamışdır. Bu institutlar şəxsi mənafelər uğrunda çalışan ayrı-ayrı fərdlərin və insan kollektivlərinin öz imkan və qabiliyyətlərini özünürealizə etməsi üçün əlverişli şəraitin təmin olunmasına xidmət edirdilər.

Belə bir cəhəti qeyd etmək zəruridir ki, vətəndaş cəmiyyəti ilə dövlət arasındakı qarşılıqlı münasibətlər adətən, mürəkkəb, əksər hallarda isə münaqişəli xarakter daşımışdır. Vətəndaş cəmiyyətinin kifayət qədər inkişaf etməməsi dövləti öz hüquqlarının uzurpasiyasına təhrik etmişdir. Dövlət sanki vətəndaş cəmiyyətinin funksiyalarını özü üçün mənimsəmək məcburiyyətində qalmışdır. Bunu aşağıdakı bir sıra amillərlə izah etmək olar.

Tədqiqatçıların mülahizəsinə görə, erkən Orta əsrlərin ideologiyası vətəndaş cəmiyyəti

elementlərinin bərqərar olduğu şəraitdə artıq "ömrünü başa vururdu" [10, s.76]. Katolik kilsəsinin şəraiti qoruyub saxlamağa göstərdiyi mənəvi qəyyumluq dünya ölkələri üçün artıq yükə çevrilmişdi. İntibah isə dövrüm astanasında idi.

Digər tərəfdən, təbii insan səyləri dini - fəlsəfi baxışları dəyişdirmək, sosial-siyasi görüşlərin istiqamətinə yeniliklər gətirməkdə idi [6, s.173].

Nəhayət, başlıca problemlərdən biri insan hüquqlarına münasibətin dəyişməsi idi. Əgər vətəndaş cəmiyyəti insan hüquqlarını təmin edirsə, dövlət isə bu təminatı insan deyil, vətəndaş hüquqlarında görür. Birinci halda söhbət əlahiddə sosial varlıq olmaq etibarilə şəxsiyyətin yaşamaq, azadlıq, xoşbəxtliyə səy göstərmək və s. hüquqları, ikinci halda isə onun siyasi hüquqları haqqında gedir. Fikrimizcə, məhz belə hüquqi səylər vətəndaş cəmiyyəti ilə dövlət arasındakı qarşılıqlı münasibətlərdə daim mürəkkəbliklər və ziddiyyətlərlə müşahidə edilmişdir. Belə konsepsiyaların ilk mütəfəkkirlərinə Hegeli, Marksı və Frankı aid etmək olar.

F.Hegelin vətəndaş cəmiyyəti (mülki cəmiyyət) haqqında müddəalarının təhlilinə keçməzdən əvvəl Kantın fəlsəfədəki etik-hüquqi görüşləri üzərində qısa şəkildə dayanmağı məqsədəuyğun hesab edirik.

Görkəmli klassik alman filosofu İmmanuil Kant (1724-1804) yeni ideyaların meydana gəlməsində özünəməxsus elmi xidmətləri olmuş yeni tip insanlardan biri hesab olunur. O, dünya fəlsəfəsinin öz novatorluğu ilə seçilən ən parlaq simalarından biridir. Onun "Xalis ağılın tənqidi", "Praktiki ağlın tənqidi", "Mənəviyyatlar metafizikası", "Hüquq haqqında təlim" və s. ümumfəlsəfi traktatları öz müəllifinə intellektual şərəf gətirmişdir.

İ.Kantı bu sözün əsl mənasında yurisprudensiya, daha dəqiq desək, qeyri-normativ yurisprudensiya maraqlandırırdı. Mütəfəkkirin hüquq haqqında təlimində qarşıya qoyduğu əsas vəzifə hüquq və əxlaqın qarşılıqlı əlaqəsinin tədqiq edilməsi idi. Ona görə də Kant hüquq haqqında danışarkən "azadlıq" kateqoriyasını həm hüquq, həm də əxlaq üçün ümumi kateqoriya kimi qiymətləndirirdi.

Məhz İ.Kant fəlsəfəsinin köməyi sayəsində şotlandiyalı əxlaqşünasların təfəkküründə bir vaxtlar mərkəzi yet tutan bəzi mövzular tamamilə yeni görüntü və məzmun əldə etmişdi. Vətəndaş cəmiyyəti ənənəsinə xas, yəni məxsusi və fərdi, ümumbəşəri və sosial amillər arasındakı əlaqənin tapılması problemi dondurulmuş halda təzahür edir.

İ.Kantın ideyasına görə həqiqi hüquq öz əsasını hüquqda (daha dəqiq deyilərsə, fəzilətdə) tapa bilməz. Ona görə də şər əxlaqi bir kateqoriya olmaq etibarilə Kantı maraqlandırmır. Deməli, fəzilətli davranış prinsipi hüquqi davranış prinsipində əriyə bilməz. [7, s.153] "Mənəviyyat haqqında təlimin ən yüksək müddəası belə deyir: eyni zamanda da ümumi qanun qüvvəsinə malik olan maksimuma uyğun davran" [7, s.153]. Fikrimizcə, alman filosofu əxlaqın deyil (baxmayaraq ki, əxlaq hüquqdan çox-çox əvvəllər yaranmış və onun nüvəsində formalaşmışdır), məhz hüququn üstünlüyü və birinciliyini qəbul edir, eləcə də cəmiyyətin və dövlətin hüquqi qanunlarla idarə olunmasına tərəfdar çıxırdı. Buna görə də mütəfəkkir hüququn aliliyinə söykənən hüquq dövlətin fəlsəfi prinsiplərini tərəddüd etmədən irəli sürmüşdür. Həmin prinsiplər öz aktuallığını bu gün də saxlamaqdadır.

Vətəndaş cəmiyyəti ideyasının nöqteyi-nəzərindən Kantı idrakın təsir qüvvəsi ilə əxlaqi sfera arasındakı qarşılıqlı əlaqəni qoruyub saxlamaq üçün əzmlə mübarizə aparan elm fədaisinə bənzətmək olar. Kant azadlıq və bərabərlik prinsiplərini özünün fəlsəfi təliminin bir növ mərkəzi antropologiyasına, əsas doktrinasına çevirmişdi. Mütəfəkkir fərdi hüquqları (mülki azadlıq və siyasi bərabərlik hüquqlarını) ümumbəşəri idrakın mütərəqqi təsirləri ilə birləşdirmişdi. Onun mütləqiyyətçi dövlətə qarşı etirazlarında mülki məcburiyyətlərdən azad edilmiş tələbkar vətəndaş mövqeyi nəzərə çarpır ki, bunu da vətəndaş cəmiyyəti konsepsiyasının əsas elementlərindən biri qismində təsəvvür etmək mümkündür.

İ.Kant hər hansı fərdi mövqeyi ümumbəşəri mövqedən ayırmırdı. Hüquq (o cümlədən şəxsi "hüquqlar") müstəqil fərdin bəşəri varlığın bir hissəsi kimi təsəvvür etməyə imkan verir. Ayrı-ayrı fərdlər, bütövlükdə bəşəriyyət özünü dərk etdikcə müstəqilliyinin, azadlıq və bərabərliyin qarşılıqlı vəhdəti yaranır. Kantın "Praktiki ağılın tənqidi" traktatında ümumbəşəri idrakla mənəvi qanunun qarşılıqlı təsiri təşəkkül tapır. Mütəfəkkirin fikrincə, "bu, azadlığın müstəqilliyi baxımından mənəvi qanunun mübtədasıdır. Mənəvi qanuna uyğun olaraq hər bir istək (vətəndaş cəmiyyəti istəyi də daxil olmaqla)", hətta hər bir şəxsin şəxsi istəyi yalnız onun özünə yönəlib rasional varlığın müstəqilliyi ilə bağlanmış sazişin şərtləri ilə məhdudlaşır... Deməli, hər bir şərt fərdin son məqsədlərindən biri kimi istifadə oluna bilər..." [7, s.209].

İ.Kantın hüquq haqqında təliminin (hüquq fəlsəfəsinin) inkişaf etdirilməsi estafetini XVIII əsrin sonu və XIX əsrin birinci yarısında Georq Vilhelm Fridrix Hegel (1770-1831) öz əlinə aldı. F.Hegel fəlsəfəsi, xüsusilə də onun dövlət və hüquq haqqında təlimindən danışan elə bir tədqiqatçı tapılmaz ki, Hegeli burjua ideoloqu, onun dövlət haqqında təlimini isə burjua dövlət sisteminin, daha dəqiq desək, Prussiya monarxiyasının müdafiəçisi adlandırmasın.

F.Hegelin hüquq fəlsəfəsində vətəndaş cəmiyyətinə dair fəlsəfi ideya cəmiyyətin və dövlətin qarşılıqlı əlaqəsi haqqında diskussiyalar gedişində formalaşmışdır. Təsadüfi deyildir ki, vətəndaş cəmiyyəti konsepsiyasının işlənib hazırlanması sahəsində xüsusi xidmət də məhz F.Hegelə məxsusdur. Bu konsepsiyaya uyğun olaraq vətəndaş cəmiyyətinin sosial həyatı ailənin etik aləmindən və dövlətin ümumi həyatından radikal surətdə fərqlənir. Konsepsiyada ifadə edilən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, dövlətə məxsus ümumi həyat öz kütləviliyi (totallığı) ilə rasional şəkildə strukturlaşdırılmış siyasi cəmiyyətin zəruri məqamında təzahür edir. Bu müstəvidə hüquq özünə bilavasitə xas olan məziyyətləri ilə cəlb edir.

F.Hegelin ideyasına uyğun olaraq hüquq haqqında fəlsəfi elmin predmeti hüquq ideyası, hüquq anlayışı və onun gerçəkləşməsidir. Hüquq haqqında elm fəlsəfəsinin bir hissəsidir. Buna görə də o, predmetin təfəkkürü, zəkası kimi ideyanı anlayış əsasında inkişaf etdirməli və ya predmetin özünün immanent inkişafını müşahidə etməlidir [1, s.65].

Mütəfəkkir buna müvafiq surətdə müsbət hüquq adlandırdığı hüququn inkişafında aşağıdakı iki aspektin mövcudluğu göstərirdi:

1) hüququn tarixi əsaslar üzərində inkişafı (filosof hüququn tarixi inkişafı haqqında danışarkən onun xüsusi inkişaf və təkamül, məzmun etibarilə dəyişkənliyini nəzərdə tuturdu);

2) hüququn bilavasitə öz anlayışlarından irəli gələn inkişafı (bununla əlaqədar qeyd etməyimiz zəruridir ki, bu vaxtadək hüququn tam anlayışı verilməmişdir və ehtimal ki, F.Hegel müxtəlif tarixi mərhələlərdə ayrı-ayrı nəzəriyyələrdə verilmiş anlayışları nəzərdə tuturdu).

F.Hegel hüququ ruhi hadisə kimi müəyyənləşdirir və onu iradə, azadlıq anlayışları ilə qırılmaz əlaqədə izah edirdi. O, azadlığı iradənin substansiyası və müəyyənliyi, iradəni isə hüququn çıxış nöqtəsi kimi götürür, hüquq sistemini ruhun özü ilə ikinci təbiət kimi yaradılan gerçəkləşmiş azadlıq səltənəti hesab edirdi.

Həqiqətən də iradə və azadlıq, azad iradə anlayışlarından kənarda təsəvvür edilən hüquq, yəni "azadlıq səltənəti izah oluna bilməz. Hegel "azad iradə", yaxud "iradə azadlığı" haqqında anlayışı öz dövründə mövcud olmuş empirik-psixoloji yanaşma üsulunun tənqidinə əsaslanmaqla izah etmişdir. Bu üsul ondan ibarətdir ki, iradə haqqında təsəvvür "iradə" anlayışının tərifini hasil və qeyd etmək üçün ilkin şərt və ya müqəddimə kimi götürülürdü. İradə azadlığının şüur faktı olması onun sübutu qismində təsəvvür edilirdi. F.Hegel isə belə yanaşmanı yanlış hesab edir. Mütəfəkkir özünün "Ruh fəlsəfəsi" əsərində iradə azadlığı

problemi haqqında şərh etdiyi mülahizəsinə istinadən yazır ki, “azadlığın deduksiyası, eləcə də iradə və azadlığın mahiyyəti yalnız tamla bağlı ola bilər” [2, s.368].

Hegelin yuxarıda əsaslandırdığı bu müddəanın əsas əlaməti, onun özünün yazdığı kimi, ondan ibarətdir ki, “ruha ən yaxın olan intellektdir və intellektin öz tərifləri, müəyyənlikləri vasitəsilə irəliyə, yəni hissdən təsəvvür vasitəsilə təfəkkürə hərəkəti onun özünü iradə kimi yaratması yoludur, bu iradə isə praktiki ruh qismindəki intellektdir” [2, s.371].

Beləliklə, F.Hegel insanın gerçəkliyə münasibətinin praktiki və nəzəri məqamlarını qarşılıqlı vəhdətdə nəzərdən keçirir.

F.Hegelin dövlət və hüquq haqqında təlimində inkişafda götürülən problemlərdən biri də hüququn azad iradə ilə münasibətinin izah edilməsidir. O bu məsələnin şərhinə iradənin azadlığı və onun özbaşınalığı arasındakı əlaqə haqqında mövcud olan adi təsəvvürün tənqidi ilə başlayır, lakin ilk növbədə hüququn müsbət olması xassəsi üzərində dayanaraq yazır: “hüquq, ümumiyyətlə, müsbətdir və o, aşağıdakılarda ifadə olunur:

a) özünün dövlətdə gücə malik olmasından ibarət forması sayəsində bu qanuni nüfuz (avtoritet)onun haqqında idrakın prinsipini, müsbət hüquq haqqında elmi ifadə edir;

b) öz məzmununa görə bu hüquq onun daşıyıcısı olan xalqın milli xarakterinin əzəlliyi, tarixi inkişaf səviyyəsinə və təbii zərurət sferasına məxsus olan bütün əlaqələri sayəsində müsbət elementə malikdir;

c) hüquqi qanunvericilikdə verilmiş sistemində ümumi anlayışların, predmetlərin və halların xarakterinə kənardan verilmiş xüsusiyə tətbiqini-spekulyativ təfəkkürlə və anlayışın inkişafı ilə deyil, xüsusinin ümumiyə artıq mücərrəd empirik təfəkkürə daxil edilməsindən ibarət tətbiqinin zəruriliyində ifadə olunur;

d) gerçəklikdə qərarın qəbul olunması üçün tələb edilən sonuncu təriflər sayəsində öz ifadəsini tapır [1, s.67].

F.Hegelin yuxarıdakı mülahizəsinə görə iradənin azadlığına dair fikir özbaşınalığı haqqında təsəvvürdən ibarətdir.

F.Hegel hüquq deyərkən, özünün qeyd etdiyi kimi burada təkcə “hüquq” məfhumu altında adətən başa düşülən mülki hüquq deyil, həm də bura daxil olan əxlaqı, mənəviyyatı və ümumdünya tarixini nəzərdə tutur. Çünki hər bir anlayış fikri həqiqətə müvafiq surətdə birləşdirir. Hegel əsasən cəmiyyətdə ictimai münasibətləri tənzimləyən hüququ nəzərdə tutur, onun cəmiyyətin gələcək sosial-iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynayacağına xüsusi diqqət yetirirdi. Baxmayaraq ki, mütəfəkkir “vətəndaş cəmiyyəti” anlayışından adını əsərlərində xatırlatmır, lakin belə bir cəmiyyətin azad iradə, hüquq bərabərliyi və siyasi azadlıqlar əsasında qurulacağına inanırdı.

F.Hegel formal, yəni mülkiyyət hüququnun və əxlaqın – bu iki sferanın həqiqətini mənəviyyatla bağlayır. Bu da təsadüfi deyil. Artıq qeyd edildiyi kimi, vətəndaş cəmiyyəti mənəviyyatı zəngin olan fərdlərin zad və firavan cəmiyyətidir. Mütəfəkkir mənəviyyatı iradə anlayışı və fərdin (hüququn subyektinin) iradəsinin vəhdəti kimi müəyyən edir, təbii hiss və sevgi formasında mövcud olan ailəni isə mənəviyyatın ilkin forması adlandırır. Mənəviyyatın ikinci pilləsində vətəndaş cəmiyyəti, üçüncü pilləsində isə dövlət durur.

Beləliklə, F.Hegelin görüşlərində vətəndaş cəmiyyətinə dair fəlsəfi ideya cəmiyyətin və dövlətin qarşılıqlı əlaqəsi haqqında diskussiyalar gedişində formalaşmışdır. Təsadüfi deyil ki, vətəndaş cəmiyyəti konsepsiyasının işlənib hazırlanmasında alman filosofunun xüsusi xidməti vardır. F.Hegelin konsepsiyasına uyğun olaraq vətəndaş cəmiyyətinin sosial həyatı ailənin etik aləmindən və ümumi dövlət həyatından əsaslı surətdə fərqlənir. Vətəndaş cəmiyyətinin sosial həyatı rasonal şəkildə strukturlaşdırılmış siyasi cəmiyyətin zəruri məqamlarını özündə ehtiva edir.

F.Hegelin fəlsəfi ideyasında təqdirəlayiq cəhətlərdən biri bazar iqtisadiyyatının, sosial siniflərin, korporasiyaların, sosial institutların vətəndaş cəmiyyətinə daxil edilməsidir. Bunun başlıca vəzifəsi isə cəmiyyətin həyati qabiliyyətinin təmin edilməsi və mülki hüquqların realizəsindən ibarətdir. F.Hegelin fikrincə, vətəndaş cəmiyyəti elə xüsusi şəxslərdən, sosial siniflərdən, qruplardan və institutlardan ibarətdir ki, bunların bir-birinə qarşılıqlı təsiri mülki hüquqla tənzimlənir və belə tənzimetmə siyasi dövlətdən asılı deyil. Hegel belə bir nəticəyə gəlirdi ki, vətəndaş cəmiyyəti nəinki "ümumi" və siyasi mənafelər, həm də xüsusi, daha dəqiq desək, xüsusi mülkiyyət mənafeləri sferasıdır.

Mütəfəkkir yazır: "Biz nəzərdə tuturuq ki, vətəndaş cəmiyyətindən hər kəs özü üçün məqsəddir, qalan hər şey onun üçün heç nədir. Ancaq digər şəxslərlə əlaqədən kənarda öz məqsədlərini əldə edə bilməz, odur ki, bu digərləri xüsusinin məqsədləri üçün vasitədir. Ancaq xüsusi məqsəd digərləri ilə əlaqə vasitəsi ilə özünə ümumilik forması verir və bununla birlikdə başqalarının da xeyrini təmin edir. Xüsusilik ümumiliyin şərtləri ilə bağlı olduğundan bütöv bütün xüsusiliklərin, zəka şüası ilə idarə olunan bütün istəklər dalğasının axıb töküldüyü təsadüfi doğuluşların və xoşbəxtliklərin vasitələndiyi zəmindir. Ümumiliklə məhdudlaşanların xüsusilik tək ölçüsüdür (mayadır) ki, bununla hər bir xüsusilik öz xoşbəxtliyinə kömək edir" [1, s.224].

Göründüyü kimi, F.Hegel vətəndaş cəmiyyətinə fərdlərin məcmusu qismində baxırdı. Məhz şərtlərin məcmusu əməyin köməyilə öz gündəlik tələbatlarını ödəyirdi. Lakin fərdlərin məcmusu deyil, bilavasitə dövlətin özü tarixi tərəfinin hərəkətverici qüvvəsi kimi çıxış edir. Yeni tarixin hərəkətverici qüvvəsi konkret şəxsiyyət, yaxud şəxsiyyətlərin məcmusu deyil, cəmiyyətin siyasi təşkilatı olan dövlətdir.

F.Hegelin ideyasına uyğun olaraq "vətəndaş cəmiyyətinin prinsiplərindən biri xüsusi kimi, tələbatlar məcmusu və təbii zərurət və iradiliyin qarışığı kimi özü üçün məqsəd olan konkret şəxsiyyətdir - ancaq başqa xüsusilə özü kimi önəmli qarşılıqlı əlaqədə olan şəxsdir, çünki o öz iddialarını açıqlayır və özünü ancaq başqa xüsusi şəxslə vasitələnmiş şəxs kimi, bununla birlikdə bütünlüklə ümumilik forması - vətəndaş cəmiyyətinin digər prinsipi ilə vasitələnmiş şəxs kimi təmin edir" [1, s.224].

Vətəndaş cəmiyyətini və siyasi dövləti fərqləndirən alman filosofu vətəndaş cəmiyyəti adı altında mahiyyət etibarilə burjua dövlətini nəzərdə tuturdu. Onun fikrincə, "vətəndaş cəmiyyətinin inkişafı dövlətin inkişafından sonra gəlsə də, o, ailə və dövlət arasında ayırıcı pillədir, çünki o, mövcud olmaq üçün müstəqil dövlətin olmasını tələb edir. Lakin vətəndaş cəmiyyəti, yaxud vətəndaş cəmiyyəti ideyası müasir dünyada yaranmışdır" [1, s.224].

F.Hegel bunu öz dövrünün bir çox yeni dövlətşünaslarının dövlətə dair digər baxışları irəli sürə bilməmələri ilə əlaqələndirirdi. Mütəfəkkir vətəndaş cəmiyyətinə dair fəlsəfi mülahizələrini bir növ yekunlaşdıraraq cəmiyyətdə aşağıdakı üç məqamın mövcudluğunu xüsusi olaraq qeyd edirdi:

1. tələbatların vasitələnməsi və tək olanın öz işi vasitəsilə təmin olunması və onun bu işi vasitəsilə bütün başqalarının - tələbatlar sisteminin təmin olunması;
2. yuxarıda qeyd edilən vasitələnmədə olan ümumi azadlığın gerçəkliyi, mül kiyyətin ədliyyə (qanunla - kursiv bizimdir) ilə himayə olunması;
3. yuxarıda göstərilən sistemlərdə qalmış təsadüflə mübarizə aparılmasına qayğı və xüsusi marağa ümumi kimi polis və korporasiya vasitəsilə himayədarlıq göstərilməsi [1, s.229].

K.Marksın (1818-1883) gənc yaşlarında gənc hegelçilər adlanan fəlsəfi məktəbin üzvlərindən biri olmuşdur. Sonralar Feyerbax fəlsəfəsinin təsiri altında materializm mövqelərinə keçmiş və son nəticədə özünü müstəqil fəlsəfi təlimi yaratmışdır.

K.Marksın yaratdığı fəlsəfi təlim dialektik materializm idi. Tədqiqatçıların fikrincə, Marks XIX əsrin mütəfəkkirlərindəndir ki,

onun təlimi XX əsrdə insanların taleyinə böyük təsir göstərmişdir [4, s.167].

K.Marksın fəlsəfi təlimi, eləcə də marksizm fəlsəfəsi klassik alman fəlsəfəsinin və XIX əsrin 40-cı illərində Avropada sosializm və kommunizm ictimai hərəkatının təsiri altında formalaşmışdır. Marks öz qarşısına kommunizmi fəlsəfi cəhətdən əsaslandırma vəzifəsi qoyulmuşdu. Bu zaman o, xeyli dərəcədə L. Feyerbaxın antropoloji materializminə əsaslanmışdır. Fəlsəfi ədəbiyyatda qeyd edildiyi kimi, Marksın xidməti ondadır ki, o, unudulmuş dialektik metodu ilk dəfə yenidən meydana çıxarmışdır [5, s.232-233].

K.Marks yazırdı ki, "insan vətəndaş cəmiyyətində başqalarına vasitə kimi baxır özünü də vasitə qismində görür və bununla da onun özü özgə qüvvələrin oyuncağına çevrilir. [8, s.391]. Vətəndaş cəmiyyəti də, hər şeydən əvvəl, istehsalat və mübadilə sferasında iqtisadi mənafelər naminə yaradılır. Marks, bu mülahizəsi ilə Hegelin ardıcılı kimi çıxış etsə də, həmkarına nisbətən fərqli mövqe tuturdu. O, Hegelin vətəndaş cəmiyyətinə münasibətdə dövlətin birinciliyi haqqında tezisini rədd edirdi.

K.Marks cəmiyyətin inqilabi yolla dəyişdirilməsində və ya yenidən qurulmasında dövləti "inkar edilməsi"nin əvəzi olaraq kommunizm formasına üstünlük verirdi. Cəmiyyətin ancaq bu pilləsində özfəaliyyət maddi həyata uyğun gəlir ki, bu da fərdlərin bütöv fərd kimi inkişafına və hər cür qeyri-mütəşəkkilliyinin aradan qaldırılmasına müvafiqdir. Eynilə də əməyin özfəaliyyətinə çevrilməsi, həmçinin əvvəlki məhdud ünsiyyətin fərdlərin bir fərd kimi iştirak etdikləri ünsiyyətə çevrilməsi bir-birinə müvafiqdir.

K.Marks yazırdı ki, "vətəndaş cəmiyyəti məhsuldar qüvvələrin müəyyən inkişaf pilləsi çərçivəsində fərdlərin bütün maddi ünsiyyətini əhatə edir. Bu cəmiyyət müəyyən pillənin bütün ticarət və sənaye həyatını əhatə edir və buna görə də dövlət və millət çərçivəsindən kənara çıxır, hərçənd digər tərəfdən, kənarda yenə də millət şəklində ortaya çıxmalı və daxildə dövlət şəklində qurulmalıdır" [3, s.74]. Zəmanəsinin böyük mütəfəkkiri öz müasirlərindən fərqli olaraq dövlətlə müqayisədə vətəndaş cəmiyyətinin birinciliyini təsdiq edirdi.

K. Marks vətəndaş cəmiyyətini tarixin təbii məhsulu kimi təsəvvür edir. Onun mülahizəsinə görə vətəndaş cəmiyyəti ifadəsi XVIII əsrdə, mülkiyyət münasibətləri antik və orta əsr ümumiliyindən azad olub qurtulduğu zaman əmələ gəlmişdir.

Vətəndaş cəmiyyəti belə bir cəmiyyət olaraq, ancaq burjuaziya ilə birlikdə inkişaf edir; lakin bilavasitə istehsaldan və ünsiyyətdən inkişaf edən və bütün zamanlarda dövlətin və sair üstqurumun bazisini təşkil edən ictimai təşkilat da həmişə eyni adla göstərilmişdir" [3, s.74]. K.Marksın bu mülahizəsində işlətdiyi üstqurum ifadəsi dialektik materializm deyil, bir idealist mövqedən işlədilmişdir.

K.Marksın fəlsəfi təliminə uyğun olaraq "mənşəyi orta əsrlərdən başlanan xalqlarda tayfa mülkiyyəti yalnız bir sıra müxtəlif qəbilələrdən feodal torpaq mülkiyyətindən, daşınar korporativ mülkiyyətindən, manufaktura kapitalından keçdikdən sonra dönüb iri sənayenin və ümumi rəqabətin doğulduğu kapitala cevrilir, hər cür ümumilikəlamətini bir tərəfə atan və mülkiyyətin inkişafı üzərində dövlətin hər cür təsirini aradan qaldıran xalis xüsusi mülkiyyət olur". "Xüsusi mülkiyyətin ümumilikdən azad olub ayrılması nəticəsində vətəndaş cəmiyyəti ilə yanaşı olaraq və bunun xaricində dövlət müstəqil cütlük kəsb etdi; həqiqətdə dövlət ancaq elə bir təşkilat formasıdır ki, burjualar - istər ölkənin xaricində, istərsə də daxilində - öz mülkiyyəti və mənafeyini qarşılıqlı olaraq, təminat altına almaq üçün bu formanı labüdən qəbul etməlidirlər [3, s.75].

Vətəndaş cəmiyyəti konsepsiyası rus filosofları tərəfindən də inkişaf etdirilmişdir. Rus filosoflarının fəlsəfi görüşlərində vətəndaş cəmiyyətinin əsas fəlsəfi problemləri bu fenomenin həqiqi mənasını aşkara çıxarmaq səyi ilə bağlı olmuşdur. Liberallar əsas diqqəti vətəndaş cəmiyyətinin fərdi aspektlərinə yönəltmişlər. Liberal mühafizəkarlığın böyük nümayəndələrindən biri olmuş B.N.Çiçerinin düşüncələrinə uyğun olaraq vətəndaş cəmiyyətinin məzmunu hüquqla müəyyənləşdirilən fərdi,

maddi və mənəvi mənafelər təşkil edir. Mənafe insanın öz qarşısına qoyduğu məqsəddir.

B.N.Çiçerin elə güman edirdi ki, cəmiyyətin dövlətin ancaq bir hissəsi olduğunu etibar etmək lazımdır. Cəmiyyət hadisələri müstəqil sahəsi deyil. Deməli, etiraf etmək lazımdır ki, mülki hüquq dövlət hüququnun bir hissəsini təşkil edir. Onun fikrincə, vətəndaş cəmiyyətinin tərkibinə daxil olan mənafelər ikili xarakterə malikdir. Bunlar maddi və mənəvi mənafelərdən ibarətdirlər. Rus filosofu təsdiq etməyə çalışırdı ki, iqtisadi prosesin hərəkətverici qüvvəsini şəxsi mənafelər təşkil edir, deməli, maddi rifaha göstərilən cəhd vətəndaş cəmiyyətinin məzmununa xidmət edir. Rus fəlsəfəsində vətəndaş cəmiyyəti konsepsiyasının inkişaf etdirilməsində filosof və psixoloq Semyon Lyudviqoviç Frankın (1877-1950) xüsusi xidmətləri olmuşdur. Əgər Çiçerin vətəndaş cəmiyyəti konsepsiyasının liberal variantını tədqiq etmişdirsə, Frank vətəndaş cəmiyyəti anlayışının mahiyyətini itirib hüquqi mövqelərdən təhlil etməyə səy göstərmişdir.

S.L.Frank vətəndaş cəmiyyətinin fərdiyyətçilik cəhətdən başa düşülməsinin liberalizmə xas olan variantının əleyhinə çıxmışdır. Bundan başqa o, vətəndaş cəmiyyətinə dair konsepsiyanın tam aradan qaldırılması haqqında sosialist doktrinasını tamamilə rədd etmişdir. Vətəndaş cəmiyyəti anlayışının etik məzmununu açmağa səy göstərən filosof təkid edirdi ki, cəmiyyətin ayrı-ayrı elementləri arasında "molekulyar" əlaqələrin olması onların üzvi daxili birliyi haqqında şəhadət verir [9, s.427].

S.L.Frank təsdiq edirdi ki, fərdlər bir-birilə təsadüfən toqquşan və özündə həqiqi varlığa malik olan atomların mahiyyəti deyil, üzvi tamın həqiqi üzvləridir [9, s.427].

Filosofun fikrincə, ontoloji varlığın və vətəndaş cəmiyyətinin funksional teoloji mənasını da bu təşkil edir. O, ayrı-ayrı insanların mənafelərinin təmin edilməsi üçün xarici vasitə deyil, ictimai əməkdaşlığı zəruri forması, xidməti forması, sosial tamın ayrı-ayrı üzvlərinin azad iradə ifadəsi vasitəsilə obyektiv həqiqətin gerçəkləşdirilməsidir. Cəmiyyətin strukturundakı fərdiyyətçilik məqamına uyğun olaraq bir sıra ayrıca, bir-birindən asılı olmayan qruplara parçalanmalıdır. Cəmiyyətin fəal qüvvələrin xüsusi mərkəzlərinə parçalanması ictimai həyatın məqsədi deyil, onun funksiyasıdır. Lakin bu, zəruri olan funksiyadır və cəmiyyətin fövqəlfərdi məqsədlərinin birliyi kimi təzahür edir.

Vətəndaş cəmiyyətinin anlayışına belə etik-hüquqi yanaşma S.L.Frankın fəlsəfəsi təliminin mərkəz xəttini təşkil edir. Buna görə də filosof şəxsiyyətin azadlığını hüquq və vəzifənin vəhdətində nəzərdən keçirir. S.L.Frank yazır; "şəxsiyyətin azadlığı... anadangəlmə və ilkin hüquq deyil, ictimai vəzifədir. O, funksional dəyərə malikdir; bütün subyektiv hüquqlar kimi o da vəzifəsinin refleksi, varlığın forması kimi təzahür edir..." [9, s.427].

S.L.Frankın fəlsəfi düşüncəsinə uyğun olaraq şəxsiyyətin nə maraqlı və nə də hüququ deyil, düzgünlüyə xidmət etmək maraqları cəmiyyətin ayrı-ayrı, hüquqla müdafiə olunan azad fəallıq mərkəzlərinə parçalanmasını tələb edir. Bu da öz növbəsində azad fəal mərkəzləri hər birinin lazımi azad sfera ilə təmin olunmasına şərait yaradı. Cəmiyyət üzvlərinin müstəqilliyi, onların hər birinin ontoloji cəhətdən əsaslandırılmış sərbəstliyi onların qarşılıqlı əlaqəsinin, ictimai birliyinin zəruri formasıdır. Frankın mülahizəsinə görə həmrəylik başlanğıcları və azadlıq üzvi çoxbirlikdən ibarət olan cəmiyyətin təbiətindən doğur, hüququn ayrı-ayrı subyektlərinə parçalanmış cəmiyyətdə azad iradə ifadəsi vasitəsilə öz təcəssümünü tapır" [9, s.429].

S.L.Frankın etirafına görə vətəndaş cəmiyyətinin strukturunu normallaşdıran hüquq dövlət tərəfindən tam şəkildə dekretləşdirilə bilməz, çünki o öz məzmununda ancaq həyati praktika əsasında təşəkkül tapmış münasibətləri ehtiva edir. Bunlar həm də intuitiv hüquq düşüncəsi ilə sanksiyalaşdırılan münasibətlərdir [9, s.429]. Ona görə də vətəndaş cəmiyyətinin hüquqi tənzimlənməsinə S.L.Frank tərəfindən spesifik aralıq həlqə kimi baxılır. Dövlət və vətəndaş cəmiyyəti məhz həmin aralıq həlqədə üzvi surətdə birləşir, dövlətlə vətəndaş cəmiyyətinin vəhdəti yaranır.

S.L.Frankın fikrincə vətəndaş cəmiyyəti dövləti nəinki özündən kənarda nəzərdə tutmur, məhz hüququn sayəsində onların qarşılıqlı birliyini yaradır. Vətəndaş cəmiyyəti özündə dövlət başlanğıcını təcəssüm etdirir. Dövlət də öz növbəsində cəmiyyətdə tam surətdə təşəkkül tapmış münasibətlərin əks olunmasından ibarətdir. Deməli, dövlət hakimiyyətinin vətəndaş cəmiyyətinin özünün mövcudluğu şəraitində məhdudiyyəti zəruri şəkil alır. Dövlət hakimiyyətinin fəaliyyəti lazımi hüdudları aşa bilməz və bu, vətəndaş cəmiyyətinin dövlətin özü ilə birlikdə fəaliyyət prinsiplərinə zidd olardı. Həmin prinsiplərin pozulması vətəndaş cəmiyyətinin varlığı üçün təhlükədən başqa bir şey deyildir.

Yuxarıda qeyd edilənlər baxımından S.L.Frank dövlətin vəzifələrini daha da komplektləşdirməyə meyil göstərir. Filosofun mövqeyinə görə dövlətin vəzifələri fəaliyyəti hüdudlarından kənara çıxmamalıdır. Həmin vəzifələr özündə planlı-təşkilati fəaliyyəti əks etdirməlidir. Hər bir təşkilatilik məhz azadlığın təşkilindən ibarətdir [9, s.425]. Bu həm də özündə tam əməkdaşlığı ehtiva edir.

S.L.Frankın fəlsəfi təliminə uyğun olaraq dövlətin birliyindən fərqli olaraq vətəndaş cəmiyyətinin birliyi ictimai birlikdir, azad iradə istifadəsinə əsaslanan əməkdaşlıqdır. Belə birlik özündə eyni zamanda cəmiyyətin ayrı-ayrı üzvlərinin azad sazişini təcəssüm etdirir. Filosofun mülahizəsinə görə vətəndaş cəmiyyətinin hüquqi formasını müqavilə, saziş təşkil edir. Üstəlik, cəmiyyət haqqında “müqavilə” nəzəriyyəsi onun birliyini və mütəşəkkilliyini təcəssüm etdirməklə yanaşı, eyni zamanda da təbii hüquq nəzəriyyəsinin müddəalarına söykənir.

Qeyd etmək zəruridir ki, təbii hüquq nəzəriyyəsi təkcə vətəndaş cəmiyyətinin hüquqi forması deyil, həm də dövlətin və hüququn özünün mənşəyinə dair ictimai müqavilə nəzəriyyəsinin əsasını təşkil edir. Vətəndaş cəmiyyəti sanki molekulyar ictimai əlaqədir və o, daxilən ayrı-ayrı azad, sərbəst elementlərin birliyindən ibarətdir.

Beləliklə, S.L.Frankın vətəndaş cəmiyyətinin anlayışı haqqında hüquqi düşüncələri vətəndaş cəmiyyəti haqqında klassik konsepsiyalar içərisində özünəməxsus orijinallığı və bir sıra yenilikləri ilə diqqəti cəlb edir. Həmin düşüncələr təkcə öz formalaşdığı dövrdə deyil, müasir dövrdə vətəndaş cəmiyyətinə dair konsepsiyaların təşəkkülü və formalaşmasına xeyli təsir göstərmişdir. Filosofun mövqeyi bir tərəfdən obyektivliyi, digər tərəfdən isə vətəndaş cəmiyyətinin anlayışı istiqamətində bu cəmiyyətin mahiyyətinin açılmasına kömək etməsi ilə əlamətdardır.

**Ədəbiyyat:**


1. Hegel. Hüquq fəlsəfəsi/ tərcüməçi A.Tağıyev. Bakı, Nərgiz, 2007, s.376
2. Hegel. Ruh fəlsəfəsi/ tərcüməçi. A.Tağıyev. Bakı, 2003, s. 458
3. Marks K. Engels F. Seçilmiş əsərləri: 3 cilddə, 1-ci cild. Bakı, Azərnəşr, 1978
4. Rüstəmov Y.İ. Fəlsəfənin əsasları. Bakı. “Elm”, 2004, s. 229
5. Şükürov A.M. Fəlsəfə. Bakı, “Çıraq, 2008, s.491
6. Бахтин М.М. Творчество Франсуа Рабле и народная культура Средневековья и Ренессанса. М., Художественная литература. 1990, с. 543
7. Кант И. Собр. Соч. М., Наука, 1994. Т.8, с.153
8. Маркс К. Энгельс Ф. Соч. Т.1, с.391
9. Франк С. Л. Духовные основы общества: введение в социальную философию. Л., 1991, с.425
10. Хейзинга И. Осень Средневековья. Исследование форм жизненного уклада и форм мышления в XIV и XV веках во Франции и Нидерландах. М., Наука, 1988, с.540
11. Чичерин Б.Н. Избранные труды, СПб, 1998, с.288

***Açar sözlər:*** *vətəndaş cəmiyyəti, hüququn aliliyi, mülki hüquq, müqavilə*

**Mehriban Babakhanova**

*Azerbaijan University of Languages, International Relations Department,*
*Ph.D. in Law, Associate Professor*

## CLASSICAL CONCEPTIONS OF CIVIL SOCIETY

## ABSTRACT

The article examines the philosophical and legal foundations of civil society through major classical theories. Civil society is defined as a sphere distinct from the state, where individual liberty and private-law relations are realized. Its historical emergence is traced to institutions such as free cities, communes, guilds, and corporations. The discussion juxtaposes Kant's ideas of freedom and equality, Hegel's framework of the civil society–state relationship and law as "realized freedom," and Marx's thesis on the primacy of economic relations, situating civil society within the domains of production and exchange. In Russian thought, Chicherin's concept of legally framed individual interests and Frank's ethical-legal account (unity of right and duty, contract, and social solidarity) are highlighted. The paper concludes that civil society evolves as an autonomous yet interdependent sphere vis-à-vis the state, institutionalizing individual freedom through private-law mechanisms and historically grounded social structures.

***Keywords:*** *civil society, rule of law, private law, contract*

**Мехрибан Бабаханова**

*Доцент кафедры Международных отношений*
*Азербайджанского Университета Языков, доктор философии по праву*

## КЛАССИЧЕСКИЕ КОНЦЕПЦИИ О ГРАЖДАНСКОМ ОБЩЕСТВЕ

## РЕЗЮМЕ

Статья анализирует философско-правовые основания гражданского общества сквозь призму классических теорий. Гражданское общество понимается как отличная от государства сфера реализации частной свободы и частноправовых отношений, прослеживаются его исторические истоки в институтах свободных городов, коммун, гильдий и корпораций. Рассматриваются идеи Канта о свободе и равенстве, концепция Гегеля об отношениях "гражданское общество – государство" и о праве, как "воплощении свободы", а также тезис Маркса о первичности экономических отношений и укоренённости гражданского общества в сфере производства и обмена. В русской мысли сопоставляются чичеринская модель индивидуальных интересов, определяемых правом, и этико-правовая трактовка Франка (единство права и долга, договор и общественная солидарность). Делается вывод о том, что гражданское общество исторически и социологически формируется как автономная, но взаимосвязанная с государством система, институционально опосредующая свободу личности и частное право.

***Ключевые слова:*** *гражданское общество, верховенство права, частное право, договор*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.012

**F Ə L S Ə F Ə**
**P H I L O S O P H Y**

UOT 316.7

**ЛЕЙЛИ ГУЛИЕВА**

**Доцент кафедры Философии и социальных дисциплин Азербайджанского Государственного Педагогического Университета, доктор философии по философии**

*e-mail: Leyli.Quliyeva@adpu.edu.az*

# КУЛЬТУРНЫЕ ЦЕННОСТИ КАК ГЛАВНЫЙ ИНДИКАТОР ПРОГРЕССА

В последние десятилетия тема культурной идентичности приобретает всё большое значение. Культурной идентичностью можно считать принадлежность человека к какой-либо культуре. Это обширное понятие характеризует ценностное отношение человека к себе, другим людям и ко всему миру в целом. Помимо этого идентичность, в том числе и культурная, формирует условия психологической и личностной защиты. Когда каждый индивид осознает себя органической частью целого, когда существуют различные личности и общества, и общество при этом не испытывает психологических проблем, они динамично развиваются. Обладание культурное идентичностью является критерием культуры людей. Как правильно отмечает культуролог профессор Ф.Мамедов: «Высококультурные люди являются незаменимым ресурсом не только для удовлетворения постоянно растущих человеческих и общественных потребностей отдельных стран, но и для изменения мира к лучшему, для установления международной культурной идентичности, взаимопонимания, солидарности и сотрудничества народов. Их творческая деятельность повышает энергию и преобразовательные возможности культуры как созидательного процесса» [11, с.124].

В настоящее время культурная идентичность характеризуется и рассматривается с точки зрения национальной и государственной безопасности, также под этим понятием подразумевается необходимость и важность сохранения традиций, формирующих гражданскую позицию каждой личности.

Потеря культурной идентичности, её отрицание приводят к утрате культурных, социальных и национально-этнических корней, нивелированию национальных символов и ценностей, отрицанию морально-этических и культурных ориентиров.

Одной из главных задач государственной культурной политики Азербайджана является воспитание у граждан страны традиционных культурно-нравственных ценностей, и, в частности, патриотизма. Как отмечает культуролог Ф.Мамедов, «необходимое внимание в этом процессе уделяется как формированию общечеловеческих ценностей, так и культурной идентичности азербайджанских граждан, основанной на патриотизме, высоких интеллектуальных и нравственных ценностях знания и созидания, добра, гуманизма, этики и справедливости, поставленных на службу сохранения и устойчивого развития всего человечества» [11, с.140].

В современном обществе функции, формы, методы, технологии культуры обусловлены совершенствованием и видоизменением в свете нового понимания ее сущности, миссии и роли. Непременным условием дальнейшего человеческого прогресса и культурного национального развития становится обеспечение востребованности в национальном сознании гармоничного понимания ценности и роли культуры, образования, просвещения, науки.

Для формирования устойчивого и безопасного национального развития у нас в республике формируется новая культурная политика, основанная на внедрении новых культурологических реформ, развития интеллектуальной культуры, приоритетного развития учреждений культуры. В этом процессе креативно используются высокие достижения мировой культуры, новейшие технологии науки и образования развитых стран и государств мира, и, конечно, наши собственные новшества, инновации и достижения культурологической науки.

В нашей стране состояние культуры характеризуется положительными тенденциями в развитии, успехами и достижениями. Политика государства в этой сфере нацелена на сохранение самобытности и уникальности культуры национальных традиций нашего народа, возрождение и развитие культурного наследия, обеспечение доступности культурных ценностей для всего населения. «Народ, обладающий высокой культурой – говорил наш Общенациональный лидер Гейдар Алиев, всегда будет идти вперед, будет жить и развиваться» [1]. Следует отметить принятие целого ряда законодательных актов, касающихся вопросов культуры и искусства руководством республики. Важными факторами являются сохранение и развитие сети учреждений культуры, улучшение их материально-технической базы, участие представителей Азербайджана в различных республиканских и международных конкурсах, большая государственная поддержка творческой молодежи и детей, региональные культурные связи с другими странами. Культура – это одна из форм общественного сознания, это своего рода живой организм, который идёт в ногу со временем, трансформируется в обществе и развивается вместе с ним. Она со всей необходимостью требует новых креативных подходов к решению возникающих проблем, нуждается в постоянном развитии и совершенствовании. Процессы глобализации, изменения, происходящие в мире, и в нашей республике, обусловливают некоторый пересмотр представлений о роли культуры в государстве и обществе. В современном социуме культура рассматривается не только как совокупность национально-культурных ценностей, культурного наследия и традиции народного творчества, но и является важным фактором и рычагом всестороннего развития человека, ключом безопасности и счастья азербайджанского народа, его лучшего будущего.

В последнее время в целом ряде развитых и развивающихся стран мира наблюдаются негативные тенденции, как следствие столкновения различных культур, этносов. И зачастую искусственное разжигание таких опасных тенденций, как исламофобия, расизм, ксенофобия и другие, усиливают данные конфликты и столкновения, в результате чего учащаются случаи нарушения прав человека, нарушается социальная стабильность всего мирового сообщества. Азербайджан – это страна, сохранившая демократические гуманистические прогрессивные традиции и мультикультуральные ценности, относится к ним с чуткостью и уважением. В Азербайджане толерантность, гармонирующая с нашими национальными ценностями и традициями, является образцом для других народов и наций, различных государств. Уважать другую культуру, духовный мир, мировоззрение, религию, проявлять понимание – это высокое человеческое качество. Это также возможность представлять и

продвигать свои национальные ценности и традиции. В связи с этим Президент Ильхам Алиев в своей речи на церемонии открытия IV Всемирного Форума по межкультурному диалогу сказал: «Мультикультурализм является государственной политикой в Азербайджане, идеи мультикультурализма всегда существовали в нашей стране. Независимо от исторического периода и политической системы наш народ всегда активно защищал мультикультурализм как в стране, так и за её пределами» [2].

Продуктивная взаимосвязь и диалог культур, цивилизаций, направленный на мир, взаимопонимание и взаимовыгодное сотрудничество, являются одним из важных факторов сохранения и устойчивого развития человечества. Успешное решение этой стратегической проблемы во многом зависит от прогрессивных трансформаций духовной культуры стран Запада и Востока, плодотворности культурного обмена, формирования гармонии интересов и сближения культур на основе приоритета общечеловеческих ценностей, доброй воли и справедливости» [9, с.103].

Одним из факторов формирования и развития культурной самобытности и культурной идентичности является творчество народа, которое служит незаменимым источником нравственного, эстетического, художественного и гражданского воспитания всех членов общества. Народное искусство, своими корнями уходящее в глубокую древность, составляет историческую основу всей мировой художественной культуры.

В современных условиях сохранение и дальнейшее развитие прекрасной народной культуры, культурного наследия, накопленного веками, эффективное его использование имеет значение для возвышения духовной культуры, для гражданской консолидации и процветания общества, сохранения и продолжения национально-этнических традиций, укрепления взаимопонимания, взаимодействия и взаимосвязей с другими народами. Представляется очень важным сохранить и развивать нематериальное этнокультурное наследие, в том числе и азербайджанского народа, и интегрировать его в современный социокультурный контекст глобализирующегося мира. В Азербайджане очень большое значение придается проблемам регулярного приобщения населения к изучению традиций народной культуры и искусства, составляющих неотъемлемую часть сокровищницы мировой общечеловеческой культуры.

Культурное наследие каждого народа, органично включающее в себя и народную, национальную культуру, даёт обществу новое видение, новые возможности в познании и совершенствовании самого себя и окружающей действительности. Это объясняет важность перманентного осуществления государством, основанном на системном культурологическом подходе, прогрессивных культурологических реформ, нацеленных на революционные изменения в сознании производителей материальных благ, на формирование высокой культуры труда и культуры управления, культуры социальной ответственности и служению отечеству.

Соответствующие структуры создают все необходимые условия, способствующие ознакомлению и усвоению населением нашей страны национального и мирового культурного наследия, формируется сеть организаций культуры в стране, выделяются необходимые финансовые ресурсы для материальной базы этих мероприятий. Финансируются теоретические и научные исследования в сфере культуры, разрабатываются масштабные проекты, проводится подготовка специалистов и квалифицированных кадров, создаются все условия и стимулы для художественного творчества, сохраняются традиционные культурные ценности. Сегодня в фокусе внимания нашего правительства находятся процессы реформирования и оптимизации учреждений культуры в Азербайджане, создаются

институты и структуры нового типа, проводится координация социокультурных процессов. Одна из причин – это то, что учреждения культуры являются социальными институтами, выполняющими важные функции и имеющие знаковый смысл. Учреждения культуры всегда были и будут частью социально-культурной политики, одними из социокультурных институтов, являющихся организованным пространством личности, её креативности, сущностных способностей, способом само- выражения и самосознания человека. Поэтому политика в отношении учреждений культуры, их совершенствованию и модернизации должна проводиться ответственно, последовательно, рационально, с учетом конкретных условий и ситуаций [13, с.1].

Процессы глобализации включили в свою орбиту почти все страны мира, поэтому в большинстве стран имеет место этническое, расовое, религиозное и культурное многообразие. В условиях глобализации для утверждения социальной стабильности современное национальное государство должно, с одной стороны, защищать свою безопасность и суверенитет, а с другой – обеспечить равновесие сил, последовательно укреплять принципы многообразия [7, с.77].

Следует отметить, что в свете процессов глобализации, взаимосвязей и взаимодействий государств и стран, нередко западные ценности противоречат нашим национальным традициям и устоям, вступают в некоторое противоречие с парадигмами нашего национального менталитета. Продвижение, пропаганда и внедрение чуждых элементов, несовместимых с азербайджанскими национальными ценностями, недопустимы и не должны осуществляться.

Естественно, наше культурное наследие, национальные традиции, обычаи и дальше будут служить прогрессу и развитию общества и выступать главным индикатором процветания и прогресса общества. По пути развития социума традиции, устои, обычаи в том или ином виде будут интегрироваться и соответствовать социально-этическим и нравственным принципам различных структур и сфер общества. Каждая парадигма общества, каждая его общественно-политическая структура обуславливает развитие обычаев и традиций в целом, накладывает отпечаток и след на их функционировании.

Но поскольку культурное наследие Азербайджана, составляющее его золотой фонд, а также культура и искусство нашей страны уходят своими корнями в глубокую древность, то даже на нынешнем этапе глобализации и взаимодействия культур в мире, принцип наследования, преемственности культурного наследия не утратили своего значения. Все эти факторы являются важным стимулом прогресса нашего государства.

Помимо масштабных программ в области культуры и образования, которые реализуются комплексно, особое внимание уделяется деятельности учреждений культуры и образования в регионах нашей страны. Можно утверждать, что во всех регионах активно функционируют библиотеки, клубы, дома культуры, кружки самодеятельности, народные театры. В центре внимания находится стремление создать все условия для удовлетворения всевозрастающего спроса на содержательный и активный досуг населения Азербайджана. Деятельность культурных учреждений, центров предполагает и изучение культурных потребностей населения, и возможность предоставления различных культурно-просветительских программ и проектов, создание условий для активистов и энтузиастов. Все регионы нашей страны обладают солидной базой для организации на высоком уровне культурно-просветительской работы. Проблемы, связанные с ремонтом, укреплением и развитием материально-технической базы учреждений культуры, отражены в соответствующих государственных программах и документах.

Что касается освобожденных территорий, следует подчеркнуть, что сейчас эти земли превращены в строительные площадки. Одновременно с восстановлением экономической, социальной структур, в них воссоздаются культурные инфраструктуры, эффективно реализуется государственная политика в области национального культурного возрождения. Создание на этих территориях учреждений культуры или их восстановление предполагает то, что они станут местами, где будет проводиться профессиональная деятельность специалистов в области организации досуга. Их задачи – создание необходимых условий для социальных и культурных потребностей населения в отдыхе, культурном развитии, живом общении, культурном развитии, творчестве, различных видах досуга.

В своё время на территории Карабаха и на прилегающих к нему землях до армянской оккупации располагались культурные центры, где функционировали музеи, библиотеки, клубы, музыкальные школы и училища, различные культурно-просветительские учреждения. Все эти объекты были варварски уничтожены армянскими агрессорами, разграблены и подверглись разрушениям.

До войны на этих территориях проводились различные фестивали, конкурсы музыки, поэзии. Земля Карабаха издавна славилась наличием талантливых, одаренных жителей.

Высокое чувство патриотизма нашего героического народа, а также воспитательно-образовательная и пропагандистская работа, которая зиждется на защите национальных нравственных ценностей, продемонстрировали себя особенно во время Второй Карабахской войны. Причем наше молодое поколение, никогда не жившее в Карабахе и знающее об этих землях в основном из СМИ, учебников, художественной литературы, одержало блистательную победу под руководством нашего Главнокомандующего уважаемого Президента Ильхама Алиева.

Азербайджанский народ на протяжении 30 лет не смирился с фактом оккупации, поскольку трепетно и с большим уважением относится к своим национальным ценностям, своим землям, традициям государственности и, в целом, к материальному и нематериальному культурному наследию. Но сегодня с армянской оккупацией покончено, наши земли освобождены.

В результате оккупации были разграблены почти 900 населенных пунктов, 22 музея, 40000 редких, обладающих исторической ценностью музейных предметов и экспонатов. Был полностью разрушен единственный на постсоветском пространстве музей хлеба в Агдаме, 13 тысяч ценных экспонатов Лачинского краеведческого музея были вывезены в Армению. Были разграблены 500 экспонатов Шушинского исторического музея, 300 экспонатов дома-музея великого композитора У.Гаджибекова, 400 экспонатов дома-музея Бюльбюля, 100 экспонатов дома-музея выдающегося музыканта и художника Мир Мохсуна Навваба, 200 экспонатов Агдамского историко-краеведческого музея, 300 экспонатов Губадлинского краеведческого музея, 600 экспонатов Зангиланского историко-краеведческого музея. Кроме того, были разрушены, разграблены, сожжены 4 художественных галереи, 9 дворцов исторического значения, 44 албанских церквей, 9 мечетей, уничтожены 4,6 млн. книг и ценных исторических рукописей, хранившихся в 927 библиотеках [7, с.122].

После победы Азербайджана в 44-дневной войне возникла острая необходимость восстановления и практически нового строительства жилья, мостов, дорог, объектов культурно-бытового значения, школ, детских садов и пр., составляющих основу и создающих возможность и условия для жизни сотен тысяч людей, большее число из которых были убиты, покалечены и из-

гнаны с территории своего постоянного проживания.

Благодаря стальной несгибаемой воле и непоколебимой решительности Президента Ильхама Алиева без всякой помощи извне, т.е. только за счет внутренних возможностей нашего государства реализуются строительно-реставрационные работы, возводятся умные города и села, ультрасовременные аэропорты и отели, строятся заводы и фабрики, восстанавливается экология, прокладываются тысячи километров дорог и туннелей. Делается все возможное для обеспечения новой комфортной жизни [8, с.100].

После освобождения наших земель были восстановлены традиции в области культуры, науки, проводится большая работа в этой области. Ежегодно в Шуше проходят культурные мероприятия, такие как фестиваль «Хары Бюльбюль», «Дни поэзии Вагифа» и др., восстановлены разрушенные армянскими вандалами памятники выдающейся поэтессе Натаван, великому У.Гаджибекову, восстановлены из руин дом-музей Бюль-бюля, дом известной династии Мехмандаровых, состоялось открытие Шушинского отделения азербайджанского национального музея ковра. Президент Азербайджана Ильхам Алиев и Первый вице-президент Мехрибан Алиева приняли участие в церемонии открытия этого музея, ознакомились с редкими экспонатами и различными произведениями искусства. Все эти мероприятия помогают пропагандировать наше этнокультурное наследие и национальные традиции.

В контексте данных мероприятий продемонстрирован опыт сохранения и обновления культурного наследия нашего народа, воспитании в нём чувства патриотизма, базирующегося на традиционных морально-этических установках и духовно-нравственных ценностей.

В соответствии с Указом главы государства от 29 октября 2020 г. «Об организации временного специального управления на территориях, освобожденных от оккупации», Министерство культуры проводит мониторинг на освобождённых землях, который касается памятников и учреждений культуры с целью их инвентаризации и охраны. Данный мониторинг устанавливает факты вандализма и варварства армянских оккупантов по отношению к памятникам истории и культуры азербайджанского народа в результате войны [3].

При поддержке нашего правительства была создана социальная и культурная база в селе Агали Зангиланского района. В Джабраильском районе ведется большая работа в области культуры и культурных учреждений. В поселке Худаферин восстанавливаются и строятся школы, детские дошкольные учреждения, мечеть, рынок, а также торговые учреждения, предприятия общественного питания и т.д. В перспективе будет построен многофункциональный парк с аттракционами на берегу реки Араз и возле Худафаринского моста.

Прогрессивным шагом и большим успехов можно считать церемонию закладки фундамента Музейного комплекса оккупации и победы. Церемония проходила в Зангеланском районе при участии Президента Ильхама Алиева и Первого вице-президента Мехрибан Алиевой. Это грандиозный проект, основной целью которого является осведомленность граждан о страшных последствиях войны, а также её разрушительном воздействии на окружающую среду и экологию региона. При создании этого проекта были учтены цели ООН в области устойчивого развития, прорабатывались различные аспекты устойчивости как ландшафтного, так и строительного дизайна. Одна из главных целей создания этого музейного комплекса – доведение до общественности фактов армянского вандализма на нашей территории во время оккупации. Предполагается, что часть города Зангелан останется разрушенной и будет

действовать, как музей под открытым небом, как яркое доказательство агрессии Армении и её оккупационной политики. Большое внимание общественности будет привлечено именно к экологическому ущербу, нанесенному окружающей среде, природе региона, биологическому разнообразию, лесам, рекам и другим природным ресурсам нашей страны. Как отмечает академик У.Алакбаров, «загрязнение и нарушение окружающей среды оказывают отрицательное влияние на процессы человеческого развития. Это проявляется в сокращении производственного потенциала и ограничении производственных возможностей сельского хозяйства, как последствий ухудшения почв и климатических изменений, в снижении качества продуктов питания. Загрязнение и нарушение окружающей среды, в то же время отрицательно влияет на биоразнообразие, т.е. на охрану видов животных и растений. Это свидетельствует от том, что ликвидация этих отрицательных процессов может быть достигнута за счет применения самых новейших научно-технологических достижений [6, с.229].

При создании экспозиции музея будут применены различные аудиовизульные и самые современные информационно-коммуникативные технологии.

Другая часть музейного комплекса – Музей Победы – станет объектом, ярко демонстрирующим храбрость, отвагу и профессионализм народа и нашей славной армии, проявленные в период войны. Фасад данного здания будет напоминать платановый лес, существующий только здесь. Надо отметить, что этот вид леса является вторым по величине естественным платановым лесом в мире. При строительстве данного музейного комплекса, в перспективе предполагается создание «Зангеланского фестиваля Земли» с целью привлечения международной общественности, международных организаций к экологическому терроризму, совершенному армянами в этом районе. Также аналогичные музеи будут созданы и на территории Агдама.

В свете рассматриваемых проблем следует также упомянуть тот факт, что 28 мая 2024 года Президент страны Ильхам Алиев принял участие в церемонии закладки фундамента Музейного комплекса оккупации и победы и в Лачинском районе. Одновременно с Музеем оккупации и победы, комплекс будет также включать мемориальный парк, в котором будут демонстрироваться руины, как следы оккупации. Территория земли, отведенная под парк, расположена на склоне, размер его 3,5 га. С этого отрезка земли открывается прекрасный панорамный вид на город Лачин и близлежащие горные массивы. Музейный комплекс находится неподалеку от основной дорожной магистрали и центра города.

Комплекс представляет собой монументально-архитектурное сооружение, величественное, грандиозное, отличающееся эстетической красотой. Очень символично, что архитектура этого знания олицетворяет движение и восхождение ввысь к небу из-под земли, словно сердце азербайджанского народа вырвалось из-под оккупации и стремится к прекрасной свободной жизни.

Все эти культурные проекты, прогрессивное и креативное осуществление перманентных культурологических реформ в регионах Азербайджана, научно-обоснованный выбор стратегий и методов, целей и технологий управления – все эти факторы, определяют устойчивое развитие нашей страны и стратегически важные национальные задачи и гуманитарную безопасность.

Культурное наследие народа, национальные культурные традиции необходимо рассматривать как национальное богатство каждого народа, способ его возвышения и процветания. Национально-традиционная культура – это парадигма устойчивости, это золотой фонд нашей страны. Они являются

не только культурной ценностью, но и элементом стратегической безопасности государства.

Культура имеет свойство меняться в свете изменений, происходящих во всех сферах жизни общества. Поэтому необходимо, чтобы определенные национальные культурные традиции оставались органической частью культурной жизни населения, процессов культурогенеза народа. Сохранение, развитие и популяризация культурных ценностей должны гармонично сочетаться и взаимодействовать с социально экономическим развитием страны. Культурные ценности ориентированы на дальнейший рост духовной культуры и производительности общественного труда, креативности, позитивной трансформации и социально-политической стабильности азербайджанского общества.

**Литература:**


1. Гейдар Алиев. Мудрые изречения // https://heydar-aliyev-foundation.org/ru/content/index/85/
2. Prezident İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılışında iştirak edib / https://president.az/az/articles/view/23532 [05.05.2017]
3. İlham Əliyev. İnkişaf məqsədimizdir. I-III cildlər. – Bakı, – 2008-2009. – 424s.
4. İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda iştirak edib // https://president.az/ru/articles/14135
5. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı, – 1995 // https://e-qanun.az/framework/897
6. Алакбаров, У. Основы человеческого развития. Учебник для высших учебных заведений. – Баку: Aspoliqraf, – 2017. – 280 с.
7. Азербайджанский мультикультурализм. Учебник для высших учебных заведений. – Баку: Şərq və Qərb, – 2019. – 528 с.
8. Алекперова Н. Исторические достижения великого политика. DOI: 10/30546/2309-1347/2024/301 // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, – 2024. №1(85). – s.95-103
9. Мамедов, Ф. Культурологическое образование и устойчивое развитие человека, общества, государства // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, – 2023. №4(84). səh.121-132.
10. Мамедов, Ф. Концепция развития духовной культуры Азербайджана // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, – 2022. №4(80). – səh.135-154.
11. Мамедов, Ф. О новой эре и новых приоритетах устойчивого национального развития Азербайджана // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, – 2024. – №1(85). – s.103-130.
12. Müasir Azərbaycanda təhsil sosiologiyası. – Bakı: Təknur, – 2014. – 156s.
13. Неделя «Живая газета» от 10.05.2024, с.1.


***Ключевые слова:*** *культура, культурные ценности, учреждения культуры, мультикультурализм, культурное наследие*

**Leyli Quliyeva**

*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Fəlsəfə və sosial fənlər kafedrasının dosenti,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*

# MƏDƏNİ DƏYƏRLƏR TƏRƏQQİNİN MÜHÜM İNDİKATORU KİMİ

## XÜLASƏ

Bu məqalə tərəqqinin vacib indikatoru və amili kimi mədəni dəyərlərə həsr olunub. Müəllif, şəxsiyyətin hər hansı bir mədəniyyətə aid olduğu kimi, mədəniyyət eyniliyi probleminə toxunur, mədəni eyniliyi insanların mədəni meyarları kimi xarakterizə edir, milli təhlükəsizlik nöqteyi-nəzərindən gözdən keçirir. Məqalədə geniş çoxhissəli mədəniyyət anlayışı, mədəni irs, milli ənənələr, mədəniyyət müəssisələri nəzərdən keçirilir. Milli-mədəni dəyərlərin qorunması və inkişafında dövlətin rolu qeyd olunur. Mədəni dəyərlərin ayrılmaz hissəsi olan xalq yaradıcılığına qiymət verilir. Xalqın mədəni irsi, milli ənənələri hər xalqın milli neməti, onun yüksəlişi və çiçəklənməsi kimi nəzərdən keçirilməlidir. Milli ənənələr, xalq mədəniyyəti cəmiyyətimizin dayanıqlığının paradiqması, ölkəmizin qızıl fondu deməkdir.

Məqalədə erməni vandalları tərəfindən məhv və talan edilmiş torpaqlarımızda mədəni irsin, ocaqların bərpası problemlərinə diqqət verilir. Qeyd olunur ki, dövlət tərəfindən bu sahədə kompleks və iri miqyasda, çox böyük layihələr həyata keçirilir.

Eyni zamanda bu işlərlə yanaşı regionlarda mədəni infrastrukturun bərpası, milli intibah prosesləri keçir.

***Açar sözlər:*** *mədəniyyət, mədəni dəyərlər, mədəniyyət müəssisələri, multikulturalizm, mədəni irs*

**Leyli Guliyeva**

*Azerbaijan State Pedagogical University,*
*Department of Philosophy and Social Sciences,*
*Associate Professor, Ph.D. in Philosophy*

# CULTURAL VALUES AS THE MAIN INDICATOR OF PROGRESS

## ABSTRACT

The paper is devoted to cultural values as an important indicator and factor of progress. The author, considering identity as an integral part of any culture, touches on the problem of cultural identity, characterizes cultural identity as a cultural criterion of the people and considers it from the point of view of national security. The paper deals with a broad multifaceted concept of culture, cultural heritage, national traditions, and cultural organizations. The role of the state in the protection and development of national and cultural values is noted. Folk creativity, which is an integral part of cultural values, is highly valued. The cultural heritage and national traditions of the people should be considered as a national asset of each nation, its growth and prosperity. National traditions and national culture are the paradigm of the stability of our society, the golden fund of our country.

In the paper, attention is paid to the problems of restoration of cultural heritage and centers on our lands, destroyed and looted by Armenian vandals.

It is noted that the state implements complex and large-scale, very large projects in this area.

At the same time, along with these works, the processes of restoration of cultural infrastructure and national revival are taking place in the regions.

***Keywords:*** *culture, cultural values, cultural institutions, multiculturalism, cultural heritage*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.015

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

UOT 328; 342.5; 351/354
UOT 352/353

**XATİRƏ HÜSEYNOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət idarəetməsi və menecment" kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor**

*e-mail: khatira.huseynova@dia.edu.az*

## DAVAMLI İNKİŞAF KONTEKSTİNDƏ REGİONUN SOSİAL-İQTİSADİ ASPEKTLƏRİ

Sosial-iqtisadi inkişafın öyrənilməsinə yeni yanaşmaların işlənib hazırlanması müasir şəraitdə mühüm, prinsipial məqamlardan biridir. Çünki ətraf aləm özündə daim dəyişməkdə olan mürəkkəb asılı prosesləri əks etdirir. Hərəkətverici qüvvələin eynilələşdirməsi və axtarışların metodoloji əsaslarını ifadə edilməsi meyllərini müəyyənləşdirmək, sosial-iqttisadi sistemin qarşılıqlı əlaqədə olan elementlərinin subyekt-obyekt bağlılılığın aydınlaşdırmaq – bütün bunlar idarəetmənin vacib, ilkin vəzifələrindən biridir [1]. Milli prioritetlərin vacib istiqamətləri sosial-iqtisadi inkişafın bu aspektlərini əhatə edir.

Təsərrüfat idarəçiliyinin özünün çərçivəsində başlıca bir mənzərə müşahidə olunur. Həmin halda, hər bir konkret zaman məqamında əməli vəzifələri yerinə yetirmək lazım gəlir ki, bu da qabaqcadan modelləşdirmə mərhələnsinin mövcudluğunu tələb edir. Təsərrüfat idarəçiliyi statik şəkildə deyil, tədqiqatın obyektini (subyektini) əhatə edən biliyin fəaliyyət göstərdiyi dinamik xarakter kəsb edir. Bir sistem olaraq regiona aşağıdakı müəyyən məqsədlərə uyğun gələn, onun mövcudluğunun, stabilliyinin və inkişafının təmin olunması üçün zəruri olan bir sıra spesifik xüsisiyyətlər xasdır:

• Ehtimallıq. Yəni regionda əlaqələrin və elementlərin kəmiyyəti onlar arasında əvvəlcədən dəqiq müəyyənləşdirilə və uzun müddətə bərqərar ola bilməz;

• Öz aralarında müəyyən münasibətlərdə olan altsistemlərə bölünə bilinməsi (çoxluq);

• Sabitlik, davamlılıq, bəzi kənar çıxma hallarına yer verilməməsi;

• Xarici təsirlərə qarşı yüksək davamlılığı təmin edən sistemlərin hissələrinin iyerarxikliyi,

• Dinamizm (öz vəziyyətini fasiləsiz dəyişdirmə, daha doğrusu inkişaf etdirmə qabiliyyəti),

• Regionun çoxsaylı məqsədləri və mürəkkəbliyi sayəsində özünü göstərən çoxmeyarlılıq;

• Emercentlik (həmin dövrdə regionun inkişaf qanunauyğunluqlarına əsaslanmayan və dərc olunmayan keyfiyyətcə yeni hadisənin meydana gəlməsi). Bu zaman regionlar yeni keyfiyyətin təzahürünə gətirib çıxardan, müəyyən elementlərdən ibarət bütöv tam kimi yaradılır.

Sadalanan xüsusiyyətlərdən sistemlərin bu və ya digər hissələrə bölünməsilə yanaşı, iyerarxik və məntiqi strukturların (iş icraçıları, metodları, texnologiyalar və informasiyalar və s.) hissələrinin müxtəlif aspektlərinin olması nəticəsinə də gəlmək olar. Sistemlərin ayrılmış hissələri zaman və məkanda müxtəlif dərəcəli davamlılığa malik olurlar. Hər bir tərkib hissəsi özünəməxsus davranışı və vəziyyətilə səciyyələnir. Sistemin ən səmərəli metodlarından biri onların modelləşdirilməsi, yəni real sistemləri onların modellərilə əvəz edilməsidir. Real sosial-iqtisadi sistemlə (regionla) həyata keçirilməsi çətin və qeyri-mümkün olan əməliyyatları və eksperimentləri riyazi və kompyuter modellərilə uğurla reallaşdırmaq olar. Əldə olunan nəticolərin həyati fəaliyyətlərini təmin edən bütün funksiyaların giriş, çıxış səciyyələrində real sistemə bənzər prinsipləri nəzərə alınmalıdır. Region bu halda idarəetmənin subyekti və obyekti olur. Bu zaman inkişafın məqsədləri və vektorları dəyişə bilər. Çünki regionun vəziyyətinə mühitin çoxlu xarici və daxili amilləri təsir edir.

Sosial-iqtisadi inkişafın modelləşdirilməsi modelin layihə fəaliyyətinin işlənib hazırlanması əsasında həyata keçirilə bilər. Sonuncu empirik mürəkkəb təbii-əyani obyektin ideyalarının təşəkkülü və inkişafının nəticəsi kimi özünü göstərir. Onu da qeyd etmək lazımdır ki, tədqiq olunan regionlar layihələrdə iqtisadi inkişafın əsaslı xüsusiyyətləri kimi ekoloji-sosial komponentin mövcudluğu meydana gəlir. Bu isə təsəvvür etdiyimiz kimi, "elmi biliklər" anlayışının xüsusi bilik forması kimi və fəaliyyətin layihələndirilməsi kimi arzu olunan tələbatların əldə olunması ilə, təbii-süni xarakterli obyektlərə istiqamətlənməsilə şərtlənir. Bundan başqa əsaslı özünü inkişaf üçün tam şəraitin təmin olunması zamanı sünilik və təbiilik müştərək, yanaşı mövcud olur. Bizim şərh etdiyimiz əsas metodoloji müddəalar dəyişən rejimdə fəaliyyət göstərən müvazinətli sistemlərin coğrafi tarazlı sosial-iqtisadi inkişafının konseptual modelini təsəvvür etməyə imkan verir (şəkil 1).

Burada prinsipial məsələ dəyişən rejimdə tarazlığın təmin olunması faktının özüdür. Eyni zamanda irəli sürülən müddəanın görünən ziddiyyətləri üç tarazlı vəziyyətdə mövcud olan sosial, təbii-resurslu iqtisadi sistemlərin əsas struktur elementlərilə uyğun gələn tipləri nəzərə alındıqda aradan qalxır.

Təbii- resurslu inkişafın sosial sahə modeli məhsuldar qüvvələrin əsas struktur elementlərinə toxunan iyerarxik mürəkkəb asılı təsir mexanizmini özündə əks etdirir. Özüntənzimlə sistemlərin belə xüsusiyyətləri ilk növbədə onun səmərəli fəaliyyətinin qiymətləndirilməsinin əsas metodlarının mühüm mahiyyətinə toxunan xüsusi səylər tələb edir.

Sosial, təbii resurslu balanslaşdırılmış iqtisadi inkişafın regional modeli bir tərəfdən təbii və sosial altsistemin inkişafının məkan zemininin açıqlanmasına, digər tərəfdən məhsuldar qüvvələrin yerləşdirilməsi və inkişafına dair məhdudiyyətlərin formalaşdırılmasına yönəldilmişdir.

Sabit-iqtisadi inkişafa istiqamətlənmiş sosial, təbii-resurslu regional model yalnız bərabər kəmiyyətdə ekoloji və sosial əhəmiyyətli elementlərin birləşməsi zamanı tarazlı vəziyyətin təmin olunması ilə xarakterizə olunur. Ölkədə aparılan sosial-iqtisadi inkişaf siyasəti bu tarazlı model əsasında həyata keçirilir [9].

Vəziyyətdən biri, məsələn, "S" kimi göstərilən sosial altsistemdə tarazlığa yardım edilməsinə istiqamətlənmə ola bilər. Bu halda təbii-resurslu (TR) və iqtisadi (İq) altsistemlər sosial alsistemlərin prioritet inkişafının şəraitinə yardım edilməsi üçün bloklaşdırılır. Bu zaman aparıcı sosial altsistemlər yaxın altsistemlərin fəaliyyətlərinin müəyyən dərəcədə məhdudlaşdırılmasına səbəb olur ki, o da müvafiq vektor-kəmiyyət əlaqələri deməkdir.

Vəziyyətlərdən digərini təbii-resurslu tarazlıq kimi səciyyələndirmək olar. Bu davamlılıq tipi həmin altsistemlərin prioritet inkişafının şəraitinə yardım edilməsi üçün iqtisadi və sosial altsistemlərlə əlaqələnməsi ilə fərqlənir. Sonuncu isə özünün inkişafında




**Şəkil 1.** Balanslaşdırılmış iqtisadi inkişafın konseptual modeli

təbii-resurslu altsistemlər tərəfindən məhdudiyyətlərin təsirlərinə məruz qalır.

Üç altsistemin qarşılıqlı əlaqəsinin üçüncü tipi iqtisadi tarazlığı əks etdirir. Bu halda bağlantıda sosial və təbii-resurslu altsistemlər olur, onların istiqaməti isə öz növbəsində sosial və təbii-resurslu altsistemlərin məhdudluğuna səbəb olan iqtisadi altsistemin inkişafında prioritetliyə yardım edilməsinə yönəlmişdir.

Şəkil 1-də inkişafın konseptual modeli bütün altsistemlərin qarşılıqlı əlaqəsi zamanı nəzərdən keçirilir. Eyni zamanda balanslaşdırılmış inkişafın yaxın tiplərində sosial və təbii resurslu altsistemin davranışı məsələsi də xüsusi maraq doğurur. Bizim fikrimizcə, bu, daha çox sosial-iqtisadi fəaliyyətin məzmun hissəsinin formalaşmasına, həmçinin bu sahədəki investisiya siyasətinin xarakterinə aiddir.

Nəzərdən keçirilən modeldə digər əsaslı məqam ona məxsus diskret-məqsədli xüsusiyyətlərin açıqlanmasıdır. Balanslaşdırılmış inkişafın konseptual modellərinin tamlığı

təsərrüfat fəaliyyətinin regional və sahə istiqamətlərinin birləşdirilməsi hesabına əldə olunur. Bu birləşmə iki istiqamətdə özünü göstərir.

Birinci istiqamət üzrə idarəetmənin regional, ya da sahə yanaşmalarının üstünlük təşkil etdiyi bütün obyektlər əhatə olunur. Bu birləşmə növü sahələr və regionlar üzrə bölünmüş elementlərlə tamamlanan qalın qara xətlə qrafik təsvir olunmuşdur. Onu da qeyd edək ki, qrafik təsvirin münasibliyi üçün sadalanan sahələr maksimal dərəcədə ümumiləşdirilmişdir.




**Şəkil 2.** Regionun balanslaşdırılmış sosial-iqtisadi modeli

Hərçənd ki, o, zəruri həddə qədər genişləndirilə bilər.

İkini istiqamət tədqiq olunan obyektlərdən (regional və sahəyə mənsub olan) hər biri digər elementlərlə yalnız bilavasitə deyil, həm də bilavasitə məcmu halda, ya da yaxın regional səviyyələr, yaxud da yaxın sahələrlə birgə nəzərdən keçirilir. Məsələn, kənd təsərrüfatının sabit inkişaf modeli üç regional səviyyə kontekstində nəzərdən keçirilir. Eyni zamanda altsistemlərin yaxın sahələrdə regional səviyyələr vasitəsilə əks olunması baş verir (ya ayrıca hər bir səviyyə üzrə, ya konkret vəzifələrlə verilmiş ümumiləşdirmədən asılı olaraq onların məcmuusu halında).

Balanslaşdırılmış inkişafın konseptual modelinin parçalanma xüsusiyyəti onun istifadəsinin universallığını təmin edir. Sabit inkişafın xüsusi modeli regionlar üzrə (şəkildə onlar T1, T2, T3 kimi göstərilir), həm də sahələr üzrə mümkün fəaliyyəti praktiki olaraq üstələyir. Bu zaman onlar bir-birilərilə ziddiyyətə girmirlər.

Şübhəsiz ki, hər bir model bir sıra kompleks tədbirlərin köməyilə reallaşır. Sosial və ekoloji istiqamətli iqtisadi inkişaf zamanı məqsədə çatmağın bu və ya digər vasitələri spesifik müvafiq tədqiqat obyektinə malikdir. Lakin ümumi halda onlar üç əsas blokda cəmləşmişlər: təşkilati, iqtisadi və xüsusi (ekoloji). Belə dərəcələrdə bütövlükdə stabil iqtisadi inkişafın modelinin məzmunca təmin olunması da baş verir. Dövriyyənin də daxil olduğu genişlənmiş şəkildə sosial, ekoloji istiqamətlənmiş tədbirlərin strukturu şəkil 2-də təsvir olunmuşdur. Mahiyyəti aydın şəkildə başlığı özündən irəli gələn sxemə daxil olan elementlərin təsviri məsələsinə toxunmadan daha əhəmiyyətli problem üzərində dayanmaq.

İqtisadi tədbirlərin sabit inkişafin konseptual modelinin fəaliyyətinin xarakterilə əlaqəsini diqqətə çatdırmaq lazımdır.

Stabil inkişafın tiplərinin ümumiləşdirilmiş sxemin strukturunun məzmunca təmin olunması ilə müqayisəsi topoloji əsaslan fərqləndirməyə imkan verir. Belə ki, sosial altsistemlərin möhkəmliyi təşkilati tədbirlər qrupuna assosiativ meyil edir. Eyni zamanda təbii-resurslu altsistem üzrə davamlılıq iqtisadi tədbirlərin kompleksilə əlaqədardır. Təbii-resurslu stabillik öz növbəsində mühitin və təbiətin qorunmasının differensiallaşmış xüsusi tədbirlər qrupuna bağlanır. Belə halda tarazlı inkişafın vəziyyətinə yardımın mərhələsindən hər birində sosial təbii-resurslu fəaliyyətin xarakterində imkanları müəyyən etmək mümkün olur. Stabil inkişaf sistemlərinin vəziyyətinin formalaşmasının dövriyyəsində ilkin mövqe bizim təsəvvürümüzə görə sosial sistemaltıların təkmilləşdirilməsilə əlaqədar olan mərhələdir. Məhz bu mərhələdə ictimai həyatı tənzimləyən qanunverici, hüquqi və normativ sənədlər kompleksində sosial və təbii-resurslu dəyərlərin və prioritetlərin bütün məcmuusunun "maddiləşməsi" nəzərdə tutulur.

İqtisadi stabil inkişafın modeli üçün təşkilati və iqtisadi şəraitin təkmilləşdirilməsinə dair əhəmiyyətli dərəcədə tələblər qoyan iqtisadi tədbirlər qrupu müəyyənedicidir. İnkişafın həmin tipi üçün təşkilati və təbii-resurslu tədbirlər yanaşı, bərabər əhəmiyyətli hesab olunur. Təbii-resurslu və sosial tərkib hissələrinə prinsipial münasibəti əks etdirən hər bir zaman intervalında (bu şəraitin stabilləşməsi və köklü yaxşılaşdırılması mərhələsidir) real təcəssümü təmin edən tədbirlər kompleksilə onların əldə olunma vasitələrinin aşkarlanması zərurəti meydana çıxır. İrəli sürülən iqtisadi tədbirlər nə qədər dərin və radikal olsa onların geniş əsaslandırılması bir o qədər zəruri və yüksək dərəcədə olar. Davamlı inkişafın vəziyyətinə elə əvvəlcədən müəyyən dinamizm xasdır [6]. Məlumdur ki, stabil vəziyyət zaman daxilində yekcinsliklə səciyyələnir. Metodların strukturunda ona nail olunma vasitələrini də nəzərə almaq lazımdır.

Belə nəticəyə gəlmək olar ki, stabil iqtisadi inkişafın modelinin məzmun hissəsinin təhlilində çıxış edərək qənaətə gələ bilərik ki, məqsədə yalnız ixtisaslaşdırılmış xüsusi tədbirlər hesabına deyil, həm də əsas təsərrüfat fəaliyyətinin dəyişməsi hesabına da əldə etmək




a - iqtisadi təsir
b - investisiyalar

**Şəkil 3.** İnvestisiya və iqtisadi nəticənin qarşılıqlı münasibətlərinin dinamikası

olar və əldə olunmalıdır. Bu halda sosial-iqtisadi tədbirlər anlayışının özü daha geniş əhəmiyyət kəsb edir.

Bu cür fəaliyyətin regional stabil inkişaf modelinə keçirilməsi şəraitində konkret modelin hər birində prioritetlərin dəyişməsinə münasibətdə kifayət qədər incə və mobil səfərbəredici olmalı olan investisiya siyasətinin müvafiq olaraq nizamlanması məqsədəuyğun olur.

Onun ən ümumi xüsusiyyətlərinə: stabil inkişafın uyğun modelini əsaslandıran tədbirlərin maliyyələşdirilməsinə, bilavasitə layihələşdirməyə, layihə axtarışlarına, elmi tədqiqatlar sahəsinə istiqamətləndirilmiş investisiya payının artırlmasını aid etmək olar. İnvestisiya nəzərə alınmaqla təşəkkül tapan iqtisadi şəraitin təhlili stabil inkişaf modelinin müəyyən tipi daxilində həm sosial, həm də ekoloji mühitin köklü surətdə yaxşılaşdırılmasını və keyfiyyət vəziyyətini səciyyələndirməyə imkan verir.

Həm sahə, həm də regional modelləri müəyyən qapalı şəkildə nəzərdən keçirmək olar və nəzərdən keçirilməlidir. Onda məqsədli investisiyadan asılı olan (şəkil 3) tamamilə müəyyən iqtisadi nəticənin dinamikası (a) həmçinin investisiya (b), onların əyri xəttlə qarşılıqlı münasibətlərini əks etdirən qrafikdə təsvir edilmişdir. Bu əyri xəttlər iki nöqtədə - C və M nöqtəsində kəsişirlər. Bunların münasibətləri stabilləşmə mərhələlərinin identifikasiyasının və köklü yaxşılaşmasının baş verməsinə səbəb olur.

Beləliklə, T1-dək olan dövr stabilləşmə prosesini səciyyələndirir. S nöqtəsindəki investisiyanın artımı iqtisadi şəraitin yaxşılaşdırılması ilə müşayiət olunur. Lakin bu mərhələnin başa çatması əyri (a) və (b)-nin davranışının dinamikasında investisiya böhranı məqamda əsaslı dəyişikliklərə gətirib çıxaran dönüş nöqtəsi kimi səciyyələnir. Bu şərait onunla fərqlənir ki, iqtisadi fəaliyyətə investisiyanın artırılması özü ilə bərabər arzu olunan iqtisadi nəticənin yüksəlişinə səbəb olur. T1 və T2 zamanı arasındakı dövr məhz şəraitin köklü dəyişməsi mərhələsini səciyyə-

ləndirir. Absisdə T2 indeksilə qeyd olunan M böhranlı nöqtəsinə, zaman dövrü isə tarazlı vəziyyətə keçidi səciyyələndirir.

Qrafikdən göründüyü kimi, M böhranlı nöqtəsindən sonra şərait dəyişilir. Bir sıra cari itki hədləri müəyyən həddə faydalı səviyyədə arzu olunan iqtisadi nəticə səviyyəsinə qalxır. Eyni zamanda iqtisadi nəticə bu halda investisiyaya münasibətdə alternativ faydalılığı qorumaq xüsusiyyətinə malik olur.

İqtisadi nəticə ilə onun əldə olunması məsrəfinin qarşılıqlı münasibətləri problemi müasir zamanı səciyyələndirən davamlı inkişafın vəziyyətilə səciyyələnən başlanğıc və son dövrlə müəyyən olunur. İqtisadi vəziyyətin yaxşılaşdırılması meyli qısa, orta və uzunmüddətli proqramların kompleksilə təmin oluna bilər.

Qısa, orta və uzunmüddətli proqramların investisiyalaşmadan əldə olunan iqtisadi nəticəsi müvafiq hədd çərçivəsində investisiya məsrəflərilə məhdudlaşır.

Məsrəfin son hədd səviyyəsinin çoxluğu bır-birindən əhəmiyyətli dərəcədə qarşılıqlı asılı olan iki amillə müəyyən edilir.

Bu ictimai seçim və müəyyən müvəqqəti dövrdə texnoloji imkan həddi məsrəfin daha da artırılması arzu olunan nəticə vermədikdə olur. Nə qədər ki müxtəlif zaman intervalında məqsədə çatma vasitələri texnoloji imkanlarına görə bir-birilərindən fərqlidirlər, onda investisiya məsrəfinin həddi səviyyəsi də artmış olur. Zamanca iqtisadi nəticənin artımı onunla əlaqədardır ki, hər bir əvvəlki proqramların müsbət nəticələrinin yığımı baş verir, onun isə sonrakına qeyri-xətti təsiri gücləndirilir. Xüsusi qeyd etmək lazımdır ki, davamlı inkişafın real nəticəsi yalnız qısa, orta və uzunmüddətli proqramlara paralel investisiya qoyuluşu zamanı həyata keçirilə bilər.

Beləliklə, sosial-iqtisadi sistemlərin stabil inkişaf modeli geniş qeyri-standart əsaslandırma tələb edən mürəkkəb infrastruktura malikdir. Bu tip modelin prinsipial xüsusiyyəti onun diskret-məqsədli cəhətidir. Həmin cəhət hadisənin xarici tərəflərilə daxili tərəfinin tədqiqinə diqqət yetirilməsini tələb edir. Bununla da ekosistemin süni və təbii müxtəlifliyinin vəhdəti və bütövlüyünü əldə etmə yolu ilə onların uyğunluğu təmin olunur.

Stabil iqtisadi inkişafın təqdim olunan modeli sosial-iqtisadi inkişaf modelinin də nəzərdən keçirilməsini tələb edir. Burada əsas vəzifə problemli şəraitin aşkar olunmasıdır.

Regional amillərin öyrənilməsi üç istiqaməti əhatə edir:

- İstehsalın yerləşməsinə təsirinin dərəcəsinə görə amillərin fərqləndirilməsi və təsnifatlaşdırılması;
- İctimai istehsal prosesinə cəlb olunması üçün zəruri olan canlı və maddiləşmiş əmək məsrəfindən çıxış edərək amillərin və onların regional əmsallarının dəyərləndirilməsinin iqtisadi əsaslandırılması;
- İctimai istehsalın fəaliyyəti və inkişafı sistemində amillərin qarşılıqlı əlaqəli və qarşılıqlı şərtlənmiş təhlili.

Qeyd edilən təsnifatdan göründüyü kimi, regional iqtisadi tərkib amillərin regional qiymətləndirilməsinin dəyişməsinə uyğun olaraq istehsalın kompleks birləşməsinin vahid metodoloji prosesini göstərən və onun yerləşməsinin səmərəliliyinin qiymətləndirilməsinə sistemli yanaşmanın həyata keçirilməsi zərurətini göstərir. Lakin yerləşmə amillərinin regional dəyərləndirilməsinə metodik yanaşmanın müxtəlifliyi istehsalın yerləşməsinin səmərəliliyinin qiymətləndirilməsi zamanı xeyli çətinliklər yaradır. Eyni zamanda bu yanaşmalar ən ümumi və əsaslı hissəni fərqləndirərək istehsalın yerləşməsinə dair qəbul olunan qərarların əsasını təşkil edən prinsipləri, həmçinin amillərin seçimini də əhatə edir.

Məhsuldar qüvvələrin yerləşməsi üzrə təşəkkül tapan metod və yanaşmaların müəyyən etdiyi prinsiplərə aşağıdakıları aid etmək olar:

- İstehsalın planauyğun və kompleks yerləşməsi;




**Şəkil 4.** Regional sistemlərin sosial-iqtisadi əlaqələrinin amili

- Əməyin ictimai bölgüsünün inkişafı;
- İqtisadi regionların təsərrüfatının kompleks inkişafı;
- Təsərrüfatın iqtisadi cəhətdən ən rasional ərazi təşkili və iqtisadi inkişaf səviyyəsinin bərabərləşdirilməsi.

• Əmək bölgüsünün regionlararası üstünlüyündən istifadə edilməsi.

Prinsiplər məhsuldar qüvvələrin inkişafı səmərəlilik meyarlarına, məqsədlərinə və milli maraqlara və s. uyğun gəlməlidir.

Məhsuldar qüvvələrin yerləşməsinin ən ümumi amillərinə aşağıdakıları aid etmək olar: təbii ehtiyatlar, texnikanın inkişafının səviyyəsi, məhsulların tələbatlarının coğrafiyası və iqtisadi təyinatı, xammal və məhsulların nəqliyyatla daşınma vəziyyəti, həmçinin istehsalın texniki-iqtisadi xüsusiyyətləri (maddi tutumu, enerji tutumu, əmək tutumu və s.). İstehsalın ictimai təşkilinin formaları (təmərküzləşdirmə, ixtisaslaşdırma, kooperativləşdirmə, birləşdirmə) və ictimai əməyin məhsuldarlığının yüksəldilməsinə qabil olan istehsalın ərazi təşkilinin təkmilləşməsinin qarşılıqlı əlaqədə olan şəraiti, iqtisadi regionların kompleks inkişafı xüsusi fərqləndirilir.

Məhsuldar qüvvələrin inkişaf təcrübəsinin təhlili əsasında belə bir mühüm metodoloji nəticəyə gəlmək olar ki, ərazi-istehsal komplekslərinin formalaşması prosesində əksər amillərin regional dəyərləndirilməsinin stabilliyinin müəyyən edilməsi prosesində öz təsirini itirir. Belə halda ayrı-ayrı müəssisələr istehsalın yerləşməsinə dair tələblərin kompleksliyini təmin edə bilməz. Bunun ardınca onun təşkilinin ərazi səmərəliliyini də artıra bilməz. Regionun sosial-iqtisadi inkişafının sosial və təbii-resurslu məqsədləri üçün inteqral təbii ehtiyatların yaradılmasına və onun özünün istehsaledici xüsusiyyətlərinin yardım edilməsinə istiqamətləndirilmiş geniş manevr davranış imkanlarının mövcudluğu lazımdır [11].

Metodoloji nöqteyi-nəzərdən məhsuldar qüvvələrin sosial-iqtisadi inkişafının əsas istiqamətləri sistemlərin fəaliyyət xüsusiyyətlərinin məqsədlərinin qarşıya qoyulmasında asılı olaraq verilmiş amillərin məcmusunun qarşılıqlı əlaqəsinin nizamlanması prosesində özünü göstərir. Bu halda sosial və ekosistem (vahid təbii kompleks) amillərin nəzərə alınması prosesinə diqqət artırılır. Qeyd etmək lazımdır ki, təcrübədə məhsuldar qüvvələrin yerləşməsi və inkişafı məsələsinin həllinin məhz sosial və ekosistem amili özünün mühüm əsaslandırılmasını tapa bilmir.

Məlum olduğu kimi, amillərin regional sistemi dedikdə ictimai istehsal prosesində qarşılıqlı əlaqədə olan təbii və iqtisadi ehtiyatların məcmuusu və praktik olaraq bütün sosial-iqtisadi proseslərin inkişaf etdiyi, istehsalın ərazi kompleks birliyinin əmələ gəldiyi, ərazi əmək bölgüsünün təkmilləşdiyi, istehsalın məsrəflərinin və nəticələrinin təşəkkül tapdığı təsirlərin altında olan şərait başa düşülür.

Şəkil 4-dən göründüyü kimi, amillərin regional sistemi istehsalın inkişafının istiqamətini və onun ərazidə təşkilini müəyyən edir. Bir tərəfdən məhsuldar qüvvələrin zəmini və şəraiti ictimai istehsaldan asılı olmayaraq obyektiv mövcuddur. Hər şeydən əvvəl bu ərazidə qeydə alınan əvvəlki istehsal fəaliyyət təsiri onların sistemdə formalaşması yolları, həmçinin təsirinin iqtisadi qiymətləndirilməsi maddi nemətlərin istehsalı üsulu və məhsuldar qüvvələrin cəlb olunması və istifadəsindən asılıdır.

Burada fəallaşdırıcı amillərin fərqləndirilməsi zərurəti meydana gəlir. 4-cü şəkildə belə amil sosial-iqtisadi sistemli bütövlükdür. Həmin halda bu amil sabit inkişafın sosial-iqtisadi modelinin formalaşması məsələsinin özünün qoyuluşu sayəsində ona mənsub olan yeri tutur.

Bütöv xüsusiyyətlər, quruluşun iyerarxiyası və istehsal sistemlərinin ərazi inkişafı onun öz arasındakı elementlərinin qarşılıqlı əlaqəsi və qarşılıqlı təsirində aşkar olunur. Eyni zamanda bütün sistemlərin məkanda məcmuusu öz əksini tapır, müəyyən ərazidə əməyin ərazi bölgüsünün təsiri altında müəyyən ərazidə möhkəmlənir. Məsrəfin səviyyəsi və ictimai istehsalın maddi nemətlər yaratmaq

prosesində nəticələri müəyyən ərazidə məhsuldar qüvvələrin elementlərinin və onların iyerarxik birləşməsinin qarşılıqlı əlaqəsi və qarşılıqlı şərtlənməsinin dərəcəsindən və növündən asılıdır. Məhsuldar qüvvələrin elementləri o halda inkişaf amili olur ki, onlar əsas ünsürlərlə (iş qüvvəsi, əmək vasitələri və əmək predmetilə), birləşir daha doğrusu prosesə əmək daxil olur.

Beləliklə, məhsuldar qüvvələrin inkişafı prosesində sosial və iqtisadi amillərin qarşılıqlı problemlərindən çıxış edərək amil təhlili aparmaq mümkündür. Stabil, davamlı inkişafın vəzifələrini yerinə yetirmək üçün sosial-iqtisadi amillərin fəaliyyətinin məqsədli nizamlanması prosesində sosial, təbii-resurslu imperativlərin məhdudiyyətlərini və tələblərini nəzərə almaq lazımdır.

Belə halda sosial və təbii-resurslu tədbirlərin özlərinin səmərəliliyinin daha dərindən qiymətləndirilməsi imkanları genişlənir. Regional amillər istehsalın yerləşdirilməsi şəraitindən fərqli olaraq həmişə istehsal prosesində cəlb olunması və istifadə edilməsi üçün zəruri olan canlı və maddiləşmiş əməyin məsrəflərini nəzərə alaraq iqtisadi qiymətləndirməyə malik olmalıdır.

Məhsuldar qüvvələrin yerləşməsi və inkişafın səmərəliliyi həmişə istehsal proseslərinin nəticə və məsrəflərinin diffensiasiyasının müəyyən etdiyi regional amillər sisteminin qarşılıqlı asılılığı şərtləndiyinə görə iqtisadi səmərəlilik kateqoriyasının bəzi aspektləri üzərində dayanaq. Belə ki, sosial, təbii-resurslu, ekoloji, ekosistem bütövlük amili səmərəliliyin bilavasitə məsrəflərin və nəticələrin artımına, eyni zamanda istehsalın inkişaf prosesinə təsir vasitəsilə müəyyən edir. Həm də o, məhsuldar qüvvələrin inkişafının iqtisadi səmərəliliyinin meyarı, ərazi meyarı və istehsalın yerləşməsinin səmərəliliyinin göstəriciləri vasitəsilə də müəyyənləşdirir. Daha doğrusu səmərəlilik anlayışını formalaşdıran məsrəf və faydanın qiymətləndirilməsi təkcə yalnız predmetlərin kəmiyyət deyil, keyfiyyət vəziyyətinin, həm də sosial və təbii proseslərin dəyişdirilməsinə istiqamətlənmiş canlı və maddiləşmiş əməyin sərf olunması ilə şərtlənir.

Bu zaman əsas məqsəd ictimai tələbatın ödənilməsindən ibarətdir. İqtisadi inkişafın tarazlı modelinin formalaşması halında sosial və təbii-resurslu amil məhz qarşıya qoyulmuş məqsədə çatmağa istiqamətlənir.

İstehsalın yerləşməsi və inkişafının iqtisadi səmərəliliyinin göstəricilərinin, onun formalaşmasının bilavasitə əsası məhsuldar qüvvələri və istehsal münasibətlərini ərazidə birləşdirən regional amillər sistemidir. Bu kompleks yanaşma ideyası hərçənd ki, ümumiləşmiş şəkildə (problemin metodoloji aspekti) şəkil 4-də təsvir olunub.

Bütövlükdə onu qeyd etmək lazımdır ki, qısa, orta və uzunmüddətli inkişaf modelləri üçün sosial, təbii-resurslu, iqtisadi və ekosistem amillərin səmərəliliyinin artırılması meyilləri xarakterikdir. Bu həm də onunla bağlıdır ki, ətraf mühitin əlverişli şəraitinin əldə olunması prosesində əməyin maddiləşməsinin payı artır.

Regional amillərin təhlili və onların qiymətləndirilməsi davamlı inkişafa cavab verən təsərrüfat kompleksinin formalaşması metoduna keçir. Ərazi istehsal kompleksinin iqtisadi səmərəli yerləşməsi bir tərəfdən təsərrüfat proseslərinin qarşılıqlı əlaqəsini, bütöv təsərrüfat sistemləri çərçivəsində amillərin məcmusunun təsiri altında təşəkkül tapan onların ardıcıl və paralel birləşməsini tələb edir. Digər tərəfdən sosial, təbii-resurslu iqtisadi inkişafa məqsədli istiqamət regional amillər sistemi ilə, ilk növbədə, sosial, təbii-resurslu, iqtisadi, ekosistem amillərlə eyni zamanda onların səmərəliliyinin qiymətləndirilməsilə istehsalın qarşılıqlı təsirinin kəmiyyət şərhini tələb edir.

Davamlı inkişaf nöqteyi-nəzərdən hər hansı istehsalın ən səmərəli yerləşmə variantı fərdi minimum məsrəfin təmin olunması deyil, bu və ya digər regional səviyyəli sosial və

ekoloji problemlərin həlli nəzərə alınmaqla bütün xalq-təsərrüfatı kompleksi miqyasında ümumi minimum məsrəfinə uyğun gəlməsidir.

Sosial və təbii-resurslu altsistemin əsas elementləri dinamik istehsal sistemaltının əks olunması üncürləri olmalıdır. Əsas vəzifə sosial və təbii-resurslu amillərin istehsal altsistemlərinin inkişaf modelinin qiymətləndirilməsi və optimallaşdırılmasının tam yoxlanılmasını təmin etməkdən ibarətdir.

Daha sonra müəyyən ərazidə istehsalın struktur və tərkibinə istiqamətlənməsi iki mərhələdə aşkar olunur. Birinci mərhələdə sənaye, kənd təsərrüfatı, nəqliyyat, qeyri-istehsal sferasının daxil olduğu sahələr kompleksi nizamlanır. İkinci mərhələ istehsalın sahədaxili differensiasiyasının tənzimlənməsi ilə əlaqədardır.

İstehsal, sosial və təbii altsistemlərin sahələrarası məkanda qarşılıqlı təsirinin nizamlanması bir tərəfdən ehtiyat tələbatların parametrlərinin müqayisəli kəmiyyət dəyərləndirilməsinin əsası ilə, digər tərəfdən sahələrdə prioritet problemlərin aşkar olunması, amillər limiti və ehtiyatların bərqərar olması ilə nəticələnir. Belə metodoloji gediş sosial və təbii qoruyucu tədbirlərin ən səmərəli investisiyalaşmasına dair tövsiyələrin işlənib hazırlanmasına və sahə kompleksinin özünün yenidən formalaşmasına yönəlmiş sosial, təbii-resurslu strukturlar üzrə hərəkətləri istiqamətləndirməyə imkan verir.

**Ədəbiyyat:**


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/50474
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının təsdiq edilməsi haqqında Sərəncam. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/56723
3. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının təsdiq edilməsi haqqında Fərman. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. https://president.az/az/articles/view/31697
4. Azərbaycanda yaşıl iqtisadiyyat və davamlı inkişaf Bakı: İqtisadiyyat Nazirliyi Nəşriyyatı, 2019, 300 s.
5. Davamlı inkişafın sosial-iqtisadi aspektləri. Bakı: Bakı Dövlət Universiteti Nəşriyyatı, 320 s.
6. Ələkbərov Urxan. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları. Bakı, Təhsil, 2017, 176 s.
7. Ələkbərov Urxan. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali məktəblər üçün dərslik. – Bakı: Təhsil. – 2018. – 215 s.
8. Ekoloji idarəetmə və regional inkişaf. Bakı: Bakı Dövlət Universiteti Nəşriyyatı, 320 s.
9. Hüseynova X. Heydər Əliyev və Azərbaycanın iqtisadi inkişaf strategiyası // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, 2023. –№2(82). - səh.145-152
10. Qurbanov S.H. Davamlı inkişaf kontekstində ekoloji siyasətin prioritet istiqamətləri və yaşıl iqtisadiyyat oğlu. Bakı, 2023, s.272
11. Süleymanova G. Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında Heydər Əliyevin rolu // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – Bakı, – 2023. №1(81). – s.173-178
12. Цели в области устойчивого развития. Отчет ООН. 2020
13. Huseynova Khatira. Belt and Road Initiative China's global business footprint / Chapter 9, Harrow UK, 2021
14. Porter, M. E., & Heppelmann, J. E. (2017). How Smart, Connected Products Are Transforming Companies. Harvard Business Review, 2017. 95(5), 96-114.
14. Ostrom, E. Governing the Commons: The Evolution of Institutions for Collective Action. Cambridge University Press (reprint). 2015


***Açar sözlər:*** *davamlı inkişaf, Azərbaycan, regionlar, sosial-iqtisadi aspektlər, yaşıl iqtisadiyyat*

**Khatira Huseynova**

*Head of the Department of Public Administration and Management of theAcademy of Public Administration under the President of the Republic of Azerbaijan, Doctor of Economy, Professor*

# SOCIO-ECONOMIC ASPECTS OF THE REGION IN THE CONTEXT OF SUSTAINABLE DEVELOPMENT

## ABSTRACT

The article explores innovative approaches to studying socio-economic development in a dynamically changing environment. It focuses on the methodological foundations for analyzing driving forces and interconnections within socio-economic systems, including their subject-object relationships. The significance of modeling in managing economic activities is highlighted, emphasizing its dynamic nature over static approaches. A region, as a system, is characterized by probabilistic relationships, divisibility into subsystems, stability, hierarchy, dynamism, multi-criteria nature, and emergence, necessitating models for analysis and experimentation. Socio-economic development modeling relies on project activities that integrate ecological and social components, combining artificial and natural elements for sustainability. A conceptual model of balanced development is proposed, featuring three equilibrium types - social, natural-resource, and economic - where prioritizing one subsystem constrains others. Investment policy is crucial, supporting research and projects for sustainability. Regional factors' analysis involves classifying and economically evaluating productive forces, their placement, and interactions. Production efficiency is determined by cost minimization while addressing social and ecological challenges. A comprehensive approach, incorporating organizational, economic, and ecological measures, ensures sustainable development. Flexible investment policies and consideration of dynamic external and internal factors are essential for implementing the model effectively.

***Keywords:*** *sustainable development, Azerbaijan, regions, socio-economic aspects, green economy*

**Хатира Гусейнова**

*Заведующая кафедрой Государственного управления и менеджмента
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики,
доктор экономических наук, профессор*

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ АСПЕКТЫ РЕГИОНА В КОНТЕКСТЕ УСТОЙЧИВОГО РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье рассматриваются новые подходы к изучению социально-экономического развития региона в условиях динамично меняющейся среды. Основное внимание уделяется методологии анализа движущих сил и взаимосвязей элементов социально-экономических систем, включая их субъектно-объектные отношения. Подчеркивается важность моделирования в управлении хозяйственной деятельностью, которое должно быть динамическим, а не статическим. Регион как система обладает такими свойствами, как вероятностный характер связей, делимость на подсистемы, устойчивость, иерархичность, динамизм, многокритериальность и эмерджентность. Эти особенности требуют создания моделей для анализа и экспериментов. Моделирование социально-экономического развития базируется на проектной деятельности с учетом экологических и социальных аспектов, интегрируя искусственные и естественные элементы для устойчивого развития. Предложена концептуальная модель сбалансированного развития с тремя типами равновесия: социальным, природно-ресурсным и экономическим, где приоритет одной подсистемы ограничивает другие. Особое значение придается инвестиционной политике, направленной на финансирование научных исследований и проектов для устойчивости. Анализ региональных факторов включает классификацию и экономическую оценку производительных сил, их размещения и взаимодействия. Эффективность производства определяется минимизацией затрат с учетом социальных и экологических задач. Комплексный подход, включающий организационные, экономические и экологические меры, обеспечивает устойчивое развитие. Гибкая инвестиционная политика и учет динамики факторов являются ключевыми для реализации предложенной модели.

***Ключевые слова:*** *устойчивое развитие, Азербайджан, регионы, социально-экономические аспекты, зеленая экономика*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.017

# RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR

# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**SABIRA BAGHIROVA**

**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Intelligent Systems Management, PhD in Physice and Mathematics, Associate Professor**

*e-mail: sofnene@bk.ru*

**OLGA MUKHTAROVA**

**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Department of Intelligent Systems Management, PhD in Physice and Mathematics, Associate Professor**

*e-mail:ovmukhtarova@mail.ru*

## RATIONALE OF INSURANCE RATES FOR INNOVATIVE INSURANCE PRODUCTS

### Introduction

In modern conditions, the demand for insurance products that flexibly take into account the needs of customers and the characteristics of specific insurance risks is increasing. But at the same time, the approved methods of calculating insurance rates [8, 9] do not provide such flexibility, which hinders the development of insurance to some extent. Currently used insurance rate calculation methods differ significantly for life insurance [9] and non-life insurance (so-called general insurance) [8].

At the same time, there is no reason to believe that life insurance and general insurance have a different character [2], which will lead to substantial differences in the calculation of insurance rates. Of course, there are differences between these areas that arise due to the long-term nature of life insurance, as a result of which the probability of occurrence of an insured event and the value of money change over time. However, such differences are not fundamental and have become more and more blurred in recent years: in particular, the probability of occurrence of an insured event, the amount insured, etc. long-term general insurance with variable values is developed. In life insurance, on the contrary, short-term policies can be distinguished: for example, life insurance in case of death during a tourist trip, air travel, etc.

## Unification of the Calculation of Insurance Rates

The unification of the calculation of insurance rates (and other actuarial calculations) for both areas of insurance seems possible and appropriate.

In order to calculate insurance rates based on a generalized actuarial basis, analytical dependencies cannot be used in general. In this case, statistical modeling is a universal tool for calculating rates. An algorithm for calculating insurance rates was created [4], the corresponding software was developed and tested [5]. It was determined [5] that the insurance rates for classic insurance risks, which can be calculated by approved methods, the insurance rates according to the proposed algorithm are close to the rates according to the approved methods and are related to existing inconsistencies. precisely to the shortcomings of approved methods.

At the same time, the generalization of actuarial basis parameters for life insurance and general insurance made it possible to expandthe list of insurance parameters taken into account during the calculation of insurance rates, which opens up opportunities for determining more flexible insurance prices.

The extension mainly affects the total insurance in the calculations, which can additionally take into account the following conditions of the insurance product:

- different insurance amounts for different insurance contracts in the portfolio;
- changes in the insurance amount during the period of validity of the insurance contract, including changes in the age of the insured object or the insured (any dynamics of the insurance amount can be determined);
- the occurrence of several insurance events during the insurance period;
- changes in the intensity of occurrence of insurance events during the insurance period, including changes in the age of the insured object or the insured (any dynamics of the intensity can be set);
- presence of a liquidating event (termination of the insurance contract without insurance payments) such as the death of the insured object, which is not an insurance event with variable intensity during the insurance period;
- there is a waiting period from the moment the insurance contract is concluded to the start of the insurance coverage;
- the presence of a permanent component of business expenses that is not proportional to the insurance amount;
- changes in the value of money over time (calculation of interest);
- postponement and payment of insurance premiums;
- postponement of insurance payments and payment in installments.

## Conditions for Creating of Conditions for Creating of Innovative Insurance Product

The generalized actuarial basis also allows to enrich the life insurance by taking into account the following conditions that are not currently taken into account in the calculations:

- collective nature of insurance;
- different insurance amounts for different life insurance contracts in the portfolio;
- change of the insurance amount during the period of validity of the insurance contract regardless of the received investment income (any dynamics of the insurance amount can be set, not just arithmetic or geometric progression);
- the occurrence of several insurance events during the insurance period;

– the random nature of the insurance amount described by some distribution law;
– the presence of a permanent component of business expenses that is not proportional to the insurance amount.

The transition from functional dependencies to statistical modeling generally removes limitations on the amount of primary data involved in the calculation of insurance rates, and thus opens up opportunities for further expansion of the actuarial base due to the currently unknown insurance conditions included in the calculations.

It is important that only these conditions have an objective effect on the insurance rate, and this effect can be reasonably reflected in the statistical model. Thus, the basis for the creation of innovative insurance products is laid due to the expansion of ideas related to the content of insurance parameters.

Basic tarif rates for contracts providing for insurance payments are calculated in the following amount:

1) For the risk of "Death" - 100% of the insurance amount minus the previously paid payments for this insurance event (Clause 12.10.1. of the Rules);
2) According to the risk of "disability":
   - When group I disability ("disabled child" category under the age of 18) is determined - 100 percent of the insurance amount minus previously paid payments (Clause 12.10.2. "a" of the Rules);
   - In case of group II disabled ("disabled child" category for a period of two years) - 80 percent of the insurance amount after deducting previously paid payments for this insurance event (Clause 12.10.2. "b" of the Rules);
   - In the case of group III disabled ("disabled child" category for one year) — 50 percent of the insurance amount, excluding previously paid payments for this insurance event (Clause 12.10.2. "c" of the Insurance Code) Rules).
3) Due to the risk of "Temporary disability" as a result of an accident - 0.5% for each day of continuous disability starting from the 10th (tenth) day, but not exceeding 90 days; as a result of illness - 0.2% for each day of continuous disability starting from the 10th (tenth) day, but not exceeding 90 days (Clause 12.10.3 of the Rules).
4) For the "Injury" risk - percentage of the insurance amount in accordance with the Schedule of payments attached to the Insurance Rules.
5) "Hospitalization" risk - in the amount of 0.5 percent of the insurance amount for each day of hospitalization, but not more than 20 (twenty) days (paragraph 12.10.5 of the Rules).
6) On the risk of "critical diseases" - in the amount of 50 percent of the insurance amount (Clause 12.10.6 of the Rules).
7) Due to the risk of "job loss" - in the amount of average monthly income in the last 6 (six) months. until the day of termination of the employment contract (Clause 12.10.7. "a" of the Rules).
8) Due to the risk of "Distance medical consultation costs" - in the amount of costs incurred when applying for medical advice through telecommunication channels (Clause 12.10.8 of the Rules).

### Adjustment coefficients

The insurer has the right to apply adjustment coefficients (increasing or decreasing) to the base tariff rate depending on the circumstances important for assessing the nature and extent of the insurance risk, as well as the characteristics of the determination of the insurance risk.

Having the minimum and maximum values of increasing / decreasing coefficients allows the insurer to more fully consider the characteristics of the insurance object, possible risk factors and determine the most realistic tariff rate for a specific insurance contract. Conditions for ensuring financial stability of the insurer.

When concluding an insurance contract for "Disability", "Temporary disability", "Hospitalization", "Critical diseases" risks, the terms of the insurance contract provide insurance payments different from the amount of payments stipulated in the Regulations (12.10. 2., 12.10.3., 12.10.5. , 12.10.6., 12.10.7). Policy:

- Changing the amount of payment for "Disability" and "Critical diseases" risks - from 0.5 to 1.50;
- Changing the amount of payment for each day of incapacity during the insurance against "temporary incapacity" risks - from 0.2 to 2.00;
- Changing the payment amount for the risk "Hospitalization - from 0.2 to 10.0";
- Changing the payment amount or procedure due to the risk of "job loss": from 0.3 to 6.00.
- Changing the payment amount for the risk of "Distance medical consultation costs": from 0.1 to 5.00

From the profession of the insurer (from 0.8 to 3.00), the age and gender of the insured (from 0.8 to 2.5), working conditions, the life of the insured (from 0.9 to 2.00 up to), has the right to apply correction factors depending on his hobby and occupation. habits, state of health at the time of conclusion of the contract (from 0.9 to 2.5), main place of residence of the insured (from 0.9 to 1.5).

When included in the coverage of events listed in clause 1.5.2. In accordance with clauses "d", "e" of the Rules, the Insurer applies a multiplier from 1.05 to 2.5 to the base rate.

When one or more events are excluded from the coverage, as well as when diseases, surgical operations, injuries listed directly in the Agreement occur (clauses 4.1., 4.2., 4.3.6. of the Agreement) When the Agreement is concluded. Rules) and/or excluded from coverage of one/more events in accordance with clause 4.13. In accordance with the rules, the Insurer applies adjustment factors from 0.7 to 1.00 to the base rates.

When the contract is concluded subject to the removal of the restriction in accordance with clause 4.4. According to the rules, the Insurer must apply a multiplier of 1.05 to 3 to the base rate.

When one or more of the listed events occur. 4.5.7., 4.6.1.-4.6.4., 4.7.4. According to the rules, the Insurer has the right to apply a correction factor in the amount of 1.01 to 5.00.

When concluding an insurance contract where the area of insurance is defined differently from the area of residence, the Insurer applies correction factors from 0.2 to 3.00 to the base rates, depending on the specific area of insurance.

Insurance contract. When the temporary deductible amount is determined (clause 6.5.1. of the Rules), the Insurer has the right to apply an adjustment factor in the amount of 0.6 to 1.0. When the temporary deduction due to the risk of "loss of work" is canceled (Clause 6.5.3. of the Rules) - the Insurer applies an adjustment factor in the amount of 1.01 to 5 to the base rate.

When increasing the temporary deductible due to the risk of "job loss", the Insurer has the right to apply a coefficient from 0.5 to 1.0.

When concluding an Insurance Contract under the condition of paying the insurance fee in installments, the Insurer has the right to apply an adjustment factor in the amount of 1.01 to 1.35.

When concluding an Agreement with a limited period of validity (Clause 9.8 of the Rules), the Insurer applies adjustment factors from 0.9 to 1.5 to the base tariff rates.

With the increase of the risk level (Clause 10.1. of the Rules), the Insurer has the right to apply an adjustment factor to the base tariff in the amount of 1.01 to 3.5.

The Insurer applies a coefficient from 0.6 to 1.3 when concluding the Insurance Contract, which provides for the determination of insurance periods with a variable volume of the Insurer's liability.

Depending on the determination of the amount of the commission under the insurance contract, the Insurer applies an adjustment factor from 0.16 to 1.00.

Depending on the marketing channel for customers attraction, the Insurer has the right to apply a correction factor from 0.1 to 5.00. In the case of collective insurance, the Insurer can apply for the total amount of the insurance premium under the contract:

- Adjustment coefficients from 0.3 to 1.5 depending on the total number of Insured persons under the contract, the period of the contract and the reasons for concluding the contract, the conditions of the contract;
- Adjustment coefficients from 0.9 to 2.5, depending on the age composition of the insured, distribution by residential regions.

When concluding an insurance contract under the terms of payment of the insurance free in installments, depending on the number and payment period, an increasing correction factor is applied to the base tariff rate from 1.01 to 1.3.

## Conclision

The conducted research on the application of unification of insurance rates allows us to draw the following conclusions:

- the use of a generalized actuarial base and the use of statistical modeling based on it allows to calculate insurance rates using additional conditions of insurance products that are currently not taken into account in the calculations;
- the use of statistical modeling proves the economic feasibility of insurance rates obtained using a generalized actuarial basis. This opens up opportunities to design innovative insurance products that keep traditional pricing methods at bay;
- the actuarial base, generalized in its modern form, contains a number of additional parameters that can be directly used to create innovative insurance products. At the same time, the generalized actuarial base has the ability to further expand according to the needs of insurance companies and their customers.

**References:**


1. Bowers, N., Gerber, H., Hickman, J., Jones, D and Nesbitt, C.: Actuarial Riyaziyyat, 2-ci nəşr, Schaumburg, Aktuarlar Cəmiyyəti, 2020.
2. Bühlmann, H.: Risk nəzəriyyəsində riyazi metodlar, 2-ci nəşr, yeni. York, Springer, 1996.
3. Centeno, M.: Teoria do Risco və Atividade Seguradora, Oeiras, Celta redaksiya, 2003.
4. Chung, K.: A Course in Probability Theory, 2-ci nəşr, Nyu-York, Akademik Mətbuat, 1974.
5. Dickson, D.: Insurance Risk and Ruin, Cambridge, Cambridge Universitet Nəşriyyatı, 2005.
6. Kaas, R., Goovaerts, M., Dhaene, J. və Denuit, R.: Müasir Aktuar Risk nəzəriyyəsi, 2-ci nəşr, Springer, 2009.
7. Karlin, S. və Taylor, H.: Stokastik proseslərdə ilk kurs. Akademik Mətbuat, 1975.
8. Klugman, S., Panjer, H. and Willmot, G.: Loss Models, 4th ed., Wiley, 2012.
9. Reis, A.: Teoria da RuÍna, ISEG, Dezembro de 2001.
10. “Sığorta: prinsiplər və təcrübə” Tərtib edən David Bland. Per. ingilis dilindən. - M .: Maliyyə və statistika, 1998 - 416s. Per. red.: Sığorta: Prinsiplər və Təcrübə. David Bland tərəfindən tərtib edilmişdir Chartered Insurance Institute, Böyük Britaniya, 1993.
11. Avtomobil nəqliyyatı və sığorta: qarşılıqlı təsir nəzəriyyəsi və praktikasının əsasları. Dərslik / Şabeka V. L., Daşkeviç G. B., - Minsk: “VUZ-UNITI”, 2004. – 220 s.
12. Avtomobil sığortasında bonus-malus sistemləri/[Jean Lemaire, redaktor], Kluwer Academic Publishers, Boston/Dordrecht/London, 1995. - 316p.
13. Sığorta Riyaziyyatı: Dərslik / Ed. G. A. Medvedev, V. V. Seçko. - Minsk: BGU, 2003. - 267s.


***Keywords:*** *insurance rate, statistical modeling, actuarial calculations, actuarial basis, insurance product, innovation*

**Səbirə Bağırova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti,*
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru*

**Olqa Muxtarova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti,*
*fizika-riyaziyyat üzrə fəlsəfə doktoru*

# İNNOVATİV SIĞORTA MƏHSULLARI ÜÇÜN SIĞORTA TARİFLƏRİNİN TƏTBİQİ MƏSƏLƏSİNƏ YANAŞMA

## XÜLASƏ

Məqalədə sığorta müqavilələrinin uzadılmış müddətlərinin həyat sığortası və ümumi sığorta üzrə sığorta tariflərinin uçotu üçün ümumiləşdirilmiş aktuar bazadan istifadə imkanları araşdırılır. Göstərilmişdir ki, ümumiləşdirilmiş aktuar bazadan və statistik modelləşdirmədən istifadə innovativ sığorta məhsullarını hazırlamağa və onlar üçün aktuar hesablamaların etibarlılığını təmin etməyə imkan verir. Həyat sığortası və ümumi sığorta üzrə aktuar bazis parametrlərinin ümumiləşdirilməsi sığorta tərəflərinin hesablanması zamanı nəzərə alınan sığorta parametrlərinin siyahısını genişləndirməyə imkan verir; sığorta parametrlərinin məzmunu ilə bağlı ideyaların genişlənməsi innovativ sığorta məhsullarının yaradılmasına zəmin yaradır.

***Açar sözlər:*** *sığorta tarifi, statistik modelləşdirmə, aktuar hesablamalar, aktuar əsas, sığorta məhsulu, yeniliklər.*

**Сабира Багирова**

*Доцент кафедры Управления интеллектуальными системами Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по физико-математическим наукам*

**Ольга Мухтарова**

*Доцент кафедры Управления интеллектуальными системами Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор философии по физико-математическим наукам*

# ПОДХОД К ВОПРОСУ О ПРИМЕНЕНИИ СТРАХОВЫХ ТАРИФОВ ДЛЯ ИННОВАЦИОННЫХ СТРАХОВЫХ ПРОДУКТОВ

## РЕЗЮМЕ

В статье рассматриваются возможности применения обобщенного актуарного базиса учета продленных сроков договоров страхования и страховых тарифов как относительно страхования жизни, так и общего страхования. Показано, что использование обобщенного актуарного базиса и статистического моделирования позволяет разрабатывать инновационные страховые продукты и обеспечивать обоснованность актуарных расчетов по ним. Обобщение параметров актуарного базиса для страхования жизни и общего страхования позволяет расширить перечень страховых параметров, учитываемых при расчете страховых параметров; закладывается основа для создания инновационных страховых продуктов за счёт расширения представлений о содержании страховых параметров.

***Ключевые слова:*** *страховой тариф, статистическое моделирование, актуарные расчеты, актуарный базис, страховой продукт, инновации*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.019

# RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR

# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**RAMAL CABBAROV**

**Azərbaycan Dövlət İqtisad Universitetinin**
**Rəqəmsal iqtisadiyyat fakültəsinin dekan müavini**

*e-mail: ramal.jabbarov@unec.edu.az*

**FATMA ÇANDİROVA**

**İctimai İaşə və Xidmət üzrə Bakı Dövlət Peşə Təhsil mərkəzinin direktoru,**
**fizika-riyaziyyat üzrə fəlsəfə doktoru**

*e-mail: fatma.chandirova@gmail.com*

# BİZNESİN İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ: RƏQƏMSAL TƏHDİDLƏR VƏ MÜDAFİƏ METODLARI

## Biznesin informasiya təhlükəsizliyi

Müasir biznes və ticarət seqmenti aktiv şəkildə inkişaf edir və iş adamları çoxsaylı rəqəmsal texnologiyalardan istifadə edirlər: əməkdaşlar arasında ünsiyyətin yaxşılaşdırılmasından tutmuş xidmətlərə və maliyyə münasibətlərinə qədər. Yeni imkanlar eyni vaxtda proseslərin inkişaf və avtomatlaşdırılması üçün şərait yaradır, lakin bu eyni zamanda kiber cinayətkarların nüfuz etmə təhlükəsini də artırır: kiberhücumlar, məlumat sızmaları, hüquqi pozuntular. Buna görə də istənilən miqyaslı kommersiya əlaqələri kontekstində "Biznesin informasiya təhlükəsizliyi" mövzusu aktualdır.

Son bir neçə onillik ərzində rəqəmsallaşma və kibercinayətkarlıq nəticəsində biznesə yönəlmiş təhdidlər kəskin şəkildə artıb. Eyni zamanda hücumların intensivliyi və hücumçuların diqqəti də müxtəlifdir. Kiçikdən böyük müəssisələrə qədər hər kəs müxtəlif səviyyəli təhlükə və müxtəlif hücum nəticələri ilə üzləşir.

Kiçik biznes informasiya təhlükəsizliyi baxımından daha həssasdır ki, bunun da səbəbi maddi və texniki resursların məhdud olmasıdır. Ümumiyyətlə, bu, müəssisənin istifadə etdiyi zəif müdafiə tədbirlərinə səbəb olur. Nəticədə belə şirkətlər kiberhücumlar üçün asan hədəfə çevrilir.

Böyük bizneslər rəqəmsal fırıldaqçılar arasında ən populyar hala gəlir. Bunun bir neçə səbəbi var:

- sənaye casusunun aidiyyəti, bu zaman bütöv bir sənayenin inkişafı müəyyən bir müəssisədəki yeniliklərə bağlana bilər.
- böyük müəssisələr tez-tez innovasiyalara böyük büdcə xərcləyirlər. Bu tədqiqat nəticələrinin sızması şirkətə həm maliyyə, həm də reputasiya zərəri vurur.
- bütün proseslərə tam nəzarətin olmaması ehtimalı və ya insan səhvi ucbatından xətaların baş verməsi.




**Şəkil.** İnformasiya təhlükəsizliyinin biznes modeli

• böyük korporasiyalar kibertəhlükəsizlik sahəsində sərmayə yatırmaqla daha yaxşı qorunsalar da, hələ də mürəkkəb hücumlar üçün arzuolunan hədəflərdir.

Xüsusilə, böyük şirkətlər daha mürəkkəb təsirlərlə üzləşə bilərlər. Bu həm də müasir bizneslər üçün kiber təhdidlərin xüsusiyyətidir. Məsələn, hədəfli hacks, insayder infiltrasiya və infrastruktur səviyyəsində təhdidlər (DDoS hücumları).

Biznes üçün informasiya təhlükəsizliyinə əsas təhdidlərdən olan Fişinq son illər populyarlıq qazanır və müəssisənin kibertəhlükəsizliyi üçün ən riskli amillərdən birinə çevrilir. Eyni zamanda, həm böyük şirkətlər, həm də mikrobiznes fişinq inyeksiyasının obyektinə çevrilə bilər. Fırıldaqçılar tərəfindən poçtalama öz-özlüyündə neytraldır və müəssisəyə birbaşa təsir göstərmir. Lakin, işçi diqqətsizlik və ya maraqdan kənar məzmunla qarşılıqlı əlaqəyə başlayan kimi şirkət kiber riskə məruz qalır.

**İnsider hücumlar.** Bu, müəssisə daxilində olan subyektlər tərəfindən informasiya aktivlərinə təsir göstərən bir üsuldur. Müəssisənin informasiya sahəsinə kəşfiyyat aparan xüsusi emal olunmuş işçilər, əmlaka qəsdən zərər vuran, işdən çıxarılma prosesində olan işçilər, oradan çıxmaqla yanaşı ticarət sirləri ilə bağlı məlumatların bir hissəsini oğurlamaq istəyən xəyanət etmiş işçilər ola bilər. İnsayder riskləri həm informasiya təhlükəsizliyi, həm də müəssisənin ümumi sabitliyi üçün real təhlükə yaradır.

**İcazəsiz məlumat sızması.** Yazılı, rəqəmsal və ya şifahi rabitədə diqqətsizlik və xəta üzündən kommersiya məlumatlarının bütün növlərinin yayılmasının ümumiliyi. Bu da daxili risklərdən biridir, lakin əsas fərq aydın niyyətin olmamasıdır.

**Avadanlıqların texniki nasazlıqları.** Bütün bunlar avadanlıq və təhlükəsizlik sistemlərinin fəaliyyətində texniki nasazlıqlar nəticəsində yaranan məxfi məlumatların yayılması və ya məhv edilməsi hallarıdır. Məsələn, proqram təminatı və ya avadanlığın nasazlığı firewalls, antivirus, intrusion detection sistemləri kimi təhlükəsizlik sistemlərini poza bilər, bu isə hücumçulara həssas informasiya əldə etməyə imkan verir.

**Fövqəladə hallar zamanı kommunikasiya kanallarının zədələnməsi.** Fövqəladə hallar zamanı kommunikasiya kanallarının zədələnməsi mühüm bir problemdir. Bu kanallar informasiya ötürülməsi, əlaqə və nəzarət sistemləri üçün əsas infrastruktur elementi olmaqla, onların sıradan çıxması fövqəladə vəziyyətlərin idarə olunmasında ciddi çətinliklər yarada bilər. Belə hallarda informasiya axını pozulur, əlaqə imkanları məhdudlaşır, operativ qərarların verilməsi çətinləşir və nəticədə ümumi idarəetmə sistemi iflic ola bilər. Kommunikasiya sistemlərinin zədələnməsinə həm təbii, həm də insan mənşəli fövqəladə hallar səbəb ola bilər. Təbii hadisələrə zəlzələ, sel, yanğın, qasırğa, tornado, buzlaşma və digər idarəolunmaz təbiət hadisələri daxildir. Bu hadisələr zamanı yeraltı rabitə xətləri, anten sistemləri, ötürücü qüllələr və digər mühüm avadanlıqlar zədələnə bilər. İnsan mənşəli təhlükələr isə texnogen qəzalar, sənaye partlayışları, sabotaj aktları, terror hücumları və kibertəhlükələrdən ibarətdir. Bu hallar da kommunikasiya vasitələrinin sıradan çıxmasına və əlaqənin kəsilməsinə səbəb olur. Kommunikasiya kanallarının zədələnməsi nəticəsində əhali ilə dövlət qurumları arasında informasiya axını pozulur, koordinasiya zəifləyir və təxliyə, yardım əməliyyatları, məlumat paylaşımı kimi vacib proseslər gecikir. Eyni zamanda, bu vəziyyət ictimai panika, çaşqınlıq və informasiya boşluğuna səbəb ola bilər. Xüsusilə hava limanları, nəqliyyat mərkəzləri, xəstəxanalar və digər strateji obyektlərin fəaliyyəti bu cür vəziyyətlərdən ciddi şəkildə təsirlənə bilər.

Biznesdə informasiya təhlükəsizliyi sisteminin formalaşması prosesində nüsxələrin itirilməsi riski də nəzərə alınmalıdır. Backup – effektiv kiber hücuma qarşı sığorta və əsas informasiya mənbəyinin əlçatanlığının və ya nöqsansızlığının itirilməsi. Backuplar aşağıdakı prinsiplərə əsasən yaradılmalıdır: nüsxələrin sistemləşdirilməsi, 2-3 backupun saxlanması, müxtəlif saxlama yerlərindən istifadə və s.

Müasir biznesin əsas xüsusiyyətlərindən biri mobillik olduğundan smartfonlar üçün təhlükələr də aktualdır. Onlar müəssisənin əsas informasiya riskləri ilə qismən üst-üstə düşürlər, lakin eyni zamanda yalnız mobil qurğular üçün tipik olan xüsusiyyətlər var. Xüsusilə, bu smartfonlara nüfuz edə bilən malware növlərinə aiddir.

1. İstifadəçini başlatmadan aqressiv viral reklamları nümayiş etdirmək üçün İnternet trafik və batareya gücünü istifadə edən adware və viruslar.
2. Sosial Media Credential Theft Software (Facestealer) sosial şəbəkələrdə hesab verilənlərin əldə olunması (oğurlanması) üçün proqram təminatı əsasən mobil proqramlar vasitəsilə istifadəçilərin şəxsi məlumatlarını, o cümlədən sosial media etimadlarını oğurlamağı hədəfləyən rəqəmsal spyware kateqoriyasına aid zərərli proqramlardır. Bu növ malware ilk dəfə qanuni proqram təminatı kimi soyunub-soyunub android proqramlarda aşkar edilmişdir.
3. Ödənişli xidmətlərə icazəsiz abunəlik həyata keçirən Troyanlar.
4. Smartfon keyloggers – şifrə, kredit kartı detalları, mesajlar və digər şəxsi məlumatlar kimi həssas məlumatları əldə etmək məqsədilə qurğuya yazılan hər bir tuşu qeyd edən malware.

Gəlin biznesin informasiya təhlükəsizliyinin təmin edilməsi metodlarına diqqətlə nəzər salaq.

## Biznesdə məxfi məlumatların qorunması metodları

Biznesdə informasiya təhlükəsizliyinə müəyyən edilmiş təhlükələrin qarşısını almaq üçün şirkətlər müasir texnologiyalar və müdafiə vasitələri tətbiq etməlidirlər. Məlumatların pozulmasının və icazəsiz girişin qarşısının alınmasında kömək edən əsas metodlar bunlardır:

**1. Biznes məlumatlarını mərkəzləşdirilməsi.** Kütləvi informasiya vasitələrindən hər hansı birinə dair bütün vacib sənədlər və məlumatlar təhlükəsiz yerlərdə, serverlərdə, saxlama banklarında, arxivlərdə saxlanılmalıdır. Onlara giriş məhdud olmalıdır. Bu isə anbara kimin daxil olmaq hüququna malik olduğunu

nəzarətdə saxlamağı asanlaşdırır və saxlanılan məlumatlara təsirini minimuma endirir.

2. **İp-telefoniya vasitəsi ilə səs kommunikasiya kanallarının mühafizəsinin təmin edilməsi.** İnternetdən istifadə etməklə tətbiq və zənglər vasitəsilə ünsiyyət həm adi istifadəçilər, həm də biznes cəmiyyəti arasında çox populyarlaşıb. Ona görə də bu cür zəngləri şifrələmə, monitorinq və müdaxilə ilə qorumaq lazım idi. Bu da telefon danışıqları vasitəsilə məlumatların sızması ehtimalını azaldır. Bundan əlavə, sızanaq mənbələrini də izləmək imkanı verir.

- **Müştəri məlumatlarının qorunması.** Gündəlik işlərdə həm fərdi, həm də hüquqi şəxslər olan külli miqdarda məxfi müştəri məlumatlarından istifadə olunur. Onların saxlanılması, mühasibatlıq və işdə istifadəsinin səliqəyə edilməsi Müştəri Münasibətlərinin İdarə Edilməsi və ya CRM kimi xüsusi mühasibat proqram sistemləri tərəfindən təmin edilir. Bu proqram təminatı müştərilər haqqında məlumatların mərkəzləşdirilmiş şəkildə saxlanılmasına, zənglərin və onlarla qarşılıqlı əlaqələrin avtomatik olaraq qeydinə kömək edir. Bu nəinki məlumatların idarə edilməsi sadələşdirir, həm də müştəri məlumatlarının məxfiliyini və təhlükəsizliyini artırır.
- **Wi-Fi təhlükəsizlik və bərpa.** Mürəkkəb parollar və şifrələmədən istifadə etməklə təhlükəsiz Wi-Fi şəbəkələri icazəsiz giriş riskini azaldır. Həm yerli, həm də uzaq serverlərdə verilənlərin müntəzəm backup-ları, hətta uğursuzluq və ya hücum halında belə məlumatların təhlükəsiz olmasını təmin edir.
- **Maliyyə sistemlərinin mühafizəsi.** Müştəri-bank sistemi kiberhücumlar üçün ən zəif giriş nöqtələrindən biridir, belə ki, o, eyni vaxtda mühüm biznes məlumatlarının böyük hovuzunun köçürülməsindən istifadə edir. İnformasiya üçün riskləri minimuma endirmək üçün iki faktorlu autentifikasiya, şifrləmə və müntəzəm proqram yeniləmələrindən istifadə etmək tövsiyə olunur.
- **İnformasiya təhlükəsizliyinin əsasları üzrə işçilərə təlim.** İşçilər üçün müntəzəm informasiya təhlükəsizliyi üzrə təlimlərin keçirilməsi və qaydalara riayət etmək üçün onların yazılı razılığının alınması vacibdir. Bu, məlumatlılığın artırılmasına və məlumatların pozulmasına gətirib çıxaran təsadüfi səhvlərin riskini azaltmağa kömək edir.
- **Audit və nəzarət.** Müntəzəm təhlükəsizlik yoxlamaları zəiflikləri müəyyən etməyə və onların aradan qaldırılması üçün dərhal tədbirlər görməyə imkan verir. İşçilərin bütün prosedurlara riayət etməsinə nəzarət etmək də müdafiənin yüksək səviyyədə saxlanılmasına kömək edir.

İnformasiya təhlükəsizliyinin səviyyəsini artırmaq üçün şirkətlərə işçilərin məlumatların öhdəsindən necə gəlməyi və korporativ sistemləri qorumaq üçün hansı tədbirləri görmək lazım olduğunu tənzimləyən informasiya təhlükəsizliyi siyasəti yaratmaq tövsiyə olunur. Belə bir siyasətə güclü parolların yaradılması qaydaları, müntəzəm proqram təminatının yenilənməsi və şifrələnmiş kommunikasiya kanallarının istifadəsi qaydaları daxildir.

Təhlükəsizlik strategiyalarının daimi monitorinqi və yenilənməsi ilə müşayiət olunan bu tədbirlər bizneslərə öz məlumatlarını qorumağa və potensial təhlükələrdən qaçmağa kömək edir.

## Müasir kibertəhlükəsizlik üzrə trendlər

Kibertəhlükəsizlik proqram təminatının ən dinamik və daim yenilənən sahələrindən biridir, xüsusilə digər sahəyə – kibercinayətkarlığa əsaslanır. Şəbəkədə nə qədər çox fırıldaqçılıq variantı varsa, mənfi təsirləri qorumaq və minimuma endirmək üçün variantlar bir o qədər inkişaf etdirilir. Müasir kibercinayətkarlıq texnologiyaları sürətlə inkişaf edir. Məlumatların qorunması metodları da yeni çətinliklərə uyğunlaşmalıdır. Ən qabaqcıl müdafiə variantlarını nəzərdən keçirək.

**Kvant kriptoqrafiyası.** Bu, ötürülən və ya saxlanılan məlumatların sonrakı deşifrləmə ilə şifrələnmiş formaya çevrilməsi kimi istifadə olunan rəqəmsal məlumatların kompleks qorunması yollarından biridir. Kvant kompüterləri kvant fizikasının qanunlarına əsaslanan və demək olar ki, keçilməz məlumat müdafiəsini

təmin edən şifrləmənin texnoloji prosesini xeyli mürəkkəbləşdirir.

**Süni intellekt (AI).** Müasir təhlükəsizlik sistemləri əsasən Aİ texnologiyasına güvənməyə başlayıb, belə ki, bu texnologiya çoxlu sayda risk faktorlarının və onlara təsir edən hərəkətlərin təhlili əsasında eyni vaxtda informasiyanın mühafizəsini təmin edir. Məsələn, süni intellekt korporativ şəbəkədə anomal fəaliyyətləri müəyyən edə bilir. O, erkən mərhələdə potensial təhlükələri aşkar edir və hətta ziyan vurmamış hücumların qarşısını alır.

**Zero Trust modeli.** Sıfır-intibah metodu da populyarlıq qazanır. Bu, artıq müəssisənin təhlükəsizlik dairəsinə daxil olanlar (işçilər, əməkdaşlar, təchizatçılar) daxil olmaqla, informasiya əldə etməyə çalışan hər hansı obyektə etibardan imtina edilməsini nəzərdə tutur. Belə bir siyasətin tətbiqində hər bir giriş bu orqanın öz korporativ roluna uyğun olaraq nə dərəcədə hüquqa malik olması şübhə altına alınır və yoxlanılır.

## Nəticə

Biznesin informasiya təhlükəsizliyi mövzusunda ümumi nəticə ondan ibarətdir ki, müasir iş mühitində rəqəmsal texnologiyaların və internetin geniş yayılması, həm yeni imkanlar, həm də ciddi təhlükələr yaratmışdır. Şirkətlər, xüsusilə kiçik və orta müəssisələr, daha effektiv təhlükəsizlik strategiyalarına ehtiyac duyurlar, çünki kibertəhlükələr, məlumat sızmaları və digər kiberhücumlar biznesin fəaliyyətini ciddi şəkildə poza bilər. Bununla yanaşı, şirkətlər informasiya təhlükəsizliyi üçün yalnız texniki tədbirlərlə kifayətlənməməli, həm də təhlükəsizlik mədəniyyətini gücləndirməli, işçilərini məlumatlandırmalı və düzgün siyasətlər tətbiq etməlidirlər.

Müasir kibertəhlükəsizlik həlləri, şirkətlərin informasiya mühitini qorumaq üçün daha çox inkişaf edir, lakin təhdidlər getdikcə daha mürəkkəb və hədəfli olur. Eyni zamanda, qeyri-qanuni xidmətlərə olan tələbatın artması və hücumların daha fərdiləşdirilmiş və qabaqcıl üsullarla həyata keçirilməsi, şirkətləri daha da çətin vəziyyətə salır. Həmçinin, şirkətlərin informasiya təhlükəsizliyi sahəsində doğru yanaşma və doğru texnologiyaların seçilməsi, onlara potensial hücumlara qarşı daha effektiv müdafiə təmin edəcəkdir.

Son olaraq, müəssisələr, kibertəhlükəsizliklə bağlı təhdidləri minimuma endirmək və daha etibarlı iş mühiti yaratmaq üçün həm müasir texnologiyalardan istifadə etməli, həm də insan amilini (işçi təlimləri, təhlükəsizlik siyasətləri və s.) nəzərə almalıdırlar. Yalnız bu cür kompleks yanaşma sayəsində bizneslər təhlükəsizliklərini artıraraq, kibertəhlükələrə qarşı dayanıqlı ola bilərlər.

## Ədəbiyyat:

1. Elçin Abasov, Ədalət Mahmudov. Dövlət İnformasiya sistemi təhlükəsizliyinin təmin edilməsi problemləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. - №3(87). – Bakı, – 2024. – s.209-214
2. Şəfəq Mustafayeva, Aydın Kazımzadə. Strukturlaşdırılmış və strukturlaşdırılmamış verilənlər bazalarının səciyyəvi müqayisəsi // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. – №3(87). – Bakı, – 2024. – s.215-226
3. Малюк А.А. Введение в защиту информации в автоматизированных системах. –Москва: Телеком, – 2004. – 280 с.
4. Язов Ю.К. Основы методологии количественной оценки эффективности защиты информации в компьютерных сетях. – Ростов-на-Дону: 2006. – 274 с.
5. Щеглов А.Ю. Защита компьютерной информации от несанкционированного доступа. – Санкт-Петербург: Наука и техника, – 2004. – 384 с.

***Açar sözlər:*** *İnsider hücumlar, Fişinq, Zero Trust modeli, keylogger, Backup, sosial şəbəkələrdə hesab verilənlərin əldə olunması (oğurlanması) üçün proqram təminatı*

**Ramal Jabbarov**

*Azerbaijan State University of Economics (UNEC),*
*Deputy Dean of the Faculty of Digital Economy*

**Fatma Chandirova**

*Director of the Baku State Vocational Education Center*
*for Public Catering and Service, PhD in Physics and Mathematics*

# BUSINESS INFORMATION SECURITY: MODERN THREATS AND DEFENSE METHODS

## ABSTRACT

Modern digital technologies offer businesses new opportunities but also pose significant cybersecurity threats, such as data breaches and cyberattacks, particularly for small and medium enterprises. Effective cybersecurity requires not only technical solutions but also fostering a security culture, employee training, and robust policies. As cyberthreats grow more sophisticated and targeted, with increasing demand for illicit services, businesses must adopt appropriate technologies and prioritize the human factor. A comprehensive approach, integrating advanced tools, staff education, and strict policies, minimizes risks and builds a resilient environment, ensuring businesses are better protected against evolving cyberthreats.

***Keywords:*** *Insider attacks, Phishing, Zero Trust model, keylogger, Backup, software for obtaining (stealing) account data in social networks*

**Рамал Джаббаров**
*Заместитель декана факультета цифровой экономики*
*Азербайджанского Государственного Экономического Университета (UNEC)*

**Фатма Чандирова**
*Директор Бакинского государственного профессионального*
*центра общественного питания и сервиса,*
*доктор философии по физико-математическим наукам*

# ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ БИЗНЕСА: СОВРЕМЕННЫЕ УГРОЗЫ И МЕТОДЫ ЗАЩИТЫ

## РЕЗЮМЕ

Современные цифровые технологии создают для бизнеса новые возможности, но также несут угрозы кибератак и утечек данных, особенно для малого и среднего бизнеса. Эффективная информационная безопасность требует не только технических решений, но и укрепления культуры безопасности, обучения сотрудников и внедрения строгих политик. Киберугрозы становятся сложнее, а спрос на нелегальные услуги растет, что усложняет защиту. Компании должны выбирать правильные технологии и учитывать человеческий фактор. Комплексный подход, сочетающий передовые технологии и обучение персонала, минимизирует риски и создает устойчивую к киберугрозам среду, повышая безопасность бизнеса.

***Ключевые слова:*** *инсайдерские атаки, фишинг, модель Zero Trust, кейлоггер, резервное копирование, ПО для получения (кражи) данных аккаунтов в социальных сетях*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.020

# RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR
# DIGITAL PUBLIC ADMINISTRATION AND INTELLIGENT SYSTEMS

UOT 354

**ZÜMRÜD SÜLEYMANOVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının müəllimi**

*e-mail: zumrud.suleymanova@dia.edu.az*

**ŞƏFƏQ MUSTAFAYEVA**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının baş müəllimi**

*e-mail: shemus26@yandex.ru*

## İNFORMASİYA TEXNOLOGİYALARININ SOSİAL MÜNASİBƏTLƏRDƏ ROLU

Rəqəmsal texnologiyanın sürətli inkişafı rəqəmsal bir cəmiyyətin yaranmasına səbəb olmuş, insan davranışlarını praktikliyə və səmərəliliyə üstünlük verməyə yönəltmiş və sosial münasibətlərə həm müsbət, həm də mənfi təsirlər göstərmişdir. Bu təsirlərin incəliklərini araşdırmaq, texnologiyanın faydalarından maksimum istifadə edərkən mümkün mənfi tərəflərini minimuma endirmək baxımından vacibdir. Günümüzdə informasiyaya əlçatanlığı mümkün edən cihazların ölçülərinin kiçilməsi və internetə simsiz qoşulma imkanı hər kəsə zamandan və məkandan asılı olmadan internetə çıxış imkanı yaratmışdır. İnternetə çıxışla bağlı məhdudiyyətlərin aradan qaldırılması müsbət inkişaf kimi qiymətləndirilir. Lakin digər tərəfdən sosial təcrid, kiber zorakılıq, məxfilik və təhlükəsizliklə bağlı narahatlıqlar, qeyri-verbal ünsiyyətin dəyişməsi kimi problemləri də bərabərində gətirib. Son onilliklərdə ünsiyyət texnologiyasının sürətli inkişafı, o cümlədən sosial medianın, ani mesajlaşmanın və video konfransın meydana gəlməsi sosial münasibətlərdə yeni bir qarşılıqlı əlaqə dövrünün başlanğıcını qoymuş, insanların münasibətləri qurma və davam etdirmə tərzini dəyişdirməklə yanaşı, ənənəvi üz-üzə ünsiyyət modellərində də dəyişikliklərə səbəb olmuşdur. Texnoloji yeniliklərin ünsiyyət mühitini dəyişdirməyə davam etdiyi bir şəraitdə, insanların və cəmiyyətin rəqəmsal dünya ilə şəxsi münasibətlərin mürəkkəbliyi arasındakı incə qarşılıqlı təsiri uğurla idarə etməsi üçün bu texnologiyaların sosial

münasibətlərin dinamikasına təsirini dərindən anlamaq mühüm əhəmiyyət kəsb edir.

## Tarixi baxış

Sosial əlaqələr həmişə dinamik olub müxtəlif mədəni, texnoloji və iqtisadi amillərin təsiri altında formalaşıb. Kiçik, sıx əlaqəli cəmiyyətlərdə üz-üzə qarşılaşmalar ünsiyyətin ən qədim formalarını təşkil edirdi. Yazı dilinin meydana çıxması cəmiyyətlərin məsafələrarası ünsiyyət qurmasına və məlumatları qoruyub saxlamasına imkan yaratdı. XV əsrdə çap maşınının icadı insanlıq tarixində mühüm dönüş nöqtəsi oldu, intellektual qarşılıqlı əlaqələri təşviq etdi və məlumatlara çıxışı demokratikləşdirdi. XIX əsrdə telefonun icadı ünsiyyətə mühüm təsir edən texnoloji kəşflərdən oldu. XX əsrdə radio və televiziya kimi kütləvi informasiya vasitələrinin geniş yayılması ictimai rəyi və sosial normaları formalaşdırdı. Lakin rəqəmsal inqilab sosial münasibətləri əsaslı şəkildə yalnız XX əsrin sonları və XXI əsrin əvvəllərində dəyişdirdi [2].

Fərdi kompüterlərin, daha sonra isə smartfonların ortaya çıxması və internetin geniş yayılması qlobal ünsiyyəti mümkün etdi. Texnoloji inkişaflarla yanaşı sosial münasibətlərin mahiyyəti də təkamül etdi. XXI əsrin əvvəllərində sosial media platformalarının meydana gəlməsi əsaslı bir dəyişiklik yaratdı və insanlara qlobal miqyasda əlaqə qurmaq, paylaşmaq və qarşılıqlı ünsiyyət imkanları təqdim etdi. Bu tarixi kontekst müasir texnologiyaların insanlararası münasibətlərin mürəkkəb quruluşuna necə təsir etdiyini dəyərləndirməyə əsas yaradır [3].

## Texnologiyanın sosial münasibətlərə müsbət təsirləri

Müasir dövrdə texnologiyanın inteqrasiyası sosial münasibətlər sahəsində şübhəsiz ki, müsbət dəyişikliklər yaradıb. İlk növbədə, texnologiya qlobal əlaqələri tamamilə dəyişdirərək coğrafi sərhədləri aradan qaldırıb və insanlara fərqli mənşə və baxış bucaqlarına malik insanlarla ünsiyyət qurmaq imkanı yaradıb. Sosial media, ani mesajlaşma və video konfranslar vasitəsilə virtual körpülər qurulub və bu da qlobal əlaqə hissini gücləndirib. Biz əvvəlkindən daha geniş auditoriyaya çatmaq imkanına malik olmuşuq. Yeni və inkişaf etməkdə olan texnologiyalardan istifadə etməklə biz ideya və təcrübələrimizi daha səmərəli şəkildə bölüşə, fiziki olaraq səyahət etmədən dünyanın müxtəlif yerlərindəki iş yoldaşlarımızla virtual görüşlər keçirə bilirik. Bu isə vaxt, pul və enerji qənaəti ilə yanaşı, uzaqdan işləyən komandalar üçün səmərəli əməkdaşlıq imkanı da təmin edir. Bu artan əlaqəlilik sosial dairələri genişləndirməklə yanaşı, daha inklüziv və qlobal şüura malik bir cəmiyyətin formalaşmasına töhfə verir. Danılmazdır ki, texnologiya ünsiyyəti asanlaşdırır, informasiyaya çıxışı artırır, uzaq məsafəli münasibətləri qorumağı mümkün edir və icma inkişafını təşviq edir [4].

Rəqəmsal dövr bilikləri hamı üçün daha əlçatan edib və insanlara müxtəlif mövzularda məlumatlı və aktiv qalmaq imkanı yaradıb. Onlayn platformalar vasitəsilə istifadəçilər geniş bilik mənbələrinə çıxış əldə edir, bu da davamlı təhsil və intellektual inkişaf üçün yeni imkanlar yaradır. Məlumatın demokratikləşdirilməsi prosesi hər kəsə müzakirələrdə iştirak etmək imkanı yaradır və bunun nəticəsində daha əlaqəli və bilik əsaslı qlobal cəmiyyətin formalaşmasına töhfə verir. Virtual tədbirlərə qatılmaq, real vaxt rejimində təcrübələri bölüşmək və coğrafi sərhədləri aşmaq imkanı münasibətləri daha da möhkəmləndirib [5].

Texnologiya, oxşar düşüncəyə malik insanlara bir araya gəlmək və ortaq maraqlarını müzakirə etmək imkanı yaradaraq icmaların inkişafını təşviq edir. Forumlar, sosial şəbəkələr və əməkdaşlıq platformaları vasitəsilə onlayn icmalar formalaşa bilər ki, bu da ənənəvi oflayn mühitlərdə mümkün olmayan əlaqələrin qurulmasına şərait yaradır. İnsanlara qarşılıqlı ünsiyyət, fikir mübadiləsi və bir-birinə dəstək olmaq üçün mühit yaradan bu virtual icmalar, onlarda birlik və ortaq kimlik hissinin formalaşmasına kömək edir. Nəticə olaraq, onlayn

icmaların formalaşması, qlobal əlaqələrin güclənməsi, məlumatın daha əlçatan olması və uzaq məsafəli münasibətlərin asanlaşması texnologiyanın sosial əlaqələrə müsbət təsirinin nümunələridir. Bu faydalı cəhətləri qəbul edərək və mümkün çatışmazlıqların fərqində olaraq, texnologiyanın müasir sosial münasibətlərə müsbət təsirini davam etdirməsi təmin oluna bilər.

## Texnologiyanın sosial münasibətlərə mənfi təsirləri

Texnologiya sosial münasibətləri əhəmiyyətli dərəcədə yaxşılaşdırsa da, nəzərə alınmalı və həll edilməli olan mənfi təsirlər də mövcuddur. Bu sahədə əsas narahatlıqlardan biri rəqəmsal mediadan həddindən artıq istifadə nəticəsində artan sosial təcrid hissi və ailə münasibətlərinin zəifləməsidir.

Cədvəldə dünyanın aparıcı statistik məlumat platformalarından biri olan "Statista"nın verdiyi proqnozlara görə 2024-cü ildə dünya üzrə beş milyarddan çox insan sosial mediadan istifadə edirdi və bu rəqəmin 2028-ci ildə altı milyardı keçəcəyi proqnozlaşdırılır. Sosial media gündəlik internet istifadəsinin ayrılmaz bir hissəsinə çevrilib. Orta hesabla, internet istifadəçiləri gündə 151 dəqiqə sosial media və mesajlaşma tətbiqlərində vaxt keçirir ki, bu da 2015-ci ildən bəri 40 dəqiqə artım deməkdir [6].

Cədvəldə 2022–2028-ci illər üzrə sosial media istifadəçilərinin sayının dinamikası əsasında aparılan hesablamalar göstərir ki, təhlil dövründə istifadəçi sayı ümumilikdə 1,46 milyard nəfər artmışdır. Bu dəyişmə illər üzrə qeydə alınan fərqləri nəzərə alaraq orta mütləq artımın hər il təxminən 0,24 milyard nəfər (yəni 240 milyon nəfər) təşkil etdiyini göstərir.

$$\overline{Y} = \frac{Y_n - Y_1}{n-1} = \frac{6{,}05-4{,}59}{6} = 0{,}24$$

Beləliklə, orta hesabla hər il qlobal səviyyədə bu qədər yeni istifadəçi sosial media platformalarına qoşulmuşdur.

Statistika göstərir ki, hər il əvvəlki ilə nisbətən sosial şəbəkələrdə daha çox vaxt keçirilməkdədir. Ünsiyyətimiz, məlumat əldə etmə üsullarımız asanlaşsa da, ümumi mənzərədə bu prosesləri tək həyata keçiririk. Hər yeni media, sosial mənada insanlara yeni

**Cədvəl.**

Qlobal sosial media istifadəçi sayı (milyard nəfər) 2022-2028

| Dövr | Sosial media istifadəçilərinin sayı (milyard nəfər) | Mütləq artım | Artım tempi (%) |
|---|---|---|---|
| 2022 | 4,59 | - | - |
| 2023 | 4,9 | 0.31 | 6.76 |
| 2024 | 5,17 | 0.27 | 5,51 |
| 2025 | 5,42 | 0,25 | 4,84 |
| 2026 | 5,65 | 0.23 | 4,24 |
| 2027 | 5,85 | 0,2 | 3,54 |
| 2028 | 6,05 | 0,2 | 3,42 |




**Şəkil.** Texnologiyanın sosial münasibətlərə mənfi təsirləri

dəyərlər qataraq, insanların yeni mədəniyyətlərə uyğunlaşmasına və bu yeni dəyərlərə görə formalaşmasına imkan yaradır. Beləliklə, insan yeni dəyərlərə uyğunlaşarkən, köhnə dəyərlərindən uzaqlaşır. Sosial mediada zamanın böyük bir hissəsini keçirən fərd zaman keçdikcə real münasibətlərini minimuma endirir, ətrafına qarşı yadlaşır. Artan bağlılıq və sosial təcridin paradoksal şəkildə bir arada mövcud olması, texnologiyanın insan münasibətləri üzərindəki təsirini dərindən anlamağın vacibliyini göstərir.

Ünsiyyət texnologiyalarının geniş yayılmış inteqrasiyası, insanların virtual mühitdə qarşılıqlı əlaqəsini inqilabi şəkildə dəyişdirməklə yanaşı, üz-üzə və qeyri-verbal ünsiyyətə də dərin təsir göstərib. Smartfonlar və digər rəqəmsal cihazların geniş yayılması nəticəsində üz-üzə ünsiyyət yeni bir məna kəsb edib. İnsanlar indi rəqəmsal ünsiyyət ilə üz-üzə ünsiyyət arasında balans tapmaqda çətinlik çəkirlər. İnsanların yemək zamanı, söhbətlərdə və digər sosial vəziyyətlərdə cihazlarını yoxlaması, "rəqəmsal yayındırmalar" adlanan və getdikcə geniş yayılmış bir fenomenə çevrilib. Bu yayındırmalar, diqqət aralığını qısaltmaqla yanaşı, üz-üzə ünsiyyətin keyfiyyətini azaldır, laqeydlik və uzaqlaşma hisslərini daha da gücləndirə bilir. Digər tərəfdən məlumdur ki, ənənəvi ünsiyyət tərzi əsasən bədən dili, səs tonu və mimikalara əsaslanır. Lakin rəqəmsal mühitdə özünüifadə zamanı bu kimi incəliklər düzgün əks etdirilmir, bu isə çox zaman yanlış anlaşılmalara səbəb ola bilir.

Kiber zorakılıq və onlayn təqib texnologiyanın insan münasibətlərinə mənfi təsirinin başqa bir ciddi aspektini təşkil edir. Rəqəmsal platformalar insanlara anonimlik imkanı yaradaraq təhqir etmək, hədələmək və ya başqalarını kənarlaşdırmaq kimi zərərli davranışlarla məşğul olmağa şərait yarada bilər. Bu cür mənfi onlayn qarşılaşmaların artması emosional gərginliyə səbəb ola, həm onlayn, həm də oflayn sosial mühitlərdə mövcud olması lazım olan təhlükəsizlik və rifah hissini zəiflədə bilər.

Texnologiyanın psixi sağlamlığa təsiri ilə bağlı narahatlıq artır, çünki araşdırmalar uzun müddət ekran qarşısında qalmağın depressiya və narahatlıq kimi problemlərlə əlaqəli olduğunu göstərir. Sosial müqayisələr, diqqətlə formalaşdırılmış onlayn kimliklərə davamlı məruz qalma stress səviyyəsini artırır. Bundan əlavə, rəqəmsal dövrdə məlumatların sürətli yayılması, məxfilik və təhlükəsizliyin azalması bir sıra etik və sosial dilemmalar yaradır. Sosial media, onlayn əməliyyatlar və nəzarət texnologiyaları vasitəsilə şəxsi məlumatların

toplanması və paylaşılması insanların məxfiliyini təhlükə altında qoyur. Bu gün hər bir insan başqalarının hesablarından onların həyatına dair bir çox təfərrüatları asanlıqla tapa bilir. Rəqəmsal əlaqələrə etimadı qorumaq və insanların onlayn ünsiyyətdə özlərini rahat hiss etmələrini təmin etmək üçün texnologiyanın etik istifadəsinə və məlumatların mühafizəsinə ehtiyac duyulur. Buna görə də, texnologiyanın üstünlükləri ilə etik və sosial amilləri balanslaşdırmaq, onun sosial münasibətlərə olan mənfi təsirini azaltmaq, kiberbullinq, sosial təcrid, mental sağlamlığa mənfi təsirlər, təhlükəsizlik və məxfiliyin azalması kimi çatışmazlıqlarla mübarizə aparmaq vacibdir.

## Nəticələr və gələcək perspektivlər

Texnologiyanın sürətli inkişafının sosial münasibətlərə gələcək təsirləri həm mürəkkəb, həm də maraqlıdır. Yeni texnologiyaların inteqrasiyası cəmiyyətin fəaliyyət proseslərini köklü şəkildə dəyişdirmə potensialına malikdir. Əşyaların interneti (IoT), virtual reallıq (VR) və süni intellekt (AI) insanların gələcəkdə qarşılıqlı əlaqə qurma tərzini formalaşdıran əsas amillərdən olacaq. Süni intellektin məlumatları təhlil etmə və proqnozlaşdırıcı alqoritmlər yaratma qabiliyyəti istifadəçilərin maraqlarına əsasən tövsiyələr verərək fərdiləşdirilmiş sosial media təcrübələrini yaxşılaşdırmaq potensialına malikdir. Virtual reallıq coğrafi sərhədləri aşan və istifadəçilərə virtual mühitlərdə varlıq hissi verən immersiv sosial qarşılıqlı əlaqələr yarada bilər. Əşyaların interneti isə texnologiyanı gündəlik həyata inteqrasiya edərək üz-üzə ünsiyyəti gücləndirən şəbəkələşmiş mühitlər yaratmaq potensialına malikdir. Lakin bu texnologiyaların inteqrasiyası eyni zamanda alqoritmik qərəz, məlumat məxfiliyi və onlayn qarşılıqlı əlaqələrdə şəxssizləşmə kimi etik və sosial məsələləri də gündəmə gətirir. Bu texnologiyaların sosial münasibətlərə doğru inteqrasiyası üçün onların etik aspektlərinin araşdırılması, maarifləndirmə və tənzimləmə işləri də prioritet olmalıdır. [7].

Sosial münasibətlərin gələcəyini proqnozlaşdırmaq üçün cəmiyyətdəki davamlı dəyişiklikləri anlamaq vacibdir. Mövcud tendensiyalar getdikcə rəqəmsallaşan və bir-biri ilə əlaqəli olan mühitdə onlayn və oflayn təcrübələrin bir-birinə qarışdığı bir dünyaya işarə edir. İnsanlar rəqəmsal etiketin çətinliklərini idarə etməyi öyrəndikcə, gələcəkdə sosial normalar yenidən formalaşa bilər. Sosial münasibətlərin müsbət istiqamətdə davam etməsini təmin etmək üçün rəqəmsal asılılıq, dezinformasiya və məlumat təhlükəsizliyi kimi məsələlər həll edilməlidir.

Rəqəmsal savadlılıq, rəqəmsal etiket və qanunvericilik çərçivələri sahəsində atılan proaktiv addımlar texnologiyanın insan əlaqələrini zənginləşdirdiyi bir gələcəyin formalaşmasına kömək edə bilər. Əsas etibarilə, gələcəkdə insanların necə ünsiyyət qurması texnologiyanın nə qədər sürətlə inkişaf etməsindən, cəmiyyətin necə dəyişməsindən və bizim bu dəyişən mühitdə necə irəliləməyə qərar verməyimizdən asılı olacaq. Texnologiya inkişaf etdikcə, onun sosial münasibətlərə təsirlərini idarə etmək üçün birgə çalışmalı və insanların münasibətlərini və rifahını ön planda saxlayan bir rəqəmsal dünya yaradılmalıdır. Gələcək araşdırmalar sosial münasibətlər və texnologiya arasındakı mürəkkəb münasibətləri daha dərindən anlamaq üçün bir sıra istiqamətlərdə irəliləyə bilər. Onlayn qarşılıqlı əlaqələrin inkişafını və onların zamanla nəticələrini izləyən tədqiqatlar texnologiyanın uzunmüddətli təsirləri barədə mühüm anlayışlar verə bilər.

Nəticələr insan əlaqələrinin dərinliyini azaltmaq əvəzinə, ona töhfə verən sağlam rəqəmsal mühitlərin yaradılmasının əhəmiyyətini, texnologiyanı sosial həyatımıza düşünülmüş və balanslı şəkildə inteqrasiya etməyin vacibliyini ön plana çıxarır. Sosial münasibətlərin gələcəyini pozitiv istiqamətdə formalaşdırmaq üçün inkişaf edən texnologiyanın üstünlükləri ilə insan mərkəzli dəyərlərin qorunması arasında tarazlıq yaratmaq, cəmiyyətdəki davamlı dəyişiklikləri anlamaq vacibdir.

**Ədəbiyyat:**


1. Mammadov N., Huseyn A., İskandarov N. Characteristics of Human-Computer Interaction During Teaching And Learning International eastern conference on human-computer interaction IECHCI2022 · Sep 9, 2022, Nakhchivan, Azerbaijan
2. A Primer on Communication. Chapter 15. https://2012books.lardbucket.org/books/a-primer-on-communication-studies/s15-media-technology-and-communica.html
3. Technium Social Sciences Journal, Vol. II,417-426, September 2020
4. The Positive & Negative Impacts Of Social Media On Our New Generation, Khaama Press – Wed, Nov 19 2014, https://www.khaama.com/the-positive-negative-impacts-of-social-media-on-our-new-generation-9025/
5. Social Media Index Valuation: Impact of Technological, Social, Economic, and Ethical Dimensions, Amit Arora, Anshu Saxena Arora & Shailendra Palvia Pages 328-344
6. https://www.statista.com/statistics/278414/number-of-worldwide-social-network-users/
7. Sobhani S.R., Armaghan N., Haghir S. and Garmaroodi A.A. The Impact of Interactive technology by using Artificial Intelligence on the Formation of Social Interactions: A Study in Tourism Industry 4.0 // 2022 IEEE 28th International Conference on Engineering, Technology and Innovation (ICE/ITMC) & 31st International Association For Management of Technology (IAMOT) Joint Conference, Nancy, France, 2022, pp. 1-7, doi: 10.1109/ICE/ITMC-IAMOT55089.2022.10033162.


***Açar sözlər:*** *texnologiya, sosial münasibətlər, kiber zorakılıq, sosial izolyasiya, informasiya təhlükəsizliyi*

**Zumrud Suleymanova**

*Teacher of the Department of Information Technologies in Public Administration of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

**Shafag Mustafayeva**

*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan The Department of Information Technologies in Public Administration Senior teacher*

# THE ROLE OF INFORMATION TECHNOLOGIES IN SOCIAL RELATIONS

## ABSTRACT

The rapid development of digital technologies has profoundly transformed the nature of social interactions and communication patterns in modern society. This article examines the dual role of information technologies in shaping social relationships by analyzing both their positive and negative implications. It highlights how innovations such as social media, instant messaging, and video conferencing have facilitated global connectivity, enhanced access to information, and created new opportunities for interpersonal and intercultural communication. At the same time, the study discusses the growing challenges of social isolation, cyberbullying, data privacy concerns, and the decline of face-to-face communication quality.

Through a historical overview and thematic analysis, the paper explores the evolution of social interaction from traditional face-to-face communication to digitally mediated relationships. It underscores the importance of digital literacy, ethical technology use, and online etiquette in maintaining healthy and sustainable social ties. Furthermore, the article assesses the potential future impact of emerging technologies such as Artificial Intelligence (AI), Virtual Reality (VR), and the Internet of Things (IoT) on social structures and human behavior.

The findings emphasize that while technology enhances global communication and collaboration, it also requires conscious regulation and education to mitigate its adverse social effects. Achieving a balance between technological advancement and human-centered values is crucial for ensuring that digital transformation contributes positively to individual well-being and collective social development.

***Keywords:*** *technology, social relationships, cyberbullying, social isolation, data security*

**Зюмрюд Сулейманова**

*Преподаватель кафедры Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

**Шафаг Мустафаева**

*Старший преподаватель кафедры Информационных технологий в государственном управлении Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# РОЛЬ ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ОБЩЕСТВЕННЫХ ОТНОШЕНИЯХ

## РЕЗЮМЕ

Быстрое развитие цифровых технологий радикально изменило характер социальных взаимодействий и моделей коммуникации в современном обществе. В статье рассматривается двойственная роль информационных технологий в формировании социальных отношений, анализируются как их положительные, так и отрицательные последствия. Подчеркивается, что такие инновации, как социальные сети, мгновенные сообщения и видеоконференции, способствовали глобальной взаимосвязанности, расширили доступ к информации и создали новые возможности для межличностного и межкультурного общения. Вместе с тем исследование затрагивает растущие проблемы социальной изоляции, кибербуллинга, утечки персональных данных и снижения качества живого общения.

Посредством исторического анализа и тематического обзора в работе прослеживается эволюция социальных взаимодействий – от традиционной очной коммуникации до цифрово-опосредованных отношений. Особое внимание уделяется важности цифровой грамотности, этичного использования технологий и соблюдения норм онлайн-этикета для поддержания здоровых и устойчивых социальных связей. Кроме того, в статье оценивается потенциальное влияние новых технологий, таких как искусственный интеллект (AI), виртуальная реальность (VR) и Интернет вещей (IoT), на социальные структуры и поведение человека.

Результаты подчеркивают, что, несмотря на то что технологии усиливают глобальное общение и сотрудничество, они требуют осознанного регулирования и образовательных мер для снижения их негативного социального воздействия. Баланс между технологическим прогрессом и гуманистическими ценностями является ключевым условием того, чтобы цифровая трансформация способствовала не только техническому, но и социальному развитию общества.

***Ключевые слова:*** *технологии, социальные отношения, кибербуллинг, социальная изоляция, информационная безопасность*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.022

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327(4/9);930.22(4/9); 327; 351.78; 504.4/8; 614.8

**BƏXTİYAR NƏCƏFLİ**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantı**

*e-mail: bakhtiyarnajafli@gmail.com*

# QƏRBİ AVROPA ÖLKƏLƏRİNDƏ MİQRANT BÖHRANININ İSLAMOFOBİYANI TƏBLİĞ EDƏN KONSPİROLOJİ NƏZƏRİYYƏLƏRİN YARANMASINA TƏSİRİ

## Qərbi Avropa ölkələrində miqrant böhranı və onun səbəbləri

Müsəlmanların Qərbi Avropa ölkələrinə miqrasiyası tarixin müxtəlif mərhələlərində baş versə də o, kütləvi xarakter daşımırdı. Müsəlmanların bu ölkələrdən ilk dəfə kütləvi şəkildə immiqrasiya etdikləri ölkə Almaniya Federativ Respublikası (AFR) olmuşdur. II Dünya müharibəsindən sonra bu ölkəyə Türkiyə, Mərakeş və Tunisdən müsəlmanlar məqsədyönlü və kütləvi şəkildə gəlmişlər [2, s.6]. Onların Almaniyaya miqrasiyası bu ölkənin hökuməti tərəfindən "qastabaytə" (qastabaytə alman dilindən tərcümədə "gastarbeiter" qonaq-işçi deməkdir. - B.N.) proqramının qəbul olunması ilə bağlı idi. Belə ki, II Dünya müharibəsindən sonra 1950-1960-cı illərdə bu proqramla AFR bir neçə ölkə ilə (1955-ci ildə İtaliya ilə, 1960-cı ildə İspaniya və Yunanıstanla, 1961-ci ildə Türkiyə ilə, 1963-cü ildə Mərakeş və Cənubi Koreya ilə, 1964-cü ildə Portuqaliya ilə, 1965-ci ildə Tunislə, 1968-ci ildə Yuqoslaviya ilə) həmin ölkələrdən olan insanların Almaniya gəlib orada işləmələrinə dair ikitərəfli müqavilələr imzalamışdır. Sözügedən proqram 1973-cü ilədək davam etmişdir. 1955-1973-cü illər ərzində Almaniyaya 14 milyon miqrant gəlmişdir [4, s.22].

Əmək miqrantlarının aralarında müsəlmanlar, ilk növbədə türklər və ərəblər, çoxluq təşkil edirdilər. Bu, ilk növbədə müsəlmanların yaşadıqları ölkələrdə işsizliyin yüksək səviyyədə olması ilə və bunun təbii nəticəsi olaraq bu ölkələrdəki ağır sosial-iqtisadi vəziyyətlə bağlı idi. Müsəlman ölkələrinin başçıları ölkə vətəndaşlarının Qərb ölkələrinə miqrasiyalarını işsizliklə mübarizənin mühüm bir yolu hesab edərək ona lazımi dəstək verirdilər.

II Dünya müharibəsindən sonrakı dövrdə müsəlmanların kütləvi immiqrasiyası Almaniya ilə yanaşı Fransaya da olmuşdur. Ötən əsrin 60-cı illərinin sonu – 70-ci illərində

Fransanın Şimali Afrikadakı müstəmləkələrindən (Əlcəzair, Mərakeş və Tunis) bu ölkəyə əmək miqrantları kimi milyonlarla müsəlman köçmüşdür. Düzdür, XX əsrin ikinci yarısında müsəlmanlar Almaniya və Fransa ilə yanaşı Böyük Britaniyaya, İsveçrəyə, İtaliyaya, İspaniya və digər Qərb ölkələrinə immiqrasiya edirdilər. Lakin qeyd olunan ölkələrə müsəlmanların immiqrasiyası kütləvi xarakter daşımırdı.

Müsəlmanların Qərbi Avropa ölkələrinə növbəti kütləvi immiqrasiyası 2011-ci ildən sonrakı dövrə təsadüf edir. Qeyd olunan dövrədək Qərbi Avropa ölkələrində məskunlaşmaq üçün müxtəlif ölkələrin, xüsusilə iqtisadi cəhətdən zəif ölkələrin vətəndaşları müraciət edirdilər. Onların müraciətlərinə bu ölkələrdə mövcud qanunvericilik çərçivəsində baxılırdı. Bu səbəbdən Qərbi Avropa ölkələrinə immiqrasiya prosesi kütləvi və idarəolunmaz şəkildə baş vermirdi. Bu ölkələr immiqrasiyanı tənzimləyirdilər. Bundan başqa Qərbi Avropa ölkələri məqsədyönlü şəkildə apardığı immiqrasiya siyasətindən hətta müəyyən dərəcədə bəhrələnirdilər. Belə ki, immiqrantın ölkədə məskunlaşmaqla bağlı ərizələrinə baxdıqda immiqrasiya siyasəti üstünlüyü ölkədə tələbat olan işlə məşğul ola biləcək immiqranta verirdi. Təbii ki, yüksək ixtisaslı kadrların seçilməsinə bu siyasət xüsusi önəm verirdi. Başqa sözlə desək, Qərbi Avropa dövlətlərinin 2011-ci ilədək apardıqları immiqrasiya siyasəti onların milli maraqlarına uyğun aparılırdı.

2011-ci ildən sonra Qərbi Avropa ölkələrinə immiqrasiya ilə bağlı vəziyyət kəskin şəkildə dəyişməyə başlayır. Belə ki, bir neçə Yaxın Şərq, Şimali Afrika, Cənubi və Qərbi Asiya ölkələrində vətəndaş müharibələri, silahlı toqquşmalar baş verir. Bu ölkələrdən çoxlu sayda insan sığınacaq tapmaq məqsədilə kütləvi şəkildə Avropa ölkələrinə qaçırlar. Nəticədə Qərbi Avropa ölkələri idarəolunmaz immiqrasiya ilə üzləşir. Çünki yeni tarixi şəraitdə Qərbi Avropa dövlətləri miqrasiya siyasətini həyata keçirməkdə ciddi problemlərlə üzləşir. Burada əsas problem ondan ibarətdir ki, yeni durumda artıq bu dövlətlər immiqrasiya siyasətini özünün milli maraqlarına uyğun apara bilmir. Daha konkret desək, immiqratların Qərbi Avropa ölkələrinə kütləvi şəkildə axını nəticəsində yerli hökumət dairələri immiqrantlar arasında məqsədyönlü və planlı şəkildə seçim edə bilmir. Qərbi Avropa ölkələrinə qeyri-qanuni yolla daxil olan immiqrantların əksəriyyətinin təhsilləri aşağı səviyyədədir.

Qərbi Avropa ölkələrinə birinci kütləvi immiqrasiyada olduğu kimi müasir dövrü əhatə edən kütləvi immiqrasiyada da qaçqınların əksəriyyətini müsəlmanlar təşkil edirlər. Bu iki kütləvi immiqrasiyanın qeyd olunan oxşar cəhəti ilə yanaşı fərqli cəhəti də vardır. Birinci kütləvi immiqrasiyadan fərqli olaraq müasir dövrü əhatə edən kütləvi immiqrasiya kulminasiya həddinə çatmaqla 2015-ci ilin payızında miqrant böhranının başlanmasına səbəb olmuşdur. Miqrant böhranının əsas göstəricisi 2015-ci ildən bəri Qərbi Avropa ölkələrinə gələn qaçqınların sayının ildən-ilə artmasıdır. Bütün Qərbi Avropa ölkələrini bürümüş bu fəlakətli humanitar böhran indiyədək davam edir.

Qərbi Avropa ölkələrini bürümüş miqrant böhranının səbəbləri tərk olunan regionlarda baş verən silahlı münaqişələr, iqtisadi çətinliklər, insan hüquqlarının pozulması və iqlim dəyişikliyi ilə bağlıdır.

Qeyd olunan 4 səbəbdən müasir dövr üçün ən əsası silahlı münaqişələrlə bağlı olan səbəbdir. Çünki Yaxın Şərqdə, Şimali Afrikada və digər regionlarda baş verən silahlı toqquşmalar həmin regionların mülki əhalisini yaşadıqları yerləri tərk etməyə vadar edərək onların kütləvi şəkildə Avropa ölkələrinə qaçmalarına səbəb olmuşdur. Başqa sözlə desək, silahlı toqquşmalar immiqrasiyanın kütləviliyini təmin etməklə miqrant böhranının yaranmasında əsas səbəb kimi çıxış etmişdir.

Miqrant böhranının yaranmasında siyasi münaqişələrlə yanaşı iqtisadi çətinliklər də

mühüm rol oynamışdır. Məlum olduğu kimi, iqtisadi çətinliklər tarixin bütün mərhələlərində insanların kasıb ölkələrdən zəngin ölkələrə köçmələrinin əsas səbəblərindən biri kimi çıxış edir. Düzdür, silahlı münaqişələr zamanı iqtisadi çətinliklər bir qədər arxa plana çəkilir. Lakin iqtisadi çətinliklər sabit səbəb kimi silahlı münaqişələr zamanı da miqrasiya proseslərində öz rolunu göstərir. İnkişafda olan ölkələrdən inkişaf etmiş ölkələrə iqtisadi çətinliklər səbəbindən immiqrasiya miqrant böhranın mühüm səbəbi kimi özünü müasir dövrdə göstərməkdədir.

Miqrant böhranının digər 2 səbəbi olan insanların hüquqlarının pozulmasının və iqlim dəyişikliyinin əhəmiyyəti son zamanlarda artmaqdadır. Bu, qeyd olunan məsələlərin müasir dövrdə aktuallıqlarının artması ilə bağlıdır. Məsələn, iqlim dəyişikliyi qlobal bir problem olaraq bütün ölkələrin inkişafını təhdid edir. Onun mənfi nəticələri özünü qlobal istiləşmə, atmosferin çirklənməsi, içməli su mənbələrinin azalması, biomüxtəlifliyin tükənməsi, torpağın eroziyası və digər bu kimi problemlərdə büruzə verir. İqlim dəyişikliyinin qeyd olunan və digər mənfi fəsadları ilə mübarizə aparmaq üçün böyük maliyyə xərcləri tələb olunur. İqtisadi cəhətdən zəif ölkələrdə maliyyə qıtlığı səbəbindən iqlim dəyişikliyinin mənfi fəsadları özünü daha qabarıq şəkildə bu ölkələrdə göstərir. Buna görə də bu ölkələrdən yerli əhali “iqlim qaçqınları” və ya “ekoloji böhran qaçqınları” adı altında yaşadıqları əraziləri tərk edərək Qərb ölkələrinə üz tuturlar. Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının 2021-ci ilin aprel ayında dərc etdirdiyi məlumatına əsasən, hazırda dünyada 21,5 milyon iqlim qaçqını vardır [6].

Yuxarıda qeyd etdiyimiz kimi, hər iki kütləvi immiqrasiyada Qərbi Avropa ölkələrinə gəlmiş immiqrantların əksəriyyəti müsəlmanlar təşkil edirdi. Ümumiyyətlə, müasir dövrdə Qərb ölkələrində müsəlmanların sayı durmadan artır. Təbii ki, bunun əsas səbəbi bu ölkələrə çoxlu sayda müsəlmanların qaçqın və adi miqrant kimi gəlmələri ilə bağlıdır. Lakin müsəlmanların sayının artması təkcə immiqrasiya ilə bağlı deyil. Bunun daha iki səbəbi vardır. Birincisi, müsəlmanlar arasında gənc nəslin sayının çox olması. İkincisi, müsəlmanlar arasında doğum səviyyəsinin yüksək olması.

### İslamofobiyanı təbliğ edən konspiroloji nəzəriyyələr

Müasir dövrdə müsəlmanların Qərbi Avropa ölkələrinə kütləvi şəkildə immiqrasiya etmələri bu ölkələrdə miqrant böhranına səbəb olmaqla islamofobiyanın yayılması üçün əlverişli şərait yaradır. Bu ölkələrdə islamofobiyanın yayılmasının əsas göstəricilərindən biri islamofobiyanı təbliğ edən konspiroloji nəzəriyyələrdir. Bu nəzəriyyələr yerli əhalinin ictimai şüurunda geniş yayılır. İslamofobiyanı təbliğ edən əsas konspiroloji nəzəriyyələrdən aşağıdakıları göstərmək olar: Tilo Sarratsinin konspiroloji nəzəriyyəsi; Böyük Yerdəyişmə konspiroloji nəzəriyyəsi; Avrabia konspiroloji nəzəriyyəsi.

#### *Tilo Sarratsinin konspiroloji nəzəriyyəsi*

Publisist və sabiq almaniyalı siyasətçi, vaxtilə Berlin şəhərinin senatoru olmuş Tilo Sarratsin 2010-ci ildə islamofob ideyalarla dolu dərc etdirdiyi “Almaniya özünü ləğv edir: Ölkəmizi necə riskə atırıq” adlı monoqrafiyasında hökumətin miqrasiya siyasətini tənqid edərək müsəlmanların Almaniyaya immiqrasiyasına olduqca tənqidi münasibət nümayiş etdirir. Onun gəldiyi əsas qənaət ondan ibarətdir ki, müsəlmanların Almaniyaya immiqrasiya etmələri ölkəni uçuruma aparır, onun inkişafının qarşısını alır [5].

Sarratsin hesab edir ki, müsəlmanların Almaniyaya gəlmələri almanların mədəniyyətinə, milli kimliyinə xələl gətirir. Bununla bağlı o, aşağıdakıları qeyd edir: “Mənim üçün vacibdir ki, Avropa Qərbi Avropa torpağı kimi, Al-

maniya isə alman dilinin ölkəsi kimi öz identikliyini qoruyub saxlasın. ... Çox istərdim ki, nəvələrim 100 ildən sonra da Almaniyada yaşaya bilsinlər. İstəməzdim ki, nəvələrimin və nəticələrimin ölkəsi müsəlmanların çoxluq təşkil etdiyi, hər yerdə türk və ərəb dillərinin danışıldığı, qadınların hicablı olduğu, günün ritminin müəzzinin çağırışları ilə müəyyənləşdiyi bir ölkə olsun" [5, s.270-271].

Sarratsinin müsəlmanlara qarşı əsas iradı ondan ibarətdir ki, onlar alman cəmiyyətinə inteqrasiya olunmaq istəmirlər. Bununla əlaqədar Sarratsin yazır: "İnteqrasiya problemlərinin əsasını keçmiş Yuqoslaviya, Türkiyə və ərəb ölkələrindən gələnlər təşkil edirlər. İnteqrasiyanın onlar üçün digər immiqrantlardan daha çətin olmasının heç bir bəlli səbəbi yoxdur. Onların məktəb sistemində, əmək bazarında və bütövlükdə cəmiyyətdə üzləşdikləri çətinliklər cəmiyyətdən deyil, qrupların özlərindən qaynaqlanır" [5, s.56].

Müsəlmanların məskunlaşdıqları cəmiyyətə inteqrasiya olunmaq istəməmələri "paralel cəmiyyət"in yaranmasına səbəb olur. "Paralel cəmiyyət" fenomeni Almaniyanın sosial-iqtisadi inkişafının qarşısını alır. Müsəlmanların yüksək doğum səviyyəsinə malik olmaları "paralel cəmiyyətin" miqyasını artırmaqla ölkənin inkişafının daha da çətinləşdirir.

Əhali arasında doğum səviyyəsini artırmaq üçün Almaniya hökuməti müəyyən şirnikləndirici təkliflər edir. Lakin bundan daha çox müsəlmanlar faydalanırlar. Belə ki, müsəlman qadınlarının əksəriyyətinin evdar olması onları daha çox uşaq doğmağa yönəldir. Məhz bununla onlar daha çox sosial müavinətə sahib olmaq imkanını əldə edirlər. Bu məsələ ilə bağlı Sarratsin monoqrafiyasında yazır: "Almaniyadakı ərəblər arasında daha çox sosial müavinət əldə etmək üçün daha çox uşağa sahib olmaq tendensiyası geniş yayılmışdır. Günlərini evlərində keçirən qadınların uşaq doğmaqdan daha yaxşı seçimi yoxdur" [5, s.165]. Müsəlmanlar arasında müşahidə olunan yüksək doğum səviyyəsi onların yaşadıqları cəmiyyətə inteqrasiya olunmalarını daha da çətinləşdirir. Çünki daha çox uşaq dünyaya gətirməklə müsəlmanlar hökumətdən aldıqları müavinətlərlə uşaqlarının tərbiyəsi ilə məşğul olurlar. Nəticədə onlar təhsil səviyyələrinin inkişafına, cəmiyyətin fəal iştirakçısı olmalarına önəm vermirlər. Buna görə də müsəlmanların çoxunun təhsil və peşə səviyyələri aşağı olur, mədəniyyətləri isə alman mədəniyyətindən əsaslı şəkildə fərqlənir [5, s.319-325].

Sarratsin hesab edir ki, Almaniyanın immiqrasiya siyasətində müsəlmanlara münasibətdə elə ciddi dəyişikliklər həyata keçirilməlidir ki, bunun nəticəsində müsəlmanlar alman dilini öyrənsinlər, əmək fəaliyyətləri ilə özlərini təmin edə bilsinlər, uşaqlarının təhsil alacaqlarına kömək etsinlər, adət-ənənələrini alman xalqının milli-mənəvi dəyərlərinə uyğunlaşdıra bilsinlər. "Amma bizə milli azlıq lazım deyil. Kim türk və ya ərəb olaraq qalmaq istəyirsə və bunu övladları üçün də arzulayırsa, ona öz vətəninə qayıtmaq daha yaxşı olar. Və ilk növbədə alman sosial sisteminin üstünlükləri ilə maraqlananları isə biz ölkəmizdə heç görmək belə istəmirik" [5, s.285]. Əslində Sarratsinin müsəlmanlara verdiyi bu "tövsiyələr" onların alman cəmiyyətinə assimilyasiya olunmalarına yönəlmişdir.

Sarratsinin islamofob fikirləri müsəlman immiqrantlarla yanaşı İslam dininə sərt münasibətində də özünü büruzə verir. Belə ki, o hesab edir ki, İslam dini sülhü təbliğ etmir, Qərbə qarşı müqəddəs müharibə aparır, dinin dövlətdən ayrılması prinsipini qəbul etmir [5, s.238-239].

Sarratsin monoqrafiyasında irəli sürdüyü islamofob xarakterli fikirləri ilə Almaniyada bəzi sağçı qüvvələr tərəfindən xalq qəhrəmanı kimi təqdim olunur.

***Böyük Yerdəyişmə konspiroloji nəzəriyyəsi***

Qərbi Avropa ölkələrində islamofobiyanı təbliğ edən daha bir konspiroloji nəzəriyyə

"Böyük Yerdəyişmə" ("Le grand remplacement") nəzəriyyəsidir. Qərb ölkələrində geniş yayılmışdır. Niderlandlı politoloq İneke van der Valka görə, "Le grand remplacement" terminini 1960-cı illərində fransalı sağçı siyasətçi Reno Kamyu irəli sürmüşdür [3, s.118]. "Le grand remplacement" termini vasitəsilə Kamyu müsəlmanların Qərb ölkələrinə immiqrasiyası nəticəsində orada baş verən demoqrafik prosesləri xarakterizə edir. Qatı millətçi, islamofob mövqeyində duran Kamyu müsəlmanların Qərb ölkələrinə immiqrasiyasının qarşısını almağa çağırır. Çünki Qərbin etnik-mədəni dəyərlərinə zidd olan dəyərləri daşıyan müsəlmanlar Qərb kimliyini zəiflədirlər. Nəticədə İslam sivilizasiyası Qərb sivilizasiyasının yerini tutur, böyük yerdəyişmə baş verir. Bu təhlükənin qarşısını almaq üçün Kamyu immiqrasiya proseslərinin sərtləşdirilməsini təklif edir [3, s.118].

***Avrabia konspiroloji nəzəriyyəsi***

Avrabia (Avropa və Ərəbistan sözlərinin birləşməsini ifadə edən neologizmdir.- B.N.) konspiroloji nəzəriyyəsinin müəllifi yəhudi əsilli britaniyalı tarixçi Bat Yeordur. O, bu nəzəriyyənin əsas müddəalarını 2005-ci ildə dərc olunmuş "Avrasiya: Avro-Ərəb oxu" adlı kitabında irəli sürmüşdür.

Tilo Sarratsinin konspiroloji nəzəriyyəsindən və Böyük Yerdəyişmə konspiroloji nəzəriyyədən fərqli olaraq Avrabia nəzəriyyəsi bir islamofob konspiroloji nəzəriyyə kimi İslamın, müsəlmanların Qərb mədəniyyətinə yaratdığı təhlükəni tək immiqrasiya ilə əlaqələndirmir. Avrabia nəzəriyyəsi bunu Qərbi Avropanın aparıcı dövlətlərindən biri olan Fransanın xarici siyasəti ilə də bağlayır. Belə ki, bu nəzəriyyəyə əsasən, Fransanın və bir sıra varlı ərəb ölkələrinin başçılıq etdikləri qlobal səviyyədə fəaliyyət göstərən gizli qüvvələr Avropanı islamlaşdırmaq və ərəbləşdirmək məqsədini öz qarşılarına qoymuşlar. Bunu etməklə onlar, bir tərəfdən, Avropada Qərb mədəniyyətini zəiflədirlər, digər tərdən isə İslam mədəniyyətini yayırlar. Bu isə öz növbəsində Avropanın ABŞ və İsrailə əvvəlki sıx əlaqələrini zəiflədir. Avropanın islamlaşma prosesinin əsas təzahürləri müsəlmanların bura kütləvi şəkildə köçmələri və onların sayının artmasıdır. Avrabia nəzəriyyəsinə əsasən, müsəlmanların Avropaya immiqrasiyasının qarşısı alınmasa, yaxın gələcəkdə onlar Avropada çoxluq təşkil edəcəklər.

İslamofobiyanı təbliğ edən Tilo Sarratsinin konspiroloji nəzəriyyəsi, Böyük Yerdəyişmə və Avrabia nəzəriyyələri irqçiliyi və ayrı-seçkiliyi təbliğ edirlər. Onları təsadüfən konspiroloji nəzəriyyələr adlandırmırlar. Məlum olduğu kimi, konspiroloji nəzəriyyə müəyyən bir hadisəni və ya vəziyyəti gizli plan əsasında olacağına inamdır. Konspiroloji nəzəriyyə müəyyən bir qrup tərəfindən onun maraqlarına uyğun və məqsədyönlü şəkildə irəli sürülür. Daha çox inama, mifoloji fikrə əsaslanan konspiroloji nəzəriyyə rasional üsulla izah olunmur. Heç təsadüfi deyil ki, İneke van der Valk Böyük yerdəyişmə və Avrabia konspiroloji nəzəriyyələrini mif adlandırır [3, s.117].

İslamofobiyanın yayılmasının təzahür formaları kimi çıxış edən qeyd olunan konspiroloji nəzəriyyələrin tənqid edilməsi bir müsəlman ölkəsi olan Azərbaycan üçün çox əhəmiyyətlidir. Heç təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev islamofobiyaya qarşı mübarizəni ölkəmizin xarici siyasətinin yeni istiqaməti kimi təqdim etmişdir [1].

**Nəticə**

Beləliklə, müasir dövrdə Qərbi Avropa ölkələrinə müsəlmanların kütləvi şəkildə gəlmələri immiqrasiya prosesini idarəolunmaz, xaotik edərək bu ölkələrdə miqrant böhranının baş verməsinə səbəb olur. Miqrant böhranının əsas nəticələrindən biri bu ölkələrdə müsəlmanlara münasibətdə ayrı-seçkiliyi, dözümsüzlüyü və zorakılığı təbliğ edən islamofobiyanın yayılmasıdır. Bu ölkələrdə islamofobiyanın

yayılmasının əsas göstəricilərindən biri islamofobiyanı təbliğ edən Tilo Sarratsinin irəli sürdüyü konspiroloji nəzəriyyə, eləcə də Böyük Yerdəyişmə və Avrabia konspiroloji nəzəriyyələridir.

Bu konspiroloji nəzəriyyələr müxtəlif cür adlansalar da onların hər biri irqçiliyi, müsəlmanlara münasibətdə qorxunu, dözümsüzlüyü və nifrəti təbliğ edir. Bu nəzəriyyələri təbliğ edənlər müasir dövrdə Avropaya pənah gətirən immiqrantların əksəriyyətinin müsəlman olmaları faktını narahatlıqla qeyd edərək bunun Avropanın milli maraqlarına zidd olduğunu hesab edirlər. Onlar Avropanın və onun yerli sakinlərinin gələcəyini pessimist ruhda təsvir edirlər. Bu nəzəriyyələrdən irəli gələn immiqrasiyanın, xüsusilə də müsəlmanların immiqrasiyasının qarşısının alınması, remiqrasiya və islamofobiya kimi ideyalar sağçı siyasi qüvvələr tərəfindən geniş təbliğ olunur.

**Ədəbiyyat:**


1. Əliyev İlham. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi keçirilib. Dövlətimizin başçısı mərasimdə nitq söyləyib. 14.02.2024. https://azertag.az/xeber/azerbaycan_respublikasinin_prezidenti_ilham_eliyevin_andichme_merasimi_kechirilib__dovletimizin_baschisi_merasimde_nitq_soyleyib_yenilenib_4_video-2921563
2. Hernández Aguilar L. M. Dominant Islamophobic Narratives – Germany. Counter Islamophobia Kit Project. // Working Paper Number 2, July 2017, 46p.
3. Ineke van der Valk. The Myth of Great Replacement: Islamophobia meets anti-black racism. // Proceedings of the Conference titled: "Islamophobia as a specific form of racism and discrimination: New global and transnational challenges." Baku, March 15-16, 2023. p.118.
4. Кондратьева Т.С., Новожёнова И.С. Иммигранты в Европе: Модели интеграции // Актуальные проблемы современной Европы. Иммигранты Европы: проблемы социальной и культурной адаптации: сб. науч. тр. / Под ред. Т.Г.Парахлиной, Т.С. Кондратьевой, И.С. Новожёновой. М., 2006. № 1, с.9-59. / https://cyberleninka.ru/article/n/immigranty-v-evrope-modeli-integratsii/viewer
5. Саррацин Т. Германия: Самоликвидация. (перевод с немецкого языка) Москва: Рид Групп, 2012, 400 с. http://www.belousenko.com/books/publicism/sarrazin_germany.pdf
6. Tetsuji Ida. Climate refugees – the world's forgotten victims. World Economic Forum. 18 June, 2021. [Elektron resurs] // https://www.weforum.org/agenda/2021/06/climate-refugees-the-world-s-forgotten-victims


***Açar sözlər:*** *Qərbi Avropa ölkələri, miqrant böhranı, islamofobiya, konspiroloji nəzəriyyələr*

**Bakhtiyar Najafli**

*Doctoral Student of the Department of International Relations and Foreign Policy, Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# THE IMPACT OF THE MIGRANT CRISIS IN WESTERN EUROPEAN COUNTRIES ON THE FORMATION OF CONSPIRACY THEORIES PROMOTING ISLAMOPHOBIA

## ABSTRACT

The article examines the impact of the migrant crisis that has engulfed Western European countries in recent years on the emergence of conspiracy theories that promote Islamophobia. Among these conspiracy theories, the article focuses on the theory of former German politician and publicist Tilo Sarrazin, as well as the theories of the "Great Replacement" and "Eurabia".

The main conclusion drawn from the article is that the massive migration of Muslim immigrants to Western European countries in the modern era has led to a migrant crisis in these countries, creating a favorable environment for the spread of Islamophobia. These conspiracy theories, in turn, represent one of the primary manifestations of the spread of Islamophobia within society.

***Keywords:*** *Western European countries, migrant crisis, Islamophobia, conspiracy theories*

**Бахтияр Наджафли**

*Докторант кафедры Международных отношений и внешней политики*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики*

# ВЛИЯНИЕ МИГРАЦИОННОГО КРИЗИСА В СТРАНАХ ЗАПАДНОЙ ЕВРОПЫ НА ВОЗНИКНОВЕНИЕ КОНСПИРОЛОГИЧЕСКИХ ТЕОРИЙ, ПРОПАГАНДИРУЮЩИХ ИСЛАМОФОБИЮ

## РЕЗЮМЕ

В статье исследуется влияние миграционного кризиса, охватившего страны Западной Европы в последние годы, на возникновение конспирологических теорий, пропагандирующих исламофобию. Среди этих теорий особое внимание уделяется теории бывшего немецкого политика и публициста Тило Саррацина, а также теориям «Великого замещения» и «Еврабии».

Основной вывод заключается в том, что массовая миграция мусульманских иммигрантов в страны Западной Европы в современный период привела к миграционному кризису в этих странах, создав благоприятные условия для распространения исламофобии. Эти конспирологические теории, в свою очередь, представляют собой одну из главных форм проявления исламофобии в обществе.

***Ключевые слова:*** *страны Западной Европы, миграционный кризис, исламофобия, конспирологические теории*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.025

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

S İ Y A S İ İ N S T İ T U T L A R V Ə S İ S T E M L Ə R
P O L I T I C A L I N S T I T U T I O N S A N D S Y S T E M S

UOT 321: 001.11

**ДЖАВИД ЮСУБОВ**

**Докторант кафедры Политологии и политического управления**
**Академии Государственного Управления**
**при Президенте Азербайджанской Республики**

*e-mail: javidyusubov1@gmail.com*

# АНАЛИЗ СТРУКТУРНЫХ И ФУНКЦИОНАЛЬНЫХ ХАРАКТЕРИСТИК ПОЛИТИЧЕСКОЙ СИСТЕМЫ

## Введение

Изучение политических систем играет ключевую роль в понимании организации и функционирования обществ. Это позволяет анализировать принципы управления, структуры власти, и механизмы принятия решений на уровне государства. Знание политических систем не только предоставляет инсайт в политические процессы, но и помогает выявить влияние институтов на формирование общественных отношений, законодательства и политических ценностей. Это позволяет развивать критическое мышление, формировать информированные гражданские взгляды и способствует улучшению гражданской активности, необходимой для эффективного участия в политической жизни и формирования общественных изменений.

В этом отношении, цель данного исследования заключается в проведении всестороннего анализа понятия политической системы с фокусом на описательный подход к ее характеристикам. На основе этого анализа мы стремимся четко определить ключевые компоненты политической системы, рассмотреть взаимосвязь между ее структурными элементами и выделить важные аспекты, оказывающие влияние на ее функционирование. Через этот аналитический подход мы стремимся расширить понимание читателей о сущности политических систем и их роли в формировании политического процесса и общественной динамики.

## Различные подходы к понятию политической системы

Политическая система представляет собой сложный комплекс формальных правовых институтов, оформляющих структуру "правительства" или "государства". В соответствии с академическими исследованиями в области права и конституционных механизмов, данное определение часто используется для характеризации официальных органов власти в современных политических обществах. Однако широкий смысл термина также охватывает не только юридическую организацию государства, но и реальные механизмы его функционирования [8]. Г. Алмонд описывает политическую систему как совокупность политических структур общества и подчёркивает, что её

основными функциями являются политическая социализация, выражение интересов, принятие и реализация решений. Он отмечает, что все политические системы (как демократические, так и авторитарные) стремятся выполнять эти функции. Подход Алмонда основан на структурно-функциональной модели, которая позволяет проводить сравнительный анализ политических систем [2]. В опубликованном в 1967 году произведении Истона основная идея заключается в том, что политическая система функционирует как механизм «входа-выхода» (input-output), принимающий требования и поддержку общества и преобразующий их в решения. Он описывает политическую систему как динамическое целое, находящееся во взаимном взаимодействии с окружающей средой [6].

А.М. Салмин характеризует политическую систему как сложную и многомерную структуру, которую следует анализировать в контексте институтов и политических культур. Он подчёркивает важную роль взаимосвязи между социальными институтами и культурными компонентами в обеспечении легитимности и функциональности политической системы. Подход Салмина основывается на структурно-культурной рамке, объединяющей политические процессы и культурные аспекты, что, по его мнению, позволяет глубже изучать политические системы [19].

В исследовании азербайджанского автора Р. Магеррамова рассматриваются возможности внедрения инновационной деятельности в рамках политической системы, а также подчёркивается её влияние на институциональные изменения [15]. У. Хагвердиева показывает значимость многопартийности с точки зрения формирования среды участия и политической конкуренции в политической системе общества [10]. С. Алиева анализирует институциональную устойчивость современных политических систем и их механизмы реагирования на сепаратистский терроризм [7].

В более обширном контексте политическая система рассматривается как набор формальных и неформальных политических процессов, взаимодействующих внутри государственной структуры и взаимодействующих с другими социальными подсистемами, такими как экономическая система. Это подчеркивает важность изучения не только формальных институтов, но и социальных отношений и процессов, формирующих реальность политического функционирования.

Традиционные подходы к изучению политических систем включают в себя юридический и конституционный анализ, который акцентирует внимание на правительственных структурах и специализированных терминах, а также эмпирический анализ, направленный на выявление ключевых реалий форм управления. Вместе эти подходы формируют основу для сравнительной теории, использующей разнообразные данные и концепции для более глубокого понимания политических процессов и развития общества [1, с. 231].

Существует важный вид политической системы, который представляет собой национальное государство и играет ключевую роль в мировой политике. В настоящее время мир разделен на более чем 190 стран, каждая из которых претендует на суверенитет, то есть окончательную власть, и стремится подчинять своих граждан своей воле. Это территориальное разделение мира предполагает различие между наднациональными, национальными и субнациональными политическими системами.

Наднациональные политические системы возникают в результате взаимодействия различных национальных государств, которые разделяют общие цели или сталкиваются с общими угрозами. В некоторых случаях эти отношения остаются кратковременными и не приводят к значительному институциональному развитию. В других случаях возникают межгосударственные организации и наднациональные

системы. В последующем обсуждении рассматриваются различные типы наднациональных политических систем, а также приводятся исторические и современные примеры каждого из них.

Термин "национальное государство" встречается столь часто и при этом трактуется настолько разнообразно, что необходимо уточнить его использование в данной статье и предоставить исторические и современные примеры таких государств [18, с. 319]. Важно отметить, что отсутствует единая основа для формирования национальных государств, и многие из них возникли тогда, когда люди с общей историей, культурой и языком стали осознавать свою общую идентичность. Это относится, например, к первым национальным государствам, таким как Англия и Франция, возникшим в современном периоде, а также к Италии и Германии, ставшим национальными государствами в XIX веке. Напротив, другие государства, такие как Индия, Советский Союз и Швейцария, возникли без общих этнических, культурных или языковых основ [3, с. 262].

Важно отметить, что современные национальные государства сформированы в разные исторические периоды и при различных обстоятельствах. До конца XIX века эффективная мобилизация власти на национальной основе была характерна только для Европы, США и Японии. В XX веке и после распада Османской, Габсбургской, Французской и Британской империй большая часть мира смогла организоваться на национальной основе. Этот процесс продолжился с распадом Советского Союза в 1991 году и Югославии в 2003 году [13, с. 142].

Определение государства, рассматриваемое только с точки зрения его власти над своим населением, ограничено, так как государства сильно различаются в своей способности удовлетворять свои претензии на превосходство. Более того, между государствами существуют значительные различия в структурах, механизмах использования власти и целях, для которых они используют свою власть. Различные характеристики, которые квалифицируют эти разнообразные образования как национальные государства, включают независимость, монополию на применение силы в пределах своих границ и обязательное членство для своих граждан.

Необходимо также отметить, что многие современные государства имеют территориальные единицы, которым делегируется часть государственной власти. Унитарные системы предусматривают делегирование власти от центрального правительства к субнациональным единицам, а федеративные системы устанавливают баланс между национальным и провинциальным правительствами, где провинции обладают автономией, а власть может быть отозвана центральным правительством.

Несмотря на то что национальное правительство представляет собой преобладающую форму политической организации в современном мире, ниже национального уровня существует разнообразие политических форм. Среди них – племенные общины, компактные политические объединения деревень и городов, региональные и провинциальные правительства, сложные структуры городских и пригородных администраций, а также обширные политические и административные системы городов и метрополий. Эти субнациональные образования, в некотором смысле, являются основными политическими общностями, составляющими фундамент, на котором строятся все национальные политические системы [17].

В мире политики существует множество разнообразных политических систем, каждая из которых представляет собой уникальный способ организации и управления обществом. Среди ключевых типов политических строений выделяются монархия, олигархия, демократия и анархия. Каждый из этих типов характеризуется своими уни-

кальными чертами и принципами, определяющими способы принятия решений, распределения власти и взаимодействия между правительством и гражданами.

Монархия, как форма правления, имеет различные вариации, включая традиционную и репрессивную. Традиционная монархия основана на наследственном принципе передачи власти от поколения к поколению внутри королевской семьи. Это типично для монархий, где монарх является символом стабильности и континуитета.

В отличие от традиционной, репрессивная монархия характеризуется подавлением политических свобод и прав граждан. В этом случае монарх может использовать свою власть для удержания контроля и подавления любых проявлений оппозиции [8].

Олигархия представляет собой политическую систему, в которой власть сконцентрирована в руках небольшой группы людей или класса. Устоявшаяся олигархия характеризуется стабильностью этой группы власти, обеспечивающей сохранение привилегий и влияния в течение длительного времени.

Революционная олигархия, напротив, возникает в результате обостренных социальных изменений или революционных процессов. Это может привести к смене элиты и реструктуризации политической системы [16].

Демократия, как принцип, стремится к участию граждан в принятии решений. Прямая демократия предполагает, что граждане напрямую участвуют в принятии решений и формировании политики. Этот вид демократии подразумевает активное участие граждан в реализации законов и политических решений.

Представительная демократия, в свою очередь, базируется на выборах, где граждане делегируют свои полномочия представителям, которые затем принимают решения от их имени. Этот формат демократии обеспечивает более эффективное управление в условиях массового общества [4].

Анархия является экстремальной формой отсутствия централизованной власти. В анархической системе нет формальных правительственных структур или иерархии. Граждане самостоятельно принимают решения и управляют своими делами. Однако, анархия также может вести к хаосу и недостатку структуры, что затрудняет реализацию общественного порядка [12].

Все вышеперечисленные политические системы представляют собой уникальные модели управления, формирующие политическую реальность в различных обществах. Каждая из них имеет свои преимущества и недостатки, и понимание их особенностей важно для анализа современных политических динамик и перспектив развития обществ (рис. 1).

Исследование различных политических систем демонстрирует значительное разнообразие форм правления, каждая из которых обладает уникальными характеристиками и принципами функционирования. Анализ показывает, что независимо от типа политической системы, будь то монархия, олигархия, демократия или анархия, все они формируют свою политическую реальность в зависимости от исторических, культурных и социальных условий конкретного общества. Традиционные монархии обеспечивают стабильность через наследственную передачу власти, в то время как репрессивные режимы используют централизованный контроль для подавления инакомыслия. Олигархия, характеризующаяся концентрацией власти в узком круге лиц, может изменяться под воздействием социальных процессов, приводя к смене элит. Демократия, в свою очередь, предлагает модели более широкой вовлеченности граждан в политические процессы, обеспечивая как прямое участие, так и представительное управление. Однако анархия, с её отказом от формальных структур власти, сталкивается с трудностями в поддержании




**Рисунок 1.** Политические системы

общественного порядка. Таким образом, понимание этих систем и их механизмов функционирования важно не только для изучения политических процессов, но и для прогнозирования возможных путей их развития в современных и будущих обществах.

### Разбор структуры и функций политической системы

В современном политическом ландшафте государство, правительство, политические институты, гражданское общество, политическая культура, политические партии и избирательная система представляют собой ключевые структурные компоненты, составляющие сложную мозаику политической системы. Эти элементы не только существуют независимо друг от друга, но и взаимодействуют, формируя уникальные условия для развития и функционирования политической реальности (рис. 2).

Государство. Как центральный элемент политической системы, государство обладает ключевыми функциями. Оно гарантирует суверенитет, охраняет территорию, обеспечивает безопасность и поддерживает правопорядок. Государство также служит платформой для формирования и реализации общенациональных интересов и целей.

Правительство. Правительство, как исполнительная и законодательная ветви власти, формирует политику, осуществляет управление и принимает решения, влияющие на общество. Взаимодействие между государством и правительством создает баланс в системе, где государство устанавливает цели, а правительство разрабатывает и реализует меры для их достижения.

Государство, утверждающее свой суверенитет и защищающее территорию, устанавливает основные рамки для функционирования политической системы. Правительство, как исполнительная ветвь власти, принимает законы и реализует политику, осуществляя власть от имени государства [3, с. 264].

Политические институты. Институты, такие как парламенты, суды и политические агентства, являются структурными элементами, обеспечивающими проверку и сбалансированность в системе власти. Их роль в формировании и контроле политики подчеркивает значение институциональной устойчивости для обеспечения стабильности политической системы.

Институты, такие как парламенты и суды, контролируют власть и предоставляют механизмы разделения власти. Взаимодействие между правительством и институтами обеспечивает проверку и сба-

лансированность, предотвращая злоупотребление властью [11].

Гражданское общество. Гражданское общество представляет собой неправительственные организации, общественные движения и гражданские инициативы, которые вносят свой вклад в политический процесс. Взаимодействие гражданского общества с государством и правительством способствует формированию общественного мнения и демократическому контролю.

Взаимодействие гражданского общества с правительством и политическими институтами происходит через общественные организации и движения. Гражданское общество оказывает давление на власть, выражает общественное мнение и стимулирует общественный диалог [14, с. 18].

Политическая культура. Культурные аспекты играют решающую роль в формировании политической системы. Политическая культура определяет ценности, убеждения и отношения граждан к политике. Влияние этого компонента простирается от уровня доверия к власти до степени гражданской активности.

Культурные ценности и убеждения влияют на политическую активность и восприятие государственной власти. Она формирует базис для участия граждан в политической жизни и определяет, насколько общество поддерживает демократические ценности.

Политические партии. Политические партии представляют собой инструменты организации и артикуляции политических интересов. Через участие в выборах и разработку программ, партии формируют альтернативы для избирателей и обеспечивают механизмы представительства в политической системе.

Партии предоставляют механизм представительства интересов граждан. Их конкуренция и сотрудничество формируют политическую арену, создавая выборы и возможность для обсуждения различных точек зрения [5].

Избирательная система. Эффективность политической системы зависит от того, насколько честны и открыты выборы. Избирательная система определяет, каким образом формируется представительная власть, и влияет на легитимность и стабильность политической системы.

Как механизм формирования представительной власти, избирательная система определяет, каким образом политические лидеры и партии приходят к власти. Она отражает волю граждан и создает легитимность политической системы [9].

Взаимодействие между этими структурными компонентами формирует устойчивую политическую систему. Баланс между государством и гражданами, между правительством и институтами, а также влияние культурных факторов создают основу для разнообразных политических реальностей, варьирующих от авторитарных режимов до консолидированных демократий. Понимание взаимодействия этих компонентов существенно для эффективного анализа, прогнозирования и управления политическими процессами.

Все эти компоненты взаимодействуют внутри политической системы, создавая баланс между государственной властью и интересами граждан. Каждый элемент является звеном в цепи, и изменение одного элемента может повлиять на функционирование всей системы. Например, изменения в политической культуре могут отразиться на типе лидерства, который будет поддерживаться обществом.

Этот механизм взаимодействия обеспечивает адаптивность политической системы к изменяющимся условиям и потребностям общества. В том числе исторические события, экономические изменения и социокультурные трансформации могут повлиять на динамику взаимодействия между компонентами, что отражается в изменении политической ландшафта.

Анализ взаимодействия ключевых структурных компонентов политической




**Рисунок 2.** Компоненты политической системы

системы показывает, что успешное функционирование политической реальности зависит от их сбалансированности и взаимодополняемости. Государство, будучи центральным элементом системы, определяет основные рамки функционирования через защиту суверенитета и правопорядка, однако его взаимодействие с правительством, гражданским обществом, политическими институтами и культурными факторами обеспечивает необходимую гибкость и устойчивость системы. Политические институты, такие как парламент и суды, служат механизмом сдержек и противовесов, что способствует предотвращению концентрации власти и укреплению институциональной стабильности. В свою очередь, гражданское общество и политическая культура играют решающую роль в формировании общественного мнения и уровне политической активности граждан, оказывая влияние на легитимность власти и ее способность отвечать на общественные запросы. Политические партии и избирательная система обеспечивают механизмы демократического участия, способствуя политическому представлению интересов граждан и формированию альтернативных точек зрения. Все эти элементы взаимодействуют в динамической среде, и их баланс определяет характер политического процесса, будь то в демократическом, авторитарном или гибридном режиме.

## Заключение

Степень независимости политических институтов может существенно различаться в различных политических системах. В общем, можно выделить несколько типов политических систем и оценить степень независимости их институтов. В странах с развитыми либеральными демократиями, такими как США, Канада, страны Западной Европы, политические институты обычно наиболее независимы. Судебная система, законодательная ветвь власти и другие институты функционируют с определенной степенью автономии от исполнительной власти.

В авторитарных режимах, таких как некоторые страны в Северной Африке, Средней Азии или на Ближнем Востоке, политические институты могут быть сильно контролируемы правительством. Здесь централизованная власть может ограничивать независимость судебной системы и других институтов в попытке укрепления своего контроля.

Некоторые страны могут находиться в промежуточной зоне между демократией и авторитаризмом. В таких гибридных режимах, независимость политических институтов может быть переменной и подвержена изменениям в зависимости от политического контекста.

В рядах традиционных обществ, особенно в некоторых регионах Африки, Азии и Латинской Америки, влияние традиционных и неформальных структур может быть сильным. В таких случаях политические институты могут подчиняться обычаям и традициям, а их независимость может быть ограничена.

Степень независимости политических институтов может существенно различаться в различных политических системах. В общем, можно выделить несколько типов политических систем и оценить степень независимости их институтов. В странах с развитыми либеральными демократиями, такими как США, Канада, страны Западной Европы, политические институты обычно наиболее независимы. Судебная система, законодательная ветвь власти и другие институты функционируют с определенной степенью автономии от исполнительной власти.

В авторитарных режимах, таких как некоторые страны в Северной Африке, Средней Азии или на Ближнем Востоке, политические институты могут быть сильно контролируемы правительством. Здесь централизованная власть может ограничивать независимость судебной системы и других институтов в попытке укрепления своего контроля.

Некоторые страны могут находиться в промежуточной зоне между демократией и авторитаризмом. В таких гибридных режимах независимость политических институтов может быть переменной и подвержена изменениям в зависимости от политического контекста.

В рядах традиционных обществ, особенно в некоторых регионах Африки, Азии и Латинской Америки, влияние традиционных и неформальных структур может быть сильным. В таких случаях политические институты могут подчиняться обычаям и традициям, а их независимость может быть ограничена.

В ходе исследования были выявлены значительные различия в характеристиках политических систем в зависимости от их институциональной независимости и политической культуры. В либеральных демократиях институты действуют относительно автономно, обеспечивая устойчивость и прозрачность процессов управления, в то время как в авторитарных режимах наблюдается значительное вмешательство центральной власти в деятельность политических структур. Выявленные различия также подтверждают наличие промежуточных систем, где независимость институтов колеблется в зависимости от политического контекста. Эти результаты позволяют глубже понять, каким образом политические системы могут эволюционировать в зависимости от внешних и внутренних факторов.

Анализ полученных данных имеет большое значение в контексте существующей научной литературы, поскольку подтверждает теоретические постулаты о важности независимости политических институтов для функционирования демократических систем. Кроме того, исследование вносит свой вклад в дискуссии о влиянии авторитарных тенденций на институциональные структуры, что особенно актуально для стран с гибридными режимами. Результаты данного исследования также соответствуют выводам ряда исследований, посвященных институциональной динамике и устойчивости демократических режимов, что свидетельствует о важности дальнейшего изучения этих процессов в современном политическом мире.

Для будущих исследований важно рассмотреть более детально механизмы, которые могут способствовать укреплению

независимости политических институтов в странах с авторитарными или гибридными политическими системами. Особое внимание следует уделить исследованию того, каким образом международные организации, гражданское общество и региональные политические процессы могут влиять на институциональную независимость. Кроме того, необходимы более эмпирические исследования для анализа того, как культурные и социальные факторы способствуют усилению или ослаблению независимости политических институтов в различных регионах мира.

**Литература:**


1. Almlund, P. Non-voting young people in conflict with the political system, Journal of Political Power, 2018, 11:2, 230-251.
2. Almond, G. Comparative Politics : A developmental approach. New York: Little, Brown, 1966.
3. Bang, H.; Esmark, A. Governmentality and the Political (System), Administrative Theory & Praxis, 2010, 32:2, 262-268.
4. Bayram, Y. John Stuart Mill'de ifade özgürlüğü ve siyasi sistem tartışması. Ankara: Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2013. 284 sayfa.
5. Bischoff, C.S.; Christiansen, F.J. Political parties and innovation, Public Management Review, 2017, 19:1, 74-89.
6. Easton, D. A. System Analysis of Political Life. New York: John Wiley & Sons, 1967.
7. Əliyeva, S. Müasir siyasi sistem və separatçı terrorizm. siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2011. 24 s.
8. Elgie, R. The changing French political system: Introduction. West European Politics, 1999, 22:4, 1-19.
9. Freire, A.; Teperoglou, E. European Elections and National Politics: Lessons from the "New" Southern European Democracies, Journal of Elections. Public Opinion and Parties, 2007, 17:1, 101-122.
10. Haqverdiyeva, Ü. Cəmiyyətin siyasi sistemində çoxpartiyalılığın yeri və rolu. siyasi e. üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2010. 21 s.
11. Hawkins, C. Inter-Jurisdictional Economic Development: A Political Institution Explanation for Policy Choice. International Journal of Public Administration, 2010, 33:7, 379-389.
12. Hix, S. The Political System of the European Union. London: Palgrave Macmillan, 2005.
13. Jaffrelot, C.; Verniers, G. A new party system or a new political system? Contemporary South Asia, 2020, 28:2, 141-154.
14. Kumar, K. Civil Society, Globalization, and Global Civil Society. Journal of Civil Society, 2008, 4:1, 15-30.
15. Məhərrəmov, R. İnnovativ fəaliyyətin siyasi sistemdə tətbiqi: (Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası çərçivəsində). Siyasi elmlər üzrə fəlsəfə d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2017. 21 s.
16. Şahin, O. Perceptions of democracy in the world: Do different understandings held by the people shape political systems? İstanbul: Sabancı Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2016. 225 sayfa.
17. Timberlake, R.; Dowd, K.; Miller, M. Money and the Nation State: The Financial Revolution, Government, and the World Monetary System. Piscataway: Transaction Publishers, 1998.
18. Westle, B. German Views of the Political System. German Politics, 2015, 24:3, 317-353.
19. Салмин, А.М. Современная демократия: генезис, структура, культурные конфликты: Опыт Франции в сравнительной ретроспективе. Москва: Дружба, 1992.

***Ключевые слова:*** *политическая система, государство, правительство, национальное государство, структурный компонент*

**Cavid Yusubov**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
*Politologiya və siyasi idarəetmə kafedrasının doktorantı*

## SİYASİ SİSTEMİN SRTUKTUR VƏ FUNKSİONAL XÜSUSİYYƏTLƏRİNİN TƏHLİLİ

### XÜLASƏ

Siyasi sistem anlayışını və siyasi sistemlərin struktur komponentlərinin qarşılıqlı əlaqəsini tədqiq edən məqalədə siyasi sistemin düzgün işləməyinin vacibliyinə diqqət çəkilir. Məqalədə əvvəlcə siyasi sistem anlayışının tərifinə yer verilir, daha sonra isə millətlərüstü, milli və sub-milli siyasi sistemlər açılır. Bu kontektsdə, xüsusilə milli dövlətlərdə siyasi sistemlərin unikallığından bəhs edilir. Milli dövlətlərin formalaşması tarixi və milli dövlətlərdə siyasi sistemlərin tarixi inkişaf dinamikası müzakirə olunur. Məqalənin ikinci hissəsində siyasi sistemlərin ayrı-ayrı struktur komponentləri izah edilir və onların bir mexanizm kimi birgə fəaliyyət göstərmə səviyyələrindən söz açılır. Sözügedən struktur komponentlər arasındakı qarşılıqlı əlaqə təhlil edilir. Məqalənin nəticəsi olaraq isə siyasi institutların sərbəst fəaliyyət göstərə bilməsi xüsusiyyəti əsas götürülür və bu istiqamətdə təhlil aparılır. Nisbətən azad və nisbətən repressiv siyasi sistemlərin mövcud olduğu ölkələrin adı çəkilir.

***Açar sözlər:*** *Siyasi sistem, dövlət, hökumət, milli dövlət, struktur komponent*

**Javid Yusubov**

*PhD Student, The Academy of Public Administration under the*
*President of the Republic of Azerbaijan*

## ANALYSIS OF THE STRUCTURAL AND FUNCTIONAL CHARACTERISTICS OF THE POLITICAL SYSTEM

### ABSTRACT

The presented article analyzes the concept of a political system and the relationship of its structural components with an emphasis on the importance of the effective functioning of this political mechanism. In the first part of the work, the concept of a political system is defined in depth, descriptions of supranational, national and subnational political systems are provided, special attention is paid to the unique features of nation-states and their historical evolution. The subsequent section of the article examines in detail the individual structural components of political systems, highlighting the level of their interaction within the framework of overall functioning as a single mechanism. The relationships between these structural elements are analyzed, paying special attention to the freedom of action of political institutions. In the context of this analysis, examples of countries with different political systems are considered, including both relatively free and relatively repressive political regimes.

***Keywords:*** *political system, state, government, national state, structural component*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.027

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**
**Y O U N G R E S E A R C H E R S**

**D A V A M L I İ N K İ Ş A F S İ Y A S Ə T İ**
**S U S T A I N A B L E D E V E L O P M E N T P O L I C Y**

UOT 328; 342.5; 351/354

**MURAD HƏSƏNXANLI**

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Davamlı inkişaf kafedrasının doktorantı**

*e-mail: mhsnxanli@gmail.com*

# DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASINDA GƏNCLƏRİN ROLU: SUBYEKTLİK VƏ İŞTİRAKÇILIQ

2015-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilən Davamlı İnkişaf Məqsədləri (SDG-lər) XXI əsrdə qlobal siyasətin və ictimai strategiyaların əsas konturlarını müəyyən edən universal hədəf sistemidir. Bu sistem 17 məqsəd və 169 alt-məqsəddən ibarətdir və onların həyata keçirilməsi dövlətlərin, vətəndaş cəmiyyəti institutlarının, özəl sektorun və fərdlərin birgə səyi ilə mümkündür.

SDG-lər qlobal siyasət və sosial strategiyalar sahəsində dövlətlərin, vətəndaş cəmiyyətlərinin və fərdlərin ortaq gələcək vizyonunu müəyyən edən əsas mexanizmlərdən birinə çevrilmişdir. Bu məqsədlərin mərkəzində inklüzivlik prinsipi dayanır və bu baxımdan gənclər əhali strukturunun ən çevik, lakin qərar qəbuletmədən ən çox uzaq qalan hissəsi kimi xüsusi diqqət tələb edir. Mövcud qlobal çağırışlar – iqlim dəyişikliyi, texnoloji transformasiya, iqtisadi qeyri-sabitlik və sosial bərabərsizliklər fonunda gənclərin yalnız benefisiar deyil, transformativ güc kimi iştirak etməsi həm sosial ədalətin təmin olunması, həm də SDG-lərin hədəflərinə çatmaq üçün strateji əhəmiyyət daşıyır. Azərbaycan nümunəsində bu proseslərin necə həyata keçirildiyini təhlil etmək isə ölkəmiz üçün xüsusi aktuallıq kəsb edir.

Vurğulandığı kimi, SDG-lərin əsas prinsiplərindən biri inklüzivlikdir, yəni heç kimin geridə qoyulmaması (“Leave no one behind”). Bu prinsip çərçivəsində gənclər həm faydalanan, həm də təşəbbüskar rolunda çıxış etməlidirlər [5]. Gənclər dünya əhalisinin təxminən 16%-ni təşkil edir (2022-ci ilə görə 15–24 yaş arasında 1.2 milyard nəfər), lakin bir çox regionda onlar qərar qəbuletmə proseslərindən və dayanıqlı inkişaf siyasətindən kənarda qalırlar [11]. Məsələn, UNDP-nin 2021-ci il hesabatında bildirilir ki, gənclərin yalnız 2%-i parlament üzvü kimi təmsil olunur. 2023-cü il hesabatında isə bu göstərici 2.8%-dir [12]. Digər tərəfdən, gənclər iqlim dəyişikliyi, texnoloji dəyişikliklər, işsizlik və sosial qeyri-bərabərlik kimi çağırışlardan ən çox təsirlənən qruplardan biridir. Belə bir şəraitdə onların SDG-lərdə rolu yalnız passiv səviyyədə deyil, həm də aktiv dəyişiklik subyekti kimi qiymətləndirilməlidir. Bu isə gənclərin resurs və qərar mərkəzlərinə çıxış imkanlarının genişləndirilməsi, onların səsini eşidiləcək platformalarda təmsil olunması və sosial təsir gücünün tanınması ilə mümkündür.

Bu baxımdan, tədqiqatımızın məqsədi gənclərin SDG-lər sistemində subyektlik və iştirakçılıq baxımından rolunu təhlil etmək və Azərbaycan kontekstində bu rolu necə formalaşdırdığını araşdırmaqdır. Tədqiqatda analitik-deskriptiv metoddan istifadə olunmuş, SDG-lərlə bağlı beynəlxalq hesabatlar, statistik göstəricilər və Azərbaycan Respublikasının rəsmi sənədləri əsas məlumat bazası kimi təhlil edilmişdir. Bundan əlavə, müqayisəli təhlil yanaşması ilə gənclərin müxtəlif regionlarda SDG-lərlə əlaqəli sahələrdə iştirak səviyyələri və imkan fərqləri qiymətləndirilmişdir.

## Gənclərlə birbaşa və dolayı şəkildə əlaqədar SDG-lər

SDG-lər sistemində bəzi məqsədlər birbaşa gəncləri əhatə edir, digərləri isə dolayı yolla onların həyat keyfiyyətinə təsir göstərir. Dördüncü SDG – "Keyfiyyətli təhsil" bu baxımdan açıq şəkildə gənclərin inkişafına yönəlmişdir. Məqsəd 4.4-də qeyd olunur ki, 2030-cu ilə qədər bütün gənclərin və əksər böyüklərin işlə bağlı bacarıqlarla təchiz olunması təmin edilməlidir [8]. Lakin YUNESKO-nun 2023-cü il statistikasına görə, dünya üzrə 244 milyon uşaq və gənc hələ də məktəbdən kənarda qalır [10]. Bu, yalnız sosial hüquqların pozulması deyil, eyni zamanda gələcəkdə əmək bazarına inteqrasiya probleminin dərinləşəcəyini göstərir.

Bundan əlavə, 8-ci SDG – "Layiqli əmək və iqtisadi artım" gənclərin məşğulluq imkanlarını birbaşa hədəf alır [10]. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən, 2022-ci ildə gənclər arasında işsizlik səviyyəsi 14.9% olmuşdur ki, bu da böyüklər arasında işsizlik göstəricisindən iki dəfəyə qədər yüksəkdir. Bu fərq xüsusilə inkişaf etməkdə olan ölkələrdə daha kəskin hiss olunur [6]. Təşkilat bildirir ki, gənclərin böyük bir hissəsi qeyri-formal, zəif qorunan və aşağı gəlirli işlərdə çalışır. Dolayısı ilə iqtisadi dayanıqlılıq yalnız makroiqtisadi göstəricilərlə deyil, gənclərin layiqli əmək imkanları ilə ölçülməlidir.

10-cu SDG – "Bərabərsizliyin azaldılması", 16-cı SDG – "Sülh, ədalət və güclü institutlar" və 17-ci SDG – "Tərəfdaşlıqların gücləndirilməsi" də gəncləri qərar qəbuletmə proseslərinə cəlb etmək, iştirakçılıqlarını təmin etmək və sosial ədalət çərçivəsində vətəndaş hüquqlarını genişləndirmək baxımından strateji əhəmiyyət daşıyır. 10-cu SDG cəmiyyət daxilində gəlir, imkan və sosial status fərqlərinin minimuma endirilməsini hədəfləyir. Gənclərin sosial və iqtisadi imkanlara bərabər çıxışı təmin olunmadıqda, davamlı inkişaf prosesi bütövlükdə ləngiyə bilər. Bu səbəbdən regionlararası, genderə və sosial mənşəyə əsaslanan bərabərsizliyin aradan qaldırılması gənclərin aktiv iştirakına şərait yaradır. 16-cı SDG inklüziv, ədalətli və şəffaf institutların qurulmasını və hüququn aliliyinin təmin edilməsini əsas götürür. Gənclərin qərar qəbuletmədə iştirakını təmin etmək, onların ictimai həyatın bütün sahələrində hüquqi təmsilçiliyini gücləndirir. Eyni zamanda, gənclərin hüquqlarının qorunması və onların səsi eşidilən strukturda yer alması bu məqsədin əsas indikatorlarından sayılır. 17-ci SDG davamlı inkişafın həyata keçirilməsi üçün dövlətlər, vətəndaş cəmiyyəti və beynəlxalq qurumlar arasında effektiv əməkdaşlıq qurulmasını nəzərdə tutur. Beləliklə, SDG-lər sistemində gənclər sadəcə bir məqsədin deyil, çoxsaylı hədəf və vasitələrin kəsişmə nöqtəsində yerləşir.

SDG-ləri tədqiqat predmetimiz nöqteyi-nəzərindən qarşılıqlı əlaqə çərçivəsində təhlil etsək, görərik ki, onlar gənclərin inkişafını yalnız ayrı-ayrı istiqamətlərdə deyil, onların subyektlik və iştirakçılıq potensialını ön plana çıxaran qarşılıqlı bağlılıq çərçivəsində nəzərdə tutur. 4-cü SDG – "Keyfiyyətli təhsil" gənclərin bilik və bacarıqlarla təmin olunmasını hədəfləməklə, 8-ci SDG – "Layiqli əmək və iqtisadi artım" ilə üzvi şəkildə əlaqələnir, çünki təhsildən məhrum qalan hər bir gənc əmək bazarına inteqrasiya imkanlarını itirir və qeyri-formal sektorda riskli mövqelərdə işləməyə məcbur qalır. Eyni zamanda, təhsil və məşğulluq imkanlarının məhdudluğu 10-cu SDG – "Bərabərsizliyin azaldılması"na birbaşa təsir göstərir; sosial və iqtisadi imkanların qeyri-bərabər bölgüsü gənclərin cəmiyyətdə aktiv subyekt kimi çıxış etməsinə mane olur. Bura-

dan 16-cı SDG – “Sülh, ədalət və güclü institutlar” ilə əlaqə yaranır, çünki bərabərsizliyin azaldılması və inklüziv institutların qurulması gənclərin qərar qəbuletmə proseslərində iştirakını təmin edir, onların yalnız obyekt deyil, ictimai həyatın formalaşdırıcı subyekti kimi mövqeyini gücləndirir. 17-ci SDG – “Tərəfdaşlıqların gücləndirilməsi” isə bu qarşılıqlı asılılığı beynəlxalq, regional və yerli əməkdaşlıq müstəvisində təmin edir, dövlətlərin, vətəndaş cəmiyyətlərinin və beynəlxalq qurumların koordinasiyalı fəaliyyəti ilə gənclərin həm milli, həm də qlobal səviyyədə təsir gücünü artırır. Beləliklə, SDG-lərin bir-biri ilə sistemli şəkildə əlaqəli olması faktı göstərir ki, gənclərin subyektliyi və iştirakçılığı davamlı inkişafın yalnız vasitəsi deyil, həm də hədəfinin özəyidir; onlar bilik, əmək, bərabərlik və qərar qəbuletmədə təmsilçilik vasitəsilə davamlı gələcəyin əsas daşıyıcı qüvvəsinə çevrilirlər.

Bu çərçivədə xüsusi vurğulanmalı məqamlardan biri də gənclərin inkişafının yalnız dövlət proqramları və normativ sənədlərlə məhdudlaşmamasıdır; əksinə, bu proses ictimai institutların, qeyri-hökumət təşkilatlarının, özəl sektorun və beynəlxalq tərəfdaşların ortaq fəaliyyətini tələb edir. Gənclər üçün yaradılan imkanların effektivliyi onların qərar qəbuletmə və iştirakçılıq mühitində nə dərəcədə təmsil olunduğu ilə sıx bağlıdır. Məsələn, 4-cü və 8-ci SDG-lərin sintezində ortaya çıxan təhsil-məşğulluq əlaqəsi yalnız formal biliklərlə deyil, həm də praktik bacarıqlarla dəstəklənməli, gənclərin innovativ və yaradıcı təşəbbüsləri üçün müvafiq infrastruktur təmin olunmalıdır. Bu zaman 10-cu SDG-nin nəzərdə tutduğu bərabərsizliyin azaldılması prinsipi gənclər arasında sosial və regionlararası uçurumun aradan qaldırılmasına xidmət edir və 16-cı SDG-nin tələb etdiyi inklüziv institutlar çərçivəsində gənclərin bələdiyyələrdən parlamentə qədər ictimai həyatın müxtəlif pillələrində fəal iştirakını mümkün edir. Nəhayət, 17-ci SDG-nin tərəfdaşlıq çağırışı bu bütünləşdirici yanaşmanı beynəlxalq əməkdaşlıqla birləşdirərək Azərbaycanın gənclər siyasətinin qlobal miqyasda tanınmasına və gənclərin qlobal vətəndaşlıq potensialının gücləndirilməsinə imkan açır. Beləliklə, gənclərin inkişafı yalnız sosial-iqtisadi göstəricilərin yaxşılaşdırılması ilə deyil, həm də cəmiyyətin gələcək strukturunun daha inklüziv, dayanıqlı və ədalətli əsaslar üzərində qurulması ilə ölçülür.

## Nəsillərarası ədalət və gənclərin aktiv subyektliyi

Ölkəmizdə davamlı inkişaf nəsillərarası ədalət, insan inkişafı, eləcə də gənclərin inkişafı akademik Urxan Ələkbərovun əsərlərində öz əksini tapmışdır. U.Ələkbərov öz əsərlərində davamlı inkişafı yalnız iqtisadi göstəricilərlə deyil, həm də sosial bərabərlik, insan kapitalının inkişafı və ekoloji məsuliyyətin inteqrasiyası ilə dəyərləndirir. Belə bir yanaşmada isə gənclər həm inklüziv inkişafın əsas subyekti, həm də cəmiyyətin sosial transformasiyasını təmin edən və gələcək nəsillərə məsuliyyət daşıyan strateji aktor kimi ön plana çıxır [2; 3; 4].

Bu baxış bucağından yanaşdıqda, gənclərin davamlı inkişaf prosesindəki rolu sadəcə gələcəyin işçi qüvvəsi kimi qiymətləndirilməklə məhdudlaşmır, həm də onların innovativ düşüncə tərzi, sosial məsuliyyət hissi və vətəndaşlıq fəallığı ilə birbaşa bağlı olur. Akademik Urxan Ələkbərovun vurğuladığı kimi, davamlı inkişaf konsepsiyası yalnız iqtisadi artımın ölçülməsi ilə kifayətlənməməli, əksinə, insan mərkəzli yanaşmanı əsas tutmalıdır. Bu isə gənclərin təhsilə bərabər çıxış imkanlarının təmin olunmasını, əmək bazarına inteqrasiya zamanı onların potensialına uyğun dəstək mexanizmlərinin qurulmasını və yaradıcı təşəbbüslərinə geniş meydan verilməsini tələb edir. Azərbaycan reallığında bu yanaşma həmçinin gənclərin ekoloji şüurunun gücləndirilməsi, innovasiya və startap fəaliyyətində iştiraklarının artırılması, sosial layihələr vasitəsilə cəmiyyətin müxtəlif təbəqələri arasında körpü rolunu oynamaları ilə müşayiət olunur. Nəticə etibarilə, gənclərin inkişafı davamlı inkişafın hər üç əsas sütunu olan iqtisadi, sosial və ekoloji istiqamət üzrə tarazlığın yaradılmasına xidmət edir və onların aktiv

iştirakı olmadan nə sosial transformasiya, nə də inklüziv inkişaf tam reallaşa bilər.

Bu çərçivədə deməliyik ki, davamlı inkişaf anlayışı yalnız cari nəsillərin ehtiyaclarının ödənilməsi ilə məhdudlaşmır, həm də gələcək nəsillərin rifahını və həyat keyfiyyətini nəzərə almağı tələb edir. Bu baxımdan, nəsillərarası ədalət prinsipi davamlı inkişafın əsas fəlsəfi sütunlarından biri kimi çıxış edir. Bu prinsipə əsasən, indiki nəsil yalnız öz maraqlarını deyil, həm də gələcək nəsillərin maraqlarını nəzərə almalı və resurslardan istifadə edərkən uzunmüddətli nəticələri düşünməlidir. Lakin mövcud idarəetmə sistemləri və qərar qəbuletmə mexanizmləri bu prinsipi tam şəkildə əks etdirmir. Gənclər, əslində, bu ziddiyyətli vəziyyətin mərkəzində dayanırlar; onlar keçmiş nəsillərin səbəb olduğu ekoloji, sosial və iqtisadi problemlərin ağır nəticələrini daşıyırlar, lakin hazırkı qərar proseslərində çox zaman söz sahibi deyillər.

Bu ikili vəziyyət iqlim dəyişikliyi, bərpaolunmaz təbii resursların istismarı və demoqrafik təzyiqlər kimi qlobal problemlərdə özünü daha kəskin şəkildə göstərir. İqlim dəyişikliyi, bərpaolunmaz təbii resursların istismarı və artan demoqrafik təzyiqlər bəşəriyyətin qarşısında duran ən böyük qlobal problemlərdən hesab olunur. Bu problemlərin yaratdığı ikili vəziyyət xüsusilə gənc nəsillər üçün daha ağır nəticələr doğurur. Belə ki, keçmişdəki ekoloji məsuliyyətsizlik, təbiətə qarşı düşünülməmiş yanaşma və davamlılıq prinsiplərinə əməl edilməməsi bugünkü gəncləri sabahın daha sərt iqlim böhranları ilə üz-üzə qoyur. Havanın qlobal istiləşməsi, ekstremal hava hadisələrinin artması, su ehtiyatlarının azalması və torpaqların deqradasiyası gənclərin sosial-iqtisadi gələcəyini birbaşa təhlükə altına alır. Bu mənada, davamlı inkişafla bağlı nəzəri müzakirələr gənclərin gündəlik həyatında real çağırışlara çevrilir və onların gələcək perspektivlərini məhdudlaşdırır.

Məhz bu səbəbdən gənclər passiv müşahidəçi olmaqdan imtina edərək özlərinin aktiv sosial aktor rolunu möhkəmləndirməyə başlayıblar. Dünyanın müxtəlif regionlarında onların təşəbbüsü ilə bir sıra ictimai hərəkatlar meydana gəlib. Fridays for Future hərəkatı məktəblilər və tələbələrin iqlim böhranına qarşı kütləvi etirazlarını təşkil etməklə qlobal gündəmin dəyişməsinə təsir göstərib. Extinction Rebellion Youth isə gənclərin radikal və yaradıcı aksiya formaları vasitəsilə dövlətlərdən və böyük şirkətlərdən daha ciddi ekoloji öhdəliklər tələb etməsinə şərait yaradıb. Bu hərəkatlar göstərir ki, gənclər yalnız ekoloji məsələlər haqqında narahatlıq ifadə etmir, həm də bu narahatlıqları konkret ictimai və siyasi təzyiq mexanizmlərinə çevirərək sistemli dəyişikliklər tələb edirlər.

Eyni zamanda, bu hərəkatlar gənclərin iştirakçılığının təkcə ekoloji böhranın həllinə deyil, həm də daha geniş mənada sosial və siyasi sistemlərin transformasiyasına yönəldiyini ortaya qoyur. Onların tələb etdiyi məsuliyyətli idarəçilik, şəffaf qərar qəbuletmə mexanizmləri və sosial ədalət prinsipləri davamlı inkişaf gündəliyinin ayrılmaz hissəsidir. Beləliklə, gənclərin iqlim hərəkatları yalnız təbiəti qorumaq məqsədini daşımır, həm də demokratiyanın güclənməsi, vətəndaş fəallığının artması və yeni sosial müqavilənin formalaşması istiqamətində mühüm addımlar kimi çıxış edir. Gənclərin bu istiqamətdə nümayiş etdirdikləri təşəbbüskarlıq göstərir ki, onlar gələcək nəsillərin deyil, həm də indiki cəmiyyətin struktur dəyişikliklərinin daşıyıcı qüvvəsidir.

Bütün bunlardan çıxarılan nəticə odur ki, gənclərin davamlı inkişaf prosesində iştirakı təsadüfi və ya simvolik olmamalıdır. Əksinə, onların səsini eşitmək, təşəbbüslərini dəstəkləmək və iştiraklarını strukturlaşdırılmış şəkildə təmin etmək strateji zərurətə çevrilib. Davamlı inkişaf yalnız dövlətlərin qəbul etdiyi proqramlarla deyil, həm də gənclərin özlərinin sosial enerjisi və mobilizasiyası ilə reallaşa bilər. Onların fəallığı ekoloji böhranların aradan qaldırılmasında, sosial ədalətin bərqərar edilməsində və nəsillərarası məsuliyyətin təmin olunmasında əsaslı rol oynayır. Bu baxımdan, gənclərin iştirakçılığı davamlı inkişafın sadəcə vasitəsi deyil, onun mərkəzi hərəkətverici qüvvəsi kimi qəbul edilməlidir.

Gənclər həmçinin texnoloji transformasiyalara adaptasiya baxımından ən çevik qrupdur. Rəqəmsal texnologiyalardan istifadədə, sosial mediada kampaniya yaratmaqda və ictimai şüurun formalaşmasında onların rolu əvəzsizdir. BMT-nin 2020-ci il Gənclər üzrə Qlobal Hesabatında göstərilir ki, 85%-dən çox gənc ictimai dəyişiklik yaratmaq üçün texnologiyalardan istifadə etməyə hazırdır [7]. Bu isə onların yalnız iqtisadi resurs deyil, həm də sosial kapital olaraq qəbul edilməli olduğunu sübut edir. Bu baxımdan, gənclərin SDG-lərdə rolu yalnız onları hədəfləmək deyil, onların liderliyini də tanımaqla mümkün olacaqdır.

Nəsillərarası ədalət müstəvisində gənclərin rolu onu göstərir ki, onlar sadəcə gələcəkdə problemlərin nəticələrini daşıyacaq bir qrup deyil, həm də bu günün qlobal qərarlarının legitimliyini təmin edən əsas aktorlardan biridir. Əgər davamlı inkişaf yalnız mövcud nəsillərin ehtiyaclarını qarşılamağa yönəlmiş olarsa, gələcək nəsillərin maraqları nəzərə alınmadığı üçün bu konsept mahiyyətini itirər. Gənclər isə bu tarixi ziddiyyətin mərkəzində dayanaraq həm ekoloji, həm sosial, həm də iqtisadi fəsadların ən böyük daşıyıcılarına çevrilirlər. Onların ictimai hərəkatları, texnoloji mühitdə çevik manevr qabiliyyətləri və bəzən sosial kampaniyalarda liderliyi sübut edir ki, gənclər artıq passiv müşahidəçi yox, gələcəyin qaydalarını formalaşdıran fəal tərəflərdir. Bu mənzərə göstərir ki, gənclərin səsinin eşidilməsi və qərarvermə strukturlarında institusional şəkildə təmsilçiliyinin təmin olunması yalnız onların hüququ deyil, həm də davamlılığın gələcəkdə real şəkildə qorunması üçün qaçılmaz zərurətdir.

## Azərbaycan nümunəsi: gənclər siyasəti və SDG-lərə uyğunlaşma

Azərbaycan da SDG-lərin yerli səviyyədə tətbiqinə ciddi şəkildə inteqrasiya olunmuş dövlətlərdən biridir. 2016-cı ildən etibarən Azərbaycan hökuməti BMT-nin İnkişaf Proqramı ilə əməkdaşlıq çərçivəsində milli SDG platformasının yaradılmasına start verərək, qlobal 2030 gündəliyinin yerli müstəvidə tətbiqinə yönəlmiş addımlar atdı. Bu platforma həm dövlət qurumları, həm də vətəndaş cəmiyyəti institutları arasında koordinasiyanın gücləndirilməsinə imkan yaratdı. Milli səviyyədə formalaşdırılan lokal strategiyalar ölkənin sosial-iqtisadi inkişaf hədəfləri ilə qlobal davamlılıq prinsiplərini sintez edərək, inkişaf siyasətinin daha sistemli və inklüziv xarakter daşımasına şərait yaratdı. Bu, Azərbaycanın qlobal öhdəliklərinin yerli səviyyədə icrası üçün mühüm mexanizm olmaqla yanaşı, həm də müxtəlif sahələr üzrə islahatların prioritetləşdirilməsini təmin etdi.

Bu çərçivədə diqqət çəkən əsas istiqamətlərdən biri gənclərlə bağlı siyasətlərin SDG-lərə uyğunlaşdırılması oldu. Azərbaycan hökuməti gəncləri davamlı inkişafın aparıcı qüvvəsi kimi nəzərdən keçirərək, onların sosial, iqtisadi və ekoloji sahələrdə fəal iştirakını dövlət strategiyalarının mərkəzinə çəkdi. Bu yanaşma həm gənclərin potensialının maksimum istifadəsinə şərait yaradır, həm də ölkədə nəsillərarası ədalət prinsipini möhkəmləndirir. Gənclərin təhsil, məşğulluq, innovasiya və vətəndaş cəmiyyəti proseslərinə daha fəal qoşulması, onları yalnız sosial siyasətin hədəfi deyil, həm də onun subyekti kimi qəbul etmək zərurətindən irəli gəlir. Beləliklə, gənclər siyasətinin qlobal SDG gündəliyi ilə uzlaşdırılması Azərbaycanın inklüziv inkişaf modelinin mühüm sütunlarından birinə çevrilmişdir.

Azərbaycan Gəncliyi 2017–2021 Dövlət Proqramı və onun davamı olan 2022–2026 proqramı bu istiqamətdə atılan mühüm addımlar sırasında yer alır. Hər iki proqramda SDG-lərlə birbaşa əlaqələndirilmiş komponentlərin – məşğulluq imkanlarının genişləndirilməsi, innovasiya və texnologiyanın təşviqi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, könüllülük fəaliyyətlərinin stimullaşdırılması və təhsilin modernləşdirilməsi kimi məsələlərin xüsusi vurğulanması gənclərin davamlı inkişaf gündəliyindəki rolunu daha da gücləndirdi. Bu proqramlar yalnız qısa müddətli tədbirlərlə məhdudlaşmır, eyni zamanda uzunmüddətli perspektivdə gənclərin insan kapitalı kimi mövqeyini möhkəmləndirən strateji çərçivə rolunu oynayır. Nəticə etibarilə, Azər-

baycan gəncliyə yönəlik siyasətlər vasitəsilə həm milli prioritetlərini, həm də qlobal SDG öhdəliklərini paralel şəkildə həyata keçirməyə nail olur.

Eyni zamanda, Azərbaycanın 2030-cu il Milli Prioritetlərində müəyyən edilmiş "XXI əsrin tələblərinə uyğun təhsil" istiqaməti ölkənin inkişaf strategiyasında mühüm yer tutur və birbaşa olaraq BMT-nin 4-cü Davamlı İnkişaf Məqsədi – “Keyfiyyətli təhsil” ilə üst-üstə düşür. Burada əsas vurğu yalnız hər bir vətəndaşın məktəbə getmək hüququnun təmin edilməsinə deyil, həm də təhsilin keyfiyyətinin yüksəldilməsinə, onun əlçatanlıq və inklüzivlik prinsipləri əsasında təşkilinə yönəlib. Təhsil siyasətinin əmək bazarının çağırışları ilə uyğunlaşdırılması gənclərin gələcək peşəkar həyatında rəqabət qabiliyyətini artırmaqla yanaşı, onların cəmiyyətin fəal və məsuliyyətli üzvü kimi formalaşmasına da şərait yaradır. Bununla da Azərbaycan təhsili yalnız bilik ötürülməsi mexanizmi kimi deyil, həm də insan kapitalının inkişafını hədəfləyən strateji alət kimi qəbul edir və bu prosesin uğurlu icrası ölkənin sosial-iqtisadi sabitliyi ilə yanaşı, uzunmüddətli dayanıqlı inkişafına xidmət edir.

Bu istiqamətin konkret ifadəsi kimi Milli Prioritetlərdə “ömürboyu təhsil”, “rəqəmsal səriştələr”, “erkən yaşda təhsilə çıxış” və “məzmunca modernləşmə” kimi anlayışlar xüsusi qeyd olunmuşdur. Sözügedən hədəflər BMT-nin alt-məqsədləri ilə (4.2 (erkən uşaq inkişafı), 4.4 (əmək bacarıqları və texniki təhsil), 4.7 (dayanıqlı inkişaf, vətəndaşlıq və mədəni müxtəliflik üzrə təhsil)) birbaşa uzlaşaraq Azərbaycanın qlobal öhdəliklərinə sadiqliyini nümayiş etdirir. Bu yanaşma təhsil sistemini rəqəmsal dövrün reallıqları ilə birləşdirərək, gənclərin texnologiya əsaslı mühitdə bilik və bacarıqlarını inkişaf etdirməyə imkan yaradır. Eyni zamanda, müxtəlif sosial qrupların təhsilə bərabər çıxış imkanlarının təmin olunması inklüzivlik prinsipinin praktik reallaşmasına xidmət edir. Nəticədə, Azərbaycanın təhsil siyasəti həm milli inkişafın təməl dayağı, həm də SDG-lərin əsas ruhunu əks etdirən qlobal davamlılıq hədəflərinin lokallaşdırılmış modeli kimi çıxış edir [1].

Bu kontekstdə, Azərbaycanın təhsil siyasətində həyata keçirilən islahatlar yalnız daxili sosial-iqtisadi ehtiyacları qarşılamaqla kifayətlənmir, həm də beynəlxalq standartlara uyğunlaşma prosesini gücləndirir. “XXI əsrin tələblərinə uyğun təhsil” istiqaməti çərçivəsində kurikulumların daim yenilənməsi, rəqəmsal resursların tətbiqi və müəllimlərin peşəkar inkişafına xüsusi diqqət yetirilməsi təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Eyni zamanda, təhsildə inklüzivlik prinsipinin reallaşdırılması – əlilliyi olan uşaqların, sosial cəhətdən həssas qrupların və regionlarda yaşayan uşaqların bərabər imkanlarla təmin olunması Azərbaycanı SDG 4-ün “heç kimin kənarda qalmaması” çağırışına yaxınlaşdırır. Burada əsas məqsəd təhsili yalnız bilik ötürülməsi müstəvisində deyil, həm də əmək bazarının dəyişən tələblərinə cavab verən praktiki və yaradıcı bacarıqların formalaşdırılması istiqamətində qurmaqdır. Bu, ölkənin gənc nəslini rəqəmsal iqtisadiyyatın, yaşıl inkişaf modelinin və qlobal əməkdaşlıq mühitinin fəal iştirakçısına çevirmək üçün vacibdir. Beləliklə, təhsilin məzmun və metodlarında həyata keçirilən bu dəyişikliklər Azərbaycanın insan kapitalını gücləndirməklə yanaşı, cəmiyyətin sosial rifahının, iqtisadi sabitliyinin və inklüziv inkişafının dayanıqlı əsaslarını formalaşdırır.

Xüsusilə erkən uşaqlığın əhatə dairəsinin artırılması və məktəbyaşlı uşaqların bacarıqlarına yönəlik inteqrativ metodların tətbiqi Azərbaycanda təhsilin SDG-lər sistemində strateji yer tutduğunu göstərir. Belə ki, xüsusilə erkən uşaqlıq mərhələsinin əhatə dairəsinin genişləndirilməsi Azərbaycanın təhsil siyasətində davamlı inkişaf məqsədlərinə uyğun şəkildə prioritet istiqamət kimi formalaşır. Çünki uşaqların həyatın ilk illərində keyfiyyətli təhsil imkanlarına çıxışı onların gələcək intellektual inkişafı, sosial adaptasiyası və emosional sabitliyi üçün əsas zəmin yaradır. Bu sahədə atılan addımlar yalnız məktəbəqədər təhsil müəssisələrinin sayının artırılması ilə məhdudlaşmır, həm də tədris proqramlarının müasir pedaqoji yanaşmalar əsasında yenilənməsini və valideynlərin maarifləndiril-

məsini əhatə edir. Beləliklə, erkən uşaqlığın keyfiyyətli təhsillə təmin olunması gələcəkdə sosial-iqtisadi bərabərsizliyin azalmasına, gender balansının möhkəmlənməsinə və daha inklüziv cəmiyyətin formalaşmasına xidmət edir. Bu baxımdan, Azərbaycan təhsil sistemi BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində erkən uşaqlıq təhsilinin strateji əhəmiyyətini qəbul edərək uzunmüddətli inkişafın insan kapitalına əsaslandığını təsdiqləyir.

Eyni zamanda məktəbyaşlı uşaqlar üçün bacarıqlara əsaslanan inteqrativ metodların tətbiqi Azərbaycanın təhsil sistemində yeni keyfiyyət mərhələsini müəyyənləşdirir. Bu metodologiya yalnız bilik ötürmək deyil, həm də uşaqlarda yaradıcı düşüncə, tənqidi analiz qabiliyyəti və əməkdaşlıq bacarığının inkişaf etdirilməsinə yönəlmişdir. İnnovativ tədris yanaşmaları – layihə əsaslı öyrənmə, STEM və rəqəmsal bacarıqların tədrisi – şagirdləri qloballaşan dünyanın tələblərinə uyğun şəkildə hazırlayır. Belə bir transformasiya həm milli iqtisadiyyatın rəqabət qabiliyyətinin güclənməsinə, həm də ölkənin insan kapitalının keyfiyyətcə yüksəldilməsinə töhfə verir. Nəticə etibarilə, bacarıq yönümlü və inteqrativ tədris metodları Azərbaycanın SDG-lər sistemində təhsil hədəflərinə nail olmaqda mühüm vasitə rolunu oynayır və gələcəkdə sosial-iqtisadi inkişafın dayanıqlılığını təmin edən əsas strateji resurs kimi dəyərləndirilir.

İkinci mühüm istiqamət kimi təhsilin əmək bazarına inteqrasiyası və iqtisadi davamlılığın əsas dayaq sütunu rolunu oynaması xüsusi əhəmiyyət daşıyır və bu, BMT-nin 8-ci Davamlı İnkişaf Məqsədi olan "Layiqli əmək və iqtisadi artım" hədəfi ilə birbaşa şəkildə əlaqələnir. Bu çərçivədə Azərbaycanın milli prioritetlərində irəli sürülən "peşə hazırlığı sisteminin beynəlxalq sertifikatlara uyğun qurulması" ideyası gənclərin əmək bazarında rəqabət qabiliyyətini artırmaqla yanaşı, onların bilik və bacarıqlarının beynəlxalq standartlara uyğun təsdiqlənməsinə şərait yaradır. Həmçinin "ali təhsilin beynəlxalq rəqabətə uyğunlaşdırılması" istiqaməti yalnız ölkədaxili əmək bazarının ehtiyaclarına cavab verməklə kifayətlənmir, eyni zamanda qlobal əmək bazarında da Azərbaycan gənclərinin mövqeyini gücləndirməyi nəzərdə tutur. Bu yanaşma BMT-nin 4.c alt-məqsədinə uyğun olaraq müəllimlərin və pedaqoji heyətin peşəkarlığının artırılması, 8.6 alt-məqsədinə uyğun olaraq isə gənclərin məşğulluq imkanlarının genişləndirilməsi ilə üst-üstə düşür. Digər tərəfdən, qeyri-formal təhsilin tanınması və yeni ixtisasların meydana gəlməsinə uyğun adaptiv təhsil sisteminin formalaşdırılması əmək bazarının dinamik tələblərinə cavab vermək üçün mühüm zərurət kimi çıxış edir. Belə bir sistem həm gənclərin əmək bazarına çevik şəkildə uyğunlaşmasına imkan yaradır, həm də milli iqtisadiyyatın davamlı inkişafına strateji dəstək göstərir. Nəticə etibarilə, təhsil ilə əmək bazarı arasında qurulan bu körpü insan kapitalının keyfiyyətini artıraraq, ölkənin həm sosial, həm də iqtisadi baxımdan uzunmüddətli dayanıqlılığının təmin edilməsində həlledici rol oynayır [9]. Bu da öz növbəsində Azərbaycan təhsilinin qlobal dəyərlər sisteminə inteqrasiyasını və gənclərin beynəlxalq rəqabətə hazır, innovativ düşüncəli və texnoloji trendlərlə ayaqlaşan fərdlər kimi formalaşmasını təmin etməyə yönəlib. Beləliklə, Azərbaycan yalnız SDG-lərə formal uyğunluq deyil, onların məzmun dərinliyi ilə vəhdətdə milli strategiya quraraq bu sahədə nümunəvi istiqamət götürmüşdür.

Bununla belə, ölkədə regionlar üzrə gənclərin imkanlara çıxışında fərqliliklər mövcuddur. Dövlət Statistika Komitəsinin 2023-cü il məlumatlarına əsasən, Bakı ilə bölgələr arasında gənclərin ali təhsilə çıxışı, rəqəmsal bacarıqları və beynəlxalq proqramlarda iştirakı sahəsində ciddi fərqlər qalmaqdadır. Bu isə göstərir ki, SDG-lərin həyata keçirilməsi yalnız milli strategiyalarla deyil, regional balans və sosial ədalət prinsiplərinə söykənən lokal yanaşmalarla da tamamlanmalıdır. Gənclər təşkilatlarının fəaliyyətinin dəstəklənməsi, iştirakçılıq büdcələrinin tətbiqi və məktəbdənkənar inkişaf proqramları bu sahədə praktiki həllərdən biri ola bilər.

Başqa sözlə, Azərbaycan nümunəsi göstərir ki, ölkə gənclər siyasətini SDG-lərlə uyğunlaşdıraraq həm milli prioritetləri, həm də

qlobal hədəfləri vahid çərçivədə birləşdirir; xüsusən təhsil və məşğulluq istiqamətləri 4-cü və 8-ci məqsədlərlə sinxronlaşdırılaraq insan kapitalının inkişafı, innovasiya və əmək bazarına inteqrasiya əsas prioritet kimi müəyyənləşdirilib. Bununla belə, həmçinin statsitika göstərir ki, regionlararası imkan fərqləri və sosial bərabərsizliklər gənclərin təhsilə, rəqəmsal bacarıqlara və beynəlxalq imkanlara çıxışında maneə yaradır ki, bu da göstərir: SDG-lərin icrası yalnız milli strategiyalarla deyil, həm də lokal səviyyədə inklüziv siyasət və iştirakçılıq mexanizmləri ilə dəstəklənməlidir.

## Nəticə

Nəticə olaraq demək olar ki, SDG-lərin həyata keçirilməsi prosesində gənclər sadəcə yardım gözləyən passiv təbəqə deyil, transformasiyanın aparıcı qüvvəsi, çevik adaptator və nəsillərarası məsuliyyətin daşıyıcısıdır. Onların inkişaf gündəmində iştirakçılığı təkcə statistik göstəricilər üçün deyil, həm də demokratik legitimlik və sosial sabitlik üçün zəruridir. Dövlətlər və beynəlxalq təşkilatlar gəncləri yalnız proqramların benefisiarı kimi deyil, strateji tərəfdaş, təklif verən aktor və resurs yaradan subyekt kimi tanımalıdırlar. SDG-lər çərçivəsində gənclərin rolu onların hüquq və ehtiyaclarının tanınması ilə yanaşı, təmsilçilik, iştiraka çıxış və sosial təsir imkanlarının genişləndirilməsi ilə gücləndirilməlidir. Yalnız bu halda, 2030 gündəliyinin "heç kim geridə qalmasın" prinsipi reallığa çevrilə bilər. Bu baxımdan, tədqiqatın nəticələri aşağıdakı kimi ümumiləşdirilə bilər:

– Gənclər yalnız benefisiar deyil, sosial dəyişikliklərin aparıcı aktorudur. Başqa sözlə, SDG-lər çərçivəsində gənclərin rolu passiv faydalanan deyil, aktiv təşəbbüskar və qərar qəbuletmədə iştirak edən subyekt kimi qiymətlən-dirilməlidir. Onların sosial təsir gücü və texnoloji resurslara çıxışı bu rolu daha da gücləndirir.

– SDG-lərin bir çoxu gənclərlə birbaşa və ya dolayı əlaqəlidir. Xüsusilə keyfiyyətli təhsil (SDG 4), layiqli əmək (SDG 8), sosial ədalət və institusional iştirakçılıq (SDG 10, 16, 17) kimi məqsədlər gənclərin həyat keyfiyyətini və qərar qəbuletmədə iştirakını müəyyən edən əsas sahələrdir.

– Azərbaycanın SDG-lərlə uyğunlaşdırılmış gənclər və təhsil siyasəti mövcuddur. Belə ki, Azərbaycan 2030 gündəliyinə uyğun olaraq gənclərlə bağlı milli proqramlar həyata keçirmiş, bu proqramlarda təhsil, məşğulluq və iştirakçılıq sahələrini SDG-lərlə birbaşa əlaqələndirmişdir. Xüsusilə təhsilin əmək bazarı ilə uyğunlaşdırılması diqqətçəkicidir.

– Regionlararası bərabərsizlik ölkəmizdə SDG-lərin effektiv icrasına mane ola bilər. Paytaxt və bölgələr arasında gənclərin imkanlara çıxışı sahəsində davam edən fərqlər (təhsil, rəqəmsal bacarıqlar, iştirakçılıq imkanları) göstərir ki, SDG-lərin tətbiqi lokal strategiyalarla və sosial ədalət əsaslı regional yanaşmalarla dəstəklənməlidir.

Tədqiqatımızın nəticəsi əsasında gələcək üçün proqnozlaşdırmaq olar ki, gənclərin SDG-lərin həyata keçirilməsində aktiv subyekt kimi iştirakı daha da güclənəcək və bu proses onların həm milli, həm də qlobal qərar qəbuletmədə əsas aktorlardan birinə çevrilməsini təmin edəcəkdir; xüsusilə təhsil və məşğulluğun əmək bazarının tələblərinə uyğunlaşdırılması, rəqəmsal bacarıqların inkişafı və sosial ədalət mexanizmlərinin gücləndirilməsi gənclərin potensialını reallaşdırmağa geniş imkanlar açacaq. Ölkəmizin kontektsində isə Azərbaycan Respublikasının SDG-lərə inteqrasiya olunmuş gənclər siyasəti bu baxımdan nümunəvi model yaratsa da, regionlararası bərabərsizliklərin azaldılması və iştirakçılıq platformalarının institusionallaşdırılması yaxın gələcək üçün hələ də zəruri qalacaq. Əgər bu sahələrdə davamlı və inklüziv addımlar atılarsa, gənclər transformasiyanın yalnız faydalananı deyil, həm də onun əsas memarı olacaq və 2030 gündəliyinin "heç kim geridə qalmasın" prinsipi daha real əsaslarla həyata keçirilə biləcəkdir.

**Ədəbiyyat:**


1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. URL: https://president.az/az/articles/view/50474
2. Ələkbərov, U. İnsan inkişafının əsasları. Bakı: Aspoliqraf, 2016. 279 s.
3. Ələkbərov, U. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Bakı: Təhsil, 2018. 215 s.
4. Ələkbərov, U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı: Təhsil, 2013. 222 s.
5. Common beliefs and principles behind the SDGs: People, Planet, Prosperity, Peace and Partnership. URL: https://www.agora-parl.org/resources/aoe/sustainable-development-goals-beliefs-and-principles
6. Global Employment Trends for Youth 2022: Asia and the Pacific. URL: https://www.youthforesight.org/resource-details/Publications/1601#:~:text=HIGHLIGHTS&text=The%20unemployment%20rate%20of%20young,divergences%20between%20subregions%20and%20countries.
7. Global Youth Development Report 2020. URL: https://youth-development-index.thecommonwealth.org/assets/pdf/global-youth-development-report-2020.pdf
8. Goal 4: Quality Education. UNRIC. URL: https://unric.org/en/sdg-4/
9. "Milli Prioritetlər – 2030" etibarlı gələcəyin bünövrəsidir. URL: https://azerbaijan.az/news/6590
10. SDG 8: Promote sustained, inclusive and sustainable economic growth, full and productive employment and decent work for all. URL: https://sdgs.un.org/goals/goal8
11. UNESCO with, by and for youth. URL: https://www.unesco.org/en/youth#:~:text=UNESCO%20with%2C%20by%20and%20for,a%20priority%20group%20for%20UNESCO.
12 Youth participation in national parliaments: 2023. URL: https://www.ipu.org/resources/publications/reports/2023-10/youth-participation-in-national-parliaments-2023
13. 244M children won't start the new school year. URL: https://www.unesco.org/gem-report/en/articles/244m-children-wont-start-new-school-year


***Açar sözlər:** Gənclər siyasəti, davamlı inkişaf, SDG-lər, iştirakçılıq, təhsil*

**Murad Hasankhanli**

*The Academy Of Public Administration under the President of the Republic of Azerbaijan*
*Ph.D. Student*

## THE ROLE OF YOUTH IN ENSURING SUSTAINABLE DEVELOPMENT: SUBJECTIVITY AND PARTICIPATION

### ABSTRACT

The article analyzes the role of young people in achieving the Sustainable Development Goals (SDGs), emphasizing their importance as active agents of social and institutional change. It examines key SDGs: quality education (SDG 4), decent work and economic growth (SDG 8), gender equality (SDG 5), strong institutions (SDG 16), and global partnerships (SDG 17). Particular attention is paid to the need for the systematic integration of young people into decision-making

processes and the expansion of their participation in politics. Using Azerbaijan as an example, the national programs "Youth of Azerbaijan 2017–2021" and "2022–2026," aimed at improving education, employment, and volunteering, are evaluated. Problems of regional differences, institutional barriers, and limited access to resources are highlighted. The article offers recommendations on the creation of regional centers, support for informal education, models of youth participation in budgeting, and the expansion of international cooperation to strengthen the contribution of young people to sustainable development. The author emphasizes that only with the active involvement of young people is it possible to achieve sustainable development and the successful implementation of the SDGs at the national and global levels.

***Keywords:*** *Youth policy, sustainable development, SDGs, participation, education*

**Мурад Гасанханлы**

*Докторант кафедры Устойчивого развития*
*Академии Государственного Управления при*
*Президенте Азербайджанской Республики*

## РОЛЬ МОЛОДЁЖИ В ОБЕСПЕЧЕНИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ: СУБЪЕКТНОСТЬ И УЧАСТИЕ

### РЕЗЮМЕ

В статье анализируется роль молодежи в достижении Целей устойчивого развития (ЦУР), подчеркивая её значение как активного субъекта социальных и институциональных изменений. Рассматриваются ключевые ЦУР: качественное образование (ЦУР 4), достойная работа и экономический рост (ЦУР 8), гендерное равенство (ЦУР 5), устойчивые институты (ЦУР 16) и глобальное сотрудничество (ЦУР 17). Особое внимание уделяется необходимости системной интеграции молодежи в процессы принятия решений и расширению её участия в политике. На примере Азербайджана оцениваются национальные программы «Молодёжь Азербайджана 2017–2021» и «2022–2026», направленные на улучшение образования, трудоустройства и волонтерства. Выделяются проблемы региональных различий, институциональных барьеров и ограниченного доступа к ресурсам. В статье предлагаются рекомендации по созданию региональных центров, поддержке неформального образования, модели участия молодежи в бюджетировании и расширение международного сотрудничества для усиления вклада молодежи в устойчивое развитие. Автор подчеркивает, что только при активном вовлечении молодежи возможно достижение устойчивого развития и успешная реализация ЦУР на национальном и глобальном уровнях.

***Ключевые слова:*** *Молодежная политика, устойчивое развитие, ЦУР, участие, образование*

DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.030

G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G  R E S E A R C H E R S

S O S İ O L O G İ Y A
S O S I O L O G Y

UOT 316

**ŞİRİN MƏHƏMMƏD**

**Azərbaycan Turizm və Menecment Universitetinin doktorantı**

*e-mail: shirin.mahammad@atmu.edu.az*

# MÜHARİBƏ VETERANLARININ SOSİAL REABİLİTASİYASI VƏ İQTİSADİ TƏMİNATININ TƏHLİLİ

## Giriş

Azərbaycanda müharibə veteranlarının sosial reabilitasiyası və iqtisadi təminatı, xüsusilə Vətən müharibəsindən sonra dövlətin sosial siyasətinin mərkəzi istiqamətlərindən birinə çevrilmişdir. Veteranların psixoloji travmaları, sosial adaptasiya çətinlikləri və iqtisadi inteqrasiya problemləri yalnız fərdi səviyyədə deyil, ümumilikdə ölkənin sosial sabitliyinə və milli həmrəyliyinə də ciddi təsir edir. Bu baxımdan, müharibə iştirakçılarının cəmiyyət həyatına uğurlu reinteqrasiyası, iqtisadi müstəqilliklərinin təmin edilməsi və onların qarşılaşdıqları müxtəlif problemlərin effektiv həlli Azərbaycanın uzunmüddətli inkişaf strategiyası və sosial ədalətin təmin olunması baxımından aktual və prioritet bir məsələ kimi ortaya çıxır.

Tədqiqatın əsas məqsədi Azərbaycanda müharibə veteranlarının sosial-iqtisadi reabilitasiyası ilə bağlı görülmüş işləri sistemli şəkildə təhlil etmək, mövcud problemləri və qarşıda duran çağırışları müəyyənləşdirmək, həmçinin effektiv həll yollarını təklif etməkdir. Məqalədə əsasən tarixi və müqayisəli təhlil metodundan istifadə olunmuş, beynəlxalq təcrübələr nəzərdən keçirilmişdir. Araşdırma həm nəzəri, həm də praktik baxımdan ədəbiyyata əhəmiyyətli töhfə verir, çünki bu istiqamətdə dövlət siyasətinin real nəticələrini əks etdirən kompleks təhlil aparılmış, eyni zamanda sosial siyasətin təkmilləşdirilməsi üçün konkret təkliflər təqdim edilmişdir.

## Müharibə veteranlarının sosial-iqtisadi reabilitasiyasında dünya təcrübəsinin öyrənilməsi və tətbiqi məsələləri

Müharibədən sonrakı dövrdə Azərbaycanda veteranların cəmiyyətə inteqrasiyası və psixo-sosial dəstəyi sahəsindəki çətinliklər onların fiziki, psixoloji və sosial vəziyyətlərindən qaynaqlanır və bu səbəbdən də sosial siyasətin mühüm prioritetinə çevrilmişdir. Xüsusilə, müharibə veteranlarının böyük bir hissəsinin mülki həyata uyğunlaşmaqda çətinlik çəkməsi, travma sonrası stress pozuntuları (PTSD), əmək bazarına adaptasiya problemləri və ailə-məişət münasibətlərində yaşanan böhranlar

dövlət və cəmiyyət üçün mühüm sosial məsələ yaradır. Bu kontekstdə, veteranların sosial-psixoloji problemlərinin həlli yalnız səhiyyə xidmətlərinin gücləndirilməsi ilə məhdudlaşmamalı, həmçinin onların cəmiyyət həyatında iştirakını asanlaşdıracaq hüquqi, iqtisadi və sosial mexanizmlərin yaradılmasını da tələb edir, çünki müharibə veteranlarının cəmiyyətə uğurla reinteqrasiyası dövlət təhlükəsizliyi, ictimai sabitlik və milli həmrəyliyin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır.

Bu baxımdan, Azərbaycanda müharibə veteranlarının iqtisadi təminatının təşkili məsələsinin aktuallığı həm sosial, həm də siyasi sabitlik perspektivlərindən qaynaqlanır; xüsusilə müharibədən sonrakı şəraitdə dövlətin iqtisadi siyasətində bu kateqoriyaya aid şəxslərin maddi rifahının artırılması mühüm prioritetlərdən biridir. Veteranların iqtisadi təminatı ölkədə əmək bazarına uyğunlaşmalarını asanlaşdırmaq, onların sahibkarlıq fəaliyyətlərinə cəlb olunması və peşə yönümlü təlimlər vasitəsilə məşğulluq imkanlarının genişləndirilməsi ilə bilavasitə əlaqəlidir; bu da həm fərdi səviyyədə sosial müdafiəni gücləndirir, həm də ümumi iqtisadi inkişafa töhfə verir. Bundan əlavə, veteranların maddi rifahının yaxşılaşdırılması onların ailə üzvlərinin sosial müdafiəsini təmin edir, cəmiyyətin yoxsulluq və işsizlik səviyyəsini azaldır, nəticədə ümumi sosial sabitliyə müsbət təsir göstərir. Beləliklə, müharibə veteranlarının iqtisadi təminatının yüksəldilməsi Azərbaycanın dayanıqlı inkişaf siyasətinin mühüm tərkib hissəsi olmaqla yanaşı, həm də ölkədə milli həmrəylik və sosial ədalət prinsiplərinin möhkəmlənməsi baxımından xüsusi aktuallıq kəsb edir.

Müharibə veteranlarının psixo-sosial reabilitasiyasının və iqtisadi təminatının təşkili Azərbaycan üçün həm fərdi, həm də ümumi sosial sabitlik baxımından xüsusi aktuallıq daşıyır. Dünyanın müxtəlif ölkələrində aparılan müharibələrin nəticələri göstərir ki, veteranların cəmiyyətə tam inteqrasiya olunmaması onların uzunmüddətli sosial problemlərlə qarşılaşmasına gətirib çıxarır. Məsələn, ABŞ-da Vyetnam müharibəsinin başa çatmasından sonra 20 il ərzində cinayət törətdiklərinə görə həbs olunanların üçdə biri veteranlar olmuş, ölkədəki evsiz əhalinin isə təxminən dörddə birini məhz müharibə iştirakçıları təşkil etmişdir. Bu göstəricilər müharibə iştirakçılarına maddi və psixoloji dəstəyin yetərsiz təşkil edildiyi hallarda cəmiyyətin ciddi sosial problemlərlə qarşılaşdığını aydın şəkildə ortaya qoyur [11]. Azərbaycanda müharibə iştirakçılarına münasibətdə iqtisadi dəstək mexanizmlərinin gücləndirilməsi, onların işlə təminatı və sosial rifahının artırılması tədbirləri bu kimi mənfi nəticələrin qarşısını almağa yönəlmişdir. Veteranların iqtisadi təminatı sahəsində atılan addımların vacibliyi həmçinin onlarda tez-tez müşahidə edilən posttravmatik stress pozuntusunun ağır nəticələrini azaltmaq baxımından da böyük əhəmiyyət daşıyır, çünki iqtisadi təminat problemləri PTSP əlamətlərini daha da ağırlaşdıraraq veteranların cəmiyyətə reinteqrasiyasını çətinləşdirə bilər.

Eyni zamanda posttravmatik stress pozuntusu (PTSP) müharibə iştirakçıları arasında olduqca geniş yayılmış, ciddi sosial və psixoloji fəsadlar törədən bir fenomendir. Tarixi təcrübələr göstərir ki, müxtəlif dövrlərdə hərbi əməliyyatlarda iştirak edən hərbçilərin böyük bir hissəsi müharibədən sonra müxtəlif dərəcələrdə psixi pozuntular yaşamışdır. Məsələn, İkinci dünya müharibəsi zamanı ABŞ ordusunda təxminən bir milyon hərbçi məhz psixoloji problemlər səbəbilə müalicəyə ehtiyac duymuş, Vyetnam müharibəsindən sonra isə veteranlar arasında psixi travmanın təsirləri daha ağır nəticələr doğurmuşdur [11]. Travmatik hadisələrin təsiri veteranların şəxsi həyatını ciddi şəkildə pozaraq ailə münasibətlərinin dağılmasına, emosional qeyri-sabitliyə və cinayət hallarının artmasına səbəb olmuşdur. Müharibə iştirakçılarının yaşadıqları travmaların effektiv müalicəsi isə kompleks yanaşma tələb edir və ənənəvi dərman müali-

cələrinin təsiri məhdud olduğundan, psixoterapiya vasitəsilə fərdi yanaşmaların tətbiqi daha faydalı hesab olunur. PTSP-nin müalicəsi üzrə kompleks reabilitasiya tədbirlərinin maliyyə yükünün yüksək olması isə dövlətlər üçün əlavə çətinlik yaradır və bu səbəbdən ölkələrin əksəriyyətində tam miqyaslı reabilitasiya proqramları həyata keçirilmir. Bu vəziyyət Azərbaycanda da müharibə veteranlarının psixoloji reabilitasiyasına diqqətin artırılmasını və maliyyə resurslarının daha effektiv istifadəsini tələb edir.

Müharibə veteranlarının sosial-iqtisadi məsələlərinin dövlətin prioritetində olduğunu cənab Prezident də dəfələrlə vurğulamışdır. Məsələn, 2024-cü ilin yanvarın 10-da verdiyi müsahibə zamanı bu məsələyə xüsusilə toxunmuşdu [5]: "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yəni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ müharibəsinin iştirakçıları, yəni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir".

Azərbaycanda müharibə veteranlarının sosial-iqtisadi reabilitasiyası əsasən 44 günlük Vətən müharibəsindən sonra aktuallaşmış olsa da, hətta bir çox layihələrə ondan əvvəl start verilmişdir. Məsələn, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Agentliyinin, BMT-nin İnkişaf Proqramının və BMT-nin Əhali Fondunun birgə icra etdiyi "Əlilliyi olan qadınların və müharibə veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi əlilliyi olan qadınların və müharibə iştirakçılarının sosial müdafiəsini gücləndirmək məqsədilə onların maddi rifahının yüksəldilməsini, hüquqlarının qorunmasını və cəmiyyətə tam şəkildə inteqrasiyasını təmin etməyi hədəfləyib. 2019-2021-ci illər ərzində həyata keçirilmiş bu layihənin əhatə dairəsinə Bakı şəhəri ilə yanaşı Masallı və Salyan rayonları daxil edilmiş, iştirakçılara müxtəlif təlimlər verilmiş və onların iqtisadi fəaliyyətlərini genişləndirmək məqsədilə biznes planları qiymətləndirilərək təsdiqlənmiş 136 nəfərə öz seçdikləri fəaliyyət istiqamətinə uyğun olaraq lazımi avadanlıqlar təqdim edilmişdir [2].

Xüsusilə, iqtisadi reabilitasiya baxımından, Azərbaycanda müharibə veteranları və müharibələrlə əlaqəli xüsusi qruplara Prezident təqaüdünün təyin edilməsi dövlətin sosial siyasətində mühüm yer tutan və xüsusilə veteranların iqtisadi rifahının yüksəldilməsinə yönələn bir addımdır. Bu təqaüd 2019-cu ilin aprel ayından tətbiq olunmağa başlanmış və onun verilməsi müxtəlif kateqoriyaları – müharibə iştirakçıları, müharibə və 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər, eləcə də Böyük Vətən müharibəsində iştirak etmiş şəxsləri və Leninqradın müdafiəsində xidmət etmiş vətəndaşları əhatə edir. Dövlətin bu təqaüdlə bağlı siyasəti eyni anda bir neçə kateqoriyaya aid vətəndaş üçün nəzərdə tutulduğu halda, hər bir şəxs yalnız öz statusuna görə nəzərdə tutulan ən yüksək məbləğli təqaüdü almaq hüququna malikdir [8]. Bu təqaüd siyasəti ümumilikdə müharibə veteranlarının və əlillərin iqtisadi sabitliyini dəstəkləmək məqsədilə həyata keçirilən uzunmüddətli sosial siyasətin bir hissəsidir.

Azərbaycanda müharibə veteranlarının sosial reabilitasiyası sahəsində beynəlxalq təcrübənin mənimsənilməsi məqsədilə dövlət qurumlarının nümayəndələri tərəfindən xarici ölkələrlə, xüsusilə də Türkiyə ilə sıx əməkdaşlıq həyata keçirilir. Bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin nümayəndə heyətinin Türkiyənin müvafiq qurumları ilə keçirdiyi görüşlər və ziyarətlər mühüm əhəmiyyətə malikdir. Məsələn, 2024-cü ildə Ankarada baş tutan görüşlər zamanı hər iki ölkənin mövcud reabilitasiya infrastrukturu və hüquqi bazası qarşılıqlı şəkildə müzakirə edilmiş, xüsusilə əlilliyi olan şəxslərin və veteranların reabilitasiyası üzrə Türkiyənin təcrübəsi diqqətlə öyrənilmişdir [1]. Bu çərçivədə Türkiyənin müxtəlif dövlət qurumları və universitetləri ilə keçirilən görüşlərdə reabilitasiya xidmətlərinin təşkili, yüksəktexnologiyalı reabilitasiya avadanlıqları və metodlarının tətbiqi, o cümlədən autizmli şəxslər, gözdən əlilliyi olan şəxslər və qazilərin reabilitasiyası üzrə fəaliyyət göstərən müasir reabilitasiya mərkəzlərinin iş prinsipləri təhlil olunmuşdur. Belə beynəlxalq təcrübələrin Azərbaycanda tətbiqi nəticəsində müharibə veteranlarının və əlilliyi olan şəxslərin sosial müdafiəsi sahəsində görülən işlərin səmərəliliyinin artırılması və bu şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının daha da genişləndirilməsi nəzərdə tutulur.

Ölkəmizdə müharibə veteranlarının sosial reabilitasiyası çərçivəsində dövlət tərəfindən regionlarda yeni reabilitasiya mərkəzlərinin yaradılması, eləcə də veteranların cəmiyyətə sosial inteqrasiyasını təşviq edən müxtəlif ictimai tədbirlərin keçirilməsi xüsusi əhəmiyyət kəsb edir və bu yanaşmanın parlaq nümunəsi olaraq 2023-cü ildə istifadəyə verilən Qarabağ Regional DOST Mərkəzinin Reabilitasiya Məntəqəsi göstərilə bilər ki, burada həm psixoloji, həm də ictimai tədbirlər vasitəsilə müharibə iştirakçılarının kompleks şəkildə reabilitasiyası həyata keçirilir və bunun nəticəsində veteranların cəmiyyətə reinteqrasiyasına şərait yaradılır [3]. Həmin mərkəzlərdə tibbi və psixoloji reabilitasiya xidmətlərinin göstərilməsi ilə yanaşı, veteranların cəmiyyətə uyğunlaşması və sosial münasibətlərinin inkişaf etdirilməsi məqsədilə müxtəlif tədbirlər də təşkil olunur ki, bunların arasında birgə ağacəkmə aksiyaları xüsusilə diqqət çəkir [10]. Ağacəkmə aksiyaları veteranların sosiallaşmasına, onların həm bir-biri ilə, həm də yerli icma üzvləri ilə ünsiyyətinin güclənməsinə, özlərini cəmiyyətin fəal və faydalı bir parçası kimi hiss etmələrinə yardım edir və beləliklə, onların psixoloji travmalarının azaldılmasına dolayı şəkildə təsir göstərir [16].

## Müharibə veteranlarının sosial-iqtisadi reabilitasiyası istiqamətində görülən işlərin təhlili

Dövlət siyasətinin digər vacib istiqaməti müharibə veteranlarının sosial təminatının iqtisadi ölçülərini də əhatə edir; bu siyasət iqtisadi dəstəyin, əmək bazarına inteqrasiyanın və sosial sabitliyin gücləndirilməsi prinsipləri üzərində qurulmuşdur. Azərbaycan dövləti bu sahədə beynəlxalq təşkilatların və özəl sektorun təşəbbüslərinə dəstək göstərməklə qazilərin sosial rifahını yüksəltməyi, eləcə də onların gələcək iqtisadi müstəqilliyini təmin etməyi məqsəd qoymuşdur. Bu istiqamətdə PAŞA Sığorta şirkəti kimi böyük biznes qurumlarının verdiyi dəstək və sponsorluq fəaliyyəti dövlət siyasətinin effektiv həyata keçirilməsi üçün əhəmiyyətli rol oynayır [9]. Dövlətin iqtisadi və sosial siyasətində şəhid ailələri və veteranların müdafiəsinin prioritet olması onların sosial statusunun yüksəlməsinə, uzunmüddətli psixoloji fəsadların qarşısının alınmasına və nəticədə cəmiyyətin bütövlükdə dayanıqlı inkişafına töhfə verir. Bu, həm sosial ədalətin təmin edilməsində, həm də ölkədə milli həmrəylik mühitinin möhkəmlənməsində mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Respublikası 2020-ci ildə müharibədən dərhal sonra bərpa mərhələsinə kompleks və sürətlə tətbiq olunan sosial müdafiə siyasəti ilə başlayıb ki, bu siyasət çərçivəsində əsas diqqət müharibədə həyatını itirmiş şəxslərin ailə üzvləri və müharibə iştirakçılarının sosial rifahının yaxşılaşdırılmasına yönəldilib. Dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri sosial təminat və ödənişlərin müraciət gözləmədən avtomatik təyin edilməsi, vətəndaşların maddi yardımlarla təmin olunması, psixoloji yardım və reabilitasiya xidmətlərinin genişləndirilməsi, veteranların məşğulluq problemlərinin sürətlə həlli və kiçik sahibkarlıq fəaliyyətlərinə cəlb edilməsi kimi istiqamətləri əhatə edir və sadəcə 2020-2021-ci illərdə bu proqramın əhatə dairəsi artıq 20 mindən çox insanı təşkil etmişdi.

Azərbaycan dövlətinin müharibə veteranlarına və şəhid ailələrinə diqqət və qayğısının ən bariz göstəricilərindən biri mənzil təminatı sahəsində görülən işlərin ardıcıl şəkildə genişləndirilməsidir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev verilmiş, 2021-ci ildə isə bu göstərici kəskin artaraq 3 min mənzil və fərdi evə çatdırılmışdır. Ümumilikdə postmüharibə dövründə tətbiq olunan geniş sosial dəstək paketi çərçivəsində 100 min şəxsə yönəlmiş 166 min xidmət göstərilmişdir ki, bu da dövlətin veteranların sosial müdafiəsinə verdiyi böyük önəmi əks etdirir [15].

Azərbaycanda müharibə iştirakçıları və şəhid ailələrinin iqtisadi təminatı məqsədilə genişmiqyaslı mənzil təminatı və nəqliyyat vasitələrinin təqdim edilməsi dövlətin sosial siyasətinin strateji vəzifələrindən biri olaraq diqqət mərkəzinə çıxıb və bu istiqamətdə aparılan fəaliyyət intensiv xarakter daşıyır. Bu yanaşma çərçivəsində ilk mərhələ kimi, 2020-2021-ci illər ərzində minlərlə müharibə əlili xüsusi nəqliyyat vasitələri ilə təmin edilib, həmçinin onların sosial rifahının və həyat keyfiyyətinin artırılması məqsədilə hər il mənzillərin verilməsi üzrə konkret göstərişlər və proqramlar icra olunub. Məsələn, yalnız 2020-ci ildə şəhid ailələri və müharibə veteranları üçün 1572 mənzil və fərdi ev ayrılıb, cari il üçün isə bu rəqəmin ikiqat artırılaraq 3 minə çatdırılması planlaşdırılır. Eyni zamanda, dövlət başçısının təşəbbüsü ilə həyata keçirilən uzunmüddətli proqramlar nəticəsində gələcək illərdə də mənzil təminatının davam etdirilməsi, xüsusən keçmiş məcburi köçkünlər üçün tikilmiş yaşayış komplekslərinin bir hissəsinin bu kateqoriyaya aid edilməsi nəzərdə tutulub ki, bu tədbirlər bütövlükdə müharibədən zərər çəkmiş şəxslərin iqtisadi sabitliyinin və maddi təminatının yaxşılaşdırılmasına hesablanmışdır.

Azərbaycanda şəhid ailələri, qazilər və erməni terrorundan zərər çəkmiş şəxslərin iqtisadi müstəqilliklərinin təmin olunması məqsədilə müharibə dövründən sonra həyata keçirilən özünüməşğulluq proqramları nəticəsində artıq təxminən 3700 şəxs müxtəlif iqtisadi fəaliyyətlərə cəlb edilib və onlardan 3030 nəfəri, o cümlədən şəhid ailələrinin 1200 üzvü üçün şəxsi təsərrüfat və kiçik bizneslər formalaşdırılıb [17]. Paralel olaraq müharibə zamanı xəsarət almış hərbçilərin tibbi-sosial reabilitasiyası sahəsində dövlətin apardığı siyasət müasir standartlara uyğunlaşdırılıb. Belə ki, 2021-ci ilin fevralında açılışı baş tutan Şağan Reabilitasiya Pansionatı hər il təxminən 5000 nəfərin müasir tibbi texnologiyalar vasitəsilə bərpa müalicəsi almağına imkan yaradır və bununla da ölkənin sosial dəstək sistemində mühüm yer tutur [13]. Bundan başqa, 2020-ci ilin dekabr ayından başlayaraq döyüşlər zamanı orqanlarını itirmiş qazilərimiz yüksək texnologiyalı elektron protezlərlə təmin edilir, eyni zamanda müharibədən sonra ümumilikdə 210 qaziyə 1220 müxtəlif reabilitasiya vasitəsi təqdim olunmuş və bu yaxınlarda isə onların mühərrikli təkərli oturacaqla təminatı da həyata keçirilməyə başlanmışdır.

2022-ci ilin sonuna olan statistika isə göstərir ki, bu çərçivədə ümumilikdə 119 min şəxs sosial dəstək tədbirləri ilə əhatə olunmuş və onlara yönəlmiş müxtəlif xidmətlərin sayı 249 mini keçmişdir. Konkret olaraq, 101 min şəxs üçün 113 min aylıq sosial ödəniş təyin edilmiş, 2200 şəxs sığorta ödənişi almış və 16,2 min şəxs üçün birdəfəlik ödəmə təmin olunmuşdur ki, bu da onların iqtisadi rifahını artırmaqla sosial reabilitasiya prosesini asanlaşdırmışdır. Veteranların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması baxımından 4000 mənzil və fərdi ev təqdim edilmiş, müharibə əlillərinə isə əlavə olaraq 300-dən çox avtomobil verilib; ümumilikdə isə mənzil və fərdi evlə təmin edilənlərin sayı 13 min nəfər, avtomobil ilə təmin edilənlərin sayı isə 7500 nəfəri ötüb. Eyni zamanda 367 nəfər yüksək texnologiyalı 382 ədəd müasir protezlə təmin edilmiş, 1709 nəfərə isə 28 min reabilitasiya vasitəsi təqdim olunmuşdur ki, bu vasitələr veteranların fiziki bərpasını və cəmiyyətə inteqrasiyasını sürətləndirir. Sosial-psixoloji reabilitasiya sahəsində isə 11 min nəfər veteran ümumilikdə 34 min xidmətdən yararlanıb, məşğulluq proqramları vasitəsilə isə 15,6 min şəhid ailəsi üzvü və müharibə iştirakçısının məşğulluğu təmin edilmiş, onların 8,8 mini özünüməşğulluq proqramına cəlb edilmişdir [14].

2021-ci ilin iyun ayında yaradılan vahid əlaqələndirmə mərkəzləri isə 63,6 min şəxsə xidmət göstərərək dövlətin sosial reabilitasiya siyasətində koordinasiyanı gücləndirmiş və xidmətlərin əlçatanlığını artırmışdır. Bu kompleks tədbirlər dövlətin sosial reabilitasiya siyasətinin effektivliyini göstərməklə yanaşı, veteranların sosial həyatının bərpası və rifahının artırılması istiqamətində mühüm uğurlara imza atıldığını təsdiqləyir.

Ümumiyyətlə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi vasitəsilə Azərbaycanda hazırda Bakı və regionlarda ümumilikdə 14 reabilitasiya müəssisəsi və 1 Protez-Ortopedik Reabilitasiya Mərkəzi fəaliyyət göstərir ki, bu da ölkədə geniş bir reabilitasiya şəbəkəsinin mövcudluğunu göstərir. Təkcə 2023-cü ilin ilk rübündə həmin müəssisələrdə əlilliyi olan 14722 şəxs müxtəlif reabilitasiya xidmətləri ilə təmin olunub və həmin dövrdə əlavə olaraq əlilliyi olan 3547 şəxsə ümumilikdə 19 939 reabilitasiya vasitəsi təqdim edilib ki, bunların arasında yüksək texnologiyalı müasir protezlər, mühərrikli təkərli oturacaqlar, aşağı və yuxarı ətraflar üçün ortezlər, protez və ortopedik ayaqqabılar kimi vasitələr xüsusi yer tutur. Xüsusilə, ikinci Qarabağ müharibəsindən sonra reabilitasiya müəssisələrində 2722 nəfər müharibə veteranına sosial-psixoloji və tibbi reabilitasiya xidmətləri göstərilib, müharibə ilə əlaqədar əlilliyi olan 1913 şəxsə isə ümumilikdə 35509 reabilitasiya vasitəsi verilib. Bundan əlavə, həm birinci, həm də ikinci Qarabağ müharibəsində yaralanaraq aşağı və yuxarı ətrafları amputasiya edilmiş 411 hərbçiyə isə 428 ədəd yüksək texnologiyalı son nəsil protez təqdim edilib ki, bu da dövlətin müharibə veteranlarının reabilitasiyası və sosial inteqrasiyasını təmin etmək məqsədilə həyata keçirdiyi sosial siyasətin əhatə dairəsinin və keyfiyyətinin yüksək səviyyədə olduğunu göstərir [12].

2021-ci ildə aprel ayının 2-də Azərbaycan Milli Məclisində "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Veteranlar haqqında" qəbul edilmiş dəyişikliklər ölkədə şəhidlərin və müharibə iştirakçılarının sosial hüquqlarının təmin edilməsi istiqamətində yeni mərhələni başlatmışdır; bu dəyişikliklər şəhidlər, şəhid ailələri, müharibə əlilləri və veteranlarla bağlı vahid informasiya bazasının yaradılmasını nəzərdə tutur. Bu bazanın yaradılmasında əsas məqsəd şəhid və şəhid ailəsi statusu əldə etmiş şəxslər haqqında məlumatların vahid sistemdə toplanması, saxlanılması və axtarışının avtomatlaşdırılmasıdır ki, bu da dövlət xidmətlərinin şəffaflığını və operativliyini artırmaqdadır. Həmçinin reyestrin tətbiqi nəticəsində şəhid

ailələri və digər müharibə iştirakçıları üçün dövlət orqanlarına müraciət zamanı onların hüquqi statuslarının elektron qaydada dərhal yoxlanılması mümkün olacaq və sosial təminat hüquqlarının təmin edilməsi üzrə müraciətlərə avtomatik və proaktiv yanaşma tətbiq ediləcəkdir. Bu da öz növbəsində həm sosial dəstək tədbirlərinin daha effektiv şəkildə həyata keçirilməsini təmin edəcək, həm də dövlət xidmətlərinin əlçatanlığını və keyfiyyətini yüksəldəcəkdir.

Azərbaycanda müharibə veteranlarının sosial reabilitasiyası sahəsində beynəlxalq təcrübənin mənimsənilməsi məqsədilə dövlət qurumlarının nümayəndələri tərəfindən xarici ölkələrlə, xüsusilə də Türkiyə ilə sıx əməkdaşlıq həyata keçirilir. Bu istiqamətdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin nümayəndə heyətinin Türkiyənin müvafiq qurumları ilə keçirdiyi görüşlər və ziyarətlər mühüm əhəmiyyətə malikdir. Məsələn, 2024-cü ildə Ankarada baş tutan görüşlər zamanı hər iki ölkənin mövcud reabilitasiya infrastrukturu və hüquqi bazası qarşılıqlı şəkildə müzakirə edilmiş, xüsusilə əlilliyi olan şəxslərin və veteranların reabilitasiyası üzrə Türkiyənin təcrübəsi diqqətlə öyrənilmişdir [1]. Bu çərçivədə Türkiyənin müxtəlif dövlət qurumları və universitetləri ilə keçirilən görüşlərdə reabilitasiya xidmətlərinin təşkili, yüksəktexnologiyalı reabilitasiya avadanlıqları və metodlarının tətbiqi, o cümlədən autizmli şəxslər, gözdən əlilliyi olan şəxslər və qazilərin reabilitasiyası üzrə fəaliyyət göstərən müasir reabilitasiya mərkəzlərinin iş prinsipləri təhlil olunmuşdur. Belə beynəlxalq təcrübələrin Azərbaycanda tətbiqi nəticəsində müharibə veteranlarının və əlilliyi olan şəxslərin sosial müdafiəsi sahəsində görülən işlərin səmərəliliyinin artırılması və bu şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının daha da genişləndirilməsi nəzərdə tutulur.

Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortaları haqqında qanunda qeyd edilir ki, hərbi qulluqçular həlak olduqda ödəniləcək sığorta ödənişinin məbləği 11 000 manata bərabərdir. Qanuna görə, hərbi qulluqçu hərbi xidmətdə olduğu zaman xəsarət (yaralanma, travma, kontuziya) alması, habelə xəstələnməsi nəticəsində birinci dərəcə əlil olduğu halda sığorta ödənişinin 80 faizi (8 800 AZN), ikinci qrup əlil olduğu halda 60 faizi (6 600 AZN), üçüncü qrup əlil olduğu halda isə 40 faizi (4 400 AZN) ödənilir. Hərbi qulluqçular hərbi xidmətdə ağır yaralandıqları hallarda 2 750 AZN, yüngül xəsarət aldıqlarında isə 550 AZN sığorta məbləği əldə edirlər [4].

Azərbaycan Respublikasının Vətən müharibəsində iştirak etmiş şəxslərə 2022-ci ildən başlayaraq müharibə veteranı statusu və bununla bağlı müxtəlif iqtisadi təminatlar təqdim etməsi veteranların sosial müdafiəsi və iqtisadi vəziyyətinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks siyasətin mühüm komponentidir. Bu siyasət çərçivəsində artıq Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşlarına veteran adı verilmiş, digər qurumlar üzrə isə bu proses davam etməkdədir. Veteran statusu alan şəxslər 2022-ci ilin yanvar ayından etibarən hər ay 80 manat məbləğində Prezident təqaüdü ilə təmin olunur və bu təqaüd təyin edilmə tarixindən asılı olmayaraq geriyə doğru hesablama ilə ödənilir. Bundan əlavə, veteranların özünüməşğulluq proqramlarına, haqqı ödənilən ictimai işlər proqramlarına, eləcə də əməkhaqqının birgə maliyyələşdirilməsi proqramlarına növbədənkənar cəlb edilməsi ilə onların iqtisadi fəaliyyətlərinin inkişafı və maliyyə müstəqilliyinin gücləndirilməsi təmin edilir. Bu tədbirlərdən yararlanmaq üçün veteranlar müəyyən edilmiş işsizlik meyarlarına uyğun olmalı və müvafiq dövlət qurumlarına müraciət etməlidirlər. Vergi Məcəlləsinin 102.2-ci, 102.3-cü və 102.4-cü və 102.7-ci maddəsinə əsasən, veteranlara həmçinin müxtəlif vergi güzəştlərinin tətbiqi nəzərdə tutulur; belə ki, müharibə veteran-

larının muzdlu işdən əldə etdiyi aylıq gəlirdən vergi tutulmalı məbləğin 400 manat azaldılması onların real gəlirlərinin artmasına şərait yaradır [7]. Müharibə əlilləri üçün əlavə sosial təminat hüquqlarının verilməsi isə veteran statusunun daha geniş iqtisadi dəstək mexanizmi ilə əlaqələndirilməsini göstərir. Bu siyasət bütövlükdə veteranların iqtisadi təminatının daha effektiv və davamlı şəkildə həyata keçirilməsinə xidmət edir.

İllər keçsə də, veteranlara qarşı diqqət və qayğı azalmır. Yəni bu sadəcə post-müharibə dövrünün ilk illərini əhatə edən bir şey deyildir. Məsələn, 2025-ci ilin dövlət büdcəsi layihəsində müharibə veteranları, şəhid ailələri və qazilərin sosial müdafiəsi ilə bağlı xərclərin artırılması nəzərdə tutulur və bu da dövlətin veteranlara olan yüksək diqqət və qayğısını əks etdirir. Belə ki, bu il sosialyönümlü xərclər əvvəlki ilə nisbətən 8,8 faiz artırılaraq 16,9 milyard manata çatdırılacaq və ümumi büdcə xərclərinin 41 faizini təşkil edəcək ki, bunun da mühüm hissəsi məhz veteranların rifahına yönəldiləcək. Büdcədə həmçinin müharibə veteranlarının ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün 41 milyon manat məbləğində xüsusi vəsaitin ayrılması, eləcə də minimum əməkhaqqı, pensiyalar və sosial müavinətlərin artırılması nəzərdə tutulur. Ümumilikdə, sosial paketlə 3 milyon insanın əhatə olunması planlaşdırılır ki, bu da müharibə veteranlarının sosial və iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılması üçün dövlətin atdığı strateji addımlardan biridir [6].

**Nəticə**

Nəticədə, Azərbaycanda müharibə veteranlarının sosial reabilitasiyası və iqtisadi təminatının təşkili məsələsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir və bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirilir. Vətən müharibəsindən sonra həyata keçirilən kompleks sosial dəstək proqramları çərçivəsində 100 min şəxs 166 min müxtəlif sosial xidmətlə təmin olunmuş, mənzil və fərdi evlə təmin edilən şəhid ailələri və müharibə əlillərinin sayı 2018-ci ildəki 626 rəqəmindən 2021-ci ildə 3 minə yüksəlmişdir ki, bu da dövlətin veteranların sosial müdafiəsinə xüsusi diqqət göstərdiyini əks etdirir. Həmçinin, müharibə əlillərinə verilən yüksək texnologiyalı protezlər onların aktiv həyata dönüşünə və hətta idman yarışlarında iştirak etməsinə şərait yaratmışdır. Eyni zamanda, şəhid ailələrinin və veteranların iqtisadi müstəqilliyini təmin etmək məqsədilə 3700 nəfər aktiv məşğulluq proqramlarına cəlb olunub, 3030 şəxs üçün şəxsi təsərrüfat və kiçik bizneslər yaradılıb, şəhid ailələri və müharibə iştirakçılarından ibarət 15,6 min şəxs məşğulluq imkanları ilə təmin edilib. Sosial reabilitasiya xidmətləri çərçivəsində 2022-ci ilin sonuna qədər 119 min şəxsə 249 min xidmət təqdim edilmiş, 101 min şəxs üçün aylıq sosial ödənişlər, 2200 nəfərə sığorta ödənişləri verilmiş, 16,2 min şəxs birdəfəlik ödənişlə təmin olunmuşdur. Reabilitasiya sahəsində beynəlxalq təcrübənin tətbiqi üçün Türkiyə ilə sıx əməkdaşlıq həyata keçirilir, həmçinin ölkədə 14 reabilitasiya müəssisəsi və 1 Protez-Ortopedik Reabilitasiya Mərkəzi fəaliyyət göstərir ki, bunlarda yalnız 2023-cü ilin ilk rübündə 14 722 şəxsə xidmət göstərilmiş və müharibə əlillərinə 35 509 reabilitasiya vasitəsi təqdim olunmuşdur. Dövlət siyasəti həmçinin iqtisadi təminatı gücləndirmək üçün Prezident təqaüdləri, vergi güzəştləri və təhsil ödənişləri kimi istiqamətlərdə veteranlara əlavə dəstəyi nəzərdə tutur. Lakin mövcud uğurlara baxmayaraq, ixtisaslaşmış psixoloqların çatışmazlığı, reabilitasiya xidmətlərinin regionlarda qeyri-bərabər paylanması, əlillik statusu olmayan qazilərin tibbi təminat problemləri, məşğulluq proqramlarında bürokratik əngəllər və ictimaiyyətin veteranların sosial-psixoloji vəziyyətinə dair məlumatlılıq səviyyəsinin aşağı olması kimi problemlər hələ də qalmaqdadır. Bu problemlərin həlli üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin artırılması, beynəl-

xalq əməkdaşlığın genişləndirilməsi, məşğulluq proqramlarına çıxışın asanlaşdırılması və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi zəruridir. Dövlət rəhbərliyinin xüsusi diqqəti və ardıcıl sosial siyasəti sayəsində bu problemlərin aradan qaldırılması istiqamətində mühüm addımlar atılır və bu proseslərin davamlı inkişafı ölkədə veteranların sosial rifahının və ümumi sosial sabitliyin təmin olunmasına ciddi töhfə verir.

**Ədəbiyyat:**


1. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin nümayəndə heyəti Ankara şəhərində səfərdə olub. URL: https://dtsera.gov.az/media/press-reliz/dovlet-tibbi-sosial-ekspertiza-ve-reabilitasiya-agentliyinin-numayende-heyeti-ankara-seherinde-seferde-olub
2. "Əlilliyi olan qadınların və müharibə veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi. URL: https://www.dma.gov.az/layiheler/sosial-layiheler/sosial-layihe-2
3. Qarabağ Regional DOST Mərkəzində Reabilitasiya Məntəqəsi istifadəyə verilib. URL: https://dtsera.gov.az/media/press-reliz/post-629
4. Mehralızadə, F. Müharibə iştirakçılarının narazılıqları: hərbçilərin və deputatların sığortalanmasında ayrı-seçkiliyin nəticəsi. URL: https://bakuresearchinstitute.org/war-veterans-dissatisfaction-the-consequences-of-discriminatory-approaches-to-the-insurance-of-servicemen-and-deputies-2/
5. Məhərrəmov, V. Azərbaycanda şəhid ailələrinin sosial təminatı daim dövlətin diqqətindədir. URL: https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycanda-sehid-ailelerinin-sosial-teminati-daim-dovletin-diqqetindedir-1705097174
6. Milli Məclisin plenar iclasında 2025-ci ilin dövlət büdcəsinin müzakirəsinə başlanıb. URL: https://meclis.gov.az/news.php?id=5794&lang=az
7. Müharibə veteranları üçün sosial hüquqlar və vergi güzəştləri. URL: https://oxu.az/iqtisadiyyat/muharibe-veteranlari-ucun-sosial-huquqlar-ve-vergi-guzestleri-siyahi
8. Müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin təqaüdü. URL: https://dsmf.gov.az/az/teqaud/azerbaycan-respublikasi-prezidentinin-teqaudleri/muharibe-vetmuharibe-veteranlarina-azerbaycan-respublikasi-prezidentinin-teqaudueranlarina-prezident-teqaudu
9. PAŞA Sığorta şirkəti şəhid və qazi ailə üzvlərinin sosial reabilitasiyası üçün nəzərdə tutulmuş layihəyə dəstək oldu. URL: https://pasha-insurance.az/index.php/az/news/pasa-sigorta-sirketi-sehid-ve-qazi-aile-uzvlerinin-sosial-reabilitasiyasi-ucun-nezerde-tutulmus-layiheye-destek-oldu
10. Reabilitasiya mərkəzində müharibə veteranları ilə birgə ağacəkmə aksiyası keçirilib. URL: https://dtsera.gov.az/media/foto-qalereya/reabilitasiya-merkezinde-muharibe-veteranlari-ile-birge-agacekme-aksiyasi-kecirilib
11. Rüstəmov, İ. Psixoanalitik müharibə veteranlarının travmasının reabilitasiyası qaydalarını açıqlayıb. URL: https://report.az/sosial-mudafie/psixoanalitik-muharibe-veteranlarinin-travmasinin-reabilitasiyasi-qaydalarini-aciqlayib/
12. Şağan Reabilitasiya Pansionatına mediatur təşkil edilib. URL: https://dtsera.gov.az/media/press-reliz/post-514
13. Şağan Reabilitasiya Pansionatının direktoru: Müalicə kursu keçən əlilləri hər cür qayğı ilə əhatə etməyə çalışırıq. URL: https://azertag.az/xeber/sagan_reabili-

tasiya_pansionatinin_direktoru_mualice_kursu_kechen_elilleri_her_cur_qaygi_ile_ehate_etmeye_chalisiriq-2590262
14. Şəhid ailələri və müharibə iştirakçılarına dəstək yönümlü 249 min xidmət göstərilib. URL: https://dtsera.gov.az/media/press-reliz/sehid-aileleri-ve-muharibe-istirakcilarina-destek-yonumlu-249-min-xidmet-gosterilib
15. Şəhid ailələri və müharibə veteranları yüksək diqqət və qayğı ilə əhatə olunublar. URL: https://azertag.az/xeber/sehid_aileleri_ve_muharibe_veteranlari_yuksek_diqqet_ve_qaygi_ile_ehate_olunublar-2124734
16. Şəhid ailələrinin üzvləri və müharibə veteranlarının iştirakı ilə ağacəkmə aksiyası keçirilib. URL: https://dtsera.gov.az/media/press-reliz/post-616
17. Şəhidlər, müharibə əlilləri və veteranları barədə vahid informasiya bazasının yaradılması böyük əhəmiyyət kəsb edir. URL: https://www.yeniazerbaycan.com/Musahibe_e59023_az.html

***Açar sözlər:*** *müharibə veteranları, sosial reabilitasiya, iqtisadi təminat, psixoloji dəstək, məşğulluq proqramları*

**Shirin Mahammad**

*PhD student at Azerbaijan Tourism and Management University*

# ANALYSIS OF SOCIAL REHABILITATION AND ECONOMIC PROVISION OF WAR VETERANS

## ABSTRACT

The social and economic support of war veterans is one of the key priorities of Azerbaijan's state policy. Particularly after the Patriotic War, comprehensive measures have been taken to integrate veterans into society, ensure their employment, and improve their social welfare. Among the main projects implemented are the provision of housing and vehicles, high-tech prosthetics, self-employment programs, as well as economic support mechanisms such as presidential scholarships and tax benefits. In the field of psychological support, new rehabilitation centers have been established; however, significant challenges remain, including the uneven distribution of these services across regions and a shortage of qualified psychologists. Additionally, key difficulties faced by veterans include medical provision issues for those who have not obtained disability status, bureaucratic obstacles in employment programs, and insufficient alignment of social payments with real living conditions. To address these issues, it is necessary to adopt international experience, raise public awareness, increase funding for social protection, and simplify bureaucratic procedures in employment programs. The effectiveness of this state policy not only enhances veterans' social welfare but also strengthens overall social stability and national solidarity.

***Keywords:*** *war veterans, social rehabilitation, economic provision, psychological support, employment programs*

**Ширин Магомед**

*Докторант Азербайджанского университета туризма и менеджмента*

# АНАЛИЗ СОЦИАЛЬНОЙ РЕАБИЛИТАЦИИ И ЭКОНОМИЧЕСКОЙ ЗАЩИТЫ ВЕТЕРАНОВ ВОЙНЫ

## РЕЗЮМЕ

Социальная и экономическая поддержка военных ветеранов является одним из важнейших приоритетов государственной политики Азербайджана. В особенности, после Отечественной войны были приняты комплексные меры по интеграции ветеранов в общество, обеспечению их занятости и повышению их социального благополучия. Среди ключевых реализованных проектов можно выделить предоставление жилья и автомобилей, обеспечение высокотехнологичными протезами, программы самозанятости, а также экономические меры поддержки, такие как президентские стипендии и налоговые льготы. В сфере психологической поддержки ветеранов были созданы новые реабилитационные центры, однако одной из серьезных проблем остается их неравномерное распределение по регионам, а также нехватка квалифицированных психологов. При решении проблем полезно учитывать международный опыт, повышать уровень общественной осведомленности. Эффективность данной государственной политики не только способствует повышению благосостояния ветеранов, но и укрепляет общественную стабильность и национальную солидарность.

***Ключевые слова:*** *военные ветераны, социальная реабилитация, экономическое обеспечение, психологическая поддержка, программы занятости*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Rektor Urxan Ələkbərov "Azərbaycan – Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi"adlı beynəlxalq konfransda çıxış etmişdir*

Aprelin 2-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Azərbaycan – Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfrans keçirilib.

Beynəlxalq konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış etmişdir. O, Azərbaycan və Çin arasında çoxşaxəli əməkdaşlığın daha da genişləndirilməsinin vacib olduğunu qeyd edərək, müasir dövrdə ekoloji və sosial-humanitar məsələlərin qlobal xarakterli problemlər kimi diqqət mərkəzində olduğunu bildirmişdir: "Dünya birliyi inkişafın davamlı və dayanıqlı olması yolu ilə bu problemlərin həll edilməsini ön plana çıxarıb. Hazırda bu prosesin reallaşması istiqamətində müəyyən nailiyyətlər əldə olunub. Lakin qlobal miqyasda 2030-cu ilə qədər nəzərdə tutulmuş bəzi məqsədlərin həyata keçirilməsi bir qədər ləngiyir. Bu faktorlar onu göstərir ki, inkişafın idarə edilməsində yeni yanaşmalar lazımdır. Yeni yanaşmalar dedikdə, dünya öz inkişafında ekoloji sivilizasiya mərhələsinə keçid etməlidir. Qeyd etmək lazımdır ki, bu termin və ümumiyyətlə, sözügedən konsepsiya 1990-cı illərin əvvəllərində Azərbaycanda yaranmış və Ümummilli Lider Heydər Əliyev tərəfindən BMT-nin "İnsan İnkişafı Hesabatı"nda təqdim olunmuşdur. Çin məhz bu sahədə qlobal lider mövqeyini qoruyub saxlayır. 2007-ci ildə Çin Kommunist Partiyasının XVII Qurultayında ekoloji sivilizasiya konsepsiyası ümummilli kontekstdə qeyd edilib. Bu partiyanın 2012-ci ildə keçirilən XVIII Qurultayında isə ekoloji sivilizasiya Çinin Konstitusiyasına daxil edilib. Çin Xalq Respublikasının Sədri Si Cinpin Çin Kommunist Partiyasının 2017-ci ildə keçirilən XIX Qurultayında bu konsepsiyanın nə qədər əhəmiyyətli olduğunu və onun hansı mexanizmlərlə həyata keçirilməsi



barədə ətraflı çıxış edib".

Rektor vurğulayıb ki, 2024-cü ilin noyabr ayında Azərbaycanın paytaxtı Bakı şəhərində COP29 tədbiri çox uğurla həyata keçirilib: "Bildiyiniz kimi, bəzi dairələr iddia edirdilər ki, bu mötəbər konfransın ölkəmizdə keçirilməsi mümkün deyil. Hələ bu söhbətlər gedən ərəfədə – 2023-cü ildə və daha sonra 2024-cü ildə Dünya İqtisadi Forumu yeni bir hesabat dərc etmişdir. Dünya ölkələrinin enerji keçidinə həsr olunmuş bu hesabatda Azərbaycan 120 ölkə arasında 32-ci yeri tutmuşdur. Bu uğurlu nəticə onu göstərir ki, Azərbaycan sözügedən sahəni ən effektiv idarə edən ölkələr sırasındadır. Bütün bunlar dövlətimizin qlobal səviyyədə böyük nailiyyətlər əldə etdiyini bir daha nümayiş etdirir. Azərbaycan Ermənistanın işğalından azad etdiyi ərazilərində – Qarabağ və Şərqi Zəngəzurda ekoloji sivilizasiya konsepsiyasına əsaslanan möhtəşəm işlər həyata keçirir. Yeni yaşayış mərkəzləri, sosial-iqtisadi infrasrukturlar həmin bölgələrdə bu tələbatlara tam uyğun olaraq yaradılır".

## *"Azərbaycan – Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfrans*

Aprelin 2-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Azərbaycan – Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfrans keçirilib.

Tədbirdən əvvəl YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyevanın ötən il Çin Xalq Respublikasına (ÇXR) səfər təəssüratlarından ibarət rəsm əsərləri nümayiş olunub.

Konfransda əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan və Çin Xalq Respublikasının müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Çin Xalq Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Konfransın moderatoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə Azərbaycanla Çin arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirib. Çin Xalq Respublikasının qlobal güc mərkəzlərindən biri olduğunu deyən P.Kərimzadə Azərbaycanın Cənubi Qafqaz regionunun lider dövləti kimi müasir beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirdiyini diqqətə çatdırıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. P.Kərimzadənin fikrincə, bu konfrans iki ölkə arasında mövcud əlaqələr və perspektiv əməkdaşlığa dair fikir mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlamaqdan məmnunluğunu ifadə edib, dəvəti qəbul edərək ölkəmizə səfərə gəlmiş Çin Kommunist Partiyasının nümayəndə heyətinə təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

Tahir Budaqov qeyd edib ki, bu gün Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı münasibətlər dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlığa əsaslanır: "Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verirlər. Dövlət başçılarının iradələri sayəsində müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirilir. Fəal siyasi dialoq və davamlı diplomatik təmaslar fonunda son olaraq 2024-cü ilin iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji



tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu müstəqil siyasət həyata keçirən iki dövlətin ortaq iradəsini ifadə etməklə gələcəyə yönəlik çox önəmli addım kimi böyük əhəmiyyətə malikdir. Bəyannamədə qeyd edildiyi kimi, tərəflər siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini irəlilətməyə dair razılıq əldə etmişlər. Bu, Azərbaycan ilə Çinin bir-birini prioritet və etibarlı tərəfdaş hesab edərək strateji hədəflərini ardıcıl olaraq gerçəkləşdirmək əzmini göstərir".

YAP Sədrinin müavini vurğulayıb ki, dünyada yüksək nüfuza malik olan dövlətlər kimi Azərbaycan ilə Çin beynəlxalq müstəvidə əməkdaşlığı xüsusi diqqət mərkəzində saxlamaqla bir-birinin maraqlarının qorunmasına böyük önəm verirlər. Onun sözlərinə görə, öz ərazi bütövlüyü və suverenliyini tam təmin edərək yeni geostrateji reallıqlar yaradan Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək müstəqil dövlətlərin, o cümlədən dost və tərəfdaş Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə birmənalı dəstəyini daim ifadə etməkdədir: "Öz növbəsində, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çin Xalq Respublikasının Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməsi xalqımız tərəfindən yüksək dəyərləndirilir. Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstək göstərməsi isə daha bir səmimi dostluq və tərəfdaşlıq nümunəsidir".

Tahir Budaqov bildirib ki, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində Avrasiyanın mühüm tranzit qovşağına çevrilən Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta Dəhliz çərçivəsində əməkdaşlığın genişləndirilməsində son dərəcədə maraqlı olduğunu öz əməli fəaliyyəti ilə əyani şəkildə nümayiş etdirməkdədir: "Heç şübhəsiz, ölkəmizin prinsipial mövqeyi fonunda qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması tərəfdaş dövlətləri, o cümlədən Azərbaycan ilə Çini yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gətirərək Avrasiyada konstruktiv işbirliyinin güclənməsini şərtləndirəcəkdir".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, ölkələrimiz arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə əksini tapan başlıca məsələlərdən biri də partiyalar-

arası əlaqələrin gücləndirilməsidir: "Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin müstəsna rolu vardır. Son illərdə hakim partiyalar arasında fəal siyasi dialoq şəraitində intensiv təmaslar diqqəti cəlb edir. Xüsusilə də, qarşılıqlı səfərlər partiyalararası münasibətlərin inkişafına təkan verməkdədir. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çərçivəsində aktual məsələlərə dair fikir və təcrübə mübadiləsinin aparılması ikitərəfli əlaqələrin inkişafında mühüm amil kimi xüsusi əhəmiyyətə malikdir. 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri zamanı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında memorandumun imzalanması isə qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirərək partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin etmişdir. Memorandumdan irəli gələrək əlaqələri yüksək səviyyədə saxlamaq, mütəmadi olaraq nümayəndə heyətlərinin səfərlərini təşkil etmək, ümumi maraq doğuran məsələlər üzrə təmasları gücləndirmək qarşıda duran başlıca vəzifələrdəndir".

Tahir Budaqovun sözlərinə görə, Azərbaycan-Çin strateji tərəfdaşlığı təkcə iki ölkə arasında münasibətlərin inkişafı və işbirliyinin dərinləşdirilməsi ilə əlamətdar deyil, eyni zamanda, Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi baxımından olduqca mühüm əhəmiyyətə malikdir: "İnkaredilməz həqiqətdir ki, Cənubi Asiya, Afrika, Latın Amerikası və Karib hövzəsi boyunca dünya əhalisinin yarıdan çoxunu özündə ehtiva edən Qlobal Cənub ciddi siyasi və iqtisadi resursları cəmləşdirməklə yeni güc mərkəzinə çevrilmişdir. Qlobal Cənub ölkələri dayanıqlı iqtisadi inkişaf, rəqəmsal transformasiya, texnoloji innovasiyalar və sosial tərəqqi üçün yeni standartlar yaratmaq potensialına malikdir. Bütövlükdə, Qlobal Cənubun yüksəlişi bərabərlik, inklüzivlik və səmərəli əməkdaşlıq prinsiplərinə söykənən ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşması baxımından müstəsna önəm daşıyır. Qlobal problemlərin artdığı şəraitdə milli maraqlara hörmət və ədalət prinsiplərinə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşması üçün Qlobal Cənub ilə Qlobal Şimalın konstruktiv işbirliyi məsələsi aktual çağırış kimi qarşımızda dayanır. İstər Azərbaycan, istərsə də Çin çoxqütblü siyasi nizamın tərəfdarı kimi beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı barışmaz mövqe sərgiləyərək müstəqil, qətiyyətli və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edirlər. Yeni reallıqlar fonunda həmrəylik nümayiş etdirərək dünyada bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemlərin əhəmiyyətli dərəcədə həllinə nail olmaqla bəşəriyyətin sağlam və xoşbəxt gələcəyi üçün etibarlı zəmin formalaşdıra bilərik".

YAP Sədrinin müavini vurğulayıb ki, bu zamana qədər görülən işlər və qazanılan uğurlarla yanaşı, qarşımızda önəmli hədəflər durur: "Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək birgə fəaliyyəti müvəffəqiyyətlə davam etdirmək və yeni uğurlara imza atmaq əzmindədir. Yeri gəlmişkən, fürsətdən istifadə edərək Yeni Azərbaycan Partiyasının nümayəndə heyətlərinin Çin Xalq Respublikasına səfərləri zamanı göstərilən yüksək qonaqpərvərliyə və cari ayda da "Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumu"na dəvətə görə Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürümü ifadə edirəm. Əminəm ki, bugünkü konfransımız da həm ölkələrimiz, həm də partiyalarımız arasında əməkdaşlığa dair aktual məsələlərin müzakirəsi üçün səmərəli olacaq və faydalı ideya platforması kimi məhsuldar nəticələrlə yadda qalacaqdır".

Çıxış edən Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançao Yeni Azərbaycan Partiyasının dəvəti ilə Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edib. O, xalqlarımızın mədəniyyətinin bir-birinə yaxın

olduğunu vurğulayaraq bildirib ki, Çin xalqı Azərbaycan xalqının mədəni irsi ilə tanışdır.

Lü Tzyançao vurğulayıb ki, Çin və Azərbaycan strateji tərəfdaşlardır və qarşılıqlı faydalı əməkdaşlıq edirlər: "Azərbaycan və Çin xalqları arasında dostluğun qədim tarixi var. Bu tarixi dostluq bizim müasir dövrdəki münasibətlərimizə də böyük təsir göstərir. Ötən il iki dövlətin liderlərinin Çin–Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmasını elan etməsi də bunun göstəricisidir. Bu, ikitərəfli münasibətlərimizin inkişafının mühüm mərhələsidir və biz qarşılıqlı etimad əsasında bir-birimizi dəstəkləyirik. Hazırda Çin dövlət quruculuğu istiqamətində fəaliyyətini genişləndirməkdədir. Eyni zamanda, biz bilirik ki, Azərbaycan tərəfi də uğurlu inkişaf strategiyası həyata keçirir. Bu inkişaf yolu milli maraqlarımıza əsaslanır və kənar müdaxilələrə qarşı yönəlib. Biz müasirləşməyə yol açaraq qarşılıqlı tərəqqini təmin etməyə çalışırıq. Azərbaycan və Çin arasında iqtisadi əlaqələr bir-birini tamamlayır və davamlı nailiyyətlərə töhfə verir".

Onun sözlərinə görə, Çin və Azərbaycan arasında elm sahəsində əlaqələr inkişaf etməkdədir: "Hesab edirəm ki, iki ölkə arasında "yaşıl enerji" və rəqəmsal iqtisadiyyat sahələrində də əməkdaşlıq daha da genişlənəcək".

Lü Tzyançao qeyd edib ki, hazırda dünyada böyük dəyişikliklər baş verir: "Bu ilin əvvəlindən etibarən beynəlxalq vəziyyət ciddi sarsıntılarla üzləşib. Dövlətlər qeyri-sabit və qeyri-müəyyən amillərlə qarşılaşır. Avrasiyada yeni çağırışlar meydana çıxır. Çin və Azərbaycan bu geosiyasi məkanda önəmli ölkələrdir və dövlətlərarası əməkdaşlıq bu qeyri-sabit dövrdə böyük ümidlər yaradır. Xüsusilə, Asiya və Avropanı əhatə edən kommunikasiya sahəsindəki inkişafı qeyd etmək lazımdır. Bu, ölkələrimiz üçün yeni imkanlar və perspektivlər açır. Çin və Azərbaycan birlikdə Şanxay Əməkdaşlıq Təşkilatının ruhunu gücləndirir, dövlətlər arasında qarşılıqlı hörmət və çoxşaxəli əməkdaşlıq prinsiplərini dəstəkləyir. Bu mənada, biz sülhün və təhlükəsizliyin təşviqinə töhfə verməliyik".

Lü Tzyançao qeyd edib ki, nəqliyyat marşrutlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində də Çin və Azərbaycan fəal əməkdaşlıq edir, birgə regional və logistik kanallar inkişaf etdirilir. Onun sözlərinə görə, Azərbaycan bu sahədə çox aktiv rol oynayır: "Çin və Azərbaycan həm səmimi dostlar, həm də önəmli tərəfdaşlardır. Həmçinin ölkələrimiz Qlobal Cənubun mühüm iştirakçılarıdır. Hər iki dövlətin qarşısında yeni vəzifələr dayanır".

Lü Tzyançao XII Qlobal Bakı Forumunda müxtəlif ölkələrin nümayəndələrinin qlobal çağırışları müzakirə etdiklərini, o cümlədən Qlobal Cənubun dünya nizamında rolunu vurğuladıqlarını xatırladıb. Onun fikrincə, Azərbaycanın Qlobal Cənubla bağlı mühüm rolu nəzərdə tutulan layihələrin reallaşdırılmasına əlavə təkan verəcək.

O, Azərbaycanın keçən il COP29-a uğurla ev sahibliyi etdiyini, Çinin Bakının iqlim sahəsində təşəbbüslərini dəstəklədiyini vurğulayıb. "Çin və Azərbaycan Qlobal Cənub dövlətləri ilə birgə səylərlə bir-birinə dəstək olaraq gələcək inkişaflarını təmin etməlidirlər. Qlobal Cənub dövlətlərinin üstünlükləri böyükdür. Bu dövlətlər tərəqqiyə böyük önəm verirlər. Eyni zamanda, onlar dünyada terrora və münaqişələrə qarşı çıxış edirlər. Biz dövlətlər arasında bərabərliyin, ədalətin tərəfdarıyıq. Bu prosesə Çin və Azərbaycan çox böyük töhfə verirlər. Çinlə Azərbaycan indiyə qədər olduğu kimi, bundan sonra da bir-birini dəstəkləyəcək".

Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov isə çıxışı zamanı bildirib ki, Azərbaycan-Çin əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğundur. Hər iki ölkənin böyük potensiala malik olduğunu deyən Ə.Əhmədovun fikrincə, perspektivdə ölkələrimiz arasında əlaqələr daha geniş və çoxşaxəli olacaq. YAP Sədrinin müavini qeyd edib ki, bu amil dövlətlərimizə qarşılıqlı fayda verəcək: "Ölkələrin əməkdaşlığı iqtisadi, siyasi maraqlar, sivilizasiya yaxınlığı kimi amillər üzərində qurulur. Bizim əməkdaşlığımız bu parametrlərə cavab verir. Qlobal Cənub təmsilçisi olaraq

xalqlarımızın mədəni yaxınlığı da ölkələrimiz arasında əməkdaşlığın daha etibarlı zəmin üzərində qurulmasını təmin edir".

Əli Əhmədov deyib ki, bu gün dünya sürətlə dəyişir və son zamanlar müxtəlif regionlarda xaos elementləri də artır: "Bu da dünya ictimaiyyətini narahat edir. İkinci Dünya müharibəsindən sonra formalaşmış beynəlxalq hüquq normalarının çökməsi və onu güc elementləri ilə əvəz etmək cəhdləri bəşəriyyəti təhdidlərlə üz-üzə qoyur. Belə olan halda, bəşəriyyətin gələcəyi naminə dövlətlərin və xalqların ciddi düşünməsinə ehtiyac yaranır. Bu düşüncələr fonunda yeni birliklər, platformalar meydana çıxır. Hazırda BRICS və Şanxay Əməkdaşlıq Təşkilatı kimi platformalar təkcə iqtisadi maraqlardan ibarət olmayan birliklərə çevrilmək şanslarına malikdir. Bəşəriyyətin fəlakətdən xilas olmasına, beynəlxalq münasibətlər sisteminin bu günün dəyərləri zəminində yenidən qurulmasına ehtiyac var. Azərbaycanla Çin arasında tərəfdaşlıq, dostluq bütövlükdə dünyanın qarşısında dayanan çağırışlara ən düzgün cavabın tapılması üçün əhəmiyyətli rol oynaya bilər. Çünki bu əməkdaşlıq, dialoq iqtisadi maraqlarla yanaşı, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq hüquqa istinad etmək kimi prinsiplər üzərində qurulub. Ölkələrimizin əməkdaşlığı gələcəkdə bəşəriyyətin üzləşdiyi təhlükələrin aradan qaldırılması üçün daha səmərəli yolların tapılmasına təkan verə bilər".

Ə.Əhmədovun fikrincə, Çin dünyanın indiki reallıqlarına və gələcək inkişaf perspektivlərinə ciddi şəkildə təsir etmək imkanlarına malikdir. "Güman edirəm ki, Çin gələcəkdə bu imkanları daxilində dünyanın daha ədalətli prinsiplər əsasında idarə olunmasını qarşısına məqsəd qoyan birliklərin meydana çıxması üçün öz töhfələrini artıracaq", – deyən YAP Sədrinin müavini Azərbaycanın da regionumuzda bütün proseslərin sülh və əməkdaşlıq prinsipləri əsasında qərarlaşmasına öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, Azərbaycan ərazi bütövlüyü və suverenliyini təmin etməklə yanaşı, regionda sülh gündəliyini də təqdim edib: "Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ana xəttini sülh gündəliyi təşkil edir. Hesab edirəm ki, bu fakt təkcə Cənubi Qafqazda deyil, daha böyük coğrafiyada sülh gündəliyinin təşviq olunması üçün Azərbaycanın çox ciddi şəkildə fəaliyyət göstərməsindən xəbər verir".

Ə.Əhmədov qeyd edib ki, xalqları və dövlətləri bir-birinə yaxınlaşdıran əsas amillərdən biri də kommunikasiyalardır: "Tarixən Şərqlə Qərbi birləşdirən Böyük İpək Yolunun sülhün bərqərar olmasında da mühüm rolu olub. Bu gün də dünyada sülhü bərqərar etmək üçün dövlətlər arasında əməkdaşlığın güclənməsində kommunikasiyaların oynadığı vacib rolu hər kəs anlayır. Bu mənada, Çin lideri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" layihəsi dünya ictimaiyyətinin sülh ehtiyacının ödənilməsinə töhfə verə bilər. Azərbaycan bu layihəni ilk dəstəkləyən ölkələrdəndir".

Ə.Əhmədov deyib ki, Qlobal Cənub dünyanın gələcəyinin müəyyən edilməsində əhəmiyyətli rol oynamaq imkanlarına malik faktor kimi özünü təsdiqləyib. "Vaxtilə sivilizasiya, bəşəriyyətin güc mənbəyi bu coğrafiyada yaranıb. Bu gün də Qlobal Cənub öz potensialını bəşəriyyətin firavan gələcəyi üçün səfərbər etmək imkanlarına sahibdir. Bunun reallaşmasında Çin və onunla əməkdaşlığa böyük önəm verən Azərbaycan mühüm rol oynaya bilər. Bu mənada, Azərbaycan-Çin strateji tərəfdaşlığı xalqlarımızın maraqlarına xidmət etməklə yanaşı, bəşəriyyətin daha xoşbəxt gələcəyinin qurulmasına töhfə verə bilər", – deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (AMEA) İsa Həbibbəyli bildirib ki, Azərbaycan-Çin əməkdaşlığının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: "Ümummilli Lider ölkəmizdə siyasi hakimiyyətə qayıdışından təxminən bir il sonra – 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi səfər etmişdir. Heydər Əliyev bu səfəri ilə həm də inkişafın Çin modelinin əhəmiyyətinə böyük dəyər verdiyini nümayiş etdir-

mişdir".

İsa Həbibbəyli qeyd edib ki, Ümummilli Liderin 1994-cü ildə Çin Xalq Respublikasına səfəri zamanı Pekin İctimai Elmlər Akademiyasında böyük tarixi əhəmiyyətə malik çıxışı, əslində, yenicə müstəqillik qazanan Azərbaycan dövlətinin dünyaya tanıdılması demək idi: "Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər və iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu dövlətlərarası əməkdaşlığı yeni inkişaf mərhələsinə çatdırmışdır. Hazırda iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən elm və təhsil sektorlarında mühüm tədbirlər həyata keçirilir. Ölkəmizin yüksək reytinqə malik təhsil ocaqlarında Çin dili üzrə yüksək ixtisaslı mütəxəssislər hazırlanır. Azərbaycan Milli Elmlər Akademiyasının bir sıra institutlarında Azərbaycan-Çin əlaqələrinə həsr olunmuş genişmiqyaslı tədqiqatlar aparılır. Bu istiqamətdə Azərbaycan alimləri Çindəki analoji qurumlarının nümayəndələri ilə birgə ortaq layihələr həyata keçirirlər".

O vurğulayıb ki, bu faktorlar humanitar sahədə də Azərbaycan-Çin əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyini əyani şəkildə göstərir: "2017-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasında Çin Tədqiqatları Mərkəzi fəaliyyət göstərir. Çin Xalq Resublikasının Azərbaycandakı səfirliyi və Konfutsi Mərkəzinin dəstəyi ilə bu Mərkəzdə Çin dili uğurla tədris olunur. Artıq müxtəlif elmi müəssisələrdə çalışan əməkdaşların bir qismi həmin mərkəzdə dil öyrənmələri ilə bağlı sertifikat alıblar. Müxtəlif beynəlxalq seminarların aparılması, universitetlər arasında keçirilən görüşlər Azərbaycan elminin Qlobal Cənuba verdiyi töhfələrdəndir. Şübhəsiz ki, bu istiqamətdə işlər perspektivdə də uğurla davam etdiriləcək".

İsa Həbibbəyli qeyd edib ki, 2024-cü ilin iyun ayında Çində keçirilən "Xəzərdən Çin səddinədək" beynəlxalq konfrans birbaşa Qlobal Cənubun prioritetlərini əks etdirən mühüm bir platforma idi: "Həmin konfransda Çin və Azərbaycanla yanaşı, digər regionlardan olan mütəxəssislərin iştirakı ilə birgə bəyannamənin qəbul edilməsi elm sahəsində yeni üfüqlərin açılmasından xəbər verir. Ötən ilin sentyabr ayında Pekin Xarici Dillər Universitetinin təşkilatçılığı və ev sahibliyi ilə Birinci Çin azərbaycanşünaslıq beynəlxalq elmi konfransının keçirilməsi də bu əlaqələrin möhkəmlənməsinə xidmət edir. Azərbaycan universitetləri Çində Azərbaycan dili üzrə mütəxəssislərin yetişməsi üçün çalışırlar, alimlərimiz orada məruzələrlə çıxışlar edirlər. Bütün bunlar göstərir ki, geosiyasət, diplomatiya, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də Azərbaycan Qlobal Cənubun inkişafında əhəmiyyəti rol oynayan aktorlardan biridir".

Çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov vurğulayıb ki, Azərbaycan və Çin arasında çoxşaxəli əməkdaşlığın daha da genişləndirilməsi olduqca vacibdir. O qeyd edib ki, müasir dövrdə ekoloji və sosial-humanitar məsələlər qlobal xarakterli problemlər kimi diqqət mərkəzindədir: "Dünya birliyi inkişafın davamlı və dayanıqlı olması yolu ilə bu problemlərin həll edilməsini ön plana çıxarıb. Hazırda bu prosesin reallaşması istiqamətində müəyyən nailiyyətlər əldə olunub. Lakin qlobal miqyasda 2030-cü ilə qədər nəzərdə tutulmuş bəzi məqsədlərin həyata keçirilməsi bir qədər ləngiyir. Bu faktorlar onu göstərir ki, inkişafın idarə edilməsində yeni yanaşmalar lazımdır. Yeni yanaşmalar dedikdə, dünya öz inkişafında ekoloji sivilizasiya mərhələsinə keçid etməlidir. Qeyd etmək lazımdır ki, bu termin və ümumiyyətlə, sözügedən konsepsiya 1990-cı illərin əvvəllərində Azərbaycanda yaranmış və Ümummilli Lider Heydər Əliyev tərəfindən BMT-nin "İnsan İnkişafı Hesabatı"nda təqdim olunmuşdur. Çin məhz bu sahədə qlobal lider mövqeyini qoruyub saxlayır. 2007-ci ildə Çin Kommunist Partiyasının XVII Qurultayında ekoloji sivilizasiya konsepsiyası ümummilli kontekstdə qeyd edilib. Bu partiyanın 2012-ci ildə keçirilən XVIII Qurultayında isə ekoloji sivilizasiya Çinin Konstitusiyasına daxil edi-

lib. Çin Xalq Respublikasının Sədri Si Cinpin Çin Kommunist Partiyasının 2017-ci ildə keçirilən XIX Qurultayında bu konsepsiyanın nə qədər əhəmiyyətli olduğunu və onun hansı mexanizmlərlə həyata keçirilməsi barədə ətraflı çıxış edib”.

Rektor vurğulayıb ki, 2024-cü ilin noyabr ayında Azərbaycanın paytaxtı Bakı şəhərində COP29 tədbiri çox uğurla həyata keçirilib: “Bildiyiniz kimi, bəzi dairələr iddia edirdilər ki, bu mötəbər konfransın ölkəmizdə keçirilməsi mümkün deyil. Hələ bu söhbətlər gedən ərəfədə – 2023-cü ildə və daha sonra 2024-cü ildə Dünya İqtisadi Forumu yeni bir hesabat dərc etmişdir. Dünya ölkələrinin enerji keçidinə həsr olunmuş bu hesabatda Azərbaycan 120 ölkə arasında 32-ci yeri tutmuşdur. Bu uğurlu nəticə onu göstərir ki, Azərbaycan sözügedən sahəni ən effektiv idarə edən ölkələr sırasındadır. Bütün bunlar dövlətimizin qlobal səviyyədə böyük nailiyyətlər əldə etdiyini bir daha nümayiş etdirir. Azərbaycan Ermənistanın işğalından azad etdiyi ərazilərində – Qarabağ və Şərqi Zəngəzurda ekoloji sivilizasiya konsepsiyasına əsaslanan möhtəşəm işlər həyata keçirir. Yeni yaşayış mərkəzləri, sosial-iqtisadi infrasrukturlar həmin bölgələrdə bu tələbatlara tam uyğun olaraq yaradılır”.

Milli Məclisin deputatı Fariz İsmayılzadə çıxışında bildirib ki, Azərbaycan-Çin münasibətləri uğurla inkişaf edir. O Çin-Azərbaycan münasibətlərinin siyasi sahədə möhkəm təməl üzərində qurulduğunu diqqətə çatdırıb: “İki ölkə arasında münasibətlər regional və beynəlxalq müstəvidə, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi platformalar çərçivəsində də inkişaf edir: “Azərbaycanla Çin terrorizm və ekstremizmə qarşı mübarizədə eyni mövqe nümayiş etdirirlər”.

Onun sözlərinə görə, Çin və Azərbaycan arasında iqtisadi münasibətlərə ticari əlaqələr, infrastruktur layihələri, qarşılıqlı investisiyalar, eyni zamanda, iqtisadiyyatın qeyri-neft sahəsinə sərmayələr, tranzit dəhlizləri, energetika sahəsi, “yaşıl enerji” və s. aiddir: “Son illər ərzində Çin Qırğızıstanla Özbəkistanı, Xəzər regionunu birləşdirən yeni dəmiryolu layihəsinə başlayıb. Bu, əmtəə dövriyyəsini artıracaq və “Bir kəmər, bir yol” layihəsini yerinə yetirməyə imkan verəcək”.

Millət vəkili bildirib ki, Azərbaycan üçün işğaldan azad edilmiş ərazilərə Çin investisiyalarının cəlb edilməsi önəmlidir: “Azərbaycanın yeddi azad iqtisadi zonası var ki, Çin şirkətləri investisiya qoyuluşu edə bilərlər. Azərbaycanda aktiv olaraq bir neçə Çin şirkəti fəaliyyət göstərir. Atılan addımlar iki ölkə arasında əməkdaşlığın dərinləşməsinə imkan verəcək”.

O, son illər ərzində ölkələrimiz arasında mübadilə layihələrinin artdığını, birgə konfransların təşkil olunuduğunu, Çinin ali təhsil ocaqları ilə birgə ikili diplom proqramlarının həyata keçirildiyini vurğulayıb. “Zənnimcə, iqtisadi, siyasi sahələrdə olduğu kimi, bu sahədə də geniş perspektivlər var”.

Çıxışlardan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

Konfransa yekun vuran YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bir daha Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaoya ölkəmizə səfərinə görə təşəkkürünü bildirərək bu səfərin istər partiyalarımız, istərsə də ölkələrimiz arasında əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

***DİA-da Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında”***

***Beynəlxalq Konvensiyadan irəli gələn öhdəliklər" adlı təlim***

2025-ci il aprelin 8-də Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşları üçün Dövlət İdarəçilik Akademiyasında "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiyadan irəli gələn öhdəliklər" mövzusuna həsr olunmuş təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyev mühazirə ilə çıxış etmişdir. Tədbirin əsas məqsədi bu Konvensiyanın mahiyyəti və tələbləri barədə məlumatlılığının artırılması, eyni zamanda milli qanunvericiliyin beynəlxalq standartlara uyğunluğunun təşviqi olmuşdur.

Təlim zamanı Konvensiyanın qəbul tarixi, hüquqi mexanizmləri, iştirakçı dövlətlərin öhdəlikləri və irqi ayrı-seçkiliyin qarşısının alınması istiqamətində beynəlxalq təcrübələr müzakirə olunmuşdur. Eyni zamanda, iştirakçılara Konvensiya çərçivəsində təqdim olunan hesabatların hazırlanması və BMT-nin Müvafiq Komitəsinə təqdim olunması prosesi barədə ətraflı məlumat verilmişdir.

Professor İsaxan Vəliyev irqi ayrı-seçkiliyin qarşısının alınmasının qlobal əhəmiyyətini vurğulamış, insan hüquqlarının müdafiəsində universal yanaşmanın önəmini qeyd etmişdir.

Azərbaycan Respublikasının mövqeyi təlim zamanı xüsusi diqqət çəkmişdir. Prof. İ.Vəliyev Azərbaycanın 1996-cı ildə İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiyanı ratifikasiya etməsi, eləcə də ratifikasiyadan sonra bu sahədə beynəlxalq öhdəliklərinə uyğun şəkildə həyata keçirtdiyi institusional və hüquqi tədbirlər barədə iştirakçılara geniş və əsaslandırılmış məlumat təqdim etmişdir. Ölkədə irqi və etnik müxtəlifliyə malik bir cəmiyyətin mövcud olduğu qeyd edilmiş, tolerantlıq və multikulturalizm prinsiplərinin dövlət siyasətində mühüm yer tutduğu vurğulanmışdır.

Təlim interaktiv şəkildə təşkil olunmuş, iştirakçılar sual-cavab sessiyalarında aktiv iştirak etmiş, praktiki nümunələr əsasında irqi ayrı-seçkiliyin tanınması və qarşısının alınması yollarını müzakirə etmişlər.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru beynəlxalq tədbirdə çıxış etmişdir***

8 aprel 2025-ci il tarixində Moskvada Rusiya Prezidenti yanında Xalq Təsərrüfatı və Dövlət İdarəçilik Akademiyasında "Hüquq və milli təhlükəsizliyin kommunikativ aspektləri" adlı konfrans keçirilmişdir.

Konfransın plenar iclasında tarix elmləri doktoru, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının professoru, Rusiya Təbiət Elmləri Akademiyasının akademiki Fuad Məmmədov "Yüksək mədəniyyətli insan – bəşəriyyətin humanitar təhlükəsizliyinin strateji məqsədi kimi" mövzusunda məruzə etmişdir. Maraq doğuran çıxış Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi və Heydər Əliyev Fondunun dəstəyi ilə, Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən, Azərbaycan Respublikasının sosial-mədəni inkişafı üzrə yeni strategiya kontekstində hazırlanıb. Çıxışda mədəniyyət və sivilizasiya anlayışları, ailə mədəniyyəti, dövlət idarəçiliyi və özünüidarəetmə mədəniyyəti, vətəndaşların özünü inkişaf və təkmilləşdirmə mədəniyyəti, insan və beynəlxalq münasibətlər mədəniyyəti və s. kimi məsələlərə toxunulmuşdur.

***DİA-da tədrisin keyfiyyəti və əlçatanlığının yüksəldilməsi, tələbələrin maraq və fəallığının artırılması məqsədilə innovativ təhsil metodlarına keçid planı üzrə təlim***

Dövlət İdarəçilik Akademiyasında tədrisin keyfiyyəti və əlçatanlığının yüksəldilməsi, tələbələrin maraq və fəallığının artırılması məqsədilə innovativ təhsil metodlarına keçid planı üzrə

16-17 aprel tarixlərində təlim keçirilmişdir. Açılışda akademiyanın rektoru, akademik Urxan Ələkbərov iştirak edib. Təlimdə akademiyanın kafedra və dekanlıqlarının nümayəndələri çox fəal iştirak etmişdir. Təlimin 1-ci günü nəzəri hissəyə, 2-ci günü praktiki hissəyə həsr olunmuşdur.

***Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov AZTV -də "Hədəf" proqramında çıxış etmişdir***

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov AZTV-də "Hədəf" proqramında çıxış etmişdir.

Keçid: https://youtu.be/reLoX8hMpAw




***Dövlət İdarəçilik Akademiyasının tələbələri "Şöhrət" muzeyində ekskursiyada olublar***

Dövlət İdarəçilik Akademiyasının bir qrup tələbəsi Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyində ekskursiyada olublar.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının "Şöhrət" muzeyi Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini əbədiləşdirmək, həyat və fəaliyyətinin, nəsillərə örnək olan mənalı ömür yolunun və irsinin öyrənilməsini, gələcək nəsillərə çatdırılmasını, Azərbaycan gəncliyinin Heydər Əliyev amallarına sədaqət ruhunda tərbiyə olunmasını təmin etmək məqsədilə yaradılıb.

Unikal məzmuna və nəfis tərtibata malik olan "Şöhrət" muzeyinin, eləcə də Ümummilli Lider Heydər Əliyevin muzey qarşısında ucaldılmış möhtəşəm abidəsinin təntənəli açılış mərasimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı

cənab İlham Əliyevin 2006-cı il mart ayının 27-də Akademiyaya səfəri zamanı baş tutub

***Üzeyir Hacıbəylinin 140 illiyinə həsr olunmuş Dəyirmi masa***

17 aprel 2025-ci il tarixində DİA-nın Tələbə Elmi Cəmiyyətinin və "Tarix" kafedrasının təşkilatçılığı ilə dahi bəstəkar, tanınmış ictimai-siyasi xadim Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinə həsr olunmuş "Üzeyir Hacıbəyli: görkəmli musiqiçi və ictimai-siyasi xadim" mövzusunda Dəyirmi masası keçirilmişdir.

Tələbə və magistrantların fəal qoşulduğu Dəyirmi masada Azərbaycan bəstəkarlıq məktəbinin banisi, Şərqdə ilk operanın yaradıcısı, Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermis tanınmış ictimai xadim, Azərbaycan tarixində və mədəniyyətində dərin iz qoymuş qüdrətli şəxsiyyətlərdən olan Üzeyir Hacıbəylinin həyat və fəaliyyəti, zəngin yaradıcılığı haqqında geniş söhbət açılmışdır. DİA "Tarix" kafedrasının müdiri Firdovsiyyə Əhmədova məruzə ilə çıxış edərək, Azərbaycan professional musiqi məktəbinin banisi, Xalq artisti, iştirakçılarına geniş məlumat vermişdir.

DİA Tələbə Elmi Cəmiyyətinin sədri siyasi elmlər doktoru, prof.əv. Sevil Məmmədovanın aparıcılığı ilə keçən Dəyirmi masada magistrantlardan Aysel Mikayılova, Ayşə Əlili, Aytac Cəfərova, tələbələrdən Seyidcahan Əlizadə, Mehri Əsgərzadə, Mədinə Süleymanova, Şahin Sadıqov, Nihad Cəfərov, Əli Qurbanov, Tural Bürcəliyev, Hədiyyin Həsənli, Rəhimə Əliyeva və b. maraqlı çıxışlar etmişlər.

***Rəhbər Kadrların Yenidən Hazırlanması fakültəsində***



Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü olan Üzeyir Hacıbəylinin Azərbaycan musiqi tarixindəki misilsiz xidmətləri, yüksək mənəvi-estetik dəyərə malik irsi, və əsl vətənpərvərlik nümunəsi olan ictimai-siyasi fəaliyyəti barədə tədbir

***"İnsan hüquqlarının müdafiəsində Konstitusiya Məhkəməsinin rolu" mövzusunda görüş***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2025-ci ilin "Konstitusiya və Suverenlik ili"

ilə bağlı təsdiq olunmuş tədbirlər planına əsasən silsilə görüşlər davam edir. Aprelin 21-də Konstitusiya Məhkəməsinin hakimi Kamran Şəfiyevin "Rəhbər kadrların yenidən hazırlanması" fakültəsində dövlət qulluqçusu olan magistrantlar üçün "İnsan hüquqlarının müdafiəsində Konstitusiya Məhkəməsinin rolu" mövzusunda mühazirəsi baş tutmuşdur.

Kamran Şəfiyev çıxışında 1995-ci ildə qəbul olunmuş Konstitusiyanın hüquqi dövlət quruculuğu və demokratik cəmiyyətin formalaşmasındakı roluna toxunmuşdur. O, Ümummilli Lider Heydər Əliyevin Konstitusiyanın hazırlanmasındakı tarixi xidmətlərini və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hüquqi islahatları xüsusi vurğulamışdır.

Hakim, 1998-ci ildə yaradılmış Konstitusiya Məhkəməsinin konstitusiya nəzarətinin həyata keçirilməsi və insan hüquqlarının müdafiəsində oynadığı rolu izah etmiş, beynəlxalq təcrübəyə əsasən müxtəlif nəzarət modelləri və onların hüquqi əhəmiyyəti barədə məlumat vermişdir. Həmçinin, Konstitusiya Məhkəməsinin qərarlarının hüququn inkişafına və hüquqi şüurun formalaşmasına verdiyi töhfələrə toxunulmuşdur.

Tədbirin sonunda tələbələrin sualları cavablandırılmış və qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

***Rəhbər Kadrların Yenidən Hazırlanması fakültəsinin magistrantları ilə "Konstitusiya və Suverenlik: Azərbaycanın gələcəyə baxışı" mövzusunda görüş***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" ilə bağlı təsdiq olunmuş tədbirlər planına əsasən silsilə görüşlər davam edir. Aprelin 21-də Milli Məclisin deputatı Tural Gəncəliyev "Konstitusiya və Suverenlik: Azərbaycanın gələcəyə baxışı" mövzusunda mühazirə ilə çıxış edib.

Tural Gəncəliyev öz çıxışında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan olunmasının Azərbaycan dövlətçiliyi tarixində xüsusi mərhələ olduğunu bildirmişdir. O, Konstitusiyanın hazırlanmasında Ümummilli Lider Heydər Əliyevin əvəzsiz xidmətlərini və Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan hüquqi-institusional islahatların strateji əhəmiyyətini qeyd etmişdir. Həmçinin çıxış zamanı, 44 günlük müharibə və antiterror tədbirlərindən sonra Azərbaycanda aparılan dövlət siyasəti haqqında qeydlər edilmişdir.

Görüşdə fakültənin magistrantları fəal iştirak etmiş, tədbirin sonunda müzakirələr aparılmış və tələbələrin sualları cavablandırılmışdır.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 23 aprel 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: Suverenliyə aparan yol" mövzusunda mühazirə ilə çıxış etdi.

Təlim çərçivəsində Azərbaycanın dövlət suverenliyinin tarixi inkişafı və bu suverenliyin möhkəmləndirilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən strateji tədbirlər ətraflı şəkildə təhlil edilmişdir.

Akademik Urxan Ələkbərov vurğulamışdır ki, Prezident İlham Əliyev ölkənin müstəqilliyini qorumaq və davamlı inkişafını təmin etmək məqsədilə çoxsaylı islahatlar həyata keçirmiş, dövlət idarəçiliyində aparılan struktur və funksional təkmilləşdirmələr vasitəsilə Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və daxili sabitliyinin möhkəmlənməsinə nail olunmuşdur.

Rektor çıxışı zamanı qeyd etmişdir ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilmiş dövlət idarəçilik modeli, bu sahədə nəzəri konsepsiyaların formalaşdırılması və onların praktik tətbiqi nəticəsində mühüm nailiyyətlərə səbəb olmuşdur. İnnovativ idarəetmə texnologiyalarının tətbiqi, dövlətin suverenliyinin və müstəqilliyinin daha da möhkəmləndirilməsi məqsədi daşıyır. Akademik, həmçinin təlim zamanı Azərbaycanın Konstitusiyasının əsas prinsiplərinə – suverenlik, müstəqillik və demokratik dəyərlərə – xüsusi diqqət yetirmişdir. Bildirilmişdir ki, bu prinsiplər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının əsasını təşkil edir və ölkənin siyasi-hüquqi sistemində dayanıqlı əsas rolunu oynayır.

Tədbirdə rektor Urxan Ələkbərov tərəfindən ölkədə vitse-prezidentlik institutunun yaradılması və Mehriban Əliyevanın bu vəzifəyə təyin olunmasının, Azərbaycan siyasi və idarəetmə sistemində mühüm bir institusional yenilik kimi tarixə düşdüyü qeyd olunmuşdur. Bu institutun tətbiqi, dövlətin idarəetmə effektivliyini və çevikliyini artıraraq, Prezident İlham Əliyevin rəhbərliyi altında milli inkişaf strategiyasına əlavə dəstək mexanizmi funksiyasını yerinə yetirmişdir.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafı üzrə müəyyən edilmiş strategiya və həmin ərazilərin "Yaşıl Enerji Zonası"na çevrilməsi təşəbbüsü, ölkənin suverenliyinin və müstəqilliyinin daha da gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Rektor vurğulamışdır ki, bu strateji yanaşma, Azərbaycanın enerji təhlükəsizliyinin artırılması və bərpa olunan enerji sahəsində beynəlxalq rəqabətqabiliyyətli mövqe qazanması məqsədi daşıyır.

Nəticə etibarilə, bərpa olunan enerji mənbələrinə əsaslanan və xarici enerji asılılığını azaltmağa yönəlmiş bu siyasət, Azərbaycanın iqtisadi dayanıqlığını və milli suverenliyini möhkəmləndirərək, beynəlxalq səviyyədə enerji təhlükəsizliyi üzrə mövqelərinin gücləndirilməsinə şərait yaradır. Bu kontekstdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təşəbbüslər, ölkənin suveren inkişafı və strateji müstəqilliyinin təmin olunması istiqamətində əhəmiyyətli addımlar kimi qiymətləndirilir.

Təlim diskussiya formatında davam etdirilmiş və uğurla yekunlaşdırılmışdır.

***Professor Mahirə Hüseynovanın DİA-da tələbələr ilə görüşü keçirildi***

Aprelin 23-də Dövlət İdarəçilik Akademiyasında Tələbə Gənclər Təşkilatının “Political Scientists” klubunun təşkilatçılığı ilə filologiya elmləri doktoru, professor Mahirə Hüseynova ilə “Qərbi Azərbaycan toponimləri: milli kimliyin izləri” mövzusunda görüş keçirilib.

Tədbirdə Akademiyanın ictimai əlaqələr üzrə müşaviri Zaur Məmmədov professor Mahirə Hüseynovaya dəvəti qəbul edib gəldiyinə görə təşəkkürünü bildirib. O, çıxışında mövzunun aktuallığını vurğulayaraq, belə tədbirlərin gənclərin milli kimlik və tarix şüurunun formalaşmasında mühüm rol oynadığını qeyd edib.

Professor Mahirə Hüseynova Qərbi Azərbaycan toponimləri haqqında ətraflı şəkildə tələbələrə məlumat vermişdir. O qeyd edib ki, toponimlər xalqın tarixinin dəqiqləşdirilmə-

sində, əcdadlarımızın ulu keçmişi haqqında biliklərin genişlənməsində mühüm rol oynayır, tarixi abidə kimi xalqın formalaşmasını, mənşəyini özündə qoruyub saxlayır.

Maraqlı və dolğun çıxışdan sonra tələbələr professor Mahirə Hüseynovaya mövzu ilə bağlı çoxsaylı suallar ünvanlayıb, fikir mübadiləsi aparıblar.

Tədbir elmi və maarifləndirici xarakteri ilə seçilmiş, tələbələrin tarixə və milli kimliyə marağını daha da artırmışdır.

***Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantları üçün Azərbaycanın mədəni irsinin təşviqi məqsədilə Azərbaycan Milli İncəsənət Muzeyinə ekskursiya təşkil olunmuşdur***

Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantları üçün 23 aprel 2025-ci il tarixində Azərbaycan Milli İncəsənət Muzeyinə maarifləndirici xarakterli ekskursiya təşkil edilmişdir.

Ekskursiyanın əsas məqsədi magistrantların dünyagörüşünü genişləndirməklə yanaşı, onların Azərbaycan milli incəsənətinə və zəngin mədəni irsinə daha dərindən bələd olmalarına şərait yaratmaq olmuşdur.

***Dövlət İdarəçilik Akademiyasında II MUN Simulyasiya Konfransı***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) aprelin 24-də Birləşmiş Millətlər Təşkilatı Modeli (Model United Nations – MUN) çərçivəsində II Simulyasiya Konfransı keçirilib.

Əsas mövzusu “Qlobal Miqrasiya Böhranı: İnsan Hüquqlarının Qorunması və Beynəlxalq Əməkdaşlıq” olan konfrans tələbələrə beynəlxalq münasibətlər sahəsində bilik və bacarıqlarını praktik müstəvidə tətbiq etməyə imkan yaradıb.

Tədbir DİA-nın Tarix kafedrasının dosenti Rəna Bayramovanın təşəbbüsü və Tələbə Gənclər Təşkilatının təşkilati dəstəyi ilə baş tutub.

Əsas məqsəd gənc nəslin analitik düşünmə, diplomatik nitq və debat bacarıqlarını inkişaf etdirmək, onları qlobal çağırışlara dair müzakirələrə cəlb etməklə, beynəlxalq münasibətlər sahəsində daha fəal və məlumatlı fərdlər kimi yetişməsinə töhfə verməkdir.

Konfrans çərçivəsində iştirakçılar Birləşmiş Millətlər Təşkilatının müxtəlif komitələrinin işini simulyasiya edərək, miqrasiya axınları, qaçqınların hüquqları, sərhəd təhlükəsizliyi və dövlətlərarası əməkdaşlıq kimi aktual məsələlər üzrə öz mövqelərini səsləndiriblər. Gənc nümayəndələr təmsil etdikləri ölkələrin maraqlarını müdafiə edərək, real diplomatik müzakirə və qərar qəbuletmə prosesində iştirak ediblər.

Tədbir, eyni zamanda, tələbələrə beynəlxalq hüquq, humanitar problemlər və insan hüquqları sahəsində nəzəri biliklərini praktik müzakirələrə tətbiq etmək, eləcə də ictimai çıxış və komanda işi bacarıqlarını inkişaf etdirmək üçün əlverişli mühit təqdim edib. Simulyasiya, akademik yanaşma ilə yanaşı, iştirakçılarda qlobal miqyaslı hadisələrə qarşı daha həssas və məsuliyyətli yanaşma formalaşdırmağı hədəfləyir.

Sonda fəallığı ilə fərqlənən iştirakçılar diplom və sertifikatlarla təltif olunublar.

***“Konstitusiya milli iradənin və suverenliyin təzahürü kontekstində: yeni reallıqlar, strateji hədəflər” mövzusunda respublika elmi-praktik konfrans***

Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) “Konstitusiya milli iradənin və suverenliyin təzahürü kontekstində: yeni

reallıqlar, strateji hədəflər” mövzusunda respublika elmi-praktik konfransı keçirilib. Tədbir Dövlət İdarəçilik Akademiyası, Baş Prokurorluq, Vəkillər Kollegiyası, Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbirdə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov Azərbaycanda “Konstitusiya və Suverenlik İli”nə həsr olunan bu konfransın yeni çağırış və inkişaf yollarına yönəlik təkliflərin, fikirlərin müzakirəsi baxımından əhəmiyyətli olduğunu söyləyib. Azərbaycanın 2020-ci ildə ərazi bütövlüyünü, 2023-cü ildə suverenliyini tam bərpa etdiyini vurğulayan rektor deyib ki, bu, məqsədyönlü və uzunmüddətli fəaliyyətin planlaşdırılmasının nəticəsidir. Azərbaycanın iqtisadi inkişaf göstəricilərindən danışan akademik U.Ələkbərov bu baxımdan ölkəmizin sosial siyasəti imkanlarına diqqət çəkib. Rektor çıxışında hüquqi bazanın çox vacib olduğunu söyləyib.

Elmi-praktik konfransda çıxış edən Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Talıb Cəfərov bildirib ki, Azərbaycanın müstəqilliyinin və suverenliyinin bərpası tarixi zərurət idi: “Bu siyasətin banisi Ümummilli Lider Heydər Əliyev olub. Konstitusiyamızda olan prinsiplər hələ 200-300 il bizə xidmət edəcək”.

Baş Prokurorluq və Dövlət İdarəçilik Akademiyası arasında faydalı əməkdaşlıqdan danışan T.Cəfərov prokurorluq orqanlarının peşəkar kadrların hazırlanmasında maraqlı olduğunu diqqətə çatdırıb: “Bütün təhsil müəssisələri ilə sıx əlaqədəyik. 2020-ci ildə memorandum imzalamışıq. Bu, prokurorların elmi yaradıcılıqla məşğul olmasına imkan yaratdı. Gələcəyin hüquqşünasları üçün prokurorluq orqanlarında “Açıq qapı” günləri keçirilir”.

Hüquq və İnsan Haqları İnstitutunun İdarə Heyətinin sədri Məhəmməd Quluzadə bildirib ki, Azərbaycan Konstitusiyasında insan hüquqları ilə bağlı kifayət qədər maddələr mövcuddur: “Qanunvericilik aktlarında insan hüquqları ekspertizasını həyata keçiririk. İki il öncə insan hüquqları sahəsində böyük elektron kitabxana yaratdıq. Eyni zamanda, praktikaya aid siqnallar sorğusu – PASS platformasında rübdə 1 dəfə ictimaiyyətdən qanunvericiliyə aid təkliflər toplanır”.

Vəkillər Kollegiyasının sədr müavini Şahmar Məmmədov bildirib ki, konstitusiya ali qüvvəyə malikdir, 1995-ci ildə qəbul



olunmuş Konstitusiyanın preambulasında Azərbaycan vətəndaşının niyyəti yer alıb. Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin olunduğuna diqqət çəkən spiker bildirib ki, Vəkillər Kollegiyasında "Konstitusiya və Suverenlik İli" çərçivəsində tədbirlər planı hazırlanıb.

Digər çıxış edənlər Azərbaycanın müstəqillik tarixindən, siyasi proseslərdən, Konstitusiyaya gedən yoldan danışıblar. Bildirilib ki, Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış Konstitusiya mühüm qanunvericilik bazasıdır. Ali Qanun genişmiqyaslı hüquq və məhkəmə islahatlarının həyata keçirilməsinə imkan yaradıb. Konstitusiyanın müddəaları uzun illər hüquqi qüvvədə olacaq.

## *Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün təlim*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 30 aprel 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: Suverənliyə aparan yol"mövzusunda 30 yerli icra hakimiyyəti orqanlarından 147 nəfər dövlət qulluqçuları qarşısında mühazirə ilə çıxış etdi.

Təlimdə, Azərbaycanın suverenliyinin tarixi və bu suverenliyi əldə etmək üçün Prezident İlham Əliyevin həyata keçirdiyi mühüm addımlar barədə ətraflı məlumat verilib. Akademik qeyd edib ki, Prezident İlham Əliyev ölkənin müstəqilliyini qorumaq və inkişafını təmin etmək üçün çoxsaylı islahatlar həyata keçirib, bu istiqamətdə dövlət idarəçiliyindəki təkmilləşdirmələr ölkənin güclənməsinə və beynəlxalq səviyyədə tanınmasına şərait yaradıb.

Rektor qeyd edib ki, bu gün dahi rəhbər Heydər Əliyev tərəfindən əsası qoyulan və Prezident İlham Əliyevin uğurla inkişaf etdirdiyi innovativ idarəetmə texnologiyalarının nəzəri əsaslarının işlənilməsi, onların təcrübədə tətbiqi nəticəsində bir çox uğurlara imza atılıb. Bu innovativ idarəetmə texnologiyalarının tətbiqi, ölkənin suverenliyini gücləndirmək və müstəqilliyini qorumaq məqsədini daşıyır.

Akademik təlim zamanı Azərbaycanın Konstitusiyasının əsas prinsiplərinin, o cümlədən suverenlik, müstəqillik və demokratik dəyərlərin qorunmasının, ölkə üçün mühüm bir zəmin yaratdığını qeyd edib. Prezident İlham Əliyevin rəhbərliyi altında dövlətin inkişaf strategiyasının bu dəyərlərə əsaslandığına xüsusi diqqət çəkilib.

Daha sonra rektor Urxan Ələkbərov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın beynəlxalq humanitar əməkdaşlıq və mədəni diplomatiya sahəsində fəaliyyətinin ölkənin beynəlxalq imicinin möhkəmləndirilməsində mühüm rol oynadığını vurğulamışdır. Qeyd olunmuşdur ki, insan amilinə əsaslanan yanaşması və inklüziv inkişaf istiqamətindəki təşəbbüsləri, Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin inkişafına mühüm töhfə verir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursu və bu ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi, ölkənin suverenliyinin möhkəmləndirilməsi və müstəqilliyinin təmin olunması məqsədini güdür. Rektor, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad edilən ərazilərdə "Yaşıl Enerji Zonasının" yaradılması ilə bağlı irəli sürdüyü strateji baxışın, Azərbaycanın enerji təhlükəsizliyini artırmaq və bərpa olunan enerji sahəsində güclü bir mövqe əldə etmək məqsədi daşıdığını vurğulayıb.

Qeyd olunub ki, bu strateji addım Azərbaycanın yalnız iqtisadi inkişafını deyil, həm də milli suverenliyini və müstəqilliyini gücləndirir. Çünki enerji sahəsində özünə kifayət edən və bərpa olunan enerji mənbələrinə yönələn siyasət, ölkənin xarici enerji asılığını azaltmağa, eyni zamanda beynəlxalq səviyyədə enerji təhlükəsizliyi ilə bağlı mövqeyini möhkəmləndirməyə imkan verir. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən bu təşəbbüslər, Azərbaycanın suverenliyinin qorunması və inkişaf etdirilməsi istiqamətində mühüm bir addım olaraq dəyərləndirilə bilər.

Təlim diskussiya formatında davam edib və uğurla başa çatıb.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin innovativ təhsil metodlarına keçid planı üzrə ikinci təlimi uğurla başa çatdı***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin innovativ təhsil metodlarına keçid planı üzrə 29-30 aprel tarixində

Təlim iştirakçıların peşəkar inkişafına töhfə vermiş və yeni tədris yanaşmalarının tətbiqinə stimul yaratmışdır. Tədbirin sonunda iştirakçılara müvafiq tövsiyələr təqdim olunmuş və yekun müzakirələr aparılmışdır.



Müəllimlər üçün süni intellektin imkanları və istifadə yolları mövzusunda ikici təlimi uğurla başa çatdı.

Təlimdə akademiyanın hər kafedra və dekanlıqlarının nümayəndələri çox fəal iştirak etmişdir.

### *Dövlət İdarəçilik Akademiyası və Naxçıvan Təlim Mərkəzi birgə vebinar*

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının və "Naxçıvan Təlim Mərkəzi" publik hüquqi şəxsin birgə təşkilatçılığı ilə "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: Suverenliyə aparan yol" mövzusunda genişmiqyaslı vebinar keçirilib. Vebinarda Naxçıvan Muxtar Respublikasının müxtəlif dövlət qurumlarında çalışan 180-ə yaxın əməkdaş iştirak edib.

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxışında Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan yeni dövlət idarəçilik modelinin əsas xüsusiyyətlərinə – şəffaflıq, çeviklik, rəqəmsallaşma və innovativ yanaşmaların tətbiqi məsələlərinə xüsusi diqqət çəkib. O, həmçinin Azərbaycanın son 30 ildə keçdiyi inkişaf mərhələləri, sosial-iqtisadi sabitliyin təmin olunması və dövlət idarəçiliyində müasir yanaşmaların uğurlu tətbiqindən bəhs edib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən vebinarda Azərbaycanın regional və qlobal müstəvidə sürətlə artan nüfuzu, beynəlxalq təşəbbüslərdəki fəal iştirakı və ölkədə formalaşmış səmərəli inkişaf modeli haqqında ətraflı məlumat verilib. İştirakçılar dövlət başçımız tərəfindən uğurla həyata keçirilən siyasi xətt sayəsində Azərbaycanın yalnız Cənubi Qafqazın deyil, bütövlükdə Avrasiya məkanının nüfuzlu aktorlarından birinə çevrildiyini vurğulayıblar.

Vebinar "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2025-2027-ci illər üzrə Təfsilatlı Tədbirlər Planı" çərçivəsində keçirilib.

### *"Konstitusiya və Suverenlik İli" çərçivəsində Hüquq Olimpiadası*

6 may 2025-ci il tarixində Azərbaycan Respublikası Baş Prokurorunun yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Bakı Dövlət Universitetinin təşəbbüsü, Hüquq fakültəsinin Tələbə Gənclər Təşkilatının təşkilatçılığı və Azərbaycan Respublikası Baş Prokurorluğunun institusional dəstəyi ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika səviyyəli Hüquq Olimpiadası təşkil edilmişdir.

Olimpiada "Konstitusiya və Suverenlik İli" çərçivəsində hüquq təhsili alan tələbələrin nəzəri biliklərinin və praktiki bacarıqlarının qiymətləndirilməsi, hüquqi təfəkkür və analitik düşünmə qabiliyyətlərinin inkişaf etdirilməsi, habelə gələcək hüquqşünaslar arasında sağlam rəqabət mühitinin təşviq edilməsi məqsədilə təşkil olunmuşdur.

Tədbirdə respublikanın aparıcı ali təhsil müəssisələrinin – Qarabağ Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Milli Aviasiya Akademiyası, Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Naxçıvan Dövlət Universiteti – hüquq fakültələrinin tələbələri iştirak etmişdir.

İki mərhələdən ibarət olan Olimpiada zamanı iştirakçılar hüququn müxtəlif sahələrinə dair nəzəri və praktik sualları cavablandıraraq elmi biliklərini və hüquqi təhlil bacarıqlarını nümayiş etdirmişlər. Qiymətləndirmə prosesi müstəqil ekspertlərdən və tanınmış hüquq alimlərindən ibarət münsiflər heyəti tərəfindən şəffaf və obyektiv şəkildə həyata keçirilmişdir.

Nəticələrə əsasən, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının komandasının üzvləri Nəzrin Musa-zadə, Selcan Əli-Pur, Yahya Mürsəlov, Əli Nəbiyev və Nihal Fərzəliyev birinci yerə layiq görülmüşdür. Tədbirin sonunda qalib



komandalar diplom və hədiyyələrlə təltif olunmuş, iştirakçılara isə təşəkkürnamələr təqdim edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının komandasının üzvləri hörmətli rektor, akademik Urxan Ələkbərov tərəfindən qəbul edilmiş və onlara qeyd edilən uğurlarına görə dərin təşəkkürlərini bildirmişdir.

Bu kimi tədbirlərin təşkili hüquq sahəsində ixtisaslaşan gənclərin intellektual potensialının inkişaf etdirilməsi, peşəkar kompetensiyaların formalaşdırılması və möhkəmləndirilməsi ilə yanaşı, cəmiyyətdə hüquqi maarifləndirmə və hüquq mədəniyyətinin təşviqi baxımından da əhəmiyyətli rol oynayır.

### *Heydər Əliyev Mərkəzi və Dövlət İdarəçilik Akademiyası birgə konfrans*

8 may 2025-ci il tarixində Heydər Əliyev Mərkəzi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının təşkilatçılığı Tələbə Elmi Cəmiyyətinin iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Heydər Əliyevin zəngin dövlətçilik irsi qüdrətli Azərbaycanın təməlidir” mövzusunda elmi konfrans keçirilmişdir.

Konfransı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov giriş sözü ilə açaraq, Azərbaycanın müasir tarixinin bütöv bir mərhələsinin Ümummilli Lider Heydər Əliyevin adı ilə sıx bağlı olduğunu, ölkəmizi erməni faşizmi üzərində Qələbəyə aparan böyük işlərin təməlində xalqımızın dahi Lideri Heydər Əliyev siyasətinin dayandığını qeyd etmiş, layiqli siyasi varis, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tam suverenliyini bərpa etmiş Qalib Azərbaycanın mühüm nailiyyətlərindən bəhs etmiş, bu uğurların arxasında dövlətimizin başçısı İlham Əliyevin müdrik, uzaqgörən siyasəti və liderlik keyfiyyətlərinin dayandığını göstərmişdir. Rektor postmüharibə dövrünün reallıqları, Prezidenti İlham Əliyevin Qarabağın dirçəlişi və Böyük Qayıdış strategiyalarının sürətlə həyata keçirilməsi barədə ətraflı danışmış, Ulu öndərimizin



zəngin dövlətçilik təcrübəsinin hərtərəfli araşdırılmasının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayaraq, bu baxımdan Heydər Əliyev Mərkəzi və DİA Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş konfransın keçirilməsinin təqdirəlayiq olduğunu qeyd etmiş, onun işinə uğurlar arzulamışdır.

Plenar iclasda Heydər Əliyev Mərkəzinin baş mütəxəssisi Nailə Həsənova və DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, professor Sevil Məmmədova qüdrətli Azərbaycanın təməlini təşkil edən dahi şəxsiyyət və müdrik lider Heydər Əliyevin zəngin dövlətçilik irsinə həsr olunmuş geniş məruzələr etmiş, Ulu Öndərin Azərbaycan dövləti qarşısında tarixi xidmətlərini ətraflı işıqlandırmışlar.

Sonra iki Bölmədə keçən geniş müzakirələrdə iştirak edən magistrant və tələbələr maraqlı mövzularda çıxışlar etmiş, geniş fikir mübadiləsi aparmış və bundan sonra qarşılarında Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsini daha dərindən öyrənmək kimi vacib vəzifənin durduğunu vurğulayaraq, bu istiqamətdə fəallıq göstərəcəklərinə əminlik ifadə etmişlər.

### *“Azərbaycanın inkişaf yolunda Heydər Əliyevin irsi və liderlik rolu” mövzusunda Milli Məclisin deputatı ilə DİA tələbələri arasında görüş*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsi Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Azərbaycanın inkişaf yolunda Heydər Əliyevin irsi və liderlik rolu” mövzusunda tədbir baş tutmuşdur.

Tədbirin açılış nitqini Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsinin dekanı, dosent Murtəza Həsənov etmişdir. O, çıxışında Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin qurulmasında və inkişafında misilsiz xidmətlərindən, onun zəngin irsindən və müasir dövlət idarəçiliyi sahəsində qoyduğu möhkəm təməllərdən bəhs etmişdir.

Tədbirin qonağı Azərbaycan Respublikası Milli Məclisinin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Aydın Mirzəzadə olmuşdur.

A. Mirzəzadə çıxışında Heydər Əliyevin müdrik siyasəti, strateji baxışları və liderlik keyfiyyətləri sayəsində Azərbaycanın müstəqilliyini möhkəmləndirdiyini və ölkənin dünya arenasında layiqli yer tutduğunu vurğulamışdır. O, həmçinin gənclərlə öz təcrübəsini bölüşmüş, onların fəal vətəndaş kimi yetişməsinin önəmini qeyd etmiş və tələbələri elmə, dövlətə və cəmiyyətə xidmət etməyə səsləmişdir.

Tədbirdə tələbələr də fəal iştirak etmiş, mövzu ətrafında suallar vermiş və fikir mübadiləsi aparmışlar.

### *Dövlət İdarəçilik Akademiyasında "Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi kimi" mövzusunda konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi kimi" mövzusunda doktorant və gənc tədqiqatçıların Respublika elmi-praktiki konfransı keçirilib.

Konfransı giriş sözü ilə açan Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov böyük siyasi iradə, dərin dövlətçilik təfəkkürü və uzaqgörən liderlik keyfiyyətləri ilə seçilən Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri haqqında geniş məzmunlu nitq söylədi. Rektor qeyd etdi ki, məhz Ulu Öndərin birbaşa rəhbərliyi və şəxsi nəzarəti altında hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin inkişaf trayektoriyasını müəyyən edən strateji yol xəritəsi olmuş, müstəqil dövlət quruculuğunun



hüquqi, demokratik və dünyəvi təməlini formalaşdırmışdır. Akademik Urxan Ələkbərov, çıxışının davamında, bu gün Azərbaycanın sürətli və davamlı inkişaf yolunda inamla irəliləyərək qlobal miqyasda nüfuz qazanan aparıcı ölkələr sırasına daxil olmasının əsas səbəblərindən birinin məhz Ümummilli lider Heydər Əliyevin siyasi irsi, onun əsasında qurulan innovativ dövlət idarəçilik modeli və bu siyasətin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi olduğunu diqqətə çatdırdı. O bildirdi ki, bu gün prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan regionda sabitlik və inkişaf nümunəsinə çevrilmişdir. İqtisadi islahatlar, sosial rifahın yüksəldilməsi, infrastruktur layihələrinin genişləndirilməsi və beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi dövlət başçısının strateji yanaşmasının əsas istiqamətlərindəndir. Eyni zamanda, hazırda işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işləri aparılaraq, Böyük Qayıdış konsepsiyası uğurla həyata keçirilir. Bütün bunlar isə Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi altında ölkənin qarşısında duran strateji hədəflərə doğru inamla irəliləməsinin göstəriciləridir.

Daha sonra çıxış edən Vəkillər Kollegiyası Akademiyasının rektoru, hüquq elmləri doktoru, professor Əmir Əliyev konfrans iştirakçılarını Azərbaycan Respublikası Vəkillər Kollegiyasının rəhbərliyi adından salamlayaraq konfransa dəvət edildiyinə görə öz təşəkkürünü bildirdi. Qeyd etdi ki, Ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası insan hüquq və azadlıqlarının təminatı, hüququn aliliyinin qorunması, vətəndaş cəmiyyətinin formalaşması və beynəlxalq cəmiyyətə inteqrasiyada əsas baza kimi çıxış edir. O, bu baxımdan Konstitusiyanın xüsusilə bir sıra maddələrinə diqqət çəkərək, həmin normaların müasir hüquq sistemimizdə oynadığı əvəzolunmaz rolu və cəmiyyətdə doğurduğu mühüm təsirləri konfrans iştirakçılarının diqqətinə çatdırdı.

Sonda doktorant və gənc tədqiqatçıların Ümummilli lider Heydər Əliyevin gənclərə dövlət qayğısı və dəstək siyasəti, Azərbaycan Respublikasının Konstitusiyasında ərazi bütövlüyü və suverenlik məsələləri, Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyinin əsas prioritetləri kimi mövzular üzrə məruzələri dinlənildi və məruzəçilərə sertifikatlar təqdim edildi.

### *Dövlət İdarəçilik Akademiyasının tələbələri Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirak etmişlər*

2025-ci il mayın 3-4-də 132-134 nömrəli məktəbin voleybol zalında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən “İdman” klubunun təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Qızıl Top” turnirini keçirilmişdir.

6 may 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi İdarəetmə fakültəsi Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Azərbaycanın inkişaf yolunda Heydər Əliyevin irsi və liderlik rolu” mövzusunda tədbir baş tutmuşdur. “Azərbaycanın inkişaf yolunda Heydər Əliyevin irsi və liderlik rolu” mövzusunda Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Aydın Mirzəzadənin DİA tələbələri ilə görüşü baş tutmuşdur.

7 may 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən “Art” klubunun və Üzeyir Hacıbəylinin ev-muzeyi-

nin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Respublika miqyaslı "İncəSənət" müsabiqəsi keçirilmişdir.

08.05.2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının nəzdində fəaliyyət göstərən "Kitab" klubunun təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev və kitabsevərlik mirası" adlı seminar keçirilmişdir. Tədbirin gedişi zamanı Elşad Mirbəşiroğlu Ulu Öndərin müasir Azərbaycan dövlətinin quruculuğunda göstərdiyi misilsiz xidmətlər, ölkənin təhsilinə, mədəni həyatına verdiyi töhfələrdən söhbət açmış, mütaliə ilə məşğul olmağın nə dərəcə vacib olduğunu tələbələrin diqqətinə çatdırmışdır.

26.04.2025-12.05.2025-ci il tarixlərində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Azərbaycan Memarlıq və İnşaat Universitetində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "DİA TGT ilə Futbol Çempionatı" adlı turnirin açılış mərasimi keçirilmişdir.

08.05.2025 tarixində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində təşkil edilmiş Olimpiadanın əsas məqsədi hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərinin təkmilləşdirilməsi, onların hüquqi təfəkkürünün inkişaf etdirilməsi və gənclər arasında sağlam rəqabət mühitinin təşviq olunması olub.

Olimpiadada ölkənin 8 ali təhsil və ixtisaslaşmış müəssisəsinin – Bakı Dövlət Universiteti, ADA Universiteti, Naxçıvan Dövlət Universiteti, Qarabağ Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Dövlət Gömrük Komitəsinin Akademiyasının komandaları iştirak ediblər.

Yarışın yekununda komandaların topladığı ümumi nəticələr əsasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının komandası qalib olub, Dövlət Gömrük Komitəsinin Akademiyasının komandası 2-ci yeri, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının komandası isə 3-cü yeri tutaraq, komanda üzvləri diplom və qiymətli hədiyyələrlə təltif olunublar.

Mayın 10-da isə İdarəçilik Akademiyasının tələbələri Fəxri Xiyabanda olmuşlar.

## *"Konstitusiya və Suverenlik İli" çərçivəsində beynəlxalq elmi-praktiki konfrans*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 13 may 2025-ci il tarixində "Suverenliyin Konstitusion-Hüquqi Anlayışı və Dövlətin Xarici Siyasəti: Azərbaycan Qlobal Çağırışlar Kontekstində" mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirildi.

Konfrans Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsinə həsr olunub və bu münasibətlə suverenlik anlayışının hüquqi və siyasi kontekstlərdə dəyərləndirilməsi, eləcə də dövlətin müasir dövrdəki xarici siyasət prioritetləri ətrafında fikir mübadiləsi aparılması məqsədi daşıyır.

Konfransda yerli və xarici ekspertlər, tanınmış hüquqşünaslar, politoloqlar və beynəlxalq münasibətlər üzrə alimlər iştirak etmişlər. Tədbirdə Azərbaycanın ərazi bütövlüyünün bərpası, suverenliyin beynəlxalq hüquqda yeri, regional təhlükəsizlik, diplomatiya və geosiyasi proseslərdə dövlətlərin rolu kimi mühüm məsələlər müzakirə olundu.

Açılış nitqi ilə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov iştirakşıları salamladı.

Daha sonra, Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Namiq Əliyev "Konstitusiya,

suverenlik və müasir mərhələdə Azərbaycanın xarici siyasətinin bəzi beynəlxalq-hüquqi aspektləri" mövzusunda çıxış edərək Azərbaycanın dövlət müstəqilliyi, ərazi bütövlüyü və beynəlxalq hüquqda tanınmış suverenlik prinsiplərinin tətbiqi üzrə aktual yanaşmaları elmi-praktiki əsaslarla təhlil etdi.

professor Karlığaş Nuğmanova (Qazaxstan), Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun professoru Mehman Süleymanov, Təhlükəsizlik və İqtisadiyyat Ali Məktəbinin dosenti Teodor Deçev (Bolqarıstan), İnformasiya müharibələri araşdırma İnstitutunun icraçı direktoru Yuriy Boçarov (İsrail),



Konfrans iştirakçıları sırasında "Kafkassam" Strateji Araşdırmalar Mərkəzinin Rəhbəri professor Hasan Oktay, Qarabağ İrsini Araşdırma Mərkəzinin rəhbəri, professor Elçin Əhmədov, Suxumi Dövlət Universitetinin rektoru, professor Zurab Khonelidze (Gürcüstan), Rusiya Federasiyasının 1-ci dərəcə Dövlət müşaviri siyasi elmlər doktoru Tatyana Poloskova, Beynəlxalq "Şərq-Qərb" Geopolitik Proqnozlaşdırma Mərkəzinin Prezidenti, Azərbaycan Turizm və Menecment Universitetinin "Beynəlxalq münasibətlər" kafedrasının müdiri dosent Cənnətxan Eyvazov, Gürcüstan Texniki Universiteti hüquq və beynəlxalq münasibətlər üzrə fəlsəfə doktoru David Tchotchua, Rusiya Elmlər Akademiyasının Dünya iqtisadiyyatı və beynəlxalq münasibətlər İnstitutunun əməkdaşı tarix elmləri doktoru Viktor Mizin və digər nüfuzlu mütəxəssislər yer alır.

***DİA-da tədrisin keyfiyyəti və əlçatanlığının yüksəldilməsi, tələbələrin maraq və fəallığının artırılması məqsədilə innovativ təhsil metodlarına keçid planı üzrə növbəti təlim***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında tədrisin keyfiyyəti və əlçatanlığının yüksəldilməsi, tələbələrin maraq və fəallığının artırılması məqsədilə innovativ təhsil metodlarına keçid planı üzrə 13-14 may tarixlərində üçüncü təlim keçirilmişdir. Təlimin mövzusu "Mentimeter" platformasına həsr olunmuşdur. Bu proqram müəllimlərə təqdimat və interaktiv sorğular hazırlamaqda dəstək olur. Təlimdə akademiyanın hər kafedra və dekanlıqlarının nümayəndələri çox fəal iştirak etmişdir. Təlimin 1-ci günü nəzəri hissəyə, 2-ci günü praktiki hissəyə həsr olunmuşdur.

## *“Mülki qanunvericiliyin problem məsələləri” mövzusunda dəyirmi masa*

2025-ci il may ayının 14-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının “Hüquq” kafedrasının təşkilatçılığı ilə, elmi-akademik əməkdaşlıq çərçivəsində “Mülki qanunvericiliyin problem məsələləri” mövzusunda geniş tərkibdə və yüksək elmi-akademik səviyyədə dəyirmi masa təşkil olunmuşdur. Tədbirdə Bakı Dövlət Universitetinin, ADA Universitetinin, Polis Akademiyasının və Milli Aviasiya Akademiyasının hüquq fakültələrinin professor-müəllim heyəti və tələbələri iştirak etmiş, elmi-praktik diskussiya platforması kimi əhəmiyyətli müzakirələr aparılmışdır.

Tədbirin açılış nitqi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış etmişdir. O, çıxışında müasir dövrdə ölkəmizdə həyata keçirilən innovativ idarəçilik siyasətinin konseptual əsaslarından bəhs etmiş, Azərbaycanın əlverişli geosiyasi və intellektual potensialı fonunda bir çox sahələrdə – o cümlədən idarəetmə və hüquqi tənzimləmə istiqamətində – beynəlxalq səviyyədə üstün mövqedə qərarlaşdığını vurğulamışdır.

Dövlət İdarəçilik Akademiyasının “Hüquq” kafedrasının müdiri, “Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi” ilə bağlı Hökumət Komissiyasının işçi qrupunun üzvü, professor İsaxan Vəliyev çıxış edərək dəyirmi masanın aktuallığı və məqsədləri barədə iştirakçılara ətraflı məlumat vermişdir. Professor İsaxan Vəliyev qeyd etmişdir ki, bu kimi elmi-praktik tədbirlər yalnız nəzəri-hüquqi müzakirə müstəvisi kimi deyil, həm də qanunvericilik təşəbbüslərinin elmi əsaslandırılması və hüquq siyasətinin formalaş-dırılması baxımından strateji əhəmiyyət kəsb edir. O, Komissiyanın işçi qrupu çərçivəsində görülən işlər, təhlil olunan hüquqi institutlar və beynəlxalq hüquqi təcrübənin adaptasiyası ilə bağlı məlumat verərək, Mülki Məcəllənin modernləşdirilməsi prosesində elmi ictimaiyyətin və təhsil müəssisələrinin fəal iştirakının vacibliyini vurğulamışdır.

Dəyirmi masa Azərbaycan Respublikasının hüquq sistemində aparılan islahatların, xüsusilə də Mülki Məcəllənin müasir dövrün sosial-iqtisadi və hüquqi reallıqlarına uyğunlaşdırılması istiqamətində görülən işlərin elmi müzakirəsi baxımından mühüm əhəmiyyət



daşıyırdı. Tədbirdə çıxış edən Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin İcraçı direktoru, "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təkmilləşdirilməsi" ilə bağlı Hökumət Komissiyasının rəhbəri Samir Mahmudov məruzəsində mülki qanunvericiliyin hazırkı vəziyyəti, təkmilləşdirmə istiqamətləri və bu sahədə qarşıya çıxan əsas hüquqi, praktiki və institusional problemlər haqqında geniş və əhatəli məlumat vermişdir.

Samir Mahmudov çıxışında xüsusilə Mülki Məcəllədə tənzimlənən müxtəlif hüquqi sahələrin beynəlxalq hüquq sistemləri ilə müqayisəli təhlilinə geniş yer vermiş, mülki hüququn bazar iqtisadiyyatı şəraitində rolu, hüquqi münasibətlərin şəffaflığının və effektivliyinin artırılması, eləcə də mülki hüquqi münasibətlərdə rəqəmsal transformasiyanın və elektronlaşma proseslərinin təsirləri kimi aktual məsələləri diqqətə çatdırmışdır. Eyni zamanda, Komissiya tərəfindən hazırlanmaqda olan dəyişikliklərin əsas hüquqi-fəlsəfi prinsipləri və nəzərdə tutulan əsas istiqamətlər tədbir iştirakçılarına təqdim olunmuşdur.

Dəyirmi masa çərçivəsində aparılan elmi müzakirələr zamanı hüquq fakültələrinin professor-müəllim heyəti və tələbələri aktiv şəkildə iştirak etmişlər.

## *"Akademiyadan peşəkar həyata: uğurlu karyera strategiyalarının sirləri" mövzusunda təlim*

2025-ci ilin 15 may tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının IV kurs tələbələri üçün «Akademiyadan peşəkar həyata: uğurlu karyera strategiyalarının sirləri» mövzusunda təlim keçirildi

Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyətinin, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Nazirlər Kabineti Aparatının, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin, Elm və Təhsil Nazirliyinin nümayəndələrinin iştirak etdiyi toplantıda giriş sözü ilə çıxış edən akademiyanın rektoru Urxan Ələkbərov təlimin hədəfini açıqladı. O bildirdi ki, məqsəd son kurs tələbələrinin ali təhsildən sonra uğurlu karyera qurmalarına təkan vermək, onları bu mövzuda maarifləndirməkdir. Məzunlar qazandıqları nəzəri bilikləri əmək fəaliyyətində tətbiq etmək və öz peşəkar karyeralarını qurmaqda bir sıra çətinliklərlə üzləşirlər.



İşəgötürənlərin təcrübəli işçi axtarması kimi amilləri nəzərə alaraq akademiyada nəzəri biliklərlə yanaşı, praktiki təcrübələrə də xüsusi əhəmiyyət verilir.

Çıxış edən natiqlər uğurlu karyera qurmağın əsas mərhələləri, süni intellekt və texnologiyanın əmək bazarına təsiri, eləcə də şəxsi inkişaf yolları barədə fikir və mülahizələrini bölüşdülər. Düzgün karyera planlaması, peşəkar CV tərtibatı, işə müraciət qaydaları, iş müsahibəsinə praktik hazırlıq, karyera yüksəlişi və digər mövzularda geniş fikir mübadiləsi aparıldı.

Baş prokurorluğun Elm-Tədris mərkəzinin şöbə prokurorları Rəşad Qasımov və Nigar Əskərova məzunların prokurorluq orqanlarına işə qəbulu ilə bağlı təşkil edilən müsabiqələr barədə də ətraflı açıqlama verərkən gənclərin öz potensiallarını kəşf etmə, fürsətləri görmə və onlardan maksimum yararlanma yollarından söz açdılar.

Elm və Təhsil Nazirliyinin əməkdaşı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Rövşən Ağayev Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə gerçəkləşdirilən "Maarifçi" tələbə-məzun təcrübə proqramı barədə məlumat verdi. O bildirdi ki, bu proqramın məqsədi elm və təhsil sahəsində insan resurslarının formalaşdırılmasına, tələbə və məzunların müasir yanaşmaları öyrənmələrinə dəstək olmaqdır. Natiq öz təcrübəsindən də danışarkən qeyd etdi ki, uğurlu karyera qurmaq istəyən tələbələr ali təhsili başa vurduqdan sonra da bilik və bacarıqlarını, peşəkarlıqlarını daim artırmalıdırlar. R.Ağayev Akademiyanın kitabxanasına Ümummilli Lider Heydər Əliyevin və Prezidenti İlham Əliyevin fəaliyyəti ilə bağlı kitabları, son illərdə çap olunmuş ədəbi əsərlərini hədiyyə etdi.

Sonda tələbələri maraqlandıran sualları cavablandırdılar.

### *DİA-da Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin və Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin təşkilatçılığı ilə tələbələr üçün dəyirmi masa*

2025-ci ilin 16 may tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş Şöbəsinin və Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin təşkilatçılığı ilə tələbələr üçün



nəzərdə tutulan "Akademiyadan peşəkar həyata: Uğurlu karyera strategiyalarının sirləri" haqqında tədbirin ikinci hissəsi dəyirmi masa formatında keçirilmişdir.

Tədbirdə Akademiyanın Rəhbər Kadrların Yenidən Hazırlanması fakültəsinin magistrantları, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Xarici İşlər Nazirliyi, Əqli Mülkiyyət Agentliyinin HR mütəxəssisləri öz dəyərli fikirlərini, tövsiyələrini tələbələrlə bölüşmüşdür.

***Tədrisdə interaktiv metodların tətbiqi üzrə təlim***

2025-ci ilin 19-20 may tarixlərində Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsinin təşəbbüsü ilə növbəti – dördüncü təlim uğurla həyata keçirilmişdir.

Təlimin birinci günü nəzəri hissəyə həsr olunmuş, iştirakçılara interaktiv tədris metodlarının əhəmiyyəti, tətbiq sahələri və effektivliyi barədə ətraflı məlumat verilmişdir. İkinci gün isə praktik sessiyalarla davam etmiş, iştirakçılar real ssenarilər əsasında interaktiv metodların tətbiqini yerindəcə sınaqdan keçirmişlər. Təlim iştirakçıların peşəkar inkişafına töhfə vermiş və yeni tədris yanaşmalarının tətbiqinə stimul yaratmışdır. Tədbirin sonunda iştirakçılara müvafiq tövsiyələr təqdim olunmuş və yekun müzakirələr aparılmışdır.

***"Uğurlu CV və Linkedin hesabının yaradılması" mövzusunda təlim***

Tələbələrin karyera inkişafına dəstək məqsədilə Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi tərəfindən 21 may tarixində təşkil olunan "Uğurlu CV və LinkedIn hesabının yaradılması" mövzusunda təlim uğurla başa çatmışdır. Təlim zamanı iştirakçılarla əmək bazarının tələblərinə uyğun effektiv CV hazırlama üsulları, rəqəmsal dövrdə LinkedIn platformasının əhəmiyyəti, yumşaq bacarıqların peşəkar həyatda rolu, eləcə də könüllü fəaliyyətlərin şəxsi inkişaf və karyera baxımından yaratdığı imkanlar barədə geniş müzakirələr aparılmışdır.



### *DİA əməkdaşları Süni İntellekt üzrə beynəlxalq təlim proqramında iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) əməkdaşları 19-23 may 2025-ci il tarixlərində Huawei texnologiya şirkəti tərəfindən təşkil olunmuş "HCIA-AI training for teachers (Müəllimlər üçün Huawei Sertifikatlı İKT Mütəxəssisi – Süni İntellekt təlimi)" mövzusunda beynəlxalq təlim proqramında iştirak ediblər.



Təlim çərçivəsində iştirakçılara süni intellektin (AI) tətbiq sahələri, maşın öyrənməsi (Machine Learning), dərin öyrənmə (Deep Learning) alqoritmləri, eləcə də süni intellektin inkişafına dair nəzəri və praktik biliklər təqdim olunub. Təlimin sonunda iştirakçılar rəsmi HCIA-AI imtahanında uğurla iştirak edərək müvəffəqiyyətli nəticələr əldə ediblər.

DİA-da keçirilmiş görüş zamanı Elm və beynəlxalq əlaqələr üzrə prorektor, professor Elvin Əzizbəyov Huawei şirkətinin Yaxın Şərq və Mərkəzi Asiya regionu üzrə ictimaiyyətlə əlaqələr meneceri Zhou Qinyao və Huawei Azərbaycan şirkətinin ictimaiyyətlə əlaqələr meneceri Nigar Əliyevaya təlimin təşkilinə görə təşəkkürünü bildirib. O, qeyd edib ki, HCIA-AI təlimində süni intellektin tətbiqi üzrə yeni yanaşmaların öyrənilməsi interaktiv təhsil texnologiyalarının daha geniş istifadəsinə və tədris proqramlarının innovativ inkişafına dəstək verməklə yanaşı, Akademiya ilə Huawei arasında strateji əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

Görüşün sonunda imtahanı uğurla keçmiş iştirakçılar – Ayxan Xubanov, Aygün Qurbanova, Gülnar Mirzəyeva, Günel Əfəndiyeva və Aysan Məmmədova Huawei şirkəti tərəfindən HCIA-AI sertifikatları ilə təltif olunublar.

## *KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədovun DİA-da tələbələr ilə görüşü*

"Sahibkarlıqda idarəetmənin rolu" mövzusunda keçirilən tədbirin açılışında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov çıxış edərək, müasir dövrdə idarəetmə və sahibkarlığın vəhdətinin iqtisadi inkişafda oynadığı rolun vacibliyini vurğulamış, gənclərin bu sahələrdə bilik və bacarıqlarının artırılmasının əhəmiyyətindən bəhs etmişdir. Rektor qeyd etmişdir ki, bu kimi təşəbbüslər gənclərin dövlət-özəl sektor münasibətləri ilə daha yaxından tanış olmalarına və gələcək karyera planlarını düzgün istiqamətləndirmələrinə geniş imkanlar yaradır.

Tədbirin fəxri qonağı – Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov çıxış edərək, ölkəmizdə kiçik və orta sahibkarlığın inkişafında dövlətin rolu, tətbiq edilən dəstək mexanizmləri, eləcə də idarəetmə strategiyalarının sahibkarlıq fəaliyyətinə təsiri barədə ətraflı məlumat vermişdir. O, gənclərə praktiki tövsiyələr verməklə yanaşı, onları innovativ təşəbbüslərlə çıxış etməyə və sahibkarlıq mühitində fəal olmağa çağırmışdır.




Tədbirin sonunda Dövlət İdarəçilik Akademiyasının dekanı, dosent Elnur Əliyevin moderatorluğu ilə keçən görüşdə tələbələrin sualları cavablandırılmış, gəncləri maraqlandıran mövzular ətrafında fəal fikir mübadiləsi aparılmışdır. Sual-cavab sessiyasında çıxış edən Orxan Məmmədov iştirakçıların ideyalarını diqqətlə dinləyərək onlara peşəkar yanaşmalar və praktik məsləhətlər təqdim etmişdir.

***DİA-nın nümayəndəsi BMT-nin Beynəlxalq Biomüxtəliflik Günündə körpə nərə və qızılbalıqlarının Xəzər dənizinə buraxılması tədbirində iştirak etdi***

Təbii su hövzələrində balıq populyasiyasının artırılması və balıq ehtiyatlarının qorunmasının vacibliyinin təşviqi məqsədilə Neftçala rayonunda balıq körpələri Xəzər dənizinə buraxılıb.

Məlum olduğu kimi, Birləşmiş Millətlər Təşkilatı qlobal ekoloji 22 may tarixini Beynəlxalq Biomüxtəliflik Günü elan edib. Bu günün qeyd edilməsində əsas məqsəd dünyanın diqqətini bir çox bitki və heyvan növlərinin nəslinin kəsilməsi probleminə, eləcə də onların qorunub saxlanılması və bərpası yollarına yönəltməkdir.

22 may 2025-ci il tarixində Neftçala şəhərində "LU-MUN Holding"in törəməsi olan "Azerbaijan Fish Farm" MMC-nin təşkil etdiyi BMT-nin Beynəlxalq Biomüxtəliflik Gününə həsr olunmuş xüsusi balıq buraxılışı tədbiri keçirilmişdir. Tədbir çərçivəsində Xəzər dənizinə 100,000 Nərə balığı və 20,000 Xəzər qızılbalığı buraxılıb.

Tədbirdə Kənd Təsərrüfatı naziri, Neftçala Rayon İcra Hakimiyyətinin başçısı, FAO-nun Azərbaycanda nümayəndəsi, ölkəmizdə təmsil olunan bir neçə xarici səfirlər, balıqçılıq və akvakultura sahəsi üzrə fəaliyyət göstərən özəl şirkətlər və dövlət qurumlarının nümayəndə heyətləri iştirak edib. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində fəaliyyət göstərən "Davamlı inkişafda mavi texnologiyalar Mərkəzi"nin direktoru, professor Mehman Axundov tədbirdə iştirak etmişdir. Tədbirdə iştirak edən qonaqlar bu cür korporativ ekoloji məsuliyyət proqramlarının əhəmiyyətini qeyd ediblər.

***"Təhsil va Mədənyyət mübadiləsi" mövzusunda seminar***

26 may 2025 ci ildə Dillər kafedrasının müdiri f.f.d., dos. Ülkər Şəfiyevanın təşəbbüsü ilə, kafedranın baş müəllimi, f.f.d Azadə Ramazan qızı Mikayılova kafedra üzvləri üçün "Fulbright Proqrami ilə Təhsil va Mədənyyət mübadiləsi" mövzusunda seminar təşkil etmişdir. Seminarda Azadə xanım 2024-2025-ci il "Fulbright" qalibi kimi Şimali Arizona Universitetində keçdiyi 5 aylıq Fulbright Fakültə İnkişaf Programı haqqında əldə etdiyi təcrübəsini kafedra əməkdaşları ilə bölüşmüşdür. "Danışıq vərdişinin inkişafı" adlı təqdimatda öyrənilən dildə nitq vərdişlərini inkişaf etdirmə, bu zaman rastlaşılan problemlər, onların dəf edilməsi, tələbələrdə öyrəndikləri dildə səlis danışmaq üçün özünə inam yaratmaq və s. məsələlər müzakirə olundu və fikir mübadiləsi aparıldı. Seminarın sonunda iştirak edən bütün müəllimlər sertifikatla təltif olundu.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycanın Müstəqillik günü qeyd edildi***

Mayın 26-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Milli Konservatoriyası ilə birgə Xalq Cümhuriyyətinin yaranmasının 107-ci ildönümü və görkəmli bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə tədbir keçirilib. Azərbaycan Respublikasının dövlət himninin səslənməsindən sonra Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov bu günün əhəmiyyətini qeyd edərək "Konstitusiya və Suverenlik İli" çərçivəsində bu kimi tədbirləri əlamətdar hesab etmişdir: "Ümummilli Lider Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci ilin noyabrın 12-də qəbul olunmuş ilk Konstitusiya ölkəmizdə

genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etmişdir". Rektor Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsindən sonra işğaldan azad edilmiş torpaqlarda "Böyük Qayıdış" layihəsinin gerçəkləşməsindən, böyük quruculuq işlərindən danışaraq dövlətçiliyimizin şərəfli dönəm yaşadığını vurğulamışdır.

DİA-nın "Tarix" kafedrasının müdiri, əməkdar müəllim Firdovsiyyə Əhmədovanın "Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə yeri və Üzeyir Hacıbəylinin Cümhuriyyət quruculuğunda rolu" mövzusunda məruzəsindən sonra Üzeyir Hacıbəyli haqqında film nümayiş etdirilmişdir.

Daha sonra Azərbaycan Milli Konservatoriyasının Humanitar fənlər kafedrasının müdiri, professor Firudin Qurbansoy "Üzeyir Hacıbəylinin ədəbi yaradıcılığı", Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, professor Akif Quliyev isə "Üzeyir Hacıbəylinin musiqi yaradıcılığı" haqqında çıxış etmişlər.

Tədbir Azərbaycan Milli Konservatoriyasının "Milli vokal" və "Xanəndəlik" kafedralarının tələbə və məzunlarının iştirakı ilə konsert proqramı ilə davam etmişdir.

## *Tələbə Elmi Cəmiyyəti magistrant və tələbələrin elmi işlərinin nəticələrinə həsr olunmuş yekun konfrans*

22 may 2025-ci il tarixində DİA Tələbə Elmi Cəmiyyətinin tələbə və magistrantların bir il ərzində yerinə yetirdikləri elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş "Azərbaycan Respublikasının yeni inkişaf prioritetləri" mövzusunda yekun elmi konfransı keçirilmişdir.

Elmi konfransı giriş sözü ilə DİA-nın rektoru, akademik Urxan Ələkbərov açaraq, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında özünün ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş Qalib Azərbaycanın sürətli inkişaf dövründə yeni mərhələnin yaşandığını vurğulayaraq, 7 fevral 2024-cü il tarixli növbədənkənar Prezident seçkilərinin nəticələri Azərbaycanda möhkəm əsaslı xalq-iqtidar birliyini təsdiq etdiyini göstərmişdir. Natiq Ölkə Prezidentinin andiçmə mərasimindəki çıxışında yeni dövr üçün müəyyən etdiyi prioritetlər və hədəflərdən, qarşıdakı vəzifələrdən geniş bəhs etmiş, xalqımızın özünün Müdrik Liderinə sonsuz etimad göstərdiyini və yeni dövrə böyük ümidlərlə qədəm qoyduğunu qeyd etmişdir. Rektor bu baxımdan Tələbə Elmi Cəmiyyətinin elmi konfransının vacib və aktual mövzuya həsr olunduğunu xüsusi vurğulamış, konfransın işinə uğurlar arzulayaraq, onun yüksək fəallıq şəraitində keçəcəyinə əminlik ifadə etmişdir.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri siyasi elmlər doktoru, DİA-nın professoru Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı məruzə etmiş, həmçinin TEC-in il ərzindəki fəaliyyəti və qarşısında duran vəzifələr haqqında ətraflı məlumat vermişdir.

Plenar iclasdan sonra elmi konfrans öz işini iki bölmədə DİA-nın professoru Sevil Məmmədovanın (birinci bölmə) və dosenti Nurəddin İbrahimovun (ikinci bölmə) rəhbərliyi ilə davam etdirmişdir. Bölmə iclaslarında qüdrətli Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin politoloji aspektləri, Azərbaycan Respublikasının yeni sosial-iqtisadi inkişaf prioritetləri və innovativ dövlət idarəçiliyi məsələləri ətraflı təhlil edilmiş, TEC üzvləri olan tələbə və magistrantların elmi-tədqiqat işlərinin yekunlarına dair maraqlı çıxışları dinlənilmiş, geniş fikir mübadiləsi aparılmışdır.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik ili" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 29 may 2025-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin əməkdaşları üçün təlim keçirilmişdir. Təlimdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: Suverenliyə aparan yol" mövzusunda mühazirə ilə çıxış etdi.

Təlim çərçivəsində Azərbaycanın dövlət suverenliyinin tarixi inkişafı və bu suverenliyin möhkəmləndirilməsi istiqamətində Prezident İlham Əliyev tərəfindən həyata keçirilən strateji tədbirlər ətraflı şəkildə təhlil edilmişdir. Akademik Urxan Ələkbərov vurğulamışdır ki, Prezident İlham Əliyev ölkənin müstəqilliyini qorumaq və davamlı inkişafını təmin etmək məqsədilə çoxsaylı islahatlar həyata keçirmiş, dövlət idarəçiliyində aparılan struktur və funksional təkmilləşdirmələr vasitəsilə Azərbaycanın beynəlxalq nüfuzunun artmasına və daxili sabitliyinin möhkəmlənməsinə nail olunmuşdur.

Rektor çıxışı zamanı qeyd etmişdir ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş və Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilmiş dövlət idarəçilik modeli, bu sahədə nəzəri konsepsiyaların formalaşdırılması və onların praktik tətbiqi nəticəsində mühüm nailiyyətlərə səbəb olmuşdur. İnnovativ idarəetmə texnologiyalarının tətbiqi, dövlətin suverenliyinin və müstəqilliyinin daha da möhkəmləndirilməsi məqsədi daşıyır.

Akademik, həmçinin təlim zamanı Azərbaycanın Konstitusiyasının əsas prinsiplərinə – suverenlik, müstəqillik və demokratik dəyərlərə xüsusi diqqət yetirmişdir. Bildirmişdir ki, bu prinsiplər Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyasının əsasını təşkil edir və ölkənin siyasi-hüquqi sistemində dayanıqlı əsas rolunu oynayır.

Bundan əlavə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafı üzrə müəyyən edilmiş strategiya və həmin ərazilərin "Yaşıl Enerji Zonası"na çevrilməsi təşəbbüsü, ölkənin suverenliyinin və müstəqilliyinin daha da gücləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Rektor vurğulamışdır ki, bu strateji yanaşma, Azərbaycanın enerji təhlükəsizliyinin artırılması və bərpa olunan enerji sahəsində beynəlxalq rəqabətqabiliyyətli mövqe qazanması məqsədi daşıyır.

Rektor təlim zamanı Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın davamlı inkişafın təşviqi və inklüziv cəmiyyətin formalaşdırılması kontekstində ekoloji sivilizasiyaya keçidin təmin olunması istiqamətində həyata keçirdiyi məqsədyönlü fəaliyyət barədə məlumat vermişdir. Bildirilmişdir ki, Leyla Əliyevanın rəhbərliyi altında aparılan təşəbbüslər sosial ədalət və ekoloji dayanıqlılıq prinsiplərinin qarşılıqlı əlaqəsini nəzərə almaqla, cəmiyyətin müxtəlif sosial təbəqələrinin davamlı inkişaf prosesinə fəal inteqrasiyasını təmin edir. Həmin yanaşma ekoloji sistemlərin qorunması və bərpası, yaşıl iqtisadiyyatın təşviqi, eləcə də insan hüquqları və sosial inkluzivlik prinsiplərinin vəhdətini təmin etməklə, müasir cəmiyyətdə ekoloji mədəniyyətin və ekoloji sivilizasiyanın yüksəldilməsi sahəsində həm elmi, həm də praktik əhəmiyyətə malik töhfələr verir.

Nəticə etibarilə, bərpa olunan enerji mənbələrinə əsaslanan və xarici enerji asılılığını azaltmağa yönəlmiş bu siyasət, Azərbaycanın iqtisadi dayanıqlığını və milli suverenliyini möhkəmləndirərək, beynəlxalq səviyyədə

enerji təhlükəsizliyi üzrə mövqelərinin gücləndirilməsinə şərait yaradır. Bu kontekstdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təşəbbüslər, ölkənin suveren inkişafı və strateji müstəqilliyinin təmin olunması istiqamətində əhəmiyyətli addımlar kimi qiymətləndirilir.

Təlim diskussiya formatında davam etdirilmiş və uğurla yekunlaşdırılmışdır

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş DİA tələbələri arasında keçirilmiş futbol turnirinin final mərhələsi***

Mayın 30-da Bakı Su İdman Sarayında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tələbə Gənclər Təşkilatının təşkilatçılığı və Yeni Azərbaycan Partiyası Səbail Rayon Təşkilatının dəstəyi ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş DİA tələbələri arasında keçirilmiş turnirin final mərhələsinə uğurla yekun vurulmuşdur.

Final mərhələsində 4 komanda arasında mübarizə getmiş, müvafiq olaraq I, II və III yerlərin qalibləri müəyyənləşmiş, mükafatlandırılma mərasimində qaliblər təltif olunmuşdurlar.

Mükafatlandırma mərasimi Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə açıq elan edilmişdir.

***"Çəkişmə" hüquq müsabiqəsi uğurla yekunlaşdı***

Konstitusiya və Suverenlik İlinə həsr olunmuş "Çəkişmə" hüquq müsabiqəsi Bakı Dövlət Universitetinin (BDU) "BDU könüllüləri" təşkilatı, Hüquq fakültəsi, Mülki proses və kommersiya hüququ kafedrası və "De Novo" Hüquq klubu tərəfindən birgə təşkil edilərək böyük uğurla başa çatıb. İki aydan artıq davam edən bu müsabiqə Azərbaycanın



müxtəlif ali təhsil müəssisələrinin tələbələri arasında hüquq sahəsində bilik və bacarıqların sınaqdan keçirilməsi üçün mühüm platforma olmuşdur.

Müsabiqənin əsas məqsədi tələbələrin hüquqi araşdırma, analitik düşünmə, arqumentləşdirmə və ictimai nitq bacarıqlarını inkişaf etdirmək, eyni zamanda onların hüquq sahəsində peşəkar potensialını üzə çıxarmaqdır. Karl Popper debat formatında keçirilən müsabiqədə müxtəlif universitetlərdən və fakültələrdən olan 45 komanda iştirak edib. Hər bir komanda müsabiqənin müxtəlif mərhələlərində öz bilik və bacarıqlarını nümayiş etdirərək, təsdiq və inkar rollarında çıxış ediblər. Müsabiqənin mərhələləri müxtəlif hüquqi mövzular ətrafında təşkil olunub: 1/16 mərhələsində iştirakçılar "Söz azadlığı hüququ məhdudlaşdırıla bilər" mövzusu ilə bağlı hüquqi və etik məsələləri müzakirə edərək arqumentlərini təqdim etmiş, 1/8 və yarımfinal mərhələlərində "Qanunu yalnız Konstitusiya Məhkəməsi şərh etməlidir" mövzusu üzrə qanunların təfsiri və konstitusiya məhkəməsinin rolu ilə bağlı dərin hüquqi müzakirələr aparmış, final mərhələsində isə "Mülki prosesdə yalnız formal həqiqət müəyyən edilməlidir" mövzusu ətrafında mülki prosesdə həqiqətin müəyyənləşdirilməsi ilə bağlı mürəkkəb hüquqi mövqeləri müdafiə etmişlər.

Münsiflər heyətinin ciddi qiymətləndirməsi nəticəsində iki ən güclü komanda final mərhələsinə yüksəlib: Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 3-cü kurs hüquq tələbələrindən ibarət "Bona fide" komandası (Lalə Pərviz və Nurtac Məmmədzadə) və BDU Hüquq fakültəsinin 4-cü kurs tələbələrindən (SABAH qrupu) ibarət "İnsident" komandası. Final mərhələsi 23 may 2025-ci il tarixində Yasamal Rayon Məhkəməsinin iclas zalında keçirilib. Tədbirdə Yasamal Rayon Məhkəməsinin hakimi Fazil Əlizadə münsif qismində iştirak edərək komandaların çıxışlarını qiymətləndirib. Gərgin və intellektual mübarizədən sonra "Bona fide" komandası 1-ci yerə, "İnsident" komandası isə 2-ci yerə layiq görülüb.

Müsabiqə Məhkəmə-Hüquq Şurasının, Vəkillər Kollegiyasının və Yasamal Rayon Məhkəməsinin dəstəyi ilə keçirilib. Bu dəstək tədbirin yüksək səviyyədə təşkil olunmasına və hüquq tələbələri üçün real məhkəmə mühitində təcrübə qazanma fürsətinin yaradılmasına böyük töhfə verib. "Çəkişmə" hüquq müsabiqəsi tələbələrə nəinki öz biliklərini sınaqdan keçirmək, həm də hüquq sahəsində peşəkar şəbəkə qurmaq və gələcək karyera perspektivlərini genişləndirmək imkanı yaradıb.

Müsabiqənin yekun mərhələsindən sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və DİA "Hüquq" kafedrasının müdiri, hüquq elmləri doktoru İsaxan Vəliyev Akademiyanın qalib komandası "Bona fide" görüşüb, komandanın üzvlərini təbrik edərək, onların yüksək peşəkarlıq nümayiş etdirdiklərini və hüquq sahəsində gələcək uğurlara hazır olduqlarını vurğulayıblar.

Tədbirin təşkilatçıları gələcəkdə də bu cür layihələrin keçirilməsini planlaşdırır, bu isə Azərbaycanın hüquq təhsili sistemində gənclərin peşəkar inkişafına dəstəyin davamlı olacağını göstərir.

### *Dövlət İdarəçilik Akademiyasında Türkiyənin tanınmış professorları, beyin mərkəzlərinin nümayəndələri və politoloqları ilə görüş*

İyunun 3-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Türkiyənin tanınmış universitetlərinin, media orqanlarının və tədqiqat mərkəzlərininin 10-a yaxın nümayəndəsinin iştirakı ilə Hazırkı geosiyasi reallıqlar fonunda



Azərbaycan və Türkiyə münasibətlərindəki inkişaf meyilləri” adlı dəyirmi masa keçirilmişdir.

Dəyirmi masanı Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov açmış, Azərbaycanın dünyadakı iqtisadi və siyasi göstəriciləri ilə bağlı geniş təqdimat ilə çıxış etmişdir.

Rektorun müşaviri, politoloq Zaur Məmmədovun moderatorluğu ilə keçən dəyirmi masada millət vəkilləri Hikmət Babaoğlu və Aydın Mirzəzadə, Haccetepe Universitetindən doç. dr. Esma Özdaşlı, Türkiyə Siyasi və Strateji Araşdırmalar Vəqfi sədri dr. Sinan Demirtürk, Hacettepe Universiteti Strateji Araşdırmalar Mərkəzi müdür müavini dr. Özlem Pınar Oran, Ankara Böhran və Siyasət Araşdırmaları Mərkəzi sədri prof. dr. Mehmet Seyfettin Erol, Türkiyə İqtisadi Siyasətləri Araşdırma Vəqfi Orta Şərq və Orta Asya İnstitutu direktoru Hilmi Demir, Dövlət İdarəçilik Akademiyasının dekanı Mürtəza Həsənov, Tarix kafedrasının müdiri Firdovsiyyə Əhmədova və digərləri çıxış edərək tədbirin aktuallığına toxunmuşlar.

Tədbirdə Azərbaycan və Türkiyəni narahat edən çağırışlar geniş şəkildə təhlil edilmişdir. Dəyirmi masada 2020-ci ildən sonra formalaşan yeni geosiyasi vəziyyətdə bölgə ətrafındakı vəziyyətdə Azərbaycan və Türkiyə arasında münasibətlərin bütün sahələrdə inkişaf etdiyi qeyd edilmiş, ikitərəfli münasibətlərə xələl gətirmək istəyən qüvvələrin məqsədlərinə çatmayacağı vurğulanmışdır. Dəyişən beynəlxalq münasibətlər sistemi fonunda Azərbaycan və Türkiyə öz milli maraqlarını qarşılıqlı dəstək şəklində bundan sonra da qoruyacaqlar və həyata keçirəcəklər.

Xatırladaq ki, Türkiyədən 10 nəfərlik nümayəndə heyətinin dünəndən etibarən Azərbaycana səfərləri davam etməkdədir. İyunun 2-də qonaqlar Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) “Yeni geosiyasi reallıqların Türkiyə – Azərbaycan münasibətləri üçün yaratdığı təhdidlər və fürsətlər” adlı dəyirmi masada iştirak etmişlər.

### *Dövlət İdarəçilik Akademiyasının Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyov "Şərq Tərəfdaşlığına üzv ölkələrdə Kiçik və Orta Sahibkarlıqların (KOS) Rəqəmsal Transformasiyasının Dəstəklənməsi" mövzusunda təlim səfərində iştirak edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyov 2-6 iyun 2025-ci il tarixlərində Çex Respublikasının Praqa və Polşa Respublikasının Vrotslav şəhərlərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən təşkil olunmuş "Şərq Tərəfdaşlığına üzv ölkələrdə Kiçik və Orta Sahibkarlıqların (KOS) Rəqəmsal Transformasiyasının Dəstəklənməsi" mövzusunda təlim səfərində (Study Visit) iştirak edib.



Şərq Tərəfdaşlığı proqramına üzv dövlətlərin müvafiq qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilən təlimdə Çex və Polşa Respublikalarında fəaliyyət göstərən Rəqəmsal İnnovasiya Qovşaqları (Digital Innovation Hubs), texnologiya transferi mərkəzləri, eləcə də KOS-ların rəqəmsal transformasiyası sahəsində elmi layihələr həyata keçirən ali təhsil müəssisələri və tədqiqat institutlarında görüşlər təşkil edilmiş, həmçinin hökumət nümayəndələri, özəl sektor təmsilçiləri, akademik dairələr və vətəndaş cəmiyyətinin nümayəndələri ilə mövzuya dair görüşlər keçirilmişdir.

Təlimlər zamanı iştirakçılar süni intellekt, kibertəhlükəsizlik və Sənaye 4.0 texnologiyalarının tətbiqi üzrə praktiki biliklər əldə etmiş, rəqəmsal dayanıqlığın və innovasiya potensialının artırılması istiqamətində beynəlxalq strategiyalarla tanış olmuşlar.

### *DİA-da "15 iyun Milli Qurtuluş Günü"nə həsr olunmuş elmi-praktik konfrans*

Tədbirin giriş hissəsində Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov, Azərbaycan dövlətçiliyinin banisi, ümummilli lider Heydər Əliyevin tariximizdəki əvəzsiz rolunu xüsusi vurğulayıb. O, 1993-cü ildə xalqın iradəsi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin ölkəni parçalanma və vətəndaş qarşıdurmasından xilas etdiyini, bununla da 15 iyunun tariximizə Milli Qurtuluş Günü kimi daxil olduğunu xatırladıb. Rektor həmçinin qeyd edib ki, Ümummilli liderin müəyyən etdiyi strateji siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və nəticədə Azərbaycan davamlı və dinamik inkişaf yolundadır.

Urxan Ələkbərov əlavə edib ki, Heydər Əliyevin əsasını qoyduğu idarəetmə texnologiyaları bu gün prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilərək tətbiq edilir və bu istiqamətdə mühüm nailiyyətlər əldə olunub. O, həmçinin müasir Azərbaycanın inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın mühüm rolunu qeyd edərək, onun fəaliyyətinin ölkənin tərəqqisinə mühüm töhfələr verdiyini vurğulayıb.



Rektor bildirib ki, Dövlət İdarəçilik Akademiyasında Prezident İlham Əliyevin həyata keçirdiyi idarəetmə texnologiyaları və idarəçiliyin əsas prinsipləri bakalavr, magistratura və ixtisasartırma pillələrində təhsil alan tələbələrə, eləcə də müxtəlif dövlət qurumlarının əməkdaşlarına keçirilən təlim və seminarlar vasitəsilə ətraflı şəkildə izah olunur. Akademiya təsis edilən vaxtdan burada "Heydər Əliyevin milli ləyaqət fəlsəfəsi", "Heydər Əliyevin dövlət idarəçiliyi təcrübəsi" kimi fənlər tədris edilməyə başlanmışdır. Sonralar, "Heydər Əliyev irsinin politoloji aspektləri" adlı fənn bütün ixtisasların tədris proqramlarının fənləri sırasına daxil edilmişdir.

Elmi-praktik konfransda çıxış edən Milli Məclisin deputatı, "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dosenti Aydın Mirzəzadə öz çıxışında ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi və Azərbaycan dövlətçiliyinin qorunmasında oynadığı mühüm roldan bəhs etmişdir.

O, eyni zamanda müəllifi olduğu "Heydər Əliyev siyasi irsinin politoloji aspektləri" adlı dərslikdə ümummilli liderin həyat və fəaliyyətinin, eləcə də nəzəri baxışlarının bir elmi sistem kimi tədqiq edildiyini vurğulamışdır. Dərslikdə Heydər Əliyev irsinin formalaşmasının tarixi-siyasi səbəbləri araşdırılır, onun siyasi fəaliyyətinin politologiya elminin inkişafına verdiyi töhfələr əsaslandırılır. Çıxış zamanı qeyd olunub ki, kitabda həmçinin ümummilli liderin siyasi baxışlarının predmeti, əsas kateqoriyaları və nəzəri mənbələri elmi şəkildə təhlil olunur, bu baxışların arxasında duran qanunauyğunluqlar göstərilir. Heydər Əliyevin çalışdığı bütün sahələrdə tətbiq etdiyi idarəçilik metodologiyası sistemləşdirilir və ümumiləşdirilmiş prinsiplər halında təqdim olunur.

A.Mirzəzadə diqqətə çatdırıb ki, Ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin apardığı konseptual daxili və xarici siyasət gələcək nəsillər üçün strateji yol göstəricisi kimi çıxış edir – Azərbaycanın dövlət müstəqilliyinin qorunmasına, cəmiyyətin dayanıqlı inkişafına və müasir çağırışların effektiv həlli üçün əhəmiyyətlidir.

Daha sonra Hüquq kafedrasının dosenti, hüquq elmləri üzrə fəlsəfə doktoru Fəxrəddin Nağıyev çıxış etmişdir. O, Ümummilli Lider Heydər Əliyevin Naxçıvana gəlişi, oradakı fəaliyyəti, daha sonra Azərbaycan Respublikasının prezidenti kimi apardığı fəaliyyət haqqında danışmışdır. Eyni zamanda, Ümummilli lider Heydər Əliyevin ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsindəki müstəsna xidmətlərindən danışıb.

Fəlsəfə və sosial psixologiya kafedrasının müəllimi, siyasi elmlər üzrə fəlsəfə doktoru Hüseyn İbrahimov çıxışında Ulu Öndər Heydər

Əliyevin gənclər siyasətinə xüsusilə toxunmuş, bu sahədə aparılan işlər və hazırki vəziyyət haqqında qeydlər edilmişdir.

Tədbirin sonunda gənclərin sualları cavablandırılmışdır.

*DİA əməkdaşının beynəlxalq rəqəmsal sammitində iştirakı*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Dillər kafedrasının baş müəllimi, filologiya üzrə fəlsəfə doktoru Azadə Mikayılova 5-7 iyun 2025-ci il tarixlərində Moldova Respublikasının Kişinyov şəhərində Moldova Respublikasının İqtisadi İnkişaf və Rəqəmsallaşma Nazirliyi və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən təşkil olunmuş "Moldova Rəqəmsal Sammit 2025" (MDS25) tədbirində iştirak edib. "Gələcəyin rəqəmsal iqtisadiyyatını qurmaq" mövzusuna həsr olunmuş tədbir çərçivəsində Moldova Respublikasının dövlət rəsmiləri, texnologiya liderləri, investorlar və innovatorların iştirakı ilə rəqəmsal transformasiya sahəsində geniş müzakirələr aparılmışdır. 100-dən çox natiqin, 150-dən çox şirkətin və 3500-dən çox iştirakçının qatıldığı beynəlxalq sammitdə "Vətəndaşlara xidmətlərin rəqəmsallaşdırılması, açıq məlumat və şəffaflıq təşəbbüsləri", "Gələcəyə uyğun işçi qüvvəsinin hazırlanması, ömür boyu öyrənmə mədəniyyətinin təşviqi", "Kənd və şəhər arasında rəqəmsal bərabərliyin təmin edilməsi, kibertəhlükəsizlik və məlumat idarəçiliyi" və "Süni intellekt əsrində təhsil, kibertəhsil, tələbələr üçün qlobal imkanlar" kimi müxtəlif istiqamətləri əhatə edən panel müzakirələr, interaktiv seminarlar və praktik məşğələlər təşkil olunmuşdur.

Bundan əlavə, sammitdə dərs planlaması və tələbəyönümlü interaktiv təqdimatlar üçün nəzərdə tutulan süni intellektə əsaslanan innovativ alətlər və yeni tətbiqlər nümayiş etdirilmişdir.

*Dövlət İdarəçilik Akademiyasının Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyovun "Yeni sistemlər, müasir xidmətlər və innovativ həllər" mövzusunda beynəlxalq İnsan Resursları Forumunda iştirakı*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) Elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Elvin Əzizbəyov 20 iyun 2025-ci il tarixində Qazaxıstan Respublikasının Dövlət Qulluğu Məsələləri üzrə Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə Astana şəhərində keçirilən "Yeni sistemlər, müasir xidmətlər və innovativ həllər" mövzusunda beynəlxalq İnsan Resursları Forumunda iştirak edib.

Forumun əsas məqsədi dövlət sektorunda insan resurslarının idarə edilməsində süni intellektin inteqrasiyası, verilənlərə əsaslanan və proaktiv İnsan Resursları strategiyalarının inkişafı, dövlət qulluqçularının peşəkarlığının artırılması istiqamətində yeni yanaşmaların tətbiqi və təcrübə mübadiləsinin təşkili olmuşdur. Forumda Qazaxıstan Respublikasının və müxtəlif ölkələrin dövlət qulluğu təşkilatlarının rəhbər şəxsləri, insan resurslarının idarə edilməsi üzrə mütəxəssislər, eləcə də Dövlət İdarəçilik Akademiyalarının nümayəndələri iştirak etmişlər.




Forum çərçivəsində Qazaxıstan Respublikasının Elm və Ali Təhsil Nazirinin moderatorluğu ilə keçirilən interaktiv paneldə Elvin Əzizbəyov “İnsan resurslarının idarə edilməsində verilənlər analitikasının rolu” mövzusunda məruzə etmiş və iştirakçıların suallarını cavablandırmışdır.

Forum haqqında ətraflı məlumat üçün aşağıdakı linkə keçid edə bilərsiniz:

https://govhrforum.apa.kz/en

### *“Andraqogika: Böyüklər üçün Effektiv Tədris Yanaşmaları” mövzusunda təlim*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tədrisin keyfiyyətinin monitorinqi və məzunlarla iş şöbəsi tərəfindən müəllimlər üçün “Andraqogika: böyüklər üçün effektiv tədris yanaşmaları” mövzusunda xüsusi təlim təşkil



edilmişdir. Təlim zamanı rektor, akademik Urxan Ələkbərov qeyd edib ki, təhsil sahəsində müasir yanaşmalar və prinsiplər son dərəcə vacib məsələlərdir.Hər bir müəllim tədris prosesində bu yanaşmalardan istifadə edərək təhsilin keyfiyyətini artırmaq və tələbələrin daha effektiv öyrənməsini təmin etməlidir. Bu, təhsilin inkişafı və müasir tələblərə cavab verməsi baxımından mühüm addımdır. Təlimdə böyüklərin təhsilində effektiv yanaşmalar, müasir tədris metodları, təlim prosesində motivasiya və interaktiv metodlardan istifadə kimi mühüm mövzular üzrə bilik və təcrübələr müzakirə edilmişdir. Təlim zamanı kafedralarının əməkdaşları praktiki məşğələlər və müzakirələrdə çox fəal iştirak etmişdirlər.

## *23 iyun – Dövlət qulluqçularının Peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında konfrans*

23 iyun – Dövlət qulluqçularının Peşə bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında konfrans keçirilib. Tədbirdə dövlət qulluğunun inkişafında peşəkar kadrların rolu, dövlət qulluqçularının davamlı təlim və ixtisasartırma proseslərinə cəlb olunmasının əhəmiyyəti xüsusi vurğulanıb. Tədbir iştirakçıları arasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti, müxtəlif dövlət qurumlarının nümayəndələri və Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantları iştirak ediblər.

Tədbirin açılışında çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov dövlət qulluqçularını 23 iyun – Dövlət qulluqçularının Peşə bayramı münasibətilə təbrik edib. O, dövlət qulluqçularının ölkənin idarə olunmasında, ictimai xidmətlərin göstərilməsində və vətəndaş məmnunluğunun təmin olunmasında oynadıqları mühüm rolu xüsusi qeyd edib. Akademik vurğulayıb ki, dövlət qulluğunun inkişafı və bu sahədə çalışan kadrların peşəkarlığının artırılması Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların əsas istiqamətlərindən biridir. O əlavə edib ki, Dövlət İdarəçilik Akademiyası müasir təlim proqramları, innovativ metodlar və strateji yanaşmalar əsasında dövlət qulluqçularının bilik və bacarıqlarının artırılması istiqamətində səylərini davam etdirir. Akademik çıxışının sonunda peşəkar və vətənpərvər dövlət qulluqçusu olmağın həm məsuliyyət, həm də şərəf olduğunu qeyd edib.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müdiri, professor Hikmət Məmmədov çıxış edib. O bildirib ki, dövlət qulluqçularının bilik və bacarıqlarının artırılması, onların müasir idarəetmə prinsiplərinə uyğun təlimlərə cəlb olunması dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Professor qeyd edib ki, qlobal və regional çağırışlar fonunda çevik və peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılması prioritet məsələlərdən biridir. O, həmçinin vurğulayıb ki, dövlət qulluğu sahəsində islahatların uğurla davam etdirilməsi insan resurslarının inkişafı və effektiv kadr siyasəti ilə birbaşa bağlıdır.

Tədbirdə "Rəhbər Dövlət İdarəçiliyi Kadrlarının İxtisasının Artırılması İnstitutu"-nun direktoru, professor Gülnarə Qurbanova da çıxış edərək bildirib ki, institut dövlət qulluqçularının Peşə bayramı ərəfəsində onların peşəkar inkişafını dəstəkləmək məqsədilə genişmiqyaslı təlim və ixtisasartırma proqramları həyata keçirir. O qeyd edib ki, institut 2019–2025-ci illər üçün Dövlət Qulluğu və 2020-2025-ci illər üçün Məşğulluq Strategiyaları, eləcə də Naxçıvanın sosial-iqtisadi



inkişaf proqramı çərçivəsində, minlərlə dövlət qulluqçusunu əhatə edən ənənəvi, onlayn və səyyar təlimlər təşkil etmişdir. Hazırda 54 mövzunu əhatə edən bu proqramlara innovativ idarəçilik, etik davranış, informasiya-kommunikasiya texnologiyaları (İKT), liderlik və iqlim dəyişiklikləri kimi aktual sahələr daxildir. Professor Gülnarə Qurbanova sonda bildirmişdir ki, təlimlərdə Milli Məclis deputatları, nazirlik və agentlik nümayəndələri də fəal iştirak edir və bu, dövlət qulluqçularının bilik və bacarıqlarının artırılmasına önəmli töhfə verir.

Sonra "Rəhbər kadrların yenidən hazırlanması" fakültəsinin dekanı Ülkər Şəfiyeva çıxış edərək vurğulayıb ki, bu gün Akademiyanın məzunları yalnız bir təhsil mərhələsini deyil, həm də dövlət idarəçiliyində məsuliyyət və etimadla dolu yeni bir mərhələyə qədəm qoyurlar. O, fakültənin əsas məqsədinin təkcə nəzəri biliklərin ötürülməsi deyil, eyni zamanda strateji düşüncə, analitik yanaşma və liderlik keyfiyyətlərinin formalaşdırılması olduğunu qeyd edib. Dosent bildirib ki, tədris proqramları real dövlət idarəetmə təcrübəsinə əsaslanır, yerli və beynəlxalq təcrübələrin inteqrasiyası ilə zənginləşdirilərək iştirakçıların dəyişən mühitə çevik uyğunlaşma bacarığını inkişaf etdirməyə yönəlib. Ülkər Şəfiyeva əlavə edib ki, məzunlar arasında artıq mərkəzi və yerli icra hakimiyyəti orqanlarında uğurla fəaliyyət göstərən, rəhbər vəzifələrə yüksələn peşəkar kadrlar mövcuddur ki, bu da Akademiyada həyata keçirilən keyfiyyətli təlimin nəticəsidir. O, dövlət qulluğu sahəsində yüksək ixtisaslı kadrların hazırlanmasının ölkəmizin dayanıqlı və şəffaf idarəçilik modelinin möhkəmləndirilməsində əhəmiyyətini vurğulayaraq, məzunları təbrik edib və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirin sonunda Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Hüquq mühafizə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rəhbər kadrların yenidən hazırlanması fakültəsinin magistrantı Adil Həsənli "Dövlət qulluğu: şəffaflıq, məsuliyyət və gələcəyə xidmət" mövzusunda öz araşdırmalarını və təəssüratlarını iştirakçılarla bölüşdü, həmçinin müdafiəsini uğurla tamamlayan qrup yoldaşlarını təbrik etdi və professor-müəllim heyəti başda olmaqla bütün akademik icmaya təşəkkürünü bildirdi. O, Akademiyada aldığı təhsilin şəxsi və peşəkar inkişafında mühüm rol oynadığını, qazandığı bilik və bacarıqların onun üçün nə qədər dəyərli olduğunu xüsusilə vurğuladı.Qeyd olunmalıdır ki, respublika üzrə dövlət qulluğuna qəbul üzrə Dövlət İdarəçilik Akademiyası məzunları ilk sıralarda yer alırlar

və bu təsadüfi deyil. İdarəçilik Akademiyasında təhsil alan tələbələr qəbul olduqları ilk gündən başlayaraq dövlət siyasəti, dövlət qulluqçusu olmağın əhəmiyyəti, innovativ idarəetmə, dövlət idarəçiliyi kimi vacib mövzuları mənimsəyirlər.

***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında mərkəzi icra hakimiyyəti orqanlarının təlim mərkəzlərinin əməkdaşları üçün təlim***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında mərkəzi icra hakimiyyəti orqanlarının təlim mərkəzlərinin əməkdaşları üçün növbəti təlim keçirilib. Tədbir Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 2023–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı və 13 fevral 2020-ci il tarixli, 1816 nömrəli Sərəncamla təsdiqlənmiş "Məşğulluq Strategiyasının həyata keçirilməsinə dair 2020–2025-ci illər üçün Tədbirlər Planı"nın 2.8-ci bəndinə uyğun olaraq təşkil olunub.

Təlimdə Daxili İşlər Nazirliyinin, Baş Prokurorluğun, Dövlət Miqrasiya Xidmətinin və ASAN Xidmətin təlim mərkəzlərinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Prezident İlham Əliyevin innovativ dövlət idarəçilik siyasəti: Suverenliyə aparan yol" mövzusunda mühazirə ilə çıxış edib. Mühazirədə Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət idarəçiliyində tətbiq olunan innovativ islahatlar, şəffaflıq, səmərəlilik və vətəndaş məmnunluğuna əsaslanan yanaşmalar ətraflı təqdim olunub. Qeyd edilib ki, həyata keçirilən islahatlar ölkənin müstəqilliyinin qorunması və suverenliyinin gücləndirilməsinə xidmət edir, idarəetmə sisteminin təkmilləşdirilməsinə və Azərbaycanın beynəlxalq nüfuzunun artmasına zəmin yaradır.

Akademik U.Ələkbərov vurğulayıb ki, bu gün ümummilli lider Heydər Əliyev tərəfindən təməli qoyulmuş dövlətçilik və idarəçilik kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və yeni mərhələyə yüksəldilir. Həmçinin qeyd olunub ki, innovativ idarəetmə texnologiyalarının tətbiqi nəticəsində ölkə bir sıra strateji nailiyyətlər əldə edib.

Tədbir çərçivəsində vitse-prezidentlik institutunun yaradılması və Mehriban Əliyevanın bu vəzifəyə təyin olunmasının önəmi qeyd olunub. Rektor qeyd edib ki, Mehriban Əliyeva vitse-prezident kimi humanitar, sosial və mədəni sahələrdə geniş fəaliyyət göstərir, dövlət siyasətinin həyata keçirilməsində mühüm rol oynamaqdadır. Onun təşəbbüsləri təh-sil, səhiyyə, mədəniyyət və beynəlxalq humanitar əlaqələrin inkişafına mühüm töhfə vermiş, dövlət idarəçiliyində çeviklik və səmərəliliyin artırılmasına şərait yaratmışdır.

Təlim zamanı rektor, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın ekoloji sivilizasiyaya keçid, inklüziv cəmiyyətin qurulması və davamlı inkişafın təşviqi sahəsində həyata keçirdiyi layihələr barədə qeydlər aparıb. Bildirilib ki, Leyla Əliyevanın təşəbbüsləri ekoloji dayanıqlılıq, yaşıl iqtisadiyyat və insan hüquqları prinsiplərinin vəhdətini təmin etməklə cəmiyyətin davamlı inkişafına töhfə verir.

Sonda vurğulanıb ki, bu kimi təşəbbüslər ölkənin iqtisadi və sosial dayanıqlığını artırmaqla yanaşı, milli müstəqillik və suverenliyin qorunmasına da xidmət edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasəti Azərbaycanın gələcək inkişaf strategiyasının əsas dayağını təşkil edir.

Təlim diskussiya formatında davam edib və uğurla başa çatıb.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................33

Türkiyəyə işgüzar səfər.....................................................................................33
Çin Xalq Respublikasına dövlət səfəri.............................................................35
Şuşa, Xocalı və Ağdama səfər..........................................................................42
Albaniyaya işgüzar səfər...................................................................................51
Macarıstana işgüzar səfər..................................................................................52
İsmayıllı və Laçına səfər....................................................................................59
Türkiyəyə işgüzar səfər......................................................................................75
Yevlax, Goranboy və Mingəçevirə səfər............................................................79

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları və müsahibələri**.........................................................................................89

Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarında İlham Əliyevin nitqi ..........................89

İlham Əliyev Çinin Sinxua agentliyinə müsahibə verib .............................................................91

İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibə verib ...............................................94

Azərbaycan-İran biznes forumunda İlham Əliyevin nitqi ...........................................................98

İlham Əliyev “Vietnam News Agency” agentliyinə müsahibə verib ...........................................99

30-cu “Caspian Oil and Gas”, 13-cü “Caspian Power” və 30-cu “Baku Energy Forum”un rəsmi açılış mərasimində İlham Əliyevin nitqi ..........................................................................101

**DAVAMLI İNKİŞAF SİYASƏTİ**

**Urxan Ələkbərov.** Davamlı inklüziv inkişaf və onun ölçülməsi ............................................103
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.001

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Fuad Hümbətov.** Ekoloji diplomatiyanın institusional formalaşması
beynəlxalq münasibətlər kontekstində ........................................................................115
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.005

**İrina Kunina.** Dövlət beynəlxalq münasibətlər sisteminin əsas elementi kimi ........................133
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.007

**HÜQUQ**

**Mehriban Babaxanova.** Vətəndaş cəmiyyəti haqqında klassik konsepsiyalar ........................143
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.010

**FƏLSƏFƏ**

**Лейли Гулиева.** Культурные ценности как главный индикатор прогресса........................153
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.012

**İQTİSADİYYAT**

**Xatirə Hüseynova.** Davamlı inkişaf kontekstində regionun sosial-iqtisadi aspektləri.............163
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.015

**RƏQƏMSAL DÖVLƏT İDARƏÇİLİYİ VƏ İNTELLEKTUAL SİSTEMLƏR**

**Sabira Baghirova, Olga Mukhtarova.** Rationale of Insurance Rates for Innovative
Insurance Products ..........................................................................................................177
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.017

**Ramal Cabbarov, Fatma Çandirova.** Biznesin informasiya təhlükəsizliyi:
rəqəmsal təhdidlər və müdafiə metodları ........................................................................185
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.019

**Zümrüd Süleymanova, Şəfəq Mustafayeva.** İnformasiya texnologiyalarının sosial
münasibətlərdə rolu............................................................................................................191
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.020

## G Ə N C T Ə D Q İ Q A T Ç I L A R


**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Bəxtiyar Nəcəfli.** Qərbi Avropa ölkələrində miqrant böhranının islamofobiyanı təbliğ edən konspiroloji nəzəriyyələrin yaranmasına təsiri ........................................................................199
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.022

**SİYASİ İNSTİTUTLAR VƏ SİSTEMLƏR**

**Джавид Юсубов.** Анализ структурных и функциональных характеристик политической системы ..........................................................................................................207
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.025

**DAVAMLI İNKİŞAF SİYASƏTİ**

**Murad Həsənxanlı.** Davamlı inkişafın təmin olunmasında gənclərin rolu: subyektlik və iştirakçılıq ..........................................................................................................217
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.027

**SOSİOLOGİYA**

**Şirin Məhəmməd.** Müharibə veteranlarının sosial reabilitasiyası və iqtisadi təminatının təhlili ..........................................................................................................227
DOI: https://doi.org/10.30546/2309-1347.90.2025.030

**Dövlət İdarəçilik Akademiyasında** ........................................................................239

**«Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası**

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,0 (bir) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150-200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

**Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»**

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author’s (s’) academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,0 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets

after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с междустрочным интервалом - 1,5 (одинарный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5-10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127-128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2025, №2(90)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini
əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov,*
*siyasi elmlər doktoru, professor E.Əhmədov*,
*siyasi elmlər üzrə fəlsəfə doktoru Ü.Mustafayev*
və baş müəllim *F.Şammadov*
AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru,*
*dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*

*Elmi jurnalın Rəqəmsal Obyekt İdentifikatorları (DOI)*
*"Qlobal Əməkdaşlıq və Analitik Araşdırmalar Mərkəzi" İB-yi tərəfindən təmin edilir.*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**"Aspoliqraf LTD" MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur
Sifariş 85. Tiraj 500.

# Journal of Public Administration:
# Theory and Practice

***Scientific and theoretical journal***

**2025, №2(90)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*U.Mustafayev, Ph.D. in political sciences*
and *F.Shammadov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., Associate professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*

*The Digital Object Identifiers (DOIs) of the scientific journal are provided*
*by the "Center for Global Cooperation and Analytical Research"*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*( The Academy of Public Administration under the President of the Republic of Azerbaijan)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**“Aspoliqraf LTD”**
Order 85. Number of copies printed modern stage are considered.